***Əyyub Abasov***

# ZƏNGƏZUR

***Roman***

***İkinci kitab***

# Birinci fəsil

Karo, Armenakın və onun ailəsinin başına açdığı fəlakətdən sonra Gorusa qayıtmamışdı. Bir tərəfdən, Qrikorun qatilini tapmamışdı, digər tərəfdən də Nvard giyəvini gözündən kənar qoymağa razı olmurdu. Qorxurdu ki, Karo uzun müddət evdən aralanar, Siranuşdan soyuyar, axırda qızdan tamam əl çəkər. Anadan olsa idi, qızını nişan gününün səhəri köçürərdi. Onun bu istəyinin qarşısını hər zaman Siranuş alırdı. Toy haqqında söhbət düşəndə, etiraz edir, «mən könülsüz tikəni zorla yemək istəmirəm, ana!» deyə ağlayırdı.

Karo özü də, Siranuşla evlənmək istəmirdi. Çünki, İravanda nişanlısı vardı. Ancaq bu barədə heç kəsə bir söz söyləməmişdi. Nişanlısından uzaqda, qürbət yerdə yaşadığından, Siranuş kimi lətif bir qızdan istifadə eləmək, nəfsini öldürmək fikrində idi. Tiflisdə oxuduğu və xidmət etdiyi zaman o çox qızla gəzmiş, almaq adıyla istifadə edib buraxmışdı.

Təzə xalçalarla döşənmiş təmiz, isti otaqda oturmuş, bayırın qarını, şaxtasını hiss etməyən Karo cibindən nişanlısı Arpikin şəklini çıxardıb baxdı. Onu Siranuşla müqayisə etdi. Siranuş Karoya Arpikdən daha gözəl göründü. Bir an xəyalı dolandı… Öz-özünə danışmağa başladı: «Yox, yox, Arpikdən əl çəkə bilmərəm. Dayısı parlament üzvüdür. Axı, məni Zəngəzurun general-qubernatoru təyin etdirən odur. Bacısı qızına dönüklük eləsəm, tükümü diddirər. Vəzifəmi əlimdən aldırar…».

Karo şəkli cibinə qoydu. Stolun siyirtməsindən bir qovluq çıxartdı. Yazı makinasında yazılmış bir vərəq kağızı onun içindən götürüb oxumağa başladı.

Daxili İşlər Nazirliyindən Zəngəzur general-qubernatoruna göndərilmiş məxfi kağızda yazılmışdı:

«…Saak Mravyan Sisyanın Əngələvid kəndindəndir. Savadsızdır. Anadan olduğu tarixi özü də bilmir. Həkim təqribi olaraq ona 55-56 yaş vermişdir. Bu yoxsul kəndli bolşeviklərin təsiri altına düşərək, mülkədarların üzünə ağ olmuşdur… Məcburiyyət və sıxışdırma nəticəsində günahını boynuna almışdır… Saak qorxaqdır. Həbsxana şəraitinə, fiziki cəzaya dözümsüzdür. Saakı, böyük cinayəti olmadığı üçün buraxdıq. Ancaq bu qorxaq adamdan istifadə etmək lazımdır…».

Karo vərəqi o biri üzünə çevirdi… Bu vaxt keşiş içəri girdi. Salam verib oturdu. Karo kağızı qovluğa qoydu. Mesropun üzünə dik baxıb soruşdu:

- Nə vaxt gəldin? İşlər nə haldadır?

- Bu gün gəlmişəm. Bir neçə kənd məktəblərini yoxladım. Vəziyyət heç yaxşı deyil. Kəndlilər uşaqlarını məktəbə qoymaq istəmirlər.

- Nə üçün? – Karo başının hərəkətilə saçlarını alnından geri atdı. – Sən ki, erməni məktəbləri açdırmaq üçün dəridən çıxırdın. Bəs indi millət niyə uşağını məktəbə qoymur?

- Çünki biz məktəbləri lazımi şeylərlə təchiz edə bilməmişik. Nikolaydan qalmış skamyalar, yazı taxtaları tələf edilmişdir. Dərs kitabları, dəftər, qələm tapılmır. Odun, kərmə yoxdur. Ayaqyalın, çılın-çılpaq uşaqlar siniflərdə soyuqdan otura bilmirlər. Vəziyyət belədir…

- Kəndliləri məcbur etmək lazımdır ki, məktəbləri odunla təmin etsinlər. Əgər boyun qaçırsalar, bu qış məktəbləri bağlamalı olacayıq.

- Hamını hər şeyə məcbur eləmək olmur…

- İndi nə eləyək? – Karo səsini bir qədər qaldırdı. – Sən də şikayətə başladın, işlər düzəldi… Onsuz da kəndlilər mənim zəhləmi tökürlər. Gündə neçəsi şikayətə gəlir. Biri deyir, külfətim acından batır, hökumət mənə taxıl versin, biri deyir, camaat duzsuzluqdan korluq çəkir, mal-heyvan qırılır. Daha başa düşmürlər ki, Naxçıvanla əlaqəmiz kəsilib, duz gətirə bilmirik. Nə isə, yeri gəldikcə camaatı başa salmaq lazımdır ki, hökumət onların qeydinə qalır. Vaxt olacaq ki, hamıya torpaq, çörək, paltar verəcək. Demək lazımdır ki, Karo gecə-gündüz millətin dərdini çəkir. Başa düşdün, keşiş ağa? Əhalini əldə saxlamaq üçün hər şeydən istifadə etmək lazımdır. Yoxsa, şikayətdən, inilti-sızıltıdan bir şey çıxmaz.

Məktəblərin vəziyyətini yaxşılaşdırmaq üçün heç bir kömək almayan Mesrop, dinməz-söyləməz durub getdi.

Karo Saak haqqında aldığı kağızın dalını oxumaq istədi. Lakin Baqratın içəri girməsi ona mane oldu.

Baqrat:

- Karocan, qaynanan səni gözləyir axı! – dedi. – Yaxşı süfrə hazırlayıb. Toyuq qızartması, yanında da Qəmərlinin qırmızı gözü. Dur gedək.

- Hələ yeməyə iştaham yoxdur. Otur. Sənə sözüm var.

- Necə yoxdur? – Baqrat oturdu. – Gün-günorta olub, səhərdən yediyindir. Yemək lazımdır, Karocan, yemək. Hələ ki, Allaha şükür, varımızdır.

- Düzü, sizə əziyyət verdiyimə xəcalət çəkirəm. Məni əlimi cibimə atmağa qoymursunuz.

- Elə sözləri danışma. Samvel ya sən, bizim üçün birdir. Giyəv də adama oğuldur. Dur, dur gedək.

Karo dillənmədi.

- Karocan, kefsiz deyilsən ki?

- Kefsiz deyiləm, fikirliyəm.

- Başa düşürəm, bu boyda mahalın general-nahankapeti[1] fikirsiz olmaz. Cavan olsan da, hökumət adamısan, millətin dərdini sən çəkirsən… Amma deyirlər ki, el üçün ağlayan göz kor qalar. Qərəz, dur gedək.

- Mənim yanıma indi adam gələcək, sən get, mən bir azdan gələrəm.

- Çox yubanma, xörək soyuyar. – Baqrat getmək üçün ayağa durdu.

- Baqrat ağa, bir dəqiqə dayan! – deyə Karo yerindən qalxıb, onunla üzbəüz dayandı.

- Axı, Qrikorun arvadı məni çox narahat edir. Dünən də yanıma gəlmişdi.

- Niyə? Onun səninlə nə işi var? Həyasızın biridir, üz vermə.

- Neyləyim, mən qulluq adamıyam. O arvad ərini öldürəni tapmağı məndən tələb edir. Deyir, tapmasan İravana şikayət yazacağam. Bəlkə, bu işdə mənə, yəni hökumətə sən də bir kömək eləyə biləsən? Ağlın nə kəsir, Qrikoru öldürən kim olar?

---

[1] General-nahankapeti - General-qubernator (ermənicə).

Baqrat gözlənilmədən verilən suallara nə cavab verəcəyini bilmədi. Cinayət işlər görməkdə təcrübəsiz olan Baqrat bir az qızardı. Bir-iki addım geri çəkilib, dedi:

- Nə deyim, vallah. Dünyada anasının əmcəyini kəsən çoxdur… - Karo onun üzündə, gözlərində cinayət izləri görməsin deyə, Baqrat başını aşağı saldı. – Hər halda bu iş yenə o bolşeviklərin işi olar.

- Bolşeviklərin törətdiyi işlər başqadır. Hər şeyi onların üstünə yıxmaq bizi yolumuzdan azdırar. Onların tək-tək adamları öldürməklə işləri yoxdur…

Hər ikisi susdu. Baqrat otaqdan tez çıxmaq istədi. Karo dilləndi:

- Baqrat ağa, Şələyə Qrikorla bir yerdə gedib, bir yerdə də qayıtmısınız, elədirmi?

Baqrat pozuldu.

- Bunu kim deyir?

- Eşitmişəm ki, Şələkdən bir yerdə çıxmısınız. Necə oldu ki, sən kəndə tək gəldin?

Karo sualına cavab almamış, Karpov içəri girdi.

Karo:

- Get, Baqrat ağa! – dedi, - sonra danışarıq.

Ürəyinə min şübhə dolmuş Baqrat getdi. Karoyla Karpov oturdu.

- Kəşfiyyat rəisi təzə xəbər gətiribmi? – deyə Karo soruşdu.

- Kənddə danışdırmadığım bir adam qalmadı. Heç kəs Qrikorun qatili kim olduğunu deyə bilmədi. Cinayətkarı aşkara çıxartmaqda, düzü, çətinlik çəkirəm.

- Hər necə olursa-olsun, cinayətkar tapılmalıdır. Yoxsa, camaat arasında nüfuzumuzu itirərik. Bizə inanmazlar. Ölkədə hərc-mərclik yaranar, ölüb-öldürmək həddini aşar. Bildinmi?

- Cənab general-qubernator düz buyurur. Mən bütün qüvvəmi ölkədə asayişin bərpa olmasına sərf edirəm. Xəfiyyələrə möhkəm tapşırıq vermişəm ki, qulaqları camaatın ağzında olsun. Hökumət əleyhinə danışanları dərhal mənə, ya sənə xəbər versinlər. Samveli qəsdən Şələkdə qoymuşam. Bəlkə, ondan-bundan Qrikorun qatilini öyrənə bildi.

- Bəs sənin gümanın kimə gedir?

- Hələlik heç kimə.

- Baqratı necə adam tanıyırsan?

Karpov təəccüblə Karonun üzünə baxdı.

- Baqratı? O ki, sənin qaynatan, mənim də köhnə dostumdur… Mən Baqrat ağanı pristav vaxtımdan hörmətli bir adam kimi tanıyıram. Mənə elə gəlir ki, o, erməni hökumətinə sədaqətli bir adamdır. Heç ağlım kəsmir ki, Baqrat cinayət eləyə…

- Zənnində yanılmamısan, cənab Karpov. – Karo gülə-gülə əlini Timofey Timofeyeviçin çiyninə vurdu. – Baqrat ağa bizim arxamız, köməyimizdir. Mən səni yoxlayırdım. Nə isə, xahiş edirəm öz işini hər yerdə möhkəm tutasan. Mənimlə başqa işin yoxdursa gedə bilərsən.

- Bir məsləhətim var. Daha doğrusu, səni bir məsələdən xəbərdar etmək istəyirəm. Agent məlumatlarından və xəfiyyələrin şifahi söylədiklərindən məlum olur ki, bəzi kəndlilər narazıdırlar…

- Nədən? Kimdən? – deyə Karo birdən qışqırdı.

Karpov Karonun əksinə olaraq, alçaqdan cavab verdi:

- Hökumətin gördüyü işlərdən bəziləri narazıdır. Deyirlər, müsəlman kəndlərini dağıtmaq ermənilərin xeyrinə deyil: ehtiyacımız olanda müsəlmanlardan taxıl alırdıq, ot, saman gətirirdik. Allah baislərin evini yıxsın ki…

Karo onun sözünü kəsdi:

- Bu mənim üçün yeni xəbər deyil. İt hürər, karvan keçər. Biz Gorus və Kafan ətrafındakı müsəlman kəndlərinə də əl qatacayıq…

- Demək, belə sözlərə, danışıqlara əhəmiyyət verməк lazım deyil, eləmi?

Qarnının yoğunluğundan güclə nəfəs alan Timofey Timofeyeviçə Karo əyri-əyri baxdı.

- Mən sənə yenidən vəzifə öyrətməyəcəyəm. Avam camaat hər şey danışa bilər. Hamını qırmaq, həbs etmək olmaz. Kəndlilərin ağzına dil atanları, yoldan çıxardanları tapmaq lazımdır. Anladınmı. Bolşeviklərin kökünü kəsmək lazımdır. Bütün qüvvəni, bacarığını buna ver. Get, mənim işim var.

Karpov bir qədər pərt getdi.

Karo Saak barədə yazılmış kağızı sonra qədər oxudu. Gülümsünə-gülümsünə qovluğa qoydu. Başını qapıdan bayıra çıxardıb Aşotu səslədi. Ona, gedib Saakı çağırmağı tapşırdı.

- Giyəvimiz niyə gəlmir, a kişi? – deyə, əlində təzə yorğan sırıyan Nvard ərinə müraciət elədi. – Xörək ocağın üstə qaldı… Bəlkə, bir də dalınca gedəsən…

Baqrat dillənmədi.

- Sənə nə olub, a kişi? Karonun yanından gələndən kefin pozulub.

- Onun bugünkü hərəkəti heç xoşuma gəlmədi, arvad. Üzünü bozartdı. Mənimlə çox sərt danışdı.

- Eh, hər sözü söz eləmə, sən atanın goru, hökumət adamıdır. Gündə yanına şikayətə gəlirlər, zəhləsini tökürlər, Qanı qaralır, yorulur.

- Yox, arvad, mən onun danışığından başqa şey anladım. Sən ağzından bir söz qaçırıb eləməmisən ki?

- Nə barədə?

- Qrikorun ölümü barədə.

- Necə bəyəm?

- Heç…

- Yayını atıb oxunu gizlətmə. O, sənə nə dedi?

- Şələyə Qrikorla bir yerdə gedib qayıtmağımı Karo hardan bilir? Bəlkə, sənin axmaq qızın deyib?

- Siranuş onunla təklikdə danışmır. Deyir, iti görüm, qurdu görüm, Karonu görməyim… Yaxşı, a kişi, Qrikoru öldürdüyünü Karo biləndə nə olar? O yekəlikdə hökumət adamı öz qaynatasını da saxlaya bilməyəcək? Səni dama basacaq? Biz onunla təzə qohum olmuşuq. Qızı köçürəndən sonra, olacaq canımız, ciyərimiz. Amma, qızın xəstəliyi mənim ovqatımı təlx eləyib…

- Bu barədə Siranuşa bir söz demə.

- Nə deyəcəyəm ki. Ancaq, elə elə ki, qızı tez köçürək.

Baqrat hirsləndi:

- Nə eləyəcəyəm? Görmürsən qızın ölmüş ipə-sapa yatmır! Zorla nişanladığımız bəs deyil, deyirsən qolundan tutub Karonun qoynuna da salım?

Nvard ərinin hirsləndiyini görüb bir an dillənmədi. Lakin özünü saxlaya bilməyib dedi:

- Evi dağılmamışın oğlu, heç bilirsən qızı niyə tez köçürmək istəyirəm? Nə təhər şeydirsə, Siranuş Armenakın oğlunu ürəyindən çıxarda bilmir. Mən fikir vermişəm, qız gecələr yuxusunda da ondan danışır. Bilmirəm, bəlkə, qız, elə o gedə öləndən sonra dərddən, fikirdən yorğan-döşəyə düşüb?

- Suren ölməyib, arvad.

- Necə? Suren ölməyib?!

- Hə. Karo onu bərk axtarır. Yəqin Siranuş bunu bilir. Onun üçün də…

Karo gəldi. Baqratın sözü yarımçıq qaldı.

- O evdən bu evə gəlməyin nə uzun çəkdi, başına dönüm. – Nvard yorğanı yığışdırıb bir tərəfə qoydu.

- Keç otur. – Baqrat Karoya yanında yer verdi. Hər ikisi yanaşı oturdu.

Karo yorğana işarə edərək soruşdu:

- O nədir, ay xala?

- Yorğandır, qadan alım.

- Yorğan? – Karo güldü. – Baqrat ağa çox kasıbdır, hə? Nə altına salmağa döşəyi var, nə üstünə örtməyə yorğanı.

- Hə dayna, ağrın ürəyimə, Baqrat yeddi yetimlə bir dərədə qalıb… - deyə Nvard da Karonun zarafatına zarafatla cavab verdi. – Vallah, mən bu kişiyə yorğan nədir, heç bir cib dəsmalı da tikmərəm. Ha… ha… ha…

Nvardın gülüşü otağı götürdü

- Sənin bu qaynanan daha mənə məhəl qoymur. Deyir, bir oğlum var, ikinci oğlum da giyəvimdir. Bundan sonra, hər şeyi onlar üçün eləyəcəyəm. Onların qabaqda xeyir işləri var.

- Hə, başa düşdüm… - Karo üzünə tökülmüş saçlarını geri verdi, - Nvard xala Samvelin toyuna yorğan-döşək hazırlayır. Lap yaxşı olar. Ananın borcudur.

- Belə açıq danışmasaydın, mən də açıq deməyəcəkdim. Təzə yorğanı Samvelə yox, Siranuşla sənə qayırıram, ağrın ürəyimə. Vallah, sizə bir ev düzəldəcəyəm ki, padşahda da olmasın.

Karo qəhqəhə çəkdi:

- Mən ev istəmirəm, xala… Zəhmət çəkmə. Biz bu gün burdayıq, sabah kim bilir harda.

- Elə danışıb ürəyimi sıxma, oğul. Əvvəldən demişəm ki, mən səni də, qızımı da gözümdən kənar qoymayacağam.

- Yaxşı, arvad, yaxşı, dur çörək gətir.

Nvard gedib çörək-xörək gətirdi.

- O balaca tuluğu, buynuzları da bura ver, arvad.

Nvard hər şeyi hazır elədi.

O biri evdən Siranuşun «Ana! Ana!» deyən səsi eşidildi. Nvard getdi.

Ağzının dövrəsinə gümüş halqa salınmış uzun, əyri buynuzları Baqrat şərabla doldurdu…

…Karo kef havasına gah oxuyur, gah qışqırır, gah o yandan, bu yandan danışırdı. O, əlindən yerə qoymadığı buynuzu yuxarı qaldırıb dedi:

- Bunu da içirəm sənin sağlığına! Baqrat ağa, qorxma, nə qədər ki, mən varam, sənin gözünü püləyən olmaz… Hə, istəyirsən günü bu gün, lap indicə Şükarın, Məliklinin, Pulkəndin, dağıdılmış müsəlman kəndlərinin hamısının torpağını alıb sənə verim. Mən Karoyam, mən Zəngəzurun general-qubernatoruyam. Bir sözüm iki ola bilməz!..

- Elədir, elədir, mənim giyəvim mahalın kilidi, açarıdır. İçək! – Baqrat buynuzu başına çəkdi.

Karo içməyib, danışığına davam etdi:

- Mən Karoyam! Mən general-qubernatoram. Heç bir cinayətkar başını məndən gizlədə bilməz. Tapacağam, Qrikorun qatilini göyün yeddi qatında, yerin dibində olsa da, tapacağam! Onu iti öldürən kimi, özüm öldürəcəyəm. Mən hökumətəm…

Karo əlini tapançasına atmaq üçün buynuzu yerə qoydu, şərab tökülüb süfrəni batırdı. Baqrat onu tapançanı çıxarmağa qoymadı.

- Sakit ol, bala! – dedi. – Qrikoru öldürəni özüm tapıb sənə verəcəyəm.

- Ver, ver! – deyə Karo sərxoşluqdan axan gözlərini Baqratın miss kimi qızarmış üzünə dikdi. – O qatil bəlkə mənim gözümün qabağındadır, görmürəm?!

Nə qədər içsə də huşunu itirməyən, özünü-sözünü bilən Baqratın kefi yenə pozuldu. Fikrinə cürbəcür şeylər gəldi: «Bəlkə, Karo bir sudur anlayıb? Özünü sərxoşluğa vurub məndən söz almaq istəyir? Yoxsa, yaxşıca yeyib-içdiyimiz yerdə Qrikor məsələsini niyə ortalığa atırdı?!»

- Yox, Baqrat ağa, mən hər şeyi görürəm: səni də, evi də, bax, bu əyri öküz buynuzunu da… Mən Karoyam, mən general-qubernatoram!.. Sən kimsən? De, kimsən? Dillən!

Baqrat dillənmədi. Onu sakit eləməyə çalışdı.

Aşot içəri girib, Saakı gətirdiyini söylədi. Karo dedi ki, onu içəri buraxsın. Aşot çıxdı, dərhal Saakla bərabər qayıtdı.

Saak salam verib, Aşotun yanında, qapının ağzında dayandı. Karo yerindən qalxdı, səndələyə-səndələyə gedib Saakın qabağında durdu.

- Sən kimsən?

Bu sual Saaka qəribə gəldisə də, ciddi cavab verdi:

- Mən Saakam, çağırtdırmısan, gəlmişəm.

- Yox, yox, özün özünü tanımırsan… Sən cırtdansan, xortdansan. Ha… ha… ha…

Baqrat yerindən dilləndi:

- Ərə, mənim dərzlərimi aparan köpək oğlu, qazamatdan qaçmısan?

- Məni danlağa, söyməyə çağırmısınız?

- Kəs səsini, utanmaz! Bəs hanı sənin bolşevik yoldaşların?

Karo:

- Baqrat ağa, sən öz işində ol, şərabını iç! – dedi. – Aşot!

Aşot tez farağat vəziyyətində durdu:

- Bəli, ağa!

- Bu bolşevik Saakı apar sal zirzəmiyə.

- Nahankapet ağa, axı mən…
Karo Saakın sözünü kəsdi:
- Uzun danışma! Yeri, sonra danışarıq!.. Apar!
Aşot Saakı apardı. Baqrat da durub onların ardınca getdi.
Karo səndələyə-səndələyə gəlib yerində oturdu.
Kürəyini mütəkkəyə söykəyib, oxumağa başladı:

Səma parlaq, hava xoş,
Hər yan çiçəkdi, güldü,
Bülbül də öz gülündən
Ətir çəkməyə gəldi.

Sən də may çiçəyitək
Açılmış halda, ay qız,
Sevgilinin yanında
Gəl otur, qoyma yalqız[1]…

Nvard daxil oldu.

- Bıy, səsinə qurban olum! Belə gözəl oxumağın da var? – deyə süfrəni yığışdırmaq istədi.

- Qoy süfrə qalsın, gəl mənim yanımda otur. – Karo Nvardın qolundan tutub öz yanına çəkdi. Qolunu boynuna salıb üzündən öpdü.

- Bıy, ay bala, məni öpüncə, get nişanlını öp də… Keflilik nə pis olar! – deyə Nvard kənara çəkildi. –Sənin gül kimi nişanlın var.

Onun bu sözləri elə bil ki, oğrunun yadına daş saldı.

- Necə? Nişanlımı? – Karo ayağa durdu, oxuya-oxuya Siranuş yatan otağa keçdi. – Nə yatıbdır nişanlım, mənim qəşəng nişanlım, mənim mələk nişanlım!..

Karo Siranuşa yaxınlaşıb, yanında oturub əlini qızın qabarıq sinəsinə atdı. Siranuş bərk-bərk yorğana büründü. Karo onun qırmızı yanağından öpmək üçün əyildi. Tünd şərab iyi qızı vurdu. Başını yana çevirib, dirsəyi ilə Karonu geri itələdi.

- Ay qız, niyə qoymursan?..

- Dur cəhənnəm ol, həyasız!..

- Mən sənin nişanlınam axı!.. – Karo Siranuşu birdən qucaqladı…

Siranuş gücü gəldikcə qışqırıb anasını çağırdı. Karonun vəhşi hərəkətlərinə yol verməmək üçün balıq kimi yerdə çapalamağa başladı.

Nvard qızının qulaqbatırıcı qışqırığına içəri girdi.

Siranuş:

- Bu kefli ayını mənim yanıma niyə buraxmısınız? – dedi və hirsindən ağlamağa başladı.

- Vaxtsız qışqırıq salmayın, oğul! – Nvard Karonun qolundan tutub kənara çəkdi.

Karo Nvarda hirsləndi:

---

[1] Şeir H.Hovanesyanındır.

- Sən kimsən? Çəkil kənara! Mən general-qubernatoram. O, mənim nişanlımdır. Mən Siranuşu öpəcəyəm, mən Siranuşu… - Karo özünü qızın üstünə salmaq istədi.

- Bəsdir, bəsdir, oğul, hər şeyin təhri var, vaxtı var. Qız naxoşdur. Dur gedək yerini salım yat. – Nvard Karonun qolundan yapışıb zorla otaqdan çıxartdı.

Ayağı yalın, başı açıq, yun kimi ağ və pərişan saçları çiyinlərinə tökülmüş bir arvad döngəni buruldu. Həmişə vird etdiyi sözləri həzin bir səslə oxuya-oxuya kilsəyə tərəf üz qoydu:

Saraldı gülüm,
Uçdu bülbülüm,
Mən niyə qaldım?
Hardasan, ölüm?..

Onun kilsəyə getməkdə məqsədi, güman ki, orada dua eləmək, bütün həyatı boyu könlündə yaşatdığı Allahdan dərdlərinə çarə diləmək idi.

Kilsənin qabağında qar topu oynayan uşaqlar onu uzaqdan gördükdə, hamısı bir ağızdan qışqırdı:

- Taygöz arvad dəli arvad yenə oxuya-oxuya gəlir…

- Gəlin gedək qabağına, çəkib gətirək bura, ələ salıb gülək.

- Getmək lazım deyil, özü bizə sarı gəlir.

Balaca boylu, kök, pələ qulaq, yekə burun bir uşaq əlini yuxarı qaldırıb dedi:

- Uşaqlar, sizə məzəli bir şey danışım. Üç gün bundan qabaq bu dəli avrad gəlmişdi bizim həyətə. Tez itimizi açıb onun üstünə qısqırtdım. Arvad Evin qapısını açıb içəri girəndə, gözünə döndüyüm Duman onu daldan süpürlədi. Siz öləsiniz, arvad lap at kimi kişnədi. Məni gülmək apardı. Elə bu vaxt anam evdən çıxıb itə acıqlandı. Duman taygözün baldırını buraxdı. Anam arvadı içəri saldı, məni danladı, döymək istəyirdi, qaçdım…

Hər gün küçələri, həyətləri gəzib-dolaşan bu bədbəxt insanı hamı tanıyırdı. O, Araksi idi.

Oğlunun yerini demədiyinə görə döyülmüş, olmazın əzablar verilmiş bu ananı dəli olduğu üçün həbsxanadan buraxmışdılar.

Bir aydan bəri dəli olub səfil-sərgərdan qalmış Araksiyə kəndlilərin münasibəti müxtəlif idi. Bəzisi qapıdan qovur, bəzisi halına acıyır, onu bu günə salanlara qarğayır, bəzisi kəndlilik və qonşuluq xatirinə gecələmək üçün öz evində yer və çörək verirdi.

Araksi kilsənin həyətinə girmək istədikdə, uşaqlar onun qabağını kəsdilər. Araksi yerində dayanıb, heç bir söz demədən, gah onun, gah da bunun üzünə mat-mat baxdı.

Uşaqlardan biri: «Nə qəşəng paltar geyib!..» deyə onun cırıq və kirli tumanının ətəyindən çəkdi. O biri uşaq: «Ərə, ona dəymə, oynayacaq. Başla, qolunu qaldır!» deyə əl çalmağa başladı. Başqa bir uşaq: «Oynamasın, oxusun. Oxu, a dəli, taygöz, oxu!» deyə qəhqəhə ilə güldü.

Bir az kənarda duran caydaq bir oğlan: «Onun canı bir gülllədir…» deyə qar topunu Araksinin sinəsinə vurdu. Araksi özünü müdafiə etmək üçün qollarını, quru taxta kimi sinəsində çarpazlayıb, dodaq altından nə isə dedi.

«Ərə, siz öləsiniz, bu taygöz bizi söyür», deyə caydaq, xatagün uşaq yenə Araksiyə qar topu atanda, yoldaşı qoymadı. «Yazıqdır, dəymə. Sənin anan belə olsa xoşuna gələrmi?..» deyə vurub qar topunu onun əlindən saldı.

Araksi birdən başını geri atdı, şaqqa çəkib güldü. Sonra ağladı. Onun gülüşü ilə göz yaşları bir-birinə qarışdı. O, birdən çevrilib, tumanı ayaqlarına dolaşa-dolaşa küçə aşağı qaçmağa başladı.

Uşaqlar dəstə ilə, hay-küy sala-sala Araksinin dalınca düşdülər. Kimi onu qar topuna, kimi daşa basdı, kimi qışqırıb fit çaldı…

Qabaqdan, küçə yuxarı gələn Arzo dəcəllərə acıqlandı: «Ədəbsizlər, qanacaqsızlar… yazıqla nə işiniz var. Sürükün burdan!»

Uşaqlar geri qayıtdılar.

Araksi ürkək-ürkək ətrafına baxa-baxa yoluna davam etdi. Qoca Arzo bir an yerində dayanıb fikrə getdi. Sonra dərindən köksünü ötürüb öz-özünə dedi: «Zəmanənin üzü dönsün. Yazıq Armenakın ocağını söndürdülər…».

…Araksi həyətə girdi. O yana, bu yana nəzər saldı. Elə bil, kimi isə, nəyi isə axtarırdı. Gözünə ağ çətir kimi görünən tək alma ağacından başqa, heç nə dəymədi. Qara bata-bata gedib ağaca yanaşdı. Başını onun yaş gövdəsinə söykəyib, sakit dayandı.

Biçarə arvad, yenə öz evinə, həyətinə gəlmisən. Ondan əl çəkə bilmirsən. Doğma yurd-yuva şirin olar. Lakin, sən bu xərabə evində kimi tapacaqsan?.. Yoxsa, ərinin və qızının meyitini axtarırsan? Karo və Samvel gecə yarısı səni saçlarından tutub sürüyə-sürüyə həbsxanaya apardılar. Səhər mehriban qonşun Arzo kişi sizə gəldi. Hamı sənin fəlakətindən xəbərdar oldu. Qonum-qonşu ağladı, yas tutdu. Ərinin və qızının meyitini camaat basdırdı…

Ürəyinin hər guşəsində min dərd, min qəm olan Araksi ağacın altında çox dayanmadı. Qapısı tay-batay açıq olan ev sanki onu çağırdı. Bədəni buza dönmüş qadın içəri girdi. İçərisi qarla dolmuş evinə baxdı. Birdən əlini əlinə vurub qəhqəhə çəkdi. Həmişə ocaq qalayıb, qazan asdığı bucağa getdi, çöməltmə oturub, dizlərini qucaqladı, başını çiyninə qoyub gözünü bacaya zillədi.

Kim bilir o, nələr düşünürdü… Fırtınalı dənizi andıran dəli könlündən kimlər gəlib keçirdi…

Saatlarla eləcə oturan Araksi başını çiynindən, əllərini dizlərindən götürdü. Hisdən, tüstüdən qaralmış, yastı ocaq daşını əyilib öpdü, sonra başını onun üstünə qoyub uzandı. Gözündən gilə-gilə yaş tökə-tökə oxudu:

Saraldı gülüm,
Uçdu bülbülüm,
Mən niyə qaldım?
Hardasan, ölüm?..

Karo dörd-beş saat yatandan sonra oyandı. Yerinin içində əsnədi, gərnəşdi. «Çox içmək də bir şey deyil, adam ləms olur» deyə geyindi. Əl-üzünü yudu. Bayırda qapının ağzında dayanmış Aşotu içəri çağırdı.

Aşot otağa girib rəsm-təzim etdi:

- Qulluğunda hazıram, ağa!

- A cırtdan, get Nvard xanıma de ki, ağam durub, çay istəyir. Sonra Saakı yanıma gətir.

- Baş üstə, ağa! – Aşot getdi.

Karo, sənədlər saxlanan qovluğu siyirtmədən götürüb, stolun üstə qoydu…

Çox keçmədən Aşot Saakı gətirdi. Bayıra çıxmaq istərkən, Karo ona Karpovu çağırmağı əmr elədi. Aşot getdi.

Karo, qorxudan sifəti saralmış Saakı başdan-ayağa süzüb, gülümsəyə-gülümsəyə stolun arxasına keçdi. Sonra ciddi tərzdə dedi?

- Sənin haqqında yazılmış kağızlar, sənədlər bax, budur. – O, qovluğu göstərdi. – Sən özün də mənim əlimdəsən. İndi sənə çox vacib bir tapşırığım var. Otur, qulaq as…

…Deyirlər dəlilər dəvə kimi kinli olurlar. Nə düşmənlərini unudurlar, nə də onlardan gördükləri pisliyi.

Araksi yavaş-yavaş ikinci mərtəbəyə qalxdı. Eyvanda azacıq dayanıb, sonra iki otağın arasındakı dəhlizə girdi. Bir tərəfə çəkilib, sakit dayandı. Gözünü divarda bir nöqtəyə zilləyib elə bil ki, dərin fikrə getdi.

Çox keçmədi ki, dəhlizin sol tərəfindəki otağın qapısı açıldı. Gələn Nvard idi. Onun əlindəki podnosda çay və qənddan vardı. Nvard Araksini görən kimi diksinib podnosu əlindən saldı. Stəkanla qənddan cilik-cilik oldu.

- Ay camaat, evə qülyabanı girib! – deyə Nvard qışqırdı və tez otağa girib qapını bağladı. Lakin çox keçmədən Baqratla bərabər dəhlizə çıxdı.

- Çıx bayıra, gəlib mənim evimə niyə soxulursan?!

Araksi tək gözünü Baqrata bərəltdi.

- Bu itin qızını tez rədd elə, Baqrat, qorxuram! – deyə Nvard addım-addım geri çəkildi.

Baqrat Araksinin qolundan tutub eyvana tərəf çəkdi. Lakin, Araksi ucadan qəhqəhə çəkib, Baqratın yekə qarnına bir-iki təpik vurdu. Baqrat əlini onun qolundan çəkib qarnını tutdu. Danışmağa imkanı olmadı. Nvard özünü itirmiş halda qışqırdı. Onun qulaqbatırıcı səsinə Karo ilə Saak içəridən çıxdılar. Siranuş da yatağından durub gəldi.

Araksi Karonu görən kimi, qızmış aslan təkin dərhal ona hücum edib, iki əli ilə boğazından yapışdı.

- Hanı mənim qızım, ərim? Hanı mənim yurdum-yuvam? – deyə Karonun üzünə bir lomba tüpürdü.

Karo dartınıb Araksinin əlindən buraxıldı. Üzünün tüpürcəyini silib, Araksinin baş-gözünü yumruğa doladı. Bununla ürəyi soyumadı. Tapançasını gətirmək üçün otağa girdi.

Baqrat sancıdan iki qat olub ufuldaya-ufuldaya Araksini söyməyə başladı. Sonra:

- Məni evə apar, sancı qarnımı doğrayır, - deyə arvadına müraciət etdi.

Nvard üzünü Siranuşa tutdu:

- Ay qız, bu dəli sənə də xətər yetirər, keç evə, - deyib ərini içəri apardı.

Saak heç bir söz demədən çıxıb getdi.

Araksi Siranuşa yaxınlaşdı. Qız ondan qorxub geri çəkilmədi. Araksi onun boynunu qucaqlayıb üzündən öpərək dedi:

Qaradır qaşın, ördək,
Yaşıldır başın, ördək,
Həmişə cüt gəzərdin,
Hanı yoldaşın, ördək.

Hanı Surenim, ay bala, a mənim gəlinim? – Araksi acı-acı güldü, bir an sonra isə hıçqırıqla ağlamağa başladı.

Siranuş da özünü saxlaya bilməyib hönkürdü…

Karo içəridən çıxdı.

- Siranuş, ayrıl bu dəlidən! – deyə tapançanı yuxarı qaldırdı.

- Buna toxunmayacaqsan!..

- Mən onun sağ gözünü yumruqla kor etmişəm, sol gözünü də güllə ilə deşəcəyəm. Çəkil kənara!

- Mən qoymayacağam…

- Bilirəm, Surenin xatirinə onun dəli anasının tərəfini saxlayırsan!

- Yazıq Araksi xala… - deyə Siranuş onu bərk-bərk qucaqladı və yenidən hönkür-hönkür ağladı.

- Çəkil deyirəm! – Karo Siranuşun qolundan tutub kənara fırlatdı. Tapançanı Araksiyə tuşlayanda, Nvard içəridən çıxdı. Siranuş çığırıb özünü qabağa verdi.

- Kənara durmasan səni də öldürəcəyəm! – deyə Karo barmağıın tətiyə apardı.

Nvard:

- Mənim evimdə qan salma, oğul! – deyə Karonun biləyindən tutub, döşündən geri itələdi.

Araksi Karoya baxıb-baxıb:

- Səni Allaha tapşırdım, Allaha! – dedi və yenə onun üzünə tüpürüb bərkdən güldü…

Karo Araksinin üstünə dartındı. Nvard onu buraxmadı. Yalvara-yalvara otağa apardı.

Siranuş Araksinin qolundan yapışıb çəkə-çəkə dəhlizdən çıxartdı, həyətə endirdi.

Birdən Araksi dartınıb qızın əlindən buraxıldı. Qaça-qaça həyətdən çıxdı.

Siranuş sonsuz bir kədər içində evə dönərkən, küçədən gələn səs onu yerində dayandırdı. Bu səs Araksinin tükürpədici acı qəhqəhəsi idi.

# İkinci fəsil

Günün batan çağı idi. Qış olsa da, hava sakit və xoş idi.

Həkim Arakelin müalicəsi sayəsində yaraları uyuşmuş, lakin tamamilə sağalmamış Suren pəncərənin qabağında oturub papiros çəkir, Gorusun məhzun görünən qarlı dağlarına, ehram şəkilli qayalarına tamaşa edirdi.

Suren hələ bir «işdən» yapışa bilmədiyinə darıxırdı: «Niyə gərək hər xata, hər macəra mənim başıma gəlsin? Nə ata-anama yaxşı oğul oldum, nə məhəbbətdən yarıdım, nə də camaatı bir xoş günə çıxara bildim…».

Onun qəlbi sanki bir kitab kimi vərəqləndi: «Özünü talesiz və hər şeydən əli üzülmüş sananlar – acizlərdir. Hər günün, hər ilin bir hökmü var. Qarşında hələ çox çətin, qovqalı yollar durur. Sən o yolları keçməyincə, nə səadətə qovuşa bilərsən, nə məhəbbətə. Qələbə əldə etmək, ağacdan alma dərmək kimi asan deyildir. Qışsız bahar olmadığı kimi, döyüşsüz, əziyyətsiz, qurbansız da qələbə, xoşbəxt həyat yoxdur.

Gözəl və sərvətli ölkəni işğal etmiş qara qüvvələr səninlə yoldaşlarının ürəyinə iyirmi altı dağ çəkdi. Lakin, iyirmi altı nər oğul itirmiş və sənin mənsub olduğun firqə sarsılmamışdır…».

Suren xeyli düşündü. Tamaşa etdiyi mənzərələr daha görünməz oldu. Arası kəsilmədən yağan iri, quş başı qar pəncərəyə boz bir pərdə çəkdi. Şüşələrdə Surenin xəyalı kimi, müxtəlif şəkillər, naxışlar əmələ gəldi…

Suren atasının, bacısının ölümündən, anasının halından xəbərsizdi və onların indiyə kimi köçüb gəlməməsi onu bərk darıxdırırdı.

O düşündü: Onlar hara getdilər? Əgər, Şəki dağılmasa idi, Nəbigilə gedə bilərdilər».

Surenin Siranuşdan da xəbəri yox idi. Karoya adaxlandığını da bilmirdi. O, eşitmirdi ki, öz eşqinin əsiri olan Siranuş bu saat xəstəlik yatağında, hərarət içərisində sayıqlayır: «Suren! Hardasan, Suren?» deyir.

Axşam düşdü, hər yerə ürəksıxıcı bir qaranlıq çökdü.

Mehriban bir bacı kimi, Surenə qulluq edən, onun qüvvətə gəlib, sağalması üçün varını-yoxunu əsirgəməyən Klavdiya içəri girib lampanı yandırdı. Pəncərənin taxtasını örtdü, sonra qayıdıb çay-çörək gətirdi.

Suren Klavdiyanın solğun üzünə, ərinin intizarını çəkən kədərli gözlərinə baxdı, köksünü ötürüb dedi:

- Sənə də zəhmət veririk, Klavdiya bacı. Bizi bağışla – iş belə düşüb.

- Heç bir zəhməti yoxdur. Sergeyin xatiri üçün əlimdən gələni sizdən əsirgəməyəcəyəm. Amma Sergey yoxa çıxdı. – Klavdiya dərindən köksünü ötürdü. – Mən ondan tamam əlimi üzmüşəm…

- Elə demə, Klavdiya bacı. Vallah, bir də görəcəksən ki, qapı açıldı. Sergey gülə-gülə içəri girdi.

- Yox, Suren, o sağ-salamat olsaydı gəlib çıxardı. Bilmirəm hara gedim, onu harada axtarım, kiminlə danışım…

Suren Klavdiyaya nə qədər təsəlli verdisə də, bu vəfalı, cavan qadın ovunmadı. Özünü ağlamaqdan zorla saxlayıb dedi:

- Sən çörəyini ye, Suren.

Klavdiya getdi, lakin çox çəkmədi ki, o biri otaqdan hönkürtüsü eşidildi…

Suren çay içməyə başladı.

Bayır qapısı iki dəfə kəsik-kəsik döyüldü. Qapının bu cür vurulmasından gələnin kim olduğunu başa düşən Klavdiya gedib açdı. Sergeyi, Qurgeni, Saakı və başqa dustaqları azad etdirmək üçün İravana getmiş Vahan dəhlizə girdi. Üst-başının qarını təmizləyib otağa daxil oldu. Klavdiya öz otağına getdi.

Suren stəkanı nəlbəkiyə qoyub, tez yerindən qalxdı. Uzun səfərdən qayıdan atasını sevinclə qarşılayan bir uşaq kimi, Vahanın qabağına yeriyib, boynunu qucaqladı, bir şad xəbər söyləyəcəyini gözlədi. Vahan Surenin kefini soruşdu. Hər ikisi oturdu.

- Yoldaşları görə bildinmi? Buraxdıra bildinmi?

- Nə görmək mümkün oldu, nə buraxdırmaq. Parlament üzvü olan bir kommunist yoldaşla danışdım. O da bizimkilərin azad olması üçün çalışır. Lakin daşnaklarla dil tapıb danışmaq çətindir. Xatisov hökumətinin üzvləri ingilis-amerikan nümayəndələrinin icazəsi olmadan, heç bir iş görmürlər. İmperialistlər özlərini ölkədə çox sərbəst hiss edirlər. Hətta onlar İravanda ayrıca həbsxana açaraq, polis dəstələri saxlayırlar. Bunların hamısı Ermənistanda, bütün Zaqafqaziyada Sovet hakimiyyətinin qurulması uğrunda gedən mübarizəni söndürmək üçündür. Amerikanlar kəşfiyyat və casusluq orqanına çevirdikləri «Qırmızı xaç» təşkilatının vasitəsilə daşnaklara kömək edirlər. Eyni zamanda, kommunistlərin kökünü kəsməyi daşnaklardan tələb edirlər. Onlar Naxçıvan ölkəsini Ermənistanın ixtiyarına verməyi vəd edirlər. Daşnakları Vedibasar, Zəngibasar müsəlmanları üzərinə hücuma şirnikdirir, türklər və almanlar kimi, onlar da millətlər arasına ədavət salırlar. Onsuz da dilənçi halına düşmüş ölkənin sərvətini çəkib aparırlar! – Vahan bir an nəfəsini dərib, sözünə davam elədi: - İş getdikcə çətinləşir, Suren. İndi biz, daşnak hökumətiylə mübarizə aparmaq üçün partizan dəstələri düzəltməliyik.

- Partizan dəstələri?

- Bəli. Vəziyyət indi belə tələb eləyir. Dörd divar arasında qalmaq bizə əl verməz. Hələlik Gorusdan çıxmalıyıq!

Onlar yeni mübarizə üsulları, formaları haqqında xeyli danışdılar.

Klavdiya içəri girib bir tərəfdə oturdu.

- Sergeydən bir xəbər öyrənə bilmədin ki, Vahan Barxudaroviç? – deyə soruşdu.

Vahan nə cavab verəcəyini bilmədi, bir an tərəddüd içərisində qaldı. Ərinin həbs edildiyini indiyə qədər bilməyən qadını ruhu əzablardan qurtarmağı lazım bildi.

- Sergeyin yerini öyrənmişəm, - dedi. – Sağ-salamatdır.

- Salamatdır? – Klavdiyanın gözləri sevinclə parladı. Bu şad xəbərə görə Vahanı bir qardaş kimi qucaqlamaq istədi. – Sergey hardadır?

- İravanda, həbsdədir.

- Necə? Həbsdə? – Elə bil Klavdiyanın üstünə bir qazan soyuq su tökdülər. Bir an əvvəl sevinclə gülən gözləri qaraldı, qəlbinə matəm çökdü. O, birdən qışqırdı: - Mən sənsiz necə yaşayacağam, Sergey!

Vahan:

- Özünüzü ələ alın, Klavdiya Semyonovna, - dedi. – Göz yaşı heç bir dərdin çarəsi olmamışdır. İndi elə zəmanədir ki, insan gərək hər əzaba mərdliklə dözsün.

Öz otağına getmək üçün Klavdiya gözlərini silə-silə ayağa qalxdı. Bu an dəhlizin qapısı bir neçə dəfə döyüldü. Suren gedib açmaq istədi. Klavdiya onu qoymadı.

- Kim olduğunu soruşub bilməmiş açmayın, - deyə Vahan Klavdiyaya müraciət elədi.

- Siz gizlənin! – deyə Klavdiya getdi.

Vahan döşəmədən zirzəmiyə açılan balaca qapını açıb Surenə müraciət elədi:

- Hələlik aşağı enək. Bəlkə məni görüblər, izləyirlər?!

- Əvvəlcə Suren, sonra Vahan aşağı enib qapını örtdü.

Klavdiya qapını döyənin kim olduğunu soruşarkən, bayırdan nazik bir səs eşidildi:

- Qorxma, aç! Sergeyin yanından gəlirəm.

Klavdiya ərinin adını eşidən kimi qapını açdı. Saak içəri girdi. Çuxasının ətəyi ilə çarıqlarının qarını təmizlədi, qıllı papağını götürüb silkdi, başına qoyaraq Klavdiyanın üzünə baxdı… Klavdiya birinci dəfə gördüyü, cansız-çəlimsiz, orta boylu, sallaq bığlı bu adama diqqətlə nəzər yetirdi. Saak gülə-gülə dedi:

- Təəccüb eləmə, Klavdiya bacı. Mən dost adamam. Ona görə bu gecə vaxtı sizə gəlmişəm. Sənə şad xəbər gətirmişəm. Ərin Sergey sağ-salamatdır. Özü də bir-iki günə kimi evdə olar. Mən bolşovoyam. Onun yoldaşıyam. Qazamatdan qaçmışam.

Klavdiya Saakı otağa dəvət elədi. Zirzəminin balaca qapısını açıb, gələnin kim olduğunu Vahanla Surenə dedi. Onlar zirzəmidən çıxdılar.

Saak onları görcək sevinclə:

- Oho, əziz yoldaşlar, siz də burda imişsiniz! – dedi. – Bəs niyə zirzəmiyə girmişdiniz? Yoxsa qorxdunuz?

Vahan:

- Qorxmaq nədir, ehtiyat lazımdır, - dedi. – Nə yaxşı oldu səni buraxdılar.

Hər üçü görüşüb oturdu.

- Danış görək, Saak, necə azad oldun?! Qalan yoldaşlar hardadırlar?

- Eh, ay Vahan yoldaş, Allah heç kəsi qazamata salmasın. Cəhənnəm deyilən yer oradı. Mən çəkdiyim əzabların hamısını danışsam başınızın tükü qabarar. Qərəz, məni, Qurgeni və Sergeyi saldılar dar, havasız bir yerə. Xarabanın nə pəncərəsi vardı, nə bacası. Bizi beş-altı kərə danışdırdılar. Silistçi mənə dedi: «A çulu cırıq, səni kim öyrətmişdi ki, Baqrat ağanın üzünə ağ olurdun. Dərzlərini çöldən daşıyıb öz evinə aparırdın?» Dedim, kim öyrədəcək, yoxsulluq, aclıq… Dedi: «Səni yoldan çıxaran bolşovoyların yerini de». Sənin canın üçün, Vahan yoldaş, heç birinizin adını demədim. Silistçi gördü ki, yox, mən ağzından söz qaçıran adam deyiləm, başımı, gözümü doladı yumruğa. O qədər döydü ki, bir ay yerimdən tərpənə bilmədim. Qabırğalarım indi də ağrıyır. Amma, qardaşlar… - Saak sözünün dalını nədənsə deməyib susdu.

Suren soruşdu:

- De görək, Qurgenlə Sergey indi hardadırlar? Sən özün qazamatdan necə qurtardın?

Saak köksünü ötürüb cavab verdi:

- İyirmi gün olar ki, Sergeydən xəbərim yoxdur. Onu məndən ayırdılar. Gecənin bir yarısında Sergeyi çıxardıb aparanda mən ağladım. Elə bildim, yazığı öldürməyə aparırlar. O, mənə ürək-dirək verdi. Dedi: «Ağlama, sağ qalsaq yenə görüşərik. İşdir, sən məndən tez buraxılsan, gedərsən Gorusa, arvadıma deyərsən ki, məndən nigaran olmasın, hələ sağam. O, külfətinin hansı küçədə yaşadığını, adını mənə qabaqca demişdi. İndi mən Sergeyin xətrinə, bu qarda-soyuqda durub gəlmişəm. Sizi də burada görüb şad oldum. Qurgen barədə nə deyim?! Onu ayrı yerə salmışdılar.

Göz yaşı axıtmayıb, ürəyində ağlayan Klavdiya ərinin taleyini və özünün gələcəyini düşünürdü.

Suren Saakdan soruşdu:

- Qazamatdan sən özün nə təhər buraxıldın?

- Mən qoçaqlıq eləmişəm. Düzü, hiylə qurub qaçmışam.

Vahan gözünü Saakın tük basmış üzünə dikib soruşdu:

- Nə hiylə?

- Bəli, yoldaş Vahan. Gördüm ki, qazamatdan, daşnakların əlindən qurtarmaq üçün hiylədən başqa çarə yoxdur. Bir gecə qapını bərk döydüm. Keşikçi gəldi. Dedim, naçalniki çağır, ona vacib sözüm var. Getmək istəmədi; yalvarıb yaxardım, dedim, qazamatdan çıxanda sənə pul da verərəm. O, bir az yumşaldı. Elə bu vaxt naçalnik özü gəldi. «Sənin nə ixtiyarın var dustaqla danışırsan?» deyib keşikçini şallaqladı. Mənə də hədə-qorxu gəldi. Dedim, naçalnik, mən hər şeyi demək istəyirəm. Naçalnik gülümsündü, ancaq bir söz deməyib getdi. İkinci gecə məni bir əli tüfənglinin qabağına qatıb dedi: «Bunu apar silistçinin yanına». Mən qabaqda, saldat da mənim dalımca gedirdik. Qaranlıq, adamsız, dar bir küçənin başına çatanda, götürüldüm… Saldat: «Dayan! Dayan!» deyə dalımca iki-üç güllə atdı. Mən tez döngəni buruldum, bir neçə dəfə yıxılıb qalxdım, axırı özümü saldım bir həyətə. O yana, bu yana baxıb heç kimi görmədim, o saat girdim su quyusuna. Orda nə qədər qaldığımı bilmirəm. Qərəz, nə başınızı ağrıdım, quyudan çıxdım. Tez özümü vurdum dağ-daşlara. Gündüzlər kahalarda, mağaralarda gizləndim, gecələr yol getdim. Aclıq, yorğunluq məni taqətdən salmışdı… Qərəz, srağagün gəlib çıxdım Əngələvidə. Mənim qaçmağım belə oldu. Tapsalar dərimə saman təpəcəklər. İndi fikriniz nədir, biz nə eləyək? Hara gedək ki, qorxusuz olsun?

- Saak əmi, kənddə olanda bizə getdinmi? Evimizdən bərk nigaranam…

- Düzü, Suren, macal tapa bilmədim. Salamat olarlar, nigaran qalma…

Vahan:

- Sən, Saak, öz evinə qayıt, - dedi. – Səninlə əlaqə saxlarıq. Ancaq elə elə ki, ələ keçməyəsən.

- Bu saat durub gedirəm. Bəs siz? Burda qalacaqsınız, yoxsa bir yerə gedəcəksiniz? Bir də mənə iş tapşırın. Axı, mən bolşovoyam…

Vahan onun sözünü kəsdi:

- Hələlik evinə get. İşimiz sonra olacaq. Biz də bu evdə qalacayıq. Getməyə başqa yerimiz yoxdur.

- Yaxşı, onda mən yubanmayım… - Saak yerindən qalxdı.

Klavdiya Saakın bu gecə vaxtı getməsinə razı olmadı, lakin o, qalmaq istəmədi.

- Yeriniz dardır. Burda qonaqçım var, gecəni onun evində qalaram. Daha, salamat olun! – Saak onlarla görüşdü. – Kənddə qalmaq mənim üçün qorxulu olsa, sizin yanınıza gələcəyəm. Xudahafiz.

Saak qapıya tərəf getmək istərkən, Suren onu dayandırdı.

- Saak əmi, atama da de ki, tez yığışıb gəlsin. Məndən də nigaran qalmasın.

- Deyərəm, arxayın ol.

Saak getdi. Vahan onun arxasınca baxıb nə isə fikrə daldı. Klavdiya durub öz otağına çəkildi.

Əllərini şalvarının ciblərinə qoyub otaqda vargəl edən Karo Samvelin qarşısında dayandı. Onu başdan ayağa süzüb soruşdu:

- Bir şey öyrənə bildinmi?

- Xeyr.

- Xeyri daha nə oldu, malbaş!

- Kəndlilər heç bir şey demirlər, özüm də açıqdan-açığa kimdən soruşaydım.

- Baqratla Qrikorun Şələkdən Əngələvidə bir gəldiklərini söyləmirdilərmi?

Samvel cavab verməyib, çiynini atdı. Karo amiranə tərzdə sualını təkrarlayıb, əlavə etdi:

- Sən xəfiyyəsən, malbaş. Gərək hər şeyi biləsən. Özün də düz danışasan. Heç bir şeyi hökumətdən gizlətməyəsən. Yaxşı, de görüm Baqratla Qrikor günün hansı vaxtında Şələkdən yola düşüblər.

Samvel udquna-udquna cavab verdi:

- Düzü, bilmirəm. – O, nə isə fikirləşdi, sonra gülümsünərək dedi: - Yoxsa, öz qaynatandan da şübhələnirsən, yeznə?

- Yeznə-meznə bilmirəm, - deyə Karo üz-gözünü turşutdu. – Mən general-qubernatoram, sən xəfiyyə. Cinayətin üstü açılmalıdır. Özü də sən açmalısan. Atan da cinayət eləmiş olsa, gizlətməməlisən. Başa düşdünmü?

- Bəli.

Karo söhbəti dəyişdirib, Araksidən söz saldı. Onu tapıb gizlincə öldürməyi əmr etdi.

Samvel yerindən qalxdı:

- Gedə bilərəmmi?

- Get. Tapşırıqlarımı yerinə yetir.

Samvel getdi. Karo stolun arxasına keçib nə isə yazmağa başladı. Bu vaxt Saak Baqratın həyətinə girdi. İkinci mərtəbəyə qalxmamış, pilləkənin aşağısında nəfəsini dərmək üçün dayandı. Fikir onu götürdü: «Hər şeyi deyimmi? Onları ələ verimmi? Axı, bu namərdlik olar. Vahanla Suren mənə nə pislik ediblər? Heç nə. Ancaq onların əlində heç bir ixtiyar yoxdur. İstədiklərini də eliyə bilmədilər. İndi özləri orda-burda gizli yaşamağa məcbur olublar. Mən belə adamlardan nə xeyir görə bilərəm? Heç nə. Güc, ixtiyarat Karo kimilərin əlindədir…».

…Saak fikir-xəyal içində qapını açdı. Lakin otağa girməyib astanada dayandı.

Karo başını qaldırarkən, Saakı görüb içəri çağırdı, oturmaq üçün yer göstərdi.

- Hə, danış görək nə xəbərlə gəlmisən.

- Tapşırıqlarını yerinə yetirmişəm.

- Ay sağ ol! Belə ha! – Karo stulunu çəkib onunla yanaşı oturdu.

Saak, Vahanla Sureni gördüyünü müfəssəl danışıb, axırda dedi:

- Onların başının üstünü tez almaq lazımdır. Yoxsa, əldən çıxarlar.

Karo əlini Saakın çiyninə vurub gülə-gülə:

- Qorxma, çıxmazlar, - dedi. – Bizim sənin kimi sədaqətli adamımız var. Elə deyilmi, Saak kişi?

- Bəli, bəli! Mən öz erməni hökumətimizin yolunda canımı əsirgəmərəm. Mən…

Karo onun sözünü kəsdi:

- Yaxşı, yaxşı, özünü mənə tanıtma, sənin barəndə mənə müfəssəl yazıblar, öz sədaqətini həbsxanada göstərmisən. Erməni hökuməti sənin kimi adamların qədrini bilir, yoxsulluq çəkməsinə razı olmur.

- Hə, qadan alım, nahankapet, məni yay kimi əyən ancaq yoxsulluqdur.

- Mən, bolşeviklər kimi yalan vədlər deyil, sənə torpaq verəcəyəm.

- Bəs haçan?

- Elə bu saat.

Saak Karonun üzünə dik baxdı. Elə güman etdi ki, onu ələ salır.

- Yoxsa inanmırsan? Surenin atası Armenakın evini, həyətini, torpağını verdim sənə, bu gündən sahib ol.

- Başına dönüm, axı camaat məni qınayar. Deyərlər namərd…

Karo ona sözünün dalını deməyə imkan vermədi.

- Düşmənin evinə, həyətinə, malına sahib olmaq özü böyük mərdlikdir, namərdlik deyil. Başa düşdün? Sənin və bütün ermənilərin iki düşməni var: bolşeviklər, bir də müsəlmanlar. Gələcəkdə bizim üçün yaxşı işləsən, müsəlman kəndlərindən sənə o qədər torpaq verəcəyəm ki, əkib qurtara bilməyəsən.

- Müsəlman kəndlərində torpaq qalmayıb, hamısını ermənilər öz aralarında bölüşdürüblər…

- Yaxşı, daha söz güləşdirmə, dur get. İki saatdan sonra mənimlə Gorusa yola düşəcəksən.

- Gorusa? Mən ordan indicə gəlmişəm. Hələ də qıçlarım qırılır.

- Doğrudan da sən avam adamsan! – deyə Karo gülümsəyib, başını buladı. – Həbsxanadan qurtarmısan, ancaq başa düş ki, ixtiyarın mənim əlimdədir. Özün də qorxma, piyada getməyəcəksən. Bolşeviklərin Gorusda gizləndiyi yuvanı sən göstərməlisən, onları sən tutub mənə verməlisən. Başa düşdün?

Bolşeviklərin yerini öyrənib deməklə öz vəzifəsini bitmiş hesab edən, qorxusundan xəfiyyəçilik tələsinə düşən Saak yerindən qalxdı. Ağzını açıb nə isə demək istədi, lakin Karo onu qabaqladı:

- Danışdıqlarımız burada qalmalıdır. Ağzından bir söz qaçırsan, boğazına qurğuşun tökdürərəm. Get!

Saak bir söz demədən, məyus halda başını aşağı salıb otaqdan çıxdı.

«Vahanla Sureni ələ keçirdikdən sonra, onları hansı ağır cəzalarla öldürəcəyəm? – deyə Karo sonsuz bir sevinc içində düşünməyə başladı. – Güllələyimmi? Dar ağacından asdırımmı? Yox, yox, əvvəlcə dillərini kəsəcəyəm, sonra diri-diri çarmıxa çəkəcəyəm. Eh, bunlar yüngül cəzadır. Təzə, heç kəsə məlum olmayan təzə cəzalar tapmalıyam…».

Aşot içəri girdi:

- General-nahankapet ağa, səni xanım çağırır!

- Hansı xanım?

- Nvard xanım. Deyəsən, Siranuşun kefi məxşuşdur. Həkim dalınca getmək lazımdır…

- Yaxşı. Gedək.

Hər ikisi otaqdan çıxdı.

## Üçüncü fəsil

Dünyada hər cəhətcə bir-birinin eyni olan iki adam yoxdur. Adamlar yalnız zahiri görünüşcə deyil, arzu, xasiyyət və idrakca da bir-birindən fərqlənirlər.

Adam var gülər üzlü, şən və zarafatcıldır, adam var qaşqabağından zəhər yağır. Adam var xeyirxahdır, rəhmdildir, adam var xudpəsənd, paxıl, kinli, rəhmsiz və zülmkardır. Adam var bir sözdən min məna çıxarır, adam var ki, yüz sözdən bir məna duymağa qabil deyildir. Adam var, nəfəsi də gopla gedib gəlir, adam da var ki, istəsə də yalan bir söz danışa bilməz. Adam var bir qəpiyə gümanı gəlsə dostdan, qohumdan əsirgəməz, adam da var ki, mal-dövləti aşıb-daşsa da, dilənçi kökündə yaşayar. Adam var, ildə bir dəfə danışdırmasan ağzını açıb danışmaz, adam var ki, sözdən-söhbətdən həzz alar.

Həkim Arakel Koçaryan da ürəyinə yatan hər kəslə – istər çoban olsun, istər ziyalı, danışmaqdan həzz alır. Onun fikrincə, söz insanın qəlbinin aynasıdır. Bir adamın nə arzu və nə əqidədə olduğunu bilmək üçün onunla azacıq söhbət etmək kifayət edər.

Arakelin söhbəti Vahanla, Surenlə tuturdu. Onlar tanış olandan, xüsusən Koçaryan Sureni müalicə etməyə başlayandan daha yaxın olmuşdular. Həkim bekar vaxtlarında onların yanına gəlib saatlarla söhbət edərdi.

Onlar bu gün də axşamdan gecə saat on ikiyədək o yandan, bu yandan, ölkədəki vəziyyətdən danışdılar. Arakel Tiflisdə gimnaziyada təhsil aldığından, Peterburqda oxuyub həkim olduğundan söhbət elədi. Gorusda xəstəxana açmaq arzusunda olduğundan söz açdı. Lakin təəssüflə qeyd etdi ki: «Mənim bu fikirlərimi yerinə yetirmək üçün hələ imkan və şərait yoxdur».

Vahan yekə, çuğun saatını qoltuq cibindən çıxarıb baxdı.

- Vaxt nə tez gəlib keçir, - deyə yenə cibinə qoydu. Sonra kiminsə gələcəyini gözləyirmiş kimi, qapıya baxdı.

- Bəlkə bir yerə gedəcəksiniz? Mənim gəlişim və uzun söhbətim sizə mane oldu?

- Heç yerə getməyəcəyik, doktor, - deyə Vahan cavab verdi. – Söhbət eləyirik, narahat olma.

- Yox, yox, hiss edirəm ki… - o, susdu, sonra köksünü ötürüb əlavə elədi: - Sizi qınamıram. İndi insanlarda etibar qalmayıb. Qardaş qardaşa, ata oğluna inanmır, ürək qızdırmır. Bunun hamısına günahkar zəmanədir.

Vahan çeşməyini gözündən götürüb cib dəsmalı ilə silə-silə dedi:

- Adamların hamısını etibarsız zənn etmək düz olmaz. Necə deyərlər, dünya xali deyil. Əlbəttə, qoyun dərisi geyib sürünün içinə soxulan qurdlar da var. Sən ha eləyib onun qurd olduğunu bilincə, o böyük ziyanlar vurur. Həkim Arakeli isə biz etibarsız adam hesab eləmirik.

Suren yerindən söz atdı:

- Mən həkimin yaxşılığını heç vaxt unutmayacağam. Ancaq onun diqqəti, qayğısı sayəsində sağalmışam. Onu da bilirəm ki, hamı Koçaryana yaxşı bir həkim, mehriban və insanpərvər bir adam kimi çox hörmət edir. Deyirlər ki, doktor xəstələrinin çoxundan pul almır.

Vahan Surenin sözünə qüvvət verdi:

- Elədir. Doktor Arakel insanlara şəfa verdiyi üçün fəxr edə bilər.

Arakel gülə-gülə:

- Mehriban və insanpərvər olduğumu bilmirəm, - dedi. – Ancaq çalışıram ki, həkimlik vəzifəmi layiqiylə yerinə yetirim. Amma, burası da var ki, elin yaralarını sağaltmaq üçün beş, on həkim kifayət deyil. Xalqın ürəyində çox ağır, dərin kök salmış dərdləri var. Onları sağaltmaq üçün böyük və məharətli əməliyyat lazımdır.

Arakelin sözlərinin başqa bir rəng aldığını dərhal anlayan Vahan soruşdu:

- Elin dərdi deyəndə nəyi nəzərdə tutursan, doktor?

- Onu sizin hər ikiniz məndən yaxşı bilirsiniz. Çünki bu sahədə siz məndən təcrübəli həkimsiniz…

Üçü də bir-birinin üzünə baxdı. Aralığa çökən ani sükutdan sonra həkim dilləndi:

- Atalar deyər ki, göz görmək, qulaq eşitmək üçündür. Erməni kəndlilərinin dilənçi, acınacaqlı həyatı göz qabağındadır. Öz yurd-yuvalarından dağıdılmış müsəlman kəndlilərinin ahı-naləsi hələ də qulaqlardan getməyib… Mən dərd bunları hesab edirəm, Vahan!..

Həkimdən belə sözləri ilk dəfə eşidən Vahanla Suren təəccübləndilər. «Bəlkə, bu da daşnakların adamıdır… bizdən söz alır», deyə ürəklərində fikirləşdilər. Lakin şübhələrini büruzə vermədilər.

Arakel ayağa qalxıb:

- Mən gedirəm, - dedi, - səhər Əngələviddə olmalıyam. Baqrat ağanın qızı xəstədir, onun yanına çağırıblar. Nə zaman lazımınız olsam, evimi tanıyırsınız. Qulluğunuzda durmağa hazıram.

Vahan həkimə təşəkkür etdi. Suren istədi desin ki: «Doktor, atam Armenakı orada gör, de ki, ondan, anamdan, bacımdan çox nigaranam. Saak mənim tapşırığımı onlara yetirməyibmi? Atam daha Gorusa gəlməsin. Mən özüm evimizə gələcəyəm…». Lakin demədi.

- Gecəniz xeyrə qalsın! – deyə Arakel qara drap paltosunun yaxasını qaldırdı…

Suren onu həyətdən ötürüb qayıtdı.

- Hava necədir?

Suren Vahanın sualına fikirli cavab verdi:

- Bərk soyuqdur, qaranlıqdır.

- Niyə fikirlisən?

- Doktor mənim əlimi sıxıb ayrılanda dedi: «Camaatın yaralarını sağaltmaq istəyən əsli həkim sizsiniz. Sən qoçaq oğlansan, amma, bundan sonra, döyüşə girəndə, elə et ki, yaralanmayasan…». Düzü, bu sözlər, bir də onun bu axşamkı danışığı məni şübhələndirir.

- Burada şübhəli və təəccüblü heç bir şey yoxdur. O, bizim məqsədimizi çox yaxşı başa düşür… Lakin açıq bir söz demir. Mən belə anlayıram ki, nə bizə yaxınlaşmaq istəyir, nə daşnaklara.

- Məncə belələrinə o qədər də bel bağlamaq olmaz.

- Doktor Arakel haqqında mən belə düşünmürəm. O, nəcib ziyalıdır. Belələrini həyat həqiqətlərilə öz tərəfimizə çəkə bilərik.

- Bizi ələ verəcəyindən ehtiyat edirəm.

- Buna inanmıram, - deyərək Vahan yenə saatına baxdı. – Nə isə, yığışmaq lazımdır. Saat on ikidir. Kəndə gedib çıxınca sübh açılar.

Onlar paltarlarını, sənədlərini yığışdırdılar. Şapiroqrafı taxta çamadana qoydular. Başlıqlarını boyunlarına dolayıb, tiftik əlcəklərini geydilər.

Vahan həyətə çıxıb ətrafa göz gəzdirdi, tez qayıtdı. Əlini çamadana atıb:

- Gedək, – dedi.

Suren bağlamanı götürdü. Evdən çıxdılar. Vahan qapını bağlayıb, açarını cibinə qoydu.

Onlar o tərəfə, bu tərəfə baxa-baxa şaxtalı gecədə həyətdən aralandılar.

…O başdandı. Xoruzlar səs-səsə verib banlayırdı. Bir azdan sonra, hava işıqlanacaqdı…

Soyuqdan əllərini qara şal pencəyinin ciblərinə qoymuş, boynunu qısıb toyuq kimi büzüşmüş Saak həyətə girdi. O yana, bu yana nəzər salıb, yavaş-yavaş evin qapısına yanaşdı. Qapını yavaşca döydü. İçəridən səs gəlmədi. İkinci, üçüncü dəfə bərkdən döydü, yenə cavab verən olmadı. Qapını gücü gəldikcə itələdi, lakin aça bilmədi. Həm acığından, həm soyuqdan əsə-əsə öz-özünə deyinməyə başladı: «Bu lənətə gəlmişlər, qapını niyə açmırlar…» - o dolanıb, Klavdiya yatan otağın pəncərəsinin qabağına gəldi. Bir neçə dəfə şüşəni ara verə-verə döydü. Otaqdan səs çıxmadı. Ərinin qayıdacağından ümidini kəsmiş Klavdiya iki gün bundan əvvəl köçüb Bakıya, ata-anasının yanına getmişdi.

Saak geri çəkilib fikrə getdi: «Onlar qaçıblar, yoxsa, qəsdən qapını açmırlar?»

O, dayanıb gözləmək qərarına gəldi. Titrəməli adamlar kimi dişləri bir-birinə dəyə-dəyə pəncərənin altında çöməltmə oturdu.

Səhər açıldı. Şaxta sanki qanını, iliklərini dondurmuş Saak pəncərədən içəri baxdı.

«Evin yıxılsın canım! – deyə iki əlli başına vurdu. – Otaqlarda bir adam yoxdur… Onlar qaçıb gediblər. Allah, mən yenə bəlayə düşəcəyəm!.. Ocağın sönsün canım, mən nahankapetə nə deyəcəyəm...».

Saak yaxasını Karonun əlindən necə qurtaracağını fikirləşə-fikirləşə, öz-özünə tədbir tökə-tökə içəri girdi. Baş əyib, qapının yanında dayandı. Səhər saat yeddiyə kimi Saakın gəlməsini gözləyən və əməliyyat üçün hazır olan Karo gülə-gülə dedi:

- Saak kişi, gəldin? Danış görək. Bu saat gedib onları caynağımıza keçirəcəyikmi? Yaxına gəl, niyə elə büzüşmüsən? Olmaya, gecənin şaxtası səni qurudub… Ancaq gördüyün iş çox şərəfli işdir, dövlət işidir. Hə, danış!

Saak əllərini döşündə çarpazlayıb irəli addımladı, gəlib Karonun stolunun qabağında dayandı. Keçən gecəki «fəaliyyətindən» qorxa-qorxa danışdı. Nəhayət, güclə eşidiləcək bir səslə dedi:

- Onlar qaçıblar.

Sanki Karonun başına bir güllə vurdular. Yaralı pələng kimi nərildədi:

- Sus, dəyyus oğlu, sus! – deyə stuldan qalxıb Saakın yanına gəldi. – De görüm necə qaçıblar? Hara qaçıblar? Bəs ev sahibəsi Musatova hardadır?

- Bilmirəm, nahankapet.

- Bilirsən! Yaxşı bilirsən, şan vordi[1]. – Karo onun tüklü üzünə bir tərs sillə vurdu. – Onları qaçıran sən özünsən, xain, tülkü! – Karo var gücüylə ikinci silləni vurmaq istəyəndə, Saak özünü geri verdi.

- Nahankapetin canına and olsun ki, mən hökumətə xain deyiləm. Bu sifət məndə olsaydı, qazamatdan buraxmazdılar. Nə eləyim ki, onlar…

Karo qışqırıb Saakın sözünü kəsdi.

- Qazamat, qazamat! – Səni buraxdılar ki, bolşevikləri ələ verəsən, ya yox? Şan vordi! Amma, görünür ki, sən köhnə əqidəndən dönməmisən.

- Xeyr, başın üçün, məndə heç bir əqidə yoxdur, nə köhnə, nə təzə. Mən kişiyəm, söz vermişəm, axır nəfəsimə kimi erməni hökumətinin qulu olacağam.

Karo istehzalı bir təbəssümlə:

- Buna bax, kişiyə bax! – dedi, - hər bığı, saqqalı olana kişi deməzlər. – Hirsindən özünü ələ ala bilməyən general-qubernator Saakın, qəlyan tüstüsündən saralmış sallaq bığından yapışıb dartdı… - Bu kişi bığı deyil, gədə bığıdır, gədə! Mən bundan bir tük qoymayacağam qalsın.

Üzünün bir tərəfi əyilib, ağzı açıla qalmış Saak, bığını Karonun əlindən qurtarmaq üçün yalvara-yalvara yerə çökdü. Karo onu təpiklə vurub döşəməyə sərdi. Geri çəkilib mauzerini çıxartdı.

Ölümünü yəqin edən Saakın bədəni qorxudan titrədi… Karonun kitelinin ətəyindən yapışıb yalvarmağa başladı:

- Balalarım sənə qurban, nahankapet, məni öldürmə!.. Rəhmin gəlsin!.. Vahanla Sureni yerin altında da olsalar tapacağam, möhlət ver.

Karo mauzeri qoburuna qoydu.

- Yaxşı, səni yenə yoxlayarıq. Sözlərin yalan çıxsa, özünü də, ailəni də məhv edəcəyəm! Get o bolşeviklərin yerini öyrən, mənə xəbər ver.

Ağasından aman və mərhəmət görmüş bir qul kimi, Saak sevinə-sevinə getdi.

---

[1] Ş a n v o r d i - it oğlu (ermənicə).

## Dördüncü fəsil

Siranuşun getdikcə şiddətlənən xəstəliyi ata-anasına ağır bir dərd olmuşdu.

Baqrat qızının sağalması üçün pul tökməyə, hətta var-yoxundan çıxmağa hazır idi. Nvard isə, gecə-gündüz Allaha yalvarır, yetimə-yesirə nəzir eləyir, kilsədə şam yandırıb, dua oxutdurur və ara həkimlərini çağırtdırıb Siranuşa baxdırırdı.

Xəstənin halını soruşmağa gələn qonşuların, qohum qardaşın təsəllisi ananı sakit eləmirdi. Nvard az-çox təsəllisini ancaq göz yaşlarında tapırdı. Qızının yastığının böyründən kənara getməyən ana, gecələr yatmayıb, Siranuşa keşik çəkirdi.

Nvard bu səhər erkən yenə Siranuşun yatağının yanında oturmuşdu. Əllərini qoynuna qoyub, başını sinəsinə əyərək, fikir-xəyal içində öz-özünə danışırdı:

«Kəräminə şükür, Allah! Gərək elə mənim qızımı azara-bezara salaydın?! Ey xuda, sənin yanında nə üzüqaralıq, nə pis bəndəçilik eləmişəm ki, sinəmə dağ çəkirsən! Həftələrlə qarnı çörəklə doymayanların canı buz baltası kimidir. Axı, mən Siranuşumu naz-nemət içində böyütmüşəm. Mənə yazığın gəlsin, rəhmin gəlsin! Sənin yolunda yeddi bazar günü kilsəyə ayaqyalın gedib dua edərəm. Yeddi həftə pas[1] saxlaram. Bir gün də tamam ac qalaram…».

Nvard başını qaldırıb, qızının tutqun sifətinə baxdı. Siranuşu oyadıb ona demək istədi:

«Ürəyim partlayır, bala, ananı bədbəxt eləmə, Siranuş!» Lakin onu narahat etməyə qıymadı. Yenə öz könlü ilə danışmağa başladı: «Bəlkə, qızıma göz dəyib? Bəlkə, onun gözəlliyinə, firavan yaşamasına həsəd aparanlar var. Siranuş, axı, malımız-dövlətimiz həddən aşıb. Sənsiz onları neynirəm, bala! Bəlkə məni Araksinin, Qrikorun arvadının qarğışı tutub? Yoxsa, Siranuş o dəli arvaddan qorxub, dualıq olub? Samvel də uşaq vaxtı dağda canavardan qorxmuşdu, gədə bir ay özünü-sözünü bilməyib yatdı. Şəkili molla Heydərin yanına gedib dua yazdırdım. Sağaldı. İndi molla Heydəri hardan tapım? Bilmirəm ölüb, qalıb. Axı bu musurman kəndlərini niyə dağıtdılar?!. Yenə o mollanın yanına gedib Siranuşa dua yazdırardım…».

Nvard çox fikirləşdi ki, nə eləsin, kimin yanına getsin. Əngələviddə və başqa yaxın kəndlərdə olan biliciləri, ara həkimlərini çağırtdırmışdı. Hərə bir söz deyib, pulunu, payını alıb getmişdi. Kəndin qoca, mömin kişiləri, dindar arvadları isə Siranuşu Şinher vankına[2] aparmağı məsləhət görmüşdülər. Lakin xəstənin halı pozulduğu üçün ora apara bilməmişdilər. Varsenik qarı Nvarda demişdi ki, bir xoruz öldürüb ətini yeddi evə paylasa, xəstə anadan doğma olar. Nvard onu da eləmişdi. Amma, Siranuşun xəstəliyi daha da artmışdı.

Siranuş yuxunun içində bir neçə dəfə bərk öskürüb, gözünü açdı. Üzünü anasına tərəf çevirdi. Dodaqları titrədi, lakin Nvard onun nə dediyini, nə istədiyini eşitmədi.

---

[1] P a s – dini adət. Ermənilər pas saxlayanda ət, yağ, yumurta yemirlər.
[2] V a n k - pir, ocaq.

- Canım, ciyərim bala! – deyə Nvard Siranuşun hərarətdən alışıb yanan yanağından öpdü. Əlini onun enib-qalxan sinəsinə, ürəyinin üstünə qoydu. – Balam təndir kimi yanır. Dərdin nə ağır oldu, Siranuş!.. Sənə nə oldu, qızım? Hansı bədnəzərin gözü dəydi…

Siranuş heç bir söz deməyib, üzünü yana döndərdi, qaşlarını çatıb, gözlərini yumdu.

- Gözünü aç, Siranuş. Bir gör sərçələr pəncərədə necə civildəşir… Bir bax, gün çıxıb, qar əriyib. Bu gün, sabah haçaquyruq qaranquşlar də gəlib eyvanımıza qonacaq, yaz açılacaq, bağçamızda gül gülü çağıracaq. Sənin toy məclisini orda quracağam… Həsrətimi ürəyimdə qoyma, Siranuş!..

Nvard qəhərləndi. Xəstəni, hönkürtüsü ilə narahat eləməmək üçün, çiyninə saldığı şalının ucunu ağzına tutdu.

Saatlar ötüb keçdi. Gün günorta yerinə gəldi.

Qapının dalından səs eşidildi:

- Buyur, bjişk[3], buyur!

Baqratla Arakel içəri daxil oldu.

Nvard tez ayağa qalxdı.

Baqrat Arakelə stul verdi.

- Otur, bjişk. Mənim naxoş qızım budur.

Arakel balaca əl çamadanını pəncərəyə qoydu. Stulu Siranuşun yatağının yanına çəkdi və Nvarda müraciət elədi:

- Zəhmət olmasa, təmiz çay qaşığı gətirin.

Həkimin gəlməsilə qaşqabağı bir az açılmış Nvard getdi.

- Bu gözəl xəstə qızın adı nədir?

Baqrat qəmgin halda cavab verdi:

- Siranuşdur.

- Aha, Siranuş, çox yaxşı… - deyə Arakel stulu bir az da xəstəyə yaxın çəkdi. Qızın üzünə diqqətlə nəzər saldı. Onun nə vaxtdan xəstələndiyini, yaşını soruşdu.

Baqrat onun suallarına ağır-ağır cavab verdi.

Arakel qızın nəbzini tutdu, saata baxa-baxa onun ürəyinin döyüntüsünü saymağa başladı.

- Ürəyi normadan çox vurur, - deyə Siranuşun qolunu yorğanın altına qoydu və qızdan soruşdu: - Haran ağrıyır, nədən şikayət edirsən?

Huşu özündə olmayan Siranuş cavab vermədi.

Baqrat bir az qabağa gəldi, xəstənin başı üstündə dayanıb dedi:

- Səni həkim danışdırır, cavab ver, qızım.

Siranuşdan səs gəlmədi.

- Qız kürəyinin ağrısından şikayət eləyir. Çox öskürür, təngnəfəs olur, - deyə Baqrat üzünü qızına tutub əlavə etdi: - Özün danış, bala, dərdini həkimə de.

Siranuş birdən gözünü açdı, lakin onların üzünə çox baxa bilməyib, başının ağrısından dərhal gözünü yumdu.

---

[3] B j i ş k - həkim (ermənicə).

Nvard gəldi, qaşığı həkimə verib bir tərəfdə dayandı. Arakelin göstərişi ilə Nvard Siranuşun başını qaldırdı və ərinə:

- Yastığı bəri çək, - dedi.

Baqrat yekə bir yastığı götürüb Siranuşa söykək qoydu. Qızı yerinin içində oturtdular. Onu boğucu bir öskürək tutdu, sakit olandan sonra, həkim nəvazişlə dedi:

- Siranuş, bir ağzını aç görüm.

Başı üstündə durmayan Siranuş qanı qaçmış dodaqlarını bir-birindən ayırdı…

Həkim xəstənin ciyərini, ürəyini müayinə etdi.

Nvard Siranuşu yerinə uzatdı, yorğanı onun üstünə çəkərək yanında oturdu.

Həkim nə isə düşünürdü. Nvard, onun fikrə getməsindən, qızının sağalmaz bir xəstəliyə tutulduğunu güman etdi. Yarpaq kimi titrəyən ana qəlbinə bir matəm çökdü.

- Başına dönüm həkim, qızın xəstəliyi nədir? Azarı qorxulu deyil ki?

Nvard həkimdən yaxşı sözlər, təsəlli verəcək bir cavab gözləyirdi.

- Ona bərk soyuq dəyib, vaxtında müalicə olunmadığı üçün sətəlcəmə çevirib. Nə üçün qız xəstələnən kimi həkim çağırmamısınız?

- Kənddə həkim, dava-dərman nə gəzir, a qadan alım.

- Olanda da, qaçırsınız. Kasıblar həkimə, dava-dərmana verməyə pul tapmır, avamlar, dindarlar həkimi şeytan əməlli bir adam hesab eləyib, ümidini pirə, ocağa, nəzir-niyaza bağlayır, dövlətlilər də, fikirlərini cansağlığına yox, çox qazanmağa, sürü, mal-heyvan artırmağa verirlər. Elə sizin özünüz… övladsız nəyə gərəksiniz?

Həkimin «övladsız nəyə gərəksiniz» sözləri Nvardın ürəyinə bir ümidsizlik kölgəsi saldı.

- Yəni deyirsən… - Sözünün dalını deməyə Nvardın dili gəlmədi.

Həkim onun nə soruşacağını başa düşdü.

- Bəli, - dedi, - qızınızın xəstəliyi ağırdır. Ancaq…

Arakel sözünü qurtarmamış Nvard:

- Ah, balam əlimdən gedəcək! – deyə ağlamağa başladı.

Baqrat arvadına acıqlandı:

- Bir səsini kəs görək həkim nə deyir, qızın dərdinin çarəsi nədir.

Nvard səsini kəsmədi:

- Mənə rəhmin gəlsin, ay həkim! Ona hələ toy eləməmişəm. Sən elə bircə qızımı sağalt, bax, bu ev-eşik, dövlət-mal hamısı olsun sənin…

Arakel Nvarda və nitqi qurumuş kimi, ayaq üstə donub qalmış Baqrata təsəlli verib axırda dedi:

- Əsl həkim üçün pulun, payın heç bir əhəmiyyəti yoxdur. Onun vəzifəsi insanları sağaltmaq, vaxtsız ölümdən xilas etməkdir. Qızınızın sağalması üçün əlimdən gələni əsirgəməyəcəyəm.

Arakel o gündən Siranuşun müalicəsi ilə məşğul oldu.

«Dərd adamın canına xalvarla girir, misqalla çıxır».

Günorta vaxtı idi. Arakel Siranuşa dərman verdikdən sonra, stulunu çəkib pəncərənin qabağında oturdu və kitab oxumağa başladı.

Arakel yalnız öz ixtisası çərçivəsində qalmayan, təbiətdən, bədii ədəbiyyatdan zövq alan bir həkim idi. O, erməni şifahi ədəbiyyatına da yaxşı bələd idi. Uşaq vaxtında atası ona çox nağıl, qoşma, atalar sözü, tapmaca söyləmişdi.

Gimnaziyanı əla qurtaran Arakel, Moskvaya gedib Lazarev institutuna daxil olmaq, şərqşünaslıq ixtisası qazanmaq fikrinə düşmüşdü. Lakin atası buna razılıq verməyib oğluna demişdi: «İstəyirəm ki, həkim olasan, həm camaata qulluq eləyəsən, həm də məni qocalanda, naxoşlayanda özün sağaldasan».

Gənc Arakel hörmətini çox saxladığı atasının sözündən çıxa bilməmişdi.

Həkimliyi qurtarıb kəndə gəldiyi il atası vəfat etmişdi. Böyük torpaq, mülk sahibi olan, ancaq heç kəsi incitməyən, yeri düşdükcə yoxsula, dilənçiyə əl tutan Baqdasarın ölümündən sonra, ailəyə Arakel başçılıq etməli olmuşdu. Ancaq o, mülkədar olmaq, mal-dövlət yığmaq eşqinə düşməmişdi. Atasından qalan hər nə varsa, özü ilə qardaşlarının arasında bölmüş, payına düşən pulu götürmüş, əkin və biçənək yerlərini kəndlilərə bağışlamışdı.

«Arakel dəli olub, mal-dövlətini dağıdır» deyə onu məzəmmət edən kəndlilərə və öz doğma qardaşlarına cavab vermişdi: «Mənə torpaq, meşə, mal-dövlət lazım deyil. Kotanın dəstəsindən tutub yer əkən də deyiləm. Amma, bir çanaq darı səpmək üçün bir parça torpaq həsrətində olanlar çoxdur. Əsl dövlət – savaddır, həkimlikdir. Onu mənim əlimdən heç kəs ala bilməz. Mən onun vasitəsilə hər yerdə çörək tapacağam…».

Arakel əvvəlcə kənddə ambulatoriya açıb camaatı pulsuz müalicə eləmək fikrinə düşmüşdü. Bu fikir onda, hələ institutda oxuduğu zaman əmələ gəlmişdi. Lakin kənddə şərait olmadığı üçün ambulatoriyanı Gorusda açmaq qərarına gəlmişdi. Bu məqsədlə də 1915-ci ildə Gorus şəhərinə köçmüşdü. Lakin cahan müharibəsi dövründə lazımi avadanlıq, dava-dərman ala bilmədiyinə görə arzusu ürəyində qalmışdı. Elə o zamandan Gorusda yaşamağa, həkimliklə məşğul olmağa məcbur olmuşdu.

…Birdən sakit otağı aydın bir səs götürdü: «Haradasan, Suren? Ay bivəfa… Yaxşı, küsmə, gəl…».

Həkim dərhal kitabı büküb xəstəyə diqqətlə baxdı, onun hərəkətlərinə fikir verdi…

Dünyada ən çox sevdiyi, həsrətindən sanki ürəyi yanıb kül olduğu bir adamı bağrına basmaq istəyirmiş kimi, Siranuş qollarını geniş açıb yenə sayıqlamağa başladı:

«Mən etibarsız deyiləm, Suren. Gəl, tez gəl!»

Qızın bəzən günəş kimi gülümsəyən, bəzən bulut kimi qaralan simasına tamaşa edən həkim öz-özünə fikirləşdi: «Onun yuxuda «gəl, gəl» deyə çağırdığı Suren kimdir?»

Siranuş o biri yanı üstə çevrildi.

Arakel yenə kitabı oxumağa başladı.

Nvard içəri girdi. Həkimə salam verib, Siranuşun yatağının yanında oturdu. Əlini qızının alnına qoydu.

- Balam od içində yanır, - deyə qoynundan bükülü kağız çıxarıb yastığın altına qoydu və ürəyində dedi: «Ey dua sahibi, özün qızımın dadına yet!»

Siranuş yenə sayıqlayıb Surenin adını çəkdi.

- O gədənin adı yenə qızın dilindən düşmür. Pərvərdigara, mən necə eləyim?! – Nvard başını əyib Siranuşun atlas kimi qızarmış üzünə baxdı. – Sənə dua yazdırmışam ki, sağalasan, yuxuda sayıqlamayasan, qızım. Atan bu gün sənə qurban kəsəcək, bala! Anasını bədbəxt eləyən gözəl, göyçək bala!..

- Xəstəliyə qurban neyləsin?!.

- Elə demə, həkim, mənim oğlumu dua qurtardı. Yefremverdiyə baxdırmışam. Siranuş dualıqdır. Bir az yaxşılaşan kimi Şinətəkdağı «Surp hovanes[1]» vankına aparacağam.

Nvardın sözlərinə əhəmiyyət verməyən Arakel soruşdu:

- Suren kimdir ki, Siranuş yuxuda tez-tez onun adını çəkir?

- Dərənin bir tulası. Dünən həyətdə gördüyün o dəli Araksinin oğludur.

- Bəs Siranuşun onunla nə əlaqəsi?

- Nə deyim vallah, xalqa it hürəndə, bizə də çaqqal hürər. Belə, Allahdan gizlin deyil, bəndədən nə gizlin: guya, bizim qız o gədəyə, o da bizim qıza bənd olub. Necə deyərlər, itin qələt eləməyidir ki, qayğanaqdan pay uma. Allaha qurban olum ki, Sureni evindən-eşiyindən didərgin saldılar, xəbərini indi heç qarğalar da gətirmir. Qızın nişanlısı, o axmaq gədəni tapsa, təpəsinə birgə güllə çaxacaq.

- Siranuşun nişanlısı kimdir?

Nvard təəccüblə soruşdu:

- Mahalın böyüyünü tanıyırsan?

- Karo Hamparsumyan?

- Daha ondan başqa kim olacaq.

- Bəs general-nahankapetin Surenlə nə işi var?

- Mənim başım çıxmaz. Giyəvimiz Karo, elə bizim kişi də, deyirlər ki, Suren bolşovoydur. Onu bilirəm ki, bizim dövlətimizi, yerimizi alıb, ayağı çarıqlı-patavalı kəndlilərə vermək istəyirdi. Xudavənd elə iş işlədi ki, öz yurdu-yuvası tarmar oldu.

Arakellə Nvard xeyli söhbət elədilər. Karonun adamları həbs eləməsini, evləri dağıtmasını bir qəhrəmanlıq sanan və bir qaynana kimi, onun bu hərəkətlərini özünə şöhrət bilən Nvarddan Arakel çox şey öyrəndi. Armenakın, Anahidin öldürülməsinin, Araksinin dəli olmasının səbəbini bildi. Baqratın ailəsinin daxilinə bələd oldu. Lakin bir söz demədi.

Hər ikisi susdu. Arakel pəncərədən bayıra baxanda Baqratı və onun yanında tanımadığı qoca bir kişini gördü. İkisi də eyvana çıxıb, o biri otağa getdilər.

Arakel bir saat idi ki, Baqratla Arzonun danışığına diqqətlə qulaq asırdı. Söhbət alver barədə gedirdi. Arzo var-yoxu bir parça əkin yerini Baqrata satmağa gəlmişdi. Lakin onlar qiymət üstündə razılığa gələ bilmirdilər.

Özünü stula yayıb, qıçını qıçının üstünə aşıraraq, tuluq kimi şişmiş qarnını qabağa verən Baqrat:

- Hə, Arzo kişi, razısanmı? – dedi.

- Çox ucuz qiymətə istəyirsən, az verirsən, Baqrat ağa. Mənim əlacımı Allah kəsib, yoxsa, kəndli də torpağını satarmı?.. Amma, gərək sən də elə eliyəsən ki, nə

---

[1] Ocaq adıdır (ermənicə).

Allaha naxoş getsin, nə bəndəyə. Necə deyərlər, nə şiş yansın, nə kabab. Sənin əlin istidir. Baqrat ağa, artıq versən də itər yerə getməz. Bir az da gəl üstünə.

- A kişi, onu bil ki, mən yerinin dolu qiymətini verirəm. İki pud arpa, bir pud buğda… Daha nə istəyirsən? Bir parça yerə üç pud taxıl… Bu aclıq illərində hələ çox verirəm. Onu da bil ki, Arzo kişi, bu qədər taxılı sənin yerinə heç kim verməz. Əvvəla, yerin demi yerdir, ikinci, daşlıdır, qanqallıdır, üçüncüsü, xam deyil, hər il əkilib, yerin canı gedib, şirəsi alınıb. Vallahi və billahi kəndli olduğumuz üçün sənə güzəştə gedirəm. İstəmirəm ki, külfətin acından korluq çəksin. Elə sənin külfətinin də namusu mənimdir.

- Söz yox, elədir. Deyir, qonşunun namusunu çəkməyən, öz namusunu da çəkməz. Bu barədə Allah atana çox rəhmət eləsin… - Arzo fikirləşəndən sonra, məhzun-məhzun, - yox, yox, ürəyimdən gəlmir! – dedi.

Baqrat bığlarını eşə-eşə güldü:

- Ürəyin gəlmirsə, niyə kəndin içindən dalıma düşüb evimə gəlirdin. Mən ki, səni yerini satmağa məcbur eləmirəm. Özün mənə ağız açdın, mən də razılıq verdim. Qərəz, axırıncı sözün nədir? Mən istəmirəm ki, dilənçi kimi ona-buna əl açasan. Yenə deyirəm, biz bir kəndliyik…

Baqratın sözlərindən bərk tutulan Arzo:

- Mən hələ heç kəsin qapısına gedib əl açmamışam, - dedi. – Bunu həmişə özümə ar bilmişəm. Az tapmışam, az yemişəm, çox tapmışam çox. Amma indi ehtiyac bir ilan olub dolaşıb külfətimin boynuna. Mən ataların bu misalını indi başa düşürəm, toxun acdan xəbəri olmaz! – Arzo xəcalətindən başını aşağı əydi. Damarları nazik göy qaytan kimi görünən, qırış-qırış alnını soyuq tər basdı. Sözünə davam edib dedi: - Mən özüm heç, qoca kişiyəm, bir ayağım evdədir, bir ayağım gorda. Amma nəvələrim, gəlinim var. Nə deyim, Baqrat ağa, külfət, uşaq dərdi adamı yay kimi əyir…

Baqrat:

- Yaxşı, Arzo, yaxşı, - dedi. – Başını yuxarı qaldır görək doğrudan yerini satmaq istəyirsən, yoxsa adam axtarırsan ki, ürəyini boşaldasan? Özü də elə yazıq-yazıq danışdın ki, ürəyim bir təhər oldu. Beş girvənkə arpa artırıram. Hamısı bir yerdə oldu üç pud, beş girvənkə taxıl. Allah xeyir versin, əlini bəri ver!

Arzo əlini ona uzatmadı. Bir söz demədən, yerindən qalxmaq istədi.

- Hara durursan?

- Daha gedim…

- Nə oldu, fal bəd vurdu? Pişik asqırdı? – Baqrat ucadan güldü. – Demək, sövdəmiz baş tutmadı?

- Mən fikrimdən döndüm. Qoy külfət acından qırılsın, batsın. Amma o qiymətə… Yox, yox, insaf deyil. O bizi yaradan haqqı heç insaf deyil… - Arzo ayağa qalxdı. – Allah adamın əlacını kəsəndə, bəndə gərək onun boynunu vurmasın… Bağışla Baqrat ağa, sənə baş ağrısı verdim…

Fürsəti əldən vermək istəməyən Baqrat stuldan qalxıb, Arzonun qolundan yapışdı:

- Otur, a kişi, otur! – deyə onu oturtdu, - niyə uşaq kimi küsüb, inciyirsən? Mən sənə nə pislik eləyirəm ki? Mən istəyirəm…

Arzo onun sözünü kəsdi:

- Mən heç kimdən nə küsürəm, nə inciyirəm. Öz baxtımdan küsürəm ki, oğlum rus-osmanlı davasından qayıtmadı. Arvadı, iki balaca uşağı düşdü üstümə. Mən də girdən, qüvvədən düşmüş bir qoca… Onu da bilirəm ki, sən Baqrat ağanın yerə, mülkə ehtiyacı yoxdur. Amma, deyərlər ki, artıq tikənin ziyanı yoxdur…

Baqrat Arzonun sözlərindən pərt oldu. İstehzayla gülümsünərək dedi:

- Atalar onu da deyib ki, hər şey nazikliyindən sınsa, insan yoğunluğundan sınar. Hər halda, mən Baqrat ağayam. Sənə də yaxşılıq eləmək istəyirəm… Yaxşı, belə deyək ki, mənə satmadın, nə eliyəcəksən? Torpaq yeyəcəksən?.. Camaat bir girvənkə arpa ununu tapanda, papağını göyə atır. Sən üç pud beş girvənkə taxılı az bilirsən? Hə, yenə nə fikirləşirsən? Allah xeyir versin, əlini bəri ver!

Arzo ürəyində götür-qoy eləyirdi: «Nə eləyim? Verimmi? Verməyimmi? Keçən il cöngəni kəsib ətini satdım, bu il palazımı, gəbəmi dəyər-dəyməzinə verdim. İndi axırıncı ümidim bir parça torpağımadır. Onu da satım – neyniyim, satmayım – neyniyim?..»

- Mən səndən cavab gözləyirəm. Niyə dillənmirsən?

Arzo Baqratın sözlərini eşitmədi. O, xəyalən öz evinə qayıtmışdı… Sevinə-sevinə, gülüşə-gülüşə, çiyninə atılan, saqqallı üzündən öpən nəvələri deyirdilər: «Babamız gəldi, un gətirdi. Doyunca çörək yeyəcəyik. Sən nə yaxşı babasan…».

- A kişi, nə fikrə getmisən? Satmırsan, bir dəfəlik de satmıram. Get, kim çox verir ona sat.

Arzo, gözlərinin üstünü örtmüş çal qaşlarını yuxarı dartdı. Acı həyatın, dözülməz məşəqqətin izləri sezilən, yanları qırışmış balaca gözlərini, qarnı tox, lakin gözü ac mülkədara zillədi. Bir qədər eləcə, dinməz baxandan sonra dedi:

- Mən qaçıram, sən qov, neynək… Amma nəfəsimi kəsmə, Baqrat ağa! Yeri sənə verirəm, ancaq, sən oğlunun canı, üstünə bir pud buğda da gəl.

Baqrat ucadan gülə-gülə dedi:

- A kişi, biz burda mahal satıb almırıq ki… Yoxsa, o bir qırıq daşlı, qanqallı yer sənin gözündə dünya boyda qızıl görünür? Hələ mənim oğlumun canına da and verirsən… - Baqrat sakit oturub, qulaq asan Arakelə müraciət elədi: - Həkim, elə bizim sövdəmizi sən kəs. Allaha şükür, qanacaqlı, başa düşən adamsan. İndiki zəmanədə bu kişinin, bir qulaq yerinə nə qədər vermək olar?

- Bəli, zəmanə… - deyə Arzo köksünü ötürdü. – Mənim belimi əyən, il-ildən pis gələn zəmanə!

Baqratın torpaq acı, torpaq dəlisi olduğunu onların danışığından başa düşən Arakel:

- Sizin alverinizə nə qarışım, - dedi. – Baqrat ağa, yer var, yer var, adam var, adam var. Hər halda, bu ağır illərdə kəndlini dolandırmaq lazımdır. Ehtiyacı olanlara əl tutmaq özü yaxşı işdir. Mən hələ beş il bundan əvvəl əkin və biçənək yerimi verdim öz kəndlilərimizə. Gördüm ki…

Baqrat onun sözünü kəsdi:

- Atana Allah rəhmət eləsin, sözünün arasında əzizlərin dursun. Buradaca dayan. Yerin neçə desyatin idi? Neçəyə satdın?

- Mən müftə verdim.

- Müftə deyəndə, yəni neçəyə? Yüz manata? İki yüz manata?

- Pulsuz verdim. Dedim: əkin, biçin, dolanın.

Baqrat əvvəl təəccübləndi, sonra qəhqəhə çəkdi.

- Bağışla, həkim, sən ya bizi ələ salırsan, ya nağıl danışırsan. Bu Arzo kişi də elə bilər ki, dünyaya təzə hatəm gəlib, müftə torpaq bağışlayır.

- Düzü belədir, Baqrat ağa.

Baqrat daha da təəccübləndi.

- Eşitməmişəm, görməmişəm ki, bir adam öz torpağını başqasına peşkəş eləsin. Acığına gəlməsin, Arakel, mahalda tanınmış bir həkim olmasaydın, sənə dəli deyərdim.

- Dünyada çox şeylər var ki, biz nə görmüşük, nə eşitmişik. Yunan filosofu Sokrat deyir ki, insanın bilmədiyini ayağının altına yığsan, başı göyə toxunar.

Arakellə Baqratın arasında söhbət təzədən qızışdığı zaman, Nvard gəlib həkimi xəstənin yanına çağırdı.

Arakel Nvardla bərabər getdi.

Baqrat:

- Arzo kişi, sən də get, - dedi, - Bjişkin sözlərini eşidəndən sonra, daha sövdəmiz heç baş tutmaz.

Arzo yanında qoyduğu çəliyini götürdü. Ona dayanıb, ağır-ağır yerdən qalxdı.

- Ver, Baqrat ağa, nə qədər verirsən, ver.

- Yaxşı, sabah günorta vaxtı gəlib taxılını apararsan. Özün də gərək mənə qol kağızı verəsən ki, bir də o yerini dəbbələməyəcəksən. Başa düşdün?..

Ürəyində həm sevinc, həm kədər aparan qoca Arzo çəliyinə dayana-dayana pilləkənlərdən həyətə enəndə, onu ət iyi vurdu. Siranuşa qurban kəsilmiş boz erkəyin ətindən çoban Arsen qara damda kabab bişirirdi…

…Bir neçə gün idi ki, Baqratla Nvard fərəh içində idilər. Siranuş özünü çox yaxşı hiss edirdi.

Baqrat qızının sağalmasını həkimin diqqətli müalicəsində görürdü. Nvard isə ürəyində deyirdi: «Siranuşu təzədən mənə qaytaran kilsədə elədiyim dua, kasıba-kusuba verdiyim nəzir, kəsdiyim qurban oldu; Allahın mənə yazığı gəldi…».

Arakel öz evinə qayıtdığı gün Baqratla Nvarda demişdi: «Qızınızın sətəlcəmini sağaltdıq. Ancaq mən müşahidə etmişəm, qızınızın ikinci «xəstəliyi» də var ki, onu sağaltmaq məndən asılı deyil. O, sizdən asılıdır. Siranuş sevir, onu öz sevdiyinə verin. Yoxsa, qız fikirdən, qüssədən azara düşə bilər. Ürəyə zor eləmək olmaz. Sonrakı peşmançılıq fayda verməz…».

## Beşinci fəsil

Malını, pulunu özü ilə aparmağa müvəffəq olmuş dövlətlilər və bəzi kəndlilər istisna olunarsa, Zəngəzur qaçqınlarının güzəranı getdikcə pisləşirdi. Minlərlə insan səfalət içində idi, onların əkməyə torpaqları, yeməyə çörəkləri, geyməyə paltarları yox idi. Boğazlarına keçmiş fəlakət zəncirini qırıb atmağa heç bir yol və imkan tapa bilmirdilər. Yaxşı yaşamaq üçün deyil, yalnız ölməmək üçün hər bir əzab-əziyyətə, təhqirə dözməyə məcbur idilər.

Dünyada həyatdan şirin şey yoxdur. İnsan can ağzından çıxana qədər yaşamaqdan ümidini üzmür. Güzəran pisləşdikcə, insanın yaşamağa, özü də çox yaşamağa həvəsi, arzusu artır. Elə zənn edir ki, yaşadığı bugünkü pis, bəlalı, kədərli günün arxasında gözəl, ehtiyacsız günlər vardır. İnsanda bu təbiət olmasaydı, yaşayış mənasız və mübarizəsiz olardı. Məhz, buna görə də Zəngəzur qaçqınları fəlakətli, səfalətli bir həyat içində, haradansa, xoşbəxtlik günəşinin doğacağını gözləyirdilər. Hamı yandırılıb, viran edilmiş də olsa, öz kəndinə, yurd-yuvasına qayıtmaq, yenidən yaşayış qurmaq həsrətində idi.

Lakin daşnakların hökmranlıq etdikləri bir torpağa qayıtmaq mümkün deyildi…

Deyirlər, suda boğulan əlini saman çöpünə atar. Həyat və ehtiyac başı bəlalı insanları hər işə məcbur edirdi. Kimi başqasına majgəllik edir, kimi naxır otarır, kimi yer suvarır, kimi cəhrə əyirir, yun darayır, kimi əlinə haradansa maya salıb çərçiliklə məşğul olur, kimi də dilənçilik edirdi.

Qaçqınlardan bəziləri gəlib əyləndikləri kəndlərdən tərpənmir, «ölsək də burda öləcəyik» deyir, bəziləri də heç olmasa, bir dəfə qarın dolusu çörək tapmaq arzusu ilə kəndləri gəzib dolaşır, münasib iş axtarırdı.

O gün olmazdı ki, qaçqınlardan bu və ya digər kənddə xəstəlikdən acından ölən olmasın. Vətənlərindən didərgin düşdükləri on ay müddətində minlərcə qaçqın yayda isitmənin, qarın yatalağının, qışda isə sətəlcəmin qurbanı olmuşdu.

1919-cu il, aprel ayının axırları idi… Havalar tez-tez açılıb tutulurdu. Bəzən şiddətli yağan yağışlar iki-üç gün kəsilmirdi. Bəzən də günəş səhərdən axşamacan hər yeri qızdırdığından, torpaq buxarlanırdı.

Yağışdan sonra günəşin şüaları altında daha da gözəlləşən, sanki cavanlaşan ağaclar, bağ arası çəmənlər yamyaşıl olmuşdu. Bir tərəfdən müxtəlif quşların səsi, ikinci tərəfdən sahillərini aşıb-daşan Bərgüşad çayının qıjıltısı ətrafa yayılırdı. Kəndin yaxınlığındakı çaylaqlarda çəltik üçün yer əkən cütçülərin holavar səsi də bir tərəfdən yüksəlirdi.

Baharın bu xoş çağında nə insan dörd divar arasında qalmaq istəyir, nə cücü, böcək, həşərat öz yuvasında gizlənirdi. Təbiət sanki hər bir canlının qanını damarlarında oynadır, əməyə, çalışmağa çağırırdı…

Tövlənin qapısı açıldı. Nəbi içəridən çıxıb ağır addımlarla həyətə gəldi. Alçaq divarın üstündə oturub ayaqlarını aşağı salladı. Qışda odsuz-ocaqsız, soyuq tövlədə buza dönmüş bədənini qızdırmaq üçün özünü günə verdi.

Yaz günəşinin isti şüaları altında qızışıb xoşlanan Nəbi gərnəşdi. Çirkdən, bitdən qotur tutmuş canını xartaxartla qaşıdı. Sonra qəlyanını doldurub, çaxmaq-qovla yandırdı. Onu sinə dolusu sümürə-sümürə, Bərgüşad çayına, kəndin altından uzanıb gedən çiçəkli meyvə bağlarına xeyli tamaşa elədi. Onu fikir-xəyal götürdü. Doğma kəndi Şəkini, viran qalmış komasını xatırladı. Fikirləşdikcə qəhərləndi, öz-özünə danışmağa başladı: «İndi bizim yerlərdə də yazdır. Çöl-bayır göyərib, söyüdlər yarpaqlayıb, çayın, bulaqların qıraqlarında yarpız baş qaldırıb… Həmişə bu zaman mən də bel götürüb kərdi-külə qayırırdım, paxla əkirdim, qızıl gül kollarının dibini boşaldırdım, çör-çöpünü arıtlayırdım. Eh, görəsən mənim ev-eşiyim, pal-paltarım, torpağım hansı zalimə qismət oldu? Görəsən qızıl güllərimi qırıb tələf eləmədilər ki?.. Paxlalığımda nə əkiblər? Biz kəndə qayıtsaq, ermənilər

hər kəsin evini, torpağını özünə verəcəklərmi? Comərd deyirdi: «Darıxma, qağa, yaman günün axırı aydınlıqdır. Yenə öz kəndimizə qayıdacayıq. O zaman nə erməni daşnakları olacaq, nə müsəlman mülkədarları». Amma, mən buna inanmıram. Tökülən dolmaz. Elə öz qardaşımın da əlləşib, vuruşmasından, onunla, bununla döş-döşə durub dava-dalaş salmasından bir şey çıxmadı. Andronik kökümüzün üstündə od qaladı. Allah baislərin evini başına uçursun… Axı, biz ermənilərə nə eləmişdik?.. Niyə məxluqu yerindən, yurdundan elədilər?.. Görəsən Armenakgilin dolanışığı necədir? Görəsən heç bizi yadlarına salırlarmı? İnanmıram ki, bizdən üz döndərələr. Mən ki, Armenakı tanıyıram, vallah əlacı olsa, yerimi bilsə, ayaqyalın gəlib məni tapar. Yəqin ki, o da mən deyəni deyir: Allah dostu-dostdan ayıranların ocağını qaraltsın».

Nəbi yenə canını qaşıdı, sönmüş qəlyanını təzədən yandırdı…

Növrəstə əlində yamaqlı, kirli, boz çuxa gəldi.

- Gün olsa da, sənə soyuq dəyər, ata! – deyə çuxanı Nəbinin çiyninə saldı. – Naxoşluqdan təzə durmusan, zəifsən.

Növrəstə atası ilə yanaşı oturdu.

Nəbi qəlyanını sümürüb:

- Hə, qızım, - dedi, - əvvəlcə qızdırma-titrəmə, sonra da bu zəhrimar qotur məni əldən saldı. Bu Bərgüşad çayının lili, isti suyu biz dağ adamlarını puça çıxartdı. Bu yerin mığmığası canımızı qızdırmaya saldı. Görünür ki, bu əzab-əziyyəti alnımıza Allah yazmışdır. Neynək, kəráminə şükür… - Nəbi yenə bədənini qaşıya-qaşıya sözünə davam elədi: - Elə bu qoturluq, qaşınma bədənimdən çıxsa, yenə bir işdən-gücdən yapışa bilərəm. Deyirəm, ay Növrəstə, nə yaxşı ki, Comərdlə Şahmərdan işləyib, bir az dəndən-düşdən alıb evə qoydular, yoxsa biz necə dolanardıq?!

Növrəstə dinmədi. Atasına demədi ki, onların qazandıqları un, düyü qurtarır. Dağarcığın dibində on-on beş yuxalıq un, iki bişirimlik düyü qalmışdır.

Növrəstə Nəbinin qolundan yapışıb:

- Canını qaşıma, ata! – dedi. – Qotur artar, bütün bədənini götürər. İndi Yusif odun gətirər, su qızdırıb köynəyini, dizliyini yuyaram. Özün də girərsən suya.

- Nə deyirəm, bala. Allah səni mənə çox görməsin. Amma heç bilmirəm bu qürbət yerdə axırımız necə olacaq?! O kənddən bu kəndə, bu kənddən o kəndə köçmək bizi əldən saldı… Yuxarımolludan bu kəndə köçdük ki, bəlkə burda dolanacaq tapaq… Eh, hər yer birdir. – Nəbi dərindən köksünü ötürdü. – Comərdlə Şahmərdan da Qiyası götürüb getdilər. İki aydır ki, kağızları, soraqları yoxdur. Nə bilim, başlarına nə gəldi. Allah canlarını barı sağ eləsin. Amma böyük bir səhv eləmişəm, qızım. Gərək burda qalmayaydıq. Onlar ki, bizi aparırdılar, elə gərək hamımız bir yerdə Bakıya gedəydik. Erməni deyər ki, musurmanın sonrakı ağlı mənim olaydı. Nə bilim, dedim, gedərik, orda yaşamağa yer-yuva tapılmaz, uşaqlar işə girə bilməzlər, qalarıq düzlərdə. Heç olmasa, bu kənd yerində, bir töylə bucağında oluruq. Bir az da gözlərik, gəlib çıxmasalar, köçərik başqa kəndə.

Növrəstə köksünü ötürüb dedi:

- Eh ata, hara gedəcəyik ki, buradan yaxşı olsun. Vallah, elə əmim də, o da[1], bizi burda qoyub, nahaqca getdilər. İndi ha gözlə ki, gəlib çıxacaqlar. Sənin naxoşluğun ürəyimi hər şeydən betər sıxır.

Ata ilə qız xeyli dərdləşdilər.

Yusif dalında odun şələsi, həyətə girdi.

Növrəstə ayağa durub:

- Bacın sənə qurban, qardaş! – deyə şələni alıb yerə qoydu. – Yoruldun? Necə də tərləmisən, ay Yusif…

- Yox, bu nə şələdir ki, yorulam. – Yusif qolunun ağzı ilə alnının, üzünün tərini sildi.

Növrəstə odunu götürüb içəri apardı. Yusif atasının yanında oturdu.

- Necəsən, ata? – Yusif, bir tərəfi sürüşüb aşağı düşmüş çuxanı Nəbinin çiyninə çəkdi və gözünü atasının avazımış üzünə zillədi.

- Sən yaxşı ol, bala. Deyəsən şələ sənə güc gəlib, yorulmusan. Eybi yoxdur, iş adamın cövhəridir. Mən bikarçılıqdan darıxıram.

- Şələ ağır deyildi. Qaça-qaça gəlmişəm.

- Yavaş gələ bilmirdin? Dalınca atlı-zad qovmurdu ki…

- Atlı qovmurdu, qoruxçu İbadullah qovurdu.

- Ə, onun səninlə nə işi var?

- Sənə indiyə kimi deməmişəm, ata. Mən həmişə oduna gedəndə, o köpək oğlu mənə göz verir, işıq vermir. Qoymur ki, bağların qurumuş ağaclarından doğrayıb gətirəm.

- Bəlkə, yaş ağacları kəsirsən, onun üçün qoymur.

- Yox, vallah, uşaq deyiləm ha. Bilirəm ki, yaş ağaca dəymək olmaz. Quru kötükdən-zaddan doğrayıram.

- Bəs nə deyir, niyə qoymur?

- Nə bilim, ağzına gələni danışır. Hə, əvvəlcə qonşumuz Şamxal əminin bağından bir az odun qırdım, şələm dolmadı, keçdim Baxış bəyin bağına. Çıxdım yekə dağdağan ağacının təpəsinə. Başladım qurumuş budaqlardan kəsməyə. Dəhrəmin səsini hardan eşitdisə, bir də gördüm söyə-söyə gəldi. Ağacın altında dayanıb, tülkü kimi altdan-yuxarı mənə baxa-baxa dedi: «Ə, düş aşağı! Oğru pişik kimi ora niyə dırmaşmısan?» Bildim ki, hirslənib, məni əzişdirəcək, düşmədim. Ağacı silkələmək istədi ki, yıxılım, gücü çatmadı. Bir neçə dəfə daş atdı. İncəvara heç biri məni tutmadı. Dedi: «Yaxşı, a qaçqın oğlu qaçqın, əlbət yerdə əlimə düşəcəksən, gör sənin başına nə gətirəcəyəm… Zəngəzurdan bura bağ talamağa gəlmisiniz? Gərək ermənilər sizin hamınızı it kimi qıraydılar… Biqeyrətlər…». Mən də ona elə yaxşı cavab verdim. Dedim, siz də bizim günümüzə düşsəniz, qaçqınlığın nə olduğunu onda bilərsiniz…

Nəbi qəlyanını təzədən doldura-doldura soruşdu:

- Sonra nə oldu?

- Heç nə. Nə qədər elədi ağacdan düşmədim. Acığından ayağı ilə şələmi dağıtdı. Mırtıldana-mırtıldana getdi. Ağacdan düşdüm, odunların yığıb şələni bağladım. Elə bağdan çıxanda, qışqırdı: «Dayan, qaçqın köpək oğlu!» Deməynən

[1] Ərinə işarədir.

məni gözləyirmiş. Hara dayanırdım ki… şələ dalımda götürüldüm. Düşdü dalıma. O qovdu, mən qaçdım, o məni hədələdi, söydü, mən də ona cavab verdim. Birdən çarığımın bağı ayağıma dolaşdı, yıxıldım. Yerdən durunca, az qaldı məni haqlasın. Bu dəhgədə Baxış bəy atlı böyürdən çıxdı. İbadullaha nə dedi, nə demədi, məndən əl çəkdi…

- Sən gərək bəyin qoruxçusuna ağır söz deməyəydin, oğul. Kənd onların, bağ-bağça onların. Bundan sonra heç kəsin bir çöpünə də əlini vurma. Səni tutarlar, döyərlər. Bizim də köməyimiz yox. Arxamız yox. Qaçqın babayıq. Atalar deyər: «qərib itsən, qıvrıl yat…».

- Yox, ata, mən heç kəsdən söz götürməyəcəyəm. Nə olar qərib olanda. Bizə dolanmaq lazım deyil?.. Niyə hər yetən üstümüzə ayaq alır?..

Nəbi boy atmış, bığ yeri tərləmiş oğluna baxır, həm sevinir, həm də ürəkdən qəmgin olurdu. Onun arzusu Yusifi oxutdurub adam cərgəsinə qoşmaq idi. Həyat bu mehriban atanın arzusunu gözündə qoydu.

Nəbi ah çəkib qəlyanını sümürdü.

- Ah çəkmə, ata. Fikir də eləmə. Biz həmişə başqasının töyləsində qalmayacayıq. Mən gedib birinə nökər olaram, azdan-çoxdan qazanaram, dolanarıq. Bəs oğul atanın hansı günündə lazımdır…

Oğlundan ilk dəfə belə sözləri eşidən Nəbi fərəhləndi. Yusifin ağıllı qara gözlərinə baxıb-baxıb dedi:

- Allahın kəräminə şükür olsun ki, səni mənə verib. Oğul, elə ona sevinirəm ki, sən daha böyümüsən, yaxşı ilə yamanı, dost ilə düşməni ayırırsan. Amma oğul, səni nökərçiliyə getməyə qoymayacağam. Qəm çəkmə, bala, qüvvətə gələrəm, yenə birinə düyü döyərəm, birinin yerini suvararam, birinə biçinçi olaram, dolanarıq.

Növrəstə atasını yuyunmaq üçün çağırmağa gəldi. Nəbinin qolundan tutub:

- Dur gedək içəri, ata, - dedi, - su qızdırmışam, yuyun.

Nəbi yerindən qalxdı. Hər üçü getmək istədikləri zaman, Baxış bəy həyətin aşağısında göründü. Növrəstə atasının qolunu buraxıb, tez evə getdi.

Nəbinin ürəyinə şübhə doldu: «Yəqin ki, bəy Yusifi döyməyə gəlib». Baxış bəy yaxınlaşanda, Nəbi birinci olaraq ona salam verdi.

Baxış bəy salamı alıb, divarın üstdə oturdu və Nəbinin də oturması üçün əli ilə işarə verdi. Nəbi əyləşdi. Yusif bir tərəfdə ayaq üstə dayandı. Gözünü bəyə dikib ürəyində fikirləşdi: «Görəsən, bəy atama məndən nə deyəcək?..»

Baxış bəy hələ ağzını açıb bir söz deməmiş, Nəbi günahkar adamlar kimi, alçaqdan dedi:

- Baxış bəy, gərək bizi bağışlayasan, taqsırımızdan keçəsən. Oğlum qanmayıb bir az çır-çırpı yığmaq üçün sənin bağına girib. Özüm onu danlamışam. Bir də bundan sonra elə iş görməz. Düzü, bəy, mənim uşağım dələduz uşaq deyil, ehtiyac vadar eləyir… Yusif mənə hər şeyi danışıb. Allah ömrünü uzun eləsin, sən olmasaymışsan, qoruxçu İbadullah gədəni döyüb ölüsünü qoyarmış… Yenə təvəqqə eləyirəm bağışlayasan…

Baxış bəy gülə-gülə dedi:

- Bu barədə kim sənə söz deyir, Nəbi kişi. Nə olar Yusif bir şələ odun yığanda. Lap yaxşı eləyib. Ağacları da kökündən çıxarıb gətirsə, gözünü püləyən

olmaz. Ə, Yusif, bundan sonra İbadullahdan-zaddan qorxma. Tapşırmışam sənə dəyib dolaşmasın. Əgər bir də sənə bir söz desə, cəzasını özüm verərəm.

Yusif ürəkdən şad olub güldü.

Nəbi bəyin alicənablığına görə təşəkkür elədi.

- Nəbi kişi, mən sənin kefini soruşmağa gəlmişəm. Atam Əhmədalı bəy həmişə mənə deyərdi ki, oğul, qəribin halını soruşmaq savabdır. Yoxsulun dərdinə qalmaq, kömək eləmək varlı adamların borcudur. Özü də hamıya əl tutan adam idi. Kasıba, füqəraya, nökərə, qulluqçuya güldən ağır söz deməzdi. Mənə də nəsihət verib deyərdi, bir könülü ki, tikməyəcəksən, onu yıxma. Hə, indi necəsən? Ehtiyacın nəyədir, de, utanma.

- Allah atana rəhmət eləsin, ömrün uzun olsun, bəy, bir təhər dolanırıq…

- Allahdan gizlin deyil, Nəbi kişi, bəndədən nə gizlin: siz bu kəndə gələndən sənə yaman quşum qonub… Nədən ki, dünya görmüş adamsan, şirin söhbətin var. Mən də söhbətcil, ağıllı adamlarla aşnayam. Sənin canın üçün, mən özünü beş şahılıq beçə kimi çəkən adamlardan deyiləm. Rəiyyətə endirməyən, buynuz göstərən bəylərdən deyiləm. Doğrudur, Allah mənim nəslimi, ata-babamı bəy yaradıb, rəiyyəti rəiyyət, amma adamın qanacağına nə gəlib… Bax, səninlə bu divarın üstə, yanaşı oturmuşam. Nə olar. Şənimə şikəstlik gəlmir ki? Bir yerim əksilmir ki?! Əlbəttə yox! Mən elə kəndlilərin hamısı ilə yaxınam. Mən onların hamısının, lap o lütünün də evinə gedib, kefini soruşuram. İndi, Nəbi kişi, mən beləyəm. Onu deyim ki, rəiyyətdən də çox razıyam. Mənə olduqca hörmət eləyirlər. Tutub qoyun kimi başlarını da kəssəm, bir söz deməzlər. Mən adam sərrafıyam, Nəbi kişi. Sənin sifətinə baxanda, iki kəlmə danışmağını eşidəndə bildim ki, qanacaqlı, mərifətli adamsan. Nə olsun ki, qaçqınsan. Əlbət öz yerində bir adam imişsən…

Nəbi:

- Bəli, Baxış bəy, - dedi, - biz də özümüzə görə bir adam idik. Fələyin çarxı çevrilsin. Aranı qızışdıranların, bizi elimizdən, obamızdan eləyənlərin koması dağılsın. – Nəbi susub canını qaşıdı, sonra birdən üzünü oğluna tutdu: - Bay səni, lap yadımdan çıxıb… Yusif, get Nubar qarıgildən bir gəbə gətir, bəyin yanını daş-divar əzdi. Bağışla, bəy, özümüzdə sənin altına salmağa layiqli paltar-palaz yoxdur. Demə ki, Nəbi qanacaqsızdır, məni evə çağırmayır. Bəyi töyləyə çağırmaq ədəbsizlikdir. Niyə durmusan, oğul, sən get.

- Paltar-zad lazım deyil, Yusif. Ancaq Növrəstəyə de ki, getsin bizə. Ev töküblər, paltar yuyurlar. Anam deyir Nəbi kişinin qızı gəlsin, bir az bizə kömək eləsin. O günü evdə söhbət düşmüşdü, anam danışırdı ki, Növrəstəyə bir neçə dəfə iş gördürmüşəm, əlli-ayaqlı gəlindir, səliqəlidir, bəy evinin qulluqçusu olmağa layiq adamdır. Əslinə baxsan, Nəbi kişi, məni sənin yanına elə anam göndərib. Dedi, get Nəbi ilə özün danış. Növrəstəni bizə həmişəlik qulluqçu versin. Yeməyini yeyər, paltarını geyər, sizə də paydan-zaddan gətirər dolanarsınız. Deyir, Növrəstəni öz qızım kimi saxlayacağam. Ona başqa qulluqçular kimi baxmayacağam. Nəbi kişi, buna sənin sözün nədir?

- Nə deyim, bəy… Aftab xanım çağırır – getsin. Bir gün işləməklə adama heç bir şey olmaz. Amma həmişəlik qulluqçu olmasına söz verə bilmərəm. Çünki

ixtiyarı məndə deyil. Qız ata evindən çıxandan sonra, keçir ərinin ixtiyarına. Şahmərdan gələr, danışarsınız, razı olsa, mənim nə sözüm ola bilər.

- Ha… ha… ha!

Nəbi Baxış bəyin birdən qəhqəhə çəkməsindən diksindi.

- Ay rəhmətliyin oğlu, elə danışırsan ki, guya sənin qızını yeyəcəklər… Anam bu sözü mənə çoxdan demişdi. Hələ Növrəstə bacının əri burda olanda. Ancaq mən bu barədə bir söz açmırdım, deyirdim, bəlkə, adamdır də, Şahmərdanın damağına dəyər, qeyrətinə toxunar. Deyər: «niyə, mən o günə qalmışam ki, arvadımı qarabaş verim…». İndi o yoxdur, qızın sənin ixtiyarındadır. Hə, belə, Nəbi kişi… Güzəranınız da mənə məlumdur. Mənim borcum sənin kimi evi dağılmış, qərib adamları öz qanadımın altına almaqdır, kömək eləməkdir. Qaçqın olanda nə olar, hamımız müsürmanıq, əti dırnaqdan ayırmaq olmaz… İndi xəstəsən, bir az dirçələrsən, bostan işini sənə tapşıraram. Bu qoçaq Yusif oğlun da bizim mala gedər… Hə, bir qaçqın ailə mənim hesabıma dolanar.

Nəbi qəlyanını doldura-doldura:

- Çox razıyam, bəy, - dedi, - sən ki, öz ayağınla gəlib halımızı soruşursan, mənə bir at bağışlamaqdan artıqdır. Söz burasındadır ki, niyyətim uşaqları da götürüb dağ kəndlərinin birinə getməkdir. Bu aran yerinin ab-havası bizə düşmür. – Nəbi qəlyanını yandırıb çəkməyə başladı.

- Əşi, ay rəhmətliyin oğlu, ab-hava hamısı sözdür. Onda gərək bizim bu Həkəri-Bərgüşadda bir sağlam adam olmayaydı, hamı qırılaydı. Hər şeyin başı yeməkdir. Nə dağ, nə aran, nə ab-hava… - Baxış bəy üzünü Yusifə tutub dedi: - Get bacına de, yubanmasın, gözləyirlər. Bizim söhbətimiz Nəbi kişi ilə bərk tutub.

Yusif atasının üzünə baxdı. Nəbi başı ilə razılıq işarəsi verdi.

Yusif getdi.

Nəbi dedi:

- Bilmirəm Zəngəzur kəndlərini görmüsən, ya yox. Can bəsləməyə bizim yerlər… Bizim qız-gəlinlərin yanağından qan damır, kişilərinin…

- Ha… ha… ha… - Bəyin gülüşü Nəbinin sözünü yarımçıq qoydu. – Mən ölüm, ay Nəbi kişi, yerinizi az təriflə. Vallah, bizim bu Həkəri-Bərgüşadda elə oğullar var ki, qatırın quyruğunu dibindən qoparar, ha… ha… ha… Bilirsən niyə elə qüvvətlidirlər? Çünki onlar gündə düyü həlimi içib, plov yeyirlər. Nənəsi ölmüş ağ düyünün plovundan! Sən Öl, Nəbi kişi, bizdə elə oğlanlar var ki, öküzü çiyninə alıb, bir nəfəsə, burdan sizin o Şəki kəndinə gedər…

Nəbi özünü saxlaya bilməyib güldü.

- Niyə gülürsən? Elə bilirsən zarafat eləyirəm? Hanı Qaçaq Nəbi kimi bir iyid sizin yerdə? Öldüsə də, adı dillərdədir…

Nəbi cavab vermədi.

Növrəstə onların yanından keçib, Baxış bəygilə getdi.

Baxış bəy:

- Bəli, Nəbi kişi, başqa kəndə getməyi yadından çıxart, - dedi. – Mən ölməmişəm ki, kəndimə pənah gətirən bir qaçqın ailəsini də dolandıra bilməyim…

Nəbi razılıq elədi.

- Fikirləş, yenə danışarıq, - deyə Baxış bəy yerindən qalxdı. Ağ vəznəli, göy mahud çuxasının ətəklərini silkdi. Çal Buxara papağını götürüb sığalladı, təzədən

başına qoyub, sol gözünün üstə əydi. İki əli ilə yoğun, cod bığlarını eşib, uclarını keçi buynuzları kimi yuxarı qaldırdı.

Nəbi onun şalban kimi hündür boyuna, bafta təkin enli qaşlarına, dibi nazik, pərələri körük ağzı kimi yanlara açılmış və ucu qartal dimdiyi kimi dodağının üstünə əyilmiş burnuna, bayquş gözlərini xatırladan yumru, iri gözlərinə diqqətlə baxdı.

Baxış bəy şallağı çəkməsinin boğazından çəkib əlinə aldı, havada tovlaya-tovlaya getdi. Nəbi, dəvə kimi löhləyə-löhləyə yeriyən bəyin dalınca baxıb öz-özünə dedi: «Kəraminə şükür Allahın!..»

Hər günkü xırda, təmizlik işlərindən başqa, Baxış bəygildə, ildə iki dəfə ev tökülür, əsaslı yığ-yığış olur. Xalı, xalça, yorğan-döşək üzləri, əyin paltarları yuyulur. Döşəklərin yunu çırpılır, didilir və təzədən salınır. Otaqlar, azı ildə bir dəfə ağardılır, lazım olan yerləri təmir olunur. Bir sözlə, bəy ailəsinin istirahəti, gözəl və qeydsiz yaşaması üçün hər şey qaydaya, səliqəyə salınır. Belə vaxtlarda bəy evindəki qulluqçulardan, qarabaşlardan, nökərlərdən əlavə, kənd adamlarından da bəziləri köməyə çağrılır. Bu işlərə Aftab xanım özü nəzarət edir.

Bu gün də Baxış bəygilin evində, həyətində qızğın iş gedirdi. Kimi Bərgüşad çayından mis səhənglərdə su daşıyır, kimi yekə, ağ dəmir təknələrdə paltar yuyur, kimi əlində əsgi parçası stolların, stulların, çarpayıların tozunu alır, kimi geniş və uzun eyvanın bu başından o başına çəkilmiş şəritdən paltar asırdı.

Başına ağ kəlağayı bağlamış, əyninə bənövşəyi kofta, yaxası qızıl düyməli, qırmızı məxmər kürdü, ətəyi sarı baftalı, uzun qara tuman geymiş, gümüş kəmərli balaca boylu, sinəsi və qurşaqdan aşağısı bədəninə nisbətən çox ətli olan Aftab xanım hamıya göstəriş verirdi. O, gah bunun, gah onun yanına gedib, bir söz deyir, bəzini pis işlədiyi üçün məzəmmətləyir, bəzini «bax belə ha, sağ ol qızım, hamı iş görməyi səndən öyrənsin» deyə tərifləyirdi.

Aftab xanım həyətin ortasında böyük bir gəbəni silkən Növrəstənin yanına gəldi. Əlini belinə vurub, onun necə işlədiyinə nəzər saldı.

Növrəstə çönüb, altmış-altmış iki yaşlarında olan xanımın qarayanız sifətinə, qırğı burnuna, qalın dodaqlarına, xırdaca qonur gözlərinə baxdı və yenə başını aşağı salıb öz işilə məşğul oldu. Növrəstə ürəyində dedi: «Bu nə çirkin xanım imiş… İndiyə kimi göz qoymamışdım. Belə də bəy arvadı olar?!»

Ömründə bəy və bəy arvadı görməyən Növrəstə elə bilirdi ki, ağalar, xanımlar, onların oğul-uşaqları gərək ən gözəl adamlar olsunlar, çünki, Allah onları xoşbəxt yaradıb, qara gün çəkmirlər. Kəndlilər kimi səhərdən axşamacan toz-torpağın içində əlləşmirlər.

Növrəstə yenə belini düzəldib, ona baxa-baxa dedi:

- Xanım, bəlkə işim xoşuna gəlmir?

Aftab xanım gülümsündü:

- Yaxşı işləyirsən, cəld işləyirsən, - dedi. – Əvvəldən işinə bələdəm. Amma tələsmə, yaxşı çırp, sonra da yaş süpürgəylə süpür. Qurtarandan sonra eyvana çıxardıb, məhəccərin üstünə sərərsən. Sənin qadan olsun bizim o tənbəl, özünü işə verməyən iki kənizin ürəyinə. Göz qoymuşam, it qızları bir oturumda yeddi büküm yuxa yeyirlər, heç doydum da demirlər; hələ yavanlığı, xörəyi demirəm. Yenə işi yarıdalar, dərd yarıdır. Nə qədər də öyrədirsən, bəy evinin səliqəsinə, nizamına

alışmırlar. Kəndli-kündlüdürlər də… Başları dağca olsa, dibləri qılcadır. İkisini də iti qovan kimi qovub, sənciyəzi özümə kəniz götürəcəyəm. Həyalı-ismətli gəlinsən. Hə, nə deyirsən, bizdə qalarsanmı?

Növrəstə:

- Yox, xanım, - dedi, - mən həmişəlik sizdə qulluqçu ola bilmərəm. Bu gün, sabah sahibim gələcək, yığışıb başqa kəndə gedəcəyik. Atam Baxış bəyin sözündən keçmədi, mənə bu günlük işləməyə icazə verdi. Qurtaran kimi gedəcəyəm. Atam naxoşdur. Gərək onun da pal-paltarını yuyam.

Aftab xanım üz-gözünü turşutdu:

- Yaxşı, yaxşı, işini gör, gedərsən, səni burda zornan mıxa bağlayıb, saxlayan yoxdur. Yaxşı deyiblər, buğda çörəyinin buynuzu var, kasıb-kusubun qarnını deşir. Bilirəm atanın naxoşluğu aclıqdandır. Qarnı tox adama güllə də kar eləməz. İşlə, ona da, qardaşına da bir parça çörək apar. Yazıqlar, axı, Allahın horrasını, qındısını da tapa bilmirsiniz. Aftab xanım ondan aralanıb paltar yuyan kənizin yanına getdi.

Həyatı qəm-qüssə içində keçən Növrəstə gələcəyinin daha fəlakətli olacağından qorxurdu. Onun ürəyində şübhə yaranmışdı ki, atası çox yaşamayacaq, əmisi, əri Bakıdan tez qayıtmayacaqlar, qardaşı ilə bərabər qalacaq çöllərdə.

Şahmərdan gedəndə, ona bir söz deyib, mane olmamışdısa da, indi ürəyində dalınca deyinirdi: «Qoy bir kağızı, sorağı gəlsin, yerini bilim, yazacağam ki, «nə üçün məni bu yad kənddə qoyub getdin? Burda nə əzablar çəkdiyimi, goru gözümlə gördüyümü bilmirsənmi? Bakıdan mənə pulmu, paltarmı göndərəcəksən? Heç biri mənə lazım deyil. Özün tez qayıt gəl. Bibi oğlu, burda qaçqınların qız-gəlinlərinə rahatlıq yoxdur. Aşağımollulu Bəşir kəndlimiz Cəvahiri zorla götürüb qaçdı. Məqsud dayının qızı Şamama, evində qaldığı kişi namusuna əl atdığı üçün özünü Həkəridə boğdu. Qonşuluğumuzda yaşayan Zeynəb xalanın qızı Məhluqəni qaçırmaq üçün bir neçə dəfə, gecə vaxtı evlərinə basqın eləyiblər… Daha nə yazım, hər şeyi özün başa düşürsən… Bibi oğlu, başını orda islat, burda qırxdır…».

…Aftab xanım tumanının ətəyini əlində dəstələyib, yavaş-yavaş pilləkənlə ikinci mərtəbəyə qalxmağa başladı. Köklüyündən ürəyi acıdı, bir az nəfəsini dərmək üçün dayandı.

Bayaqdan bəri eyvanda durub həyətdə işləyənlərə tamaşa eləyən Baxış bəy, enib anasının qolundan tutdu, gülə-gülə dedi:

- Deyəsən çıxa bilmirsən, ay Aftab xanım! Axı, bu boyda bədənlə niyə aşağı enirsən. Bilmirəm, Əhmədalı bəy səni neyləyirdi… Boyun gödək, qolun mənim ortamdan yoğun, maşAllah, özünü çəkib apara bilmirsən…

Aftab xanım eyvana çıxıb, əlini ürəyinin üstə qoydu, töyşüyə-töyşüyə dedi:

- Ey, ay Baxış, yaşın qırxa da çatsa şit zarafatından əl çəkməyəcəksən. Neyləyim aşağı enməyim, gözüm üstlərində olmayanda, kənizlər işə can yandırmırlar. Analığın Dünya xanım da xəstəlikdən yorğan-döşəkdən çıxmır, arvadın Şölə xanım iki uşağı ilə məşğuldur. Evin hər bir qarğaşası tökülüb mənim üstümə.

- Sərfinazlığı, hökmranlığı onlardan çox sən eləyirsən, ay ana. De görüm, təzə kənizin işi səni yarıdırmı?

- Qaçqın qızı deyirsən?

- Bəli, Növrəstəni.

- Təmiz iş görür, can yandırır. Amma, bir az baş-ayaq atır. Deyir, işi tez qurtarıb getmək istəyirəm. Bəs atası ilə danışmadın ki, qızı həmişəlik bizim kənizimiz olsun? Axı, mən sırtılmış Nubarla Həlimənin noxtasını tez başlarına dolamaq istəyirəm.

- Danışmışam, Nəbi razı olmur.

- Niyə? Qaçqın kişi varlanıb, yallanıb?

- Nə bilim. Sən işini gördür, sonra atasını da, özünü də yola gətirərik. Lap zorla da olsa, Növrəstəni sənin kənizin eləyəcəyəm. Ancaq sən ona çörəkdən, yavanlıqdan-zaddan çox ver, şirnikdir…

Oğlunun sözü haradan gətirdiyini başa düşən Aftab xanım:

- Mənə yol öyrətmə, - dedi, - nə verərəm, nə qədər verərəm özüm bilərəm. Özün də ki, eyvanda durub az bax, bala, gözünün qarası gedər. Atana oxşama. Cavan vaxtında onun əlindən evdə bir aydan artıq kəniz saxlaya bilməzdim. Hə, Əhmədalı bəy məni çürütdüyü kimi, sən də Şöləni çürütmə, gözünü yığ.

Aftab xanım evə getdi. Baxış bu həyətdə iş görən qulluqçulara baxa-baxa ürəyində dedi: «Avam anam elə bilir ki, sümük azarını tərgitmək asandır…».

Baxış bəyin biri doğma, ikisi anadan ögey üç qardaşı var idi. O, hamısından yaşca böyük idi. Qardaşlar ayrılmamışdılar. Lakin, onlardan ikisi kənddə yaşamırdı. Zeynal bəy Gəncədə general-qubernatorun yanında katib vəzifəsində işləyirdi. Müsavat ordusunda zabit olan Hilal bəy Qarabağda idi. Bakıda gimnaziya qurtarmış Ağa bəy kənddə yaşayırdı. Qardaşların hamısından savadlı, tərbiyəli və düşüncəli olan Ağa bəy, ev, təsərrüfat işinə qarışmazdı. Qardaşı Baxış bəy kimi hökmranlıq eləmək arzusunda da deyildi. Kəndlilərlə heç bir işi olmadığı kimi, onların arasında da az-az görünürdü. O çox sakit bir həyat sürür, vaxtını kitab oxumaqla, bağlarda, zəmilərdə, Bərgüşad çayının sahilində gəzməklə keçirirdi.

Kəndlilər ona, heç kəsi incitmədiyinə, heç bir adamın arvadına, qızına əyri gözlə baxmadığına görə hörmət edir, xatirini istəyir, özünə də «quzu bəy» deyirdilər.

Əhmədalı bəy öləndən sonra ev, təsərrüfat işlərini Baxış bəy öz əlinə almışdı. O, beli xəncərli, əli qamçılı, at üstə gəzən, hökm verən mülkədar bəy idi. Nökər-nayib, çoban, mehtər onun göstərişi ilə oturub durardı.

Adını yaza bilməyən bu adam, böyük təsərrüfatı bacarıqla idarə edirdi. Özünü elə göstərmişdi ki, hamı ondan zağ-zağ əsirdi. Onun qorxusundan evdən bir şey əskik olmazdı, mal-qaradan biri tələf edilməzdi. Bir kəndli onun icazəsi olmadan taxılını öz xırmanından evinə apara bilməzdi. Baxış bəy, döyülüb hazırlanmış taxıla baxandan, necə deyərlər, onun duru yerindən, onda bir faiz bəhrəsini götürəndən sonra, kəndli öz malına sahib ola bilərdi. Alınan bəhrəni, öz atında, ulağında aparıb bəyin evinə vermək də kəndlilərin borcu idi.

Baxış bəy siyasət aləmindən uzaq bir adam idi. Onun fikri-zikri mal-dövlətini artırmaq, qızılının sayını çoxaltmaq, beləliklə, Qubatlı, Kürdüstan və Qarabağ bəylərindən daha qüvvətli, adlı-sanlı olmaq idi.

Hər şeydə möhkəm, sözünün üstə duran, inadcıl, amansız olan Baxış bəyin bir zəif cəhəti vardı: çox şorgöz idi. Yaşa dolduqca bu mərəz onda daha şiddətlənirdi.

Uca boylu, ağ, nəcib sifətli, qara qaşlı, ala gözlü arvadı Şölə xanım onun gözünü kənardan yığa bilmirdi. Çox zamana bu barədə aralarında söz, inciklik olurdu. Şölə xanım uşaqlarına və namusuna boğulub Baxış bəydən boşanmırdı.

Şölə xanım başqasının arvadı olsaydı, Baxış bəy yəqin ki, onun qarşısında diz çöküb yalvarar, müxtəlif vasitələrlə ələ gətirərdi. Ancaq o, hər gün gözünün qabağında olan pak bir gözəllik mücəssəməsinə qarşı kor və laqeyd idi. Ona görə də arvadının yumşaq rəftarını, etibar və ailəpərəstliyini qiymətləndirmirdi. Daha doğrusu, Şölə xanımda olan bu müsbət cəhətləri dərk edə bilmirdi. Adətən, Baxış bəy kimi pozğun və zövqü korlanmış adamlar insanın daxili və xarici məziyyətlərini görüb, qiymət vermək qabiliyyətindən məhrum olurlar.

Baxış bəyin fikrincə, «harama əl qatmayan kişi, heç kişi deyil». O, istər zorla, istər xoşla ələ saldığı adamların sayını artırmağı özünə xüsusi məharət və şöhrət sanırdı. Baxış bəyi bütün Həkəri-Bərgüşad kəndliləri bu cəhətdən də yaxşı tanıyırdılar. Söhbət düşəndə deyirdilər: «Uzunqulağa da tuman geydirib, başına yaylıq örtsən, Baxış bəyin tamahı düşər». Lakin heç kəs cəsarət edib bəyin bu xasiyyətini onun üzünə demirdi.

…Çiynini eyvanın dirəyinə söykəyib, qələmə kimi dimdik dayanmış Baxış bəy gözünü Növrəstədən çəkmirdi. Gah onun dirsəyə kimi çırmanmış ətli qollarına, gah ilik kimi ağaran yaraşıqlı baldırlarına baxırdı. O, Növrəstənin nə təhər bədən sahibi olduğunu onun qollarından və qıçlarından təsəvvür edirdi, köksünü ötürüb ürəyində deyirdi: «Yox, qaçqın qızı, Şəki maralı əlimdən qurtara bilməz».

Növrəstə eyvana baxsın deyə, Baxış bəy bir neçə dəfə ucadan öskürdü. Nəinki Növrəstə, heç kəs bu öskürməyə fikir vermədi, bəlkə də eşitmədi. Baxış bəy zümzümə eləməyə başladı. Növrəstə yenə ona tərəf baxmadı. Baxış bəy özünü saxlaya bilməyib, həyətə endi, Növrəstəyə yaxınlaşdı. Növrəstə tumanının ətəyini belindən açıb qıçlarını örtdü, paltarının qollarını aşağı saldı.

Baxış bəy ürəyində dedi: «Ay kafirin balası, qol-qıçını niyə gizlədirsən? Məni yerimdən oynadan axı onlardır. Yoxsa, mənim, sənin atan Nəbinin yanında nə işim vardı…».

Baxış bəy:

- Qız, üzümə niyə baxmırsan? – dedi. – Səni çağırmırdım? Eşitmirdin?

Növrəstə dilləndi:

- Eşitməmişəm, ağa.

Baxış bəy Növrəstəyə sarı əyilib, qulağına nə isə demək istədi… Utanan və bir qədər özünü itirən Növrəstə geri çəkilib, fərşi yığışdırmağa başladı.

Baxış bəy onun qarşısına keçib gülə-gülə, astadan dedi:

- Utanma, bala. Anama demişəm ki, sənin haqqını artıqlaması ilə versin.

- Nə deyirəm, ağa, versə də, verməsə də, Aftab xanımın öz işidir…

- Sən fikir eləmə, vəziyyətinizi yaxşılaşdıracağam. İşini gör! – deyə Baxış bəy ondan aralanıb, həyətdən çıxdı.

Bəy gedəndən sonra kənizlər öz aralarında pıçıldaşmağa başladılar. Nubar sabınlı əlini təknədən çəkib, Həlimənin qulağına dedi: «Baxış bəy çarxı xoruz kimi Növrəstənin yan-yörəsində niyə dolanır? Deyəsən, aralarında bir şey var axı…». Həlimə yavaşdan Nubara cavab verdi: «Bəy yaman şorgözdür. Amma Növrəstə barədə imanımı yandıra bilmərəm. Bir də bizə nə… Can onun, cəhənnəm tanrının, işini gör. Sən qoca, mən qoca, kimin bizə tamahı düşəcək. Arpaya qatsalar at yeməz, kəpəyə qatsalar it. İşləyib bir parça çörəyimizi yeyirik…».

Növrəstə fərşi güclə çiyninə qaldırıb eyvana çıxartdı.

Aftab xanım onu haqq vermək üçün otağa çağırdı.

…Növrəstə evlərinə getmək üçün həyətdən çıxanda Baxış bəy darvazanın yanında durmuşdu. Bəlkə də Növrəstəni danışdırmaq, bir ağzını yoxlamaq üçün gözləyirdi.

Növrəstə sakit ötüb keçmək istədikdə, bəy gülə-gülə söz atdı:

- Qızım, gedirsən?

- Bəli, ağa!

- Eşitmədim, səsini niyə qısırsan, küçük. Adam ağasından utanmaz.

- Dedim, gedirəm…

- Hə, indi eşitdim. Narazı getmirsən ki?

- Xeyr.

- Belə ha. BərəkAllah, qızım. Bizə tez-tez gələrsən, iş görərsən, haqqına da çörəkdən, düyüdən, yavanlıqdan alıb apararsan atana, qardaşına.

Növrəstə daha bir söz deməyib addımlarkən, bəy yenə «qızım» deyə-deyə onu danışığa tutdu. Lakin ürəyindəkiləri açıb deyə bilmədi. Aşağıdan iki atlı onlara tərəf yaxınlaşırdı. Bunun biri Əli Sadiqi, ikincisi Fərman idi.

Növrəstə aralanıb gedə-gedə Fərmana, Fərman da ona baxdı. Ancaq bir-birini danışdırmadılar…

Pəncərəsi Bərgüşad çayına baxan geniş otaqda şirin söhbət gedirdi.

Əli Sadiqi adəti üzrə əlini-qolunu oynada-oynada deyirdi:

- Bəli, Baxış bəy, mənim canım, ürəyim millətin, müsavatındır. Mən müsavat quruluşu üçün az əziyyət çəkməmişəm. Amma hələ ki, əzab-əziyyətimə layiq qulluq, vəzifə tutmamışam. Eybi yoxdur, bu da keçər. Millətim bir zaman qədrimi bilər…

Baxış bəy söz atdı:

- Bundan artıq nə qulluq istəyirsən? Bərgüşadın pristavısan!

- Hm, pristav… Məndən savadı az, dərrakəsi az olanlar parlament üzvüdür, nazirdir. Ancaq ümidvaram ki, bizim hörmətli sədr-əzəm ki, ibarət olsun cənab Fətəli xan Xanxoyskidən, bir gün məni yadına salacaq. Çəkib aparacaq Bakıya, deyəcək, otur nazirliklərin birinin başında. Əlbəttə, əgər belə iş olsa, mən maarif nazirliyindən başqa heç yerə getmərəm. Çünki mən o sahədə uzun illər qələm çalmışam. Qəzetlərə məqalə yazıb, bədbəxt müsəlman millətimi oyatmışam. Bir dəfə millət deyəndə, dodağım on yerdən partlayıb. Nə isə, indi at belində pristavlıq eləyirəm. – O, öz-özünə istehza edirmiş kimi, sözünə davam elədi: - Kəndlərdə qayda-qanun düzəldirəm. İnzibati iş aparıram. Ağaların, dövlətlilərin, sənin kimi bəylərin malını, canını qoruyuram, asayişini təmin edirəm. Amma sən Baxış bəyin

mənim əziyyətimdən xəbəri yoxdur. Gündüz kefində-damağında, gecə də qıçını uzadıb yatmağındasan…

Baxış bəy:

- Yox, pristav, - dedi, - Nikolay taxtdan düşəndə, bizim mahalın bəyləri, elə mən özüm də, bərk qorxuya düşmüşdük. Çünki hər yerə söz yayılmışdı ki, torpağımızı, mahalımızı alıb kasıblara verəcəklər. Bizi eləyəcəklər lüt ətcəbala… ha… ha… ha… Əhmədalı bəyin oğlu Baxış bəy olacaqdı lüt ətcəbala!.. Hə, sonradan bu məsələ yatdı. Düzünə baxsan, kəndlilər bir neçə yerdə baş qaldırdılar, varlıların üzünə ağ oldular. Ancaq qəza nəçənniyi yaxşı qabağını aldı: kimini qorxutdu, kimini dama basdı…

- Amma, Baxış bəy, sən elə güman eləmə ki, varlıların üzünə ağ olan kəndlilər daha lal olub yerlərində oturublar. Onlar sənin kimi bəylərin malına-mülkünə qəsd etmək üçün yenə fürsət gözləyirlər. Zəmanə hər gün başqa rəng alır. Bəzi kəndlərdə bəylərin kəndlilərdən bəhrə ala bilmədikləri mənə məlumdur. Nə isə, yeri gəlmişkən soruşum ki, Ağa bəy hardadır, heç söhbətimizdə iştirak eləmir?

- Onun belə söhbətlərdən xoşu gəlməz. Onunku gəzmək, kitab oxumaq, bir də yeyib-yatmaqdır. O, biz qardaşlara oxşamayıb. Əgər deyəcək bir sözün varsa, çağırtdırım.

- Xeyr, elə bir vacib sözüm yoxdur. Onu bilmək istəyirəm ki, niyə qulluğa girmir. Savadlı adamdır. Hökumətimizə çox xeyir verə bilər. Mən istərdim ki, bizim qəzanın böyüyü o olsun. Deyir, zər qədrini zərgər bilər. Onu demək istəyirəm ki, mənim kimi adamları o qiymətləndirib, böyük yerlərə çəkə bilər.

Kəniz Həlimə içəri girib dəyirmi stolun üstünə təmiz süfrə saldı, sonra gedib gümüş podnosda çay, qənd və gül mürəbbəsi gətirdi. Qayıdıb gedəndə Baxış bəy dedi:

- Pristavın strajnikinə də de bura gəlsin, hər necə olsa qonaqdır, bu kişi ilə gəlib.

Həlimə getdi. Baxış bəy sözünə davam elədi:

- Hərdənbir çarıxlı-patavalı qonağın da eybi yoxdur. Ha… ha… ha…

- Baxış bəy, elə güman eləmə ki, mən hər adamı yanıma salıb, sənin evinə gətirərəm. O çarıxlı strajnik Zəngəzurda məşhur bir adamın – şəkili Hacı Atakişinin oğludur. Mən onlarda qonaq olmuşam. Hacı Atakişi çörəyinin, malının qədrini bilən adam deyildi. Malı, dövləti, torpağı bəlkə, səninkindən də çox idi. Andronik davasında ki, özün yaxşı bilirsən, kəndindən qaçqın oldu. Necə deyərlər, daş əydi, qəribliyə düşdü. İndi bu strajnik Fərmanın öz ata-anasının öldü-qaldısından xəbəri yoxdur. Axtarır, tapa bilmir. – Əli Sadiqi çayına mürəbbə salıb qarışdırdı, sonra sözünə davam elədi: - İndi sən de ki, bu Fərmanı mən hardan özümə strajnik götürmüşəm. Bir gün Padar kəndinə oğru axtarmağa getmişdim. Fərmanı da orda camaatın içində gördüm. Məni tanıdı. Vəziyyətindən şikayət elədi. Məndən kömək istədi. Öz-özümə dedim: səni viran qalasan dünya… Varı-dövləti bir mahalı dolandıran kişinin oğlu gör nə günə qalıb… Qərəz, qulluğa götürdüm ki, başını dolandırsın. İndi, Baxış bəy, sən o ayağı çarıxlı strajnikə alçaq gözlə baxma… - Əli Sadiqi çayını içməyə başladı.

- Sən mənim sözlərimi başqa yerə yozma, Əli Sadiqi. Vaxta ki, o, səninlə gəlib, hörmət eləmək borcumuzdur. Xahiş eləyirəm inciməyəsən.

- Yox, yox, başın üçün incimərəm. Məqsədim, Fərmanı səninlə tanış eləmək idi. Özü də fikir və əqidəcə əsl bizim hökumətin adamıdır…

Həlimə əlində bir stəkan çay Fərmanla bərabər gəldi. Həlimə stəkanı stolun üstünə qoyub getdi.

- Sizə dörd il bundan qabaq olmuş bir əhvalat danışım, - deyə Baxış bəy təzə söhbət açdı: - Bizim kənddə Nəcəf adlı bir kəndli vardı. Amma çox dikbaş idi. Hətta mənə də endirmirdi. Qərəz, bir gün bizim darğa gəlib mənə dedi: ağa, Nəcəflə bacara bilmirəm axı… Dedim: ə, nə olub? Dedi: kəndlilərin hamısından bəhrəni almışam, bir Nəcəfdən başqa, o nə çəltikdən bəhrə verir, nə ARPA-buğdadan. Özü də məni xırmandan qovdu. Dedi: «İtil burdan, gözüm səni görməsin, müftəxor, qarnı yoğun… Bundan sonra, bəyə bəhrə verməyəcəyəm… Baxış bəy mənimlə taxıl şəriki deyil». Hə, Əli Sadiqi, mənim yerimə sən olsaydın nə eləyərdin?

Fərman söz atdı:

- Elə adamın qanı halaldır.

- Ay sağ ol, strajnik, lap düz deyirsən. Mən də onun qanına susadım. Qardaşım Zeynal bəyi, darğa Mahmudu, nökər-nayibi götürüb, getdim Nəcəfin xırmanına. Gördüm nar dənəsi kimi sarıbuğdanı doldurur çuvallara. Dedim, ə, arvadı göyçək, ağzını hara yetirmisən ki, mənim bəhrəmi vermirsən, darğamı geri qaytarırsan? Dedi: «Dilini özündə saxla, sənin arvadından göyçəyi yoxdur. Mən səni tanımıram. Torpaq mənim, öküz, cüt mənim, özüm əkib, özüm biçirəm, niyə sənə bəhrə verim». Dedim, mən bəyəm, bəy oğluyam. Bəylərə bu ixtiyarı padşah verib. Dedi: «Mən də özüm üçün bəyəm». O dedi, mən dedim, səs-küyümüz kəndi götürdü. Camaat tökülüb gəldi. Taxılla doldurub hazırladığı çuvalları bizə aparmaq üçün kəndlilərə əmr elədim. Üzü dönük, biqeyrət köpək uşaqlarının heç biri yerindən tərpənmədi. Darğaya işarə elədim. O, çuvallara tərəf gedəndə, Nəcəf əlini atdı dəmir yabaya. Dedi: «Bir adam yaxına gəlsə, taxılımın bir dənəsinə əlini vursa, cəhənnəmlik eləyəcəyəm. Bundan sonra, heç kəs bəyə bəhrə verməyəcək». Gördüm, xeyr, aşna-aşna, çıxır ocaq başına, kəndlilərin yanında məni biüzm eləyir; xəncəri çıxartdım, darğaya göz elədim. Mahmud, əlində qəmə ona hücum eləyəndə, Nəcəf yabanı endirdi. Darğa yıxıldı. Başından qan bulaq kimi fışqırdı. Gözü qızmış köpək oğlu, mənim üstümə cumanda, harayçılıq eləyən iki kəndli onun qollarını tutdu. Qardaşı Camal meydana atıldı. Onu da tutub saxladılar. Fürsəti fota verməyib, xəncəri soxdum Nəcəfin qarnına. Dedim, köpək oğlu, bəylə bəylik eləmək, bir tərəziyə girmək olmaz. Bağırsaqları bayıra töküldü, ağlaşma-şivən qopdu, mən adamlarımı götürüb tez getdim. Nəcəfin qardaşı Camal bu xəbəri tez qəza pristavına çatdırdı. O da məni tutub bir baş Gəncəyə göndərdi. Qazamatda çox yatmadım. Atam külli miqdarda pul töküb məni qurtardı. Hə, indi kəndlilər mənim yanımda cınqırlarını çəkə bilmirlər… Necə deyərlər, yumurta yükü aparırlar.

- Baxış bəy, o adam bilirsənmi kim imiş?

Baxış bəy onun sualından təəccübləndi.

- Necə ki, bilmirəm? Bəs bayaqdan bəri kəndli Nəcəf haqqında danışmıram? Görünür, sözlərimə yaxşı mültəfit olmamısan, cənab pristav!

- Xeyr, xeyr, başın üçün, lap yaxşı mültəfit olmuşam. Demək istəyirəm ki, o kəndlinin məqsədini, fikrini sən yaxşı başa düşməmisən. O adam yəqin ki, bolşevik imiş. Öz bəhrəsini verməməklə, kəndlilərin də ağzına dil atırmış ki, onlar da verməsinlər.

Baxış bəy təəccüblə çiynini ataraq:

- Yəni, Nəcəf kimi kəndlidən də bolşevik olar?

- Bəli, bəli, elə bolşevik elələrindən olur. Söz öz aramızda qalsın, onların Həkəri-Bərgüşadda da təşkilatları var. Deyirlər, Müskanlı kəndində də bizim hökumətin bədinə danışırmışlar. Yəqin ki, sizin kənddə də bolşevik var.

- Varsa, mən niyə onlardan birini tanımıram.

- Yəqin tanıyırsan, amma bolşevik olduğunu bilmirsən. Mən onlarla Bakıda, Zəngəzurda çox döş-döşə gəlmişəm. Çox mübarizə aparmışam.

Əli Sadiqi Şəkidəki «fəaliyyətindən» danışdı. Sözü Comərdlə Şahmərdanın üstünə gətirib, onları axtardığını söylədi.

- Sən şəkili, qaçqın Comərdlə Şahmərdanımı deyirsən? – Baxış bəy heyrətlə Əli Sadiqidən soruşdu. – Yəni onlar elə zərərdidə, köpək oğlu adamlardır?

- Bəli, bəli, çox nacins adamlardır. Sənin kimi bəylərin qəddar düşmənidirlər.

- Bay səni. Ə, Əli Sadiqi, onlar ha bizim kənddə idilər. Necə bilməmişəm e… Yoxsa, onları tutub hökumətə verərdim. Heç olmasa, yerlərini xəbər verərdim. Bakıya getdilər. Amma, Comərdin qardaşı Nəbi və qardaşı uşaqları bizim kənddədirlər. Özləri də aclıqdan, xəstəlikdən çox yaman gündədirlər.

Əli Sadiqi:

- Xeyr, xəstə, uşaq-muşaq hökumətə lazım deyil. Ancaq sən göz ol, onlar kəndə gələndə mənə bildir.

Fərman:

- Allah onları daha pis günə salsın, - dedi. – Oğraş adamlardır. Bəy, biz sizə gələndə bir arvad gördüm. Nəbinin qızı Növrəstə deyildimi?

- Bəli, o idi. Bizə iş görür. Necə ki?

Fərman başını bulayaraq güldü:

- Hay, hay!

- Niyə gülürsən? Növrəstə nə təhər arvaddır ki!

- Nə deyim, bəy. Kimin üçün yaxşı, kimin üçün pis. İkiniz də məni bağışlayın, eyib də olsa, dilimə gəlib deyəcəyəm: onun ayağı bərk sürüşkəndir. Onu Şəkidə barmaqla göstərirdilər. Necə olub ki, təmiz bəy ailəsinə elə bir adam soxulub…

Köhnə ədavəti hələ də ürəyindən çıxarmayan Fərman Növrəstənin barəsində çox yalan, böhtan danışdı.

Fərmanın sözləri Baxış bəyin ürəyincə oldu, Növrəstəni ələ keçirmək üçün ona cəsarət verdi.

Həlimə gəlib stəkanları apardı. Bir azdan sonra, əlində plov, toyuq, şoraba ilə dolu olan yekə məcməyi gəldi. Məcməyini stolun üstə qoyub gedərkən, Baxış bəy onu saxladı:

- O şüşəni də gətir!

Həlimə getdi, dərhal bir butulka, üç qədəh gətirdi.

Onlar zəfəranlı plovdan yeməyə başladılar. Baxış bəy qədəhləri doldurdu.

- Sağ ol, pristav! – deyə bəy qədəhini onun qədəhinə vurdu. – Üç dəfə evimə qonaq gəlmisən. Düzü, sənə bu cür bələd deyildim. Başlı adam imişsən. Bugünkü söhbətindən çox şey öyrəndim. Sağ ol, bizim canımızı, malımızı qoru, gözlə, biz də səni gözlərik…

- Mən ölüncə sənin kimi süfrəsi açıq, nəcib bəylərin qulluğunda, keşiyində durmağa hazıram. Adama adamlıq qalacaq, Baxış bəy!.. Pul, dövlət gəldi-gedərdir.

Onlar içdilər.

Baxış bəy:

- Ə, Fərman, sən niyə içmirsən? – dedi. – Mollasan, ya seyid övladısan? İç! Götür iç!

- Mən heç içməmişəm, bəy.

- Nahaq yerə. Günah bu pristavdadır ki, indiyə kimi səni belə gözəl şeyə öyrətməyib. Ə, heç bilirsən, bu nədir? Buna deyərlər, ab-kövsər, qandın, a dünyadan bixəbər kəndli?!. Götür, çək başına, gör cecə arağının nə ləzzəti var!..

- Vallah, mən içə bilmərəm, bəy…

- Götür, qırışmal! Utancaq qız kimi naz eləmə! Bax, bu pristavın canına dua elə ki, səni öz yanında strajnikliyə götürüb, yoxsa, kəndlərin arasında dilənçilik eləyən, acından köpük qusan qaçqınların biri də sən olardın… Amma öz aramızdır, Əli Sadiqi, zəngəzurlular bizim kəndlərdə abır-həya qoymadılar. Əşi, bu qədər də lüt, ac qaçqın olar?! Bunların axırı necə olacaq, Allah bilir. Hə, qərəz, içək!..

Əli Sadiqi Fərmana baxıb gülümsədi.

- Götür, iç! Bəyin sözünü yerə salmaq olmaz. Onu da bil ki, Baxış bəy strajniklə-zadla oturub-duran adam deyil. Onunla bir süfrədə oturmağın mənim xatirimədir. Baxış bəy, içirik sənin sağlığına, Allah sənin kölgəni Bərgüşad camaatının üstündən əksik eləməsin.

Baxış bəylə əli Sadiqi qədəhlərini boşaldıb, yeməyə başladılar.

Fərman, bir az fikirləşdi: «İçməsəm, pristavın, bəyin sözünü yerə salmış olaram. Cəhənnəm, zəhər də olsa içəcəyəm…». O, Əlini sanki qorxa-qorxa dolu qədəhə apardı. Gözlərini yumub, su kimi içdi. Lakin, o saat bərkdən və bir neçə dəqiqə arası kəsilmədən çeçədi, sonra dalbadal asqırdı, qıpqırmızı qızardı, hətta gözlərindən yaş gəldi. Xəcalətindən ayağa durub, otağın bir tərəfinə çəkildi.

Baxış bəy uğunub getdi.

- Ay pristav, ay Əli Sadiqi, sənin bu strajnikin yekə oyunbaz imiş ki!.. Əşi, buna heç torpu dəyməyib ki! Ha… ha… ha… - Baxış bəy ayağa qalxıb, səndələyə-səndələyə Fərmanın yanına getdi.

- Gəl bəri, süfrənin başına gəl, çörək ye! – dedi və onu qolundan tutub gətirdi. Hər ikisi oturdu. Baxış bəy yenə şaqqa çəkib güldü…

Əli Sadiqi Fərmanın əvəzinə xəcalət çəkdi. Başqa strajnik deyil, Fərmanı öz yanınca götürməsinə peşman oldu və bəydən üzr istədi.

Baxış bəy:

- Yox, pristav, üzr istəmə, - dedi, - vallah bunda kef var. Səni qəm çəkməyə qoymaz. – Baxış bəy üzünü, utandığından başını aşağı salmış Fərmana tutdu. – İndi mən sənə çeçəməyin səbəbini deyim. Əvvəla, inandım ki, indiyə bəri içməmisən. İkinci, hər içkinin özünün içmək qaydası var. Məsələ, çaxırı su kimi

içərlər, amma arağı birdən atarlar, başa çəkərlər. Bax, belə! – Baxış bəy dolu qədəhi birdən içdi. – Gördün? İndi mənim kimi iç! – Onun qədəhini doldurub əlinə verdi.

Fərman əvvəl içmək istəmədi, sonra bəyin təkidi ilə içdi. Üz-gözünü turşudub tez qədəhi yerə qoyaraq, yeməyə başladı.

- Bax, belə ha! İndi öyrəndin. Xam dayçanı da öyrədirlər, nəinki sənin təkin burunlu-qulaqlı… - Baxış bəy sözünün dalını demədi. Ancaq Əli Sadiqi onun nə deyəcəyini başa düşdü.

Söhbət uzandı.

Baxış bəy qədəhləri yenə dolduranda, Əli Sadiqi qoymadı.

- Kifayətdir, bəy. Qəsdin bizi o qədər içirtməkdir ki, atın üstündə dura bilməyək?!

- Sizi getməyə qoymayacağam. Sabah axşama kimi mənə qonaqsınız. Səhər sizə əmlik kababı verəcəyəm.

- Çox sağ ol, Baxış bəy. Qala bilmərəm. Bir neçə kəndi gəzməliyəm. Axır zamanlarda oğru, əyri, yol kəsən, adam öldürən çoxalıb. Onlar mənim papağımı görməsələr, daha çox işlərdən çıxarlar.

Baxış bəy, Əli Sadiqinin etirazına baxmayaraq, qədəhləri doldurub dedi:

- Oğru-əyri ki, deyirsən ha, çoxu Zəngəzur qaçqınlarıdır. Vallah, mən razı olardım ki, ermənilər onların hamısını qıraydı, lap toxumlarını kəsəydi. Bu nədir, gəlib dolublar kəndlərə, zilan kürdləri kimi, qapılardan əl çəkmirlər.

Əli Sadiqi ona əyri-əyri baxdı:

- Adam da öz milləti haqqında belə fikirdə olarmı? Biz gərək onlara kömək eləyək, Baxış bəy!

- Millət? Ha… ha… ha… Zəngəzurun lüt-mütlərindən, əl-ayağa dolaşan dilənçilərdən sənə, mənə millət olmaz. Götür içək. Bu axırıncı qədəhdir. İçmək istəsən də, daha arağım yoxdur. Özüm heç, sənin kimi əziz qonağım gələndə, bilmirəm nə edəcəyəm. Mənim cecə arağım həmişə Kərəviçdəki dostum Avanesdən gələrdi. Yaxşı araq çəkəndir. Neçə vaxtdır ki, yol bağlanıb, gediş-gəliş kəsilib. O da mənə araq göndərə bilmir.

Əli Sadiqi:

- Gediş-gəlişin kəsilməsinin eybi yoxdur, - dedi. – Hələ Allah bundan betərindən saxlasın. Ola bilsin ki, ermənilər Zəngəzurun müsəlman kəndlərini dağıtdıqları kimi, Həkəri-Bərgüşad kəndlərinə də hücum edib viranəyə çevirsinlər. Amma onu deyim ki, bizim hökumət yatmayıb, tədbir görür. Ermənilərin qabağına çıxmaq üçün əsləhə, qoşun hazırlayır. Qardaşın Hilal bəy heç danışmayıb? O ki, müsavat ordusunda görkəmli zabitdir… Əsgərlərə təlim verir, davaya hazırlaşdırır… Mən onu Gəncədən tanıyıram. İgid oğlandır. 1918-ci ildə cəbhədən qayıdan rus qoşunlarını Şamxorda tərk-silah etməkdə böyük iş görmüşdür. Mən əminəm ki, o, gələcək erməni-müsəlman davasında da qəhrəmanlıq göstərsin…

Baxış bəy:

- Dava nədir, ay pristav, - dedi, - alnına gülləni vuralar, kəlləni bir dəfəlik qoyasan yerə. Adama kef lazımdır, kef. Götür içək! – Baxış bəy içdi.

Əli Sadiqi qədəhini yuxarı qaldırdı, lakin içməyib, dedi:

- Sənin fikrinlə heç razı deyiləm. Hökumət dava eləyib, torpaq, kənd-kəsək almasa, qüvvətlənməz. Əhalisi artmaz. Bəs, niyə ermənilər hər yerdə çığır-bağır salırlar ki, biz dənizdən-dənizə uzanan, böyük Ermənistan hökuməti yaratmaq istəyirik. Biz onlardan əksiyik? Öz aramızdır, sənə deyirəm. Bizim hökumət də qazdan ayıqdır, Zəngəzuru Azərbaycana mülhəqq eləmək, yəni qatmaq fikrindədir. Bu da davasız, qansız olmaz. Ona görə müsavat qoşunu Əsgəran tərəfdən Şuşaya, Naxçıvan polku isə Ərikli və Salvartı dağlarından Zəngəzura hücum edəcəkdir. Başa düşürsənmi, Baxış bəy, ermənilər qalacaqlar halqada; beləliklə, təslim olmaqdan başqa çarələri qalmayacaq. Mən, bax, o günün şərəfinə içirəm. – Əli Sadiqi qədəhi boşaldıb, toyun ətindən yeyə-yeyə sözünə davam elədi. – Zaqafqaziyada ən böyük, nüfuzlu dövlət gərək bizim Azərbaycan dövləti olsun. Nə qədər ki, ermənilərlə gürcülərin arasında çəkişmə qurtarmayıb, biz, Qarabağı ermənilərdən təmizləməli və Zəngəzur məsələsini qurtarmalıyıq. Bildinmi, Baxış bəy, bugünkü siyasət belədir!

Söhbət dəyişilə-dəyişilə xeyli uzandı…

Gün əyiləndə, Əli Sadiqi ilə Fərman Baxış bəylə xudahafizləşib yola düşdülər…

Hirsli dirəkdən asılmış neft çırağı töylənin dibində tüstülənə-tüstülənə işarırdı. Onun zəif işığında Nəbi, Növrəstə və Yusif oturmuşdu. Onların nəfəsi və tüstüsü işığından çox olan çıraq olmasa idi, bu kiçik və bir tərəfi uçuq tövlə min illik bir məzarı andırardı.

Növrəstənin bu gün bəy evində işləyərək, haqqına alıb gətirdiyi beş-altı yuxanı və bir nəlbəki şoru ortalığa qoyub şirin-şirin yeyirdilər.

Çörək qurtardı, nəlbəki boşaldı. Lakin heç birinin qarnı doymadı. Növrəstə köhnə dəstərxanı yığışdırdı.

Nəbi çörəkdən sonra əlini yuxarı qaldırıb, Allaha dua eləməyə başladı:

- Pərvərdigara, mən heç naşükür olmamışam. Dünənki gününə də şükür, bugünkünə də. Dünən bizə bir nimçə yağsız şilə qismət elədin, bu gün şor-çörək. Xudaya, sən məni və balalarımı çox imtahana çəkdin. Biz yenə əlimizi sənin ətəyindən üzməmişik… - O, dinməz oturmuş qızının və oğlunun kədərli gözlərinə baxıb, dedi: - Fikir eləməyin, uşaqlar, yaman günün axırı aydınlıqdır. Dünya həmişə belə qalmayacaq. Bir yerdən bağlayan fələk, o biri yerdən açacaq.

Xəstə atalarının ürəyini sıxmaq istəməyən oğul və qız güzəranlarından şikayət eləmədilər.

Növrəstə yatmaq üçün yer hazırladı.

- Dur keç yerinə, ata, - deyə Nəbinin qolundan yapışıb ayağa durmasına kömək elədi. – Suya girmisən, tuman-köynəyin də təmizdir. Bu gecə rahat yatarsan. Canına sürtmək üçün görüm kimdən davadan-dərmandan tapa bilərəm.

Nəbi yerinə keçdi.

Atası ilə kirli, yamaqlı bir yorğanın altında yatmaq üçün Yusif də onun böyründə uzandı. Növrəstə çırağı keçirtdi. Tərəkəmələrdən qalmış köhnə keçəni üstünə çəkdiyi zaman, qapıya bir təkan vuruldu, sonra səs gəldi:

- Nəbi dayı!

- Deyəsən məni çağırırlar? – deyə Nəbi başını qaldırdı.

Səs təkrar olundu.

Yusif cəld yerindən qalxdı. Qapıya sarı gedə-gedə soruşdu:

- Kimsən, ə?

- Mənəm, aç! Qorxma!

Camalı səsindən tanıyan Yusif qapını açdı.

Növrəstə çırağı yandırdı.

- Əşi, ay Nəbi dayı, indidən niyə toyuq təkin hinə girmisiniz? Günün qulağı təzə batıb ki…

Camal səkinin dirəyi üstündə əyləşdi.

Nəbi də qalxıb yerinin içində oturdu.

- Bəs neyləyək ki, ay Camal? Kora gecə-gündüz birdir. Gecə yarısına kimi oturcaq nə aşığın sazına, söhbətinə qulaq asacayıq, nə təndirdə bozbaşın bişməsini gözləyəcəyik. Tez yatırıq ki, həm çırağın nöyütünə qənaət olsun, həm də dərdi-fikri unudaq.

- Yenə dərd-qəmdən danışırsan? Deyir, nə qədər fikirləşsən, yüzün yarısı əlli elər. Daha olan oldu, torba doldu. Uşaqların canı sağ olsun. Hə, bu gün getmişdim Xocahan bazarına, üzdən iraq, eşşəyi satmağa aparmışdım. Allah rast gətirdi, müştəri tapıldı – satdım. Puluna bir qoyun aldım. Dedim, eşşəkdənsə, qoyun yaxşıdır, sağıb südünü içərik, qatığını yeyərik. Aran yerinin ağartısı olmasa, dolanmaq çətin olar. – Camal cibindən kirli əl dəsmalına bükülü bir şey çıxarıb Növrəstəyə sarı uzatdı: - Al, Növrəstə bacı. Bir az tut qurusudur. Nəbi dayıya heyva yarpağı ilə çay dəmlərsən. Zalım oğlunun bazarında qənd-çay deyənin burnunu, qulağını kəsirlər.

Nəbi:

- Nə zəhmət çəkirdin, ay Camal, - dedi. – Sağ ol. Payın çox olsun. Bazarda nə vardı. Təzə xəbərdən, sözdən-zaddan eşitmədin ki? Qaçqınların öz yerlərinə qayıtmaları barədə bir şey demirdilər?

- Bura bax ha, az qalmışdı ki, yadımdan çıxsın. Sənə kağız var, Nəbi dayı! – Camal ciblərini axtara-axtara sözünə davam elədi. – Eşşəyi satdığım kişiynən sövdələşirdim. Bu dəmdə, hündür boylu, arıq bir adam bizə yaxınlaşdı. Soruşdu ki, haralısan, qardaş? Özümü, kəndimi nişan verdim. Dedi: «O kənddə Nəbi Almurad oğlu deyilən bir adam yaşayır, özü də Zəngəzur qaçqınlarındandır, tanıyırsan?» Dedim, qonşumdur, sən kimsən? Sözünün canı nədir? Dedi: «Ona kağız var. Verim sənə, zəhmət çək yetir sahibinə, daha yolumu uzağa salmayım. Kafana gedəcəyəm. Ancaq özünə ver ha, başqasının əlinə düşməsin». Dedim, əmanətə xəyanət olmaz… - Camal ciblərini axtarmağa başladı.

- Ə, kağız kimdəndir? Di, çıxart görək, nə qurdalanırsan?

- Düzü, başım eşşək ilə müştəriyə qarışdığından, dərinlərə getmədim. Allah mənim huşumu kəssin, qalıb evdə, o biri arxalığımın cibində…

Nəbi bir az pərt oldu.

- Ay Camal, adam da elə şeyi yadından çıxardar? Bilmirsən gözüm yoldadır, ürəyim yarpaq kimi əsir? Hər gün, hər saat uşaqlardan kağız gözləyirəm…

- Acığın tutmasın, Nəbi dayı, bu saat gedib gətirim. Camal tez qalxıb getdi.

Nəbi köksünü ötürdü:

- Nigarançılıq məni aldı. Görəsən kimdəndir?

Yerinin içində oturmuş Yusif dedi:

- Ya əmimdəndir, ya Şahmərdan qağamdan. Bizim onlardan başqa kimimiz var? Ata, dayımdan da ola bilər ha!..

Növrəstə dilləndi:

- Kimdən olur olsun, barı ürək açan kağız olsun…

Çox çəkmədi ki, Camal qayıtdı.

- Doğrudan məndə huş-baş qalmayıb, - deyə Nəbiyə ağzı bağlı, əzilmiş bir zərf Verdi.

- Nəbi dayı, canın üçün ağzını açıb oxumamışam.

Nəbi zərfi ehmalca aça-aça:

- Oxuyanda nə olar, - dedi, - səndən gizlin mənim sözüm yoxdur. Qonşuluqda sənin özündən, külfətindən çox razıyam. Bu töylə bucağını bizə verməsəydin, küçələrdə qalardıq…

- Malım yox, qoyunum yox, ay Nəbi dayı, boş töylə indi nəyimə lazımdır… Amma vaxtında, üç qardaş bir yerdə olanda, özümüzə görə qoyunumuz da vardı, qaramalımız da, at-eşşəyimiz də. Kefimiz dınqırı vururdu. Hər yay sizin yerlərə, Dəstəyirdin başının üstündəki Qanqanlı və Soyuqbulaq yaylaqlarına köçürdük. Böyük qardaşım Nəcəfi dəyyusun biri öldürdü, sənə demişəm, bilirsən. Ortancıl qardaşım Rəhimlə ayrıldıq. Mal-dövləti, ev şeylərini, ta iynəyə, sapa kimi böldük. Zəmanə elə gətirdi ki, hər şey, onun da, mənim də əlimdən çıxdı. Allah onun ömrünü gödək elədi, tez öldü. İndi ancaq gündəlik çörəyimi qazana bilirəm. Əlimdə bir balaca imkan olsaydı, səni Minkənd istisuyuna aparardım. Mən o suda çimmişəm. Loğman kimi hər dərdi sağaldır.

- Bizim öz yerimizdə, Urud kəndində də qotur suyu vardı. Neyləyim, əlimizdən çıxdı. – Nəbi zərfin içindən çıxartdığı kağızın o yanına, bu yanına baxdı. – İndi bunu kim oxusun.

- Ver bəri görüm, bəlkə, höccələyə-höccələyə oxuya bildim. – Camal kağızı ondan aldı. – Axı, mən, molla Fərəcdən üç il dərs almışam. – Camal kağızı çırağın işığına tutdu, başını kağızın üstünə əyib, kəlmə-kəlmə, hıqqına-hıqqına oxumağa başladı:

«Nuriçeşmim qardaş!»

Nəbi yerindən sevinclə dilləndi:

- Comərddəndir! Can Comərd, can qardaş! – Nəbi o saat dolan gözlərini əlinin dalı ilə sildi.

- Əşi, sənə nə oldu? Uşaq kimi niyə ağlayırsan? Qoy hələ oxuyum, görək nə yazıb.

- Ürəyim kövrəldi, ay Camal! Məni qınama, Allah bizi diyarbadiyar salanın gözünü həmişə yaşlı qoysun. Qürbətçilik yaman dərddir. Oxu, oxu!..

Camal oxudu:

«…Əvvəla, bu tərəfin əhvalını xəbər alsan, sağ və salamat varıq. Saniyən, sizin də sağ və salamat olmağınızı Allahdan arzu edirik. Salisən, qardaş, mən, Şahmərdan və Qiyas sağ-salamat gəlib Bakıya çatdıq. Nigaran olmayın, ancaq bizim nigarançılığımız sizdəndir. Qardaş, bir orda olanda, sən naxoş idin, indi necəsən?

Biz də burda neft mədənində işləyirik, bu yaxınlarda sənə pul göndərəcəyəm.

Biz, Sabunçuda köhnə bir fəhlə dostumun evində oluruq. Bəlkə, qismət elə düşdü ki, bu yaxınlarda görüşə bildik… Bu kağızı sənə tanış bir adamla göndərdim ki, salamatlığımızı biləsən. Ürəyini sıxma, qardaş, qayıdıb gələcəyik.

Burda təzə söz-söhbət çoxdur, amma yaza bilmirəm. Sən orda səbrli ol. Hər gecənin bir səhəri var. Növrəstə və Yusif də ürəklərini sıxmasınlar.

Daha nə yazım, Şahmərdanın, Qiyasın sizə salam-duası var. Məndən qonşulara, birinci növbədə, Camala və külfətinə salam-dua de.

Hamınızı öpüb, bağrıma basıram. Qardaşın: Comərd Almurad oğlu, 20 aprel 1919-cu il».

Camal kağızı Nəbiyə verdi.

- Hə, demək belə… Uşaqların işə girməyi yaxşı oldu… - Nəbi köksünü ötürdü. Kağızı üç qat büküb yastığın altına qoydu. – Üzü qara zamanə bizi ayrı saldı. Neyləyək, canları sağ olsun…

Ortalığa sükut çökdü. Bir neçə dəqiqə heç kim danışmadı.

Çırağın nefti qurtarmaqda olduğundan, işığı azalmağa başladı.

Camal ayağa qalxıb:

- Gecəniz xeyrə qalsın! – deyə getdi.

Yusif qapını bağladı. Ata və iki bala yerlərində uzandılar.

Gözü ilə səfalət və fəlakət görən, lakin onların səbəbini hələ lazımi qədər dərk etməyən Yusif, dərhal yuxuya getdi.

Nəbi, ailəsinə sabah hardan çörək tapacağını düşünür, yerində qurcalanırdı.

Səsini içinə çəkmiş, lakin gözlərini yummamış Növrəstə, ərinin və əmisinin dərdini ürəyinə doldurmuşdu…

Axşamdan sərxoş yatmış Baxış bəy, gecənin bir yarısında oyandı. Yerinin içində ağzını geniş açıb, əsnədi. Qollarını ipək yorğanın altından çıxarıb, bir qədər yuxarı qaldırdı. Bütün bədəni ilə gərnəşdi. «Araq çıxardanın lap zatına lənət. Başım dəyirman daşı kimi fırlanır, ağzım öd kimidir», deyə öz-özünə mırıldandı.

Əri ilə yanaşı, lakin ayrı çarpayıda yatmış Şölə xanım da oyanmışdı. Baxış bəyin danışığına bir qədər qulaq asdıqdan sonra, özünü onun yanına verdi. Əlini əvvəlcə Baxış bəyin alnına, sonra tüklü sinəsinə qoydu, mehriban-mehriban:

- İstiliyin var, Baxış, - dedi. – Axı, bu zəhrimarı niyə çox içirsən? Canına yazığın gəlmirmi?

- Yaxşı, yaxşı, məni danlamağa gəlməmisən?

Ərinin sözünə əhəmiyyət verməyən Şölə xanım, ona yaxınlıq və nəvaziş göstərmək istədi.

- Baxış, deyirsən qatıq gətirim iç, sərinlə, başın ayılsın…

- Sən olasan atan Cəfər bəyin ərvahı, məndən əl çək, qoy yatım, dur get! – deyə Baxış bəy arvadını dirsəyi ilə itələdi. O, bu hərəkətinin qadın üçün nə qədər böyük təhqir olduğunu düşünmədi.

Şölə xanım kor-peşman öz çarpayısına çəkildi. Ancaq, nə qədər elədisə, yuxuya gedə bilmədi. Fikrə qərq oldu.

Nəhayət, ürəyində: «Kişilərin hamısı belədirsə, hamısına lənət!» - deyə yorğanı başına çəkdi.

…Baxış bəy səhər, gün yağlananda, o biri evdən gələn şıqqıltı, tıqqıltıya oyandı. Özündən başqa otaqda heç kəsi görmədi. Şölə xanım tezdən durub getmişdi.

Baxış bəy geyinmək istədi, lakin oyandığına peşman olubmuş kimi, başını yenə balışa qoyub, uzandı. Gözünü pəncərəyə zilləyib:

- Kaş oyanmayaydım, - dedi. – Eh, qəribə aləmdə idim! – Gördüyü yuxunu başqasına nağıl edirmiş kimi, dodaqları yavaşcadan tərpəndi: - Gördüm ki, yazdır, mən də öz bağıma gəzməyə çıxmışam… Gömgöy ot dizə kimi qalxıb, ağaclar çiçəkləyib, quşlar oxuyur, çiçəklərin ətri adamı bihuş eləyir. Birdən qulağım çaldı ki, məni çağırırlar… Dayandım, o tərəfə, bu tərəfə baxdım, heç kimi görmədim. Elə bildim ki, məni qara basır. «Bura gəl, yanıma gəl!» deyə kimsə yenə dilləndi.

Məni bu dəfə vahimə basdı. Dedim, lənət sənə şeytan. Günün günorta çağı, cin-şəyətin nə qayırır? Tez bağdan çıxmaq istədim. Bu dəfə səs lap yaxınlığımdan, elə bil qulağımın dibindən gəldi: «Məni görmürsən? Ha… ha… ha…».

Ağacların bir-bir yan-yörəsinə baxmağa başladım, birdən böyük bir çinarın dalında onu gördüm… «Can, Növrəstə!» deyib, onu qucaqladım… O üzündən bu üzündən öpdüm… Lap özümdən çıxmışdım. Növrəstənin əlindən tutub bir çuxur yerə çəkdim… Gülə-gülə dedi: «Özünü öldürmə, bəy. Bu gündən mən səninəm. Ancaq, bu işi gərək nə atam bilsin, nə ərim, nə də Şölə xanım…».

Dedim, arxayın ol… Ancaq, tez otur yerə… Bədənim uçunur… Kaş ermənilər sizi beş il bundan qabaq qaçqın salaydılar, a dağlar maralı… Gördüm, nədənsə, ehtiyat eləyir. Dedim qorxma, görən olmaz. Otur, tez ol, sənə canım qurban!..

Yuxunun həqiqət olmamasından pərt olmuş Baxış bəy geyinib eyvana çıxdı.

Şölə xanım əl-üz yuyana su tökdü. Gedib evdən sabın və məhrəba gətirdi.

Baxış bəyin gözünə arvadı bikef göründü. Ağzını açıb nə isə soruşmaq istəyirdi ki, mehtər Həsən gəlib dedi:

- Ağa, səhər-səhər bəd xəbər vermək yaxşı deyil, amma, gərək deyəm. Dəyirmanı bu gecə sel basıb…

- Sən elə həmişə bayquş kimi ulayırsan! Xeyir söyləməzin biri! – Baxış bəy əl-üzünü silib, məhrəbanı hirslə arvadının üstünə atdı. Şölə xanım bir söz demədən, sabını da götürüb getdi.

- Ağa, mən öz yanımdan pis xəbər gətirmirəm ki…

- Sel nədir? Dünən ki, hava yaxşı idi? – deyə bəy qışqırdı. – Yəni divarlarını tamam uçurub, daşını aparıb?

Mehtər bir-iki addım irəli gəlib dedi:

- Sel dağlardan gəlir. Vallah, Bərgüşad çayı daş dəymiş ayı kimi, nər-nər nərildəyir. Ətrafa mövc verib, qabağına keçəni aparır. Çoxlu ağac-uğac, taxta-maxta gətirir. Görünür ki, sel yuxarı kəndlərə çox ziyan vurub. Əgər çayın suyu bir-iki saata yatmasa, qorxuram bağları-zəmiləri, çəltik ləklərini lap zay eləsin. Camaat bu il ac qalsın.

- Camaat cəhənnəmə ac qalsın. Məni dəyirmanın fikri götürdü. Təzədən gərək usta gətirdəm. Bəs o heyvan darğa hardadır?

- Səhərdən görməmişəm…

- Onu tap, de ki, camaatı yığıb aparsın dəyirmanı qayırmağa. Özüm də bu saat ora gedirəm. Atı çək bayıra.

Mehtər «baş üstə» deyib həyətdən çıxdı.

…Baxış bəy atlı dəyirmandan qayıdırdı. O, kəndin girəcəyində Camala rast gəldi. Camal ona salam verib ötmək istəyəndə, bəy onu saxladı.

- Ə, bizim darğa sənə deməmişdi ki, dəyirmana gedib orda işləyən adamlara kömək eləyəsən?

- Demişdi. Amma başın üçün, bəy, macal eləyə bilmədim. Ayağım yalındır, özümə çarıx tikirdim.

- Çarıx sənin gözünə girsin. Bu axır vaxtlarda, çox dikbaşlıq eləyirsən?.. Yaxşı, sənə tapşırmışdım ki, həyətindəki o sal daşı gətirəsən bizə, qoyduracağam quyunun ağzına. Nə oldu?

- Ağa, bağışla, bu gün gətirərəm.

Baxış bəy gümüş dəstəli qamçını çəkməsinin boğazından çıxartdı.

- Buna bax, arıq cücəyə bax!.. Ə, güzgüdə üzünə bir baxmısanmı?

- Kəndlinin evində güzgü nə qayırır, ağa. Necə bəyəm, üzüm nə təhərdir?

- Dəyyusun üzü nə təhər olar?!. Qırış-qırış! Kosa dəyyus, ilana ağu verənə oxşayırsan!..

Camal demək istədi ki, «sənin üzün mənimkindən də kifirdir» lakin, bəyi çox qəzəbləndirməmək üçün fikrini dəyişdi:

- Neyləyim bəy, Allah hərəni bir cür yaradıb, kəráminə şükür, məni də belə…

Baxış bəy Camalın baş-gözünü şallağa doladı.

- Sən Allaha şükür eləyirsən, amma mənim tapşırığımı yadından çıxardırsan. Bilmirsən ki, Allah sizin ixtiyaratınızı mənə verib?.. Bilmirsən ki, Allah sizin üçün bu qamçını da yaradıb!..

- Ağa, niyə döyürsən, daşdır, gətirərəm də…

- Sən mənim sözümü qulaq ardına vurursan! Qanacaqsız, eşşək kəndli!

- Ağa, döyürsən, döyürsən, bəs niyə söyürsən? – Camal başını tutdu. – Vay başım! Vay başım!..

- Keçəl köpək oğlu! Səni qardaşın Nəcəfin gününə salacağam!..

Qamçının ucu Camalın gözünə dəydi. Camal qışqıra-qışqıra sağ gözünü tutdu. Sonra bəyin əlindən yaxasını qurtarmaq üçün qaçmaq istədi. Lakin bəy onu atdöşü elədi…

Bəyin Camalı döydüyünü görən kəndlilər tökülüb gəldilər. Ağa bəy də səs-küyə öz otağından çıxıb gəldi.

Camalın arvadı başını yola-yola yalvardı, yaylığını bəyin ayaqlarının altına atdı. Bəy arvadın yalvarışına fikir vermədi, onu da nalayiq sözlərlə söydü.

- Bu vəhşilikdir, adamı niyə döyürsən! – deyə Ağa bəy qardaşını danladı.

Baxış bəy onun sözünü də eşitmədi.

Kəndlilər Camalı Baxış bəyin əlindən bir təhər aldılar. Qoluna girib evinə apardılar. Üz-gözü qana batmış Camalı yorğan-döşəyə saldılar.

Kəndlilər ürəklərində bəyə min lənət oxuyaraq, mat-mat Camala baxırdılar. O sızıldayır, arvadı Tükəzban da, başına-gözünə vura-vura şivən qoparırdı.

## Altıncı fəsil

Səhər tezdəndi.

Xocahan kəndinin altında, yolun kənarında salınmış beş-altı dükandan və zibilli meydançadan ibarət həftə bazarında böyük canlanma vardı. Yaxın və uzaq kəndlərdən bugünkü bazara çox adam gəlmişdi. Demək olar ki, bazar əmtəə cəhətdən zəngin deyildi. Xüsusilə insan həyatına lazım olan ən vacib şeylər: qənd, çay, parça, ayaqqabı heç kəsin əlində və heç bir dükanda görünmürdü. Alınıb satılan yalnız kənddə hasil olan şeylər və heyvanat qismi idi. Bazarda sənaye mallarının görünməməsi şəhərlə kəndin əlaqəsinin olmaması ilə izah olunurdu. Lakin, buna baxmayaraq, alver gedirdi. Kimi inək, kimi at, kimi öküz, kimi qoyun, kimi palaz satırdı. Yəhər, palan, köhnə şalvar, çuxa, daraq, saqqız, iynə, sap, iydə, ərik, tut qurusu satanlar da vardı.

Bazarda hər şeydən baha yağ, pendir və taxıl idi.

O adamın, bu adamın yanında dayanıb pul istəyən, o dükanın, bu dükanın qabağında boynunu büküb yalvaran, «Allah payı» istəyən dilənçilər, avaralar nəzəri daha çox cəlb edirdi. Bu kirli-pasaxlı, cır-cındalı, ayaqyalın, yarı çılpaq adamların – kişilərin, arvadların, uşaqların əksəriyyəti Zəngəzur qaçqınları idi. Satmağa şeyləri, almağa pulları olmayan bu dilənçilər, bu bədbəxt insanlar, bəlkə, bazar günlərində əllərinə bir şey keçsin deyə, ora gəlmişdilər.

Bazarın hər tərəfindən gələn müxtəlif səslər, tərifli sözlər, danışıqlar bir-birinə qarışmışdı:

- Ay şalvar alan! Şalvar, nə şalvar!.. İngilis malından, yun parçadan… İkicə dəfə geyilib, heç yuyulmayıb, rəngi də solmayıb, geyən bəy balasına oxşar. Kasıb, hardasan?.. Şalvar alan, ay şalvar…

- İnək alan bura gəlsin! Buynuzları qoşa, məmələri şiş, özü də cins inəkdir. Çox gümrahdır, heç bir eybi yoxdur, ehtiyacdan satıram. Ay inək alan, südlü inək, kök inək… Alan xeyir görər, canıma dua elər. İnək alan, ay inək alan!..

- Ay eşşək alan, ay eşşək alan! Yanında bir yaşar qoduğu da var. İkisini bir yerdə satıram. Ucuz verəcəyəm! Vallah, eşşək deyil, qatırdır: yeddi pud yük çat, özün də min, quş kimi aparsın, nə yorulsun, nə yolda qalsın. Ay müştəri, hardasan? Eşşəyə gəl, eşşəyə! Üstündə bir çul da verirəm.

- Ətli iydə… Tut qurusu… Öz bağımın barıdır. İydə cana faydadır, tutum şirindir baldan… Ay alan, hardasan?.. Satmışam qalıb azı, gəl yanıma, tamarzı! Al, ağzın dada gəlsin…

- Palan satıram, ay müştəri! Yanımdan ötmə, almamış getmə! Möhkəm palandır. Nə qədər işlətsən, əlli il qalandır. Yəhərdən rahat palan… At palanıdır. Eşşəyə də qoymaq olar. Palan… Ay palan alan!

- Saqqız alan, ha saqqız alan! Müştərisi varsa gəlsin! İran saqqızıdır. Təmiz saqqızdır, təmli saqqızdır. Qurtarır, azdır. Ağızda şabalıd kimi şaqqıldayır, al çeynə ağzın dada gəlsin… Dişinin dibini bərkitsin, keçəli də sağaldır. Al, başına sal! İran saqqızı… Beləsini tapa bilməzsən… Ay saqqız alan!..

Bazara qəsidə oxuya-oxuya bir dərviş və yanında bir adam gəldi.

Öz mallarını tərifləyərək müştəri çağıran satıcılar, onu görən kimi səslərini kəsdilər.

Dərviş biz zaman Şəkiyə ələmdar sifətilə gələn və İsmayılın atını gecə yarısı oğurlayıb aparan seyid Mir Qasım, yanındakı adam isə onun torba götürəni idi. Oğurluqlarının üstü açılmasın deyə, o vaxtdan bir də Sisyan mahalına ayaq basmamışdılar. Dörd il idi ki, Həkəri-Bərgüşad kəndlərində dərvişlik edirdilər. Hər ikisi ehtiyacsız, kefi kök yaşayırdı.

Mir Qasım hər satıcının yanında, hər dükanın qabağında dayanır, əlini qulağının dalına verib, nəfəsini dərindən ala-ala, səsini boğazında qaynada-qaynada, dərvişlərə məxsus bir ahəng, bir zəngulə, bir əda ilə oxuyurdu:

Ey şəhriyari-məmləkəti-övliya Əli!
Vey şəhsəvari-mərakeyi-övsiya Əli!
Sənlən ucaldı beyrəqi-dini-Məhəmmədi,
Ey sahibi-şəriətə sahib-ləva Əli!
İslamın etdi kəc qılıcın rast qəddini,
Olsun o zərbi-şəstüvə ruhum fəda, Əli!..

Dərviş oxuduqca adamların arasında müxtəlif danışıqlar gedirdi:

- Ə, ağa dərvişin nə gözəl səsi var…

- Canım qurban olan Əlidən deyir…

- Sən öl, mən dərviş tanıyıram ki, gah tuğ gəzdirir, gah çavuş olub Kərbəlaya ölü aparır; yaman həyasız adamdır…

- Ə, elə demə, Allaha xoş getməz. Səni xataya-bəlaya salar…

Adamlardan kimi torba götürənə ovcunda tut qurusu, iydə, kimi evdən özü üçün götürdüyü yuxalardan bir-ikisini verdi. Kimi cibindən dəsmalını çıxardıb içinə bir qədər pendir qoyaraq, torbaya saldı, kimi dərvişin kəşkülünə pul qoydu.

«Ağam sənsən, ya Əli!» deyə dərviş torba götürəni ilə bazardan çıxarkən, kim isə qışqırdı:

- Ə, qoyma qaçdı! Ə, tut onu! Ə, qabağını kəs, apardı! Vay dədəm vay, evim yıxıldı…

Palan satan, saqqız satan, inək satan, at satan, müxtəsər, hamı qışqıran adamın başına yığıldı.

Saqqız satan soruşdu:

- A kişi, nəyini apardılar?

İnək satan soruşdu:

- Ay əmi, kim apardı?

Palan satan dedi:

- Bəs gözün harda idi?

Kişi başına-gözünə döyə-döyə hamıya bir cavab verdi:

- Gözüm dərviş ağada idi. Onda gördüm ki, cülük kimi bir uşaq tut qurusundan iki əlli xışmalayıb apardı. Vay, köpək oğlu! Peyğəmbərə and olsun səni tutsam, boğazını sərçə boğazı kimi üzəcəyəm…

Tutu oğurlanmış çal saqqal, gödək boy kişi uşağın dalınca getmək istədi, lakin fikrini dəyişdi. Malının talan-tarac olunacağından qorxdu. Ancaq gözdən itmiş uşağın qarasınca deyinməyə başladı…

Kim isə dedi:

- Bir ovuc tut qurusundan ötrü haray-həşir salma, kişi, elə bil aca, yetimə Allah payı verdin…

- Mən hatəm deyiləm hər yetimə paylayam. Allah payını dərvişə verdim, bəsdir. Sən elə bilirsən ki, mən tutu, iydəni toxluğumdan satıram? Yox, bacı oğlu. Vallah və billah, on gündür ki, balalarımın dilinə horra da dəymir.

Hər kəs öz satdığı şeyin, mal-heyvanın yanına qayıtdı.

Çox keçmədi ki, bazarın yola tərəf olan səmtindən yeni bir qışqırıq eşidildi. Hamı təzə hadisə baş verdiyini yəqin etdi.

Cavan bir oğlan özünü itirmiş halda çığırırdı:

- Atım getdi, ay camaat! Yəhərli-yüyənli atımı oğurladılar. Dədənə lənət, tut satan! Başım sənə qarışdı, evim yıxıldı…

İkinci oğurluq hadisəsi hamıda bir vahimə əmələ gətirdi. Heç kəs yerindən tərpənib, oğlanın harayına getmədi. Oğlan bazarda o tərəf, bu tərəfə qaçdı, Qubatlıya sarı gedən yola çıxıb altdan yuxarı bir xeyli baxdı. Uzaqda, döngəni burulub düzə çıxan və çapa-çapa gedən bir atlı gördü…

- Vay dədəm vay! Yəqin o, mənim atım idi… - deyə yolun kənarında, bir daşın üstündə oturub fikirləşdi. Nəhayət, pristavın yanına şikayətə getmək qərarına gəldi.

Bazardakı şuluqluqdan dilxor və narahat olan alverçilər öz aralarında danışırdılar:

- Tut qurusu oğurlayan, yəqin acmış. Ona halaldır, qoy yesin, çünki aclıqla zarafat olmaz. Amma, sarıyataqlı gədəsinin atını aparan namərdlik elədi…

- Təkcə bazarda belə işlər olmur ha… Kəndlərin hamısında oğurluq, soyğunluq artıb…

- Allaha and olsun, dünya indi çapavulçular dünyasıdır. Adamın gözündən tük qapırlar. Kişi gərəkdir ki, papağını başında bərk saxlasın…

- Ə, sahibsiz, dərəbəylik ölkəsidir dayna. Bundan artıq nə gözləyirsiniz? Divan-dərənin ancaq adı var. Bəy balaları keçib iş başına, hamısı öz keflərində, öz damağlarındadırlar. Şikayətə baxan kimdir?

Bayaqdan bəri qanunsuzluqdan, oğurluqdan şikayətlənənlər, bazara girən pristavla strajniki görən kimi susub, özlərini yığışdırdılar.

Geyimində, daşıdığı vəzifədə, ümumiyyətlə, hər şeydə çar pristavından fərqlənməyən bu müsavat pristavı Əli Sadiqi, dünən Xocahana gəlmişdi. Gecə dostunun evində qalıb, səhər yeyib-içib istirahət edəndən sonra, bazara baş çəkmək üçün gəlmişdi.

Pristav əllərini belinə vurub, gah adamlara, gah satılan şeylərə nəzər saldı. Öz-özünə: «bazarda sakitlikdir» deyə addımladı. Adamlar geri çəkilərək ona yol verdilər. Lakin atı və tut qurusu oğurlanmış kəndlilər onun qabağını kəsdilər:

- Ağa pristav, başına dönüm, bircə dəqiqə ayaq saxla, sənə şikayətim var, - deyə tut qurusu oğurlanan kəndli dərdini söyləmək istədi.

Sarıyataqlı oğlan onu geri itələdi. Özü qabağa keçib şikayətə başladı:

- Ağa pristav, mənim şikayətim böyükdür. Yanına gələcəkdim. Yaxşı oldu ki, özün gəldin.

- Ə, sən geri dur, pristav ağa əvvəlcə mənim şikayətimə baxacaq.

- Yox, ağa əvvəlcə tut şikayətinə yox, at şikayətinə baxacaq…

Əli Sadiqi hirsləndi:

- Bu nə qaraqışqırıqdır salırsınız? Adam kimi bir-bir danışa bilmirsinizmi? Nə olub? Nə şikayətdir? – O, tut satana müraciət elədi: - Sən danış, ancaq gödək elə!

Tut satan şikayətini qurtarandan sonra, pristav qaşlarını çataraq:

- Axmaqsan! – dedi. – Mən belə xırım-xırda tut-mut şikayətinə baxmıram. Canın çıxaydı, gözün malının üstündə olaydı. Çəkil qabağımdan!

Tut satan, əksinə, bir az da irəli gəlib, yenə nə isə demək istədi, lakin strajnik:

- Ə, adam oğlusan, ayı kimi irəli soxulma! – deyə tüfəngin qundağı ilə onun döşündən vurub geri itələdi.

- Sən kimdən şikayət eləyirsən? – deyə pristav soruşdu.

Atı oğurlanan cavan kəndli öz dərdini danışdı.

Pristav:

- Hə… hm… Bax, bu böyük oğurluqdur, - dedi. – At oğrusu, tut oğrusu deyil. Onu tapmaq lazımdır. Özünə də ağır cəza vermək lazımdır. – Əli Sadiqi bir az fikirləşib əlavə elədi: - Üç gündən sonra, bir ərizə də yazdırıb gələrsən mənim idarəmə. Başa düşdün?

- Bəli, ağa. Allah səndən razı olsun. Mən sarıyataqlıyam. Əsli adım Əbildir, amma kənd arasında hamı mənə Əbiş deyir. Bəlkə atamı tanıyasan, Məmiş Əmiş oğludur. Əliaçıq adamdır, yanında gözü kölgəli qalmaz. Mən özüm…

Pristav onun sözünü kəsdi:

- Ya Məmişin, ya Əmişin oğlu ol, bunda sözüm yoxdur, amma uzun müşərrəf eləmə. Get, üç gündən sonra gəl.

Oğlan atın nişanlarını da deyib aralandı.

Əli Sadiqi ilə Fərman dükanlara sarı addımladıqları zaman, əli ağaclı, başı açıq, ayaqları yalın, bığ-saqqal basmış bir adam bazara girdi.

Xocahanlılardan kim isə yanındakılara gülə-gülə pıçıldadı:

- Kəndin, bazarın gülü, «aşıq» Valeh gəldi. Sizin canınız üçün onda dəsgah var. Ora baxın, düz pristava tərəf gedir, görək nə qayıracaq…

Zəngəzur kəndləri dağılandan sonra, arvadı və iki oğlu ölmüş, özü isə tif xəstəliyindən dəli olmuş bu adam, irmisli Valeh idi. Ancaq ona, bəziləri rişxəndlə aşıq Valeh deyirdi. Çünki o, əl ağacını saz kimi sinəsinə basır, bildikləri sözləri avazla oxuyur, adamları əyləndirir, güldürür və beləliklə, çörək, pul yığıb dolanırdı.

Valeh pristavın qabağında dik dayanıb, ağacını saz kimi sinəsində tutaraq, guya çala-çala, aşıq kimi, yerində oynaya-oynaya oxumağa başladı:

Mənim toyuğum dümağ idi,
Dərisi dolu lap yağ idi,
Evin yıxılsın, toyuq tutan,
Oğlun ölsün, toyuq tutan.

Mənim toyuğum çil-çil idi,
Toyuq deyil, bir fil idi.
Evin yıxılsın, toyuq tutan,
Oğlun ölsün, toyuq tutan…

Həmişə qaş-qabağından zəhər tökülən Əli Sadiqi şaqa çəkib güldü. Yaxındakı kəndlilər də pristava baxıb güldülər. Valeh: «Mənə pul ver, a bığı burma!» - deyə Əli Sadiqinin qabağında çöməltmə oturub əlini açdı.

Kim isə: «Ə, aşıq Valeh, o, pristav ağadır, ondan pul istəməzlər…» - deyə, özü ona pul verdi və qolundan tutub kənara çəkdi.

Valeh pristava gözünü bərəltdi.

Əli Sadiqi yenə bərkdən gülərək:

- Bu balaca bazarda hər cür meymuna rast gəlmək olar!.. – deyə aralanıb getdi.

Valeh pristavla strajnikin dalınca yazıq-yazıq baxdı, sonra ucadan qəhqəhə çəkdi. Əlini havada tovlaya-tovlaya oxudu:

Bax fələyin gərdişi dövranına,
Gahi xəzan, gahi gülüstanına…

Daha heç kəs Valehə fikir vermədi. O, ağacını çobansayağı boynunun ardına qoyub, fıştırıq çala-çala uzaqlaşdı.

Pristavla strajnik gedəndən sonra, meydanda yenə müxtəlif səslər ucaldı, sözlər eşidildi. Bazar təzədən qızışdı…

…Bazarda bir-birindən xeyli aralı iki dükan vardı. Birində yun, digərində gəbə satılırdı. Dükançılar mallarına müştəri tapmadıqlarından şikayətlənirdilər.

Hacı Atakişi onun dükanına söhbətə gəlmiş Məşədi Nuruya deyirdi:

- Görürsən sən Allah, Məşədi Nuru, bir zalım oğlu müştəri dükana sarı gəlmir. Belə də alver olar?! Neyləyim, Tiflisin, Məskoyun yolu açıq olaydı, mən də bu malları oralarda xırıd eləyəydim, görəydin… Yox, Məşədi, bazar kasatdır, maya batacaq…

Yun satan Məşədi Nuru ürəyində deyirdi: «Ağlama, Hacı Atakişi. Səni mən yaxşı tanıyıram. Qaçqın olsan da, dərinin arası qızıldır. Ancaq özünü tülkülüyə vurursan… Gəbən, fərşin satılmır satılmasın, nə vecinədir, yüz il ağa kimi dolanmağa tanqahın var. Vay mənim halıma ki, var-yoxumu vermişəm yuna, onu da alan yoxdur…».

Hacı Atakişi Bərgüşad çayına gələndən sonra torpaq sahibi olmaq, mal-qara, sürü saxlamaq fikrindən əl çəkmişdi. Ona görə də qoyununu, malını satıb, pula, qızıla vermişdi. Əvvəlcə dövləti ilə fəxr eləyən, şöhrətini hər yerə yayan bu ada, indi qürbətə düşəndən sonra, özünü hamının gözündə yazıq və yoxsul göstərmək istəyirdi.

Əli Sadiqi kənarda göründü. O, tək idi. Fərmanı atları gətirməyə göndərmişdi.

- Pristav mənim dükanıma sarı gəlir, - deyə Məşədi Nuru qalxdı. – Hacı, sən də ehtiyatlı ol!..

- Nə ehtiyat? – deyə Hacı sakit cavab verdi. – Pristav Əli bəy yaxşı adamdır.

- A kişi, Əli bəyi dəyişdiriblər, indi pristav başqasıdır. Bunu heç mən də yaxşı tanımıram. Xocahan bazarına gəldiyi bu gündür. Birdən bizi axtarıb elər, kandrabat malın varsa, gizlət. Deyirlər bu çox tərs adamdır.

- Mən kandrabatçı deyiləm. Hər nəyim var göz qabağındadır. Heç kəsdən də qorxum yoxdur. Bəlkə sənin kandrabat malın var?..

Məşədi Nuru cavab vermədən öz dükanına getdi.

Əli Sadiqi onun dükanının qabağından keçib getmək istəyəndə, topsaqqal, qırmızı yanaq, dolu, gödək boy Məşədi Nuru gülə-gülə dedi:

- Ağa pristav, salaməleyküm! Ağa pristav, qulluğunda olaq… Sən xoş gəlmisən!

Əli Sadiqi dayanıb razılıq əlaməti olaraq, başını tərpətdi və yaxına gəlib, dükana diqqətlə baxmağa başladı.

Məşədi Nuru əllərini döşünə qoyub, baş əydi:

- Ağa pristav, dübarə salaməleyküm! Buyur içəri, sənə nə lazımdır? Nə qədər yun istəyirsən, peşkəşdir! Bəlkə, xanımın yorğan-döşək saldıracaq. Canına and olsun, buna yun demək olmaz, ipəkdir, ipək! Ağa, nə qədər çəkim?

- Yundan başqa, daha nə satırsan?

- Ağa, daha sağlığın. Elə mənimki yundur, başqa şey lazım olsa, de, tapıb düzəldərik…

- Mənə gəbə lazımdır.

- Gəbə. Odur e, qonşu dükanda. Zəhmət çək, get bax, ürəyin istəyəni götür.

Məşədi Nuru başını piştaxtanın üstündən uzadıb Hacı Atakişiyə ucadan dedi:

- Ay Hacı, pristav ağaya gəbə göstər. Mən ölüm, kişiyə xas mal ver!

Pristav, həddindən artıq dil töküb naqqallıq eləyən Məşədi Nurunun üzünə tərs-tərs baxıb aralandı.

Hacı Atakişi dükanına yaxınlaşmaqda olan Əli Sadiqiyə kənardan baş əyib:

- Ağa pristav, buyur! – dedi. – Bu gəbələrin hamısı sənə peşkəşdir. Sənə layiq irili-xırdalı, hər cür gəbəm var.

Əli Sadiqi onunla üz-üzə durdu. Bir-birlərinə azacıq baxdılar.

Pristav:

- Ha… ha… ha… Hacı Atakişi, deyəsən məni tanıya bilmirsən? – dedi. – Bura bax, işə bax, səni harda görürəm…

Hacı Atakişi:

- Hə, hə, indicə, vallah indicə səni tanıdım, - dedi, - Əli Sadiqi!.. Mənim əziz dostum, köhnə dostum! Bura bax! Lıbasını dəyişmisən… İçəri buyur, içəri gəl, qadan alım. – Hacı Əli Sadiqini dükana buraxdı, əlini bərk-bərk sıxdı, oturmaq üçün yer göstərdi. Hər ikisi oturdu. – Hə, bizim təzə pristavımız sən imişsən?! Çox əcəb, çox pakizə. Elə bu mənim ürəyimcədir. Gözün üstümdə olar. Sən ki, məni əvvəldən tanıyırsan… Hacı Atakişi gör indi nə günə qalıb, ay Əli Sadiqi…

- Belə, bəli. Səni yaxşı başa düşürəm. Kefin-zadın necədir, Hacı? Ondan danış. Deyir, qar yağıb ayaq üşütməyə…

- Qaçqının kefi necə olar? Gördün də, ermənilər başımıza nə oyun açdılar? Qoy indi deyim barı: Allah o osmanlılara da lənət eləsin. Camaatı soydular, tüfəng aldırtdırıb, erməninin üstünə qızışdırdılar. Dedilər ki, bu mahalın ağası biz olacayıq. Hər yerdə Osmanlı bayrağı sancılacaq. Amma, biqeyrətlərin sözləri yalan çıxdı. Elə sən pir olmuş da bizə çox vədə verdin…

Əli Sadiqi tez onun sözünü kəsdi:

- İndi bu danışığın yeri deyil, Hacı. Biz yenə Osmanlı ilə dostuq, çünki Qafqazdan çıxıb getsə də, yenə bizim müsavat hökumətinin dayağıdır, müsəlmandır…

- Elə Osmanlı musurmanın dayağıdır, Osmanlı musurman hökumətidir dediniz, bir şey çıxmadı. Andronik külümüzü göyə sovurdu.

- Yaxşı, Hacı, yaxşı! Başqa söhbət eləyək. Sən öz mal-dövlətini gətirə bildin, ya yox?

- Nə deyim, vallah… Mənim canım torpaqlarımda idi ki, qaldı gavura. Mal, qoyun, at, eşşək orda-burda tələf oldu. İndi bir babat güzəranlıq eləyirəm. Görürsən də, mən hara, fərş alveri hara. Neyləyək, deyir zəmanə sənə saz olmasa, sən zəmanəyə saz ol…

- Amma özün bu neçə ildə heç dəyişilməmisən, Hacı, MaşAllah, qıvraqsan, hələ bir az da cavanlaşmısan…

Hacı Atakişi köksünü ötürdü:

- Yox, Əli Sadiqi, elə demə, ürəyim çəkilib, quru bədənim qalıb… cah-cəlalım dağıldı, arvadlar öldü. Onların hamısı bir yana, Fərmanın dərdi bir yana. Məni oğul dərdi əyib əldən salıb…

Əli Sadiqi Fərmanın başına gələn əhvalatı bilirdi. Onu birinci dəfə Padar kəndində görəndə Fərman atasından gileylənib demişdi: «Atam məni həyətdə yaralı qoyub, pullarını, qızıllarını götürüb getdi. Onu harda görsəm, oradaca öldürəcəyəm».

Əli Sadiqi Fərmanın sağ olduğunu qəsdən demədi. Fikirləşdi ki, özləri görüşsələr daha maraqlı olar…

- Demək, oğlunun öldü-qaldısından xəbərin yoxdur. Hə?

- Onun adını çəkib, ürəyimi qana döndərmə, Əli Sadiqi. Dur gedək evə. Mən Xocahanda oluram. Söhbət eləyək, ürəyimi boşaldım…

- Mən evə getməyəcəyəm, Hacı. Bu saat strajnik atımı gətirəcək, yola düşəcəyəm…

Hacı Atakişi gəbənin birini büküb dedi:

- Gedəndə atının tərkinə bağlarsan.

Əli Sadiqi cibindən pul çıxarıb, soruşdu:

- Qiyməti neçədir?

Hacı Atakişi gülümsədi:

- Sənə nə satacağam? Eyib deyil? Biz ki, dostuq, duz-çörək yemişik… Apar, halal xoşun olsun.

- Xeyr, Hacı, başın üçün, onda aparmaram.

- Evinə gətirərəm. Harda olursan?

- Yaxşı, Hacı. Evimi də görərsən… - O, pulu cibinə qoydu.

Fərman öz atını minərək, pristavınkını yedəyinə alıb dükana sarı gəlirdi. Dükana çatmağa iyirmi beş-otuz addım qalmış, pristav ağzını ona tərəf tutub ucadan dedi:

- Atları orda qoy, özün gəl!

Fərman atları meydanın ortasındakı dağdağana bağlayıb gəldi.

Ata oğlunu, oğul atanı gördü. Hər ikisi heyrət içində donub qaldı.

Hacı Atakişi:

- Oğul, Fərman! – deyə qulaqbatırıcı bir səslə qışqıraraq, yerindən sıçradı. – Oğlumun salamat olmasını niyə mənə deməmisən, Əli Sadiqi?! Xudaya, bu möcüzdür, nədir?.. Gəl bala, gəl Fərman!.. – Hacı Atakişi oğlunu bağrına basmaq üçün dükandan bayıra çıxmaq istədi. Lakin gözlərində qəzəb və nifrət odu parlayan Fərman tüfəngini çiynindən aşırıb:

- Sən mənim atam deyilsən! – dedi. – Hiyləgər, acgöz, namussuz Hacı Atakişi! – Fərman beşatılanı ona tərəf tuşlarkən, Əli Sadiqi tez ayağa durdu. Hacı Atakişinin qabağına keçib, kəskin bir səslə:

- Fərman, nə eləyirsən? – dedi. – Mənim yanımda qoca atanı öldürmək istəyirsən? Axmaq, tüfəngi sal aşağı!

- Atamı yox, biqeyrət bir kişini. Oğlunu yaralı qoyub, pulunu, qızılını götürüb qaçan namussuz bir adamı. O yana çəkil pristav ağa! Mən onu göydə axtarırdım, yerdə əlimə düşüb.

Əli Sadiqi dərhal piştaxtanın üstündən bayıra atıldı.

- Axmaqlama, get atanla barış! – deyə tüfəngi Fərmanın əlindən aldı. – Bundan sonra da Hacının başından bir tük əksik olsa, səni də mən öldürəcəyəm. Başa düşdün? Get barış!

Fərman yerindən tərpənmədi. Dodaqları tərpəndi, elə bil öz-özünə nə isə danışırdı…

Oğluna yaxınlaşmağa həm qorxan, həm xəcalət çəkən Hacı Atakişi sinəsini açıb:

- Vur, məni öldür, oğul! – dedi. – Mən ölməli atayam. Sən yaxşı ol, sən yaşa! Mən öz canımı, pulumu hər kəsdən, hər şeydən əziz tutmuşam. Mən dünya malına uymuşam, mən insafsız olmuşam. Daha başım daşdan-daşa dəyib… Bütün günahlarımı boynuma alıram, oğul! Pərvərdigara, mənə özün cəza ver!.. – Hacı Atakişi iki əli ilə başını tutub hönkürdü.

- Yeri, atanla görüş! – deyə Əli Sadiqi Fərmanın qolundan tutub, dükana salmaq istədi.

- Yox, pristav ağa, istəmirəm! – deyə Fərman dartındı.

- Cavanlığına salma, yekə oğlansan! – Əli Sadiqi zorla Fərmanı çəkə-çəkə içəri saldı. – Başını qaldır, Hacı. Elə bil ki, təzədən oğul sahibi olursan…

Ürəyinin telləri nazilib, uşaq kimi kövrəlmiş atanın qolları oğlunun boynuna dolandı. Xınalı saqqalından aşağı gilə-gilə axan göz yaşları, bəlkə də, Fərmanın nifrət və qəzəbini söndürəcəkdi…

Padar kəndi, Həkəri çayının sol sahilində, balaca bir təpənin üstündə salınmışdır. Cəmi otuz-qırx evdən ibarət olan bu kənd çox gözəldir. Kəndin altındakı meyvə bağları, ətrafındakı tut ağacları və ilin hər fəslində yamyaşıl olan ardıc ağacları, onun gözəlliyini daha da artırır.

1918-ci ildə Minkənd tərəfdən gələn Zəngəzur qaçqınlarından, bu kənddə əylənənləri çox olmuşdu. Ancaq buranın camaatı yoxsul olduğundan, yaşamaq üçün ev tapılmadığından, çox ailə ordan başqa yerlərə köçmüşdü. Bığlı Əhmədin ailəsi, bir də Fatı ilə Fərman bu kənddə qalmışdılar. Fərmanla Fatı bir qışı, Məhərrəm adlı adamın eyvanını ev kimi düzəldib, orda yaşamışdılar. Ancaq bu evdə çox qala bilməmişdilər. Buna səbəb Fatı olmuşdu…

Dava, qaçqınlıq, ağır həyat Fatının köhnə xasiyyətini dəyişməmişdi. O, burada da başqalarının ailə həyatına qarışmağa başlamışdı. Tez bir zamanda hamı onun araqarışdıran, hiyləgər, arsız bir arvad olduğuna bələd olmuşdu.

Fatı Məhərrəmlə, onun cavan, gözəl və namuslu arvadının arasını vurmaq istəmişdisə də, Məhərrəm bunu tez başa düşmüşdü. Bir gün Fərmanı evinə çağırıb demişdi: «Siz qaçqın, yersiz-yurdsuz adamsınız. Rəhmim gəldi, sığınacaq verdim. Ancaq arvadın Fatı qarı mənim külfətimi başdan çıxartmaq istəyir. Onun nə borcuna qalıb ki, arvadıma deyir: «Ay qız, Zərnigar, Məhərrəm heç sənin babın deyil. Özün marala oxşayırsan, ərin demi qurbağasına. Özü də ki, səni bir köhnə tumanın, bir cırıq güləçənin içində saxlayır…». Bax, Fərman, sən pis oğlan deyilsən, amma, ya arvadının cilovunu çək, ya da mənim evimdən köç get!»

Fərman həmin gün Fatını bərk döymüşdü və qonşulara getməyi ona qadağan eləmişdi. Lakin Fatı, necə deyərlər, köhnə sümük azarından əl çəkməmişdi. Nəhayət, Məhərrəm öz arvadının namusunu qorumaq üçün onları evindən qovmuşdu. Çox qapılara gedəndən sonra, nəhayət, Günəş adlı bir dul arvadın evində daldalanacaq tapmışdılar.

…Hisli-paslı, alçaq bir damda oturmuş Fatı əlində ip yumaqlayır, öz-özünə danışırdı: «Fərman niyə gəlmədi? Axı, dünən onun vaxtı idi. Yazığı kəndlərdə bit-çirk basdı. Gəlsəydi pal-paltarını qaynadıb, yuyardım. Deyirəm, kəraminə şükür Allah, gör məxluq nə zəlalətə düşdü e… Mənim Fərmancığazım bəy balası kimi oğlan ola-ola bir tikə çörəkdən ötrü gedib ona-buna çəltik döydü, odun yardı, bağ suvardı. Şəvə kimi saçlarına dən düşdü. O irəli diqqətnən baxmışam. Ürəyim qana dönüb. Gədə lap qocalıb, gözləri düşüb quyunun dibinə. Hələ onu çox korluq çəkməyə qoymamışam. Abbasəlidən qalan qızılımı, gümüşümü satıb ona yedirtmişəm. Eh, üzün qara olsun dünya! Hanı Hacı Atakişinin haşan-kaşanı, gətir-götürü? Hanı Şəkinin soyuq bulaqları, güllü-çiçəkli yaylaqları? Pərvərdigara, nə yaman görəcəkli günlərimiz varmış!.. Neynək, bu günə də şükür. Fərman ki, ərimdir, elə bilirəm dünya mənimdir…».

Fatı ayağa qalxıb çırağı yandırdı. Evin bir bucağında yanan ocağın üstündən şilə qazanını götürdü. Nimçə, çörək, duz gətirdi. «Kaş Fərman da gələydi, bir yerdə yeyəydik» - deyə fikirləşə-fikirləşə xörəyi çəkmək istədiyi vaxt, bayırda at ayağının səsi eşidildi. Fatı qazanın ağzını örtüb dərhal bayıra çıxdı.

- Bıy, başına dolanım, Fərman, gəldin?

Fərman atdan düşüb Fatıya dedi:

- At tərlidir, çək pəyəyə, qabağına yemdən-zaddan at. Yəhərini sonra özüm alaram.

Fatı atın cilovundan yapışıb apardı.

Fərman evə girdi. Tüfəngini, patrondaşını çıxardıb, divardakı mıxdan asdı. Çarığını çıxardıb keçənin üstdə oturdu. Bütün ev müxəlləfatı bir dəst yorğan-döşəkdən, bir nimdaş keçədən, beş-altı qab-qacaqdan, su bardağı, parç və qara aftafadan ibarət olan evinə, ilk dəfə görürmüş kimi nəzər saldı. Köksünü ötürdü.

Fatı gəldi.

- Qadan ürəyimə, əl-üzünü yu! – deyə əlini aftafaya atdı.

- Lazım deyil, gələndə çayda yumuşam.

- Hə, neynək. Onda çörək yeyək. Turşulu şilə bişirmişəm, çaylı şiləsi. Vallah, ürəyimdən keçirdi ki, bir yerdə yeyək. Elə qazanı ocağın üstündən təzə götürmüşdüm ki, sən gəldin.

Fatı xörəyi çəkib gətirdi. Qabaq-qabağa oturub yeməyə başladılar.

Fərman bir neçə tikə alıb, xörəkdən çəkildi.

- Niyə yemirsən? Xoşuna gəlmir? Neyləyim, olaydı Şəkidəki dolu eviniz, durub ürəyin istəyəni bişirəydim. Sən Allah, bir-iki tikə də ye.

Fərman dillənmədi.

- Ə, gözümə bikef görünürsən, Allah eləməmiş, naxoşlamamısan ki?

- Yox.

- Bəlkə, pristav sənə söz-möz deyib? Vallah, sənə yazığım gəlir, Fərman. At belində gəzməkdən belin əyilir, qıçların quruyur. Üstün başın da kir-pasaq… Deyirəm e, kiminin əvvəli, kiminin axırı… Hacı Atakişinin cırcır çəkməli, mahud çuxalı, Buxara papaqlı, cibi dolu oğlu, indi ayağına yamaqlı çarıx geyir, gözünü də dikib qulluqdan gələn beş qəpiyə…

- Hacı Atakişinin heç tükü də tərpənməyib. İndi kənddəkindən də pis dolanmır.

- Niyə, Hacı sağdır? Ə, nə bildin? Bənəvşə də salamatdır?

- Atam Xocahandadır. Xalı-xalça alveri eləyir. Anam ölüb.

- Vay, yazıq Bənövşə! – Fatı əlini dizinə çırpdı və dəstərxanı yığışdırıb kənara qoydu. – Danış görüm Hacını necə tapdın? Nə təhər görüşdünüz? O sənə nə dedi, sən ona nə dedin?

Fərman hər şeyi olduğu kimi danışdı. Axırda dedi:

- Ola bilsin ki, özü də bura gələ.

- Bəs ona demədin ki, ata, niyə məni ölüm ayağında qoyub qaçdın? Demədin ki, Fatı olmasa idi, indi sümüyüm də çürümüşdü?.. O qızıl-gümüş məndən artıq idi?..

- Onu öldürəcəydim, pristav qoymadı. Bizi zorla barışdırdı. Atam günahını boynuna alıb ağladı. Düzü, mənim də ürəyim yumşaldı.

- Barışmısan, yaxşı eləmisən. Hər nə təhər olsa, atandır. Bizim evlənməyimizi bildimi barı?

- Hə.

- Nə dedi, sən Allah?

- Heç nə.

- Gələr bura, mən ona yaxşı sözlər deyərəm. Abrını verərəm…

- Mən nə ki, lazım idi, demişəm. Sən dilini yığ, özündə saxla. Dur yer sal, yorğunam. Bir həftədir ki, at belindəyəm. Allah kəssin belə qulluğu!

- Su qızdırım, yuyun.

- Sonra, üç gün evdə olacağam, pristavdan icazə almışam.

- Nə yaxşı oldu, nə ürəyimcə oldu!.. – deyə Fatı sevinə-sevinə durub yer saldı.

Fərman yorğan-döşəyə girdi.

Fatı təzə gəlin kimi özünü səliqəyə salmağa başladı. Yuyundu, darandı, çırağı keçirib, yavaşca ərinin yanına girdi. Bir qədər sakin uzandı. Fərmanın xorultusu yavaş-yavaş güclənərək evi götürdü.

- Fərman, ay Fərman! Ə, indidən yuxlamısan?

Fərmandan cavab gəlmədi.

- Fərman, ə, bir az o yandan, bu yandan danışıb, gülsənə…

Fərman yenə dillənmədi. Fatı əlini yavaşca onun sinəsinə qoydu, Fərman diksindi. – Diksinmə, qadan ürəyimə. Yastıq başını incitmir ki?

- Sən dədənin goru, qoy yataq, - deyə Fərman Fatının əlini kənar elədi və o biri böyrü üstə çevrildi. Yenidən xoruldamağa başladı.

Fatı isə öz-özünə deyirdi: «Kişini, lap bircə saatlığa da gözdən qoyan arvadın ağlı yoxdur. On gündən artıqdır gedib. Mən də qalmışam burda tək-tənha, içimi yeyə-yeyə. Olmaya, fikri dolanıb? Olmaya, atası onu öyrədib, yerindən eləyib? Deyib ki, qoca Fatını niyə almısan? Qoca niyə oluram. Nənəmin nənəsinin əri öləndə, arvadın əlli yaşı varmış. Üç-dörd ay gözləyəndən sonra, gedib iyirmi bir yaşlı qaynına. Qoca… hm… Qoca ona deyərlər ki, ürəyi ölə, yaşamağa həvəsi olmaya. Qoca bax, yanımda xoruldayan bu oğlandır ki, dünyanın ləzzətini məndən almaq istəmir…».

Fatı öz-özünə çox danışdı, çox fikirləşdi, gah o böyrü, gah bu böyrü üstə çevrildi. Lakin daş kimi yatmış Fərman oyanmadı…

- Fərman, ay Fərman! Ə, xorultun məni yatmağa qoymur axı!.. – deyə onu bir neçə dəfə silkələdi. Fərman oyanmadı. – Bıy, başıma xeyir… Ə, bu qədər də yuxu bişirmək olar? – Yatıb dincəlmədin?

Fərman yuxudan ayılıb, səsini bir qədər ucaldaraq dedi:

- Nə istəyirsən?

- Başını yastığa atan kimi gözünü yumursan, yanında heç kəsi görmürsən… Beşcə dəqiqə danış görək dərdimiz, odumuz nədir?..

- Sənin nə dərdin-odun var axı?.. Araz aşığındandır, Kür topuğundan…

Fatı yaşına uyğun olmayan bir əda ilə əzilib-büzülərək:

- Sən elə bilirsən ki, mən fikir çəkmirəm… - dedi. – Bu on günün içində gör necə arıqlamışam e… Bir bax… Fatı Fərmanın əlini döşünün üstünə qoydu.

Arvadının coşğun ehtirasını, acgöz təbiətini bilən Fərman soruşdu:

- Nə deyirsən?.. Mən…

Fatı Fərmana sözünün gerisini deməyə imkan verməyib:

- Nə yaxşı oldu ki, gəldin ay Fərman! – deyə qollarını bərk-bərk onun boynuna doladı… - Can, Fərman, qadan alım!..

Fatı səhər tezdən oyandı. Fərmanın yan-yörəsini basdırdı.

Xörək bişirmək üçün ocağı qaladı. Qazana su töküb ocağın üstə qoydu. Həyətə çıxıb əl-üzünü yudu. Evə qayıdanda bığlı Əhməd gəldi.

- Salaməleyküm, ay Fatı xala!

- Əleykəssalam. Amma, Əhməd, Allah sənə bir qırnıq qanacaq verməyib ha…

Əhməd pərt oldu:

- Nə olub, ay Fatı xala, yenə səhər-səhər bizi qanacaqsız hesab eləyirsən?

- Ə, a bığlı, sənə deməmişəm ki, mənə xala demə. Yəni, mən o qədər qocalmışam ki, sən mənə xala deyəsən?!

Əhməd bərkdən gülüb onun sözünü kəsdi:

- Yox, canın üçün, xala deyilsən, on beşcə yaşın var… Pa atonan sənin, arsız arvad sahibi! Sən Abbasəliyə ərə gedəndə – hələ ondan qabaq neçəsinə getmisən, bilmirəm, mən balaca uşaq deyildim?..

- Yalan danışma, mən balaca qız idim, sən elə həmən bığlı Əhməd idin. Kənddə də məşhur oğru idin…

- Daha sənə sözüm yoxdur. Yüz il də keçsə, sən beləcə qaşı-gözü sürməli Fatı qalacaqsan…

Fatı bərkdən güldü:

- Ə, zarafat eləyirəm, keç evə.

- Onda, al bunu, bişir, qoy dişinin altına. – Əhməd ona bağlı bir dəsmal verdi.

- Bizim arvad dedi, apar səhər-səhər Fatı xalanın payını ver.

Fatı əli ilə dəsmaldakını yoxladı.

- Bu ətdir?

- Hə, özü də lap sən bəyənən. Yağlı erkək ətidir.

- Payın çox olsun. Amma, sən atanın goru, düzünü de: oğurluqdur?

- Oğurluqdur, doğurluqdur, nə borcuna, e canın qüvvəyə gəlsin. Fərman gələndə…

Fatı onun sözünü kəsdi:

- Fərman gəlib, evdədir, keç içəri.

Onlar girdilər evə.

Fərman oyanıb geyinmişdi.

- Paho, strajnik gəlib ki, xoş gördük! – deyə Əhməd irəli gəlib Fərmanla görüşdü və onunla yanaşı, keçənin üstündə oturdu.

Fatı yeri yığışdırdı.

Fərman Əhmədin kefini soruşdu, sonra:

- Nə əcəb bu tezdən bizə gəlmisən? – dedi.

- Mən də, elə arvad da Fatı xalanın xatirini çox istəyirik. Sən olmayanda, biz onun yanına gəlirik, o da bizə gəlir. Bu kənddə iki qərib evik. Gərək bir-birimizin dərdinə qalaq, halından xəbərdar olaq. Fatı xala elədir, ya yox?

- Elədir, qadan alım. Xatirin istəməsəydi, heç bu əti gətirməzdin, - Fatı əti Fərmana göstərdi, - xalis şəhrədir. Əhməd gətirib. – Bu saat qovuraram yeyərsiniz. – Fatı getdi.

Fərman Əhmədin üzünə mənalı-mənalı baxıb irişdi:

- Ay lopa bığ, yəqin oğurluq ətidir…

- Yox, dədəmin sürüsündən bir erkək ayırıb kəsmişəm…

- Düzünü de görüm, hansı yazığın evini yıxmısan?

- Ə, nə işin var. Ye, doymasan, yenə gətirərəm.

- Mən ölüm de.

- Sən öl, Fərman, qorxuram. Hökumət adamısan, dostluğa-zada baxmazsan, məni tutub elərsən, balalarım qalar yetim. – Əhməd ucadan güldü. – İndi sən böyümüsən axı, pristavla oturub durursan…

- Zarafata salma, mən ölüm de. Heç kəsə deməręm. Mən anamın oğlu deyiləm, atamın oğluyam. Başın üçün…

- Dayan, dayan! – deyə Əhməd onun sözünü kəsdi. - Atanı axtarırdın, sən öləsən, görmüşəm.

- Mən özüm də keçən bazar günü Xocahanda görmüşəm.

- Hə, nə təhər görüşdünüz? Aranızda giley-güzar olmadı ki?

Fərman ona cavab verməyib sözü dəyişdirdi.

- Sən öz işindən de. Görünür, əlin yaxşı gətirir. Əsli bazar, sənin bazarındır. Qoçaqsan, bircə davada əlin yoxdur. Bizi səngərdə qoyub qaçdın.

Əhməd bərkdən gülərək:

- Elə onun özü də bir qoçaqlıqdır, - dedi. – Mənə nə düşmüşdü ki, döşümü erməninin gülləsinin qabağına verəydim. Qərəz, arvad qovursun, sən əti ye, Allahına şükür elə. Özü də balasultanlı Orucun boz erkəyinin ətidir. Amma sən öl, oğurluq deyil. Mən ona bir at vermişəm, o da mənə – pul, üstündə bir erkək.

Fərman ürəyində dedi: «Sarıyataqlının atını oğurlayan yəqin ki, Əhməddir. Görüm boynuna qoyub, bir şey qoparda bilərəmmi?..».

- Allah sənə lənət eləsin, Əhməd! – deyə o, başını buladı. – Ay həpənd, adam tapmırdın, gərək elə pristavın qohumuna sataşaydın?..

- Pristavın qohumu kimdir?

- Xocahan bazarında oğurladığın at, pristavın bibisi oğlunundur. Onu da deyim ki, atın başı tutulub. Sən öl, işin xarabdır. Pristavın əlinə düşsən, evin yıxılacaq.

- Mən at oğurlamamışam.

- Mənə də yalan deyirsən? Sarıyataqlı Məmiş Əmiş oğlunun alnı qaşqa, ayaqları səkil kəhər atını bazarda minib qaçmamısan? Mən bu barədə sənə heç bir söz demək istəmirdim. İndi söz açılıb, deyirəm. Pristav səni bugün-sabah tutacaq.

Əhməd, Fərmanın hər şeyi yerli-yataqlı danışmasından anladı ki, o, işdən yaxşı xəbərdardır. Ancaq özünü sındırmadı.

- Mən pristavdan qorxmuram, çünki sənin kimi dostum onun yanında strajnikdir. Bir oğurluğun da üstünü basdıra bilməyəcəksən!..

- Yox, sən öl Əhməd, bacarmaram. Əli Sadiqi çox qəddar adamdır. Özü də bu cür oğurluq işləri olanda, əlinə fürsət düşür, ağzını əjdaha təkin açıb deyir: ver, ver! Mən səni güllələməyindən qorxuram… Bilirsən, ona müsavat pristavı deyərlər, insafı yox, mürvəti yox… Sən zalım oğlu da öz köhnə peşəndən əl çəkmirsən. İstəyirsən ki, dünyanı da hop eləyib udasan. Daha işin dalını, qabağını düşünmürsən…

Əhməd bir az fikirləşəndən sonra, əlini cibinə salaraq:

- Yəni, deyirsən pristav ağzını lap yekə açır? – dedi. – Al, bas onun cibinə, ağzını yumsun, mənim adımı da çəkməsin.

Əhməd Fərmana bir dəstə pul uzatdı. – Al! Mən də bilirəm: elə Nikolay vaxtından pristavların canı puldur. Onlar rüşvətsiz dolana bilməzlər, al!

- Yox, Əhməd, yox. Mən sənin əvəzindən ona belə təklif eləyə bilmərəm. Özün apar, ver. De ki, bir də qələt elərəm, başqasının atını, malını oğurlaram. Ancaq bilməsin ki, mənim bu işdən xəbərim var ha!.. Yoxsa, ağlına gələr ki, mən də bir şey almışam…

- Ə, Fərman, nə şey bazlıqdır. Mən səni xərcliksiz qoymayacağam ha! – Əhməd cibindən yenə pul çıxartdı. – Al, mən ölüm, götür!

- Eyibdir, Əhməd, biz dostuq.

- Mən ölüm al, elə dostluqda verirəm, al! Sən öl, mən sənin kimi strajnik olsam, atam oğlu, qardaşımdan da keçmərəm, hamıdan alaram. – Əhməd pulları Fərmanın cibinə basdı. – Pristavın da, sənin də halal xoşunuz olsun.

- Sən öl, Əhməd, sözünü yerə salmaq istəmədim, yoxsa, mən hara, belə işlər hara… Hə, indi mən bu pulları pristava necə verim ki, sənin işinin üstündən keçsin?..

- Daha orasını özün bilərsən, - deyə Əhməd ayağa durdu. – Gedirəm. Mənim qapıma pristav-mristav gəlməyəcək ha!..

- Arxayın ol, ə, ölməmişəm ki… hara gedirsən, qal, gətirdiyin ətdən ye.

- Evdə çoxdur…

- İyid oğlansan, Əhməd. Qaçqınların çoxu acından qırılır, sən ağa balası kimi dolanırsan…

Əhməd gülərək:

- Bəli, - dedi, - gərək özünə elə sənət tapasan ki, ac qalmayasan, hər hökumətin vaxtında geninə-boluna dolanasan… Sən dalımda dur, başqa şeylə işin yoxdur, cibin həmişə dolu olacaq…

- Get başına qızıl al, gəz. Nə qədər ki, strajnikəm, gündə bir naxır oğurlasan da, sənə zaval yoxdur…

- Bax, belə danış ha! Sən öl, kişisən. Xudahafiz!

Əhməd getdi.

Fərman o saat pulları cibindən çıxartdı. Qaçqın düşəndən bu qədər pul görmədiyindən böyük sevinc və acgözlüklə saydı. Bu pula nə alacağını götür-qoy elədi. Yenə cibinə qoyub öz-özünə dedi: «Pristava bir qəpik də verən deyiləm, onun aldıqları babasına da bəsdir. Atın başı tutulsa, işin üstü açılsa, pul aldığımı danaram. Əhmədi özüm güdaza verərəm».

Fatı bayırdan evə gəldi. Əlindəki düyü torbasını ocağın yanına qoydu.

- Əhməd getdi? – deyə Fərmanın yanında oturdu. – Mən də bayırda düyü arıtlayırdım. İndi sənə bir yaxşı plov bişirəcəyəm.

- Tez bişir, gedəsi yerim var.

- Hara gedəcəksən?

- Gərək hər işə qarışasan?..

- Soruşuram dayna, niyə acığın tutur? Axı gəldiyin bircə gündür. Vallah, heç qoymursan ki, doyunca üzünü görəm…

- Bəsdir, sən atanın goru! Üzümdə ay bitməyib. Dur işini gör!

- Dururam, hirslənmə. Uzaq yerə gedəcəksən? Barı gecə evdə olacaqsanmı?

Fərman çoxdan zəhləsi qaçdığı arvadına tərs-tərs baxaraq, fikrə getdi: «Bu qoca kaftar məni şam kimi əridəcək… Yaxamı onun əlindən necə qurtarım?!»

Gecə yarı idi. Güman ki, kənddə Hacı Atakişi ilə Fərmandan başqa, oyaq adam yox idi. Ata ilə oğul arasında axşamdan başlanan söhbət, giley-güzar hələ də davam edirdi.

Hacı Atakişi oğluna qarşı etdiyi pisliyə görə, dönə-dönə üzr istədi.

Fərman, atasının onu odun-alovun içində qoyub getməsindən çox, anasının ölümünə qüssələndi. Hacı Atakişinin dediyinə görə, Bənəvşə bir gecənin içində, ürək partlamasından ölmüşdü.

Hacı Atakişi:

- Bəli, oğul, - dedi, - olan oldu, keçən keçdi. Mən səni tapdığıma sevinirəm. Bundan sonra, Allah mənim ölümümü sənin qabağında eləsin. Sən də hər şeyi yadından çıxart.

- Mən səni qınamıram, ata. Allahın qarışqası da ölmək istəmir. Yuvasına hey dən daşıyıb yığır. Handa ki, insan ola! Mən ürəyimdə sənə olan nifrəti çıxardıb atdım. Sənin bir ata kimi elədiyin pisliyi, tökdüyün göz yaşlarına bağışladım. Heç narahat olma. Qərəz, ata, dünyanın quyruğu uzun imiş… Mən indi ayağı çarıxlı, üzü danlaqlı bir strajnikəm. Nədən ötrü? Bir loğma çörəkdən ötrü. Mən bığlı Əhməd kimi oğrudan rüşvət alıb dolanmağa məcbur olmuşam…

- Daha bəsdir, ürəyimi qana döndərmə, oğul! – deyə Hacı Atakişi birdən ayağa qalxdı. Qapını daldan kilidlədi. Bir tərəfi sivri, o biri tərəfi balta kimi enli, iti düsəri evin bucağından götürdü.

Fərmanın ürəyinə şübhə doldu. «Bəlkə, bu qansız qoca məni öldürmək istəyir? İndiyə bəri dediyi sözlər, tökdüyü göz yaşları hiylə imiş?» deyə gözünü atasından çəkmədən, dərhal ayağa qalxdı. Özünü, evin bir bucağına söykədiyi tüfəngin yanına verdi. Lakin tüfəngə əl atmayıb gözlədi. Əgər atası ona sarı bircə addım gəlsəydi, o saat beynini göyə sovuracaqdı.

Hacı Atakişi bayaqdan üstündə oturduqları gəbəni yığışdırmağa başladı.

Fərmana elə gəldi ki, gəbənin altında quyu var… Atasının Tamaşanı doğrayıb quyuya tökdüyü hadisə o saat gəlib gözünün qabağında durdu. Ancaq yenə gözlədi.

- Mənim pullarım, qızıllarım burdadır, oğul, - deyə Hacı Atakişi yeri düsərlə qazmağa başladı.

Fərmanın ürəyi şübhələrdən azad oldu. Hacı Atakişi cecim parçasından tikilmiş iki torba çıxardıb kənara qoydu. Hər ikisi oturdu. Hacı Atakişi möhkəm bağlanmış torbaların ağzını aça-aça:

- Qarışqa dən yığan kimi, mən də qızıl, gümüş yığmışam, oğul! – dedi. – Bizi bir-birimizdən ayıran bu pulların hamısı indi sənindir. – Hacı Atakişi torbaları açdı. Qızıl onluqları, məcdiyyələri, qolbaqları, üzükləri, düymələri əlində oynada-oynada göstərdi. – Bu biri torbadakılar da gümüş pul və Nikolay yüzlükləridir…

Necə deyərlər, gözlərinin çayırı açılan Fərman gülə-gülə dedi:

- Nikolay pulu indi işə keçmir, müsavatın pulundan olsaydı yaxşı olardı…

- Mən də bilirəm keçmir, amma sən saxla. Zəmanəyə etibar yoxdur. Bəlkə Müsavat yıxılacaq, yenə Nikolay taxta çıxacaq. Hə, ilahinin kəráminə şükür ki, pulum, qızılım yenə öz oğluma qismət oldu. Deyirdim, ölüb gedəcəm, o bu tapıb sahib olacaq. Fərman, strajniklikdən çıxarsan. Əynini-başını düzəldib çarığı, patavanı tullarsan. Oturarsan mənimlə dükanda. İndi alverdən başı salamat, qazanclı peşə yoxdur. Ucuz al, baha sat. Bunun da təhrini sənə öyrədərəm. Mən öləndən sonra da tacirliyini eləyib başını dolandırarsan. Oğul, bu torbalar sənin əlli ilinə bəs elər. Ancaq israfçılıq eləmə, qədrini bil. Dövlət adamın əlinə yavaş-yavaş gələr, qədrini bilməyəndə quş kimi birdən uçub gedər. – Hacı Atakişi torbaları bağlayıb bir tərəfə qoydu. – Hə, oğul, nə deyirsən, mənimlə bir yaşamaq istəyirsən, ya ayrı?

- Daha niyə ayrılaq ki, ata… Ancaq bilmirəm pristav məni buraxacaqmı?

- Buraxar, öz adamımızdır. Sənin yerinə, dərədə ağzına qurd düşənin birini götürər. Qulluqdan çıxmaq üçün pristavdan icazə almağa gedəndə, bir gəbə apararsan, boyun olmuşam. Eşitmişəm ki, bərk yeyəndir. Özün də deyərsən ki, atam qocalıb, gərək onun qulluğunda duram.

- Baş üstə.

Hacı Atakişi gözünü Fərmanın gənclik təravətini itirmiş, arıqlamış, uzanmış sifətinə, ağarmış gicgahlarına gəzdirərək, köksünü ötürdü:

- Çox əziyyət çəkmisən, qara gün görmüsən. Eybi yoxdur, fikir eləmə. Kənddə sənə toy eləyə bilmədim. Allah qoysa burda evləndirəcəyəm. Arvadsız ev olmaz. Mənə bu qoca vaxtımda qulluq eləyən gəlin lazımdır. Bu Həkəri-Bərgüşadda gözəl, ağıllı qızlar çoxdur. Sənə dövlətli, adlı-sanlı bir kişinin qızını alacağam. – Hacı Atakişi güldü. – Daha bizim Zəngəzura qayıtmağımız baş tutmaz. Oğul, bəlkə özünün gözaltın var?

Fərman susdu.

- Hə, utanma, oğul, de. Varsa, mən də baxım, xoşuma gəlsə, toyunu eləyim.

- Gözaltım yoxdur… Boynuma keçən bir zəncir var. O dəfə görüşəndə bu barədə söz düşmədi, mən də demədim. Bəli, zəncir, özü də lap ağırından…

- Sənin boğazına keçən kimdir?

- Fatıdır. Məni ölümdən necə qurtardığını sənə danışmışam. İndi yaxamdan əl çəkmir. Düzü, elədiyi yaxşılığın qabağında pislik eləməyə, boşamağa insafım yol vermir. Amma içimi yeyirəm. Elə bilirəm ki, el-oba mənə gülüb deyir: «Başına daş düşsün, Fərman! Aldığın arvada bax!..»

Hacı Atakişi, ürəkdən yana-yana danışan oğluna diqqətlə qulaq asıb köksünü ötürdü.

- Hə-ə-ə… bala! Deмək, bala!.. Sən işə düşmüsən. Dünənə kimi qapımda qazan dibi yalayan Fatı indi gözümün ağı-qarası bir oğlumun arvadı olub… Ah, zəmanə, zəmanə!.. Onun qocalığı, qaravaşlığı hələ bir yana dursun, oğul, o, səni bir gün xataya-bəlaya sala bilər. O, hiyləgər, cadukün ifritə mənim ürəyimə dağlar çəkib… Mən axmaq, o zaman kənddə qara Fatının kələklərini başa düşməmişəm. Bərgüşad çayında, bizim kəndlilərdən öyrənmişəm ki, rəhmətlik ananla, yazıq Tamaşanın arasını vuran o imiş. Məni öz arvadlarıma düşmən eləyən o imiş. O, bədbəxt Tamaşanın qanına bais o imiş. Mənim təmiz, vəfalı arvadımın müəllimlə

heç bir əlaqəsi yox imiş… Bəli, oğul, yazıq Zöhrənin başına gələn işlər də Fatının əli ilə olmuşdur.

- Məni də gecə-gündüz dəli elədi… Mən də qanmadım, cavanlığıma saldım, bacı dediyim bir qıza kəm baxdım. Axırda o da özünü bədbəxt elədi. – Fərman danışdıqca qızışdı. – Yox, daha onu saxlaya bilməyəcəyəm. Elə bu saat gedib iti öldürən kimi öldürəcəyəm… - Fərman yerindən qalxmaq istədi.

Hacı Atakişi onun qolundan tutub durmağa qoymadı. Tez qızışmağın, tez özündən çıxmağın sadəlik və zərərli olduğunu ona başa saldı.

- Bu gecə vaxtı heç yerə səni buraxmaram, oğul. Onu öldürmək yox, boşayıb qovmaq lazımdır. Get bir mollanın yanına, talağını geri oxut, vəssalam. O evdən də heç bir şey götürmə, hər nəyiniz var ona ver, özün qayıt gəl. Başa düşdün, oğul? Özünü də nə söy, nə döy. – Hacı Atakişi bir an susub nə isə fikirləşdi və dedi: - Bəlkə heç onun yanına getməyin də lazım deyil!

- Yox, ata, belə olmaz. Həyasız gəlib bura da çıxar, bizi narahat elər. Gedib işi birdəfəlik qurtarsam yaxşıdır.

- Ə, onun yanında bir sirin, pis işin yoxdur ki?

- Xeyr. Heç sənin yanına gəldiyimi də bilmir.

- Yaxşı eləmisən ki, bildirməmisən. Arvad kişinin gözünün işığı olsa da, onun sirrini bilməsə yaxşıdır. Allah onları hülqumsuz, naqis yaradıb, ürəklərində söz saxlaya bilməzlər.

Aralarında heç bir inciklik olmayıbmış kimi, ata ilə oğulun şirin söhbəti xoruz banına kimi uzandı.

Nəhayət, Hacı Atakişi dedi:

- Əldə xərcləməyə pulumuz var. İndi dur torbaları yerinə qoyaq, özümüz də yataq, səhərə az qalıb.

Hər ikisi ayağa durdu. Torbaları çalaya qoyub, üstünü torpaqladılar.

- Hələlik torbalara əl vurmayacayıq, oğul. Səhər çalanın üstünü palçıqla suvayacağam. Gərək heç kim burda nə olduğunu bilməsin. Bu sənin, mənim, bir də Allahın arasında olan bir sirdir…

Hacı Atakişi gəbəni götürüb, torbaları basdırdıqları yerə sərdi, sonra yorğan-döşək açdı.

Ata ilə oğul, iki il ayrıldıqdan sonra, bir yerdə, qızıl-gümüş torbalarının üstündə rahat yatdılar.

Fatı pəyədə qüsl eləyib, evə gəldi. Gur saçlarını daradı, gicgahlarında səliqə ilə halqa burdu. Şəkidən gətirdiyi ağ kəlağayını bağlayıb, başının dövrəsinə qəşbənd vurdu. Səhər tezdən hazırladığı sürməni evin bucağından götürdü. Keçənin üstündə bardaş qurub balaca güzgünü qoltuq cibindən çıxartdı. Güzgüdə gah qaş-gözünə, gah halqa birçəklərinə, gah dodaqlarına, dişlərinə dönə-dönə baxdı. Öz-özünə vurulmuş kimi dedi:

- Ağ kəlağayı mənə yaxşı yaraşır. Rəngimi açır. Məni on yaş cavan göstərir. Padar arvadları mənə deyirlər: ay Fatı bacı, sizin Zəngəzur adamlarının hamısı sənin kimi layiqli, nəcib, gözəl-göyçəkdir? Mən də deyirəm, a başı xeyirlilər, hələ mənim nə vaxtımı görmüsünüz… Vallah, bir cavanlığım, bir gözəlliyim, bir şınqrovlu vaxtım var idi ki, oğlanların ağzının suyu axırdı. Hələ öz kəndimizdə

camaatın ağzına söz düşmüşdü: Fatının boy-buxunu, qaş-gözü dünyanı alıb-satar. Fatı ilə ömür sürən dünyanın ləzzətini bilər, qocalmaz… Hə… qaçqınlıq, yoxsulluq bir az məni salıb… Çox heyif ki, başıma dən düşüb, görünür ki, qocalıram. Xaraba qalmış kənddə xına da tapılmır. Gərək Fərmana deyəm həftə bazarından mənə xına tapsın… Yoxsa, biri ağ, biri qara tüklər məni yaraşıqdan salır…

Fatı qaşlarına, gözlərinə sürmə çəkməyə başladı və dodaq altından dedi:

- Nənəmin nənəsi deyərmiş: hansı arvad istəyir ki, əri onu çox istəsin, gərək özünü şınqrovlu saxlasın. Kişinin qabağında şux dolansın. Elə mehribanlıq göstərsin ki, ərinin gözü başqasında qalmasın. Onu da deyirmiş ki, arvad gərək kişinin gözünün odunu alsın. Lap birinci gəlinlik günündən dili onun üstündə uzun olsun. Fərman hələ ki, mənim sözümdən çıxmır, heç çıxa da bilməz. Çünki əlimdən hər şey gəlir: bişirib-düşürmək, yuyub-yamamaq, darayıb-toxumaq, adam qabağına ləyaqətlə çıxmaq, arvadlığıma da özü yaxşı bələddir…

Fərman içəri girib, tüfəngini divara söykədi.

- Bıy, ay Fərman, nə vaxt gəldin? Heç atının ayağının səsini eşitmədim! – deyə Fatı güzgünü və kibrit qutusunu tez cibinə qoyub, ayağa durdu.

- Başın qarışıqdır, nə eşidəcəksən… Bu qoca, ifritə vaxtında özünü mamlımatana oxşatmaq istəyirsən. Arsızın qızı arsız, kənd dağıldı, kimi öldü, kimi dilənçi halına düşdü, sən yenə də qaş-gözünü bəzəməkdən, birçəyini sığallamaqdan əl çəkmirsən…

- Bıy, ay qadan alım, sən bilmirsən ki, mən kənddən sürmə çəkməyə alışmışam, adətkərdə olmuşam… Vallah, vaxtı keçəndə gözlərim ağrıyır, hələ gərək mənə xına da tapasan, başımın ağ tükləri çoxalır…

- Hay-hay! Bəxtəvər olmuşuq! Fatı xanım xına da istəyir… Bir bunun qaşına-gözünə bax! Sürməsinə, vəsməsinə bax!..

- Ay Fərman, arvad işinə niyə qarışırsan? Bir də, sən belə sözləri mənə heç deməzdin axı…

- «Deməzdin, deməzdin…» - Fərman səsini ucaltdı. – Məni daha təngə gətirmisən, ayağıma buxov, boğazıma zəncir olmusan!..

- Bıy, Allah sən saxla?.. Ə, sənə nə olub?.. Hardan belə hirsli gəlmisən? Gətir çarıxlarını çıxardım. Qurbanın olum, Fərman! – Fatı aşağı əyilib Fərmanın çarıxlarının bağını açmaq istədi.

- Qulluq göstərmə, dur düş qabağıma!

Fatı təəccüblə qaşlarını çatdı.

- Hara?

- Mollanın yanına. Səni boşamağa aparıram.

Fatı ucadan güldü.

- Zarafatı axşam elərsən… Əl-üzünü yu, mən də qayğanaq bişirim yeyək.

- Gecə zarafatı qurtardı. Düş qabağıma. İfritə!

- Ə, bu nə hərəkətdir? Mən səndə indiyə bəri bu sifəti görməmişəm… Dəli olmamısan ki?..

- Mən dəli onda oldum ki, sənin kimi qoca kaftarı özümə arvad elədim… Sənə söz deyirəm axı, niyə yerindən tərpənmirsən?

- Mən boşanmayacağam. Papaq deyiləm ki, başdan-başa qoyulam.

- Mən boşayıram. Getməsən, özüm talağını geri oxutduracağam. Onu da deyirəm ki, bu evdən heç bir şey götürməyəcəyəm. Hər şey sənə qalacaq. Özüm də başqa kənddə yaşayacağam. Mənim dalımca gəlsən, sağ qalmayacaqsan… Bu gündən səninki səndə, mənimki məndə…

Fatı əllərini yuxarı qaldırıb:

- Xudaya, sən özün bizim bu kişinin başına bir ağıl qoy. – O, üzünü Fərmana tutub, mülayim bir səslə əlavə elədi: - Fərman, qadan ürəyimə, bəlkə sənə cadu eləyiblər?

- Cadukünün, hüllükbazın yekəsi sənsən!

- Yox, vallah, səni dəli eləyən var!.. – Fatı onun dizlərini qucaqladı. – Fərman, hər nə günahım var məni bağışla, daşı ətəyindən tök! Ə, camaat bizə nə deyər?..

Fərman onu kənara itələyib, qəzəblə dedi:

- Camaat, camaat!.. Sənin heç kəsdən həya edən üzün yoxdur. Hamı səni yaxşı tanıyır. Mən olmasaydım, Məhərrəmin evinə yekə qalmaqal salacaqdın. Tamaşa ilə Zöhrəni sən bədbəxt elədin, ifritə! Min dilli, min əməlli ifritə!

Fərman evdən çıxmaq istədi. Fatı özünü qapının dalına yıxıb:

- Qoymaram! – deyə qollarını yana açdı. – Allah, itinəm, Allah! Gör bu kişi mənə necə şər atır… Tamaşanı atan öldürmədi? Zöhrəni sən özün bədbəxt eləmədin?.. Ə, yoxsa, strajnik olandan qazılanırsan? Elə bilirsən ki, dünya dərəbəylikdir? Vallah pristavı, nəçərriyi bura yığaram. Ə, olmaya buranın sarı-sısqa qızlarına bənd olmusan?.. Allahıma and olsun, onların başında bir tük qoymaram. Mənə Fatı deyərlər… Mən daş atıldığını bilirəm. Mənə daş hardan atıldığını bilirəm. Hacı Atakişi ilə görüşüb gələndən elə sənin təbin dönmüşdü. Mən eşşək deyiləm, hər şeyi başa düşürəm. Dünən də onun yanına getmişdin. Təzədən ata-oğul olmağınız da mübarək olsun!

- Atamla nə işin var, axmağın biri axmaq!

Fatının hönkürtüsü evi götürdü.

- Mən, mən köpək qızı, mən it qızı axmağam ki, səni ermənilərin içində qoymadım, yarandan qan axa-axa dalıma alıb, dağ-daşı dolandırdım, axırı gətirib bu kəndə çıxartdım. İndi məni boşayırsan? Bu yad kəndin bir bucağına atıb gedirsən! Hanı sənin qeyrətin? Yuxarıda Allah var axı…

Fərman cibindən pul çıxardıb:

- Al! – deyə onun üstünə atdı. – Məni ölümdən qurtarmağının haqqı, əvəzi! Başıma qaxma, dilini kəs!

Fatı daha bərkdən hıçqıraraq dedi:

- Pulunu apar ver atana. O, pulu, qızılı səndən çox istəyir…

Fərman dişini-dişinə qıcadı:

- Cəhənnəm ol, it qızı! Çəkil qapıdan!

- Meyitim bu evdən çıxmayınca, heç yerə getməyəcəksən! Heç yerə!

Fərman getmək üçün tüfəngi götürdü.

Ölümündən qorxan Fatı qışqırdı:

- Fərman! Ə, məni öldürürsən?!

- Qapıdan kənara çəkil! – Fərman onun qolundan yapışıb evin ortasına fırlatdı və dərhal bayıra çıxdı.

- Ürəyinə güllə dəysin, Fərman! – Fatı bayılıb, üzü üstə yerə düşdü…

…Fatı ayılandan sonra, hər şey ona yuxu kimi gəldi. Yavaş-yavaş ayağa qalxdı. «Fərman, Fərman!» deyə-deyə birbaş həyətə qaçdı.

Fərman atı minib getmişdi.

Əsla gözləmədiyi halda, birdən-birə başına gələn işi Fatı kimə deyəydi? Kimə ağız açaydı ki, Fərmanı qaytar?! Fatının ümidi yalnız, az-çox gediş-gəlişləri olan Balay kişiyə idi. O, birbaş Balayın evinə yollandı.

Fatı küçə aşağı, başı odlu-alovlu, ayaqyalın qaçırdı… Döngəni burulanda, gözləri qızarmış, tükləri tökülmüş, qulaqları sallanmış bir it zəif-zəif hürə-hürə divarın dibindən qalxıb ona cumdu. Fatı yerdən daş götürüb itə atdı, lakin daş ala köpəyi tutmadı. Fatıya soxulub baldırından yapışdı. Fatı qışqırıb yerə oturdu. Elə bil öz payını almış köpək, yenə divarın dibinə çəkildi. Fatı tumanının ətəyini qaldırıb sol baldırına baxdı. İtin iki dişinin yerindən qan çıxırdı.

Fatı yolun tən ortasında oturub qışqıra-qışqıra ağlayır, Fərmanın dalınca söyüş yağdırır, qarğış edirdi. Tindən çıxıb ona sarı gələn bir oğlanı gördükdə:

- Bala, qurbanın olum, mənə kömək elə! – dedi.

Oğlan Fatının yanına gəldi.

- Məni, o azar dəymiş it tutdu, bala! Dadıma çat.

Oğlan itə baxıb başını buladı:

- Niyə özünü gözləmirdin ki, it səni tuturdu, Fatı xala? Bəşirin bu quduz dəymişi deyəsən qudurub axı!..

Oğlan Fatının qoluna girib, onu evə apardı.

Fərman Fatını birdəfəlik tərk eləyib gedəndən sonra, bir daha Padara qayıtmadı. Təvəqqə və rüşvət hesabına Əli Sadiqi onu strajniklikdən azad elədi.

Fərman Xocahanı bəyənmədi, yerə basdırdıqları pulu, qızılı götürüb atası ilə birlikdə çay tərəfdə ən gözəl və ən böyük kənd sayılan Xanlıqlara köçdü. Orada iki otaqdan ibarət ev aldı, böyük bir dükan açmaq üçün hazırlıq görməyə başladı.

İndi onun fikri bütün mahalda ən böyük tacir olmaq, başqa şəhərlərə mal aparıb, mal gətirmək idi.

Fərmanın əvvəlcə atasına qarşı olan hədsiz qəzəb və nifrəti indi coşqun oğulluq məhəbbətinə çevrilmişdi. Atasının haqqında pis fikirdə olduğuna, üstünə silah çəkdiyinə peşman olmuşdu. Qızıl, gümüş torbalarına sahib olandan sonra, Hacı Atakişi onun gözündə dağlar qədər böyümüşdü. Fərmana elə gəlirdi ki, dünyada onun qoca atasından mehriban və səxavətli ata yoxdur.

Fərman bəzən öz-özünə belə suallar verirdi: «Pristav olmasaydı, atamı öldürərdimmi? Atamı dilənçi sifətində görsəydim, ona endirib yaxın durardımmı?»

O, bu suallara cavab tapa bilmirdi. Yalnız bir şey bilirdi: «Atam elə bil məni təzədən dünyaya gətirdi. Qarnı tox, əyni-başı təmiz bir adam elədi».

Lakin Fərman, özünün diriliyinə həqiqətən səbəb olan Fatını bir arvad kimi olmasa da, bir tanış, bir kəndli, bir insan kimi də xatırlamırdı. Bəs, Fatı necə?

O, nə qədər eləyirdisə, Fərmanı unuda bilmirdi. Doğrudur, onu söyürdü, gecə-gündüz ona qarğıyırdı, nifrət edirdi, əlinə düşsəydi, bəlkə də canavar kimi didib-parçalardı, lakin hər saat, hər gün yolunu gözləyirdi. Ümid edirdi ki, Fərman

öz hərəkətlərindən peşman olacaq. Geri qayıdacaq, üzr istəyib deyəcək: «Fatı, səni ata bilmərəm. Mənim sağ qalmağıma səbəb sənsən…».

…İyirmi beş gündən artıq idi ki, Fatı yorğan-döşəyə düşmüşdü. Onun yanına qonşusu Günəş arvaddan başqa, kimsə gəlib getmirdi.

Fatı heç kəsdən kömək gözləmirdi. O, qohum-qardaşın, dostun, ərin, övladın qədrini indi, xəstəlik yatağında bilirdi.

Günəş arvad yavaşca içəri girdi. Fatının yanında oturub, şorba dolu kasanı yerə qoydu və dedi:

- Ay Fatı, sən lap gerçəklədin ki… Ay balam, adam da it tutmaqdan ötrü bu qədər yatar? Dur e, sənə düyü şorbası gətirmişəm. İçinə zoğal axtası da salmışam. Yaxşı turşməzə, ürək basan şorbadır. Dur. O Fərman gədəni də yadından çıxart getsin. Ağrım elə yelbeyin adamın ürəyinə. Mən elə əvvəldən bilirdim ki, ondan sənə axıra kimi ər olan deyil. Vallah, acığına gəlməsin, oğlun yerindədir…

İki saatdan bəri gözünü divarda bir nöqtəyə zilləyib sakit uzanmış Fatı, birdən üzünü ona çevirib xırıltılı səslə dedi:

- İştaham heç nə aparmır…

Günəş onun baxışlarından qorxdu. Fatının qan çanağına dönmüş gözləri alma boyda olmuşdu. Canı od içində yanırdı.

Günəş nə qədər elədisə, Fatı yemədi.

Günəş xəstənin kefini açmaq üçün ordan-burdan gülməli sözlər danışdı. Ancaq halı özündə olmayan Fatı onun dediklərinə fikir vermədi.

Günəş kasanı da götürüb getdi.

Fatı birdən, ətini kəsirlərmiş kimi fasiləsiz qışqırdı, yorğanı üstündən atıb yaralı qıçına baxdı. Yaranın ətrafındakı qızartıya və şişə baxıb yenə bərkdən çığırdı. Qıçını bir qədər havada yellədi, ağrı daha artdı. Kəlağayısını yarasına bağladı. Ağrı yenə sakit olmadı. O, hirsindən başına-gözünə döydü, ağladı. Durub gəzindi, tez yorulduğundan yatağına yıxıldı.

Fatı iki günü dəhşətli ağrı, əzab içində, yuxusuz, yeməksiz keçirdi. Üçüncü gün onun halı daha xarablaşdı, hərarəti artdı. Dili, dodağı qurudu. Nəfəsi ağırlaşdı. Ağzından köpüklü su axdı, qusmağa başladı.

- Ay Allahı sevən, ölürəm! – deyə çığırdı. – Mənə kömək eləyin, harayıma çatın, ay qonşular, ay ellər!

Heç kəs onun xırıltılı səsini eşitmədi.

Fatı səhər tezdən gecə yarısına qədər gah yatağında, gah evin ortasında, bucağında uzandı, qalxdı, ilan kimi qıvrıldı, balıq kimi çabaladı, qışqırdı. Nəhayət, gücdən düşdü, səsi tutuldu. Yerə yıxılıb hərəkətsiz qaldı.

…Növrəstə? O, mənim əlimdə, ha… ha… ha… Mənə seyid qızı Fatı deyərlər. Dünyada hansı iş mənim əlimdən gəlməyib?.. Qorxma, Fərman! Kənddən çıxmışıq. Dalımızca gələn yoxdur. Örəncəyə çatmağımıza az qalıb. Yaman yoruldum. Gəl bu qayanın dibində oturaq. Fərman, bundan sonra sən mənimsən, mən sənin. Ha… ha!.. Hara, Fərman? Məni qoyub gedirsən? Niyə mən ilan olub sənin boğazına sarılmadım! Səni dağdan, daşdan, qayadan atmadım!.. Ora bax, Şırşırdan iki bülbül uçdu. Ora bax, ora bax, ikisi də adam oldu. Biri Zöhrə, biri onun balası… Necə? Siz canavar olub məni parçalayacaqsınız? Quzğun olub ətimi

didəcəksiniz? Niyə? Oy, mən sizdən qorxuram… Boğuluram! Ay aman, qoymayın! Ay Allahı sevən…

Fatının dolaşıq sayıqlamaları səhərə qədər evin qaranlıq bucaqlarında uğursuz bir bayquş ulaması kimi səsləndi.

Deyirlər insanın bütün gücü ölənə yaxın qollarına yığılır. Günəşin ilk şüaları hisli bacadan içəri süzülərkən, Fatı yorğanı üstündən götürüb tulladı. Əllərini yerə qoyub, dik ayağa qalxdı. Gah dodaqlarını, gah barmaqlarını, gah üryan çiyinlərini gəmirməyə başladı…

Günəş arvad Fatının vəziyyətini bilmək üçün içəri girdi. Onun bir bucağa çəkilib ac qurd kimi çiyinlərini gəmirdiyini görüncə, qorxu içində geri dönüb bayıra qaçdı.

- Ay camaat, Fatı qudurub! Ay camaat, gəlin başına kül ələyin! – deyə kəndə haray saldı.

Adamlar tökülüb gəldilər, qapının ağzına, bacaya toplaşdılar. Heç kim içəri girməyə cürət etmirdi. Dünya görmüş arvadlar qudurmuş Fatının başına bacadan kül ələdilər.

Fatı isə artıq son dəqiqələrini min əzabla başa vururdu.

Birdən onun ağzı əyildi, dodaqları əsməyə başladı, gözlərinin qapaqları hərəkətdən düşdü, bəbəkləri genişləndi. Hər guşəsində arzu, məhəbbət, qəzəb, nifrət, yaxşılıq, pislik saxlanan ürəyi də iflic oldu. Fatı rahatlandı…

…Kəndlilər axşamüstü Fatının meyitini qəbiristana aparanda, ala köpəyin ölüsünü yolun kənarında gördülər. Fatını qəbirdə, iti isə xəndəkdə basdırdılar.

## Yeddinci fəsil

Nəbi həyətdə oturub, gündə qızına-qızına çarığını yamayırdı. Hələ zəif, girsiz olsa da, bir neçə gün idi ki, özünü yaxşı hiss edirdi. Növrəstə, bir ara həkimi təkin məşhur olan gədəklərli Yaxşı arvadın yanına gedib, atasının xəstəliyini ona danışmışdı. Yaxşı arvad kükürdlə yağı qarışdırıb Növrəstəyə verib demişdi: «Apar sürt atanın bədəninə». Növrəstə də, o deyən kimi eləmişdi. Beləliklə, Nəbinin qoturu tamam sağalmışdı. Ona görə də, Nəbi daha evdə oturmayıb, işləmək fikrində idi.

O, çarığını yamayıb qurtarandan sonra Dəmirçilər kəndinə iş axtarmağa gedəcəkdi.

Nəbi addım səsinə başını qaldıranda, həyətin o başında Camalı gördü.

Camal ona yaxınlaşıb, salam verdi və Nəbinin yanında oturdu.

- Necəsən, Nəbi dayı? Evdə darıxdım. Gəldim bir söz-söhbət eləyək…

- Sağ ol. Düzünü deyim ki, Camal, yaxşıyam da, pisəm də.

- Bəs belə niyə?

- Yaxşıyam ki, naxoşluğum sağalıb, pisəm ki, Yusif dünən evdən getdi. Uşağın getməsinə bərk darıxıram. Heç ata da övladını gözündən kənara qoyarmı?..

- Hara getdi? Evdən acıq elədi?

- Yox, o, küsən, acıq eləyən, atanın üzünə qayıdan uşaqlardan deyil, quzu kimi bir şeydir. Özü də tərif olmasın, qeyrətli baladır. Görürəm ki, indi evin qeydinə qalır. Deyir, ata, indi gərək mən qazanam, sən yeyəsən… Hə, qərəz, Yusif getdi Qazyana nökərçiliyə.

- Kimə nökər olacaq?

- Bizim öz kəndlimizə. Ağalar Sadıq oğlu deyərlər, ona. Kənddən qaçanda malından, qoyunundan xeyli gətirib. Kefi kökdür. Bir neçə gün bundan əvvəl Yusifi yolda görüb danışıb. Yusif də ona nökər olmağa razı olub… - Nəbi köksünü ötürdü. – Axı, ay Camal, o tifil uşağın nə vaxtıdır, nökər olsun, ağır işlərdən yapışsın… Neyləyim, fələk mən deyəni demədi… - Nəbi çarığının bir tayını ləyəndəki suyun içindən götürüb, fikirli-fikirli yamamağa başladı.

- Əşi, nə fikir eləyirsən? Sevin ki, oğlun ərsəyə gəlib, sənə kömək eləmək istəyir. Qoy nökər olsun, fəhlə olsun, lap hambal olsun, amma şüurlu olsun.

- Mən oğlumdan da, qızımdan da çox razıyam. Elə, o Növrəstənin özü, vallah, itin əziyyətini çəkir. Həm evdə, həm də Baxış bəygildə qabıqdan çıxır.

Camal köksünü ötürüb dedi:

- Eh, ay Nəbi dayı, bəylər çoxlarını qabıqdan çıxardıblar. Mənim ürəyimə də dağ çəkiblər.

Nəbi əlini saxlayıb soruşdu:

- Sənə nə eləyiblər?

- Baxış bəy bir karrı qardaşımı öldürüb.

- Niyə?

- Ev və bəhrə üstündə. Mənim Nəcəf adlı bir qardaşım vardı. Yaşda məndən böyük idi. Lap sən deyən, diribaş oğlan idi. Öz qazancı ilə mal-dövlət də yığmışdı. Bir gün qardaşım dedi ki, köhnə daxmada yaşamaqdan canımız çıxdı. İndi özümüzə qəşəng ev tikdirə bilərik, tanqahımız var. Qardaşım iki mərtəbəli, üç otaqlı, eyvanlı ev tikdirdi. Əhmədalı bəyin, Baxış bəyin bunu gözü götürmədi. Elə bildilər ki, qardaşım onların qabağına çıxır… Kəndlilərin arasına söz yayıldı ki, Nəcəfin evi Əhmədalı bəyin evindən geri qalmaz… Bu, bəylərə daha acıq gəldi. Bir gün Baxış bəy qardaşımı çağırtdırdı yanına. Dedi ki, o ev nədir tikdirmisən? Yoxsa, sən də bəylik iddiasına düşmüsən? Kənddə gərək mənim imarətimdən gözəli olmasın. Ya get evini öz əllərinlə sök, ya da çıx bu kənddən get. Qardaşım ona cavab vermişdi ki, mən bəy olmaq fikrində deyiləm. Ev tikdirməyimin də heç kimə borcu qalmayıb. Kənddən sən özün gedə bilərsən… Müxtəsər, sözləri çəp gəldi. Baxış bəy birdən xəncəri çəkib qardaşımı öldürmək istəyəndə, bəyin anası Aftab qoymamışdı. Sonra, qardaşım bəyə bəhrə vermək istəmədi. Bunun üstündə öldürdü.

Hə, Nəbi dayı, qardaşımın öldürülməsi elə o vaxtdan ürəyimdə bir xal kimi qalıb. Deyirəm, elə zəmanə gələydi ki, dalımda duran olaydı, mən də Baxış bəydən qisas alaydım…

Nəbi köksünü ötürüb dedi:

- Neynəyəsən, ay bala, dünya Baxış bəyin dünyasıdır!..

Camal dedi:

- Ay Nəbi dayı, peyğəmbər haqqı, çoxdan sənə bir söz demək istəyirəm, amma deyirəm bəlkə acığına gəldi, sözü dilimin ucundan qaytarıram…

- De, acığıma niyə gəlir…

Camal bir az fikirləşdi.

- Yəni, Nəbi dayı, elə bir söz deyil e. – O, yenə susdu.

- Oxunu atıb yayını gizlətmə, Camal, de!

- Nəbi dayı, fikrinə başqa şey gəlməsin. Özün də elə bilmə ki, bəylə koram olduğu üçün deyirəm… Qərəz, onu demək istəyirdim ki, Növrəstəni bəyin evinə getməyə çox qoyma…

Nəbi əlini saxlayıb Camala baxdı və şübhə ilə soruşdu:

- Ə, olmaya Növrəstədən yana bir söz eşitmisən? Açıq de.

- Ürəyimə güllə dəysin ki, yox. Fikrinə pis şey gəlməsin. Ancaq kənd Baxış bəyə yaxşı bələddir. Onun ipinin üstünə odun yığmaq olmaz…

- Ə, Camal, sənin canın üçün, demə ki, qaçqındır, qəribdir, əgər biləm ki, Baxış bəy mənim qızıma pis gözlə baxır ha, yurduna od vuraram, bəyliyinə-zada baxmaram.

- Nəbi dayı, başın üçün mən ayrı şey bilmirəm, təkcə onu bilirəm ki, Baxış bəy anasından, bacısından keçən deyil. Allah şeytana lənət eləsin, birdən Növrəstə bacıya bir söz-zad deyər, onda gərək sənin də, mənim də başımızdakı papaq olmaya…

- Sən mənim ürəyimə şübhə saldın, Camal. – Nəbi fikrə getdi.

- Bilsəydim ki, narahat olacaqsan, ağzımı da açmazdım.

Hər ikisi bir qədər susduqdan sonra, Nəbi çarıqlarını geyib dedi:

- Mən gedim qızı çağırım.

Nəbi ayağa qalxanda, Növrəstə gəldi. O, isti havada qaça-qaça gəldiyindən qızarıb-pörtmüşdü, bərk töyşəyirdi.

Nəbi qızına heç bir söz demədi, fikirləşdi ki, misal var: yüz ölç, bir biç.

- Ata, deyirlər, Dondarlıda qaçqınlara buğda, arpa, un paylayırlar; kəndlərdəki qaçqınlar axışıb gedirlər ora. İcazə versən mən də onlara qoşulub gedərəm.

- Yox, qızım, özüm gedərəm. Sən otur evdə. Bundan sonra səni bəyliyə iş görməyə də qoymayacağam. Dağarcığı bura gətir. Görən qaçqınların hamısına ianə verirlər?

- Nə bilim, - deyə Növrəstə getdi. Evdən bir yamaqlı dağarcıq gətirib atasına verdi.

- Ata, bəlkə çox verdilər dağarcığa yerləşmədi, onda nə eləyəcəksən?

Nəbi güldü:

- Ay qızım, çoxa yer tapılar, hələ bir görək verirlərmi… Hə, gedirəm, ayağını evdən heç yana qoyma!..

Nəbi dağarcığı qoltuğuna vurub həyətdən çıxdı.

Camal da evinə getdi.

Nəbi, kəndin altından gedən yolun içində toplanmış bir neçə qaçqına qoşulub, Dondarlıya getdi.

Dondarlı kəndinin yuxarı tərəfindəki ağ divarlı, üstü qırmızı taxtapuşlu, bir mərtəbəli evin qabağı adamla dolu idi. Bunlar Zəngəzurun müxtəlif yerlərindən olan qaçqınlardı. Dörd-beş saat idi ki, ianənin verilməsini gözləyirdilər.

Nəhayət, «Qaçqınlara Yardım Komitəsinin» sədri elan elədi ki, qaçqınlara buğda, arpa, un və bəzilərinə isə çit veriləcəkdir. Ancaq heç kəs şuluqluq salmasın, sakit dayanıb öz növbəsində, payına düşəni alsın.

Gözündə çeşmək, qırmızı saqqal, təhər-töhüründən mollaya oxşayan qoca bir kişi isə adamların siyahısını tuturdu.

Nəbi fikirləşdi: «Un alım, ya çit?» Axı Növrəstənin əyni-başı da tökülüb…».

- Qardaş, məni çitə yaz! – deyə Nəbi çeşməkli kişiyə müraciət elədi.

Siyahı tutan adam ona əyri-əyri baxdı:

- Yekə kişi, sənə un verirlər acından ölməyəsən, nankorlar, öz xeyirlərini də anlamırlar!..

Nəbi dediyinə peşman olub geri çəkildi.

O gün, axşam düşdüyündən qaçqınlara heç nə vermədilər. Elan elədilər ki, adları siyahıya yazılanlar sabah gəlsinlər. Necə deyərlər, boyunları qıldan incə olan qaçqınlar dillənmədilər.

Adamların çoxu oradan dağıldı. Kimi yer tapıb gecələmək üçün Dondarlıya endi, kimi yaşadığı kənd yaxın olduğu üçün öz evinə qayıtdı, kimi də bağlara çəkildi.

Nəbi və bir neçə adam heç yerə getmədilər. Fikirləşdilər ki, getsək, sabah biz gələnə kimi, hər şeyi paylayıb qurtararlar. Ona görə, kimi çuvalını, kimi kisəsini, kimi də dağarcığını başının altına qoyub, quru yerdə, evin divarının dibində uzandı.

Onlar xoş, isti havada gecə yarıya qədər, bəziləri isə səhərə qədər söhbət elədilər. Nə zaman öz yerlərinə qayıdacaqlarından, ağır güzəranlarından, ölüb-itənlərindən danışdılar…

Yanlarını əzən quru yerdə o yana, bu yana çevrilən Nəbinin gözünə yuxu getmirdi.

«İnsanın üzü yamanca bərk olurmuş» deyə qəmli-qəmli fikirləşirdi. Xəyalən gah Comərdlə Şahmərdanın yanına gedir, gah Yusifi nökərçilikdən çıxardıb yenə oxumağa qoyur, gah da Növrəstəni xoş güzəranlı görürdü…

Nəbi başının üstündə mavi və böyük bir çətir kimi açılmış may səmasına, onun sinəsində sayrışan ulduzlara xeyli tamaşa elədi. Gecələr öz eyvanında yatdığı çağlar yadına düşdü. Ona elə gəlirdi ki, bu yerlərdə nə səma, nə də ulduzlar, onun doğma kəndinin göyü, ulduzları qədər parlaq və gözəl deyil. Ona elə gəlirdi ki, Dondarlı bağlarında ötən cırcıramaların səsi Şəkinin çəmənlərində, zəmilərində ötən cırcıramaların səsi kimi xoş deyil. Ona elə gəlirdi ki, guya Bərgüşad çayının şırıltısı, onun öz kəndinin çayı, bulaqları, şəlaləsi qədər ruhu oxşar və ahəngdar deyil. Nəhayət, ona elə gəlirdi ki, yurdsuz, vətənsiz, qohum-əqrəbasız, arxasız bir adamın ürəyi bütün ola bilməz…

Nəbi müxtəlif fikir-xəyal içində, dodaq altından deyirdi:

Əzizim vətən yaxşıdır,
Köynəyi kətan yaxşıdır,
Gəzməyə qərib ölkə,
Ölməyə vətən yaxşıdır.

…Səhər açıldı. Gün çeşt yerinə qalxdı. Qaçqınlara günortaya kimi ianə paylandı.

Nəbi unla dolu dağarcığını çiyninə götürüb, o biri adamlarla bərabər yola düşdü. Başqaları kimi o da çox sevinirdi. Öz ürəyində deyirdi:

«Növrəstə bu undan lavaş bişirər, heç olmasa, bir qarın doyunca buğda çörəyi yeyərik…».

İanə qalan qaçqınlardan bir neçəsi söhbət edə-edə Dondarlı bağlarını keçib, Bərgüşad çayının sahilinə gəldilər. Çayı necə keçmək üçün məsləhətləşdilər, çünki körpü yox idi. Ancaq bu sahildən, o sahilə nazik, uzun bir ağac uzatmışdılar.

Qızılcıqlı qoca bir qaçqın kişi, körpü adlanan ağaca baxıb dedi:

- Siz ölməyəsiniz, bu ağacın üstündən heç kəndirbaz da keçə bilməz, nəinki bizim kimi dalı şələli adamlar… Allah sizə insaf versin, getdiyimiz yolla gəlmədiniz, mağıl, Mirrər tərəfdən getsəydik, ordakı dayaz keçiddən addardıq…

Darabaslı cavan bir oğlan ona cavab verdi:

- Pirməmməd əmi, qorxma, səni şələnlə bərabər dalıma alıb, keçirərəm. Burdan gəldik ki, yolumuz kəsə olsun. Bəri gəlin, əl-ələ verib addayaq!..

Urudlu Məşədi Göyüş etiraz elədi:

- Suya girmək olmaz, dərindir. Getdiyim Xorasan haqqı, dəvəyə də boy verməz. Özü də görürsünüz, necə burulur… Gəlin bir az aşağı, ya yuxarı gedib dayaz keçid axtaraq.

Fikirlər müxtəlif olduğundan, hər kəs çayı öz istədiyi kimi keçməyə başladı.

Bəziləri çarığını çıxardıb çiynindən asdı, şalvarını çırmayıb özünü suya vurdu, bəziləri özünü bir az yuxarı verib, nisbətən dayaz yer axtardı, bəziləri isə ağacın üstü ilə ehtiyatla yeriməyə başladı.

Çayı o tərəfə keçənlər, bəri tərəfdə qalanlara ürək-dirək vermək üçün qışqırırdılar:

- Qorxmayın!

- Ə, suya baxma, gözün axar.

- Ağac möhkəmdir!..

Dağarcığın çiyninə alıb ağzından möhkəm yapışmış Nəbi, tikanlıqda gedirmiş kimi yavaş-yavaş, ağacın üstü ilə yeriməyə başladı. Bir neçə addım atdı. Lakin ona dərya kimi görünən çayda gözünün axdığını hiss elədi. Tez sahilə dönmək istədi. Sağ ayağını götürüb geri çevriləndə, dağarcıq ləngərləndi. Nəbi müvazinətini saxlaya bilmədi, sol ayağı sürüşdü. Bir anda suyun içinə elə bil ki, böyük bir şalban milləndi.

Adamlar bu taydan, o taydan təşviş və həyəcanla qışqırışdılar:

- Ə, bədbəxt oğlu bədbəxt yıxıldı…

- Ə, qoymayın boğulsun!..

- Vay səni, belə də iş olardı!..

İlan kimi qıvrılıb açılan dalğalar Nəbini öz qoynunda yumarlaya-yumarlaya aparırdı.

Nəbi əl-qol atırdı… Biri-birini qovan qüvvətli dalğalara təslim olmaq istəmirdi. Onun ürəyini, arzusunu bilməyən dəli Bərgüşada can vermək istəmirdi…

Heç kəs Nəbinin səsini, naləsini, fəryadını eşitmirdi… Bəlkə o deyirdi: «Qan eləmə, Bərgüşad! Aman ver, Bərgüşad, uşaqlarımın üzünü görüm! Onların məndən başqa pənahı yoxdur. Axı mən evimə un aparıram… un, un!..»

Çox keçmədi ki, Bərgüşad çayının üzü ağardı. Sanki yay günü, onun üstünə qar yağdı. Nəbinin həsrət və əzabla aldığı, böyük bir sevinclə evinə aparmaq istədiyi ianə unu sulara qismət oldu…

Adamlar hər iki sahil boyu, çay aşağı qaçışırdılar…

Bu taydan bir, o taydan iki adam özlərini çaya vurub, suyun üzündə qovuq kimi gedən dağarcığa tərəf üzdülər. Amansız çayın qüvvətli dalğaları ilə əlbəyaxa oldular. Özlərinin həyatları təhlükədə olan bu adamlar, xeyli əlləşdikdən sonra, Nəbini çıxartdılar.

Kim isə dedi:

- Yazıq kimi, özünü bir dağarcıq una qurban verdi… Gör dağarcığı əlində nə möhkəm tutub ki, su da qoparda bilməyib…

Yamaqları sökülüb, içi boşalmış dağarcığın ağzını Nəbinin dəmirə dönmüş ovcunun içindən zorla çəkib çıxartdılar. Onun yumulu barmaqlarının arasından sıyıq xəmir axırdı…

Kəndlilərdən biri yaşarmış gözlərini silib köksünü ötürdü:

- Üzün qara olsun, ay insan, nəyə gərəksən?! Çalış, əlləş, ilan kimi qabıq qoy, axırı da belə!

…Nəbinin faciənə ölümünü eşidən kənd camaatı o saat tökülüb gəldi. Bəziləri həyətdə oturdu, bəziləri içəri keçdi.

Tövlənin ortasında qoyulmuş meyitin ətrafında oturan qoca, cavan arvadlar, qızlar səs-səsə verib ağlayırdılar. Lakin onların içində bir adamın tükürpədici səsi nəinki tövləni, həyəti, hətta kəndi də götürmüşdü. Ölümdən də qorxunc və dəhşətli olan bu səs Növrəstənin səsi idi. Üz-gözünü cırıq-cırıq eləmiş, göz yaşı ilə yanaqlarının qanı bir-birinə qarışmış Növrəstə, saçlarını yola-yola deyirdi:

- Kaş dilim quruyaydı, ata, sənə deməyəydim ki, ianə paylayırlar. Mən bədbəxt oldum, Allah! Mən necə olacağam, xudaya!.. Hardasan, gəl, ay əmi, qardaşın gedər oldu…

- Özünü öldürmə, ay bala, - deyə arvadlardan kim isə Növrəstəni zorla meyitin üstündən ayırdı… Onun səsi kəsildi…

Cavan yaşında neçə-neçə müsibət görmüş Növrəstə ağlamaqdan yorulmuşdumu? Daha saçını yolub, şivən qoparmaq istəmirdimi? Xeyr, o, bayılmışdı. Bəlkə o bədbəxtin də quş kimi çırpınan ürəyi bu müsibətə davam gətirməyib partlayacaqdı.

Həyətdə, bəziləri oturmuş, bəziləri kürəklərini divara söykəyib ayaq üstə dayanmış kişilər öz aralarında müxtəlif söhbətlər edirdilər.

Birdən hönkürtü ucaldı.

Baxış bəy:

- A Məmməd kişi, sənə nə olub, uşaq kimi ağlayırsan? – dedi. – Kim bu dünyanı tutub qalacaq?.. Ağlamaq vaxtı deyil, elə eləyin ki, meyiti axşama saxlamayın. Yay günündə yaxşı olmaz…

Kişilərin hamısından qoca, beli bükülmüş, doxsan yaşlı Məmməd kişi, kirli dəsmalı ilə gözünü silə-silə dedi:

- Bəy, ona ağlamıram ki, ölüb… Ölmək Allah əmridir. Ona ağlayıram ki, yazıq bu kəndə gələndən heç ağ gün görmədi. Sağalıb, ayağı təzə-təzə yer tuturdu ki, belə oldu… Bir ovuc unun bəlasına düşdü… Bədbəxtin iki balası necə olacaq…

- Sən onların fikrinə qalma, Məmməd kişi! – deyə Baxış bəy gülümsündü. – Məgər mənim başımdakı papaq deyil? İki adamı da dolandıra bilməyəcəyəm? Nəbi yaxşı adam idi. Necə deyərlər, tikansız balıq kimi. Onun uşaqlarını korluq çəkməyə qoysam, bəylik mənə haram olsun…

- Allah atana rəhmət eləsin, bəy. Allah sənin kölgəni bu camaatın üstündən əskik eləməsin, - deyə molla Səfər dilləndi.

Yanlarını zorla çəkə-çəkə gələn Aftab xanım, həyətin o başında görünən kimi oturanlar ayağa qalxdılar. Aftab xanım yaxınlaşanda, hamı əlini döşünə qoyub, ona baş əydi. Kimi ucadan, kimi alçaqdan: «Xanım, salaməleyküm!» dedi.

Baxış bəy, yanından ötüb keçən anasını saxladı, onun qulağına pıçıldadı:

- Növrəstəni özünü döyüb öldürməyə qoyma. De ki, bundan sonra, həmişəlik bizdə qalacaq…

Heç bir söz deməyib, oğlunun üzünə tərs-tərs baxan Aftab xanım getdi.

- Qəbir qazmağa gedən varmı? – deyə Baxış bəy Məmməd kişiyə müraciət elədi.

- Bəli, bəy. Camalla bərabər iki adam gedib.

İçəridən arvadların həzin ağlaşması eşidilirdi.

Bir neçə dəqiqədən sonra qəbir qazanlar gəldilər.

Meyiti samanlıqda yudular, kəfənə tutduqdan sonra, tabuta qoyub həyətə çıxartdılar.

Qabaqda molla Səfər, onun arxasında isə camaat, üzü qibləyə durub, meyit namazı qıldılar.

Arvadlar içəridən çıxdılar.

Dörd kişi irəli gəlib tabutu qaldırmaq istərkən Növrəstə özünü tabutun üstünə sərdi.

- Məni qoyub hara gedirsən, ata? – deyə dəhşətlə qışqırdı, sonra insan ürəyini parçalayan bir səslə bayatı çəkdi:

Əzizim dərdi qovun,
Bostançı dərdi qovun.
Yığılın, dərd qovanlar,
Üstümdən dərdi qovun!..

Hönkürtüsü kəndin qayalarında, kahalarında əks-səda verən Növrəstəni güclə tabutdan ayırdılar.

Meyiti qəbiristana aparırdılar. Hamı başını aşağı salıb yavaş-yavaş, qəmli-qəmli gedirdi.

Yalnız kəndlilər deyil, bağlar, zəmilər, quşlar, qan eləmiş Bərgüşad çayı özü belə, sanki matəmə bataraq, Növrəstənin halına ağlayırdı.

Yalnız Baxış bəy, ürəyində nə isə fikirləşir, gözünü Növrəstənin qan-yaşla dolmuş ala gözlərindən çəkmirdi…

Atasının ölüm xəbərini eşidən Yusif bacısının yanına gəldi, başına-gözünə döyüb çox ağladı…

Növrəstə atasının qəbrini qardaşına göstərmək üçün onu qəbiristana apardı.

İki yetim, qardaş-bacı, kiçik bir təpə kimi qalxmış, üç günlük məzarın yanında oturdular. Gah Növrəstə, gah Yusif baş daşından öpür, təzə qəbrin torpağını göz yaşları ilə suvarırdılar.

Hər ikisi doyunca ağlayıb yorulduqdan sonra, dərdləşməyə başladılar. Öz gələcəkləri haqda düşündülər. İlk dəfə olaraq əmilərinin, dayılarının və Şahmərdanın qarasınca danışdılar. Onları atıb getdiklərinə gileyləndilər.

Yusif bacısına Qazıyana getməyi təklif elədi. Orda kimi-kimsəsi, qalmağa bir yeri olmadığından, Növrəstə bu təklifə razı olmadı. Bir xeyli danışdıqdan sonra, qəbiristandan ayrılıb yola endilər. Yusif bir tərəfə, Növrəstə isə başqa bir tərəfə getməyə üz qoydu. Hər ikisi ürəklərində hicran və ata dərdi apardı…

Nəbi öləndən sonra Camalgildə qalan Növrəstə yenə onlara getdi.

Camal və onun mehriban arvadı Tükəzban, gözləri ağlamaqdan qızarıb, şişmiş Növrəstəyə təsəlli və ürək-dirək verdi.

Növrəstəni həqiqi bir bacı kimi istəyən Camal cibindən bir kağız çıxardıb dedi:

- Növrəstə, Bakıdan gəlib, Şahmərdandan. Oxuyum, qulaq as.

Palazın üstündə oturmuş Növrəstə küskün-küskün dedi:

- Oxu.

- «Əzizim Nəbi dayı!..»

Nəbi adı çəkilən kimi, yenə Növrəstə özünü saxlaya bilməyib hönkürdü… Onun səsi Camala məktubu ucadan oxumağa imkan vermədi. Camal məktubu ürəyində oxuyub, məzmununu bir neçə sözlə söylədi. Şahmərdan Comərdlə Qiyasın sağ-salamat olduqlarını, özününsə bir aya kimi gələcəyini yazmışdı.

…Tükəzban Növrəstəni öz evində bir neçə gün də saxladı.

Növrəstə, bu mehriban, lakin vəziyyəti ağır olan ailədə çox qalmadı. Yenə öz yuvasına çəkildi. Tövlənin hər daşı-divarı sanki qurd olub onu yeyirdi. Vahimə və tənhalıq Növrəstəni əldən salırdı.

Ehtiyacın amansız əli, bir gün Növrəstəni Baxış bəyin evində həmişəlik kəniz olmağa sürüklədi.

Yusif gündüzlər yorğun olduğu üçün gecələr daş kimi yatırdı. Ancaq səhər alaqaranlıqdan, hələ ağası, onun qoca arvadı, gəlini yuxudan qalxmamış, oyanırdı. O, buna həm alışmışdı, həm də ağası onun gözünü qorxutmuşdu.

Deyir, ilan vuran, ala çatından qorxar. Yusif bir dəfə gün çıxana qədər yatdığı üçün ağası: «…Bəli də, nökər də gün göbəyinə düşənə kimi yatsa, biz yarıyıb bəy olarıq!» deyə onu söyüb, danlamışdı. «Bir də belə qələt eləsən, qulağını çəkib, eşşək qulağına döndərəcəyəm, sonra qolundan tutub evdən qovacağam» deyə hədələmişdi. Odur ki, Yusif hər gün işıqlaşmamış yuxudan dururdu…

Yusifin işi çox və ağır idi. Gündüz malları otarmaq, axşam onlara yem tökmək, tövləni kürüyüb, peyini atmaq, mal otardığı yerlərdə odun yığıb axşam evə gətirmək – bunların hamısı Yusifin boynunda idi.

Sakit, utancaq, üzüyola Yusif, heç bir buyruqdan boyun qaçırmırdı. Tapşırılan işin hamısının öhdəsindən gəlməyə, ağasını və bütün ailə üzvlərini razı salmağa səy edirdi. O, belə də eləməli idi, çünki özündən başqa heç kəsin köməyinə ümidvar deyildi. Bəli, haqsız, muzdsuz, bir qarın çörəyə işləyən yetim uşağın üzü danlaqlı, başı qapazlı idi…

…Tövlənin böyründə, dar, toyuq hinini xatırladan daxmada yatmış Yusif yerindən qalxıb geyindi. Tövləni kürüyüb, peyini basmalığa atdı. Atı qaşovladı, tumarladı və qabağına yem tökdü. Malları, ulağı tövlədən həyətə çıxartdı, ağacını, dəhrəni, çatını götürdü. Gülyetər arvadın dünən axşamdan iki arpa cadı və bir az şor qoyduğu heybəni çiyninə atdı, malları ho-hoyla sürdü.

Ulağı minib, malları qabağına qatmış Yusif kənddən aralananda, günəşin balaca bir hissəsi üfüqdən çıxdı. İlk şüalar onun gözünə, dağların başına, ağacların zirvəsinə düşdü.

Yusif malı başqa gövşənə yox, düz Saqqızlı dərəyə sarı sürdü, çünki yoldaşları Hüseyn və Əzim də öz mallarını ora gətirəcəkdi; bu barədə dünən danışmışdılar.

Yusif malı geniş və otu bol olan Saqqızlı dərəyə yaydı. Özü isə heybəsini, dəhrəsini, ağacını və çatını yanına qoyub, yastı bir daşın üstündə oturdu.

Çox çəkmədi ki, Əzimlə Hüseyn də gəldi. Mallar mallara qarışdı, üç yoldaşsa bir yerdə oturub söhbət eləməyə başladı.

Yaşca bir-birindən az fərqli olan bu üç yoldaş növbə ilə tapmaca satdı. Onların ikisindən də boyca uca, sarıbəniz, yastı-yastı danışan Hüseyn dedi:

- Bir tapmaca deyəcəyəm, kim tapsa, bax, bu zoğal ağacını ona verəcəyəm. Kim tapmasa, bununla onun baldırına ikicə dəfə çəkəcəyəm. Razısınız?

Bədəndən kötük kimi möhkəm və sağlam Əzim dilləndi:

- De görək!

Hüseyn dedi:

- O nədir ki, «Məməli xatın, dişləri yox?» Hə, əvvəlcə Əzim cavab versin.

Əzim fikirləşə-fikirləşə bir neçə cavab verdi, amma düzünü tapa bilmədi.

- Sən öləsən, baldırına çəkəcəyəm, - deyə Hüseyn ağacı yerdən götürdü.

- Ə, zarafatı boşla!

- Axasar[1] haqqı, çəkəcəyəm, dur ayağa!

Yusif aralığa söz atdı:

- Hələ vurma. Mən tapsam, ona hesab elə.

- Yox, tapsan ağacı verəcəyəm sənə, tapmasan da sözüm sözdür. Gərək sənin də, Əzimin də baldırlarına çəkəm:

Yusif tez cavab verdi:

- «Məməli xatın, dişləri yox» - toyuqdur.

Hüseyn:

- Düzdür, elədir, - dedi, - sən tapdın. Əzim, dur borcunu ver!

Əzim, Hüseynin ağacı bərk vuracağından qorxdu.

- Ay Hüseyn, gəl borcunu başqa cür verim, - dedi.

- Nə cür?

[1] Ocaq adıdır.

- Mən çalım, siz qulaq asın, ləzzət alın.

- Yaxşı, buna sözüm yoxdur, çal. Bəs kim oxusun? Çalanın yanında gərək oxuyan da olsun axı!..

- Bəs böyründə oturan nədir?

- Yox, mən oxuya bilmərəm, - deyə Yusif dilləndi.

- Oxuyarsan. Sən öl, Hüseyn, Yusifdə bir səs var ki, cik-cik cikkildəyir. Sən eşitməmisən, çünki bizimlə mal otardığın beş gündür. Hə, Yusif, mən çalım, sən də asta-asta de gəlsin.

Əzim qarğı tütəyi çıxartdı.

- Hə, hansı havanı çalım? – deyə Yusifə baxdı və çalmağa başladı.

- Ə, ağzını niyə açmırsan? – deyə Hüseyn Yusifə bir dümsük vurdu. – Ya Allah, başla görək!..

Yusif:

- Məni niyə vurursan, ə! – dedi, - zorla oxudacaqsan. İstəmirəm, kefim yoxdur.

- Eh, heç oxuma! – Hüseyn incimiş kimi bir az kənara çəkildi. – Heç oxuma. Elə oxuyansan ki, hələ minnətini də çəkək…

Əzim çalğısını kəsib dedi:

- Xoşluqla, Hüseyn, hər şey xoşluqla olar… Yusif, mən səndən xahiş eləyirəm, ikicə kəlmə… Burda kim var, özümüzük də! Canın üçün xoşum var, mən çalam, sən oxuyasan. Mən ölüm, de, oxusan kefin açılar.

Kef üçün deyil, ürəyinin dərdini azaltmaq üçün Yusif oxumağa razı oldu.

Əzim gözəl bir hava çaldı. Yusif həmişəkindən də yanıqlı səslə oxudu:

Bu dünyada mən təcrübə elədim:
Namərd körpü salsa, onda ad olmaz.
Bir mərd ilə ağı yesən şirindir,
Yüz namərdlə şəkər yesən dad olmaz.

Ələsgərəm, sözüm yetir nisaba,
Sərf edənlər zəbt eləsin kitaba,
Heç iyidin adı gəlməz hesaba.
Mərd bir olar, onda iki ad olmaz.

Hüseyn, Yusifin qayalarda, dərələrdə əks-səda verən xoş, ahəngdar səsinə, yerli-yataqlı zəngulələrinə, sözləri aydın ifadə ilə oxumağına heyran qaldı.

- Sağ ol, Yusif, sağ ol! – deyə ona yaxın oturdu. – Belə səsi mən heç bir oxuyandan eşitməmişəm. Bağışla ki, sənə bir dümsük vurdu. Gəl barışaq. – Hüseyn onun boynunu qucaqlayıb, üzündən öpdü. – Ə, dədəmin canı haqqı, zarafat eləyirdim. Sənin kimi oğlanı da incitmək olar… İndi bir şey də oxu.

Əzim Yusifin etiraz eləmədiyini görüb «Çalpapaq» havasını çaldı. Yusif oxudu. Ancaq son sözləri deyəndə ağladı.

- Bıy, ə, sənə nə oldu?

- Niyə ağlayırsan, Yusif? Nə dedik sənə? Xətrinə dəydik?

- Yox. Atam yadıma düşdü. Mən həmişə çöldən dərz daşıyanda bu sözləri oxuyardım, çox xoşuna gələrdi…

Pərt olmuş Hüseyn soruşdu:

- Ə, atana nə olub?

- On beş gündən artıqdır ki, ölüb. Yoxsa, niyə oxumaq istəmirdim… O iki şeyi də oxudum ki, fikrim dağılsın…

Hüseyn:

- Bay yazıq Yusif! – dedi. – Mən də heç bilməmişəm. Yoxsa üz vurmazdım. Ə, atan nədən öldü?

Yusif atasının ölümünü danışdı.

Yoldaşları Yusifin halına çox mütəəssir oldular və onu sakit eləməyə çalışdılar.

Yusif od düşmüş pambıq kimi oyulmağa başladı. Onu dərd-qüssə danışdırırdı:

- Sizin atanız-ananız var, eviniz var, nə vecinizə… Amma mənim burda heç kimim yoxdur. Təkcə bir bacım var, o da başqasının evində qulluqçudur.

Kobudluğuna baxmayaraq, ürəyi yumşaq Hüseyn soruşdu:

- Ağan səni incitmir ki, Yusif?

- Nökər olasan, incitməyələr?.. Məni döyür də, söyür də, bir tikə çörək artıq yeyəndə danışır da. Yaman xəsis, qıymaz adamdır. Bircə məni o evdə incitməyən ağamın arvadı Gülyetər xaladır. O da atamın-anamın xatirinə, mənə yazığı gəlir. Bir dəfə ağa məni elə döydü ki, burnumdan bir ləyən qan axdı…

- Vay kafir oğlu, kafir! Nə eləmişdin ki?

- Heç nə. Bir səhər tövləni kürüdüm. Səbəti asdım dirəkdən, yarıya kimi doldurdum. Ağam da yanımda oturub, mənim işimə göz qoyurdu. Dedi: «Ə, haramzada, səbəti niyə ağzına kimi doldurmursan?» Dedim, ağa, ağır olur, gücüm çatmır. Hirsləndi, ağzımı əyib dedi: «Ağır olur!.. Gücüm çatmır!.. Başqa işin yoxdur? Niyə gününü yubadırsan? Yediyin çörək burnundan gəlsin!» Kürəyi əlimdən alıb, özü səbəti ağzına kimi doldurdu. Dedi: «İndi götür, al dalına, haramzada!» Bir səbətə baxdım, bir özümə baxdım, gördüm, gücüm çatmayacaq. Dedim, ağa, qoy yarı-yarı aparım! Dedi: «Gədə, söz güləşdirmə, tez ol!» Qolumdan yapışıb məni səbətin yanına itələdi. Çarəm kəsildi. Bir əlimi dizimə qoydum, girdim səbətin altına, güc verib yuxarı qaldırdım. Hıqqına-hıqqına iki addım atdım. Gördüm ki, daha nəfəsim kəsilir, səbət belimi qırır. Bir addım da atanda, dizlərim titrədi, gözüm qaraldı, üzü üstə gəldim yerə. Səbət aşdı, peyin dağıldı. Ağamın ağzı açıldı, nə açıldı!.. «İtin belindən gələn, gücün yoxdur, niyə nökər olursan? Niyə mənim müftə çörəyimi yeyirsən?» Üzümə elə bir şapalaq vurdu ki, burnumdan qan fışqırdı.

Hüseyn:

- Yusif, gəl bizdə qal! – dedi. – Vallah, mənim atam-anam heç bir söz deməz.

- Ürəyim xarab oldu… - deyə Əzim Yusifin yaşla dolmuş gözlərinə baxdı. – Mən ölüm, ürəyini sıxma, Yusif. Bir də səni incitsələr, gəl bizə, elə bilərəm qardaşımsan. Qorxma, ac da qalmazsan…

Yusif yoldaşlarından xəcalət çəkdiyi üçün başını aşağı saldı.

- Bu sözü-söhbəti daha qurtaraq, mən acam, - deyə Hüseyn çantasını çiynindən aşırdı. – Gəlin çörək yeyək. Gün günorta yerinə qalxıb. Anam bu gün çörəyimin arasına soyutma yumurta qoyub.

- Mənim anam da süzmə qatıq qoyub.

Hüseyn güldü:

- Gülyetər qarı da Yusifin çörəyinin arasına toyuq qızartması qoymuş olar…

Əzim başını bulayıb ona gözünü ağartdı:

- Ə, bəsdir, az danış!

Axır vaxtlarda qəlbi hər şeydən sınan və tez pərt olan Yusif ayağa qalxdı.

Əzim onun əlindən yapışdı:

- Hara durursan! Çörək yeyirik…

- Mən yemirəm, gedirəm malın yanına. – Yusif ağacını, dəhrəni, çatını götürdü.

Əzim də yerdən qalxdı:

- Yox, özüm ölüm qoymaram. Otur, otur bir yerdə çörək yeyək. Hüseynin sözündən incimə. O, bir az sözünün dalını, qabağını bilən deyil.

Hüseyn təəccüblə dilləndi:

- Mən nə dedim ki? Sataşmadım, söymədim! Mən ölüm, Yusif, incimə, otur! Mən Gülyetər qarının barəsində deyirdim…

Hər ikisi Yusifin könlünü alıb oturtdular və çörək yeməyə başladılar.

Heyvanlar xeyli aralanmışdı.

Uşaqlar çörək yeyib ayağa durdular və şirin-şirin otlayan malların yanına getdilər. Yaşıl bir yastanada çilingağac oynamağa başladılar…

…Gün əyildi. Böyük qayalardan dərələrin dibinə, təpələrin yamyaşıl sinəsinə qalın kölgələr düşdü…

Uşaqların malları kəndə qaytarmalarına çox qalmamışdı. Ancaq Yusif hələ odun yığmamışdı. O, çatını, dəhrəni götürüb yoldaşlarına dedi:

- Mən gedirəm odun qırmağa. Gülyetər qarı dünən axşamdan tapşırıb. Siz də yığacaqsınızsa, gedək.

- Yox, biz də yemlik yığacayıq, - deyə Hüseyn cavab verdi.

Yusif o qədər də böyük olmayan, boz qabıqlı bir saqqız ağacına çıxdı. İti dəhrə ilə bir neçə budağı kəsib yerə tökdü. Quru bir budağı kəsəndə, dəhrə ötüb Yusifin sol dizinin qapağına dəydi. Yusif ağrıdan ufuldadı. Şalvarı qana bulaşdı. Nə qədər elədisə, ağacdan düşə bilmədi. Yoldaşlarını çağırdı:

- Ay Hüseyn, ay Əzim! Ə, bura gəlin!

- Nə var? Nə olub? – deyə Hüseyn soruşdu.

- Ə, tez gəlin, yaralanmışam! Ağacdan düşə bilmirəm…

Əzimlə Hüseyn qaça-qaça özlərini ona yetirdilər.

Hüseyn təəccüblə:

- Ə, Əzim, qana bax!.. Yusif, ay evi yıxılmamışın oğlu, ehtiyatlı ola bilmirdin?..

Yoldaşları köməkləşib Yusifi birtəhər ağacdan endirdilər. Göy otun üstündə oturdub ona ürək-dirək verməyə başladılar.

Yusif ağrının şiddətindən üz-gözünü bərk turşudub ufuldayırdı.

Əzim üzünü Hüseynə tutub:

- Bu yazığın yarasını nə ilə sarıyaq? – dedi. – Səndə dəsmaldan-zaddan yoxdur?

- Sarımamışdan qabaq gərək yaranın üstünə bir şey qoyaq qanı qurusun.

- Nə qoyaq? Burda nə var ki?

Əzim azacıq fikirləşib:

- Hə, mən tapdım nə qoyaq, - dedi. – Kül. Bir dəfə atamla bağdan gəlirdim, eşşəkdən yıxıldım daşın üstünə. Başım yarıldı, qan axdı. Atam dəsmalını yandırıb külünü yaramın üstə basdı. Gəl biz də elə eləyək…

Əzim arxalığından bir şırım çıxartdı, onu da ikiyə böldü. Birini yandırıb, külünü yaraya basdı. Hüseynin köməkliyi ilə bağladı.

Günəşin yarısı üfüqə sancılmışdı. Hər yeri kölgə sarmışdı. Bir azdan sonra dağların, qayaların təpəsində oynaşan şüalar da çəkiləcəkdi…

Hüseynlə Əzim malları bir yerə topladılar, Yusifi ulağa mindirdilər. Onun heybəsini, dəhrəsini götürdülər. Malı kəndə sarı sürdülər.

Yol uzunu yoldaşlarına razılıqdan başqa bir söz deməyən. Canını dişinə tutub ufuldamayan Yusif kəndin girəcəyində dərindən köksünü ötürdü…

Yusif yıxılmasın deyə, yeddi-səkkiz verstlik bir yolu onun qolundan tutub gələn Əzim dedi:

- Elə ah çəkmə, Yusif. Heç nə olmaz, tez sağalarsan.

Hüseyn:

- Qorxma, Yusif! – dedi. – Sən düz evinizə kimi aparacayıq. Yanına gəlib-gedəcəyik. Sən sağalana qədər ağanın mallarını biz otararıq. Fikir eləmə.

- Sağ olun! Yaramı sarıdınız, məni kəndə kimi gətirdiniz. Amma… - Yusifin gözləri doldu, - amma ağam bir gün də məni evində saxlamayacaq. Mən küçələrdə dilənçi olacağam, acından öləcəyəm…

Üçü də susdu. Lakin Yusifin könlündə sanki bir fırtına vardı. Ağasıgil onu necə qarşılayacağını fikirləşdikcə, sarsılırdı…

Həyətə girəndə Yusif qeyri-ixtiyari olaraq qışqırdı:

- Ay, başım fırlanır… Qoymayın, yıxılıram!

Çığırtıya Ağalar evdən çıxdı. Yusifi eşşəyin üstündə gördükdə dedi:

- Ə, uşaqlar, bu nədir? Bizim nökəri niyə eşşəyə mindirmisiniz? Ona nə olub ki?..

Əzimlə Hüseyn heç bir cavab verməyib Yusifi yerə düşürtdülər…

Kəndin aşağısında, yolun üst tərəfində ikimərtəbəli, ağ divarlı, qırmızı taxtapuşlu ev hamının nəzərini cəlb edir. Onun qərbə və cənuba baxan iki enli, uzun və yaraşıqlı eyvanı var. Qərb tərəfdəki eyvandan bütün kənd, cənub tərəfdəkindən isə Bərgüşad çayı, onun hər iki sahili boyu uzanan bağlar, çəltik ləkləri, Mirrər, Dondarlı, Dəmirçilər və sairə kəndlər görünür. Evin şərqə baxan pəncərəsindən Müskanlı, Qazyan kəndləri görünür. Şimala açılan pəncərədən isə, ətəkləri kəndin qırağına kimi uzanmış dağlar görünür.

Elə bil şəhərlərdəki ən gözəl binaların birini yerli-köklü gətirib burda qurmuşlar. Bu evə heç bir kəndli evi nəinki bitişik, hətta yaxın da deyil. Kəndlilərin yerə yapıxmış, sanki kədərdən beli bükülmüş, bomboz komaları

yanında, bu ev bir kaşanəyə bənzəyir. Əhmədalı bəy bu imarəti kəndlilərdən aldığı bəhrə və onların əməyi hesabına tikdirib…

İndi bəy ailəsi burada naz-nemət içində yaşayır.

…Cənuba sarı baxan eyvanda oturub, çay içə-içə bağlara, kəndlərə, xırman döyənlərə tamaşa edən Baxış bəy nə isə düşünürdü. Bəlkə, o, düşünürdü ki: «Nə üçün bütün mahal mənim əlimdə deyil? Axı mən bəylər bəyiyəm, rəiyyət sahibiyəm!»

Yox, o, başqa şey düşünürdü…

Növrəstənin gəlişi Baxış bəyin düşüncələrini pozdu.

- Ağa, yenə çay içirsənmi?

- Hə, Növrəstə… Sənsən? Çay… çay içmirəm…

Növrəstə stəkanı, qənddanı gümüş podnosa qoyub aparanda Baxış bəy:

- Dayan! – dedi.

Növrəstə geri çevrildi, ağasının qabağında dayanıb, başını aşağı saldı.

- Əynin-başın tökülüb, anama demişəm, sənə təzə paltar tikəcək. Darıxma, bir neçə vaxtdan sonra sən də xanım olacaqsan. Özün də yaxşı ye, iç, əmələ gəl, ətə, cana dol. Görürəm, hərdənbir ağlayırsan, daha elə şey eləmə. Hə, bizim evdən narazı deyilsən ki?

- Yox.

- Ay bərəkAllah! Sən ağıllı qızsan. Stəkanı apar qoy evə. Sonra da get bizim öz bağımıza. Bir az ərik, gilənar yığ gətir. Yaxşımı?

- Baş üstə, ağa.

- Get, bərəkAllah bala! Amma yubanma, bu saat get!

Növrəstə otağa girənə kimi, Baxış bəy onun arxasınca baxdı.

- Mən elə səhərdən səni düşünürdüm, a dağlar maralı! – dedi. – Dövlət də sənsən, Allah da sənsən, a zalımın balası! Sən hansı xanımdan əksiksən!

Növrəstə içəridən bir cəvərən götürüb qayıtdı. Baxış bəyin yanından keçəndə, bəy onu dayandırıb:

- Cəvərəni ağzına kimi doldur, - dedi. – Tələsib pislərini yığma. Başa düşdün?

- Baş üstə! – Növrəstə getdi.

Elə bil Baxış bəyin ürəyi də onunla getdi. Tez yerindən qalxdı. Xırmana gedib, taxıl döyənlərə bəzi göstərişlər verdi. Yarım saata kimi orada qalıb evə qayıtdı. Xəncərini bağladı, atını minib mahmızladı…

…Baxış bəy yola çıxdı.

Başını dik tutub oynaya-oynaya yeriyən, ayaqları səkil, tünd kəhər atın üstündə o hara gedirdi? Qəlbinə tufan salmış vəhşi ehtirasını söndürməyə!

Baxış bəyin sevinci Bərgüşad çayı qədər coşqun və sonsuz idi. O, getdiyi yoldan başqa, heç yana baxmırdı. Tozlu-torpaqlı yolda qalmış yüzlərcə rəddin içində Növrəstənin rəddini tanımaq, onu tutub arxayınca getmək istəyirdi. O, istəyirdi ki, yoldakı hər daş, hər kəsək dilə gəlib desin: «Qorxma, Baxış bəy, Növrəstə sənin məqsədini başa düşməyib. O, sən göndərən yerə gedib, qaçmayıb! Onun sığınacağı, yurdu-yuvası yoxdur. Bağın dəyirmana tərəf olan yerinə get! Tez get! Yolunu kəsədən sal, düz get! Fürsəti daha bu gün əldən vermə. O, quş misallı

bir şeydir, uçurtsan, dalınca həsrətlə baxacaq, yanıb-yanıb kül olacaqsan. Yubanma, Baxış bəy!»

Xəyallarını həqiqətə çevirmək üçün necə hərəkət edəcəyini ürəyində ölçüb-biçən Baxış bəy, ata bir şallaq vurdu. At qanadlandı…

Dağların zirvəsindən aşmaqda olan günəş, sanki dedi: Baxış bəy, sən bu yoldan qayıt!

Şırıltısı Yazı düzünə qədər yayılan Bərgüşad çayı dil açdı: Baxış bəy, sən bu yoldan qayıt!

Elə bil Şölə xanım da eyvana çıxaraq ərinin dalınca qışqırdı: Baxış bəy, sən bu yoldan qayıt!..

Hələ kəfəni saralmamış Nəbi də, sanki qəbirdən baş qaldırıb dedi: namussuz Baxış bəy, unutma ki, səndən intiqam alacaqlar, sən bu yoldan qayıt!

Göz qızanda, qulaq kar olur, ağıl başdan çıxır, ürək daşa dönür, dil lal olur…

Baxış bəy dəyirmanın yanından keçən cığırla atı bağa sürdü. O yana, bu yana baxdı. Növrəstəni görmədi. Şırşır axan dəyirman arxı, budaqlarda civildəşən quşlar, xışıldayan yarpaqlar onun axtardığını göstərmədi.

Baxış bəy atı bir az da irəli sürdü. Yenə o yana, bu yana nəzər saldı. Üzümləri salxım-salxım sallanan tənəklər, üstündə yüzlərlə qırmızıyanaq alma yetişən ağaclar da Növrəstənin yerini demədi.

Baxış bəy darıxdı. Atı bağın lap içinə sürdü. Yenə ətrafa baxdı.

- Növrəstə… Növ…rəs…tə!..

Dərdiyi meyvələri bir ağacın dibində cəvərənə dolduran Növrəstə qəfil gələn səsdən diksindi.

Səs bir də təkrar olundu:

- Növrəstə! Hardasan, Növ-rəs-tə!!!

- Burdayam! Kimsən? Burdayam!

Baxış bəy ağacların dalına, yan-yörəsinə baxa-baxa atı səs gələn tərəfə sürdü.

Növrəstə Baxış bəyi qarşısında görən kimi ürəyinə şübhə damdı. Şəki, Fərman əhvalatı gəlib gözünün qabağında durdu. Bir növ özünü itirdi. Bura nə evdi. Nə də mübarizə eləmək üçün yanında təndir şişi vardı…

- Səsimə niyə səs vermirsən, ay qız? – deyə bəy atdan düşdü.

- Ağa… Sənsən? Hardan belə?.. Ürəyim qopdu.

Baxış bəy atı ağaca bağlayıb irəli addımlaya-addımlaya dedi:

- Qorxma, mənəm… Görüm nə yığmısan… Alma, ərik, gilənar… BərəkAllah! BərəkAllah, Növrəstə! Sən əntiqə… qızsan ki… Bəs nar hanı?

- Ağa, indi nar vaxtı deyil ki…

- Ay dilbilməz, mən o narı demirəm, sinəndəki nardan istəyirəm…

Bəyin qara fikirdə olduğuna Növrəstənin daha heç şübhəsi qalmadı. O, qulaqlarına kimi qızardı. Hələ bu vaxta qədər heç kəs onun gözünə Baxış bəy qədər alçaq görünməmişdi.

Növrəstə bu qalın bağda xəncərli quldurun əlindən yaxasını yalvarmaqla qurtara bilməyəcəyini yəqin etdi. Hiylə işlətməyi qərara alıb süni bir gülüşlə dedi:

- Baş üstə, ağa. Sən o böyük armud ağacının yanına get, mən də cəvərəni götürüb gəlim…

Həyatında çox qadın hiyləsi görmüş Baxış bəy ona inanmadı.

- Burda, elə buradaca!.. deyə ac bir yalquzaq kimi ona hücum elədi…

Növrəstə balıq kimi çapalayıb onun qolları arasından çıxdı…

- Dayan! Hara qaçırsan? – deyə Baxış bəy onun dalınca qaçdı.

Bütün qüvvəsini qıçlarına toplamış Növrəstə tez bağdan çıxmağa can atdı. Hər addımda yolunu tutan ağaclar, kollar da sanki ona düşmən kəsilmişdi.

Baxış bəy yaxınlaşırdı… Növrəstə özünü dəyirmana salmaq, dəyirmançıya pənah gətirmək məqsədilə, ora qaçdı. Heyhat! Qapı bağlı idi. O, dizə qədər çıxan dəyirman arxına özünü vurub o tərəfə keçəndə Baxış bəy qəzəblə qışqırdı:

- Köpək qızı, sənə dayan demirəm…

Təmiz geyimli, təzə çəkməli Baxış bəy suya girmədi. Qayıdıb atını mindi. O, arxı o tərəfə addayanda, Növrəstə yol ilə başıyuxarı, kəndə sarı qaçırdı. Xeyli aralanmışdı.

Baxış bəy hirslə ata bir-iki şallaq vurub onun yalına sindi…

Başı buraxılmış və sanki ayaqları yerə dəyməyən kəhər, yolu döşünə aldı…

Ürəyi az qala sinəsindən qopan Növrəstə dönüb geri baxanda kəhərin dırnaqları az qaldı ki, onun dabanlarını qırsın. O saat sağa burulub, yoldan çıxdı. Baxış bəy də atın başını sağa çevirdi. Növrəstə sola burulub yenə qaçdı…

Qəzəbindən atın üstündə titrəyən Baxış bəy:

- Sənin nəfəsini kəsəcəyəm! – deyə atın başını sola döndərdi. – İt balasının mənimlə siçan-pişik oynamağına bax!..

Növrəstə qaçdı, o qovdu…

At yaxınlaşanda, Növrəstə yenə sapdırma verdi… Kəhər onun yanından ox kimi ötüb keçdi…

Növrəstənin nəfəsi lap təngimişdi…

Baxış bəy ağzı, döşü, qarnının altı köpüklənmiş atın başını güclə yığıb, geri döndərdi…

- Pərvərdigara, mən hara qaçım?..- deyə Növrəstə hönkürdü. – Barı bu yoldan gəlib-gedən də yoxdur… Yox, yox, bu cəllada mən can verməyəcəyəm.

Növrəstə yenə yol aşağı qaçmağa məcbur oldu. Yenə gah sağa, gah sola döndü. Nəhayət, özünü yolun üstündəki buğda zəmisinə saldı. Adam boyda qalxmış zəmi ona keçilməz bir dərya kimi göründü. Ancaq kəhər bu «dəryanı» yara-yara gəlirdi…

Tamam taqətdən düşmüş Növrəstə büdrəyib, yıxıldı, qalxdı, bir də yıxıldı. Bundan sevinən Baxış bəy tez atdan düşdü. Qaçmasın deyə, cilovu kəhərin sol əlinə bağladı. Növrəstə qalxıb, yenə zəminin içi ilə qaçmağa üz qoydu.

Qəzəbindən az qala dəli olan Baxış bəy, daha atı minməyib piyada Növrəstənin ardınca qaçdı. Ürəyi az qala ağzından çıxan Növrəstə birdən yıxıldı. Daha dura bilmədi… Baxış bəy bir cəllad kimi onun başının üstünü kəsdi.

- Mənə toxunma, ağa! Yalvarıram, mənə əl vurma! Yetim, qərib adamam. Bir quş kimi bir yuvaya sığınar, ağa! Atamın ölümü hələ…

Gözlərindən elə bil qan daman Baxış bəy çığırdı:

- Kəs səsini! Atan bir dəfə öldü, qurtardı. Bu kəndə gələndən məni yüz dəfə öldürüb-diriltmisən… - Bəy töyşəyə-töyşəyə Növrəstəni qucaqladı. – İndi də məni aldadıb, əlimdən qurtarmaq istəyirsən?

Növrəstə çırpınıb onun qolları arasından çıxmaq istədi. Bəy onu daha bərk sıxdı:

- Sən öləsən, dədən qəbirdən dirilib gəlsə də, buraxmaram… Heç çabalama!..

Düşdüyü tələdən qurtarmağa heç bir ümidi olmayan Növrəstə yenə göz yaşlarını imdada çağırdı, ən aciz, ən təhqir olunmuş bir qul kimi, yalvar-yalvara dedi:

- Məni balalarının başına çevir, ağa, ismətimi əlimdən alma, mənim ərim var. – Qəhər Növrəstəni boğdu.

Baxış bəy heç nə eşitmirdi. Var gücü ilə Növrəstəni qaldırıb yerə qoydu.

Növrəstə onu döşündən itələyə-itələyə dedi:

- Ərim bu günə, sabaha gələcək. Məni onun yanında başı aşağı eləmə! Namusun olsun, bəy!..

- Ərinə bax! Ər arvadın yanında olmalıdır. Sənin ərin indi mənəm! Tez ol, gün batıb…

Baxış bəyin ağırlığını öz sinəsində hiss edən Növrəstə sonsuz bir nifrətlə dedi:

- Tfu sənin bəy üzünə!..

Gün hələ çıxmamışdı. Ancaq üfüq şərq tərəfdən qızarmağa başlamışdı. Hamıdan qabaq yuxudan durmağa adət etmiş Camal oyandı. Geyinib uca çardaqdan aşağı endi, əl-üzünü yudu. Arvadını bu erkən yuxudan oyatmağa qıymadı. Evə girərək təknədən üç-dörd yuxa götürüb dəsmala bükdü, dəsmalı isə belindəki nazik qayışa bağladı. Çini həyət divarının taxçasından götürüb getdi.

Camal kəndin aşağısına çatanda, qulağına bayatı səsi gəldi.

Mən aşiq şəkər canım,
Hər dərdi çəkər canım,
Nə haqqım var, nə muzdum,
Bəylərə nökər canım…

Bu bayatını oxuyan, Baxış bəyin xırmanında işləyənlərdən biri idi. Bəy ailəsi yuxudan tez oyanıb narahat olmasın deyə, xırmançı alçaqdan, lakin çox yanıqlı oxuyurdu. Onun səsində məlahət və cazibə vardı.

Camal bu həzin və ürəyə yatan səsə dayandı. Həm oxumağa qulaq asdı, həm də xırmanın dörd tərəfində ucalan arpa-buğda tayalarına baxdı. Köksünü ötürüb öz-özünə dedi: «Ora bax… e… Baxış bəyin hər tayası bir dağdır. Yenə quyularında, ambarında taxıla yer olmayacaq… Mən paxıl deyiləm, olsun, amma camaatın qanını zəli kimi sormasın, acgözlük eləməsin. Əşi, gör həyasızlıq nə yerə çatıb ki, həyətimdəki bir qara daşa da tamah saldı. Özümü də xurd-xəşil elədi, yıxdı ora, on gün yerimdən tərpənə bilmədim. Nədir o, Əli Sadiqi pristav, şikayət elədim, ağzımın üstündən vurub qaytardı. Dedi: «Get, bir də buralara üzükmə. Bəy bəydir, rəiyyət rəiyyət». Neyləyəsən?.. Dəli şeytan deyir, gecənin birində od vur bu tayalara, qisasını al… Yox, yox, elə iş görmərəm, çörəyi yandırmaq kişilikdən deyil!..»

Camal yoluna davam elədi. Qəbiristanın yanından ötüb keçəndə, ölülərə rəhmət oxudu, üzünü Nəbinin başdaşına çevirib dedi:

- Allah sənə də rəhmət eləsin, yazıq kişi, min ilin ölülərinə qarışdın getdin…

O, yol uzunu Yusifin və Növrəstənin fikrini elədi…

Camal zəmiyə çatdı. Dəsmalı qayışdan açdı, çörək quruması deyə, bir daşın dibinə qoydu.

- Elə bu qıraxdanca başlasam yaxşıdır, - deyə buğdanı biçməyə başladı.

Lakin birdən onun qulağına nə isə bir səs gəldi. O, buna əhəmiyyət verməyib işinə davam eləmək istərkən, buğdanın içindən xışıltı eşidildi…

Camal o tərəfə, bu tərəfə boylandı, kimsəni görmədi.

Camal qəddini düzəldib zəminin içərilərinə sarı yeridi. Nəzərini at dırnaqları altında əzilmiş sünbüllər cəlb elədi. Təəccüblə çiyinlərini çəkərək:

- Hansı anasının oğlu, görən, mənim zəmimi öz atına otardıb? – dedi, - daha başına bağ, çəmən qəhəd idi, gərək mən kasıbın taxılını zay eləyəydi…

Camal iki-üç addım da atdı, birdən yerində donub qaldı.

Üst-başı cırıq-cırıq olmuş, saçları dağılmış Növrəstə dizlərini qucaqlayaraq, başını aşağı salıb oturmuşdu. O, dərin fikir-xəyal içində olduğundan Camalın zəmini yara-yara gəldiyini hiss etmədi.

- Növrəstə! Ay qız, sən burda nə qayırırsan?

Növrəstə diksinib başını qaldırdı, Camalı qarşısında görcək:

- Oy Camal qardaş… - deyə qışqırdı və əllərilə üzünü gizlətdi.

Lakin onun solğun üzündəki diş yerləri Camalın gözündən yayınmadı.

Heyrətdə qalmış Camal soruşdu:

- Ay qız, bu nədir, başına nə iş gəlib? Bir dillən görək axı!..

Növrəstə başına gələnləri ağlaya-ağlaya danışmağa məcbur oldu…

Gözünü bir nöqtəyə zilləyib fikrə getmiş Camal köksünü ötürüb dedi:

- Bəs bu gecəni elə burda qalmısan?..

- Bu sir-sifətlə, bu üst-başla mən kimin qapısına gedə bilərəm…

- Yaxşı, dur gedək evə…

- Yox, mən heç kəsin gözünə görünə bilmərəm.

- Dur gedək, dur!

…Camalla Növrəstə zəmidən yola çıxdılar.

Axşamdı. Çox isti və ürək sıxıcı bürkü idi. Kəndlilər biçindən, döyündən və bağ-bostandan qayıtmışdılar. Həyətlərdə qalanmış ocaqlarda tüstü qalxırdı. Yəqin ki, biri xörək bişirir, biri çay qaynadırdı.

Camalın arvadı qara damda, Növrəstənin yatağının yanında oturmuşdu.

- Qəza adam başına gələr, bacı! Ərin qayıdar, bəydən hayıfını alar, daha fikir eləmə! – deyə Tükəzban Növrəstəyə təsəlli verirdi.

Lakin Növrəstə ovunmurdu.

- Ərimin qabağına mən bu üzlə necə çıxacağam? Yox, o gələnə kimi özümü öldürəcəyəm!

- Ciyərinə güllə dəysin, Baxış bəy! Gör yazığın üzünü necə dişlək-dişlək eləyib e… - deyə, Tükəzban durub bucağa sarı getdi. Çay qoymaq üçün aftafaya su tökdü.

Çardaqda tək oturmuş, sanki gəmisi batmış Camal fikirləşirdi: «İndi mən nə eləyim? Kimə bu sirri açım? Baxış bəydən qisas almaq üçün qeyrətli adamlar mənə kömək elərlərmi? Yox, elə lap mən özüm… Qaradan artıq rəng olmaz, daha bəsdir. Qardaşımı öldürdü, özümü döyüb qara tuluq elədi, evimdə qalan, mənə pənah gətirən qaçqın arvadın namusuna əl atdı… Başı papaqlı da buna dözərmi?.. Adam dünyaya bir dəfə gəlib, bir dəfə də gedəcək… Ya öləcəyəm, ya onu sağ qoymayacağam, evini-eşiyini külə döndərəcəyəm, özü də bu gecə! Yox, gecə niyə? Gecə gecdir… Lap elə bu saat!»

Camal çarığını geyib aşağı düşdü, evdən kibrit götürmək üçün addımladığı zaman, darvaza döyüldü. O, elə zənn etdi ki, Baxış bəyin nökərlərindəndir, Növrəstənin burda olub-olmadığını bilmək və onu aparmaq üçün gəlib…

Camal gedib darvazanı açdı, lakin qarşısında duranın kim olduğunu qaranlıqda seçə bilmədi.

- Salaməleyküm! Qonaq istəmirsiniz?

Camal onu dərhal səsindən tanıdı:

- Şahmərdan! Ə, sənsən? Xoş gəlmisən!

Onlar qucaqlaşıb, öpüşdülər. Camal onu çardağa gətirdi.

- Tükəzban bacı necədir? Özün də yaxşısanmı?

- Sağ ol, pis deyilik…

- Mən axı bizimkiləri görmədim. Tövlə bomboşdur. Hara köçüblər? Sağ-salamatdırlarmı?

Camal bir qədər karıxdı. Suala birdən cavab verə bilmədi. İlk dəqiqələrdən Şahmərdanı peşman eləməmək, qol-qanadını sındırmamaq üçün gülümsəyərək dedi:

- Hə, niyə, nə olub, Allaha şükür… Otur, otur. İstidir. Pencəyini, çəkməni çıxart!

Şahmərdan çəkməsini, pencəyini çıxardıb bir tərəfə qoyaraq, dedi:

- Doğrudan çox bərk istidir. İstiyə dözmək olar, amma bu yerlərin mığmığasına heç yoxam…

- De görək Bakıda nə var, nə yox? Hansı yolla gəldin? Necə gəldin? Nə vaxt gedəcəksən?

- Onların hamısını danışacağam. Hələ bir neçə gün bu kənddəyəm. Ancaq mənim gəldiyimi heç kəs bilməsin! Hə, Nəbi dayıgil hardadır?

Camal özünü eşitməməzliyə vurub soruşdu:

- Comərd qağa, Qiyas niyə gəlmədi? İşə giriblərmi? Qazancları-zadları necədir? Ay səni sağ olasan, niyə xəbərsiz gəlmisən? Axasar haqqı, bilsəydim gəlirsən, əlli verst yolu qabağına gələrdim.

- Bəs, axı, kağız yazmışdım ki, gələcəm, Nəbi kişi almayıb?

- Hə, alıb, özün də gəldin, çıxdın, lap yaxşı eləmisən… Biz də kəndçiliyimizi eləyirik də… Kənd elə gördüyün kənddir… Biri bir tikə çörək üzünə həsrətdir, biri gündə balıq-plov yeyir…

- Mən elə yol uzunu kəndlilərin halını düşünmüşəm. Bir azdan sonra güzəranımız pis olmaz… Mən elə buralarda işləyəcəyəm. Səninlə tez-tez görüşəcəyik. Məndə yaxşı xəbərlər, sözlər var… Bir neçə vaxtdan sonra pristav, naçalnik, bəy-məy olmayacaq…

- Hə, başına dönüm, ondan de, ondan!..

- Deyəcəyəm, deyəcəyəm… Yəqin, bizim uşaqlar çox korluq çəkiblər, hə? Sənin canın üçün Camal, kəndə bir az qalmış ürəyim döyünməyə başladı… Ayrılıq pis şeydir… - O, bir az susdu. Sonra: - Ə, olmaya bizimkilərin başlarında bir qəza-qədər var! – deyə Camalın üzünə baxdı… - Mən ölüm, elə iş varsa, açıq de.

- Ə, fikrinə başqa şeylər gətirmə. Növrəstə bacı da indi gələr…

- Ay Camal, yəqin ki, Növrəstə məndən inciyib. Haqqı da var, cavan adamdır. Mən ona yedirən, geydirən bir ər olmamışam… O yazıq neçə ildir ki, lap nişanlı vaxtından mənim hər əzabıma, ayrılığıma dözüb. Amma, bir dəfə də olsa, üzümə vurmayıb. Ancaq mən də ona etibarlı ər olmuşam.

Şahmərdan tərini silmək üçün çevrilib pencəyinin cibindən dəsmal götürəndə, uzaqda bir işıq gördü. Bu Baxış bəyin otağında yanan lampanın işığı idi. Bütün kənd neftsizlikdən qaranlıqda ikən, bəyliyin işığı səhərə kimi sönmürdü.

Şahmərdan köksünü ötürüb dedi:

- Demək, Camal, Baxış bəy hələ hökmranlığını eləyir!.. Eləsin, amma sən də bil ki, Camal, onların ağalığına, zülmünə az qalıb…

- Nə təhər yəni az qalıb, Şahmərdan qağa?

Şahmərdan Bakı fəhlələrinin müsavat quruluşu əleyhinə apardıqları mübarizədən danışmağa başladı…

Tükəzban gəldi, qonağa «xoş gəldin» elədi. Şahmərdan onun kefini soruşdu… Tükəzban oturmaq istəyəndə, Camal dedi:

- Ay qız, oturma, yeri çaydan, çörəkdən qayır.

- Tükəzban bacı, bilirəm, burda qənd, çay tapılmır. Xurcunda şirni var… Çıxart apar.

- Sağ ol. Tut qurusundan, ərik qurusundan evdə tapılar.

Camal Nəbinin ölümünü, Yusifin başqa kənddə nökər olduğunu, yaralandığını, Növrəstənin başına gələn bəlanı daha gizlətmək istəmədi. Hər şeyi yavaş-yavaş Şahmərdana qandırmağa başladı.

…Şahmərdanı görəndən sonra, kövrəlmiş Tükəzban evə girdi. Fikir onu götürdü: «Deyim, deməyim? Əri gəlib, arvadından gizlədirik… Niyə? Bunun nə adı var?.. Beş gündən sonra bilməyəcək? İndi bilsə yaxşıdır… Evin dağılsın, balaların yetim qalsın, Baxış bəy! Daha sənin eləmədiyin nə zülm qaldı!.. İndi ər neyləsin, arvad neyləsin?..

Belə də iş olar!.. Ələ alırsan, əl yanır, yerə qoyursan yer…».

Tükəzban Növrəstənin yanına gəldi, özünü saxlaya bilməyib qəhərlənə-qəhərlənə bayatı çəkdi:

Evimizdə barama,
Bax sinəmdə yarama,
Könlüm yarı çox istər,
Rəqib girib arama…

Təzəcə huşa getmiş Növrəstə gözünü açdı.

- Tükəzban bacı, sən niyə ağlayırsan?..

- Heç, Növrəstə, heç!.. Şahmərdan…

- Necə? Nə deyirsən? – Növrəstə başını qaldırdı. Ondan xəbər var? Kim gətirib. Barı xeyirdirmi? Kaş bircə kərə üzünü görəydim. Dərdimi deyib sonra da…

Növrəstə sözünü bitirməmiş, Tükəzban yenə bayatı çəkdi:

Eləmə dil əzbəri,
Bülbülün gül əzbəri,
Vəfalı yar, izin ver,
Qoy gəlim bir az bəri.

- Sənin bayatılarını qanıram. Niyə açıq danışmırsan? Mən özüm hər şeyi deyəcəyəm. Şahmərdan gəlibmi?

Tükəzban başının işarəsi ilə «hə» dedi.

Elə bil Növrəstənin başından bir qazan su tökdülər. Onun bədənini soyuq bir tər basdı. Bir an özünü itirdi, sonra sərsəm adamlar kimi qışqırdı:

- Gəlib… gəlib! Nə yaxşı! Yox, yox, onu istəmirəm… Gəlməsin, yanıma gəlməsin… - İki əlli üzünü tutdu. Növrəstəyə elə gəldi ki, Şahmərdan bayırda olsa da, onun yanaqlarındakı diş yerlərini, qəlbindəki ləkəni görür… - Ona deyin ki, Növrəstə yoxdur, ölüb. İndiyə bəri harda idi? Niyə… - Növrəstəni yaş boğurdu… - Allah, mən ona nə deyəcəyəm?! – O susdu, nə isə axtarırmış kimi içəri göz gəzdirdi. Birdən ayağa qalxdı, bucaqdan dibək dəstəsini götürüb başına vurmaq istəyəndə, Tükəzban tez onun biləyindən yapışdı:

- Ay qız, dəli olmamısan ki? Bu iş bir sənin başında görünməyib ha… Allah Baxış bəyi əkəni tünbətün eləsin! O, hansı arvada düz gözlə baxır!.. Neçəsini bədbəxt eləyib, o bir şuldu köpəkdir ki…

Tükəzban, bədəni uçunan, titrəyən Növrəstəni zorla yerinə salıb, yorğanı üstünə çəkdi.

…Camalın danışığından hər fəlakəti bilən Şahmərdan sarsıldı. Gözəl xəyalları, Növrəstə ilə görüşmək üçün etdiyi şirin arzular tamam alt-üst oldu. O, əvvəlcə Növrəstəni, sonra Baxış bəyi öldürmək qərarına gəldi. Yasdan, ələmdən də təsirli bir sükut içində çəkməsini geyməyə başladı.

- Niyə geyinirsən?

- …

- Şahmərdan, geyinmə, hara gedirsən? Baxış bəydən ikimiz də bir yerdə qisas alarıq. O, mənim də sinəmə çox dağlar çəkib. Mən onun evini yandırmağa gedirdim, sən gəldin… Səbr elə, qardaşım, bir məsləhətləşək. Nə vaxt, harda onu cəhənnəmə vasil eləyək?.. – Camal, qaşları düyünlənmiş, qəzəbdən əngi, üzünün əzələləri titrəyən Şahmərdanın əlindən çəkməni almaq istədi. – Yox, səni heç yerə getməyə qoymayacağam… Özü də arvadını danışdır, günahı yoxdur.

- Çəkməni bəri ver. Çəkil o yana!.. – deyə Şahmərdan onun əlini geri atdı. – Sən də yaxşı dost imişsən?..

- Şahmərdan!.. Bilirəm sən…

- Səsini ucadan çıxartma! – deyə Şahmərdan onun sözünü kəsdi. – Növrəstəyə bir-iki söz deyib gedirəm. Zəhmət çək onu bura çağır.

Camal Şahmərdanın üz-gözündən onun qan eləmək fikrində olduğunu anladı.

- Şahmərdan, mənə inan, Növrəstənin heç günahı yoxdur… Bir az səbrli ol, bir tikə çörək ye, qardaş.

- Mən zəhər yedim… - O, ayağa qalxıb pencəyini geydi. – Xurcun sizdə qalsın…

Şahmərdan çardaqdan həyətə endi. Camal da onun dalınca aşağı düşdü.

Fırtınada məhv olmamaq üçün yelkəni hansı səmtə yönəldəcəyini bilməyən naşı dənizçi kimi, Şahmərdan özünü itirdi. Gözləri ilə evin qapısını axtardı.

Bu zaman Növrəstə içəridən çıxıb ayaqyalın, başıaçıq, qaça-qaça gəldi. Ərinin boynunu qucaqlamaq üçün qollarını açdı. Lakin Şahmərdan geri çəkildi. Növrəstənin qolları iki sınıq qanad kimi yanlarına düşdü. Camalın Şahmərdana hər şeyi dediyini anladı…

Ərlə arvadın baxışları ay işığında bir-birinə toxundu. Ancaq bu, bir an çəkdi. Bəli, bir an Şahmərdanın arzuları daşa dəyən, Növrəstənin isə təlatümlü qəlbini ayna kimi göstərdi. Bu bir an içində hər ikisinin ürəyinə nə qədər oxlar vuruldu…

«Mən fikirləşirdim ki, Növrəstə mənə qardaş olacaq, arxa olacaq, canımı əsirgəmədiyim işə qoşulacaq. Deyəcəklər ki, Nəbi ilə Həcər at belindən düşməyib bəylərə qan ağlatdıqları kimi, Şahmərdanla Növrəstə də zalimlərin kökünü kəsmək üçün dağlarda, meşələrdə partizan oldular» deyə düşünən Şahmərdan acı bir təbəssümlə dedi:

- Hə… Növrəstəsən? Mən səni indi tanıdım… Sağ ol! – Şahmərdan ona yaxınlaşmaq istədi, Növrəstə geri çəkildi…

- Mənə yaxın gəlmə, mən vəfasızam!.. – deyə Növrəstə əlləri ilə üzünü tutdu. – Mən bacarmadım, bibioğlu, sənin namusunu qoruya bilmədim…

- Bilirəm!.. – Namus dəmir bir halqa kimi boğazına keçib Şahmərdanı boğurdu… Özü də hiss etmədən yumruğunu düyünləyib, qolunu qaldırdı.

- Ə, Şahmərdan, neylədiyindir? Ağlını başına yığ, yeri gedək evə! – deyə Camal onun qolundan yapışdı.

- Öldür məni, bibioğlu! – deyə Növrəstə özünü qabağa verdi. – Məni sən özün öldür. Onda qəbirdə rahat yataram. Niyə durmusan? Qorxma, bircə dəfə də «uf» deməyəcəyəm.

Şahmərdan dəli olub, sonra huşa gəlmiş adamlar kimi, öz-özünə dedi: «Ey dili qafil, nə eləyirsən? Kimi öldürmək istəyirsən? Axı o insandır… Sənin məqsədin insanları ağ günə çıxarmaq deyilmi?..»

Şahmərdan daha bir kəlmə də danışmadan və Növrəstənin üzünə baxmadan, darvazaya sarı yönəldi. Lakin addımının biri gedir, biri getmirdi. Qəhər onu boğurdu. Bəlkə də həyatında ilk dəfə idi ki, Şahmərdanın gözündən yaş axırdı…

Baxış bəy o gecə rahat yatdı. Səhər Növrəstəni evdə görmədi. Yəqin elədi ki, utandığından üzə çıxa bilmir, kəndlinin birinin evindədir. «Eybi yoxdur, bu gün gələr» deyə evdən çıxanda Aftab xanım onun qabağını kəsdi.

- Baxış, kəniz gəlib çıxmadı axı! İş töküldü qaldı! – deyə oğluna müraciət elədi.

- Növrəstə qardaşının yanına gedib. Mən icazə vermişəm. Sabah adam göndərərəm çağırar.

Baxış bəy xırmana getdi. Vəl sürənlərə, heşan sovuranlara, hazır taxılı çuvallara dolduranlara nəzər yetirdi. Bəzi göstərişlər verdi. Toz-torpaq onu tutmasın deyə, böyük bir tayanın kölgəsinə çəkildi. Əllərini belinə qoyub, kəndə, yamyaşıl görünən bağlara, gözəl evinə, xırmanda işləyənlərə baxdı. Bəylik qüruru elə bil onu qartal kimi qanadlarında uca bir dağın zirvəsinə qaldırdı. Gülə-gülə öz ürəyində dedi: «Allah atama rəhmət eləsin ki, bəy imiş… Ayağı çarıqlı bir kəndli olsa idi, mən də, bax, bu eşşək kəndlilərin biri olacaqdım… Görən mən də cüt sürməyi, toxum səpməyi, bağ belləməyi, heşan sovurmağı bacarardım?.. Eh, mənim də fikrimə qəribə şeylər gəlir… Görəsən Növrəstə necə oldu? Niyə evə gəlmədi? Bəlkə məndən incidi? Eybi yoxdur, bir şey alaram, barışarıq. Bəlkə pristavın yanına şikayətə getdi? Bundan da mənə zərər gəlməz. Əli Sadiqi öz adamımızdır. Bəlkə öz-özünə bir xətər yetirdi. Belə olsa, çox pisdir. Özü cəhənnəm, axı mən ondan kamımı almamışam. Nəfsimi öldürməmişəm… Növrəstə başqa candır… Hələ mən beləsinə rast gəlməmişəm. Nə olar kəniz olanda… Atam deyirdi ki, onun babası naxırçı qızı alıb… Kişiyə, nəfsini öldürdüyü hər arvad, lap qancıq da, tula da olsa, gözəldir; ələlxüsus göz qızanda. Handa ki, Növrəstə doğrudan maral kimidir. Hə… hə… hə… Yenə zalımın balası elə könlümə düşüb ki… Bundan sonra məni incitməz. Naz-qəmzə «olmaz», «istəmirəm», «eyibdir» - birinci dəfə olar…

Baxış bəy yuxudan kal durmuş adamlar kimi əsnədi, əllərini belindən götürüb gərnəşdi. «Bəlkə Növrəstə Camalgildədir? Bilirəm, ordan başqa yeri yoxdur. Birdən hər şeyi açıb ona deyər?.. Cəhənnəmə desin. Camalı bir gecənin içində yoxa çıxardaram… Hər halda, onlarda olub-olmadığını bilmək lazımdır?..»

Baxış bəy evə getdi. Növrəstədən bir xəbər bilmək üçün qulluqçu Həliməni Camalgilə xəlvətcə göndərdi.

Qulluqçu yarım saatdan sonra qayıdıb xəbər gətirdi ki, Camalgilin qapıları bağlıdır.

Baxış bəy Növrəstəni harada tapacağı haqda fikirləşdi…

Növrəstə ilə Camal qapını bağlayıb evdə danışırdılar.

Onların nə danışdıqlarını eşidib bilməsin deyə, Camal arvadını bostana qovun-qarpız gətirməyə göndərmişdi.

Camal sözünə davam elədi:

- …Şahmərdan qıyıb səni öldürmədi. Ancaq neyləyəydi, kişidir… Namusuna sığışdıra bilmədi. Çıxdı getdi. Ancaq yerini bilirəm, Gürcülü kəndində olacaq. Fikir eləmə, tapıb sizi barışdıracağam. Hələ qoy bir az hirsi soyusun. O da başa düşdü ki, günah o, anasına, bacısına kəm baxan Baxış bəydədir. Elə ki, ondan qisas aldığımızı eşitdi, bildi, özü gəlib barışacaq. Hə, iş belədir, Növrəstə bacı! Qisas, qisas! Deyir, qalan işə qar yağar. Bu gecə onun evinə od vuracağam. Ölümümdən də qorxmuram. Dalımca uşaqlarım ağlamayacaq… Bir arvaddır, o da öz başını dolandırar. İndi dur get. Soruşsalar ki, bu vaxta kimi harda idin, de ki, getmişdim qardaşımın yanına. Desələr: üz-gözün niyə bu hala düşüb? Cavab ver ki, Qazyana gedəndə yıxılmışam. Hə, bir də onu deyim: Aftab xanım səni söysə də,

döysə də heç dinmə. Özünü Baxış bəyin yanında qəmli-qüssəli göstərmə. O sülənən itin xasiyyətini mən bilirəm: sənə yenə baş bir olmağı təklif eləyəcək. Sən buna razı ol. Üzünə gül, bir az da naz-qəmzə sat. Hara desə, get. Yaxşı olar ki, onu zəmiyə aparasan. Ancaq vaxtı axşama sal. Mən çardaqda oturub baxacağam. Siz gedəndə, dalınıza düşəcəyəm… Siz zəminin içinə girəndə, mən, əlimdə balta, onun başının üstünü kəsəcəyəm. Qorxma, Növrəstə, o dəyyusu sağ buraxmayacayıq. Hə, belə!.. Bəlkə fikrindən dönürsən? Qorxursan?

- Yox. Bu saat mən heç kimdən, heç nədən qorxmuram. Ölümdən artıq nə var, mən ondan da qorxmuram.

Camal ona əskiyə bükülmüş iti bir qəmə verdi.

- Hə, indi get, bacı!

…Növrəstə darvazanı açıb içəri girmək istəyəndə, Baxış bəylə üz-üzə gəldi.

- Aha… gəlib çıxdın?! – Baxış bəy güldü. – Mənim gözüm yolda qalmışdı, a dağlar maralı! A Şəki maralı, bir bəri dur. – Onu qapının dalına çəkdi. – Səni axtarmağa gedirdim. Yaxşıdır ki, özün gəlib çıxdın…

- Hə, deyirəm axı, məni axtarmağa gedirdin!.. Kişilərin elə hamısı sənin kimidir. Məni tək qoyub gəldin… Demədin ki, yazığı qurd-quş basıb yeyər…

- Neyləyim, gördüm ürəyin gedib, ayılmırsan. Dedim, sonra özü gələr. Sən özün də bilmədin ki, mən payımı necə aldım. Ha… ha… ha… Keçənə güzəşt deyərlər…

- Hə, deyərlər… Bir gör üz-gözümü nə hala qoymusan?.. İndi mən camaatın içinə necə çıxacağam, nə deyəcəyəm?

- Deyəcəksən pişik cırmaqlayıb. Kələk bacarmırsan? De ki, yıxılmışam, üzümü tikan cızıb. Yaxşı, de görüm, indiyə kimi harda idin?

- Qardaşımın yanına getmişdim. Gecə yarısı, bu gündə evə necə gələ bilərdim. Qardaşım soruşdu ki, üzünə nə olub, dedim, it qapıb, dişinin yeri qalıb. Dedi: «O, necə itdir ki, üzünə dırmaşıb?» Dedim, yaman itdir, azar dəymiş, birdən məni qarmaladı…

Baxış bəy gülərək:

- Yaxşı uydurmusan, - dedi. – BərəkAllah! Amma anama və Şöləyə elə demə, inanmazlar. Yaxşı. Bu gün görüşürükmü?

Növrəstə:

- Yox, - dedi, sonra gülərək əlavə elədi: - Niyə, iş peşədir? Özü də günün günorta çağı… Hələ üzümün yarası sağalmayıb, canımdan ağrı çıxmayıb. Yox, daha elə işlərdən gözünü çək! Bir dəfə nə oldu, qurtardı getdi. Mən o yolun adamı deyiləm!..

- Bir dəfə nədir, ay dəli! Nə qədər ki, mən varam, sən varsan, aramızdan su keçməyəcək… Vallah, dünyanı versələr, səndən keçəsi təhərim yoxdur. Hə, yaxşı, indi hara gedək? Bağ necə olar?

- Dedim ki, gündüz mən heç yerə getməyəcəyəm. Biabır olaram…

Baxış bəy tez onun sözünü kəsdi:

- Daha naz eləmə, sən atanın goru. Necə deyərlər, gönü suya verəndən sonra, mənə naz-qəmzə satır. Yaxşı, gündüz qorxursan, axşam görüşərik, ancaq harda?

- Yenə orda…

- Zəmidə? Mənim gözüm üstə. Gün batanda. Sən bir az qabaqca gedərsən, mən də sənin dalınca qarabaqara gələrəm. Kənddən bir qədər uzaqlaşandan sonra, cüt gedərik… Bax, belə!.. Sənin gözünü yeyim, a Şəki maralı!..

Baxış bəy xırmana, Növrəstə isə evə getdi.

Aftab xanım, Növrəstəni eyvanda görən kimi, onu aldı getdi.

- Ay qız, hardasan? Hansı cəhənnəmdəsən? Bilmirsən iş-güc tökülüb qalıb? Baxış dedi ki, qardaşının yanına getmisən. Yaxşı, getdin, bir saat otur, iki saat otur, cəhənnəm ol gəl də… Sənin o burnu fırtıxlı qardaşın o qədər şirin olub bəyəm?! Yaxşı, sür-süfətin niyə o günə düşüb? De görüm lotun kimdir, ay qız, səni yer yesin, belə kəniz! Yox, deyəsən buğda çörəyi səni qudurdub…

- Yıxılmışam, daş əzib, xanım. Mənim lotum yoxdur.

- Yalan danışma! – Aftab xanım hirsləndi. – Ay bihəya, o daş yarasıdır, ya diş? Məni aldadırsan?! Mənim evimdə oyunbazlığa başlamısan?! De görüm lotun kimdir?

Növrəstə dillənmədi.

Şölə xanım gəldi.

Aftab xanım təzədən qızışdı.

- Şölə, sən Allaha, bizim bu qaçqın kənizin sifətinə bax! Görürsən?..

Şölə xanım yaxına durub, Növrəstənin yanaqlarına diqqətlə baxdı.

- Hə-ə-ə!.. Lap təzəcə diş yeridir…

- Boynuna almır axı! Lotusunu demir ki, Baxışa deyim, gedib mənim qulluqçuma sataşan adamın başını it qibləsinə kəssin. Əl-ayağını yığışdır ha, vallah, səni bir Növrəstə elərəm ki, adını da yadından çıxardarsan… Dedik, yaxşı iş görəndir, kəniz götürdük, ta demədik ki, bəy evində qancıq kimi kürsəyə gəl!.. Üz-gözünü gizlət ki, Baxış görməsin, o, belə şeyləri qəbul eləməz. Yeri səhəngi götür, su gətir!

Növrəstə başını aşağı salıb getdi.

- Yaxşı işlək köpək qızıdır, amma… Bundan sonra, gərək üstündə göz olaq… Gedib qarnına da birini qoyar, bizi biabır elər… Mən bizim dəyirmançıdan şübhələnirəm. O, bir az şorgöz gədədir…

Aftab xanım deyinə-deyinə getdi.

Şölə xanım barmağını ağzına qoyub fikirləşdi: «Görəsən Növrəstə Baxışla bir yerdə deyilmiş?! Axı, o da evə gec gəldi…».

…Növrəstə mis səhəngi çiyninə alıb evdən çıxdı. Darvazadan aralananda, Camalgilə tərəf baxdı, bir iki dəfə əl elədi. Çardaqda oturmuş Camal onun işarəsini başa düşdü.

Növrəstə çaya enəndə, Camal ona yaxınlaşdı.

Növrəstə yavaşdan dedi:

- Gün batandan sonra… Zəmiyə gedəcəyik…

- Yaxşı, yaxşı!

Camal tez geri qayıtdı.

Növrəstə suyu apardı. Axşama kimi bəzi işləri gördü…

Gün batdı. Xanımlar otağa çəkildilər. Kənddə əl-ayaq yığışıldı.

…Növrəstə qabaqca, Baxış bəy bir az ondan aralı gedirdi.

Özünü heç kəsə göstərməmək üçün yolun altındakı kol-kosların arası ilə belini əyə-əyə gedən Camal onları izləyirdi.

Baxış bəylə Növrəstə qoşalaşdı.

Gündüzdən saqqalını qırxdırıb, özünü bu gecəki görüşə hazırlamış Baxış bəyin ürəyi sevincdən sinəsinə sığmırdı. Öz-özünə deyirdi: «Bu zəhrimar nəfs adamı dağdan-qayadan atar…».

Növrəstə tutqun və qəzəbli idi. Qisasını necə alacağı haqda düşünürdü…

Sanki bütün təbiət, qisas almağa gedən Növrəstəyə təskinlik, ürək-dirək verirdi.

Növrəstə addımını basdığı hər daş-qum, hər torpaq zərrəsi sanki deyirdi: «Növrəstə, sən o axşam da bu yoldan dəli ceyran kimi ürkə-ürkə at döşündə keçdin… Səni zalım bir ovçu izləyirdi. İndi onu özün gətirmisən… İndi o, sənin ovçun yox, ovundur… Dizlərin, əllərin titrəməsin. Onu ürəyinin başından vur!..»

Yarpaqlarının xışıltısı gözəl və həzin nəğməni xatırladan qoca çinar da sanki adam kimi dilə gəldi: «Məni tanıyırsanmı, Növrəstə! Mən nağıllarda adı çəkilən əfsanəli çinaram. Yoldan ötənlər mənim kölgəmdə sərinləyir, dincəlirlər… Hər budağımda bir leyləyin yuvası var. Mən qüvvət və ucalıq rəmziyəm. Qoynundakı qəmənin sapı məndən qayrılmışdır. Onu əlində bərk tut! Qisasını al, başını mənim kimi uca saxla!..»

Baxış bəylə Növrəstə zəmiyə girdilər.

- Daha bəsdir, o tərəfə getmə! – deyə Baxış bəy Növrəstənin qolundan tutub saxladı. – Otur, otur, a Şəki maralı!

İkisi də oturdu.

- Ancaq, tez ol, ağa!

- Mən səndən çox tələsirəm… Atam, anam sənə qurban, a Şəki maralı! – deyə Baxış bəy sevinc və ehtirasdan əsən bədənini Növrəstənin sinəsinə yıxmaq istəyəndə, Növrəstə qəməni xəlvəti qoynundan çıxartdı. Elə bil ki, bu an onun ürəyinə dəryalar qədər nifrət hissi doldu. Elə bil ki, qollarına dağlar qədər qüvvət gəldi.

Polad qəmə öz işini gördü…

Baxış bəy ayı təkin bağırdı, qarnını tutub yerə aşdı.

- Ah, hiyləgər qancıq! Sən nə yaman… - Baxış bəy sözünün dalını deyə bilmədi…

Növrəstə qəməni ikinci dəfə onun ürəyinə endirəndə, Camal özünü yetirdi. İki əlli tutduğu baltanı xıjmla endirdi. Başı kötük kimi ikiyə parçalanan bəyin iniltisi kəsildi.

Növrəstə dedi:

- Qoy dünyaya car olsun ki, mən öz qisasımı aldım!

- Bəli, buynuzsuz qoçun qisası, buynuzluda qalmaz! Gedək bacım! Sağ ol, Növrəstə!

Nədənsə Növrəstə özünü itirmiş kimi idi. Sanki o, qoçaqlığına inanmır, özünü xəyal aləmində hiss edirdi.

- Gedək, Növrəstə! Deyəsən axı, səni qan tutub? – Camal yerə düşmüş qəməni götürüb ona verdi. – Al yala! Görürəm səni qan tutub… Yala ürəyin sakit olsun!

- Gedək, Camal qardaş!

Camal qəməni uzağa tulazladı.

Onlar heç kəs görməsin deyə, bağlarla, Bərgüşadın sahili ilə gedirdilər…

…Səhərin açılmasına az qalmışdı.

Xoruzlar damların üstündə, həyətlərdə gərdənlərini çəkərək, döşlərini qabardaraq, qanadlarını çırpa-çırpa banlayırdı. Elə bil ki, onlar Baxış bəyin ölümünü, zülmdən zara gəlmiş kəndlilərə bir sevinc müjdəsi kimi xəbər vermək istəyirdi.

Camal çardağa çıxanda, arvadı Tükəzban hələ yatmamışdı. O, qalxıb yerinin içində oturdu və:

- A kişi, bu xoruz banınacan hardasan? – dedi. – Gözümə axşamdan yuxu getməyib. Nigaran qalmışam, fikirləşmişəm, bunu ilan çaldı, başına nə iş gəldi…

Camal paltarını soyuna-soyuna dedi:

- Bilirsən ki, zəmini biçirdim… Axşamdan yaxşı biçilir, gündüz çinin ağzından tökülür…

- Boşla, sən Allah!.. Adəmdən xatəmə kimi zəmi gündüz biçilib… Nə kələyin varsa, bir qulaq yeri də bəhanə eləmisən… Oğru da deyilsən ki, deyəm dam yarmağa getmisən.

Camal soyunub yerə girdi. Ancaq yata bilmədi. Qurcalandı, o yanı, bu yanı üstə çevrildi.

- Niyə yatmırsan? Deyəsən fikirlisən axı? Vallah, məni də fikrə saldın. Həmişə axşamdan başımı yerə qoyan kimi yatırdım, bu gecə gözümə heç yuxu getməyib. Sən olasan Nəcəfin goru, düzünü de, hardaydın? Ə, olmaya özünə aşna-zad tapmısan? Vallah, elə olsa, özümü bu çardaqdan tullaram.

Camal, arvadının bu işi gec-tez biləcəyini və ona görə də gizlətməyin mənası olmadığını fikirləşib məsələni açdı.

Tükəzban üstünə soyuq su atılmış adamlar kimi birdən diksindi.

- Bıy, sənin başına ildırım düşməsin, Camal! – deyə əlini dizinə çırpdı. – Ə, siz nə iş görmüsünüz?! Vay dədəm vay! Komamı dağıdacaqlar, Allah!

- Səs eləmə arvad, qonşulardan eşidən olar.

- Ə, sən dəli olmusan… Ə, bəylə nə işin vardı?!

- Onu cəhənnəmə vasil eləmək fikri məndə çoxdandı. Amma götür-qoy eləyirdim. Növrəstənin abrını, ismətini alandan sonra, namus məni boğdu. Daha bu qədər dözmək olmazdı… Mən Nəcəfin qisasını aldım. Kürəyimdə yeri zol duran qamçıların heyfini balta ilə ondan aldım. Növrəstə, namusunu ləkələyən Baxış bəyin qarnını deşdi. Çox iyid qız imiş, mən onu belə ürəkli bilməzdim. Anasının südü halal olsun!

- Vallah, matım-qutum qurudu! Bəs Növrəstə nə oldu?

- Aparıb Gödəklərdə, bacımgildə qoydum. Tapşırdım ki, ondan muğayat olsun. Bəyin öldürülməsini özüm gedib qardaşı Ağa bəyə xəbər verəcəyəm.

- Bıy, başına od ələnməsin! Ə, deyirsən, qarğa məndə qoz var?.. Öz dilinlə başına xata açırsan?! Mənə deyirsən «bu işi gizlin saxla», özün gedib aləmə küy salırsan! Vallah, sən çaşbaş vurursan…

- Çaşbaş vurmuram, arvad. Özüm desəm, şübhə mənə getməz, başa düşdün? Deyəcəyəm bu səhər zəmini biçəndə, bəyin meyitini gördüm. Əgər, işdir,

gümanları Növrəstəyə getsə, onu da tapa bilməyəcəklər. Sən öz yerində sakit ol, dəvə gördüm, qığını görmədim, vəssalam!..

Ərlə arvadın söhbəti xeyli çəkdi. Gün çıxhaçıxda Camal yuxuya getdi.

…Dünən gecədən kürkünə birə düşmüş Tükəzban nə edəcəyini bilmirmiş kimi həyətdə dümələnirdi. Ona elə gəlirdi ki, camaat deyəcək: «Cidanı çuvalda gizlətmək olmaz. Biz hər şeyi bilirik. Get, ərini oyat, başını götürüb bir yerə qaçsın, yoxsa, işi çox pis olacaq!»

Tükəzban evə girdi, döşlüyünü düyü sılıfı ilə doldurub qayıtdı: «cü… cü… cü…» deyə-deyə sılıfdan bir ovuc yerə səpdi. Onun səsini eşidən toyuqlar, cücələr, hərəsi bir tərəfdən qaça-qaça gəldi. Bəzisi qabağına düşən dənləri bir-bir dimdiyinin ucunda götürür, bəzisi öz «payını» yedikdən sonra, başqasının qabağındakı dəni götürmək üçün onu, bunu dimdikləyir, böyrü ilə kənara itələyirdi. Elə toyuq da vardı ki, dəni özü yemir, götürüb cücəsinin qabağına qoyurdu. Tovuz quşu kimi müxtəlif rənglərlə bəzənmiş quzu boyda xoruz isə gah dənləyir, gah aciz toyuqların başına dimdik çalır, gah qanadlarını sallayıb anac toyuğun ətrafında fırlanırdı.

Tükəzban dənin hamısını səpdi. Süpürgəni götürüb həyəti süpürməyə başladı. Bu zaman Yusif gəldi, Tükəzbana salam verdi. Tükəzban ona xoş gəldin eləyib, kefini soruşdu.

Yusif gedib çardağın dibindəki daşın üstündə oturanda, Tükəzban soruşdu:

- Bala, niyə axsayırsan?

Yusif yekə, qıllı papağını başından götürüb dizinə keçirtdi, alnının tərini sildi və köksünü ötürüb dedi:

- Qıçıma dəhrə dəyib, Tükəzban xala. Neçə gündür ki, yerdə yatırdım.

Yusif başına gələn işləri qısaca danışıb axırda dedi:

- Daha işləyə bilmədim. Ağam dedi: get, mənə lazım deyilsən…

- Ay yazıqlar, qaragünlülər! – deyə Tükəzban dərindən köksünü ötürdü. – Allah heç sizin üzünüzə baxmır…

- Hə, baxmır, Tükəzban xala… Gəldim yenə bacımın yanına. Növrəstəni hələ görməmişəm. Dedim, siftə sənə, Camal əmiyə baş çəkim, sonra gedib Növrəstəni bəygildə görərəm.

Tükəzban onun yanında oturub dedi:

- Növrəstə bəylikdə yoxdur, onlara getmə.

- Bəs hardadır? Onu da çıxardıb qovublar?

Tükəzban cavab vermədi. Yusifi fikir götürdü. Yenə soruşdu:

- Hardadır? Barı kənddədirmi? Olmaya, onun da başında bir xata var? Sən Allah, Tükəzban xala, gizlətmə. Axı mənim bacımdan başqa heç kəsim yoxdur…

Tükəzban Növrəstənin başına gələnləri deyib Yusifin ürəyini sıxmaq, qol-qanadını sındırmaq istəmədi.

Birdən alçaq divarın o tərəfindən adam başı göründü. Adam yəqin ki, nabələd idi: gah boylanıb həyətə baxır, gah geri çəkilirdi. İndi kölgədən də şübhələnən Tükəzban onun kim olduğunu soruşub bilmək üçün həyətdən çıxdı.

Camal çardaqdan aşağı endi. Yusif onu görən kimi ayağa qalxıb salam verdi. Camal onun kefini soruşdu. Yusif Növrəstə barədə söz açmaq istəyəndə, Camal ərk ilə dedi:

- Hələ get aftafanı içərindən su ilə doldur gətir, bir əlimi yuyum, sonra danışarıq.

Yusif qapıya tərəf yönəldi.

- Ə, dayan! – deyə Camal ona yaxınlaşdı, - hələ yaran sağalmayıb?

- Yox. Məni ağa evdən qovdu… Dedi: işə yaramırsan.

- Hə-ə! Neynək, fikir eləmə. Get!

Yusif getdi.

- Eh, xata-bala bir-birinin dalınca gəlir. Çarxın çevrilsin, ay belə dövran!..

Tükəzbanla Rüstəm həyətə girdilər.

Tükəzban:

- Bizə qonaq gəlib, Camal, - dedi. – Nəbi dayıgilin qohumudur. Deyir: Növrəstənin, Yusifin dayısıyam.

Camal Rüstəmə tərəf addımlayıb:

- Xoş gəlmisən! – dedi və onunla əl tutub evə dəvət elədi.

- Yaxşı olardı ki, bizim qohumların olduğu evi mənə göstərəydiniz. Çoxdan görməmişəm, bərk darıxıram. Mənə Comərd dedi ki, Nəbigil sizin tövlədə olurlar. Odur ki, mən elə kəndlilərdən sizin evi soruşub gəldim.

- Yaxşı eləmisən, buyur içəri, otur, bir az dincəl, sonra qohumlarını görərsən…

Onlar evə sarı getməyə başladılar. Qapıya beş-altı addım qalmış Yusif içəridən çıxdı. Rüstəmi görəndə, bir an təəccüb içində qaldı, sonra sevindiyindən aftafanı yerə atıb:

- Dayı! – deyərək, ona sarı qaçdı.

Rüstəm:

- Yusif! Can bala! – deyib onu qucaqladı, öpdü…

Yusif sevincindən ağladı. Öz ürəyinin də kövrəldiyinə baxmayaraq, Rüstəm bacısı oğlunu sakit edə-edə onunla bərabər içəri girdi.

Müəllim Rüstəm də qaçqınlıq müddətində rahat yaşamamışdı. Bir neçə ay dostu Vəlinin evində qonaq kimi qalmışdı. Bir tərəfdən bekarçılıq onu darıxdırmış, o biri tərəfdən, dostu olsa da, başqasının evində aylarla yaşamaqdan xəcalət çəkmişdi. Rüstəm çox fikirləşdikdən sonra Bakıya gedib, orda işə girmək qərarına gəlmişdi. O, bu fikrini Vəliyə də demişdi. Vəli hörmət və səmimi dostluq əlaməti olaraq, onun getməsinə razılıq verməmişdi. Ancaq Rüstəmin fikrinin qəti olduğunu görüncə, daha etiraz etməmişdi. Ona bir müddət yaşamaq, xərcləmək üçün pul, hətta bir neçə qızıl verib yola salmışdı.

Rüstəm çox çətinliklə gəlib Bakıya çıxmışdı. Bir aya qədər Bakıda «Dağıstan» mehmanxanasında yaşamışdı.

Bir kənd müəlliminin ilk dəfə gördüyü bu böyük, sənaye şəhərinin uca, yaraşıqlı binaları, geniş küçələri, dənizi, bulvarı, restoranları, ümumiyyətlə zahiri dəbdəbəsi çox xoşuna gəlmişdi. Kəndin nə qədər geri qaldığını indi bir daha təsdiq eləmişdi. Hətta, belə gözəl şəhərdə deyil, indiyə kimi ucqar və mədəniyyətsiz bir kənddə yaşadığına təəssüflənmişdi. Ona elə gəlmişdi ki, Bakıda yaşayan adamların hamısı qəmsiz, kədərsiz, xoşbəxt adamlardır. Ona görə də, həmişəlik Bakıda qalıb bir məktəbdə dərs demək onun ən böyük arzusu olmuşdu. O, bu məqsədlə Maarif Nazirliyinə müraciət etmiş, lakin şəhər məktəblərinin heç birində yer olmadığını

ona söyləmişdilər. Bakıdan ayrılmaq istəməyən Rüstəm, yüngül bir qulluq, kiçik bir məmurluq vəzifəsi axtarmağa başlamışdı. Lakin Müsavat idarələrində bunu da tapa bilməmişdi. Bu vəziyyət onu darıxdırmış, onda bir növ ümidsizlik hissi doğurmuşdu. Bunun nəticəsində, zahiri gözəlliyi ilə Rüstəmi özünə cəlb edən şəhər, onda başqa fikirlər oyatmağa başlamışdı. Bekar qaldığı günlər Rüstəmi şəhər həyatına bir qədər dərindən bələd olmağa məcbur eləmişdi. O, küçələrdə, bulvarda dilənçiləri gördükcə iki-üç mərtəbəli evlərdə deyil, qaranlıq, nəm zirzəmirlərdə yaşayan yoxsulları müşahidə etdikcə; işsiz, avara adamların çörək, dolanışıq üçün özlərini ora-bura vurmalarını bildikcə, Bakıda bir-birinə əks duran iki həyat olduğunu yəqin etmişdi.

Şəhərdən ümidini üzmüş Rüstəm Sabunçuya getmişdi.

Zəngəzurdan, elə Şəkinin özündən orada bir çox adamın yaşayıb, fəhləlik elədiyi ona məlum idi. Sabunçuya getməsində də məqsədi onların vasitəsilə münasib bir iş tapmaq idi.

Rüstəm, əlbəttə, öz yerlisi olan fəhlələrlə görüşmüşdü. Oruc adlı birisi onu öz mənzilində saxlamışdı. Lakin qulluq üçün hansı mədənə, hansı yerə getmişdisə, kor-peşman qayıtmışdı…

Bir gün təsadüfi olaraq, Comərdlə Qiyası Orucgildə görmüşdü.

Söhbət zamanı o, Bakıda «iki həyat» gördüyünü onlara söyləmişdi.

Rüstəmin gələcəkdə cəmiyyət üçün faydalı bir adam olacağından ümidini kəsməmiş Comərd, onu fəhlələrin həyatı ilə ətraflı tanış eləmişdi. Fəhlələrin işlədiyi mədənlərə, emalatxanalara, onların bəzi yığıncaqlarına aparmışdı. Bakı fəhlələrinin arzusu, mübarizəsi, məqsədi ona tamam aydın olmuşdu. Rüstəm başa düşmüşdü ki, müxtəlif millətlərdən olan Bakı proletariatı ordusu Müsavat quruluşuna, Müsavat hökumətinə qəti zərbə endirməyə hazırlaşır.

Comərd yenə Rüstəmin də mübarizəyə qoşulmasını məsləhət görərək demişdi:

- Sənin Bakıya gəlməyin pis olmadı. Böyük şəhərlər adamın gözünü açır… Özün dediyin kimi, burda bir-birinə zidd olan iki həyat, iki dünya gördün. Bu vəziyyəti sən kənddə də görmüşdün. Lakin o zaman onun ziddiyyətini, mahiyyətini lazımi qədər dərk eləyə bilmirdin. Bolşeviklərin, yoxsulların Hacı Atakişilərə, Əmirlərə qarşı apardıqları mübarizədən yaxanı kənara çəkirdin… Sən burda mədən, fabrik, zavod sahiblərinin fəhlələri necə istismar elədiklərini, Bakı neftinin kimləri milyonçu, kimləri dilənçi elədiyini bildin, öyrəndin… Mübarizə Alovu sönməyib, Rüstəm. O, getdikcə qızışır. Zaqafqaziya proletariatı, yoxsul kəndlilər öz arzularına çatmayınca, müsavat, daşnak, menşevik quruluşu fəhlə-kəndli hökumətilə əvəz edilməyincə, bu mübarizədən əl çəkməyəcəklər. Bildinmi, Rüstəm? Bizim mübarizəmiz Həkəri-Bərgüşad kəndlərində, Zəngəzur dağlarında, Qafan meşələrində olmalıdır. Mən özüm də Qiyasla bərabər, tezliklə kəndə qayıdacağam. Şahmərdan Qubatlıya getdi. Yeznən Nəbi və bacın uşaqları orda yaşayırlar. Çoxdandır onlardan xəbərin yoxdur. Sən də onların yanına get. Hamımız bir yerdə olsaq, qüvvələrimizi birləşdirsək, yaxşı olar. Bakıda işsiz, sərgərdan gəzməyin daha mənası yoxdur…

Comərdin sözləri, başı daşdan-daşa dəymiş, həyatın ağırlığını kürəyində hiss etmiş Rüstəmin qulağında bir həqiqət kimi səslənmişdi. O, artıq kəndə qayıtmağa məcbur olmuşdu.

…Yusif və Camal hər şeyi Rüstəmə danışdılar.

Nəbinin ölümünü, Növrəstənin başına gələn qəzanı, Yusifin vəziyyətini, Şahmərdanın öz arvadından üz döndərib getməsini bilən Rüstəm sarsıldı.

Rüstəmə və Yusifə az-çox təsəlli verən, Baxış bəyin öldürülməsi oldu. Rüstəm, həqiqi namus sahibi olan Camalla gələcəkdə əlaqə saxlamağı öz-özlüyündə qərara aldı.

Camalın təkidinə baxmayaraq, Rüstəm o kənddə bir gün də qalmadı. Gödəklərə getmək, Növrəstəni oradan götürüb dağbasar kəndlərin birinə aparmaq üçün Yusiflə birlikdə yola düşdü.

…Camal o günü bəyin öldü xəbərini heç kəsə demədi. Gecəni səksəkəli yatdı. Səhər oldu, yenə bir söz söyləmədi.

İki gündən bəri Baxış bəyin və Növrəstənin evə gəlməməsi bəy ailəsində şübhə və narahatçılıq yaratdı. Bəyin nökərləri atlanıb bağları, dəyirmanı, Yazı düzünü, güman gedən kəndləri axtardılar. Nubar Növrəstənin yerini Camalın arvadından soruşdu. «Bəyin kənizinin yerini biz nə bilək?.. Siz də özünüzə iş tapmışsınız, bizim üstümüzə qaçırsınız; xata olmadı ki, o qaçqınlara rəhmimiz gəldi, bir tövlə bucağı verdik…» deyə Tükəzban cavab verdi.

Üçüncü gün, səhər Camal kəndin aşağısından qaça-qaça gəlib bəyliyin darvazasına çatdı.

- Ay Ağa bəy ağa! Ay Aftab xanım! – deyə qışqırdı.

Qardaşını harda axtarıb tapmağı fikirləşə-fikirləşə həyətdə gəzinən Ağa bəy bayıra çıxdı.

- Nə var, a Camal? – deyə ona yaxınlaşdı.

Camal töyşüyə-töyşüyə dedi:

- Ağa, əvvəla salaməleyküm. Ağa, ikinci dilim, ağzın qurusun… Ağa, bu xəbəri gərək mən gətirməyəydim. Amma neyləyim… Getmişdim zəmimi biçməyə, bir də nə gördüm… Ağa, dilim gəlmir… Gördüm Baxış bəy ağa tirəmeş uzanıb taxılın içinə. Dedim, bəlkə yatıb, gördüm yox, ölüb… Düz götürüldüm kəndə… Vay ağa, vay! Evimizi yıxan, ağa vay!..

Ağa bəy bir qədər yerində donub qaldı… Camala heç bir söz deməyib evə qayıtdı…

Bəy ailəsinə şivən düşdü. Kənd bildi. Hamı yığışıb gəldi. Həyət, ev adamla doldu… Baxış bəyin öldürülməsi bir çoxunu sevindirdi…

Ağa bəy kağız yazıb, nökərlərin birini Dondarlıya, pristavı çağırmağa göndərdi. Özü, Camal və bir neçə kəndli ilə bərabər zəmiyə getdi.

…Meyiti evə gətirdilər.

Aftab xanımın, Şölə xanımın səsindən qulaq tutulurdu. Bir neçə saatdan sonra pristav iki strajniklə gəldi. Əli Sadiqi Ağa bəyə öz təəssüfünü bildirib, əhvalatla müxtəsər tanış olduqdan sonra, meyitə baxdı. Hardan yaralandığını və ona tədqiqat üçün lazım olacaq bəzi şeyləri dəftərcəsinə qeyd etdi. Ağa bəyi və strajnikləri götürüb ölüm hadisəsi baş vermiş yerə getdi. Zəmiyə tökülmüş qana, rədlərə baxdı. Zəminin Camalın olduğunu öyrəndi. Yenə nə isə dəftərcəsinə yazdı.

Satrjnikin qayışını açdırıb aldı. Rədlərin enini, uzununu ölçərək, qayışı cibinə qoydu.

Pristav Ağa bəydən, kimdən şübhəli olduğunu, kimi tutmaq lazım gəldiyini soruşdu. Ağa bəy heç bir cavab verə bilmədi. Ancaq öz ürəyində dedi: «Onu istəməyən məyər, birdir, ikidir? Bütün kəndi özünə düşmən eləmişdi».

Pristav kələfin ucunu tapmaq üçün zəmi sahibi olan Camalı həbs eləyib strajniklərin qabağına qatdı.

Tükəzban, atın döşündə, qolu bağlı gedən ərinin dalınca, başına, dizinə döyə-döyə ağlayırdı.

Əli Sadiqi əllərini dalına qoyub, otaqda gəzinə-gəzinə fikirləşirdi: «Bu xarabanın hər bucağından gündə bir bəd xəbər eşidirsən… Biri oğurluq eləyir, biri arvada sataşır, biri adam öldürür… Mən bu cəhənnəmdən nə vaxt başımı götürüb qaçacağam. Yox, mən bu it peşəsinə alışa bilməyəcəyəm. Qəza naçalnikinə gərək ikinci dəfə ərizə verəm ki, məni azad eləsin. Hərçənd, üstümə bağıracaq, qoy bağırsın. Mən canımı çöldən tapmamışam ki… Ailəm qalıb Gəncədə, özüm burda… Eh, Allah kəssin belə vəzifəni! Özümü Bakıya sədr-əzəmin yanına salsam, məni böyüdər, kəndlərin kirindən-pasağından, bitindən-sirkəsindən canımı qurtarar. Mən nə üçün pristavlığa razı oldum, heç özüm də bilmirəm… Qərəz…».

Əli Sadiqi stolun dalına keçib oturdu, dirsəklərini köhnə stola, çənəsini isə bir-birinə darağladığı əllərinin üstünə qoyub yenidən fikrə getdi: «…Qatili necə tapaq? Kəndli-kütlüdən biri öldürülsə idi, qanını batırardım… Axı, ölən Baxış bəydir. Bu xəbər hər yerə yayılıb. Özü elə bir əhəmiyyətli adam olmasa da, hökumətdə sayılan qardaşları var. Qatili tapmasam, onlar məni pis günə sala bilərlər… Heç kəsə də güman getmir. Camal da boynuna almır ki, almır. – Əli Sadiqi dəftərcəsini cibindən çıxarıb yazdıqlarına baxdı. – Gərək zənnim məni aldatmasın: Baxış bəyi öldürən iki adamdır: biri ayağı çarıqlı, biri ayağı yalın. Mərhuma vurulan yaralar da onu sübut edir. Onun qarnını ya bıçaq, ya xəncərlə deşmişlər. Başını isə ağır və iti bir şeylə bölmüşlər. Yaxşı, neyləyim? Camalın boynuna qoymaq üçün elə sübutum, dəlilim yoxdur. Hər halda, yenə onu çağırıb, qısnamalıyam».

Əli Sadiqi qapıda duran strajnikə Camalı gətirməsini əmr elədi. Strajnik getdi, bir neçə dəqiqədən sonra, Camalı qolu bağlı gətirib otağa saldı, özü bayıra çıxıb qapının yanında dayandı.

Əli Sadiqi stuldan qalxmadan gülə-gülə dedi:

- Camal Allahyar oğlu, kefin necədir?

- Dustağam, ağa pristav.

- Dustaq olduğunu bilirəm. Kefini soruşuram. Görürsən, mən necə pristavam? Dustağın kefini soruşuram. Səni beş dəfə danışdırmışam, elədirmi?

- Bəli, on beş gündə – beş dəfə.

- Səni döyməmişəm ki?

- Xeyr.

- İndi görürsən necə pristavam? Dustağı döymərəm. Amma dustaq da gərək mənə hər şeyi düzgün danışsın. De görüm, sənin neçə cüt çarığın var?

Camal pristavın bu axmaq sualına gülmək istədi, lakin özünü saxlayıb cavab verdi:

- Bir cüt.

- Sağ ayağını qaldır yuxarı.

Camal ayağını qaldırdı. Əli Sadiqi stolun eşiyindən rədləri ölçdüyü qayışı çıxarıb, onun ayağının altını ölçdü. Camalın üzünə dik baxıb:

- Aydındır!.. – dedi. – Baxış bəyi öldürənin biri sənsən! Zəmiyə düşən rəd sənin ayağının rədidir. De görüm, yoldaşın kim idi? O ayaqyalın imiş… O da mənə bəllidir. Ancaq sənin nə qədər doğru danışdığını bilmək istəyirəm. De görüm, o ayağı yalın adam kim idi? Onu da bil ki, daha hər şey mənə aydındır. Düz danışsan, bu işi mən ört-basdır eləyə bilərəm. Çünki sən öz düşmənini öldürmüsən. Düşməni öldürmək kişilikdir. Mən belə qoçaq adamları qıyıb qazamatlarda çürütmərəm, hə, danış!

- Pristav ağanın bu şirin canına and olsun ki, mənim bu işdən xəbərim yoxdur. Necə əvvəllər demişəm, indi də öz sözümün üstündə dururam. Qaldı ayaq, rəd… ağa pristav özü yaxşı bilir ki, adamların hamısının ayağı biri-birinə oxşayır. Çarıq geyən elə bir mən deyiləm ki… Qaldı, deyirsən, Baxış bəyi öldürən guya iki adam olub. Nə bilim, bəlkə beş adam olub?.. Baxış bəyin kəndlərdə düşməni azdırmı?..

Əli Sadiqi yerindən qalxdı, bir qədər səsini ucaldaraq dedi:

- Demək, yenə boynuna almırsan?

- Pristav ağa, yəqin sən Ağa bəyi danışdırmısan. O, deməyibmi ki, bəyin ölümünü mən, Camal Allahyar oğlu, gəlib ona xəbər vermişəm. Axı sənin başın var, pristav ağa! Necə ola bilər ki, mən bəyi öldürəm, özüm də gələm xəbər verəm? Heç ağıla sığan işdir?

Əli Sadiqi qışqırdı:

- Bilirəm hiyləni! Sən bunu qəsdən eləmisən. Heç kimdə şübhə yaratmamaq üçün eləmisən. Daha bilməmisən ki, arvadın Tükəzban, kürəyinə beş qamçı dəydikdən sonra, sənin cinayətini açıb deyibdir. Nə vaxt və kim ilə öldürdüyünü yerli-yataqlı söyləyib.

Camalı fikir apardı: «Doğrudan Tükəzban deyib? Bəlkə onu döyüb-öldürüb, zorla dedirdiblər?»

- Hə, dustaq Camal Allahyar oğlu, yoldaşın kim idi? De, qorxma, bu işi elə batıracağam ki, fələyin də xəbəri olmayacaq.

- Dedim ki, heç nədən xəbərim yoxdur.

- Bəy öldürülən gecədən onun qulluqçusu Növrəstə də yoxa çıxıb. O arvad qabaqlar sənin evində yaşayırmış. Kənddə səndən yaxın adamı yoxdur. İndi açıq de görüm o hardadır?

- Nə bilim hardadır, adam güdmürəm ha…

Əli Sadiqi bərk hirsləndi:

- Dəyyus, arvadın yalan deyir? Növrəstəni harda gizlətmisən?

Camal dillənmədi.

- Görürsənmi, hökumətdən gizli heç bir şey qalmayıb… Mənə ancaq o lazımdır ki, mərd-mərdanə deyəsən: «Bəli, pristav ağa, Baxış bəy qardaşımı öldürmüşdü, məni dəfələrlə döymüşdü, ona görə mən də ondan öz qisasımı aldım. İndi məni bu xatadan qurtar!» Bu sözü de. Səni bu saat, elə indicə evinə buraxmasam, kişi deyiləm. Hə, dillən!

Camal pristavın dediklərindən onun bəzi şeyləri bildiyini yəqin elədi. Tükəzbanın ağzı yırtıqlıq eləməsinə inanmadı.

- Əşi, heç nədən xəbərim olmaya-olmaya nə deyim axı?

Əli Sadiqi qamçını çəkməsinin boğazından çıxardaraq, ona yaxınlaşdı və şallaqlamağa başladı:

- Zəhrimar de, çor de! Köpək oğlu, danış görüm Baxış bəyi niyə öldürmüsən? Niyə mahalı kor qoymusan?..

- Vur, pristav ağa, vur! Sən adam döyməzdin, məni döy, öldür!..

- Köpək oğlunun kinayəli sözlərinə bax!

Pristav şallağı bir neçə dəfə onun sifətinə çəkdi. Qolları arxada bağlı Camal başını o yana, bu yana döndərməkdən başqa heç nə eləyə bilmədi.

Pristav qapını açıb strajnikə dedi:

- Get bunun arvadını gətir!

Çox keçmədi ki, strajnik başı çadralı, üzü-gözü örtülü bir arvadı içəri saldı.

- Gəl, burda otur, bacı! – deyə Əli Sadiqi ona yer göstərdi. – Ancaq mən nə soruşsam ona cavab ver.

Arvad bir küncdə oturdu.

- Sənin ərin Camal Allahyar oğlu ki, bu saat mənim dustağımdır, Baxış bəyi gecə öldürdü, eləmi?

Arvad başı ilə təsdiq işarəsi verdi.

- Ay sağ ol, bacı! Sənə ikicə sualım da var. Ərinin yoldaşı da vardı, eləmi?

Arvad yenə başını tərpətdi.

- Gördün? Daha bir sözün yoxdur?

- Nə gördüm, nə eşitdim. Tükəzban, səsini niyə çıxartmırsan? Üzünü niyə örtmüsən?

Əli Sadiqi tez dilləndi:

- Birinci dəfə onu danışdıranda, düzünü demədi, ona görə də bərk döyüldü, üz-gözü yaralıdır. – Əli Sadiqi üzünü arvada sarı tutub soruşdu: - Ərin düşmənçilik məqsədi ilə bəyi öldürdü? Hə?!

Arvad yenə başını tərpətdi.

- İndi nə sözün var, Camal Allahyar oğlu? Baxış bəyi gecə öldürdüyünü danmırsan ki?

- Mənim arvadım pristav ağanın hər sözünə başıyla «hə» dedi. Amma onu demədi ki, Baxış bəyi öldürən həm mənəm, həm də sən, pristav! Sən, Əli Sadiqi!..

- Necə? Bu nə sözdür danışırsan? İt oğlu!

Əli Sadiqi Camalın üzünə bir neçə şallaq çəkdi. Camal elə bildi ki, gözləri töküldü. Üzünü çevirib başını divara söykədi.

- Apar bunun arvadını, - deyə Əli Sadiqi strajnikə əmr elədi.

Strajnik arvadı apararkən, Əli Sadiqi onu saxlayıb dedi:

- Əvvəlcə manqalı, şişi gətir! Gərək bunun gözlərini dağlayam ki, düzünü desin.

Strajnik arvadı apardı.

- Hə, boynuna alırsanmı? Almasan, iki gözünü də dağlayıb, səni dünya işığına həsrət qoyacağam. Özünə yazığın gəlsin. De!

Camal sorğu-sualın çox gərgin bir şəkil aldığını və pristavın nə istəsə eləyəcəyini görüb, özünü dəliliyə vurdu. Bayırdakı strajniklər də eşitsinlər deyə ucadan qışqırdı:

- Deyim, pristav! Başını yeyim, pristav. Bəyi öldürən pristav!.. Şölə xanıma əl atan pristav!.. Ha… ha… ha…

- Kəs səsini, heyvan! – deyə pristav onu qamçının altına saldı.

Camal atılıb düşə-düşə yenə çığırdı:

- Bizim zalım pristav!.. İt olubdur pristav! Ham… ham… ham…

Əli Sadiqi qapıya tərəf getmək istədi. Lakin Camal «ham… ham… ham» deyə-deyə onun qabağını kəsdi. Əli Sadiqi bir qədər qorxdu, ona elə gəldi ki, Camal bu saat onu parçalayacaq.

- Strajnik! Strajnik!

Pristavın əvvəlcə öyrədib hazırladığı strajnik arvad paltarını soyunub, üzünü açıb gəldi.

Camal isə bir ayağı üstə atılıb düşə-düşə deyirdi:

- Qan axıdan pristav, haqqışda! Əppək yapan pristav, haqqışda! Bəyi öldürən pristav, haqqışda! Pristav ha…

Strajnik çiyinlərini çəkib təəccüblə dedi:

- Ağa, bu ki, dəli olub!..

Camal qəhqəhə ilə güldü, sonra Əli Sadiqinin pencəyinin ətəyindən dişi ilə yapışdı.

Strajnik dərhal onu geri çəkib dedi:

- Ağa, canına and olsun, dəli olub…

- Apar bunu!

Strajnik Camalı itələyib bayıra saldı. Camalın səsi kəsilmədi. Dediyi sözləri zirzəmiyə çatana qədər təkrar elədi.

Hirsindən bədəni titrəyən Əli Sadiqi otaqda gəzinə-gəzinə dedi:

- Millətimdən biri də dəli oldu… Kaş hamısı dəli olaydı. Lənət çox pristav olub ölənə!

O, dayanıb öz-özünə sual verdi:

«Mən Baxış bəyin qatilini necə tapacağam? Bəlkə, doğrudan da Camalın bu işdən xəbəri yoxdur? Bəs niyə Ağa bəy ikinci söhbətimizdə dedi: «Mən Camaldan şübhələnirəm». İndi o dəlini mən buraxımmı?»

## Səkkizinci fəsil

Karo «Milli Şuranın» iclasında bir saatdan artıq idi ki, danışırdı. O, getdikcə qızışır, özünü mənalı, məntiqli danışan bir natiq kimi göstərmək istəyirdi. Otaqda oturanlar ona sakit qulaq asırdılar. Karo üzünə tökülmüş saçlarını başının kəskin hərəkəti ilə geri atıb dedi:

- Ağalar, erməni hökumətimizin, o cümlədən Zəngəzur Milli Şurasının qarşısında duran, təxirəsalınmaz məsələlərdən, mən bir general-qubernator kimi sizə danışdım. Ona fəxr etməliyik ki, erməni milləti öz hakimiyyətini yaradıbdır…

Biz getdikcə möhkəmlənirik. Ağac kimi hər yana kök salırıq. Zəngəzurda Milli Şuranın yaranması buna sübutdur. Bu Şurada oturanlar qəzanın hörmətli, dövlətli adamlarıdır, yəni sizsiniz, ağalar! Sözüm bunda deyil. Onu demək istəyirəm ki, biz dəryada bir tək ada kimi deyilik. İndi bizi dünyanın nəhəng hökumətləri tanıyır. Öz fikrimizi, məqsədimizi yerinə yetirməkdə dostlarımız da az deyil. Məsələ, Şimali Qafqazdakı «Könüllü ordunun» generalı cənab Denikin yaxın dostumuzdur. Nə qədər ki, mənə məlumdur, onun Ermənistanda, eyni zamanda, Ermənistan hökumətinin də general Denikinin ordusunda nümayəndəsi var. Əgər sabah bizə bir yandan təhlükə üz versə, «Könüllü ordu» sel kimi axıb köməyimizə gələcək! Bu belə! İkinci tərəfdən dalımızda ingilislər, amerikalılar, fransızlar möhkəm durublar. Eyni zamanda, bu Avropa hökumətləri general Denikin və Kolçakla da sıx əlaqədədirlər.

Oturanlardan kimsə sual verdi:

- Dediyin hökumətlərin və generalların müsavatçılarla, menşeviklərlə əlaqəsi varmı? Onlara da kömək eləyirlərmi?

- Bəli. Amma nə üçün kömək eləyirlər? Onun üçün ki, Rusiya inqilabı, qırmızı inqilab Zaqafqaziyaya gəlməsin. Onun üçün ki, siz dövlətli və mülkədar ağaların malı-torpağı əldən getməsin. Bizim ingilis, amerikan, fransız dostlarımız çalışırlar ki, bolşeviklərin qırmızı inqilabı elə Rusiyada boğulsun. Bizim də məqsədimiz budur. Müsavatçıların, menşeviklərin də fikri belədir. Məhz bu cəhətdən bizimlə Azərbaycan və Gürcüstan hökumətləri arasında birlik var. Bizim dostlarımız da Zaqafqaziya hökumətlərinə köməyi ancaq buna görə eləyirlər. Onu da deyim ki, onlar olmasalar, nə biz hakimiyyət başında dura bilərik, nə müsavatçılar, nə də menşeviklər. Bolşeviklərin sözü ilə oturub-duran fəhlə-kəndlilər tükümüzü didərlər. Bəli, ağalar, biz də dostlarımızla möhkəm əlaqə saxlayırıq. Təkliflərini yerinə yetiririk. Onlar deyirlər, köhnə qanun-qaydanı saxlayın, biz də saxlayıb möhkəmləndiririk. Hələ üstəlik müsəlmanların hesabına torpağımızı da genişləndiririk. Amma onu deyim ki, bu sahədə görəcəyimiz çox işlər qabaqdadır. Nəhayət, onlar deyirlər ki, bolşeviklərin gərək kökü kəsilsin, biz də kəsirik, onlarla amansız mübarizə edirik, tuturuq, sürgün edirik. Lakin, ağalar, bunu danmaq olmaz ki, hələ bolşeviklərin hamısı tərk olmayıb. Onlar şeytan kimi gözə görünmürlərsə də, əl altından öz işlərini görürlər. Camaatı yoldan çıxarmaq üçün evlərin divarlarına, dükanların qapılarına, ağaclara, hətta, teleqraf dirəklərinə cürbəcür kağızlar yapışdırırlar. Bir baxın, o həyasızlar nə yazırlar. – Karo pencəyinin cibindən bir kağız çıxarıb oxumağa başladı:

«…Kəndlilər, yoxsullar! Daşnak hökuməti dövlətlilərin, meliklərin, mülkədarların hökumətidir. Daşnaklar iş başına gələndən sizin güzəranınız daha pisləşib. Kəndləri aclıq, dilənçilik əldən salıb. Daşnaklar müsəlmanlarla və gürcülərlə davanı kəsmək istəmirlər, əksinə, getdikcə qızışdırırlar. Az-çox taxılınızı, mal-qoyununuzu əlinizdən alıb, qoşuna yedirdirlər. Evdə isə külfətiniz acından ölür. Sizi cürbəcür yalan vədlərlə aldadırlar.» - Karo gözünü kağızdan çəkib, kinayə ilə dedi: - Bəli, cənab bolşeviklər! Biz qoşunumuza çörək də, ət də veririk. Özü də, kəndlilərdən alıb veririk. Yerdən çıxartmayacayıq ki… Amma siz, erməni millətinin qoşun sahibi olduğuna paxıllıq edirsiniz. İstəyirsiniz ki, müsavatçılar və menşeviklər bizim boynumuza minsinlər. Siz ona da paxıllıq

eləyirsiniz ki, ingilis, amerikan, fransız dostlarımız bizə silah verirlər… Elə bir o qalıb deyəsiniz ki, mən, Karo Hamparsumyanın, qəza general-qubernatorunun əynindəki frenç, şalvar niyə ingilis malındandır?!.

Oturanlar gülüşdülər. Karo yenə kağızı oxumağa başladı:

«…Kəndlilər, fəlakət burasındadır ki, ölkədə əkin yerləri azalır, meyvə bağları tələf olur, cüt, kotan və başqa təsərrüfat alətləri getdikcə azalır…».

Kimsə yerindən dilləndi:

- Doğrudur, düzdür. İldən-ilə əkin yeri azalır…

Karo gözünün altınca oturanlara baxıb:

- Qulaq asın! – deyə yenə oxumağa davam elədi:

«…Siz yoxsullar, uşağınızın göz yaşını bir parça çörəklə qurutmaq üçün, torpağınızı satmağa məcbur olursunuz…».

Qabaqda oturan qara arxalıqlı, gümüş toqqalı, yekə bığlı, xınzirəkli mülkədar Manuçar Sarumov Karonun sözünü kəsib ucadan dedi:

- Hörmətli general-nahankapet, bolşeviklər bunu yalan yazıblar. Əvvəla, hansı adam torpağını bir tikə çörəyə satar?.. İkinci, mənim o qədər torpağım var ki, daha dünyanı almayacağam ki…

- Ərə, Manuçar, söhbət səndən getmir, - deyə onun yanında oturan başqa bir mülkədar dilləndi. – Aclığı zarafat bilmə. Kəndli yerini də satar, canı da çıxar. Ərə, elə mənim dayım üç gün bundan irəli Dığ kəndlisinin torpağını almadı?.. Sən öl, Manuçar, beş desyatin yeri ikicə çanaq arpaya aldı…

- Bəli, bəli, bu həqiqətdir! – deyə Arakel onun sözünü təsdiq elədi. – Mənim gözümün qabağında, Arzo adlı bir kəndli öz yerini, bax burda əyləşən Baqrat ağaya üç pud taxıla satdı.

Karo:

- Ağalar, - dedi, - sözümü yarımçıq qoymayın, heç kəs də yerindən danışmasın. Biz burda hökumət, millət məsələsi həll eləyirik… Torpaq satıb, almağın hökumətə dəxli yoxdur. O, kəndlinin öz işidir. İstəyir on desyatin yerini bir girvənkə çörəyə satsın, istəyir torpaq yesin… Görün daha nə yazırlar. – Karo oxudu: «…Millət, millət, deyə döşlərinə döyən daşnak başçılarının hər sözü yalandır. Onlar iş başına gələndə kəndliyə torpaq verməyi vəd etmişdilər. Bəs hanı? Niyə vermədilər? Balıq susuz yaşaya bilmədiyi kimi, kəndli də torpaqsız, əkin-biçinsiz yaşaya bilməz. Bəs, siz yoxsul kəndlilər, ac, çılpaq kəndlilər yeri, öküzü, toxumu hardan almalısınız…».

- Ərə, general-nahankapet, mən ölüm bir dayan! – deyə goruslu, şişman bir tacir Karonun sözünü kəsdi. – Qoy o bolşovoylar torpağı gəlib mənim dükanımdan alsınlar. Ha… ha… ha! Bu Karo Hamparsumyan ağa da hökumətin biri! Onun torpağı var kəndliyə versin…

Otağı gülüş səsi götürdü. Karo isə oxuyurdu:

«…Yoxsul kəndli qardaşlar! Daşnak hökuməti və mülkədarlarla ciddi mübarizəyə girişin! Qorxmayın! Bizim arxamızda inqilabçı Rusiya durub. Zaqafqaziyanın bütün fəhlələri, yoxsul kəndliləri durub! Qardaşlar, Zəngəzur bolşevik təşkilatının ətrafına toplanın».

Gümüş toqqalı, yekə bığlı mülkədar yerindən qışqırdı:

- Burax getsin, sən Allah! Qanımı qaraltma!

Arıq, boynu uzun mülkədar da həyəcanla yerindən qalxıb dedi:

- Güc, ixtiyarat sən general-nahankapetdədir. Nə bilirsən elə! Onların birini sağ qoyma! Bizdən də nə istəyirsən verək. Nə deyirsən eləyək!

Karo:

- Bax, əsl məsələ budur, - dedi. – Mən kağızı qəsdən oxudum ki, düşmənimizi daha yaxşı tanıyasınız. Onları harda görsəniz, yerlərini bilsəniz hökumətə xəbər verəsiniz. Mənim özümün isə, siz ağaların mənafeyini gözləməkdən başqa məqsədim yoxdur. Ağalar, indi keçirəm ikinci məsələyə. Bu barədə çox danışıq aparmayacayıq. Mən ancaq bir məsələni Milli Şura üzvlərinin nəzərinə çatdırmaq istəyirəm. Bu yaxınlarda qoşunumuz hücuma keçəcək. Sərhədimizə yaxın olan müsəlman kəndlərini götürəcəyik. Plan belədir ki, gərək bütün Kürdüstan, Həkəri-Bərgüşad kəndləri bizim əlimizə keçsin, tezliklə Qarabağa girək… Ona görə ayıq olun, bolşeviklərin bu cür kağızlarına inanmayın, hökumət nə istəsə, əsirgəməyin. Onu da deyim ki, Vedi və onun ətrafındakı müsəlman kəndlərinə bu yaxınlarda yaxşı divan tutulmuşdur. İndi o kəndlər də erməni qardaşlarımızın əlindədir. Ölən ölmüş, sağ qalan müsəlmanlarsa, İrana və Naxçıvana qaçmışdır. Belə də danışıq var ki, İravandakı qoşun Naxçıvana hücum eləsin. Nə isə, ağalar, yenə deyirəm: öz hökumətimizə hər zaman kömək eləyin.

Kimsə dedi:

- Qorxma, general-nahankapet, hökumətin dalında dağ kimi durmuşuq. Təki elə bizim qoşunumuz yer alsın, kənd dağıtsın.

- Mənə söz ver! – deyə Arakel Karoya müraciət elədi.

Karo:

- Ağalar, - dedi, - Milli Şuranın hörmətli və ziyalı üzvü doktor Arakel Lalayans danışacaq.

Hamı gözünü Arakelə dikdi. O, ayağa qalxıb dedi:

- Mən siyasət adamı deyiləm. Hamınız bilirsiniz ki, həkiməm. Milli Şuranın üzvü olduğum üçün öz fikrimi burda açıq demək istəyirəm. Bəli, onu demək istəyirəm ki, bu saat dünya dəyib bir-birinə. Rusiyanın mərkəzində fəhlə-kəndli hökuməti qurulub. Bu hökumət üçüncü ildir ki, yaşayır. Amma, bizim Zaqafqaziyada çox qarışıqlıqdır. Burada camaatı, milləti daşnaklar bir yana çəkir, menşeviklər o biri yana çəkir, müsavatçılar da tamam başqa yana çəkir. Bu hal, bu vəziyyət oxşayır rus şairi Krılovun «Balıq, ördək və xərçəng» təmsilinə. Hərə bir tərəfə çəkir, amma araba yerdən tərpənmir. İndi hamı millətin «halına qalır», amma millətin halı heç yaxşılaşmır… Mən bir həkim kimi, kəndləri gəzirəm. Ölən doğulandan çoxdur. Camaat acından və xəstəlikdən qırılır. Ona görə, mənim Milli Şuraya iki təklifim var: hökumət Gorusda bir xəstəxana açsın. Bir də, aclara taxıl paylansın… çox adam ot yeyir… Millət qırılıb gedir. Ona belə gündə əl tutmaq lazımdır.

- Taxılı hökumət hardan alıb paylasın, ay həkim? – deyə kimsə yerindən qışqırdı.

- O adamlardan ki, ambarları, quyuları arpa-buğda ilə doludur, - deyə Arakel cavab verdi. – Əgər millət qədri bilirsinizsə, cibinizin, quyularınızın ağzını gərək açasınız.

Adamların arasında xısın-xısın danışıq başlandı.

- Bu kimi deyir?..
- Niyə belə danışır?..
- Kim öz taxılını ona-buna verər?..

Karo Arakelə qəsdən bir söz demir, daha nə danışacağını maraqla gözləyirdi. Arakel dedi:

- Bəli, biz gərək elə iş görək ki, hamının qarnı doysun, torpağı, inəyi, öküzü olsun; heç kəs qılınc-qalxan götürüb, qonşu kəndləri viran qoymağa getməsin, qan axıtmasın… - Zahirdə sakit, lakin daxildə həyəcanlı olan Arakel bərk öskürməyə başladı. Bu zaman yenə adamların arasında danışıq getdi:

- Ərə, bu həkim, Karonun tərsinə danışdı ki…

- Sən öl, bura gələndə içib, yoxsa, ağlı başında olan adam da belə hörmətli məclisdə bu cür axmaq söz danışarmı?

Karo ayağa durdu. Pərtliyini büruzə verməyib dedi:

- Ağalar, orda pıçıltını kəsin! Doktor, sən də otur! Daha uzun-uzadı nitq eşitməyə vaxt yoxdur…

Arakel keçib yerində oturdu. Keşiş Mesrop ilə yanaşı oturan Baqrat əlini Karoya tərəf uzadıb söz istədi.

Karo dedi:

- Hörmətli adamlarımızdan biri, Milli Şuranın ləyaqətli üzvü Baqrat ağa danışacaq:

Baqrat ayağa qalxıb dedi:

- Ağalar, mən fəxr eləyirəm ki, Milli Şuranın üzvüyəm. Bunu başa düşmək lazımdır ki, bu xoşbəxtlik hər adama qismət olmaz. Amma əfsus ki, hər adam bunu başa düşmür. Elə götürək bizim həkim Arakeli. O, necə ki, həkim – çox yaxşıdır, mənim qızımı da sağaldıb. Amma, düzü, burda bir az alt-üst vurdu. Mən, düzdür, Arzonun torpağını satın almışam. Bundan sonra da alacağam. Bunu mənə kim qadağan eləyəcək… Qaldı aclara taxıl vermək, nə deyim… Kim istəyir versin. Mənim artıq bir saman çöpüm də yoxdur… Mən ancaq qoşun üçün taxıl, ətlik verərəm. Mən razıyam ki, musurman kəndlərini elə bu gün dağıtsınlar. Başa düşmək lazımdır ki, hökumət hər şeyi bizdən yaxşı görür və bilir. Mən sözümü qurtarıb deyirəm, bizim general-nahankapet hər nə desə, ona razıyıq. Çünki onun ayağı biləni bizim başımız bilmir. – O, üzünü Karoya tutub əl çaldı… Başqaları da ona qoşuldu. Giyəvi ilə fəxr eləyən Baqrat oturdu.

Karo:

- Sağ ol, Baqrat ağa! – dedi, - yaxşı danışdın. Ağalar, Milli Şuranın iclasını bağlayıram. Gedə bilərsiniz. Doktor, sən qal!

Adamlar Arakelin üzünə tərs-tərs baxa-baxa, öz aralarında pıçıldaşa-pıçıldaşa çıxıb getdilər.

Karo Arakelə dedi:

- Yaxın əyləş, doktor! Səninlə xüsusi söhbətim var.

Onlar qarşı-qarşıya oturdular. Karo Arakelin üzünə mənalı-mənalı baxaraq dedi:

- Mən səndən belə sözlər eşitməmişdim, doktor… Bugünkü nitqinlə hamını heyran elədin. Çox sağ ol!..

Arakel, Karonun iclası nə üçün tez bağladığını yaxşı başa düşmüşdü.

- Məni axıra kimi danışmağa qoymadın. Elə güman edirəm ki, hər kəs öz fikrini deyə bilər… Bəs Milli Şura nə üçündür!

- Bəli, deyə bilər, amma sən pis başladın, çox pis. Şura üzvləri səndən başqa sözlər, fikirlər gözləyirdilər. Amma sən bir az da danışsaydın, axırda bizi ittiham eləyəcəkdin. Sənin yumşaqlığına, humanistliyinə ehtiyac yoxdur. Biz hakimiyyətimizi qoruyub möhkəmləndirməliyik. Erməni ziyalısı millətin və hökumətin mənafeyini gözləməlidir. Amma sənin sözlərindən belə anlaşıldı ki, müsəlman kəndlərinin dağıdılması nahaqdır, mülkədarlar da öz torpaqlarını kasıblara verməlidirlər… Bizim hökumətdə belə qanun yoxdur… Səni ağıllı bir erməni ziyalısı kimi, ölkədə tanınmış hörmətli bir doktor kimi Milli Şuranın üzvü elədik. Amma sən bu gün bir sosialist, daha doğrusu, bir bolşevik kimi danışdın. Elə bolşeviklər də, oxuduğum kağızlarında sən deyəni demirlərmi? Sənin bolşevik olmadığına heç şübhəm yoxdur. Bəlkə, ürəkdə… Yox, yox, buna da inanmıram. Ancaq belə zərərli fikirləri tamam beynindən çıxartmalısan. Yaxşı, de görək, biz hansı ağanın, mülkədarın taxılını alıb aclara paylaya bilərik? Biz bütün vəsaiti, taxılı qoşunun saxlanmasına sərf edirik. Bizə hərbi qüvvə lazımdır. Bizə Qarabağda qoşun saxlayan müsavatçılara zərbə vuracaq soldat lazımdır. Belə deyilmi, cənab doktor?

Arakel dillənmədi.

Karo sözünə davam elədi:

- Aclıqdan, camaatın ot yeməsindən deyirsən. O bizə məlumdur. Amma nə eləyək? Zəngəzur kəndlisinin qarnı nə zaman doyub ki, biz də doyuraq?! Torpağını kəndlilərə müftə payladığın da mənə məlumdur. Ancaq nə üçün? Kimin xeyrinə bunu eləmisən? Məncə, bir mülkədar oğlunun bu cür səxavət və insanpərvərlik göstərməsi axmaqlıqdır. Qərəz, bir erməni ziyalısı olduğun üçün xatirini çox istəyirəm. Bir də nişanlımı sağaltdığına görə sənə hörmət edirəm.

Karonun danlağını, nəsihətini eşidən Arakel soruşdu:

- Baqratın qızını deyirsən? Xəstəyə müalicə eləmək mənim borcumdur. Qız özü də çox yaxşı qızdır.

- Pis qız deyil. Görürsən, doktor, mən haqqı-sayı itirən adam deyiləm. Ali orqanımıza üzv olmağına səbəblərdən biri də Siranuşu müalicə edib sağaltmağındır. Mən əminəm ki, bir vaxt müsavatçılarla olacaq müharibədə, yaralanan qoçaq erməni əsgərlərini yaxşı müalicə edəcəksən. Bu olacaq sənin millət qarşısında xidmətin!.. Bundan əlavə, ideya cəhətdən sən bir ziyalı kimi mənə kömək eləməlisən. Milli Şuranın savadsız, cahil üzvləri olan mülkədarlar, dövlətlilər, alış-verişçilər hökumətə maddi yardım göstərmək üçün lazımdırlar. Aydındırmı, doktor? Güman edirəm ki, bizim aramızda daha belə söhbətlər olmayacaq. Elədirmi?

- Mənim heç bir sözüm yoxdur.

- Şuranın gələcək iclasında bütün üzvlərdən, yersiz, mənasız danışdığına görə üzr istəyərsən. Yaxşımı?

Kim ilə nə dildə danışmaq lazım olduğunu bilməyən, şöhrətdən başı gicəllənən, ixtiyarat və qulluq cəhətdən özündən kiçik olan adamları bir milçək boyda görən bu kobud general-qubernator Arakelin gözündə nə qədər alçaldı!.. Onun sözlərindən, rəftarından son dərəcə incidisə də, heç bir söz demədi.

Karo yenə amiranə tərzdə soruşdu:

- Doktor, nə fikirləşirsən?

- Nəsihətlərini eşitdim. İndi xalqa yaxşı xidmət etməyi fikirləşirəm.

- Bax, belə ha!.. Ona şadam ki, sözlərim təsirsiz qalmadı. Gedək, doktor!

Onlar qalxıb bayıra çıxdılar.

Qapının dalında dayanmış Aşot Arakelə müraciət edərək dedi:

- Bjişk Arakel əmi, Xınzirəkdən bir adam gəlmişdi, səni çağırırdı…

- Kim idi? Nə istəyirdi?

- Bir kəndli idi, içəri buraxmadım. Deyirdi ki, həkimi aparmağa gəlmişəm. Azarlım var.

- Bəs necə oldu?

- Getdi sizə.

- Görən kimdir xəstələnən?

- Doktor, mənim qapıçım törə Aşot ki, var – heç xeyir xəbər söyləməz… Zalım oğlu bayquşdur… Sən narahat olma. Gedək.

Arakellə Karo getdi.

Aşot Karonun dalınca nifrətlə baxıb dedi:

- Bayquş sənin atandır, özünsən! Meyitini görüm ki, Siranuş sənə də qismət olmayacaq. General-nahankapet olma, lap Allah ol, səni istəyən yoxdur… - O, köksünü ötürüb tüfəngi bir az yuxarı qaldıraraq, dedi: - Dəli şeytan deyir, itin gicgahına bir güllə vur!.. Yox, yox. Mənim işim deyil… Doğrudur, məni incidir, lağa qoyur, amma niyə öldürüm?.. Görən öldürə bilərəm?.. Bunu bacarsam, nə yaxşı ad çıxardaram! Vallah, Siranuş elə sevindiyindən mənə gələr. Axı o, Karonu istəmir… Nə olsun ki, nişanlanıb… Hər adam nişanlısına qismət olmur ki…

Ziddiyyətli xəyallar içində müəyyən bir fikrə gələ bilməyən Aşot tüfəngin qundağını sağ ayağının yanına qoyub, postunda düz dayandı.

Vahanla Suren harada yaşadıqlarını daşnaklara bildirməmək, onların tələsinə düşməmək üçün tez-tez yerlərini dəyişdirirdilər. Gah bu kənddə, gah o kənddə, ürək qızdırdıqları adamların, kommunistlərin evində qalırdılar. Onlar müsəlman kəndlərinin dağıdılması nəticəsində, Comərd və Şahmərdandan ayrı düşdüklərinə təəssüf edirdilər. Lakin, bilirdilər ki, bu ayrılıq müvəqqətidir, yenə birləşərək, bir yerdə mübarizə aparacaqlar. Vahanla Suren və başqa kommunistlər Bərgüşad qəzasının müsəlman kəndlərindəki kommunistlərlə zəif də olsa, əlaqə saxlayırdılar. Onlar bir an da belə inqilabi fəaliyyətlərini dayandırmırdılar; gündən-günə sıraları artan ilk partiya özəklərinə möhkəm arxalanmışdılar. Ancaq bu qüvvənin camaatı ətrafına toplayıb açıqdan-açığa üsyan qaldırması və hakimiyyəti ələ alması hələ tezdi. Daşnak qoşun hissələrinin qarşısında kommunistlər və onlara rəğbət bəsləyən bitərəflər silahsızdılar. Bakı və İravanla əlaqə son vaxtlar zəifləmişdi. Sergey Musatovdan, Qurgendən və həbs edilmiş başqa yoldaşlarından xəbər yoxdur. Lakin bununla belə sabahın qələbəsinə tam inamla baxan Zəngəzur bolşevikləri kəndliləri mənəvi cəhətdən döyüşə hazırlayırdılar.

Vahanla Suren üç gün idi ki, başqa kənddən Xınzirəyə, Hayk Aslanyangilə qayıtmışdı.

Hayk daha Kafan mis mədənində işləmirdi. Fəhlələrin maaşlarının artırılmasını dəfələrlə tələb etdiyi üçün mədən müdiri onu işdən çıxartmışdı. Neçə vaxt idi ki, kənddə öz balaca təsərrüfatında işləyirdi.

Vahanın təsiri nəticəsində bolşeviklərin sırasına təzə daxil olmuş bu gənc və çevik oğlan partiya təşkilatının hər bir tapşırığını yerinə yetirirdi. O, gizli inqilabi işdən xüsusi zövq alırdı…

…Suren ata-anasının, bacısının taleyini düşünürdü. Neçə ay idi ki, onlardan xəbəri yox idi. Ancaq, ürəyində fikirləşirdi: «Yəqin, atamgil yığışıb Gorusa getdilər, məni orda görmədikləri üçün, başqa kəndə yollandılar. İndi mən onları harda tapacağam?!.»

Suren həyətə baxıb tez qayıtdı. Vahana müraciətlə dedi:

- Məncə, yola düşməyimin vaxtıdır. Əl-ayaq çəkilib, qaranlıq düşüb…

Cib dəsmalından dovşan qayırıb Haykın balaca oğlunu mehriban bir baba kimi əyləndirən, güldürən Vahan Surenə tərəf çevrilib dedi:

- Vaxtdır? – O, saatına baxdı, - hə, on birə işləyib. Demək getməyi qət elədin?

- Bəli, danışdığımız kimi.

- Etirazım yoxdur. Neçə vaxtdır evinizdən nigaransan, get.

- Bəli, həm kəndlilərin «payını» verim, həm evimizə bir baş çəkim.

- Hə, ata-ana məhəbbəti böyük və incə məhəbbətdir. Mən axır vaxtlar hiss edirəm ki, sən onların fikrini çox çəkirsən. Get görüş, vəziyyətlərini bil. – Vahan nə isə fikrə gedib, sonra soruşdu: - Ancaq hardan gedəcəksən?

- Yolumu göyşənlərdən salacağam. Əvvəlcə gedəcəyəm Qızılcığa, ordan yenəcəyəm Şəkiyə, ordan da birbaş Əngələvidə. Qayıdan baş Qarakilsədən gələcəyəm.

- Səni tutsalar? Axı yanında kağız-kuğuz olacaq.

- Narahat olma, gecə gedəcəyəm, gündüzlər qayaların taxçalarında, kahalarda gizlənəcəyəm. Belə şeylərdə bir az təcrübəm var… - Suren güldü və Hayka müraciət elədi: - Qardaş, kəndlilərin «payını» gətir.

- Mən də səninlə gedəcəyəm, - deyə, - Hayk yerindən quş kimi sıçradı. – Səni tək buraxmaram.

- Sən hara gedirsən, - deyə Haykın arvadı təəccüblə ərinə baxdı.

Hayk:

- Narahat olma, ay Şuşanik! – dedi. – Sureni tək buraxa bilmərəm. Bir də meydana girdin, gərək kişi kimi girəsən. Hə, biz gələnəcən Vahan dayı ilə söhbət vurun. O, sənin oğluna dovşan qayırsın, sən də ona kartof bişir yesin, süd ver içsin… Hə, belə…

Suren Haykın onunla getməsinə razı olmadısa da, yoldaşlığı, dostluğu hər şeydən uca tutan Hayk fikrindən dönmədi.

Hayk qapını bağladı, paltar yükünün üstünə çıxıb, evin hisli dirəkləri arasından balaca bağlama çıxarıb gətirdi.

- Bir qədər mən götürüm, bir qədər də sən! – deyə bağlamanı açdı.

Suren yalnız üç cümlə yazılmış çağırış vərəqələrindən qoynuna qoydu.

Hayk papağının astarını bir az söküb, vərəqələrdən bir qədər səliqə ilə papağın içinə qoydu, sonra gülə-gülə dedi:

- Bunların yolunda başımı verərəm.

Sanki iki doğma oğlunu müqəddəs bir vəzifəni yerinə yetirmək üçün təhlükəli səfərə göndərən Vahan, Surenlə Haykın boynunu qucaqlayıb dedi:

- Mənim əzizlərim, ehtiyatlı olun, özünüz də çalışın, beş-altı günə qayıdın.

Əvvəlcə Suren evdən çıxdı, sonra Hayk oğlunun üzünə, arvadının gözünə baxıb, bir söz demədən qapıya sarı addımladı.

Vahan özü yazıb şapiroqrafda çap elədiyi vərəqədən birini götürüb ürəyində oxudu: «Mülkədar və dövlətlilərin torpaqlarını təzədən yoxsullar arasında bölmək lazımdır. Daşnak hökuməti torpaqsız kəndliyə torpaq verməyəcək. Kəndlilər, torpaq uğrunda, gözəl yaşayış uğrunda mübarizəyə qalxın!»

Anasının qucağından düşüb Vahanın dizi üstə çıxan uşaq, onun əlindən tutub: «Dovşan, dovşan qayır!» deyə dəsmalı Vahana verdi.

Bir an içində xəyalən dünyaları dolaşan, gənclərə, qocalara, uşaqlara – bütün insanlara səadət arzu edən və məhz bu yolda çalışan Vahan fikirdən ayrıldı. Uşağın şən və gülər gözlərinə baxıb dedi:

- Yaxşı, gülüm. Şuşanik bu vərəqələri yerinə qoysun, mən də sənə dovşan qayırım.

Kommunistlərinin və onun nəcib, mübariz yoldaşlarının sirrini ürəyində möhkəm saxlayan Şuşanik vərəqələrin qalanını yenə götürüb öz yerinə qoydu, qayıdıb gəldi.

Uşaq sevinə-sevinə, gülə-gülə «dovşanın» qulaqlarından tutub oynatmağa başladı.

Şuşanik həmişəki kimi, yatağından erkən qalxdı. «Dovşanını» da qolunun üstünə alıb mışıl-mışıl yatan balaca oğlunun yan-yörəsini basdıraraq evdən çıxdı. Həyəti süpürdü, var-yoxları bircə ala inəyi oxşaya-oxşaya sağdı. Sonra həyətdən çıxarıb, kəndin içində naxıra qoşdu. Qayıdıb ocağı yandırdı, südü qazana töküb odun üstünə qoydu.

Çox keçmədi ki, Vahan da oyanıb həyətə çıxdı, aftafanı götürüb əl-üzünü yumağa başladı.

Şuşanik Vahanın yerini yığışdırdı. Palazın üstdə süfrə açdı, çörək və mis kasada süd qoydu. Vahanı evə çağırdı.

Onlar ata və qız kimi danışa-danışa yeməyə başladılar…

Şuşanik süfrəni yığışdırıb ayağa qalxdı.

- Mənim balaca dostum nə bərk yatıb, - deyə Vahan güldü. – MaşAllah, çox sevimli uşaqdır.

Şuşanik süfrəni təknəyə, kasanı rəfə qoyub gəldi. Oturub dedi:

- Hə, Vahan dayı, uşağı özünə bərk öyrətmisən. «Dovşanı» da qucağında yatıb. Səni atama oxşadır, elə bilir babasısan. Atam da onu çox əzizləyir. Palçıqdan qoyun, xoruz, at qayırır, nə bilim, darağı mizqan kimi çalır, uşaq da gülür, sevinir. Dəcəl şeydir…

Onlar bir neçə saat şirin-şirin söhbət elədilər.

Yeri düşdükcə hər ürəyə bir ümid, bir mübarizə qığılcımı salan, xoşbəxt gələcəyin təbliğatçısı kimi, bunu özünə vəzifə bilən Vahan, Şuşanikə mübarizələrin nə üçün getdiyindən, gələcəkdə həyatın necə olacağından danışdı.

Gün xeyli qalxdı.

Şuşanik yuxudan duran oğlunu geyindirdi. Əlini-üzünü yuyub yedirtdi. «Dovşanı» ona verib:

- Otur babanın yanında! – deyə uşağı palazın üstdə oturtdu, özü həyətə iş görməyə getdi.

Sifəti ağ, gözləri qonur, hər yanağında sanki bir qızılgül qönçəsi açılmış, totuq uşaq Vahanın dizinin üstə çıxdı. Onu ilk dəfə görürmüş kimi, çallamış bığlarına, yekə burnuna, çeşməyinə təəccüb və diqqətlə baxdı. Birdən Vahanın qulağından tutub çəkdi və bir neçə dəfə «Ba-ba! Ba-ba!» dedi.

Ağız dolusu «baba!» deyən uşağın qonur, iri və oynaq gözləri Vahana öz oğlunu xatırlatdı. O, bir neçə dəqiqə fikrə getdi. Qəlbinin telləri elə bil dil açıb ona söylədi: «Sən nəvə sahibi ola bilmədin, Vahan. Təkcə oğlunun başına pərvanə kimi dolandın. O ağlayanda sən də az qaldın ağlayasan, o güləndə sən də güldün, elə bildin ki, dünya o körpənin gülüşlərindən yaranıb… O böyüdükcə, sənin arzuların da böyüdü. Oğlunu oxudub savadlı bir adam eləmək istədin. Ancaq kəndinizdə məktəb olmadığı üçün arzun baş tutmadı… Ehtiyac səni Bakıya gedib çörək pulu qazanmağa məcbur elədi. İllər keçdi, nəhayət ailəni öz yanına gətirdin. Oğlunun məktəb vaxtı keçmişdi. O, sənin sənətindən başqa, heç bir sənətə getmədi. On səkkiz yaşında ikən fəhləliyə girdi. Nobelin mədənində dartayçı oldu. Sən buna da sevindin ki, oğlum əli iş tutan, çörək qazanan olub. Onu evləndirmək, oğullu-qızlı eləmək fikrinə düşdün. Lakin arzun burda da daşa dəydi. Bir gün işlədiyi zaman jalonka başına düşdü… Sənin belin sındı, ocağın söndü… Sonra daha övlad üzü görmədin…».

Şuşanik içəri girdi.

- Həkim Arakel bura gəlir, - dedi və Vahandan bir söz gözləyirmiş kimi onun qabağında dayandı.

Vahan fikirdən ayrılıb:

- Hə, Arakel? – dedi. – Gəlsin, nə olar…

Şuşanik uşağı Vahanın yanından götürüb qucağına aldı və bayıra çıxaraq Arakeli içəri dəvət elədi.

- Barev!

Vahan onun salamını alıb yerindən qalxdı. Əl tutuşub oturdular.

Arakel dedi:

- Dünən yolda Surenlə Haykı gördüm. Onlar sənin Xınzirəkdə olduğunu mənə dedilər. Mən də bu kəndə xəstə üstünə gəlirdim. Gecəni xəstənin yanında qaldım. İndi gəldim ki, görüşək, bir az da söhbət eləyək…

- Çox sağ ol. Xəstələnən kimdir? Dərdi nədir?

- Arşak adlı bir kəndlidir. Xəstəliyi vərəmdir. Özü də ikitərəfli… Bəli, vərəm… Halı yaxşı deyil. – Arakel dərindən köksünü ötürüb sözünə davam elədi: - İnsanlar vaxtsız ölürlər, çox vaxtsız… Arşakın cəmisi iyirmi beş yaşı var. Bəli, cavan bir oğlan…

- İndi ki, belə təəssüflənirsən, çalış sağalsın… Həkim elə insanı sağaltmaq üçündür, ondan başqa şey tələb olunmur…

- Eh, bilirsənmi, Vahan, - deyə Arakel yenə köksünü ötürdü. – İnsanlar pis yaşayırlar, mədəniyyətdən uzaqdırlar. Xəstəliklər də əsasən qeyri-normal

yaşayışdan, ac-susuz qalmaqdan əmələ gəlir. Həkim nə edə bilər? Axı hər şey müalicədən asılı deyil. Gərək dolanışıq yaxşı olsun. Əgər Arşakın və onun kimilərinin yağı, balı, südü, yumurtası, nə bilim, cana faydalı yeməkləri olsa, qüvvətə gəlib ayağa dura bilər. Beləliklə, insan ömrü vaxtından əvvəl zədələnib ölümə təslim olmaz. Demək, camaat, millət məhv olmaz, çox yaşayar və xeyirli işlər görər.

Vahan bərkdən gülərək dedi:

- Əlbəttə, məhv olmaz. Millətin İravanda Xatisov, Zəngəzurda Karo Hamparsumyan kimi sahibləri var! Heç onlar qoyarlarmı ki, Arşak kimilər yağsız, balsız, ətsiz qalsın!..

- Çox haqlı istehza edirsən, Vahan.

- Məncə, Milli Şura ki, sən də onun üzvüsən, gərək Arşak kimilərinin haqqında bir tədbir görsün… Elə deyilmi?

- Mənim Milli Şuranın üzvü olduğumu hardan bilirsən? Biz ki, neçə aydır görüşmürük…

- Yer qulaqlı olar… Hər kəsin işi, fəaliyyəti göz qabağındadır… Sizin daşnak hökuməti əhali arasında çox böyük «hörmət» qazanıb…

Arakel bir az fikrə getdi, sonra gülə-gülə dedi:

- Bəs, nə yaxşı məndən qorxmayıb, belə sözlər danışırsan?

- Mən daha qorxudan çıxmışam. Amma terrorunuzdan, mauzerinizdən qorxanlar da var… Tək bir işiniz yaxşıdır ki, daşnak hakimiyyəti qurulandan siz hamını, necə deyərlər, süd gölündə üzdürürsünüz…

- Mən səni heç vaxt belə istehza ilə danışan görməmişəm. Yoxsa, məni də daşnak hesab edirsən?..

Vahan:

- Milli Şura üzvü başqa cür də ola bilməz, - dedi. – Mən indiyədək səni insanpərvər bir həkim kimi tanımışam. Amma indi… Nə isə, adam var ki, öz fikrini çox tez dəyişir, qəlbini, vicdanını gücə, hakimiyyətə tez təslim edir…

- Bu sözləri mənə deyirsənsə, səhv edirsən, Vahan. Milli Şura mənim vicdanımı ləkələyə bilməz. Mən bir çoxlarının əsl simasını öyrənmişəm. Mən bəzilərinin hücumuna məruz qalmışam. Nə üçün məruz qalmışam? Açıq deyirəm: sizin xətti-hərəkətinizi, xalqın tələbini müdafiə elədiyim üçün…

- Bizim xətti-hərəkətimizi? – Vahan ona təəccüblə baxdı. – Bəlkə kommunist olmusan?

- Xeyr, kommunist də deyiləm. Lakin, siz kommunistlərin ideyası, mənim qəlbimə, təbiətimə daha uyğundur.

- Bu sözləri əvvəllər səndən eşitməmişəm.

- Mən də sənin bu cür şübhəli baxışlarını görməmişdim. Mənim əlimdən satqınlıq gəlməz. Əgər mən o əqidənin sahibi olsa idim, siz bolşevikləri çoxdan güdaza verərdim. Özünüzə məlumdur ki, sizin yeriniz, fəaliyyətiniz mənə bəllidir. Bu gün səninlə açıq danışmaq istəyirəm. Bəli, Vahan, bura gəlməkdə də məqsədim budur.

Vahan:

- Çox yaxşı, - dedi. – Mən sənə qulaq asmağa hazıram. Ürəyində nə varsa de.

Arakel öz tərcümeyi-halını, Milli Şuradakı çıxışını söylədi. Axırda dedi:

- Mən daşnaklarla əlaqəni birdəfəlik kəsmək istəyirəm. Fikrim, ərizə verib Milli Şuradan çıxmaqdır. Doğrudur, bu mənə baha tamam olacaq. Lakin vicdan təmizliyi hər şeydən şərəflidir.

Vahan onu axıra kimi dinləyib, sual verdi:

- Nə üçün bu barədə mənimlə məsləhətləşirsən?

- Çünki sən azadlıq və xalq səadəti üçün mübarizə edən bir firqənin nümayəndəsisən. Bilirəm ki, sənin və yoldaşlarının əməyi hədər getməyəcək. Sizin sözünüzü dinləyən yoxsul kütlə hələ qüvvə toplayır, o bir gün ayağa qalxacaq, indiki quruluşu təməlindən sarsıdacaq. Mən onu da bilirəm ki, siz Romanov taxt-tacını uçuran böyük bir qüvvəyə arxalanırsınız.

Arakel sözlərini qurtarıb, Vahandan cavab gözlədi. Lakin Vahan fikirləşirdi: «Həkimə bu sözləri dedirdən öz qəlbi, öz arzularıdır, yoxsa, daşnakların xəfiyyə orqanları?»

Arakel isə öz ürəyində düşünürdü: «Vahan indi mənə deyəcək, gəl bizim sıramıza. Bizim əsl adamımız sənsən».

Bir neçə dəqiqə davam edən sükutu Arakel pozdu:

- Mənə nə məsləhət görürsən, Vahan?

- Nə barədə?

- Milli Şuradan çıxmaq barədə.

Vahan gülümsədi:

- Nə deyim… Savadlı, dünyanın işlərini başa düşən adamsan. Fikirləş, qəlbin, vicdanın səni hansı yola çəkirsə, o yolla da get.

Vahanın ona hələ də ürək qızdırmadığını hiss edən Arakel, daha söhbəti uzatmadan xudahafizləşib getdi.

Onun arxasınca həyətə çıxan Vahan təmiz havada köks dolusu nəfəs aldı. Gözünü çox uzaqda görünən üfüqə dikib ürəyində dedi: «Doğrudanmı Arakel inqilab işinə kömək eləmək istəyir?!»

Axşamdan xeyli keçmişdi.

Surenlə Hayk gah adam boyu qalxmış zəmilərin içi ilə, gah kəklik otlu, qiyaxlı təpələr, döşlər, yastanlarla, gah da düzənliklərlə gedirdilər.

Onlar Qızılcığın altından sallanıb, Qarakilsənin qırağına çatdılar. Yollarını uzaq salmamaq üçün kəndin içindən deyil, başının üstündən keçdilər. Qarakilsə ilə Şəkinin arasındakı yola düşdülər.

Sakit, ruhu oxşar bir yay gecəsində, sarımtraq ay işığında çınqıllı, qumlu yolda gedən iki yoldaşın kölgəsi sol tərəfdən, özlərinin tuşunda qoşalaşmışdı.

Suren bu yollara, bu köyşənlərə yaxşı bələd idi, elə bil hər şeyi öz əli ilə qoymuşdu. O, yol uzunu Hayka hər yeri nişan verir, adını deyir, gözəlliyini tərifləyirdi.

Qaraqayanın yanına çatanda Suren:

- Bir ayaq saxla, nəfəsimizi dərək! – dedi və Haykı yolun alt tərəfində çəmənlərin arası ilə axan çayın kənarına apardı.

Əvvəlcə əl-üzlərini yudular, sudan ovuclayıb içdilər, sonra, zanbaq təkin yamyaşıl, hər çiçəyindən bir ətir gələn çəməndə uzanıb dirsəkləndilər.

- Ay Suren, buralar nə yaxşı yerlərmiş! Sən ölməyəsən, bu çay, bu çəmən, bu hündür qayalar elə bil mənə deyir: Hayk, əlini qoy qulağının dibinə, bir-iki ağız oxu…

- Sən oxumaq da bilirsən?

- Elə oxuyaram ki, dağlar-dərələr cingildəyər, səsim çatar yeddinci göyə. – O, gülüb əlavə elədi: - zarafat eləyirəm, sən deyən səsim yoxdur, amma oxumağı sevirəm. İki şeydən xoşum gəlir: biri «Sarı gəlin», biri də «Qaçaq Nəbi».

- «Qaçaq Nəbi» mahnısını hardan bilirsən?

- Eşidib öyrənmişəm.

- Niyə sən elə bu iki oxumağı sevirsən?

Hayk bir az ona tərəf çəkilib dedi:

- Bilirsən niyə? «Qaçaq Nəbi»də Nəbinin, onun arvadı Həcərin qoçaqlığı, igidliyi tərif olunur. Mən də qoçaq adamları sevirəm ki, elə bilirəm, musurman deyil, mənim doğma erməni qardaşımdır. Çünki o da erməni ilə musurman arasında təfavüt qoymayıb, musurmanın kasıbını istədiyi kimi, ermənininin də kasıbını istəyib, onları bəylərin, meliklərin, ağaların zülmündən qoruyub. «Sarı gəlin»də də məhəbbətdən, bir qızın bir çobanı necə ürəkdən sevdiyindən danışılır. Qoçaqlıqla məhəbbət bir yerdə olanda, adam xoşbəxt olar… Bax, ay Suren, sən qoçaq oğlansan, amma bir qızı sevməmisən. Ərə, gəlsənə sənə bir xırzirəkli qızı alım?..

Suren köksünü ötürdü:

- Mən evlənməyəcəyəm, Hayk.

- Niyə, subay qalacaqsan? Qoy hələ bir dünya düzəlsin, biz deyən olsun, vallah, sənə bir toy eləyəcəyəm ki, dillərdə deyilsin.

- Mən hələ evlənmək fikrində deyiləm.

- Axı niyə? Kişi-zad deyilsən?!.

- Deyirlər, evlənənlər sonra peşman olurlar.

- Yalan sözdür. Mən evlənmişəm, Şuşanikdən də çox razıyam. İndiyə kimi aramızda artıq-əksik söz olmayıb. Ərə, adam ki, evlənmədi, ata olmadı, yaşayışın dadını bilməz… Vallah, o balaca oğlumu mən bütün dünyaya vermərəm…

- Düz deyirsən, Hayk. Vaxt olar, mən də evlənərəm. Sən də mənim toyumda olarsan toybəyi. O vaxt bir yaxşı oxuyarsan…

Axşamdan bəri, sanki onlarla bərabər yeriyən, indi isə başlarının üstündə gülümsəyən ay, parlaq ulduzlar, bir-birini dəcəl uşaqlar kimi qovan dalğalar, üzərində uzandıqları yumşaq çəmən, öz əzəmətini əsrlər boyu saxlayan Qaraqaya Surenə 1918-ci ilin bir yay axşamını xatırlatdı. O, biixtiyar dedi:

- Bilirsənmi, Hayk, bu yerlərdə mənim başıma nə işlər gəlib?..

- Deyərsən, bilərəm…

Suren üç şəkilinin onun necə qabağını kəsib, yaraladıqlarını danışdı.

Onlar bir qədər dincəldikdən sonra ayağa qalxıb yola çıxdılar.

Bazar çayı, gözəl çəmən Qaraqaya – hamısı arxada qaldı. Lakin, bu xoş gecənin, aydın səmanın dilbəri olan ay, yollarına nur çiləyə-çiləyə onlarla bərabər gedirdi.

Ağzı yola sallanmış dərənin yanından ötəndə Suren dedi:

- Bax, Sarıdərə budur. Məni onun sarı qumlarında basdırmışdılar…

Onlar Şamaxı yalını aşdılar, çaydan keçib bir qədər getdikdən sonra Şəkiyə çatdılar; daşlı-kəsəkli küçə ilə yuxarı qalxmağa başladılar. Suren Hayka uçuq evləri, tövlələri, samanlıqları göstərib dedi:

- Bu xarabalıq da, iki xalqın arasına salınmış qanlı davanın nəticəsidir. Bax, sağ tərəfdəki uçuq evi görürsənmi? Ora bizim Comərdgilin, atamın qardaşdan artıq istədiyi dostu Nəbigilin evin idi. Mən pristav Karpovun əlindən qaçıb bu evdə gizlənmişdim. Mən bu evdə çörək yemişəm, yaralı yatmışam. Bura mənə ata evi kimi doğma idi. Bu müsəlman kəndində indi ermənilər olur.

Onlar çağırış vərəqələrindən bir neçəsini yatmış kəndin küçələrinə atdılar, bir neçəsini divarlara yapışdırdılar, nəhayət Şəkidən çıxıb Əngələvid yoluna düşdülər.

Deyirlər ki, torpaq adamı çəkər…

Gül-çiçək açmış öz köyşənlərinin ətrini hiss edən Suren get-gedə addımını yeyinlədir və düşünürdü: «Ey doğma kənd, doğma ölkə, doğma vətən, sizdən şirin, sizdən əziz dünyada nə var!..»

- Ayağını bir az yeyin at, Hayk, bu döngəni burulanda, bizim kənd görünəcək!

Onlar döngəni buruldular. Gecənin sərin və həzin mehi üzlərinə vura-vura kəndin qırağına çatdılar.

- Hayk, görəsən bizimkilər evdədilərmi? – deyə Suren dərindən köks dolu nəfəs aldı. – Ürəyim yerində durmur…

- Tələsmə, bir azdan hamısını görəcəksən.

- Yox, hələ bizə getməyək. Əvvəlcə işimizi görək… Səhərə çox qalmayıb…

Onlar kəndin ortasına çatdılar, vərəqələrdən bir neçəsini məktəbin, kilsənin divarlarına, evlərin qapılarına yapışdırdılar.

Surenlə Hayk, işlərini görüb qurtardıqdan sonra, heç kəsə rast gəlmədən kəndin qırağındakı evə yaxınlaşdılar. Açıq darvazadan həyətə girdilər. Surenin nəzərinə ilk çarpan alma ağacı oldu. Onunla əlaqədar olan xatirələr könlündə baş qaldırdı. Bu tək ağacdan alma dərib Siranuşa verdiyi gün yadına düşdü…

Suren ağaca tərəf getsə idi, onun susuzluqdan saralmış yarpaqları, bürüşmüş almaları dil açıb deyərdi: «Qayıt burdan get, Suren! Sahibsiz həyətinizə baxma! Bayquşlar ulayan evinizə girmə! Atanı, bacını daha axtarma! Dəli olub küçələrə düşmüş ananı tap. Bəlkə, o yazıq səni görüb ağla, huşa gələ!..»

Gözlənilmədən qarşısında açılan mənzərə Surenin qəlbini qana döndərdi…

Onlar xarabaya bənzər evdən-həyətdən çıxıb darvazanın yanında dayandılar.

«Atamgil hara köçüb? Nə vaxt köçüb?» - deyə fikirləşən Surenin ürəyinin başına sanki Ağrı dağı çökdü. O, bu ağır qəm yükünün altında necə gedəcəyini, hara gedəcəyini bilmədi. «Bəlkə heç biri də sağ deyil? Hər halda Saak dayıdan doğru məlumat ala bilərəm!.. Bilmirəm, onun da başında nə iş varsa, çoxdandır gəlib bizi tapmır, bəlkə, onu təzədən həbs etdilər?»

Haykla Suren Saakgilə getdilər. Evdə heç kəsi görmədiklərindən geri döndülər.

Suren indi də Arzogilə getməyi qərara aldı, çünki Arzo kişi onların çox mehriban və yaxın qonşuları idi.

Onlar həyətə girəndə, üfüqdə nazik bir qızartı göründü. Bu, günəşin özündən qabaq gələn carçısı idi.

Suren evin qapısını bir-iki dəfə döydü. İçəridən səs gəlmədi. Yenə döydü, cavab verən olmadı.

Yuxudan səhər tezdən oyanmağa adət eləmiş qocalar kimi, Arzo da gün çıxmamış durub, evinin dalında kartof suvarırdı. O, qapının döyülməsini eşidib:

- Ərə, kimsən orda? – deyə səsləndi. Lakin cavab almadığı üçün özü gəldi.

- Vah, ərə, Suren, sənsən? – deyə əlindəki beli yerə atıb, Surenin boynunu qucaqladı. Haykla əl tutdu. – Heç gözlərimə inanmıram, Surencan! Nə yaxşı olub ki, sən gəlmisən! – Arzo qapını açdı. – Keçin evə, keçin!

- Arzo dayı, necəsən? – deyə Suren evdə soruşdu. – Gəlinin, nəvələrin haradadır?

- Onları gəlinin qardaşı Bələyə, öz yanına aparıb. Mən tək qalmışam. Burda vəziyyət elə oldu ki, uşaqları dolandıra bilmədim… Hə, oturun, ayaq üstə niyə durursunuz?

Üçü də palazın üstündə oturdu.

Təknəsində bir-iki quru arpa çörəyindən başqa, yeməyə heç nəyi olmayan Arzo dedi:

- Suren, bəlkə acsınız?

- Sağ ol, Arzo dayı! Biz sənin yanına həm görüşə, həm də atamgilin yerini öyrənməyə gəlmişik. Getdik evə, heç kəs yoxdu. Həyət, ev xarabalıqdır. Onlar hara gediblər?

- Məyər sən bilmirsən ki, atangil hardadır?

- Yox. Özün ki, bilirsən, mən bu kənddən qaçaq düşmüşəm.

Birdən-birə Surenin ürəyini sındırmaq istəməyən dünya görmüş qoca Arzo dedi:

- Hə, bilirəm, oğul, bilirəm… Armenak ananı, bacını da götürdü, kənddən çıxıb getdi.

- Hansı kəndə gediblər?

- Nə deyim, bala. Deyəsən Armenak deyirdi ki, arvad-uşağı götürüb Kafan tərəfə gedəcəyəm.

- Kafan tərəfə? – Suren başını aşağı dikib fikrə getdi.

Arzo yalan danışdığına sıxıldı. Məsələni açmaq istədi. Lakin yenə özünü saxladı. O, Armenakın, Anahidin öldürüldüyünü, Araksinin dəli olduğunu desə idi, bəlkə də, Suren indicə yerindən qalxar, qisas almaq üçün Baqratın üstünə gedərdi. Ya ölər, ya öldürərdi. Bəlkə də Suren bu dəhşətli xəbərdən dəli olardı.

- Fikir eləmə, Suren, axtarıb taparsan, - deyə Arzo ortalığa söz atdı. – Hə, Surencan, bayaq mənim halımı soruşurdun…

- Bəli, Arzo dayı, söhbət elə. Daha biz axşam düşənə kimi burda qalmalı olacayıq. Amma bir adam bilməsin.

- Arxayın ol! Elə şeylərdə ağzı bütünəm. – Arzo öz torpağını satdığından, kəndlilərin vəziyyətindən xeyli danışdı. Surenin nə zaman gəlib kənddə yaşayacağını soruşdu.

- Necə deyərlər, nə qədər ki, ala köpək qapıdadır, mən Əngələvidə gələ bilməyəcəyəm, - deyə Suren cavab verdi.

Surenin nə demək istədiyini o saat başa düşən Arzonun elə bil ki, yarası təzədən qövr elədi.

- Oğul, Suren, camaatın axırı necə olacaq? Siz mənim təkin yazıq-yuzuğu bir yana çıxarda biləcəksinizmi? – deyə soruşdu.

Suren və Hayk ona təsəlli verdilər.

Arzo ayağa qalxdı. Bucaqdakı təknədən iki arpa cadını nimçəyə qoyub gətirdi.

- Suren, bala, çörək yeyin! – deyə nimçəni onların qabağına qoydu, sonra, mis parçı bulaq suyu ilə doldurub gətirdi. – Arpa cadı ilə su da ac adama kişmiş kimi şirin gələr, yeyin! – Təknəsi boş, lakin geniş ürəyi səxavətlə dolu qoca güldü. – Kartof hələ dib tutmayıb, yoxsa yığıb qaynadardım. Sən özümünküsən, amma bu qardaş oğlunun mənim evimə gəldiyi birinci dəfədir. Vallah, zəmanə adamı qonaq yanında da xəcalət eləyib.

Suren və Hayk əllərini çörəyə uzatdılar. Arzo sözünə  davam elədi:

- Bilirsinizmi, oğul, bu yaşayış necə şirindirsə, adam mənim kimi qoca vaxtında da ölmək istəmir. Düzü, bir vaxt elə təngimişdim ki, özümü qayadan-zaddan atıb, dünyanın qiylü-qalından qurtarmaq istəyirdim, sonra fikirləşdim ki, yox, bu kişilikdən deyil. Ölmək həmişə var. Yaşayıb elə bu zəmanənin axırını görmək lazımdır.

- Bəli, yaxşı eləmisən! Ölmək nədir? – deyə Hayk əlini çörəkdən çəkib su içdi. – Tez ölməyin faydası bir qara torpağadır, ay Arzo dayı!..

- Sağ ol, Arzo dayı, - deyə Suren nimçəni geri itələdi. – Sənin çörəyini yedik, özün ac qalacaqsan…

- Halal xoşunuz olsun. Fikir eləmə, Allah kərimdir… Hə, yorğunsunuz, bir az yatın, dincəlin. Mən də kartofu suvarım qurtarım. – Arzo nimçəni götürüb rəfə qoydu, bir yastıq gətirdi. – Bunu da qoyun başınızın altına, - deyə evdən çıxdı.

Surenlə Hayk bərk yorğun olduqlarından axşama kimi yatdılar.

…Zəif şölə verən çırağı gördükdə, Suren dedi:

- Görürsənmi, Hayk nə qədər yatmışıq – axşam düşüb…

- Hə, yaman yatmışıq, yaxşı da dincəldim…

- Bəli, çox şirin yatmışdınız! – deyə Arzo dilləndi və gülümsəyə-gülümsəyə əlavə etdi: - Bu gün kəndə yaman vəlvələ düşmüşdü…

- Nə vəlvələ?

- Kartof suvarırdım, gördüm bizim qonşu Xaçik küçə ilə üzü aşağı danışa-danışa, deyinə-deyinə gəlir. Dedim, ərə, nə var, yenə deyinirsən? Ayağını saxlayıb dedi: «Nə eləyim, kəndxuda camaatı işdən avara eləyib, yığıb divanxananın qabağına ki, bu saat deyin görüm, qapılara, divarlara kim kağız yapışdırıb? Ha çığırdı, ha söydü, boynuna alan olmadı».

- Arzo dayı, Saak hardadır? – deyə Suren qəsdən söhbəti dəyişdi. – Bilirsən hansı Saakı deyirəm?

- Bilirəm, Baqratın dərzlərini zəmidən evinə aparan, sonra da qazamata salınan Saakı deyirsən. Onun işi indi çox yaxşıdır, kefi kök dolanır. Özü də köçüb Şəkiyə. Atalar deyər: atın ölümü, itin bayramıdır. Şəkidə hazır evə, bol torpağa sahib olub. Daha Allaha bəndəlik eləmir. Hərdənbir Əngələvidə gəlir… İndi Baqratla canbir qəlbdədirlər…

- Baqratla? Hardan hara, belə?

- Əşi, hardan hara nədir?! Saak indi kəndxudadır… Kim hökumətin barəsində bir söz danışır, o saat aparıb qoyur Karonun ovcuna. Satqın köpək oğlu yazıq kəndlilərdən çoxunu dama basdırıb. Məbadə, məbadə o itin gözünə görükəsiniz ha!..

Suren dedi:

- Yaxşı, başa düşdüm. Çox sağ ol, Arzo dayı. Bəs Qurgendən nə xəbər var?

- Hansı Qurgeni deyirsən? Çolaq Zaxarın oğlunu, ya Baqratın qardaşını?

- Baqratı qardaşını.

- Qardaşı qızının dediyinə görə, heç bir xəbər yoxdur. Elə o gedəndir ki, gedib. Gəlsə də bu kənddə qala bilməz. Siranuş deyir: «Atam əmimin kölgəsini qılınclayır. Vallah, əlinə düşsə, parça-parça eliyəcək…».

- Siranuşu harda görürsən? Sizə gəlib gedir?

- Hərdənbir.

- Nə əcəb?

Arzo fikrə getdi: «Surenə nə cavab verim? Deyim ki, sənin dəli olub çöllərə düşən anan hərdənbir bizə gəlir, Siranuş ona evlərindən gizlin yemək gətirir?»

Arzo kişi yenə Surenin ürəyini sıxmamaq üçün həqiqəti pərdələdi.

- Siranuş mehriban uşaqdır, atasına, anasına heç oxşamayıb. Ötəndə, keçəndə dönür, halımı xəbər alır…

- Siranuş hələ ərə getməyib? – deyə Suren birdən-birə soruşdu.

Arzo daha yalan, uydurma danışmaq istəmədi. Lakin birdən yox, dolayı yollarla, Siranuşun nişanlandığını deməyi qət elədi.

- Axı, onun qardaşı Samvel Karonun yanında qulluq eləyir… Hə, bəli, Karo… Karo onlara gəlib gedir. Ancaq sən heç qızın dilindən düşmürsən…

- Karoyamı ərə gedib? – Suren bir qədər qəti və kəskin soruşdu.

Arzo: «Getməyib, nişanlanıb» demək istəyirdi ki, Siranuş içəri girdi. İşıqdan gəldiyi üçün bir neçə an gözü heç kəsi seçmədi. Birdən Sureni görəndə, heyrətdən donub qapının yanında qaldı.

Arzo:

- Gəl qızım, Siranuş! – dedi. – Surengilə salam niyə vermirsən? – Siranuş sanki yuxuda idi, ayıldı, qoltuğunda tutduğu bağlamanı yerə atıb heç kəsə əhəmiyyət verməyərək, hər şeyi unudaraq, onun boynunu qucaqlamaq üçün qollarını açdı. Lakin yerində hərəkətsiz oturmuş Surenin üzündəki soyuqluğu görüncə qolları yanına düşdü, ev başına fırlandı…

Arzo Hayka bayıra çıxmaq üçün başı ilə işarə verdi. Hər ikisi qalxıb içəridən çıxdı.

Qara damı sükut bürüdü. Siranuşun qəlbini parçalayan lal dəqiqələr keçdi… Sanki daş divarlar, qaranlıq bucaqlar belə, kimi əvvəlcə dillənəcəyini gözləyirdi.

Siranuşun dodaqları qeyri-iradi olaraq titrədi:

- Su-ren! Nə yaxşı gəlmisən! Axı səni bir ildən artıqdır ki, görmürəm. Suren! Üzümə bax! Ayrılığına, həsrətinə dözə bilmirəm. – Siranuş qolunu onun boynuna aşıranda Suren qoymadı.

- Qolunu götür, - dedi. – Nişanlın gəlib görər…

Siranuş qeyri-ixtiyari olaraq geri çəkildi. Başı fırlandığından, tez yerə oturub ürəyini tutdu…

- Yaxşı qız nişanlısına vəfalı olmalıdır. Yəqin ki, bu gün, sabah toyunuz olacaq. Əlbəttə, Baqrat ağanın qızı general-nahankapetə getməmiş, kimə gedəcəkdi…

- Mən ona getməyəcəyəm. Məni zorla nişanlayıblar… O, mənim gözümdə itdən də pisdir.

- Elə yaxşı qız itin-qurdun payı olur…

- Suren, yalvarıram, mənə yazığın gəlsin! Məni xəncərsiz, bıçaqsız öldürmə! Mənə yol göstər.

- Nə yol?

- Mən daha atam evində qalmaq istəmirəm.

- Tez ərə get…

- Apar məni. Elə bu saat apar! Mən bilirəm ki, sənin nə evin var, nə pulun. Qəlbin, məhəbbətin mənə bəsdir. Mən səninlə çöldə, kahada, kol dibində yaşayaram… Qurtar məni əzabdan, Suren! Dur gedək, hara istəyirsən gedək! Atam, anam yaylaqdadır. Samvel evdə yatıb. Mənim səninlə qaçmağıma indi fürsət var. Gedim evdən paltarlarımı götürüm. Dillən, Suren, gedimmi?

Surenin dillənmədiyini görərək, Siranuş hönkürdü…

- Sakit ol, Siranuş! Axı, mən səni hara aparım? Özün bilirsən ki, mən köçəri kimi bir şeyəm…

- Onda mənim günahım nədir? Mən nə eləyim?

- Mən ailəmə zülm eləyənlərdən qisas almayınca, sənə bir söz deyə bilmərəm, Siranuş, qəlbim ancaq bu hiss ilə doludur. Dur get, qardaşın səni axtarar…

Suren intiqam alacağı adamların adını çəkmədisə də, Siranuş yəqin etdi ki, o, Baqratdan, Samveldən və Karodan intiqam alacaq. Armenakın, Anahidin ölümünü, Araksinin dəli olduğunu bildiyinə də onda şübhə qalmadı.

Siranuş yanaqlarını od kimi yandıran göz yaşlarını silib dedi:

- Qisas alandan sonra, deyirsən, hə? Mən də sənə kömək eləyəcəyəm. Özü də mərd-mərdana!

Suren Siranuşun dolmuş gözlərinə təəccüblə baxdı…

Baxışları bir-birini maqnit kimi çəkdi. Deyəsən, ürəkləri də bir-birinə yaxınlaşırdı… Siranuşun şəvə təkin qara gözlərindəki qəm buludunu, uzun kirpiklərinə düzülmüş ağ inciləri görməmək üçün Suren üzünü yana çevirib dedi:

- Siranuş, dur get!

- Mən səninlə gedəcəyəm! Qisas deyirsən, alım!

- Sənin kimilər heç kəsə əl qaldıra bilməz… - Suren yenə Siranuşa tərəf çöndü.

- Eləmi bilirsən?!. Yaxşı, heç yerə getmə, öz gözlərinlə gör! – Siranuş ayağa qalxdı. – Mən atamın yurdunu bu saat yandırıb, kül eləyəcəyəm!..

- Nə eləyəcəksən? Yandıracaqsan?

- Bəli, sənin qisasını mən alacağam. Razısanmı?

Suren ona cavab verməyib, fikrə getdi. «Siranuşu incitməkdə mən insafsız hərəkət eləmirəmmi? Doğrudan da onun nə günahı var? Mənim kimi yoxsul,

yurdsuz-yuvasız bir oğlanı sevən qızın etibarına inanmamaq olarmı? Atasının cinayətlərinə omu cavab verməlidir?..»

Surenin gah çatılıb, gah açılan qaşlarına, fikirli sifətinə baxan Siranuş mülayim bir səslə dedi:

- Sağ ol, Suren! Daha gedirəm!..

Suren qızın kədər dolu gözlərinə baxdı.

- Siranuş, sənin məhəbbətini daşa vurmaq istəmirəm. Mənim sinəmdəki də daş deyil. Elə güman eləmə ki, səni sevmirəm… Ancaq özün mənim vəziyyətimi bilirsən… İndi səni heç yerə apara bilmərəm. Hələlik gözlə. Güman edirəm ki, məhəbbətimizi birləşdirəcək vaxt, dövran gələcəkdir… Bir də, Siranuş, sən nişanlısan… Mən səni indi aparsam…

Siranuş onun sözünü kəsdi:

- Mən nişanı pozacağam, arxayın ol! Könülsüz tikəni zorla yeməyəcəyəm. Neçə vaxt deyirsən, yenə səni gözləyim.

- Neçə vaxt? Onu deyə bilmərəm.

- Neynək, on il də olsa, səni gözləyəcəyəm. Ancaq yerini məndən gizlətmə, nigaran oluram…

- Hələlik Xınzirəkdə, Hayk Aslanyangildə olacağam. Ancaq bunu səndən başqa heç kəs bilməsin. – Suren yerindən qalxdı.

- Arxayın ol. Sən də məni gözlə! Yüz canım da olsa, sənin eşqinə qurban verəcəyəm…

Təzədən əhd-peyman bağlayan iki sevgili bir-birinə yaxınlaşdığı zaman, Arzo ilə Hayk içəri girdi.

Siranuş sevgilisinin gözlərinə baxıb içəridən çıxdı.

- Ərə, Suren, qızın xətrinə dəymədin ki? – deyə Arzo gülümsədi. – O, səni də, ananı da çox istəyir. Vallah, elə bil Baqratın övladı deyil. Belə təmiz, belə mehriban qız mahalda yoxdur…

- Bəli, pis qız deyil, Arzo dayı. Biz bu saat yola düşürük. İşdir, atamgildən bir xəbər bilsən, çox xahiş eləyirəm, mənə çatdırasan. Mən Xınzirəkdə, bu Haykgildə olacağam.

Suren ailəsini axtarmaq üçün dağa-daşa düşməsin deyə, Arzo hər şeyi ona xəbər vermək qərarına gəldi. Lakin o, ağzını açmamış bayırdan səs eşidildi:

Saraldı gülüm,
Uçdu bülbülüm,
Mən niyə qaldım?
Hardasan, ölüm?!.

- Deyəsən axı, bu mənim anamın səsidir? – deyə rəngi ağarmış Suren təəccüblə Arzoya baxdı.

Özünü itirmiş Arzo nə cavab verəcəyini bilmədi. Bu an qapı birdən şaqqıltı ilə açıldı. Araksi içəri girdi.

- Ana! Anacan! – deyə Suren yerindən sıçradı.

Araksi qəhqəhə çəkib, çiyinlərini ata-ata geri çəkildi.

Suren anasının kor olmuş gözünə, yana əyilmiş alt dodağına, kilkələnmiş saçlarına, yalın ayağına, cırıq paltarına baxıb qışqırdı:

- Səni kim bu günə salıb, ana?! Məni tanımırsanmı, ana? – Suren onu tutub boynunu qucaqladı.

- Can oğul!..

Araksi huşunu itirdi, səndələyib yıxılarkən, Suren onu qucaqlayıb yerə uzatdı.

Bir deyin, bu fəlakətə ağlamamaq olardımı?! Axı Surenin sinəsindəki daş deyildi, oğul ürəyi idi!.. Onun göz yaşları pır-pır axmağa başladı.

Arzo Armenakla Anahidin öldürüldüyünü, Araksinin başına gələn müsibəti, Siranuşun bu evə nə üçün gəlib-getdiyini Surenə danışdı.

Suren sarsıntılar içində, elə bil yenidən, heç kəsin məğlub eləyə bilməyəcəyi bir qüvvətə gəldi. Onun qəlbində qanlı hökmranlığa, daşnak zülmünə qarşı intiqam hissi yüz qat artdı.

- Arzo dayı, dur, məni qəbiristana apar. Atamın, bacımın son borcunu vermək üçün baş daşlarını qucaqlayıb öpəcəyəm. Mən onların qəbri üstündə qatillərdən intiqam almağa bir daha and içmək istəyirəm.

- Bu gecə vaxtı hara getmək olar, oğul, qoy sabaha qalsın.

Evi bir neçə dəqiqə kədərli bir sükut bürüdü.

Suren gözünü anasının meyit rəngi almış sifətindən çəkib dedi:

- Dur gedək, Hayk!

Hayk yerindən qalxdı.

- Araksini…

Suren Arzonun sözünü kəsib:

- Mən anamı burda qoya bilmərəm, - dedi, - onu çiyinlərimdə aparacağam.

Araksini qaldırmaq istəyəndə ayıldı, dartınıb oğlunun əlindən buraxılmaq, qaçmaq istədi. Ancaq Surenlə Hayk onun qolundan bərk-bərk yapışıb bayıra çıxartdılar.

Arzo onları kənddən xeyli uzaqlaşana kimi ötürüb qayıtdı.

…Surengil poçt yolunun üst tərəfilə, daşların, tikanların arasıyla gedirdilər. Araksi onları bərk incidirdi. Gah dartınır, gah dayanır, gah yerə oturub qalxmaq istəmirdi.

Gecədən xeyli keçmiş onlar Şəki köyşənlərinə çatdılar. Surenlə Haykın üz-gözündən tər axırdı. Dinclərini almaq üçün Araksini bir güc-bəla ilə yerə oturdub özləri də oturdular.

Araksi nədənsə titrəyirdi. Suren isti yay gecəsində dişi-dişinə dəyən anasını qızdırmaq üçün qolunu onun çiynindən aşırıb qucaqladı. Araksi başını oğlunun köksünə qoydu. Sakit dəqiqələr ötüb keçdi… Araksinin huşu, ağlı başında olsaydı, bəlkə də deyərdi: «Ey zalım insanlar, daha mənə dəyməyin! Mən öz oğlumun qucağında nəfəs almaq, yaşamaq, çox yaşamaq istəyirəm…».

Araksi birdən kəskin hərəkətlə başını Surenin köksündən götürdü. Tək gözünü, uzaqlarda görünən zəif işıqlı tək ulduz kimi, onun üzünə dikdi, oğluna nə isə demək, kimdənsə şikayət etmək istəyirmiş kimi, xeyli baxdı…

Araksi qəfil yerindən qalxıb, qaçmağa başladı.

- Ana! Qaçma, ana! – deyə Suren də onun dalınca yüyürdü…

Hayk Araksini qabaqlayıb tutmaq üçün yan tərəfdən qaçdı.

Surenin ayağı daşa ilişib yıxıldı, tez qalxıb, yenə qaçmağa başladı. Oğlundan xeyli uzaqlaşan ananın qabağını Daşkəsən qayalıqları kəsmişdi. Daha irəli getmək mümkün olmadığını dərk edirmiş kimi, Araksi dayandı. Birdən qəhqəhə çəkdi, dağlarda-daşlarda əks edən bu gülüş gecənin bağrını yaran fəryadı andırdı. Bir an sonra isə nəğmə səsi eşidildi:

Saraldı gülüm,
Uçdu bülbülüm,
Mən niyə qaldım?
Hardasan, ölüm?!

Suren arxadan, Hayk isə yan tərəfdən Araksiyə çatmağa az qalmışdı.

Araksi, hündür qaya başında qanadlarını açıb uçmağa hazırlaşan bir qartal kimi, qollarını havada gərərək, yellədə-yellədə qaçdı…

Surenlə Hayk sıldırım qayanın kənarına çatanda, Araksi artıq uçurumun dibində idi.

## Doqquzuncu fəsil

Aylar, günlər çayın mütəmadi axan dalğaları kimi, bir-birini qovub gedirdi.

Bütün canlı və cansız varlığı isidən güllü-çiçəkli yay, indi öz yerini sərin və solğun payıza vermişdi. Dağlar sakit və məhzun bir görkəm almışdı. Obalar köçdükdən sonra yaylaqlar, yurdlar boş qalmış, çəmənlər qurumuş, zəmilərdə küləşdən başqa heç nə qalmamışdı…

Lakin payızın da özünəməxsus lətafəti, gözəlliyi var. Hər hansı bir gözəl varlığı görüb dərk etmək, heç də ondan istifadə eləmək demək deyildir. Elə adamlar var ki, füsunkar dağların, yaylaqların, geniş çəmənlərin, barlı bağların təbii gözəlliyini hiss etmirlər, lakin ondan istifadə edirlər. Elə adamlar da var ki, bu gözəllikləri dərindən-dərinə duyur, lakin istifadə eləməyə imkanları olmur.

Zəngəzurda fəsillərin yaratdığı rəngarəng gözəlliyə yalnız kənardan tamaşa edənlər çoxdu. Onlar nə yaylaq üzü görür, nə tarlalardan məhsul götürür, nə də bağlardan meyvə dərirdilər…

Bayaqdan bəri Haykgildə söhbət edənlər elə bu haqda – ölkənin təbii sərvətlərinə yoxsul, ac kəndlinin necə sahib olacağı, onlardan necə istifadə edəcəyi haqda danışırdılar.

Söz sözü gətirirdi.

Bir neçə müddət ayrılıqdan sonra Comərdin, Şahmərdanın, Vahanın, Surenin, Qiyasın, Haykın yenidən görüşməsi nə qədər fərəhli bir haldı…

Bakı partiya komitəsinin göstərişi ilə Həkəri-Bərgüşada inqilabi işdə işləmək üçün gəlmiş Comərd, Şahmərdan və Qiyas öz erməni dostlarını, kommunist yoldaşlarını tapmışdılar. Yenə hamısı bir cəbhədə, bir məqsəd uğrunda mübarizə etməli idilər. İndi onlar əvvəlkindən də yaxın olmalı, müsəlman və erməni kəndləri arasında sıx əlaqə yaratmalı idilər.

Comərdlə Şahmərdan Bakıdakı vəziyyətdən, fəhlələrin müsavat hökuməti əleyhinə çıxışlarından, Qızıl Ordu hissələrinin sürətlə irəliləməsindən, Həştərxanı və başqa yerləri ağ ordulardan, xarici müdaxiləçilərdən azad etmələrindən danışdılar.

Vahan İravan səfərindən danışmağa başladı:

- Mən İravandan bu gün səhər gəlmişəm. Yaxşı oldu ki, Comərd, Şahmərdan və Qiyas da bu gün burdadır… Bəli, mən yenə İravana həbs edilmiş yoldaşlarımızı – Sergeyi, Qurgeni və Mqonu azad etdirmək üçün getmişdim. Əfsus ki, bu dəfə də məqsədimə çatmadım. Onlardan heç bir xəbər tuta bilmədim.

- Bəs Saakdan necə?

- Onu çoxdan buraxıblar. İndi Şəkidə kəndxudadır, daşnaklara qulluq edir, - deyə Vahan Comərdə cavab verdi, - əlbəttə qorxaqlar, xainlər sıralarımızdan tez çıxsalar yaxşıdır. Ancaq mənim İravana gedib ordakı kommunist yoldaşlarla görüşməyim yerinə düşdü. RK(b)F Zaqafqaziya ölkə komitəsinin təşəbbüsü və rəhbərliyi ilə İravanda çağırılmış müşavirədə iştirak elədim. Müşavirədə Ermənistan kommunist təşkilatlarının məsul işçiləri, nümayəndələri iştirak edirdi. Müşavirə bir neçə məsələ həll elədi. Eyni zamanda, rəhbərlikedici mərkəz – RK(b)F Ermənistan komitəsini seçdi. Bundan sonra, şərait və vəziyyət yol versə, Ermənistan komitəsi ilə əlaqəmiz sıx olacaqdır. Biz sıralarımızı inqilab işinə sadiq olan yoldaşların hesabına artırmalıyıq. Kəndlilər arasında Şura hakimiyyəti uğrunda gedən mübarizəni daha da qızışdırmalıyıq. Erməni və müsəlman əhalisi arasında beynəlmiləlçilik hissini daha da yaymalıyıq. Daşnak və müsavat quruluşuna qarşı əməli fəaliyyətlə çıxmalıyıq. İndi vaxt belə tələb eləyir.

- Doğrudur! Doğrudur! – deyə Comərd təsdiq etdi.

Vahan davam elədi:

- Yoldaşlar, təkcə Zəngəzurda deyil, Ermənistanın başqa yerlərində də tez-tez kəndli iğtişaşları baş verir. Kəndlilər daşnakların torpaq siyasətinin əleyhinə çıxırlar. Bundan əlavə, zəhmətkeşlər Ermənistanda ağalıq edən amerikanlara, ingilislərə qarşı da çıxış edirlər. Mən öyrənmişəm ki, amerikanların İravanda, Aleksandropolda açdıqları və rəhbərlik etdikləri emalatxanaların fəhlələri tətil elan etmişlər. Onların sözləri bu olmuşdur: «Ölkəmizdə ağalıq edən amerikanlar, ingilislər, tezliklə rədd olub gedin!»

Oktyabrda Aleksandropol çapçılarının, dekabrda İravanın poçt-teleqraf işçilərinin böyük tətili olmuşdu.

Biz də burada əl-ələ verib kəndlilərin mübarizəsini təşkil etməliyik və şüarlarımızdan da biri bu olmalıdır: «Rədd olsun ölkəmizə soxulmuş qəsbkarlar!»

Hamı bir ağızdan dedi:

- Doğrudur! Doğrudur!

- Ancaq vaxtı gələndə düşmənlə döş-döşə durub ona zərbə endirmək üçün bizə silah lazımdır, - deyə Vahan sözünə davam etdi. – Bir-ikimizdə olan tapança ilə bir iş görmək olmaz. Tüfəng, patron almaq üçün də vəsaitimiz yoxdur. Olsa da, nə daşnaklardan silah ala bilərik, nə onların ağaları ingilis-amerikanlardan. Bəs onda biz nə etməliyik? – Vahan fikrə getdi.

Yoldaşlarının hamısından yaşca kiçik və şux olan Hayk dedi:

- Tüfəngin, patronun yerini mən bilirəm. – Oturanların onun üzünə bir növ şübhə ilə baxdıqlarını görən Hayk azacıq tutuldu. – Yoxsa, mənə inanmırsınız? Elə bilirsiniz zarafat eləyirəm? Daşnakların silah anbarı bizim Xınzirəkdə də var. Manuçar Sarumovun zirzəmisi silah anbarıdır. Bilirsiniz hansı Manuçarı deyirəm? Milli Şuranın üzvü Manuçarı. Onun nökəri ilə dostam. O, mənə deyirdi: «Bizim zirzəmimizdə tüfəng-patron saxlayırlar. Heç kəs bilmir. Gecələr anbarın qapısında qarovulçu durur». İstəyirsiniz bir şey eləyək. Mən, Suren, bir də təzə tanış olduğum bu Qiyas yoldaş gecə ikən gedək, qarovulçunu öldürək, anbarı yarıb, istədiyiniz qədər tüfəng, patron götürək…

Vahan:

- Silah əldə etmək lazımdır, - dedi. – Ancaq… Nə isə, bu barədə fikirləşərik… Mən sizə başqa bir məsələ haqqında da danışmaq istəyirəm. Ermənistanın bəzi yerlərində kəndlilər mülkədar torpaqlarını zorla tutub, öz aralarında bölür və əkirlər. Doğrudur, buna daşnak hökuməti yol vermir, kəndliləri həbs edir, öldürür… Ancaq belə bir vəziyyətin yaranması öz-özlüyündə kəndlilərin azadlıq və gözəl yaşayış uğrunda mübarizəyə ciddi girişdiklərini göstərir. Belə hallar Zəngəzurda da ola bilər. Bizim vəzifəmiz kəndlilərin başladıqları mübarizəyə kömək eləmək və istiqamət verməkdir. Ola bilsin ki, bu yaxınlarda, Xınzirəkdə də bir hadisə baş versin. Açıq deyim ki, mənim bu barədə məlumatım vardır, yoxsullar mülkədar Manuçar Sarumovun yerini zorla əkmək istəyirlər. Biz belə kəndliləri müdafiə eləsək, onlar bizim mübarizəmizə qoşularlar.

…Onlar, daşnak hərbi hissələri arasında təbliğat işi aparmaq haqda, əsgərlərin öz zabitlərinə qarşı çıxması üçün nə kimi iş görmək lazım olduğu barədə də danışdılar.

Nəhayət, onlar nə vaxt və harada görüşəcəkləri barədə şərtləşdilər.

Söhbət gecə yarısına kimi çəkdi.

Comərd, Şahmərdan və Qiyas getmək üçün ayağa qalxdı.

Surenlə Hayk onları kənddən çıxardıb, xeyli ötürdülər…

Üç yoldaş yol ilə söhbət eləyə-eləyə gedirdi. Onlar məişət, ailə məsələlərindən danışırdılar.

Bakıdan beş-altı gün bundan əvvəl gəlmiş Comərd qardaşı uşaqları ilə və Rüstəmlə görüşmüşdü. O, qardaşının ölümünə çox kədərlənmiş, ürəkdən yanmışdı, Növrəstənin başına gələnlər isə onda qəzəb oyatmışdı.

Comərd ağıllı düşünən bir adam kimi, Növrəstəyə hirslənməmiş, onu əsassız yerə günahkarlandırmamışdı. Şahmərdanı da onunla barışmağa məcbur eləməmişdi. O, inanırdı ki, Şahmərdan gec-tez bu fəlakətin əsl səbəbini özü anlayacaq. Başa düşəcək ki, Növrəstənin və onun kimi minlərlə namuslu qadınların ismətinin ayaqlar altına düşməsinə səbəb zəmanədir.

Şahmərdan isə həmişəki kimi, Comərdə böyük bir yoldaş, bir əməldaş kimi hörmət edirdi. Ailə incikliyi onların ideya və məqsədləri arasında uçurum yarada bilməmişdi. Çünki onların möhkəm dostluğu, səmimi yoldaşlığı bir yerli ya qohum olduqlarından deyil, böyük arzular, məqsədlər və mübarizələr əsasında yaranmışdı.

…Onlar Azərbaycan sərhədinə çatmışdılar. Kiçik bir enişdən aşağı sallananda, qarşıda kola bənzər bir şey gördülər. Lakin, ona heç bir əhəmiyyət

vermədən yollarına davam etdilər. Kol zənn etdikləri qaraltı tərpəndi. Comərdgil onun yeridiyini gördülər.

Qiyas:

- Comərd qağa, ora bax, düz bizə tərəf gəlir… - dedi. – Dayanaq, bəlkə daşnaklar Xınzirəkdə olduğumuzu biliblər, qabağımızı kəsmək üçün irəliyə adam göndəriblər…

- Ola bilər! – deyə Comərd dayandı.

Şahmərdanla Qiyas da ayaq saxladı. Naməlum adam tez özünü yolun üstündəki ağacların dalına verdi.

- Əşi, bəri gəlin gedək, hər kimdir, bizə nə var! – deyə Şahmərdan addımladı.

- Dayan bir! – deyə Comərd onun qolundan yapışdı. – O kimdirsə, şübhəli adamdır… Düz adam yoldan çıxmaz.

- İndi ki, belədir, mən bu saat onu tutacağam! – deyə Şahmərdan tapançanı pencəyinin qoltuq cibindən çıxartdı, adama tərəf getmək istəyəndə, Comərd onu qoymadı.

- Hara gedirsən? Yoldan kənara çıxmaq lazımdır. Dalımca gəlin!

Onlar yoldan çıxıb, ağacların arasıyla bir qədər geriyə qayıtdılar, sonra yerə oturub, gözlərini naməlum adamın gizləndiyi yerə zillədilər. Xeyli gözlədilər, lakin hər yer qaranlıq içərisindəydi, kimsə görünmürdü.

Üç yoldaş, o tək adamın başqa tərəfdən çıxıb getdiyini zənn edərək yola çıxanda, onu qarşılarında gördülər.

Şahmərdan qaranlıqda üzünü seçə bilmədiyi adamdan ermənicə soruşdu:

- A kişi, kimsən? Hara gedirsən?

Ölü kimi hərəkətsiz dayanmış adam ermənicə bilmədiyindənmi, ya nədənsə cavab vermədi. Lakin birdən sanki cana gəlib, iti hərəkətlə əlini belinə atdı.

Onun məqsədini başa düşmüş Qiyas tez onun biləyindən yapışıb:

- Əlini belinə atma! – dedi və onun qollarını arxada çarpazlayıb saxladı.

Şahmərdan yenə ermənicə soruşdu:

- Adın nədir? Hansı kənddənsən?

Tək adamdan cavab çıxmadı.

Şahmərdan tapançasını onun sinəsinə dayayıb soruşdu:

- Ərə, hayes, turkes?[1]

O, bu dəfə də dillənmədi.

Comərd həmin adamın özünü karlığa, lallığa vurduğunu başa düşdü. Onun «kar» qulağını, «lal» dilini açmaq üçün qəsdən dedi:

- Bu heç düz-əməlli adama oxşamır. Çəkin dərəyə! Beyninə bir güllə vurun.

Qorxu «lalın» dilini o saat açdı:

- Bıy, sizi pir olasınız! Mən ki, öz müsəlmanlarıma rast gəlmişəm! Vallah, elə bildim ki, ermənisiniz, özü də daşnaksınız. Yəni, erməninin lap pisindən…

- Kimsən, a kişi? Adın nədir? – Şahmərdan tapançanın lüləsini onun sinəsindən geri çəkdi.

- Hardan gəlib, hara gedirsən?

---

[1] Ə, ermənisən, müsəlmansan?

- A kişi, özünü lallığa, karlığa niyə vurmuşdun? – deyə Qiyas soruşdu.

- İndi hansınıza cavab verim? Siz kimsiniz? Bu gecə vaxtı hardan gəlib, hara gedirsiniz?! Qollarımı burax, ağrın alım. Mən nə pis adamam, nə qaçaq-qulduram – kəndliyəm, başınıza dönüm…

Qiyas onun qollarını buraxdı.

- Otur yerə! Danış görək kimsən?

Hamısı yolun qırağında, bir dik yerdə əyləşdi. Comərd dedi:

- İndi sən danış görək kimsən?

- Mənim adım Həbibulladır. Özüm də Temirmuskanlı kəndindənəm. Gürcülüyə gedirdim, azmışam. Yaxşı oldu ki, qurda-quşa rast gəlmədim. Siz müsəlman qardaşlarıma rast gəldim. Müxtəsər, nə təhər oldusa, ağzım düşdü yal-yamaca. Başınıza dönüm, mənə deyin, bura haradır?

Comərd:

- A kişi, Gürcülü Temirmuskanlının yanındadır ki! – dedi. – Düz danış! Dünyada düzə zaval yoxdur.

- Hə də, başına dönüm; yol azan elə huşsuz olar. Heç öz qapısını da tanımaz.

- Ora nə üçün gedirdin?

Qiyasın sualına cavab verməyən Həbibulla soruşdu:

- Sizin adınız nədir? Axı, kim olduğunuzu mənə demədiniz?

Qiyas dedi:

- Sözü azdırma, kişi! Suala cavab ver. Hara gedirsən?

- Ay qadanızı alım, axı nə deyim… Məni evimdən-eşiyimdən dərbədər eləyən övladdır. Sizdən eyib olmasın, o kənddə bir kəsiyimiz var, əri döyüb incidir. Gedirdim onu götürüb evimə aparam. Hə, daha mən gedim, səhərə ancaq çataram. – O, ayağa qalxmaq istəyəndə, Şahmərdan:

- Otur Həbibulla kişi, otur! – dedi və ətəyindən tutub aşağı çəkdi. – Hara tələsirsən?

- Kəndimizə. Daha niyə oturum…

- Biz də sizin kəndə tərəf gedəcəyik. Yol yoldaşı olarıq. Otur, bir az da dincələk…

- Ə, siz həzrət Abbas, məqsədiniz məni soymaq deyil ki? Atamın qəbri haqqı heç bir şeyim yoxdur.

- Biz adam soyan deyilik, a kişi!

Artıq dan yeri sökülürdü. Ətrafdakı ağaclar, kollar, daşlar, təpələr daha seçilməyə başlayırdı.

Ağarmaqda olan üfüqə baxan Həbibulla qıllı papağını gözünün üstünə basıb:

- Mən gedirəm! – deyə dik ayağa qalxdı.

- Biz də gedək! – Comərd durdu.

Həbibulla fikirləşdi: «Necə eləyim ki, qaçım? Məni daldan vura bilərlərmi? Bəlkə tapançanı işə salım? Axı, onların da silahı var…»

- Gedək!

Həbibulla papağını bir az da aşağı basaraq:

- Mən bu tərəfə gedəcəyəm, - deyə Comərdə cavab verdi. – İndi yolu tanıdım.

Comərd:

- Mən də səni tanıdım, - dedi. – Papağı nahaq yerə gözünün üstünə basma, Mirzə Məhəmməd Şadlinski! Mənim köhnə «dostum»!

- Üzünü çoxdan görməmişik! – deyə Qiyas Şadlinskinin papağını geri itələdi.

Şahmərdan qəhqəhə çəkib dedi:

- Sir-sifəti heç dəyişməyib. Amma bığlarını əvvəlkindən daha çox uzadıb. Lap Koroğluya oxşayır… Buna baxın, köhnə çarığına, yamaqlı arxalığına, gödək çuxasına baxın. Kim bunu yoxsul bir kəndlidən ayırar?!

Başını aşağı salmış Şadlinski cavab vermək deyil, yalnız canını necə qurtaracağı haqda düşünürdü.

Şadlinski kəskin bir hərəkətlə əlini şalvar cibinə aparanda, onun niyyətini dərhal başa düşən Şahmərdan tapançasını ona yönəldib qəzəblə dedi:

- Əllərini yuxarı qaldır! Qiyas, bunu axtar!

Qiyas Şadlinskinin hər yerini axtardı. Cibindən balaca bir tapança çıxartdı.

- Bəh-bəh! Təzə tapança, zağlı tapança! – deyə Qiyas onu Comərdə verdi.

- İngilis tapançasıdır. Kolt… - deyə Comərd gülümsündü, sonra ciddi bir tərzdə soruşdu: - Köhnə casus, məni öldürmək istədiyin yadındadırmı?

Şadlinski başını yuxarı qaldırmadan dedi:

- Mən sizin heç birinizi tanımıram.

- Tanımırsan? On səkkizinci ilin qışı yadına gəlirmi? Əli Sadiqi ilə bərabər Şəkiyə gəlib camaatdan ianə yığmaq istədiyinizi xatırlayırsanmı? Məni və Sureni tutub jandarm idarəsinə vermək istədiyini, üstümüzə tapança çəkdiyini nə tez unutmusan! Yaxşı! De görək ingilislərlə nə zamandan dost olmusan?

- Mən onlarla dost deyiləm.

- Onların casususan! Ağalarının tapşırığı ilə hara və nə məqsədlə gedirdin? Bunu de!

- İngilislər hələ avqust ayında Bakıdan gediblər. Mən necə onların casusu ola bilərəm?!

- Onların sənin kimi etibarlı, sadiq nökərləri, mahir casusları Zaqafqaziyada az deyil. De görək onlara neçəyə satılmısan?

Şadlinski susdu.

- Sualıma cavab ver! Hara gedirdin? Niyə susursan? – Comərd onun hiyləgər gözlərinin içinə baxıb əlavə elədi: - Sənin canını doğru-düzgün danışmağın qurtaracaq.

Şadlinski heç kəsə, heç zaman ölüm məqamında belə sirr verməyəcəyinə and içdiyini yadına saldı. Ona elə gəldi ki, Hilal bəy başının üstünü kəsib deyir: «Şadlinski, sən bizim təcrübəli, bacarıqlı xəfiyyəmizsən, bunu unutma! Boğazına qurğuşun da töksələr, dilindən bir kəlmə çıxmasın!»

Comərd Şadlinskinin canına qorxu salıb, sirr almaq məqsədilə dedi:

- Dilindən qıfıl asmış bu köhnə casus ölmək istəyir. Onu dərənin dibinə çəkin!

Şadlinskini dərənin içindəki böyük bir qayanın dibinə apardılar. Şahmərdanla Qiyas beş addım aralıda dayanıb tapançalarını ona sarı tuşladılar.

Bir anda, bəlkə andan da az vaxtdan sonra gözlərini əbədilik qapayacaq ölümün dəhşəti Şadlinskini sarsıtdı. Bircə gün də olsa, yaşamaq xatirinə yalnız andını pozmaq, vəzifəsini unutmaq deyil, ölkəni satmağa hazır olan casus çığırdı:

- Məni öldürməyin, yalvarıram! Öldürməyin! – Onun ağlar səsi dərə boyu əks-səda verdi.

- Yaşamaq istəyirsənsə, hər şeyi de, özün də düzünü de!

- Düzünü deyəcəyəm, Comərd! Mən ingilislərin üzünü görməmişəm. Mənə tapşırıq verib göndərən müsavat ordusunun zabiti Hilal bəy Muradbəyovdur. Bir qardaşı Zeynal bəy Gəncədədir. O biri qardaşı Baxış bəy də Bərgüşaddadır. Daha nə deyim… - Şadlinski susub quru dodaqlarını yaladı, sonra əlavə etdi: - Məni öldürməyin… Bundan sonra sizin xeyrinizə işləməyə and içirəm, yoldaşlar!

Comərdlə Qiyas Şadlinskinin «yoldaşlar» sözünə bilaixtiyar güldülər.

Şahmərdan Şadlinskidən soruşdu:

- Hilal bəy Muradbəyov sənə nə tapşırıq verib?

- Erməni hərbi qüvvələrinin yerini öyrənməyi tapşırıb.

- Deməк, sən müsavat ordusunda hərbi kəşfiyyat orqanlarında işləyirsən?

- Bəli, elədir, Comərd. Məni zorla hərbi qulluğa götürüb, özümə də belə alçaq, iyrənc tapşırıq veriblər. Mən bu gecə Dığ kəndində olmalı idim. Orda bir erməni ilə görüşüb, ondan məlumat almalı idim. Gərək öyrənəydim ki, daşnakların qoşun hissələri indi harda yerləşir və onlar Azərbaycan kəndlərinə hücuma hazırlaşırlarmı. Əgər hazırlaşırlarsa, hücum hansı tərəfdən başlayacaq…

- Erməni nə üçün sənə məlumat verib öz hökumətini satır?

- Daşnak hökumətini istəməyən azdırmı? Bir də ki, pula nə var, anası ölsün…

- Yaxşı, müsavat qoşun hissələri nə ilə məşğuldur?

- Zəngəzura hücum eləməyə hazırlaşırlar.

- Hücum nə vaxt olacaq?

- Onu bilmirəm.

- Düzünü de!

- Atamın qəbri haqqı, bilmirəm. Bildiklərimi dedim. İndi məni buraxın gedim.

Comərd:

- Dayan hələ! – dedi. – Bir neçə sualım da var. Sən yəqin müsavatçıların sirrini daşnaklara verirsən, eləmi?

- Xeyr, xeyr! Mən öz vəzifəmə xain çıxa bilmərəm. Mənim vicdanım bunu qəbul eləməz.

- Yalansa, Allah sənə lənət eləsin! – deyə Qiyas dilləndi. – İtdə vicdan var ki, səndə yoxdur! Comərd qağa, bunu niyə çox danışdırırıq… Atıram!.. – Qiyas tapançanı yuxarı qaldırdı.

Şadlinskinin rəngi ağardı, yalvarmağa başladı.

- Yox, yox! Məni öldürməyin! Sizin heç yerdə adınızı çəkməyəcəyəm. Sizi tanımıram, sizi görməmişəm. Daha müsavatdan əl çəkirəm. Sizin ətəyinizdən yapışıram. Mənə tapşırıq verin, yoxlayın, sözüm düz çıxmasa, öldürün. İstəyirsiniz daşnaklardan, istəyirsiniz müsavatçılardan çox məlumat toplayıb sizə yetirim. Ancaq mənə yerinizi deyin, harda sizi görə bilərəm? Mənə inanın!

Şadlinskinin süni təşvişini müşahidə edən, onun yaltaqlıq ifadə edən gözlərinə diqqətlə baxan Comərd dedi:

- Biz səni öldürməyəcəyik. Sənin kimi rəzil, məsləksiz bir adamın murdar qanı ilə bu müqəddəs torpağı zəhərləmək istəmirik. Hər şeydən əziz olan bu vətən torpağına onun azadlığı üçün canını qurban verən qəhrəman oğulların qanı tökülmüşdür. Sənin canın…

Şadlinski onun sözünü kəsib sevinclə dedi:

- Çox sağ olun! Bax bu canım, təkcə oğlum, elim-obam sizə qurban olsun! Siz nə yaxşı adamsınız, a yoldaşlar! Xudaya, sən bunların ömrünü uzun elə! Gəlin sizi qucaqlayıb öpüm! – Şadlinski irəli yeriyib Comərdi öpmək istədi.

- Təlxəklik eləmə, Şadlinski! – deyə Comərd onu kənara itələdi. – Sözümə qulaq as! Casusluğu at. Bu, dünyada ən alçaq bir peşədir. İnsanlara pislik eləməkdən, ara qarışdırmaqdan əl çək.

Şadlinski əllərini sinəsində çarpazlayıb baş əydi və sevinə-sevinə dedi:

- Baş üstə, göz üstə! Mənə tapşırdıqlarının hamısını yerinə yetirəcəyəm. Mən daha xəbərçilikdən əl çəkəcəyəm. Hilal bəy məni asdırsa da, üzünə tüpürəcəyəm. Deyəcəyəm, məni aldatmısınız. Bəli, Allah sizə ömür versin, a mərhəmətli yoldaşlar. Mənə böyük dərs verdiniz, ibrət dərsi. İndi gedə bilərəmmi?

- Gedə bilərsən.

- Məni daldan vurmazsınız ki?!

- Adamı daldan vuran xainlərdir, get, indiyə kimi elədiklərinə tövbə elə. Bacar vicdanını təmizlə!

- Baş üstə, göz üstə! – Şadlinski bir neçə addım dalı-dalı çəkildi, sonra çevrilib yuxarı, yola tərəf getməyə üz qoydu. Bir neçə dəfə arxasına baxdı. Lakin artıq Comərdgili görmədi.

Şadlinski yoxuşu təngnəfəs çıxıb, yola düşəndə iki atlı ilə rastlaşdı. Biri pristav, o biri isə strajnik idi.

- Salaməleyküm, dostum Əli Sadiqi! – Şadlinski atın cilovundan tutdu.

Əli Sadiqi ona bir az baxandan sonra tanıdı.

- Oho, Mirzə Məhəmməd! Əvvəlcə səni tanıya bilmədim… A kişi, xoş gördük! Ay pir olmuşun oğlu, səni çulu cırıq bir kəndlidən seçmək olmur… Ha… ha… ha… Gör bir təsadüf bizi neçə vaxtdan sonra, harda görüşdürdü!.. Necəsən? Harda olursan? İşin-gücün nə təhərdir?

- Yaxşıyam. Çul-çuxama baxma! Sən hara belə?

- Camal adlı bir dustağım qaçıb, onu bu ətraf kəndlərdə axtarıram. Bəlkə xəbərin-zadın ola.

- Yox, ondan xəbərim yoxdur. Ancaq indicə bolşeviklərə rast gəlmişdim. Məni öldürmək istəyirdilər. Allah rast saldı, əllərindən qaçıb qurtardım.

- Nə bolşevik, Mirzə Məhəmməd? Kim idilər?

- Sənin köhnə «dostların»… Comərd, Şahmərdan, bir də yadından varmı, Şəkidə bir gədə vardı ha, adına tın-tın Qiyas deyirdilər…

- O yadıma gəlmir. Niyə bunu mənə əvvəldən demədin. Mən ki, onların qanına yerikliyirəm. Hara getdilər?

- Bax, o dərə aşağı. Atları tez sürsəniz çatarsınız, məndən ayrıldıqları, yəni əllərindən qurtardığım on dəqiqə olmaz. Piyada getdilər, atınızı tez sürün! – Şadlinski cilovu buraxıb, atın döşündən kənara çəkildi.

- Mirzə Məhəmməd, düş qabağa, bələdçilik elə.

Şadlinski xidmətini pristavdan əsirgəmədi. Onlar dərənin sağ tərəfindən uzanıb aşağı gedən cığıra düşdülər. Xeyli getdilər…

- Əli Sadiqi, bir bax, o gedən onlardır! – Şadlinski təqribən bir verstlik məsafədə gedən üç adamı göstərdi. – Ancaq onu da deyim ki, tapançaları da var.

- Bura tapança gülləsi çatmaz. Amma bu saat mən onları elə burdanca bir-bir dənləyəcəyəm! – Əli Sadiqi atı saxlayıb, tüfəngi çiynindən aşırdı… Osmanlı üçatılanından uçan güllələrin səsi dərədə guruldadı.

## Onuncu fəsil

Bu il Xınzirək kəndlilərindən bir çoxu aclıqdan çox korluq çəkmişdi. Çünki vaxtında əkməyə nə torpaqları olmuşdu, nə toxumları. Vəziyyət onları az-çox mallarını, qoyunlarını, torpaqlarını satmağa məcbur etmişdi. Başqa kəndlərdə olduğu kimi, bu kənddə də müflis olanların sayı getdikcə artırdı.

Canları boğazlarına yığılan bəzi kəndlilər axır belə qərara gəlmişdilər ki, bu payız əkin vaxtı başlarına bir çarə qılsınlar. Əkinsiz-biçinsiz dolanmaq olmaz. Onlar çox götür-qoydan sonra nəhayət, kəndin hampası, «Milli Şura»nın üzvü Manuçar Sarumova müraciət elədilər. Dərdlərini, güzəranlarını ona danışdılar. Manuçar Sarumov hökumət xətti ilə onlara heç bir kömək eləyə bilməyəcəyini söylədi. Kəndlilər onun özündən müvəqqəti əkmək üçün torpaq və borc toxum istədilər. Hətta yalvarmaq dərəcəsinə gəldilər. Sarumov onların yalvarışlarına gülüb dedi: «Mənim artıq torpağım yoxdur. Toxumdan da borc olmaz, gedin başınızın çarəsini özünüz qılın…».

Ailəsi yalnız özü ilə arvadından ibarət olan bu övladsız, lakin acgöz mülkədar, kəndliləri belə yola saldı.

Kor-peşman evlərinə qayıdan kəndlilər çox fikirləşdilər: «Oğurluğamı qurşanaq? Axı bu kişi sənəti deyil. Dilənçilikmi eləyək? Axı bu da alçaq işidir. Gedək yol kəsək, adam soyaq, öldürək? Buna adamın insafı yol verərmi? Bəs nə eləyək?..»

Həyat özü onlara yol göstərib dedi: «Ac qılınca çapar».

Lakin onlar əllərinə qılınc alıb, heç kəsin üstünə getmədilər.

Biri öküz, biri cüt qoydu, biri boyunduruq verdi, biri toxumuna kömək elədi, yığışıb yer əkməyə getdilər.

Səhər tezdən payızın sazağı üz-gözlərini qovura-qovura köyşəndə şum eləyən kəndlilərin ürəyi çox sakit idi. Onlar hər şeyi əvvəlcədən ölçüb-biçdikdən sonra bu cür «özbaşınalığa» qərar vermişdilər.

Levonla Makiç dincəlmək üçün işi saxladılar. Oturub dərdləşməyə başladılar.

Onların sifəti payız kimi tutqundu. Ürək açacaq heç bir şey danışmadılar. Hər kəs öz həyatından, ömrünün ehtiyac içində payız yarpağı kimi saralıb solduğundan danışdı.

Birdən Makiç sağ tərəfə baxıb:

- Ərə, Levon, bura gələnləri görürsənmi? – dedi.

Levon çönüb baxdı.

- Nə olsun, adamdırlar də… Bizim kimi yer əkməyə gedirlər.

- Sən ölməyəsən, onlar yekəbığ Manuçarın cütçüləridir.

Bir neçə öküzü və kotan yüklənmiş eşşəyi qabaqlarına qatıb gələn adamlar tarlaya yaxınlaşırdılar.

Levongil ayağa durdu… Cütü yerin o başına sürüb, bu başına qayıdınca, öküzlü, eşşəkli adamlar gəlib çatdılar.

Biri qoca, biri cavan kəndlilər Levonla Makiçə baxıb təəccüblə çiyinlərini atdılar.

Qoca kəndli:

- Barev, ay Levon, ay Makiç! – dedi. – Ərə, bu nə işdir, siz çaşıb bizim Manuçar ağanın yerini əkirsiniz, yoxsa biz çaşıb başqasının yerinə gəlib çıxmışıq?..

- Nə siz çaşmısınız, nə biz, - deyə Levon cavab verdi. – Yer sənin Manuçar ağanındır, əkən biz.

- Niyə siz əkirsiniz? Özü deyib? Onda, bizi niyə göndərib?

- Özü deməyib. Ancaq bu yer bundan sonra bizim olacaq.

- Ərə, səninki zarafat oldu ki… Məni başa sal, bu nə fırıldaqdır?..

- Səni başa salmağa vaxtım yoxdur. Öküzləri, kotanı qaytar. Manuçar ağanın yeri çoxdur, get başqa yeri ək!

- Musurmanlar demişkən: səninki oldu «yersiz gəldi, yerli qaç…».

Qoca kəndli cavan oğlana müraciət elədi:

- Öküzləri bəri gətir qoşaq.

Levon bir az səsini qaldırıb dedi:

- Kişi, burdan çıx get! Yoxsa…

- Ərə, yoxsa deyəndə, məni döyəcəksən? – Qoca kəndli hirsləndi. – Heç bu da işdir… Qolu zorbalıq eləyirsən?! Bilmirsən ki, Manuçar ağanın xəbəri olsa, tükünüzü yolub yelə verər!

- Bizim tükümüz yolunub. Çıx get ki, sənin tükünü biz yolmayaq…

Qoca kəndli:

- Yaxşı, ay Levon, mən sizinlə cəng-cidala girmək istəmirəm, - dedi və cavan oğlana üzünü tutub əlavə elədi: - Yeri gedək, bala! Bizə nə var… Manuçar ağaya deyərik ki, yeri Levonla Makiç əkir, nə cavab verər – özü bilər.

Manuçarın cütçüləri eşşəyi, öküzləri qabaqlarına qatıb aralandılar.

Makiç onların ardınca baxıb üzünü yoldaşına tutdu:

- Levon, biz bir işdir tutduq, amma qorxuram ki, dalı pis ola. Gəlsənə, üzü sulu qoyub gedək?..

- Sən sözündən dönürsənsə, qorxursansa, get! Mənim getmək fikrim yoxdur. Evdə acından ölüncə, bu torpağın üstə ölmək yaxşıdır. Heç olmasa, onda deyərlər: kişi uşaqlarına çörək qazanmaq üstündə öldü.

- Ay Levon, axı bizi qınayarlar. Deyərlər ki, niyə qoluzorbalıq eləmisiniz?

- Avam olma. Bizi qınayan, qoy sənin, mənim uşağıma çörək versin. Qoluzorba olsaydıq, dilənçidən də pis kökə düşməzdik. Bu gün Manuçar ağanın yerini əkməyə çıxan tək sənlə mən deyiləm ki, sözünün üstündə möhkəm dayan! Öldü var, bu torpaqdan əl çəkdi yoxdur.

Yenidən ürəklənən Makiç boyunduruğa minib öküzləri sürdü.

...Təqribən saat yarımdan sonra sağ tərəfdən iki atlı göründü. Onlar atları dördəm çapırdılar.

Bir gözü kənarda olan Makiç öküzləri saxlayıb dedi:

- Levon, Levon, ora bax!

- Nə var, ərə?

- İki atlı düz bizə sarı gəlir. Sən ölməyəsən, birini zalım oğlu Manuçara oxşadıram.

- Ərə, işini gör! Manuçar olmasın, kim olur olsun, gələr – cavabını alar.

Atlılar tarlaya çatdılar.

- Görürsən, Manuçar ağa, yalan demirəm ki?! Nə qədər elədim, yerdən çıxıb getmədilər.

Manuçar Sarumov qoca cütçüsünə cavab verməyib, atını öküzlərin qabağına sürdü. Öküzlər şumdan qırağa buruldu. Makiç boyunduruqdan düşüb Levonun yanına gəldi.

Sağ əli ilə atın cilovunu tutub, sol əlini belinə vuran, qara papaqlı, qara çuxalı, yoğun bığlı Manuçar özünü yəhərdə heykəl kimi şax tutub dedi:

- Ərə, Levon, Makiç, bu nə işdir? Nə eləyirsiniz?

Levon istehza ilə gülümsünüb dedi:

- Biz burda fındıq sındırırıq, Manuçar ağa! Bir azdan da sonra qoz qıracağıq...

Manuçar dedi:

- Ərə, mən, ağsaqqal adamı ələ salırsan? Mən sizin tayınız-tuşunuzam? Utanmırsınız?

Qoca cütçü:

- Ədəbsiz adam elə həmişə ədəbsiz danışar, - dedi. – Qanacaqsızdan, çulu cırıqdan nə gözləyirsən...

- Ərə, atanız, babanız mənimlə yer şərikidir? Bu nə həyasızlıqdır? Mənim yerimi əkməyə kim sizə ixtiyar verib?

- Heç kim. Özümüz əkirik. Sənin yerin çoxdur. Amma biz bir tikə torpağa həsrətik. Külfətimiz acından qırılır.

- Cəhənnəmə-gora qırılsın. Mən torpaq paylayıram?! Əlim-ayağım dəyməmiş, çıxış gedin! – deyə Manuçar bəy hirsləndi.

- Özün getsən sənin üçün yaxşı olar. Biz bu yeri əkəcəyik də, taxılını biçəcəyik də... Gözümüz baxa-baxa balalarımızı acından qıra bilmərik.

Makiç Levonun sözünə qüvvət verdi:

- Mənim qardaşım evdə ac, naxoş yatır. Allahın horrasını da bişirib onun boğazına tökməyə evdə bir ovuc un yoxdur. Amma sən Manuçar ağa süd gölündə üzürsən. Yanına gəlib səndən təvəqqə elədik, yalvardıq, bizə əl tutmadın... İndi nə

deyirsən? Nə hörmətdən, ağsaqqallıqdan danışırsan. Deyirsən ki, bizim kür-külfətimiz qırılsın batsın?

Qoca cütçü Makiçə barmağını silkdi:

- Dilini çox uzatma ha! Ədəb, mərifət gözlə, biqanacaq! Hələ dili də var, kişinin qabağında danışır. Ərə, zorba-zorluq əyyamıdır?

Levon dedi:

- Ay cütçü baba, sən niyə quyruğu yanmış tula kimi özünü ortalığa atırsan? Manuçar ağanın qapısında yallanırsan, onun üçünmü? Gedin! İkiniz də burdan sağ-salamat çıxın gedin!

Atın üstündə quruyub qalmış Manuçar kəndlilərin qəzəbindən, bəlkə də onu öldürəcəklərindən qorxaraq, yerə düşmədi. Arxayın idi ki, Karonun üstünə göndərdiyi adam indi Gorusa çatıb. Necə olsa, bir-iki saata kimi hökumət adamları gəlib çıxacaqlar və bu iki üsyankar kəndlini öz cəzalarına çatdıracaqlar.

- Ərə, kişini at belində saxlamayın, eyibdir, - deyə qoca cütçü dilləndi. – Allaha baxın, çıxın gedin!

Manuçar atını Levona yaxın sürdü və mülayim bir səslə dedi:

- Mən ağsaqqal kişini bu cütçülərin yanında biabır elədiniz, eybi yoxdur. Gedib kənddə də biabır eləyəcəksiniz, ona da dözərəm. Öküzlərimi, kotanımı geri qaytarmısınız, bu da qəbulum… Amma gəlin elə iş görək ki, nə şiş yansın, nə kabab. Bu yer ki, indi zorla əlimdən almaq fikrinə düşmüsünüz, babamdan atama, atamdan da mənə qalıb. Yerlərimin içində çox məhsul verəni budur. Qərəz, sonra kimə qalacaq, bilmirəm. Mənim oğlum, uşağım yoxdur…

- Elə sonsuz, övladsız adam həmişə acgöz olur, - deyə Makiç dilləndi.

- Sözümü kəsmə, Makiç. Uşağı mənə Allah verməyib, hə, onu deyirəm ki, bu yerdən əl götürün. Kəndin aşağısındakı yerimi öz xoşumla sizə verirəm. Düzü, indi fikirləşdim ki, sizin arvad-uşağınızı ac qoymaq insafsızlıqdır. Razısınızmı?

Onun hiyləsini tez başa düşən Levon Makiçə baxıb dedi:

- Bir loxma çörəyini dilənçiyə də qıymayan adamdan belə səxavəti gözləmək olmaz. Biz başqa yerə gedib bir də şum eləyən deyilik…

Manuçar daha özünü saxlaya bilməyib, səsini ucaltdı:

- Niyə, mənim sözümə inanmırsınız? Mən sizə yaxşılıq eləmək istəyirəm. Səpmək üçün sizə toxum da verərəm. Yaxşı demirəm?

Levon:

- Yaxşılığını gördük… - dedi. – Manuçar ağa, çıx get. Bu yeri yox hesab elə.

Manuçarı qəzəb boğurdu. O, qışqıra-qışqıra dedi:

- Siz kasıblar ki, varsınız, hörmət, duz-çörək bilən deyilsiniz. Mənim belə yumşaq danışmağıma baxırsınız? Mən sizin komanızı dağıtdıraram, köpək oğlanları! Siz haranın tulasısınız ki, mənim kimi bir hökumət üzvünün üzünə qayıdırsınız! Torpağıma sahib olmaq istəyirsiniz! İt uşaqları, sizi öyrədən var. Hökumət onları da tapar!

Levon bu söyüşlərə, hədə-qorxulara əhəmiyyət vermədən, üzünü Makiçə tutdu:

- Yeri min boyunduruğa, öküzləri sür, işimizi görək! Gün keçir…

Makiç boyunduruğa qalxdı. Sol əli ilə cütün dəstəsindən yapışmış Levon sağ əlindəki uzun çubuğu havada tovladı, «ha, qoçaqlarım, ha! Çəkin, güc sizdədir, bərəkət yerdə!» deyə öküzlərin hərəsinə bir çubuq çəkdi.

Xeyli dincəlib, təzədən qüvvətə gəlmiş öküzlər cütü çəkməyə güc verdilər. Gavahan yerə işlədi. Qara torpaq onun açdığı mərzin altına, üstünə lay-lay töküldü. Ucu xəncər təkin iti gavahan sanki yerin sinəsini deyil, Manuçarın sinəsini yarır, ürəyini parçalayırdı…

Levonla Makiç bayaq durub danışdıqları yerdən xeyli aralandı.

Gözü onların dalınca baxan, fikri isə başqa yerdə olan Manuçar birdən daş dəymiş donuz kimi qışqırdı.

- Yox, belə olmaz. Bu gün torpağımı əlimdən alan, sabah evimi-eşiyimi qarət elər. Ərə, atı dalımca sür!

- Ağa, nə eləmək istəyirsən? – deyə qoca cütçü soruşdu.

- O it balalarını atımın dırnaqları altında kəsək kimi əzmək istəyirəm. Onların meyitini şumun içinə sərmək istəyirəm…

- Ağa, əli yalınıq… Gorusdan adam gələnə kimi hövsələni bas. Görürəm bərk hirslənmisən. Amma, deyərlər, hirsin dövlətə ziyanı var. Var-dövlət cəhənnəm, Allah eləməmiş, birdən özünə xata gələr.

Manuçar ona sərt-sərt baxdı:

- Yoxsa, qoca, sən də canından qorxursan?

- Ağa, düzünü deyim ki, sən malından qorxursan, mən canımdan. Mən olmasam balalarım acından qırılar.

- Qorxan gözə çöp düşər, qoca! Dalımca sür!

Manuçar atı məhmizləmək istərkən, qoca cütçü yola tərəf baxa-baxa sevinclə qışqırdı.

- Ağa, dayan! Ağa, bir ora bax, görürsənmi üç adam gəlir. Yəqin hökumət adamlarıdır.

Manuçar çevrilib baxdı.

Üç atlı çaparaq gəlirdi… Onların tarlaya çatmasına azacıq qalmış Manuçar:

- Gorusdandır! Gorusdandır! – deyə fərəhlə qışqırdı.

Gorusdan Xınzirəyə qədər, yeddi verst yolu bir nəfəsə çaparaq gəlmiş, atlarını və özlərini tər basmış adamları Manuçar tanıdı. Biri Timofey Timofeyeviç Karpov, biri Aşot, o biri də Manuçarın Gorusa göndərdiyi cavan kəndli idi.

- Nə yaxşı gəldiniz, nə yerində gəldiniz! – deyə Manuçar onları sevinclə qarşıladı.

Karpov soruşdu:

- Nə var, nə olub, Manuçar?

- Odur, bax, o kəndlilər torpağımı zorla əlimdən alıb, gözümün qabağında əkirlər. Belə olar də, onları başımıza çıxaranların cəzasını verməyəndə, belə olar! Milli Şuranın iclasında oxunan kağız yadındadırmı? Belə zorakı işlər onun nəticəsidir…

Erməni dilini mükəmməl bilməsə də, danışığı başa düşən Karpov soyuqqanlılıqla dedi:

- Səbrli ol, cənab Manuçar, əsəbləşmə. Cənab general-qubernator məni göndərdi ki, məsələni öyrənim. Biz bu azğınları cəzasız qoymarıq, buna xatircəm

ol. Ancaq qoy bir özlərilə danışım, fikirlərini bilim. – Karpov əyilib onun qulağına pıçıldadı: - Belə hallar bu son aylar ərzində bir neçə kənddə baş verib. Bu kimin işi olduğunu biz bilirik. Amma çifayda, əsl günahkarları tapa bilmirik.

Beşi də Levonla Makiçə tərəf gedib bir qədər aralıda dayandılar.

Karpov dedi:

- Barev, a kəndlilər!

Levon onun salamını aldı. Makiç Karpovu görəndə canına bir üşütmə düşdü. Elədiyinə peşman olmuş kimi, köksünü ötürdü.

Karpov üzünü yanındakılara tutub:

- Atdan düşün! – dedi. – Mən bu kəndlilərlə söhbət eləmək istəyirəm.

Hamısı atdan düşdü. Karpov atın cilovunu Aşota verib özü Levonla Makiçə yaxınlaşdı:

- Məni tanıyırsınızmı?

- Çoxdan tanıyırıq, - deyə Levon cavab verdi. – Nədən ötrü gəldiyini də bilirik. Bizi tutmağa, dama salmağa gəlmisən.

- Mən də sizi tanımaq istəyirəm. – Karpov onların adını, familiyasını, ailə üzvlərinin sayını soruşub cib dəftərinə yazdı. Sonra, hiyləgərcəsinə gülümsəyərək, Levondan soruşdu:

- Siz niyə kəndinizin ağsaqqalı olan bu Manuçar ağaya hörmət qoymursunuz, yerini zorla əkirsiniz? Sizə torpaq lazımdır, gəlin hökumət idarələrinə, ərizə verin, dərdinizi deyin. Daha bu nədir?!

- Hökumət iki ildir ki, bir adama bir qulaq yer verməyib. Bizim it kökündə dolanmağımız hökumət adamlarının vecinə deyil. Dövlət də, torpaq da yenə ağaların əlindədir. Onlar da bizi nə əvvəl adam hesab eləyirdilər, nə də indi eləyirlər…

- Milli Şuranın üzvü olan bu Manuçar ağanın yerini zorla əkmək sizin hardan ağlınıza gəldi? Belə iş tutmağa sizi kim öyrətdi?

- Aclıq!

- Aclıq? – Karpov Levonu başdan ayağa süzdü. – Onda gərək bütün aclar üsyan eləsinlər, qayda-qanun tanımasınlar, eləmi?

- Ac adam heç tanrını da tanımaz, nəinki qayda-qanunu!

- Siz ikiniz də bolşeviksiniz, eləmi?

Makiç çiyinlərini çəkdi:

- O nə olan şeydir? Başa düşmədim.

- Başa düşməzsən də, - deyə Manuçar qıraqdan söz atdı, - çünki yağırını basır, sərf eləmir axı!

- Sən danışma, Manuçar ağa! – deyə Karpov frençinin cibindən bolşeviklərin çağırış vərəqəsini çıxartdı. – Savadınız varmı? Oxuya bilirsinizmi?

- Bizdə savad hardandır… Savad hökumət adamında olar.

- Yaxşı, onda qulaq asın, mən oxuyuram: «Mülkədar və dövlətlilərin torpaqlarını yoxsullar arasında bölmək lazımdır!..»

Manuçar tez onun sözünü kəsib yerindən partladı:

- Yox, yox! Elə şey olmaz! – Əyilib Karpovun qulağına pıçıldadı: - Sən nə oxuyursan? Az yoldan çıxıblar, sən də bir tərəfdən oğrunun yadına daş salırsan?..

Karpov yavaşca cavab verdi:

- Məqsəd var. Danışma!.. Qoy öz işimi görüm, - sonra səsini qaldıraraq yenə oxudu: - «Daşnak hökuməti torpaqsız kəndlilərə torpaq verməyəcək. Kəndlilər, torpaq uğrunda, gözəl yaşayış uğrunda mübarizəyə qalxın!»

Karpov kağızı cibinə qoyub Levondan soruşdu:

- Sizin yoldaşlar yaxşı yazıblar, eləmi? Yaxşı sözlərdir, eləmi?

- Bəli, bizim ürəyimizdəndir.

- Bu sözləri yazanı tanıyırsınızmı?

- Yox.

- Başqa yerlərdə bu sözləri eşitmisinizmi?

- Hamı danışır. Bunlardan da möhkəm sözlər danışırlar. Camaatın ağzını yummaq olmaz. Aclar-yalavaclar çörək, paltar, torpaq istəyirlər. Bu heç kəsdən gizlin deyil…

Karpov güldü.

- Çox sağ ol! Səndən xoşum gəldi. Bu sözləri yazan mənəm, tanıyın! Yəqin ki, siz də bu sözlərin təsiri altında Manuçarın yerini zəbt eləmək fikrinə düşmüsünüz, eləmi?

- Bəs Manuçar kimi təsirinə düşüb? Kənddə qarmalamadığı bir qarış torpaq qalmayıb. Yenə gözü doymur.

- Bəri gəlin, yaxın gəlin, siz ağıllı adama oxşayırsınız! Sizə yaxşı sözlər demək istəyirəm.

Karpovun hiyləsini dərhal başa düşən Levonla Makiç yerlərindən tərpənmədilər.

- İkiniz də bolşeviksiniz! – deyə Karpov səsini ucaltdı. – İliklərinə kimi zəhərlənmiş, qəddar bolşevik! Ancaq bunu boynunuza alsanız, tutduğunuz işdən tövbə eləsəniz, sizə cəza verməyəcəyəm.

- Zəhərli ilana sən oxşayırsan, - deyə Levon bir neçə addım aralandı. Makiç də ondan ayrılmadı.

Manuçar əsəbiləşdi:

- Ərə, it uşağı, siz nə cəsarətin sahibisiniz ki, hökumət adamının üzünə qayıdırsınız?.. Bilmirsiniz ki, dərinizi qoyun dərisi kimi boğazınızdan bütöv çıxardar?!

- Daşnak hökumətinin başına daş düşsün ki, Nikolayın qan içən pristavını iş başına qoyub!

Onları öldürmək yox, dustaq eləmək istəyən Karpov əlini şinelinin altına saldı və Levonla Makiçə amiranə dedi:

- Gəlin düşün qabağıma!

Onun hərəkətindən fikrini anlayan Levon əyilib yerdən iri bir daş götürdü və yavaşdan dedi:

- Makiç, bu köpək oğlu bizi vurmaq istəyir. Nə durmusan!.. Yoxsa təslim olursan?

- Yox, Levon, təslim olmaram. Yoldaşı dar ayaqda tək qoymaq namərdlikdir. Amma deyirsən, qaçaq…

- Qaçsaq, daldan vurarlar. Hələlik keçək o qayanın dalına, özümüzü daşnan qoruyaq. – Hər ikisi dərhal yekə bir qayanın dibinə çəkildi.

Karpov mauzeri çıxartdı və üzünü onlara tərəf tutub qışqırdı:

- Sizə əmr edirəm: daşı yerə atın, gəlin hökumətə təslim olun!

- Biz təslim olmayacayıq! Bizə torpaq lazımdır.

Manuçar Karpova:

- Niyə atmırsan? – deyə qışqırdı. – Güllənə heyfin gəlir?

- İt balaları, sizə demirəm təslim olun?! – Karpov mauzeri taxta qobura bənd elədi. Onun söyüşü, hədəsi, çığır-bağırı köyşəni götürdü. Manuçar qəzəbindən titrəməyə başladı. O, yenə Karpovun və Aşotun üstünə çığırdı:

- Mən Milli Şuranın üzvü Manuçar Sarumov sizə əmr edirəm: atın!

Karpov qayanın dalından gah boylanan, gah başını geri çəkən Levonu nişan aldı… Dalbadal atılan iki güllə dağlarda, dərələrdə guruldadı. Kəndlilərin gizləndiyi boz qayadan çarpanaqlar qalxdı.

- Ərə, biqeyrət, sən niyə atmırsan? – deyə Manuçar Aşota hirsləndi. – Sənin kimi qorxağı qulluğa götürənin boynu qırılsın!..

Ömründə bir qarışqa belə öldürməmiş Aşota adam öldürmək çox çətin gəlirdi. Ona görə də yalandan tüfəngi qurdalayırdı. Karpovun «at!», «öldür!» deməsindən sonra qayaya tərəf bir neçə güllə atdı. Ancaq güllələr çovuyub lap uzaqda toz qopardı.

- Şüursuzun biri şüursuz, güllə atmağı da bacarmırsan! Tüfəngi bəri ver! – Manuçar Aşota yaxınlaşıb tüfəngi ondan aldı və marıxda yatan ovçu kimi, Makiçlə Levonun qayanın dibindən çıxmasını gözlədi.

Qəzəb Karpovu özündən çıxartmışdı. O da Levonla Makiçin qayanın dalından çıxıb qaçmalarını gözləyirdi. Lakin onlar açıqlığa çıxmadılar. Səbri tükənmiş və dişi bağırsağını kəsən Karpov onların başının üstünü kəsmək üçün əyilə-əyilə qayanın yan tərəfinə qaçıb «təslim olun!» deyə qışqırdı. Levonun əlindən çıxan birinci daş onun gicgahına dəyib kənara sıçradı. Karpov o dəqiqə hol kimi fırlanıb şappıltı ilə yerə yıxıldı. Bu vəziyyət Levonla Makiçin üstünə cummaq istəyən Manuçarın ürəyinə qorxu salıb, qollarını boşaltdı.

Levonla Makiç fürsətdən istifadə edib, üzlərini dağlara çevirərək, qaçmağa başladılar. Manuçar daldan onlara bir neçə güllə atdısa da, heç biri dəymədi…

Manuçar və kənara çəkilmiş cütçülər şumun içində başı kəsik toyuq kimi partlayan Karpovun yanına yüyürdülər. Dili söz tutmayan Karpovun vəziyyəti Sarumovu qorxutdu.

- Ərə, ay biqeyrətlər, niyə durmusunuz, kişi ölür axı!..

Adamlar qorxa-qorxa Karpovu yerdən qaldırana kimi, canı ağzından çıxdı.

Manuçar:

- Vah, Allah evinizi yıxsın sizin! – dedi, - kişi nahaqca yerə güdaza getdi…

Qoca kəndli:

- Nahaq niyə, Manuçar ağa? – dedi. – Sənin torpağının üstündə öldü də… Böyük qoçaqlıq göstərdi…

Aşot Karpovun meyitinə baxıb ürəyində dedi:

«A zalım oğlu, axırın ki, belə olacaqdı, niyə camaatın qanını içirdin! Bir dəfə məni də nahaqca yerə döymüsən…».

Qarşısındakı meyitdən, şumun içində laxtalanmış qan gölməçəsindən vahiməyə düşmüş Manuçar dedi:

- Daha niyə durmusunuz? İpdən, kəndirdən tapın meyiti ata sarıyaq!.. İndi biz general-nahankapetə nə cavab verəcəyik?

Qoca kəndli cüt qayışını və öküzlərin buynuzuna bağlanmış ipi açıb gətirdi. Meyiti Karpovun öz atına sarıdılar. Atın yedəyini Aşota verdilər…

İki daşnak əsgəri kəndli paltarında olan Şadlinskini içəri saldı.

- Cənab general-nahankapet, əmrinlə həmin adamı gətirdik, - deyə əsgərlərdən biri dilləndi.

- Gedə bilərsiniz!

Əsgərlər Karonun ağzından söz çıxan kimi, dabanları üstündə dönüb getdilər.

Karo tələsmədən əlini uzadıb yazı stolunun üstündəki lampanın işığını artırdı. Çox da böyük olmayan kabinetin aşağı tərəfində dayanmış Şadlinskinin sifəti daha aydın işıqlandı.

Karo gəlib onun qarşısında dayandı, heç nə demədən, diqqətlə bir neçə dəqiqə onu başdan ayağa süzdü, sonra onu harda gördüyünü fikirləşə-fikirləşə keçib yenə də stolun arxasında oturdu. Yerindən tərpənməyən və danışmayan Şadlinski Karonun onu tanımadığını yəqin elədi.

Karo ermənicə dedi:

- Sənin sir-sifətin mənə tanış gəlir, harda görüşmüşük?

- Ermənicə bilmirəm, cənab! – deyə Mirzə Məhəmməd rusca cavab verdi. – Mən müsəlmanam.

Karo onu indi tanıdı, lakin hələlik özünü tanımamazlığa vurdu. Şadlinskiyə oturmaq üçün yer göstərib rusca dedi:

- Mən səni erməniyə oxşatdım…

- Danışdırmayınca müsəlmanla ermənini bir-birindən ayırmaq çətindir, - deyə Şadlinski gülümsündü.

- Çox yaxşı. İndi danış görüm, hardan gəlib, hara gedirsən? Bizim sərhədi gizli keçməkdə məqsədin nədir?

- Cənab general-qubernator, suallarınıza cavab verməzdən əvvəl sizdən bir şey soruşmaq istəyirəm.

- Sən mənim general-qubernator olduğumu hardan bilirsən?

- Onu da deyəcəyəm. Cənab, sən mənim sualıma cavab ver. – Şadlinski gülümsündü.

- Sən özünü çox sərbəst aparırsan, a «kəndli»!

- Günahkar olmayanlar nədən sıxılmalıdırlar ki?!

- Cəsarətli danışmağın xoşuma gəldi. Sualını ver. Danış görək kimsən.

- Bəli, cənab general-qubernator! Biz müsəlmanlar deyirik ki, heyvanlar iyləşə-iyləşə, insanlar danışa-danışa bir-birlərinə yaxınlaşırlar. 1918-ci ildə, Əngələviddə, cənab Karpovla sənin yanına bir adam gətirdilər. Onu xatırlayırsanmı? O adam sonra hara getdi, nə oldu, bilirsənmi?

- Xatırlayıram. Bizi aldatdı, birdəfəlik qaçdı…

- Sən…

- Bəli, cənab Şadlinski!

Şadlinski qəhqəhə çəkib güldü:

- Afərin! Afərin, cənab general-qubernator! Hafizən çox qüvvətlidir. İndi biz çox açıq danışa bilərik. Suallarına cavab verirəm: mən Azərbaycandan gəlirəm.

- Onu bilirəm.

- Mən sizi aldadıb qaçmamışam. Xatirində varsa, mən sənə və cənab Karpova türklər haqqında məlumat verməli idim. Məlumdur ki, onlar Qafqazı tərk elədilər. Daha türklər haqqında mən nə məlumat verə bilərdim… Sonra atdan yıxıldım, qıçım sındı. Başıma çox işlər gəldi. Nəhayət…

- Nəhayət, müsavatçılara casus oldun, indi də onlara məlumat aparmaq üçün sərhədi keçib bizim torpağımıza gəlmisən. Özünü də sərhədi gizli keçəndə yaxalayıblar…

- Mən sərhədi sizə görə yox, müsavatçılara görə xəlvət keçmişəm… Özüm də ancaq və ancaq bir məqsəd üçün gəlmişəm ki, onu da deyəcəyəm. Sual verdin ki, sənin general-qubernator olduğunu hardan bildim? Sizin əsgərlərdən birini müsavatçılar tutmuşdular. Onu mənim yanımda danışdırırdılar. Əsgər ölüm məqamında dedi ki, «məni tikə-tikə doğrasanız da, sirr verməyəcəyəm. Bizim igid general-qubernator Karo Hamparsumyan sizdən intiqam alacaq». Mən o saat bildim ki, o, səni deyir. Mən gətirdiyim mühüm xəbəri məhz sənə deməli idim. Nə isə, məni sizin zabitlər çox incitdilər. Amma, heç bir məlumat ala bilmədilər…

- Yaxşı, nə demək istəyirdin, danış görək…

Şadlinski nədənsə fikrə getdi.

- Danış, niyə susursan!

- Məncə, əvvəl qiymətini kəsək, sonra…

Karo hirsləndi:

- Nəyin qiymətini? Sənin başınınmı? O, artıq tələyə düşübdür. Bəlkə də, beş dəqiqədən sonra bədəninin üstündə qalmayacaqdır. Danış!

- Bayaq dedim ki, mən sizin sərhədi müəyyən bir məqsədlə keçmişəm. Başını tələyə salmaq istəməyən adam, evindən bayıra çıxmaz. Qaldı mənim başımın salamat qalması minlərcə erməninin başının salamat qalmasına səbəb olar… Mən sənə verəcəyim çox mühüm xəbərin, hərbi sirrin qiymətini indi kəsmək istəyirəm.

- Sus! – Karo mauzerinin qoburunu açdı.

Şadlinski yenə qəhqəhə ilə güldü. Karo daha da acıqlanıb mauzeri yuxarı qaldırdı. Mirzə Məhəmməd birdən ayağa durub sinəsini açdı:

- Əgər ürəyimdəki sirrləri almaq istəmirsənsə, vur! Əgər məni öldürmək, deyəcəyim sözlərdən daha fərzdirsə, vur, gülləni əsirgəmə!

Onu hər zaman öldürə biləcəyini fikirləşən Karo, mauzeri qoburuna saldı.

- Yaxşı, di tez ol, danış, boşboğazlıq eləmə.

- Neçə verəcəksən?..

- Neçə istəyirsən?

- Çox istəməyəcəyəm, yüz manat. Ancaq qızıl pul, Nikolay onluğu!

Karo güldü:

- Nikolay öldü, sən onun qızılını neyləyirsən? Sənə Ermənistan pulu, kağız pul verəcəyəm.

- Yox, cənab. Kağız pula etibar qalmayıb. Qızıl verəcəksən. Şərtim də belədir: pulu sözüm doğru çıxandan sonra alacağam. Bu şərt sizin üçün əlverişlidir, eləmi? Deməк, şərtləşdik, yüz manat qızıl pul…

- Bəli, alacaqsan.

- Cənab general-qubernator, ya sabah, ya birisi gün müsavat qoşunu Zəngəzura hücum edəcəkdir.

- Müsavat qoşunu? Sabah, ya birisi gün?! Yalan danışmırsan ki? Bəlkə, canını qurtarmaq üçün bunları özündən uydurursan?

- Xeyr, cənab, dediklərimə başımla cavab verirəm. Bir sözüm yalan olsa, mənə pul lazım deyil, qanım da sizə halaldır.

- Bəs bu xəbəri verməyə səni məcbur edən nədir?

- Üç şey. Birincisi, sədaqət, yəni isbat etmək istədim ki, mən Şadlinski tüpürdüyümü yalayan adam deyiləm… Onda söz vermişdim, indi əməl eləyirəm. İkincisi, vicdan, yəni erməni millətinin ayaqlar altında tapdalanmasına yol verməyi vicdanım qəbul eləmədi. Üçüncüsü də ki, pul, sarı qızıl.

- Üçüncünü düz dedin. Demək, sən müsavat hökumətinə və öz millətinə xəyanət edirsən?

Şadlinski güldü:

- Bunu xəyanət adlandırırsan? Mən elə bu xasiyyəti müsavat başçılarından öyrənmişəm. Mən bir sirr satıb yüz manat alıramsa, onlar bütün ölkəni satır, heç uf da demirlər.

Şadlinskinin sözlərini yalan və uydurma hesab edən Karo, onu Gorus həbsxanasına göndərdi. Özü isə otaqda fikirləşə-fikirləşə vargəl eləməyə başladı. Zərgəzurdakı hərbi hissələrin komandirinə kağız yazmaq istədikdə, Aşot içəri girdi.

- Aşot, indi gəlirsən?

- Bəli, general-nahankapet ağa, lap elə bu saat.

- Karpov harda qaldı?

- Xınzirəkdə.

- Niyə gəlmədi?

- Naçalniki vurdular…

- Necə? Kim vurdu? Harda vurdu? – Karo elə qışqırdı ki, Aşot diksindi.

- Çöldə, şum olunan yerdə, Levon adlı bir kəndli vurdu. Canına and olsun, general-nahankapet ağa, onun gicgahına dəyən daş sənə, mənə dəysəydi… Ta nə deyim… Kəndlilər yaman üzə durublar, ağa! Hökumətə zor göstərirlər.

- Heyvan oğlu heyvan, dilini kəs! Bəs niyə naçalniki gözləmirdin?

Aşot hadisəni nağıl eləmək istədi, lakin Karo ona iki tutarlı sillə vurub dedi:

- Səni də mən öldürəcəyəm. Get mənim atımı da, öz atını da yəhərlə!

Aşot getdi.

- Qara xəbərlər bir-birinin dalınca gəlir. Demək, xınzirəklilər də, kafanlılar, brnaqotlular kimi üsyana qalxıblar.

Karo oturdu, başını ovuclarının içinə alaraq, fikrə getdi.

Karpovun meyitini Xınzirək qəbiristanında basdırdılar.

Kəndxuda dəfnə gecikmiş Karonun göstərişi ilə camaatı məktəbə topladı.

Bir qədərdən sonra Karo, Manuçar kəndxuda və onların dalınca da Aşot gəldi. Onlar keçib dərs otağının baş tərəfində qoyulmuş stolun arxasında oturdular.

Balaca boylu, arıq, sarıyanız kəndxuda:

- Camaat, niyə əl çalmırsınız? – dedi. – Axı hörmətli general-nahankapet zəhmət çəkib, bizim kəndə buyurub! – Onun özü əl çaldı. Ordan, burdan da tək-tək çəpik səsi ucaldı. – Camaat, indi general-nahankapet sizinlə danışacaq. Əlbəttə, mərifətlə qulaq asın! – deyə kəndxuda Karoya tərəf çönüb baş əydi.

Manuçarın evində yeyib-içmiş və ölüm hadisəsini ətraflı öyrənmiş Karo yerindən qalxıb dedi:

- Camaat, elə güman edirdim ki, bu kəndə məni toya, bayrama, xeyir işə çağıracaqlar. Amma belə olmadı. Məni buraya gətirən sizin tutduğunuz azğın, biabırçı işdir. Düzü, mən sizin kənddən çox incidim…

Kimsə dilləndi:

- Kənddən niyə inciyirsən, naçalniki öldürəndən inci.

Karo birdən hirsləndi:

- Mən onlardan incimirəm, incimək azdır. Mən Levonla Makiçin evini yandıracağam. Arvad-uşaqlarını kənddən sürgün eləyəcəyəm. Onlar Karpovu öldürməklə, hökumətə ağ olublar. Bu açıq üsyandır! Milli Şuranın üzvü möhtərəm Manuçar Sarumova dolaşmaq, hökumətə dolaşmaqdır! Mən siz kəndlilərin yerinə utanıram, xəcalət çəkirəm. Manuçar ağanın torpağını əlindən almaq istəyirlər… Gülməlidir… Hökumət Manuçar ağa kimilərin dalında dağ təkin durub. Bundan sonra, torpaq adı çəkənin dilini boynunun ardından çıxardacağam! Başqasının yerini zorla əkənin evini tarmar eləyəcəyəm! Başa düşdünüz, a kəndlilər?

Heç kəs dillənmədi.

Manuçar dedi:

- Sağ ol, general-nahankapet, sağ ol! Levonla Makiç qaçıb dağda-daşda gizlənməklə canlarını qurtarmayacaqlar. Mən, Manuçar Sarumovda da günah çoxdur ki, bir hökumət nümayəndəsi kimi, bunların ipini yığmamışam. Bundan sonra görərlər!.. – O, üzünü camaata tutub soruşdu: - İndi deyin görüm, onlara öküz, cüt verən kimdir?

- Nəyinə lazımdır?..

Camaatın içindən ucalan bu səsə Manuçar dərhal cavab verdi:

- Onun da günahı var. Cüt, öküz verib kömək eləməsəydi, onlar bu qələti eləməzdilər.

Karo Manuçarın oturmasına əli ilə işarə edib özü dedi:

- Camaat, mən burda hirsləndim, acığımdan çox söz dedim. Görürsən, ata da öz övladlarını söyür, danlayır…

Manuçar onun sözünü gülə-gülə kəsərək:

- Nə olar, nə olar! – dedi. – Elə sən də kəndlinin, millətin atasısan. Ay camaat, elə deyil?

Cavab əvəzinə adamların arasına pıqqıldaşma düşdü. Karo dedi:

- Bəli, kəndlilər, onu demək istəyirəm ki, mənim ürəyim yumşaqdır! Heç bir adama cəza vermək istəmirəm. Qərəz, Karpov öldü, daha onu dirildə bilmərik. Sizdən hər kim Makiçi, Levonu bir yerdə görsə, desin ki, üzə çıxsınlar. Hökumət

onları bağışlayır. Bir adamın da ixtiyarı yoxdur ki, onların evinə, arvad-uşağına dəyib dolaşsın.

Kəndxuda əl çala-çala dedi:

- Var olsun bizim ədalətli, rəhmli general-nahankapetimiz!

Karo evdə Manuçara dediyi sözləri kəndxudanın da qulağına pıçıldadı:

- O üsyankar kəndlilərin harda gizləndiyini öyrənərsən, onları tutmaq üçün əlaltdan bizə xəbər verərsən. Elə bu gündən hər ikisinin evinə nəzarətçi qoyarsan, görərsən onlara gəlib-gedən kimdir. – Sonra səsini ucaldaraq camaata dedi: - İndi gedə bilərsiniz. Mən də tələsirəm.

Vahan:

- General-nahankapet, tələsmə, bizim sənə sözümüz, sualımız var, - dedi. – Özün çox danışdın, amma kəndlilərin heç birini danışdırıb, dərdini bilmədin.

Karo Manuçarla kəndxudadan yavaşca soruşdu:

- Bu kimdir?

Kəndxuda üzünü qapının ağzında dayanmış Vahana tutub dedi:

- Ərə, bir yaxın gəl görək kimsən, nə istəyirsən?

- Mən də bura topladığınız adamların biriyəm.

- Sən bu kənddən deyilsən, səni görməmişik! – deyə Manuçar yerindən dilləndi.

- Başqa kənddənəm…

- Onda çıx get! Sənlik burda bir iş yoxdur.

- General-nahankapetdən sualıma cavab almamış hara gedirəm?! Deyin görək bu kəndlilərin vəziyyəti nə vaxt düzələcək?.. Onlar nə zaman torpaq sahibi olacaqlar?

Manuçar Karonun qulağına dedi:

- Bəlkə, o danışan adamı…

Karo onun nə demək istədiyini başa düşüb cavab verdi:

- Hələ heç bir şey lazım deyil. Qoy danışıb özünü bizə nişan versin. Tutmaq asandır. Mən belə anlayıram ki, o, bolşevikdir.

Vahan dedi:

- Levon və Makiç, kəndlilərin yaxşı tanıdıqları, keçmiş pristav Karpovu öldürüblər. General-nahankapet də «zəhmət çəkib» bunun üçün kəndə gəlib. Nə danışdığını da hamınız eşitdiniz. Camaat, ancaq Karo kəndlilərin Karpovu nə səbəbə öldürdüklərini demədi. Səbəb olmasa, adam adamı öldürməz. Səbəb isə – aclıqdır. Deyərlər ki, ac özünü oda vurar.

«Doğrudur, doğrudur!» deyə kəndlilər dilləndilər.

Vahan sözünə davam elədi:

- Bütün var-yoxları əllərindən çıxmış Makiçə, Levona öz dövlətli kəndliləri kömək eləmədi. Hökumət onlara əkməyə yer, səpməyə toxum vermədi… Ay camaat, belədir, ya düz demirəm?

Səslər ucaldı:

- Düz deyirsən!

- Hökumət kimə torpaq verdi ki, onlara da versin!

Manuçar yana-yana dilləndi:

- Ərə, kişi lap ağıllı danışır, səsinizi kəsin, danışsın!

Vahan dedi:

- Qardaşlar, kəndlərdə biri yeyir, yüzü baxır. Amma gərək belə olmasın. Hamı yesin, hamı geysin, hamı yaxşı dolansın. General-nahankapet siz kəndlilərin güzəranı ilə maraqlanırmı? Yox! Kəndinizin mülkədarı bir qarış torpağından keçirmi? Yox! Kəndli qardaşlar, sizin mərdanəliklə haqqınızı tələb eləməkdən başqa əlacınız nədir? Ailənizi, özünüzü acından qırmaqmı istəyirsiniz?..

Yenə səslər ucaldı:

- Yox, biz ölmək istəmirik!

- Ərə, bunun ağzını yumun!

- Kişi yaxşı danışır, eşitmək istəməyən getsin!

Camaatın gözünün qabağında nüfuzdan salınan Karo fikirləşdi: «Yəqin bolşevikdir… Elə Levongili öyrədən də budur. Əldən buraxmaq olmaz…».

Vahan isə deyirdi:

- Kəndli qardaşlar! Eşitdinizmi? Burda mənim ağzımı yummaq istəyənlər də var, səsimə səs verənlər də. Birincilər, qarnı toxlar, varlılar, ikincilər, aclar və yoxsullardır. Mən üzümü o ac və yoxsullara tutub deyirəm: daşnak hökumətindən və onun nümayəndəsi bu Karo Hamparsumyandan heç də rəhm, ədalət gözləməyin!

Daha davam gətirə bilməyən Karo ayağa durub qışqırdı:

- Sus, köpək oğlu! İt oğlu!

- Camaat, general-nahankapetin söyüşlərini eşitdinizmi? O, adamlarla bu dildə danışmağa adət eləyib…

- Qapını bağlayın! Onu bayıra buraxmayın! – deyə Karo mauzeri qoburundan çıxartdı və Aşota başı ilə işarə elədi. O, tüfəngə patron qoydu.

Adamların arasına qarışıqlıq düşdü. Səs-küy ucaldı. Yerlərdən qışqırışdılar:

- Nə eləyirsiniz? Məxluqu qırmaqmı istəyirsiniz?

- Qardaşlar, özünüz gördünüzmü? Sizi idarə edən ağaların sifəti, rəftarı budur! Amma qorxmayın! Daşnaklar hamını qırıb qurtara bilməzlər. Tapança çəkmək onların zəifliyini göstərir. Əsl güc sizdə, sizin birliyinizdədir. Qorxmayın, haqqınızı cəsarətlə tələb edin!

Vahanın ürəyini nişan alan Karonun gülləsi qapının başına dəydi.

Oturanlar yerlərindən həyəcanla qalxdılar. Vahan tez bayıra çıxdı.

Karo:

- Tutun o köpək oğlunu! – deyə qapıya tərəf qaçarkən, bayırda top güllələrinin səsi eşidildi.

Adamlar bir-birini basa-basa tez qapıdan çıxmağa can atdılar.

Rəngi saralmış Manuçar soruşdu:

- General-nahankapet, bu nədir? Bu nə top səsidir?

Karo mauzeri qoburuna salıb:

- Gəl, Manuçar, - dedi. – Kiçik davanı qurtarmamış, böyük davaya düşdük. Yəqin, müsavat qoşunu Zəngəzura hücum eləyib…

Hamı otaqdan çıxdı. Manuçar, Karo, Aşot, kəndxuda Manuçargilə tərəf getməyə üz qoydular. Yenə hərdənbir top-tüfəng səsi gəlirdi.

Karo yolda Manuçarla kəndxudaya dedi:

- Əhalini təşviş salmağa, kənddən çıxıb qaçmağa qoymayın. Qaldı o bolşevik, göz-qulaq olun, bacarsanız, tutun. Müsavat qoşununun hücumu hələlik mənə onu axtarmağa imkan vermir. Kənddəki silah anbarını möhkəm saxlayın…

…Karo ilə Aşot atlarını minib birbaş Gorusa çapdılar.

Müsavat qoşun hissələri qəflətən Dığ, Xınzirək və Daşkənd tərəfdən hücuma keçmişdi. Daşnak sərhədçiləri qabaqda duruş gətirə bilmədiklərindən, müsavat əsgərləri elə o günü bir neçə kəndi almışdılar. İlk qələbədən ruhlanan zabitlər əsgərləri daha da irəli qovurdular.

Daşnak qoşun hissələri hər yerdə onlarla üzbəüz dayanmışdı. Atışma getdikcə şiddətlənirdi.

Davanın üçüncü günü böyük qan bahasına müsavat əsgərləri Keçəl dağı əllərinə keçirə bildilər. Topları orda qurub, Gorusu və ətraf kəndləri atəşə tutdular.

Müsavat zabitinin səngərdən çığıra-çığıra dediyi sözləri erməni əsgərləri aydın eşidirdilər:

- Ə, ermənilər, tüfəngi qoyun yerə, təslim olun! Siz nəsiniz ki, bizim qabağımızda dayanasınız! Zəngəzurun müsəlman kəndlərini dağıtdığınızdan dişinizdə şirə qalmasın. Biz Azərbaycan qoşunuyuq. Dalımızda türklər, ingilislər durub. Qüvvəmiz çoxdur, tüfəngimiz, patronumuz çoxdur. Hər erməniyə yüz güllə vuracayıq. İki gündən sonra bütün Zəngəzur bizim əlimizdə olacaq. Qoşunumuz Naxçıvan tərəfdən də hücuma keçib. Sizin xəbəriniz yoxdur: Məzrə, Şələk, Bələk, Əngələvid kəndləri alınıb. Təslim olun, yoxsa külünüzü göyə sovurarıq!..

Təmiz hava, sərin külək qarşıdakı səngərdən daşnak zabitinin cavabını müsavat zabitinə çatdırdı:

- Ərə, a dəli musurman, lovğalanma, yava-yava danışma! Siz Zəngəzuru necə ala bilərsiniz? Bizim əlimizi pişik yeyib?! Bilmirsən ki, sizə kömək eləyən ingilis bizə də eləyir? Hələ amerikanlar və general Denikin də bizim dalımızda durub! Yəqin bilin ki, sizi Əsgərana kimi qovacayıq. Hələ Qarabağı da, Naxçıvanı da əlinizdən alacayıq!

Bir tərəfdən atışma, bir tərəfdən də bir-birinə hədə-qorxu gələn səngər danışıqları xeyli davam elədi. Hər iki tərəfdən ölənlər, yaralananlar vardı.

Gün batmamış, Gorusa girmək məqsədi ilə müsavat zabiti əsgərləri hücuma qaldırdı.

Yalan vədlərlə aldadılıb, davaya gətirilmiş əsgərlər səngərlərdən çıxdılar. «Ya Əli!» deyə hay-küylə irəli atıldılar. Lakin səngərdən qalxmayanlar, güllə atmayanlar da vardı.

Erməni səngərlərindən atılan güllələr dolu kimi yağırdı.

Özünü hamıdan çox qabağa verən uzundraz bir müsavat əsgəri ayaq üstə durub, saymazyana güllə atarkən, vurulub yerə sərildi. Yekə bığlı zabit «irəli!» deyə komanda verdi. Onu da arxadan vurdular. Başqa bir zabit də, bığlı zabiti öldürən əsgəri yerə sərdi.

Erməni əsgərləri səngərlərdən çıxıb, «ura» deyə əks-hücuma keçdilər. Bunu görən müsavat əsgərləri geri çönüb qaçmağa üz qoydular. Yerlərindən tərpənməmək, geri qaçmamaq üçün zabit nə qədər əmr elədi, güllələməklə

qorxutdusa da, dayanmadılar. O zaman həm zabit özü, həm də erməni əsgərləri qaçanları daldan atəşə tutdular.

«Ərə, qırın bu musurmanları!» deyə erməni zabiti qışqırdı və özünü irəli atdı.

Erməni əsgərləri ürəklənib, «ura!» deyə-deyə müsavat əsgərlərini qovmağa başladılar…

…Müsavat hökuməti ilə daşnak hökumətinin arasındakı dava çox uzun sürmədi. Müsavat qoşununun biabırcasına məğlubiyyəti ilə qurtardı.

Müsavatçıların torpaq almaq, hər iki xalq arasında milli ədavət toxumu səpmək, onları bir-birinin canına salışdırmaq məqsədi ilə başladıqları bu dava çox uzanmasa da, böyük zərər verdi. Hər iki tərəfdən ölənlər, yaralananlar oldu. Evlər qarət olundu, lakin erməni kəndləri dağılmadı. Əhali öz yurdundan, evindən qaçqın düşmədi.

Müsavat qoşununun məğlub olmasının səbəbləri o idi ki, daşnak qoşununun komandanlığı daha cəld hərəkət etmişdi. Şadlinskinin verdiyi məlumatı əsas tutaraq, müsavat əsgərlərinin arxasına gözlənilməz yerdən əsgəri hissələr çıxarmışdı; eyni gündə Zəngəzura hücum etməli olan Naxçıvan polku yubanmışdı, daha doğrusu, Ərikli dağında qara-borana düşmüşdü. Əsgərlərdən donub öləni də az olmamışdı. Çox əzab-əziyyətlə təbii maneələri dəf edən Naxçıvan polku Zəngəzur torpağına girmişdi. Zəngəzurun Sisyan hissəsində daşnakların qoşunu olmadığından, Naxçıvan polku asanlıqla bir neçə kəndə daxil ola bilmişdi. Lakin qələbəni axıra kimi əldə saxlaya bilməmişdi. Mirzə, Şələk, Bələk, Əngələvid və sairə kəndlərin adamları Baqratın başçılığı ilə dəstələr düzəldib qarşıya çıxmışdılar. Bir neçə gün sürən davadan sonra, polk komandirini əsir alıb öldürmüşdülər. Bunu bilən müsavat əsgərləri arasına pərakəndəlik düşmüş, ölən ölmüş, sağ qalanlar qaçıb yenə Əriklini o tərəfə aşmışdılar.

Müsavat qoşununun məğlub olmasına əsas səbəblərdən biri də bolşeviklərin əsgərlər arasında müharibəyə qarşı apardıqları təbliğatı idi.

Karo sözünə davam edib dedi:

- Mən heç belə bilməzdim, atan çox qoçaq imiş, Samvel. – Milli Şuranın üzvü olmaq ona halal olsun! Əgər o, dəstələr düzəldib, qabağa çıxmasaydı, Naxçıvan polku Sisyan kəndlərini tutardı. İş onda çətinləşərdi. Çünki İravana dava başlanan günü dalbadal vurduğum teleqramlara cavab aldım ki, indi əlavə qoşun göndərmək mümkün deyil: Zəngəzurdakı hərbi qüvvənin və yerli əhalinin köməyi ilə özünüzü müdafiə eləyin. Qərəz, belə! Ümumiyyətlə, müsavatçıların sınması, tez geri çəkilməsi çox yaxşı oldu.

Karpovun yerinə təzə təyin olunmuş Samvel məğrur-məğrur gülərək dedi:

- Mənim atam, sənin qaynatan, dar ayaqda kara gələn adamdır. Bəli, qoy bu dava musurmanlara yaxşıca dərs olsun! Burunlarını bir də girə bilmədikləri kola soxmasınlar.

- Elədir, elədir! Daşın yekəsindən yapışanın qarnı cırılar.

Karo gah özünü, gah daşnak əsgərlərinin igidliyini tərifləyə-tərifləyə xeyli danışdı. Nəhayət, Şadlinskidən söz salıb onun haqqında Samvelə bəzi tapşırıqlar verdi. Samvel getmək istəyəndə, qoymadı.

- Hələ dayan, - dedi, - bu saat Şadlinskini gətirəcəklər. Bizim danışığımızda sən də iştirak elə, çünki o, bundan sonra əlaqəni səninlə saxlamalı olacaq.

Şadlinskini gətirdilər. O, həbsxanada olsa da, top-güllə səslərinin kəsilməsindən və özünün Karonun yanına çağırılmasından, Müsavat qoşununun məğlub olduğunu yəqin eləmişdi.

- Cənab Şadlinski, həbsxanada incimədin ki? – deyə Karo gülümsədi. – Amma, baxtın kəsdi ki, çox qalmadın. Otur, otur.

Şadlinski oturdu və irişə-irişə dedi:

- Çox qalmayacağımı özüm əvvəlcədən bilirdim…

- Hardan bilirdin?

- Necə hardan… Bilirdim ki, sözlərimin doğru çıxdığını görən kimi məni buraxacaqsınız. Sədaqətli olduğuma daha şübhəniz qalmayacaq.

- Hə, Şadlinski, hələlik sözün doğru çıxdı. Bəli, sənin musurmanların üstümüzə bərk gəlmişdilər, ancaq bir şey çıxmadı, qayıdıb suyu süzülə-süzülə Zabığ çayına qədər qaçdılar.

Şadlinski Karoya hiyləgərcəsinə baxıb dedi:

- İndi gördün ki, mən erməni hökumətinə xeyirxah adamam! Gördün ki, mənim məlumatımda zərrə qədər yalan yoxdur… Ola da bilməz. Bizim peşəmiz ticarət kimi bir şeydir. Təfavüt burasındadır ki, tacir mal satır, pul alır, biz söz satıb, pul, qızıl alırıq…

Karo onun işarəsini başa düşdü.

- Demək, sən gətirdiyin xəbərin mükafatını istəyirsən?

- Bəli, danışdığımız kimi… Söz danışıqdan keçər.

- Bu saat bizim bankda o qədər pul yoxdur.

Şadlinski dərhal yerindən dilləndi:

- Pul yox, qızıl. Biz şərt kəsmişik.

Karo qəhqəhə ilə güldü:

- A kişi, sən sağ qaldığına sevin, qızıl nədir?..

- Onu bilin ki, mən sizə bir də lazım olacağam. Elə zənn eləməyin ki, bir də dava olmayacaq… Yenə meydan təzədən qızışanda mənim, qəsdən əhəmiyyətini azaltmaq istədiyini bircə xəbərim, sizi böyük təhlükədən qurtarar…

Casusluqda Şadlinskinin sədaqətli olduğuna heç bir şübhəsi qalmayan Karo dedi:

- Yaxşı, mükafatını alacaqsan. Əlaqən bundan sonra bu Samvel Xaçaturyanla olacaq. Bir-birinizlə görüşəndə musurmanca danışa bilərsiniz. Xaçaturyan sizin dili pis bilmir.

Şadlinski soruşdu:

- Mənim köhnə dostum hardadır?

- Karpovu deyirsən? Onu öldürdülər.

- Kim öldürdü? Nə üçün? Harda?

Karo Karpovun öldürüldüyünü ətraflı danışdı. Söz kəndlərdəki iğtişaşlardan, kəndlilərin mülkədar torpaqlarını zəbt eləmələrindən düşəndə Şadlinski dedi:

- Elə hallar Azərbaycan kəndlərində daha çoxdur. Kəndlilər indi bəyləri, xanları, mülkədarları saymırlar. Müsavat hökuməti nə qədər çalışırsa, iğtişaşçılarla

bacarmır. Bolşeviklər camaatı yoldan çıxarırlar. Azərbaycan bolşevikləri ilə Zəngəzur bolşevikləri arasında mütləq əlaqə var.

Karo dedi:

- Yaxşıdır ki, özün bolşeviklərdən söz açdın. Sənə verəcəyimiz əsas tapşırıqlardan biri də elə budur ki, musurman bolşevikləri ilə erməni bolşeviklərinin harda görüşdüklərini, nə danışdıqlarını, nə iş gördüklərini öyrənib bizə xəbər verəsən. Sağ əlin müsavatın əleyhinə işləməlidir, sol əlin bolşeviklərin. Başa düşdünmü?

- Aydındır, aydındır… Ancaq sərhədi sərbəst keçmək üçün mən necə eləməliyəm? Yaxşı olar ki, mənim şərti adım olsun.

Karo Samvellə məsləhətləşib dedi:

- Sənə biz «Sağsağan» ləqəbi veririk. Sərhədi keçəndə, bizimkilərə rast gələndə deyərsən: «Sağsağan uçur».

- Ha… ha… ha… Vallah, çox yaxşı ad tapdınız. Mən sizin yanınıza sağsağan kimi, həmişə xəbərlə gələcəyəm. Yaxşı, mənə silah verin, bəlkə lazım oldu.

- Silahın olmasa, başın salamat olar!

- Mən belə, sağ-salamat geri qayıda bilərəmmi? Deməzlərmi ki, Şadlinski, hardaydın? Mən nə deyim? Məhz onların ağzını yummaq, inandırmaq üçün burdan yaralı qayıtmalıyam.

- Yaralı? Demək özün-özünü yaralamaq istəyirsən?

- Bəli, cənab Hamparsumyan! Özümü yüngülcə yaralamalıyam. Ora çatanda deməliyəm ki, sərhədi keçəndə daşnaklar məni tutmaq istədilər, qaçdım, daldan güllə atıb yaraladılar.

Karonun gülüşü otağı götürdü. Yerindən qalxıb Şadlinskinin yanına gəldi. Əlini onun çiyninə vurub dedi:

- Əhsən, Şadlinski, öz sənətində sənin böyük məharətin varmış… Yaxşı, özünü vurmaq üçün tapançamı iki dəqiqəliyə sənə verərəm…

…Özünü sol qıçının balıq ətindən yüngülcə yaralayan Şadlinski iki-üç gündən sonra yola düşdü. Karonun tapşırığı ilə, Samvel onu gecə yarısı aparıb sərhəddən ötürərək qayıtdı.

Azərbaycan torpağına xəyanətlə qədəm qoyan Mirzə Məhəmməd Şadlinski səhəri yolda açdı. Yorğunluğunu almaq üçün uca bir ulas ağacının altında oturdu. Cibindən qızıl saatı çıxartdı, o tərəfinə, bu tərəfinə baxdı. Dırnağı ilə onun qapaqlarını açıb, qızılının qalın, nazik olduğunu yoxladı.

«Eh, istədiyim olmadı! – deyə düşündü. – Bu səfərdən mənə iki şey qaldı: bir qıçımın yaralanması, bir də ki, bu saat! Demək, biri zərər, biri qazanc… Belə halda deyərlər: ələl, başbaş olduq. Mən buna da razıyam. Ermənilər məni öldürə bilərdilər…».

Şadlinski saatı cibinə qoydu, Hilal bəylə necə görüşəcəyini, necə danışacağını təsəvvürünə gətirməyə çalışdı.

«Səni nə işə göndərmişdim? İndiyə kimi hansı cəhənnəmdəsən?» - deyə, yəqin ki, rəis soruşacaq. Mən Şadlinski isə özümü itirmədən ona cavab verəcəyəm: «Mən doğrudan da cəhənnəmə düşüb çıxmışam. Cənab Hilal bəy, niyə soruşmursan ki, mən ölümdən necə qurtardım? Niyə soruşmursan ki, daşnaklar

məni sərhədi keçmək istəyəndə necə vurdular. Sürünə-sürünə, qanım axa-axa özümü müsəlman kəndinə necə saldım? Bu da mənim yaram, baxa bilərsən…».

Bəlkə Hilal bəy ondan şübhələnəcək, sözlərinə inanmayacaq? Deyəcək ki, sən xainsən, sirrimizi aparıb düşmənə vermisən. Verməsəydin ermənilər qabaqcadan bizim arxamıza qüvvə çıxartmazdılar…

Şadlinski bunları fikirləşdikcə canına qorxu düşürdü. Çünki o, Hilal bəyin qəzəbini yaxşı bilirdi.

Birdən şiddətli külək qopdu, göydən asılmış kimi görünən ala-tala buludları bir yerə topladı.

Şadlinskinin başı üstündə sıxlaşan bu buludlar onun xain ürəyinə elə bir qara kölgə saldı. Çox keçmədi ki, payız buludları ağladı. Sel-su şırhaşır axmağa başladı. Şimşək əyri qılınc kimi havada bir an oynayıb, parlayıb, bir an içində də yox oldu. Göy gurultusu Zabığ çayının şırıltısına qarışdı, dağlar, dərələr inlədi…

Hardasa düşən ildırımın vahiməli səsindən diksinən Şadlinski yaralı qıçını tez yığıb ulasa sığınaraq, onu iki əlli qucaqladı.

Qidasını ana torpaqdan, duru dağ sularından almış ulas sanki dil açıb dedi: «Mirzə Məhəmməd Şadlinski, dur get! Ürəyin xəyanətlə doludur. Nəfəsin murdardır, onu mənə vermə… Kaş o ildırım sənin başına düşə idi…».

## On birinci fəsil

Məhəbbət ömrün baharıdır. Bu böyük hiss hansı adamın ürəyində sönərsə, həyatı mənasız olar.

İnsan bu hissin qüdrəti ilə yaşayıb, sabaha ümidlə baxır, bu hissin gücü ilə hər şeyə qalib gəlir. Bu hissin ehtirası ilə mübarizələrdən keçir. İnsan bəzən bu hissin atəşi ilə yanıb kül olur. O, insanla bir yaranıb. Dünyada ondan qadir qüvvə yoxdur! Ey gözə görünməyən, lakin ürəkləri gəzən məhəbbət, səni dünyada nə ilə müqayisə etmək olar?! Sən insanı həm göylərə qaldırır, həm də yerə çırpırsan. Birinə səadət verdiyin halda, başqasını ömrü boyu bədbəxt edirsən.

Doğru söz şirin dil, xoş rəftar hər sevən qəlbin baharıdırsa, məhəbbət ömrün çiçəyidir. Onun ətrini almayanlar, bəs dünyada nəyə sahib olurlar?!

…Sureni Arzogildə görəndən sonra Siranuşun könlü açılmış, eşqinin üzünə elə bil günəş doğmuşdu. Çünki Suren ona vüsal üçün ümid vermişdi. Qızın daima hicranla yanan qəlbinə elə bil su səpmişdi.

Siranuş Surendən ayrıldığı axşam evlərinə qayıdanda, onun qəlbini bir-birinə zidd olan iki hiss doldurmuşdu: məhəbbət və intiqam!

Bir qarışqa öldürməyə belə ürəyi gəlməyən Siranuş yalnız sevgi xatirinə qanlı qisas almalı idi. Kimdən? Məhəbbətini külə döndərmək istəyənlərdən, Baqratın özündən, arvadından, oğlundan, Karo Hamparsumyandan…

Siranuş necə intiqam alacağını dönə-dönə fikirləşmişdi. Lakin qəti bir qərara gəlməmişdi.

Pəncərənin qabağında oturub, qarlı bağçaya baxan qız yenə düşünürdü: «Axı mən Sureni inandırdım ki, aciz deyiləm. Sevməyi bacardığım kimi, qisas almağı da

bacararam. Yəqin o, mənim öz sözümü yerinə yetirməyimi gözləyir. Bəlkə, Suren könlümə toxunmamaq, ya başından rədd eləmək üçün elə dedi? Hər nə olur olsun, mən vədimə, əhdimə doğru çıxacağam. Mən bu gecə hamı yatanda, bax, bu evə od vurub qaçacağam. Qoy atam da, anam da yansın. Var-dövlət kül olsun. Mən dövlət istəmirəm. Məhəbbətimin qabağını bulud kimi kəsən, məni sevdiyimin üzünə həsrət qoyan odur!

Siranuş gözünü bağçadan çəkdi. Qəmli nəzərlərini səliqəli, bəzəkli otaqda dolandırdı.

«Evdə özümdən başqa heç kim yoxdur, - deyə fikirləşdi. – Daha niyə durmuşam? Niyə gecəni gözləyirəm? İndi fürsət deyilmi? Baqrat ağanın evini yandırmaq məqamı gəlməyibmi?»

Siranuş ayağa qalxdı. Addımlarkən, könlünün dərinliyindən gələn bir səs onu yerində dayandırdı. «Bir düşün, Siranuş, doğulub böyüdüyün ata evini xarabaya çevirmək istəyirsən? Səni saxlayan atanı, gecə səhərə kimi gözünü yummayıb, beşiyinin başında sənə layla deyən, döşlərindən süd verən ananı bədbəxt eləmək istəyirsən?.. Sən bilmirsənmi ki, heç bir ata-ana övladının dırnağına daş dəyməyə razı olmaz. Unutma ki, sənin ilk məhəbbətin ana məhəbbəti olmuşdur. Sən gözünü dünyaya onun isti, mehriban qoynunda açmısan. Səni əllərində oynadan, sevə-sevə atıb-tutan, güldürən, danışdıran, başın ağrıyanda «can» deyə ana olmuşdur. Ata-ananın acı sözləri də, danlaqları da məhəbbətdəndir, Siranuş! Bunu sən bilmirsən, duymursan, çünki ürəyin indi Surenin məhəbbəti ilə alışıb yanır… Amma unutma ki, adam alışıb yandığı zaman, eşqin əlindən ağladığı zaman belə, mühakiməsini itirməməlidir, hər şeyi ölçüb-biçməlidir. Düşün, Siranuş, bir də düşün!..»

Siranuş bilaixtiyar dönüb yerində oturdu. Nə üçün? Otaqmı başına fırlandı? Könlünün səsimi onu yolundan qaytardı?

Dirsəklərini pəncərənin içinə qoyub, iki əli ilə başını tutmuş qız, indi nə düşünürdü? Heç nə. Əzab çəkirdi. İki qılınc arasında parçalanan qəlbinin iniltisini dinləyirdi. Bütün varlığına illər uzunu hakim olan iztirablarına necə son qoyacağını fikirləşirdi…

Onun könlündə iki məhəbbət – yar məhəbbəti, ata-ana məhəbbəti mübarizə edirdi. Hansı qalib gələcək? Güclü həmişə gücsüzü məğlub etmişdir. Güclü həmişə gücsüzə hakim kəsilmişdir…

Siranuş Surensiz yaşaya biləcəyini təsəvvürünə gətirmirdi.

…Qonşuya söhbətə getmiş Nvard gəldi. Siranuşa yaxınlaşıb dedi:

- Bala, əllərini üzünə qoyub nə fikirləşirsən? Xörəkdən-zaddan hazırlamısanmı?

- Yox.

- Niyə bəs? İndi atan gələcək axı! Bilirsən ki, çörəyinin vaxtını keçirməz.

- Özün bişirərsən.

- Sənə nə olub, ay qız? İraq canından, yenə naxoşlamamısan ki? – Nvard əlini qızının alnına qoydu. – Vallah, deyəsən qızdırman var.

Siranuş anasının əlini kənar eləyib:

- Yaxşı, bəsdir, - dedi. – Məni xəstə, zarıncı eləyən sizsiniz…

- Nə danışırsan, ay bala?! Elə qaydadır, qız evdə çox qalanda, ata-ana onun gözünə qurd donunda görünər… Bircə səni gəlin görsəydim, dərdim olmazdı.

- Yaxşı, ay ana, sən Allah başqa söz danış.

Nvard daha bir söz demədi. Qapıya tərəf yönələndə Baqrat içəri girdi. Hələ Nikolay vaxtından qalmış qara şiblitlərini qapının ağzında çıxardıb, xalçanın üstünə keçdi.

Nvard:

- Ay qız, döşək, mütəkkə gətir! – dedi.

Siranuş yerindən qalxanda Baqrat qoymadı.

- Lazım deyil, qızım, otur yerində. Mən özümü peçin yanına verəcəyəm. Bu gün bayırda bərk soyuqdur. – O, stul çəkib peçin yanında oturdu. Əlini gur yanan peçdə qızdıra-qızdıra dedi: - Nvard, nə bişirmisən?

- Hələ heç nə.

- Bəs niyə belə?

- Mən ümid olmuşam qıza, bu da heç nə bişirməyib. Bu saat durub Arsen gədəyə toyuq kəsdirərəm.

- Toyuq-moyuq lazım deyil. Qış gününkü duru xəmir xörəkdir. Gəlsənə bir yaxnı[1] bişirəsən!

Nvard güldü:

- Yaxnı?.. Xörək tapdı…

- Niyə gülürsən? Ata-baba xörəyimizdir də…

- Özgə vaxt plova, kababa məhəl qoymursan…

- Arvad, həmişə plov, kabab yesəm daşım daş üstə qalmaz.

- Yaxşı, sənə bir yaxnı bişirərəm. Ancaq de görüm, Ayvaz kişi ilə sövdanız baş tutdumu?

- Tutdu. Amma çox danışdıqdan sonra. Vermirdi. Çox baha deyirdi. Axır ki, dədən yaxşı, nənən yaxşı, bir təhər razı saldım. Ancaq bizim nökər atı minib gətirəndə, Ayvazın gözləri doldu. Dedim, kişi, niyə ağlayırsan? Atı sənin əlindən zorla almıram ki, iki pud nar dənəsi kimi buğda verirəm, bir qoyun verirəm. Bu sözü deyəndə, kişi hönkürdü. Dedi: «Baqrat ağa, səmənd at sənə qismət oldu. Allah xeyir versin. Amma uşaqların bir aylıq taxılı olsaydı, bilsəydim ki, qışdan yaza çıxacaqlar, heç olmasa ağızları göy ota çatacaq, dırnağıma da döysəydilər satmazdım. Onu mən göz muncuğu kimi saxlamışdım…» Çıxardıb bir az da pul verdim, götürmədi. Dedi: «Neyləyirəm pulu, ona nə verirlər? Min manatına bir toyuq almaq olmur».

Qərəz, atı gətirdik. Amma at nə at! Vallah, elə bil ceyrandır! Dur sən öz işində ol, acam.

Nvard qalxıb getdi.

- Qızım, sən niyə danışmırsan?

- Mən sizə qulaq asıram, - deyə Siranuş yavaşca cavab verdi. – Sən bu qədər qoyunu, malı, atı neyləyirsən, ata? Töylələrdə onları saxlamağa yer də yoxdur.

Baqrat gülə-gülə cavab verdi:

- Yer olmaz, bir töylə də tikdirərəm. Çoxun ziyanı yoxdur, qızım.

---

[1] Y a x n ı - duru, xəmir xörəkdir.

Nvard bir azdan sonra Samvellə bərabər otağa qayıtdı.

- Barev, hayrikcan!

- Barev, oğul, barev! İndi gəldin?

- Elə bu saat atdan düşmüşəm.

Samvel xalçanın üstdə, Baqratın stuluna yaxın oturdu. Nvard da, bir aydan çox üzünü görmədiyi oğlunun söhbətinə qulaq asmaq üçün Siranuşla yanaşı əyləşdi.

Baqrat soruşdu:

- Üçtəpəni, Göbəkdaşı keçəndə nə yaxşı qara, borana düşməmisən. Oralar bərk soyuq olan yerlərdir.

- Qar nədir, şaxta nədir, ay ata, mənə indi qılınc da kar salmaz…

- Cavansan, onun üçün, oğul… Yeznən necədir?

- Kefi kök, damağı çağ. Musurman qoşununun ağzından vurub geri qaytarandan sonra kefi saz kimi dınqıldayır. Yeri gəlmişkən, onu deyim ki, yeznəm səni bərk tərifləyirdi.

- Nəyimi?

- Qoçaqlığını. Deyirdi ki, Baqrat Xaçaturyan olmasaydı, Sisyanın erməni kəndləri əldən getmişdi. Deyirdi, biz Qubadlı qəzasına hücum eləsək, Baqrat ağanı xmbapet təyin eləyəcəyəm.

Baqrat ucadan güldü.

- Bu yaşımda, bu qoca vaxtımda məndən xmbapet olar?! O sənin kimi cavan oğlanların işidir.

- Sən özünü qoca hesab eləmə. Vallah, tək başına yüz musurmana cavab verərsən… Qaldı məni – oğlunu təbrik eləyə bilərsiniz. Yeznəmiz vəzifəmi böyüdüb. Ata, bil və sevin: sənin dostun Karpovun yerinə keçdim. Zəngəzur qəzasında aparılan gizli işlər, axtarışlar hamısı indi mənim əlimdədir. Qərəz, vəzifəm çox böyükdür, sizə hər şeyi deyə bilmərəm…

- Mənim dostum nə oldu ki, sən onun yerinə keçdin?

Samvel kəndlilərin Karpovu nə üstündə və necə öldürdüklərini danışıb axırda atasına dedi:

- Ayıq olmaq lazımdır. Xınzirək kəndliləri Manuçar Sarumovun başına gətirdikləri işi əngələvidlilər də sənin başına gətirərlər.

Baqrat lovğa-lovğa dedi:

- Mənə heç kəsin dişi batmaz. Giyəvim bütün bir qəzanın kilidi-açarı, oğlum da naçalnik… - O, üzünü Nvarda çevirib dedi: - Daha yaxnı-zad bişirmə. Oğlum gəlib, bir yönlü xörək hazırla. Sən dur get, arvad.

- Yaxşı, gedirəm, qoy Samveldən bir söz soruşum. Oğul, yeznən bir söz demədimi? O, kəndə gəlməyəcək?

- Gələcək, on gündən sonra. Məni bura göndərən odur. Dedi, tək dolana bilmirəm. Siranuşun nə işi var qurtarsınlar, gəlib aparım. Daha nişanlı qaldığımız bəsdir.

Nvardın gözləri güldü:

- Doğruca deyir, bu qədər nişanlı qalmaq olmaz. Qaldı, qızın hər şeyi hazırdır. Paltarı, yorğan-döşəyi, qabı-qacağı, ta yer-yemişinə kimi alıb sandıqları

doldurmuşam. Maldan, qoyundan da nə qədər istəyər aparar. Kişi, sən niyə dillənmirsən?

- Mən nə deyim, ay arvad. Karo tək oğlandır, bizdən başqa burda heç kəsi yoxdur. Biz gərək həm qız toyu eləyək, həm oğlan. Mən razıyam. Gəlib nişanlısını aparsın.

Samvel dilləndi:

- Yeznəm dedi, zurna-balabanla toy eləməyəcəyəm. Qızı atımın tərkinə alıb, gətirəcəyəm Gorusa. Qaynatamın da böyük xərc çəkməsinə razı deyiləm.

Nvard:

- Yox, yox, bala, elə danışma! – dedi. – Mən buna razı deyiləm. Neçə ildir ki, gözümü dikmişəm qızımın toyuna. Niyə, Allaha şükür, dul arvad köçürmürəm… Zurna-balabansız toyun nə yaraşığı? Sənin fikrin necədir, Samvel?

- Mən də sən deyəni deyirəm, ana. Vur-tut, bircə bacım var. Ona gərək düz yeddi gün, yeddi gecə toy eləyəm.

Nvard:

- Qızım, sənin də nə işin var sahmana sal! – dedi. – Allah qoysa, toyunu bu günlərdə eləyərik…

Ürəyində başqa şeylər fikirləşən Siranuş, heç bir söz demədən, durub getdi.

Toya hamıdan çox tələsən Nvard dedi:

- Günü bu gündən toya hazırlaşmaq lazımdır. Siz, nə qədər adam çağırılacaq, neçə qoyun kəsiləcək, nə qədər düyü suya salınacaq – hamısını yaxşı-yaxşı fikirləşin, danışın. Mən gedirəm xörək hazırlamağa. Axşam bir yerdə oturub məsləhətləşərik.

Nvard getdi.

Ata ilə oğul toy barədə danışıb qurtardıqdan sonra, Baqrat təzə at aldığını Samvelə söylədi.

Samvel tövlədə ata baxıb qayıtdı.

- Ay sağ ol, ata! At deyil, ceyrandır, ceyran! Onu sənin bu naçalnik oğlun minəcək… Hə, nə deyirsən, gedəndə onu minimmi?

Baqrat dillənmədi.

- Ata, yoxsa təzə aldığın atı mənə verməyəcəksən?

- Mən onu başqa məqsəd üçün almışam.

- Hansı məqsəd? Yoxsa, xmbapet olanda özün minib qoşun qabağına düşmək istəyirsən?.. – Samvel ucadan güldü. – At mənimdir!

- Yox. Fikrim onu Karoya peşkəş eləməkdir…

Samvel qəhqəhə ilə gülərək:

- Can ata, can! – dedi. – Nikolay hökuməti səni rüşvət verməyə, peşkəş verməyə bərk öyrədib. Əşi, ay rəhmətliyin oğlu, Karo ki, sənin öz giyəvindir, ona nə rüşvət! Ona Siranuş kimi gözəl-göyçək bacı verirəm, cehiz verirəm, bəs deyil?..

- Mən də, sən də onun sayəsində başı dik gəzirik. Hər yerdə sözümüz ötür, oğul. Bir də, Karoya bir at bağışlamaq sənin öz başının ucalığıdır, sənin şöhrətindir.

- Belə çıxır ki, onu məndən çox istəyirsən. Nə deyirəm, istə. Elə qaynata, qaynana giyəvi çox istəyər.

- Ərə, yoxsa xətrinə dəydi? Yaxşı, özün min. At nədir ki, bütün var-dövlətim sənin deyilmi?!

Samvel:

- Mən səni sınayırdım, ata, - dedi. – Karo da oldu mənə qardaş. Səmənd atı ona özüm verəcəyəm.

Baqratla Samvelin söhbəti çox çəkdi.

Nvard gəlib onları yeməyə çağırdı. Durub o biri otağa getdilər.

İndiyədək Siranuşa müvəqqəti bir əyləncə kimi baxan Karo nişanlısının ölümü haqqında məktub alandan sonra, həqiqətən Siranuşla evlənmək fikrinə düşmüşdü. Odur ki, tezliklə Əngələvidə gəldi. Gəldiyi günün səhəri də toy başlandı.

Baqratın evində çalınan zurna-balabanın səsi kəndi götürmüşdü. Üç gün idi ki, adamlar yemək-içməkdən, çalıb-oynamaqdan yorulmaq, doymaq bilmirdilər. Nvard, Baqrat, Samvel fərəhdən az qalırdılar uçalar.

Böyük mülkədar və «Milli Şuranın» üzvü olan Baqrat ağanın qızının toyuna özü kimi «seçilmiş», adlı-sanlı adamlar dəvət olunmuşdu. Qonaqların əksəriyyəti başqa kəndlərdəndi. Bir tərəfdən general-qubernatorun, ikinci tərəfdən Baqrat ağanın qızının toyuna gələn bu adamlar qiymətli hədiyyələrlə gəlmişdilər. Biri qoç, biri inək, biri at, biri xalça, biri qızıl qolbaq, biri ipək yaylıq və sairə şeylər gətirmişdi.

Bu gün toyun üçüncü günü idi. Hərçənd Nvard şöhrət naminə toyu yenə üç gün uzatmaq istəyirdi, lakin Baqrat razı olmurdu: «Qonaqlar çox qalmaq istəmirlər, - deyirdi, - hamının işi, gücü var, daha bəsdir».

Yenə böyük, qara damda canlanma vardı. Bir tərəfdə plov qazanları dəmə qoyulmuşdu, bir tərəfdə şişlərə kabab çəkilirdi, bir tərəfdə kəllə-paça ütülürdü, bir tərəfdə butulkalara, qrafinlərə şərab, araq doldurulurdu.

Evin ikinci mərtəbəsindəki üç otağın ikisində qonaqlar, birində isə Siranuş və onun başına toplaşan qız-gəlinlər oturmuşdular.

Yemək stollarının arxasında oturmuş adamların səs-küyü otaqları, həyəti götürmüşdü.

Toy başlanandan məclisdə tamadalıq vəzifəsini ifa edən Manuçar Sarumov ayağa qalxdı, stəkanını yuxarı qaldırıb dedi:

- Ağalar, üç gündür ki, biz Baqrat ağanın evində, bax bu stol dalında oturub kef eləyirik. Bayırda qışdır, soyuqdur, bizə nə var! Kənddə biri acdır, biri toxdur, bizə nə var! Biz kef eləyirik! Ha… ha… ha… kef!.. Kababımız bol, arağımız bol, yerimiz də isti! Ha… ha… ha… İstəyirsiniz əmr eləyim bu saat quş südü də gətirsinlər. Mən tamadayam! Kim mənim sözümdən çıxa bilər?.. Hə, sözüm onda deyil… Ağalar, burda oturanların hamısının sağlığına ayrı-ayrı, neçə kərəm içmişik. Mən yenə bir sağlığa içməyi təklif edirəm. Qaldıraq bizim təzə bəyimiz, həm də general-nahankapetimiz cənab Karo Hamparsumyanın sağlığına! Allah bizim erməni millətinə onu çox görməsin.

Hamı yerindən qalxıb, stəkanını yuxarı qaldırdı. Lakin təzə bəy tamadadan söz istədiyi üçün heç kəs içmədi.

Karo ayağa durdu, hər iki əlini stolun kənarına qoyub qaşlarını çatdı, başının hərəkəti ilə üzünə tökülmüş telini geri ataraq, ağır-ağır dedi:

- Ağalar, qonaqlar! Mən Baqrat ağa kimi bir adamla qohum olduğuma şadam. O, yaxşı, el içində hörmətli kişidir. Mən də ki, general-qubernatoram, Zəngəzur qəzasını dolandırıram, pis-yaxşı – onu siz bilirsiniz…

Yerlərdən səslər ucaldı:

- Lap yaxşı dolandırırsan. Sözünü danış!

Karo heç kimin üzünə baxmadan, təmkinlə sözünə davam elədi:

- Mən başımı, canımı millətimin yolunda qoymuşam… Bəli, mən millətsiz, millət mənsiz nəyə lazımdır…

Kim idisə, kef havasına özünü saxlaya bilməyib yerindən söz atdı:

- Millətin sənin təkin dərrakəli başçısına millət qurban olsun!

Bu sözdən xoşu gələn Karo gülümsəyərək dedi:

- Mənim erməni millətindən başqa, heç bir malım-dövlətim yoxdur…

Yenə kim isə ortalığa söz atdı:

- Baqrat ağanın dövləti sənə oğulbaoğul bəsdir.

Manuçar dilləndi:

- Ərə, deməyin kefliyəm ha, hamısını eşidirəm. Yerinizdən söz atmayın! Karocan, sözünü de!

- Daha sözüm yoxdur. Mənim toyuma gəlmisiniz, yaxşı eləmisiniz. Yeyin, için. Mən sərxoş olanları tutub dama basmayacağam…

Hamı Karonun zarafatla dediyi son sözlərə güldü. Manuçardan başqa, hər kəs öz stəkanını başına çəkdi.

Manuçar səndələyə-səndələyə, adamlara toxuna-toxuna, əlindəki stəkandan şərab ora-bura tökülə-tökülə Karonun yanına gəldi.

- Mən bizim təzə bəylə, bax, bu Karo bəylə bir içəcəyəm! – dedi və stəkanını Karonun stəkanına vurdu. Hər ikisi içdi. – İndi səni öpəcəyəm! – Karonun boynunu qucaqlayıb, bir neçə dəfə öpdü. – Sənə anam qurban, Karocan! Malım, mülküm, torpağım sənə peşkəşdir, Karocan!

Manuçar Sarumov Karonu bir qədər tərifləyəndən sonra, yenə o yana, bu yana aşa-aşa öz yerinə qayıtdı. Ayaq üstdə duraraq dedi:

- Ağalar, stəkanlarınızı doldurun. Mən bir sağlıq da deyəcəyəm. Ancaq bəyin qaynanası da gəlsin. – O, ağzını qapıya tərəf tutub qışqırdı: - Ərə, kim var orda? Qızın anasına deyin: tamada, Xınzirəkli Manuçar ağa Sarumov, yəni mən özüm, əmr edirəm bura gəlsin!

Nvard gəldi. Qapının yanında ayaq üstə dayandı.

- Ərə, ona bir stəkan çaxır verin!

Baqrat bir boş stəkanı doldurub arvadına verdi.

Manuçar:

- Ağalar! – dedi, - götürün içək qızın atasının və anasının sağlığına! – Hər kəs öz stəkanını əlinə aldı. – Baqrat ağa, sən yaxşı kişisən, elə görürəm, maşAllah, arvadın da kefimə yatan arvaddır… Görməmişəm, qızınız da yəqin ceyran kimi qızdır. Hə, sözüm odur ki, içirik sizin sağlığınıza. Elə eyib olmasın, dalınızı Karonun dalına bərk bağlamısınız. Elə taylı tayını tapıb… Bizim bu gözəl oğlan,

Karocan – general nahankapet, Baqrat ağa da – birinci dövlətli. Allah bu işdə xeyrinizi versin. İçək!

Hamı içdi. Manuçar Nvarda müraciət elədi:

- Nvard bacı, bizə kabab göndər. İçki məclisində yemək gərək bol olsun. Hə, onu deyəcəkdim axı, bu gün toyun axırıncı günüdür. Yadından çıxmasın kəllə-paça! Nvard bacı, kəllə-paça!.. Axşam onu yeyəcəyik…

Nvard stəkanı başına çəkdi, fərəhlə razılıq eləyib getdi.

Baqrat stəkanını yuxarı qaldırıb dedi:

- Mənim bir oğlum var. Qızımı da verirəm Karoya, eləyirəm özümə oğul! Qoy qızım da, giyəvim də xoşbəxt olsunlar. Daha bundan yaxşı söz mən nə deyə bilərəm. Yeyin, için! – Baqrat stəkanını Karonun stəkanı ilə toqquşdurdu…

Bir azdan sonra boşqablarda, lavaş arasında isti, sütül kabab gətirdilər. Qonaqlar möhkəm yeyib-içəndən sonra, nökərlər gəlib süfrəni yığışdırdılar. Stolu kənara çəkdilər. Yer genişləndi. Öz vəzifələrini bilən zurnaçılar oyun havası çalmağa başladılar. Əvvəlcə tamada oynadı, sonra adamları bir-bir çəkib oynatdı. Baqratla Nvard, Samvellə Karo oynadı, nəhayət, o biri otaqda qız-gəlinin içində, gərdəyin dalında oturmuş Siranuşu zorla gətirdilər.

Manuçar çalğıçılara qışqırdı:

- Ərə, xalası göyçəklər, bəylə gəlinə layiq bir hava çalın!

Biri yerindən qışqırdı: «vağzalı» çalın, biri dedi: «xunqidzar» çalın, biri kef havasına əl-qolunu ata-ata dedi: «ranq» çalın, ərə, «ranq».

Çalğıçılar «vağzalı» çaldı.

Siranuş qollarını qaldıranda, Manuçar Karonun qolundan tutub:

- Dur ayağa! – dedi, - bəy öz toyunda oynayanda ucuzluq olar.

Gözlər oynayanlara dikildi. Nvardla Baqrat qızı ilə giyəvinin oynamasına fərəhlə baxırdı.

- Bəh, bəh! Sənə malım qurban, a belə general-nahankapet! – deyə Manuçar özü də yerində oynamağa başladı.

«Əhsən. Yaxşı oynayırlar! Bir-birinə yaraşır!» səsləri ucaldı.

Siranuş oyundan tez çıxdı. Əlindəki pulları çalğıçıların qabağına tullayıb getdi.

Toyda bir tamadalığı deyil, hər ixtiyarı əlinə almış Manuçar dedi:

- Ağalar, indi kilsəyə getmək vaxtıdır!

Gorusdan Karonun toyuna gəlmiş keşiş Mesrop otaqdan qabaqca çıxdı. Adamlar hər üç otaqdan eyvana, həyətə töküldülər. Baqrat Mesropun qulağına pıçıldadı:

- Uşaqların kəbinini özün kəsərsən.

Qızın atası ilə anasından başqa, toyda iştirak eləyənlərin hamısı, uşaqlar, cavan oğlanlar, qızlar həyətdən çıxdılar. Toyçular qabaqda çala-çala, onların dalınca Karo ilə Siranuş gedirdi. Karo adaxlısının qoluna girmişdi. Siranuşun gözü adamların içində Arzo kişini gəzirdi.

Cibinə bir butulka şərab, bir stəkan qoymuş Manuçar Samvellə yanaşı addımlayırdı.

Ürəyindən müxtəlif xəyallar keçirən, toy başlanan gündən qəmli və pərişan görünən Aşot da yavaş-yavaş kənardan gedirdi. Karo ilə Siranuşun qoşa yeriməsi onun ürəyinə qoşa dağ çəkirdi.

Qarlı küçələrdən keçib gedən, soyuğu hiss etməyən adamlar kilsənin həyətinə girdilər. Çalğıçılar, cavanlar, uşaqlar bayırda qalıb şərab içməklə, çalıb oynamaqla məşğul oldular. Bəylə gəlin, Samvel, keşiş Mesrop, qonaqlar və həmişə toylarda kavorluq[1] vəzifəsini ifa edən Seyran kilsəyə daxil oldular. Bəylə gəlin qabaqda, qalan adamlarsa onların arxasında dayandılar.

Keşiş Mesrop bir az aralıda, Karo ilə Siranuşun qarşısında, üzü onlara sarı dayandı. Sonra Karo ilə Siranuşa müraciət edərək, ağır-ağır dedi:

- İrəli durun, sizi evləndirirəm.

Bəylə gəlin bir-iki addım qabağa getdi. Keşiş hər ikisinin başını yavaşca əyib birləşdirdi, xaçı onların başları üzərində yuxarı qaldırdı. Vəzifəsini bilən kavor Seyran irəli gəlib, xaçın dəstəsini keşişdən alaraq özü saxladı.

Mesrop kəbin duası oxuduqdan sonra bəyə müraciət elədi:

- Səni Baqrat ağa Xaçaturyanın qızı Siranuşla evləndirirəm, razısan?

Karo başını bir qədər aşağı əyib dedi:

- Bəli, müqəddəs ata!

- Arvadın kor ola bilər, axıra kimi yeyə duracaqsan?

- Bəli, müqəddəs ata!

- Arvadın şil, əlil, xəstə ola bilər, axıra kimi yeyə duracaqsan?

- Bəli, müqəddəs ata!

- İndi, qızım, suallarıma sən cavab ver! Sən bu gündən olursan Karo Hamparsumyanın arvadı, razısan?

Üzü nazik, ipək yaylıqla örtülü olan Siranuş başı ilə razılıq işarəsi verdi.

- Ərin kor ola bilər, axıra kimi onu atmayacaqsan ki?

Siranuş başı ilə «yox» işarəsi verdi.

- Ərin şil ola bilər, xəstə ola bilər, axıra kimi onu atmayacaqsan ki?

Siranuş yenə başı ilə «yox» işarəsi verdi.

- Ərin səni döyə bilər, söyə bilər, ac və paltarsız saxlaya bilər, narazılıq eləməyəcəksən ki? Üzünə ağ olmayacaqsan ki?

Siranuş yenə də başı ilə «yox» işarəsi verdi.

Keşiş sorğu-sualını qurtardı. Manuçar ağzı açıq butulkanı və stəkanı keşişə verdi. Mesrop stəkanı şərabla doldurub Karoya uzatdı. Karo şərabı yarıya kimi içib, qalanını verdi Siranuşa. Siranuş da içdi.

Bundan sonra, keşişin icazəsi ilə hamı kilsədən bayıra çıxdı. Adamlar Baqratın evinə tərəf üz qoydular. Yenə zurnanın, nağaranın səsi, uşaqların hay-küyü kəndə yayıldı…

Evə çatmağa az qalmışdı ki, Arzo kişi qarşıda göründü. Ağacını yuxarı qaldırıb, bəy ilə gəlinin qabağını kəsərək dedi:

- Qabaqkəsdimi verməyincə, sizi buraxmayacağam. Gəlmişəm, aparmayınca getməyəcəyəm.

---

[1] K a v o r - bəylə gəlinin başları üzərində xaç tutan kişiyə deyirlər (ermənicə).

Onun axırıncı cümləsinin mənasını başa düşməyən Samvel irəli yeriyib soruşdu:

- A kişi, nə istəyirsən? Nəyi aparmayınca getməyəcəksən?

- Nə istəyəcəyəm? Qabaqkəsdimi verin. Məni toya çağırmadınız. Pul verin, mən də gedib sizin sağlığınıza dolanım. Vallah, mənim də könlümdən bu axşam içmək keçir…

Siranuş Arzonun sözü haradan gətirdiyini, nəyə işarə elədiyini dərhal anladı. Samvel Arzoya pul verdi. Yaylığın altından gözü Arzo kişinin üzündə olan Siranuş sağ əlini qaldırıb «get» işarəsi verdi. Arzo da bunun mənasını başa düşdü, yoldan çəkilib ağacına dirənə-dirənə getdi.

Adamlar, çalğıçılar həyətə girdilər.

Karonun anası olmadığından Nvard özünü onun anası hesab edərək, içi kətə və yer-yemişlə dolu olan sinini başına alıb bayıra çıxdı. Sini başında, oynaya-oynaya bəy ilə gəlinin ətrafına hərləndi, sonra qabı yerə qoydu, kətəni dörd bölüb bəylə gəlinin başının üstündən yerə atdı. Bu, təzə evlənənlərin gələcəkdə çörəkli olmalarına işarə idi. Nvard sinidəki yer-yemişi də bəylə gəlinin başlarına səpdi… Uşaqlar yerə tökülən yer-yemişi yığışdırmağa başladılar.

Qabaqda gəlinlə bəy, arxada başqa adamlar olmaqla, hamı ikinci mərtəbəyə qalxıb dayandı. Lakin heç kəs içəri girmədi. Çöl tərəfdən qapının astanasına bir çini boşqab qoydu qoydular. Gəlin onu ayağı ilə sındırıb içəri keçdi, sonra qalan adamlar otaqlara doldular. Gəlin yerə oturmadı. Baqratla Nvard gəlinə peşkəş verməyi vəd etdikdən sonra gəlin oturdu. Karo da onun yanında əyləşdi.

Çalmaq-oynamaq başlandı.

Axşam düşdü. Otaqlarda lampa yandırdılar.

Gəlini o biri otağa apardılar.

Qonşuluqda yaşayan və toyda iştirak edən cavan arvad – Nazik: «Ərinin sözünə bax, xoşbəxt ol, evli-eşikli, oğullu-qızlı ol!» deyə Siranuşa bəzək verməyə başladı. Siranuşun başına, qıraqlarına qızıl pullar tikilmiş qırmızı rəngli araqçın qoyub, onun üstündən ağ çarqat örtdü, belinə enli, gümüş kəmər bağladı. Ağ göyərçinə bənzəyən, yanaqları isə çıraq kimi yanan, boylu-buxunlu Siranuş gərdəyin dalında oturdu. Yanındakı gəlinlər, qızlar onu danışdırmağa, güldürüb əyləndirməyə başladılar.

Gəlini bəzəyib-geyindirdikdən sonra, Nazik gedib Karodan xələt istədi. Karo ona pul verdi.

Axşam kəllə-paça yeyildikdən sonra, bəyin və qonaqların qabağına dolu xonçalar qoydular. Hər xonçada bişmiş toyuq, halva, iki boşqab plov, yer-yemiş və gəlin üçün gətirilmiş bəzi qiymətli hədiyyələr vardı. Xonçalarda yanan şamlar onlara xüsusi gözəllik verirdi.

Bir azdan sonra Nazik pesindzor, yəni giyəv ağacını gətirib stolun üstə, bəyin qarşısına qoydu. Təqribən bir metr uzunluğunda, dördkünc yonulmuş bu ağacın çox yerindən açılmış deşiklərə kiçik çubuqlar sancılmışdı; onlara isə alma, armud, nar, konfet və rəngli kağızlar keçirilmişdi. Ağacın başında bir-birinə rəbt olunmuş üç şam, qalan yerlərində isə tək-tək şamlar yanırdı.

Giyəv ağacını, yəni bəyə xoşbəxtlik verəcək bu ağacı gətirən Nazikə Karo pul verdi.

Axşamdan xeyli keçmişdi. Hələ gündüzdən sərxoş olan Manuçar ayağa durub dedi:

- Ağalar, toyun axırıncı gecəsidir. Amma bu gecəni səhərə kimi yatdı yoxdur! Bir kişi gözünü yumsa, ona düz iki tuluq çaxır içirdəcəyəm. – O, üzünü çalğıçılara tutdu. – İndi meydan sizindir, yaxşı havalar çalın, adamın ruhunu bacadan çıxardan sözlər oxuyun!

Balabançılar çaldılar. Girdə sifət, yoğun bədən, törə boy nağaraçı şövq ilə oxumağa başladı.

Onun məlahətli, gur səsi eyvandakıları, qara damdakıları, o biri otaqdakıları çəkib gətirdi. Hamı onun mahnısını böyük maraqla dinləyirdi:

Uca dağlar, ay dağlar,
Səs verirəm, vay dağlar!
Siz də mənə səs verin,
Hər dərdimə tay dağlar!

Ah, ölərəm, o, birdən
Xəbər tutar, qəflətən…
Qurtararam mən dərddən,
O, gözü yaşlı qalar!..

Manuçar əlini qaldırıb çalğıçılara dedi:

- Dayanın, dayanın!

Çalğıçılar kəsdi. Manuçar dedi:

- Ərə, xalası göyçək nağaraçı, toy məclisində ölüm nədir, ağlamaq nədir?! Yaxşı-yaxşı sözlər oxu, elli… Qoy bəyin kefi açılsın! Hə, başla!

Balabanın, nağaranın, oxuyanın səsi təzədən otağı götürdü:

Cənnət kimi bağımın
Çiçəklənən vaxtıdır.
Çirkin qız gözəl ərə
Gedir, onun baxtıdır!

Barmağımda şəfəqi
Üzə düşən üzük var.
Xoruzlar, səs salmayın,
Yar yuxudan oyanar!..

Manuçar qışqıra-qışqıra dedi:

- Hamınız oxuyun:

…Xoruzlar, səs salmayın
Yar yuxudan oyanar!..

Hamı bir ağızdan Manuçarın oxuduğu misraları təkrar etdi. Gülüş səsi otağı götürdü…

Siranuş ayağa qalxdı.

- Qadan alım, sən də o biri otağa gedirsən? Oxumağa qulaq asmaq istəmirsən? – deyə Nazik soruşdu.

Siranuş başının ağrıdığını, bir qədər bayırda dayanmaq istədiyini onun qulağına pıçıldayıb eyvana çıxdı. Ayaqlarının ucunda pilləkəndən həyətə endi. Ətrafa nəzər saldı, heç kəsi görmədi. Tez darvazadan küçəyə çıxdı…

Balabançılar və nağaraçı bütün məharətləri ilə məclisə nəşə verirdilər…

…Çalğıya və oxumağa qulaq asmayan yalnız Aşot idi. O, zirzəmidə tək oturub qara çırağın işığında şərab içirdi. O, bu toy günündə dəmdən yox, qəmdən içirdi.

Aşot qırmızı şərab dolu stəkanı yuxarı qaldırıb fikirləşdi:

«Hm… Karo ilə Siranuşun toyunda, soyuq zirzəmidə çaxır içirəm… - O, acı-acı gülüb stəkanı başına çəkdi. – Kül olsun mənim başıma! Daş düşsün mənim başıma! Bu toy gərək Siranuşla mənim olaydı… Ah, necə ürəyimə dağ çəkildi! Necə bədbəxt oldum!.. Siranuş, mən sənə yarıyasan deyim, yarımayasan deyim?!. Sənə qarğış eləməyə dilim gəlmir… Amma sən çox nainsaf oldun. Bilmədin ki, mən səni gözümün üstündə saxlayardım. Mən sənə ölənəcən qul olardım… - Aşot stəkanı götürdü. – Eh, üzün qara olsun, kasıblıq!.. – deyə dərindən ah çəkdi. Gözündən iki-üç damla yaş axıb stəkana düşdü. Aşot şərabı bir nəfəsə içdi. Əlini alnına qoyub fikrə getdi: - İşdir, Siranuş Karo ilə yaşaya bilməyib, atası evinə qayıtsa, onu alarammı? Alaram. Onun quru nəfəsi mənə bəsdir».

Şərabın təsirindən beyni, bədəni qızışan, özündə bir cəsarət hiss edən Aşot yanına qoyduğu tüfəngə baxdı: «Dəli şeytan deyir, dur çıx yuxarı, gir otağa, beş patronun beşini də doldur Siranuşun ürəyinə. Qoy səndən də olsun, Karodan da! Yox! Mən nə danışıram?! Adam sevdiyini öldürərmi? Amma Karonu, o əzazili öldürsəm, ürəyim yenə soyumaz. Yaxşı, deyək ki, bu saat tüfəngi götürüb çıxdım eyvana, pəncərənin dalından onu nişan aldım, dalbadal iki-üç güllə atdım… Bəlkə dəymədi… Bəlkə onun yerinə başqası öldü, onda məni… Yox, yox… hələ bir stəkan da içim…»

Aşot butulkanı götürəndə, Nazik əlində çıraq içəri girdi.

- Sən niyə məclisə getməyib, özünü bura vermisən?

- General-nahankapet ağam deyib: «Sən bu məclisin adamı deyilsən, gözə görünmə». Mən də zirzəmidə tək oturub, özüm üçün kef eləyirəm. Yoxsa məni çağırmağa gəlmisən?

- Yox, Siranuşu axtarıram, buralara gəlməmişdi ki?

- Necə? Siranuşa nə olub ki?

Nazik bir söz deməyib, tez zirzəmidən çıxdı.

Aşot fikirləşdi: «Yaxşı, hələ bu nə fırıldaqdır? Gəlini məndən niyə soruşurlar?..»

Nazik zirzəmidən gedəndən sonra, tövləyə, samanlığa, bağçaya – güman gələn hər yerə baxdı. Lakin Siranuşu heç yerdə görmədi. O, yuxarı çıxarkən ürəyində deyirdi: «Bıy, Allah sən saxla! Gəlini cin-şəyatin aparmadı ki!.. Başıma daş düşsün mənim. Niyə onu tək bayıra buraxdım?!»

…Çalğıçılar axırıncı havanı çalıb qurtardılar.

Manuçar:

- Allah mübarək eləsin! – dedi. – Allah onları bir yerdə qarıtsın. Camaat, indi dağılışmaq vaxtıdır. Gecədən xeyli keçib.

Adamlar ayağa qalxdılar, qapının ağzında dayanmış Baqratla Nvarda «Allah xeyir versin, ay Baqrat ağa! Oğullu-uşaqlı olsunlar, ay Nvard bacı! Allah oğlun Samvelə də belə toy qismət eləsin!» deyə bir-bir getdilər. Başqa kəndlərdən gələn qonaqlar gecələmək üçün Baqratgildə qaldılar.

Nvard gəlin otağına getdi.

- Bəs Siranuş hanı? – deyə Nazikdən soruşdu.

Guya heç bir şey bilmirmiş kimi Nazik cavab verdi:

- Bir az bundan qabaq çalğı çalınan otağa getdi.

- Siranuş orda yox idi! – deyə Nvard gərdəyin dalına baxdı. Tez qayıdıb eyvana çıxdı. Ordan həyətə göz gəzdirdi. Pilləkənlə aşağı enəndə, əri ilə rastlaşdı.

- Hara gedirsən?

- Evin dağılmasın, kişi, axı qız yoxdur!..

- Nə deyirsən? Necə yəni qız yoxdur?

Onlar gəlin otağına girdilər. Nazik, onu dolaşdırmasınlar deyə, çıxıb öz evinə getmişdi.

Nvard dedi:

- Mən o biri otaqdan gəldim. Gördüm qız öz yerində yoxdur… Otaqlara, həyətə, hər yerə baxmışam.

- Bəs onun yanında qız-gəlin oturmamışdı?

- Nazik burda idi. Qalanlar o biri otaqda çalğıya qulaq asırdılar.

- Bəs sən niyə qızının yanında oturmurdun?! Bilmirdin ki, Karoya getməyə əvvəldən könlü yoxdur?!

- A kişi, indi o sözlərin yeri deyil. Uşağı axtarıb tapmaq lazımdır. Vay, evin yıxılsın canım… Qızın başına nə gəldi?!

- Belə də oyun olarmı mənim başıma gəldi! Belə də biabırçılıq olarmı?! – deyə Baqrat özündən çıxdı. – Mən Karoya nə cavab verəcəyəm? Siranuş hara getdi? Kimlə getdi? Nə bilim, bəlkə gedib özünü Bazarçayına atdı?!

Nvard özünü döyə-döyə ağlamağa başladı. Onun hönkürtüsünə Samvellə Karo gəldi.

- Ana, niyə ağlayırsan?

- Ay Samvel, bacın yoxdur! Siranuş elə bil evdən göyə çıxıb, uçub! – deyə Nvard üzünə əl atdı…

Samvel donub qaldı.

- Necə? Siranuş yoxdur? – deyə Karo qışqırdı. – Bu fırıldaqdır! Sən Baqrat ağanın mənim başıma açdığı fırıldaqdır! Siranuşu hardasa gizlətmisiniz. Verin mənim arvadımı, yoxsa evinizi başınıza uçurdaram. Fikriniz məni camaat arasında rüsvay eləmək imiş?!

Heç kəs cəsarət edib Karoya bir söz deyə bilmədi.

Karonun qışqırığına qonaqlar tökülüb gəldilər. İşdən hali olan qonaqlar bu əcaib işə çox təəccüb etdilər.

Manuçar dedi:

- Bəs niyə durmusunuz? Burda mübahisə eləməkdən, söyüşməkdən nə çıxar! Qızı axtarmaq lazımdır!

- Həyəti, töyləni, samanlığı – hər yeri axtarmışıq. Heç bir adamın ağlına gəlməyən iş mənim başıma gəlir. Ta haranı axtaraq… Görəsən bu kimin qurmasıdır.

Qonaqlardan biri:

- Sən nə avam adamsan, Baqrat ağa! – dedi. – Qız töylədə, samanlıqda nə gəzir. Onu yəqin başqa kəndə qaçırdıblar. Durmayın, atlanıb hərəmiz bir tərəfə gedək. Bəlkə yolda rast gəldik…

Karo qəzəbdən dodaqlarını çeynəyə-çeynəyə dedi:

- Mənə sataşsınlar?! Toy gecəsi mənim arvadımı qaçırsınlar?! Mən bu evə od vuracağam! Bu kəndi alt-üst eləyəcəyəm! Bu kələk kimin kələyidir? Kaş onu biləydim!..

- Qızı tapandan sonra hər şey bilinəcək, cənab general-nahankapet! – deyə Manuçar onun qolundan tutub çəkdi. – Gedək, gedək gəlini axtarmağa. Bütün qəzanı kəndbəkənd, evbəev gəzək!..

Özünü döyən, başını yolan, qızını qaçırana lənət, qarğış yağdıran Nvardın ağlamaq səsi bütün gecəni kəsilmədi.

Siranuşun itməsinin sirrini Arzo kişidən başqa heç kəs bilmirdi. O, bilirdi ki, bu qarlı, şaxtalı qış gecəsində üç adam Xınzirəyə doğru gedir. O, bilirdi ki, onların qabağını yüz qaçaq-quldur da kəssə, Surenlə Hayk Siranuşu verməyəcəkdir…

Haykla Surenin Əngələvidə getməsindən Şuşanik çox narahat idi. O, gecə yarısına kimi yata bilmədi. Durub həyətə, küçəyə çıxdı. O yana, bu yana baxdı. Bir qədər gözlədi, üşüdüyündən evə qayıtdı. Dünyanın işlərindən xəbərsiz yatan balaca, sevimli oğlunun yanında uzandı. Gözünü yumdusa da, yuxulaya bilmədi. Bir həftə əvvəl onlara gəlmiş Arzonun Surenə dediyi sözləri xatırladı: «…Oğul, Suren, məni sənin yanına göndərən Siranuşdur. Deyirdi ki, bu il yanvarın on beşində məni Gorusa, həmin adama gəlin köçürürlər. Əgər səndə məhəbbət varsa, dalımca gəl».

Kürsüdə uzanmış Şuşanik çox fikirləşdi. Nəhayət, təndirin istisindən xoşallanıb yuxuya getdi.

Dan yeri sökülən zaman qapı döyüldü. Səksəkəli yatan Şuşanik o saat gözünü açdı. «Görən Haykgildir, ya mauzerli ciyəri yanmışlardır? – deyə fikirləşdi. – Bəlkə onlar Vahan dayını tutublar, indi də gəliblər Haykla Sureni aparmağa?..»

Qapı bir də döyüldü.

- Kimsən?

- Bizik, qapını aç!

Şuşanik ərinin səsini tanıdı, qapını açdı.

Hayk dedi:

- Qonağı qəbul elə, Şuşanik. Mən də atları töyləyə çəkim.

Hayk Şuşanikin əmisi oğlunun kəhər atını və qaynatasının boz madyanını tövləyə apardı. Surenlə Siranuş evə girdilər.

- Sən bizə xoş gəlmisən, qadan alım! – deyə Şuşanik qafqazlılara xas olan mehribanlıq və qonaqpərəstliklə Siranuşu qəbul elədi. Onun boynunu qucaqlayıb buz kimi yanaqlarından öpdü. – Bu yoxsul komamız sənə qurbandır!

Şuşanik kürsünün baş tərəfindəki palazın üstünə döşək saldı.

- Keçin oturun. Yəqin ki, Suren qardaş, bərk üşümüşsünüz. Kürsüyə girin, qızının.

Siranuş başmaqlarını, Suren çarıqlarını çıxardıb oturdular.

Bir azdan Hayk da gəldi, o da o biri tərəfdən oturub özünü kürsüyə verdi və gülə-gülə:

- Hə, necə gəlin gətirmişik, Şuşanik? – dedi. – İndi olarsınız bacı, bu evdə mehribanca yaşayarsınız.

Siranuşun qara gözlərinə, gərgin qaşlarına, nazik dodaqlarına, soyuqdan pul kimi qızarmış yanaqlarına, nəcib burnuna ayaq üstə tamaşa edən Şuşanik dedi:

- Çox gözəl gəlindir. Vallah, dünyanın maralını gətirmisiniz. Siranuş bu gündən mənim bacımdır. – Şuşanik Siranuşun yanında oturdu. – Bura bax, sən Allah, qızı elə toy paltarında gətirmisiniz. Suren qardaş, daha sizin qoçaqlığınıza sözüm yoxdur!.. Barı sizi görüb eləyən olmadı ki? Qızı necə aradan çıxartdınız?

Hayk:

- Hər şeyi sonra Siranuş özü sənə danışar, - dedi. – İndi zəhmət çək, dur ayağa, bizə yağlıdan-yavandan bir şey ver, acıq. Ancaq elə şey olsun ki, canımızı qızdırsın.

Şuşanik ayağa qalxdı. Nə bişirəcəyini fikirləşə-fikirləşə evin bir bucağına getdi. Ocağı qaladı.

Siranuşun könlünü açmaq üçün Hayk zarafatla dedi:

- Siranuş bacı, gördün biz necə qoçaq oğlanlarıq! Səni Baqrat ağanın ikimərtəbəli, haşan-kaşanlı evindən götürüb bu yoxsul, qara dama gətirdik. Belə evdə yaşamağa sən də öyrənərsən…

Siranuş dedi:

- Hayk qardaş, qara damda xoşbəxt yaşamaq, bəzəkli otaqda dərd çəkməkdən yaxşıdır.

Hayk bərkdən güldü.

- Eşitdinmi, Suren! Ərə, bu Siranuş bacı elə kasıb-kusub tərəfdarı imiş ki!.. Sən ölməyəsən, doşab almışıq bal çıxıb. – Hayk nə isə fikirləşdi, sonra dedi: - Allaha and olsun, bu saat Baqrat ağanın evində bir vəlvələdir ki, gəl görəsən… Yəqin hər bir tərəfdən düşüblər Siranuş bacını axtarmağa. Qoy axtarsınlar. Şeytanın da gümanı getməz ki, Siranuşu Əngələviddən Xınzirəyə gəlin aparıblar…

Bir qədərdən sonra Şuşanik bişirdiyi südlü yarma çəkməsini iştahla yedilər. Heç kim yatmaq istəmirdi.

Yenidən söhbət başlandı.

Gün çıxanda Şuşanikin oğlu da yuxudan ayıldı. Anası onu geyindirib əl-üzünü yudu. Ocağın yanında yedirtdi. Sonra gətirib Siranuşun yanında oturtdu.

Siranuşa çox diqqətlə baxan uşaq, nədənsə ürkmüş kimi, birdən üzünü çevirib anasının boynunu qucaqladı.

Şuşanik:

- Bir ona bax, - dedi. – Gör bizə nə qəşəng xala gəlib…

Uşaq yenə diqqətlə Siranuşa baxdı. Siranuş gülümsünərək Şuşanikə dedi:

- MaşAllah, nə qəşəng oğlun var, Şuşanik bacı.

Uşaq birdən əlini onun araqçınındakı qızıl pullara atdı. Hamı onun bu gözlənilməz hərəkətinə güldü.

- Adam şuluqçu olmaz! – deyə Şuşanik tez onun əlini geri çəkdi.

- Bundan başqa uşağınız varmı?

- Yox, Siranuşcan. İlkimizdir.

- Allah saxlasın.

Hayk dedi:

- Ay Şuşanik, oğlunla az oyna, camaat yuxusuzdur. Uşağı ver mənə, yer sal.

Şuşanik oğlunu ərinə verəndə, uşaq qollarını açıb Siranuşa tərəf əyildi.

Siranuş uşağı dizi üstünə aldı və danışdırmağa başladı.

Şuşanik iki yer saldı.

- Mən atları aparıb sahiblərinə verim, sonra gəlib yataram! – deyə Hayk ayağa qalxdı. Arvadına da başı ilə işarə elədi…

- Mən də atamgilə gedəcəyəm, işim var, - deyə Şuşanik qalın yun şalını başına örtüb oğlunu qucağına aldı.

Haykla Şuşanik evdən çıxdıqdan sonra otağı bir an sükut bürüdü. Suren durub qapını bağladı. Bir yorğan-döşəyə baxdı, bir başını aşağı dikmiş Siranuşa.

- Evdə tək qaldıq… Zurnasız, balabansız toyumuz mübarək olsun!

Siranuş başını qaldırdı. Onun vəfa, ismət və məhəbbət ifadə edən gözləri güldü.

- Canavarın ağzından sənin kimi körpə quzunu xilas etmək də bir qələbədir, Siranuş! – deyə Suren incə bir nəvazişlə onun balaca əlindən tutdu…

Bu gün iki könlün hicranının sonu, vüsalının başlanğıcı idi…

Sən ey coşqun gənclik, sən ey ülvi məhəbbət! Sizin atəşinizin qabağına nə dayana bilər! Dünyada sizdən gözəl, sizdən ətirli hansı bahar ola bilər?!.

Dəqiqələrmi, saatlarmı keçdi? Kim bilir… Həyatlarının ən şirin dəqiqələrini yaşayan sevgililəri saatmı, vaxtmı maraqlandırırdı!..

Onların uzun həsrətdən sonra vüsalına şahid olan bu dost evinin sükutu pozuldu. Onu pozan bayırdakı küləyin səsi idimi? Yox! Qara damın sükutunu pozan onların bahar təranəsini andıran gülüşləri idi. Siranuşla Suren bir-birinin təmiz nəfəsini uda-uda yavaşdan danışır və gülüşürdülər. Quşların nəğməsindən xoş, Zəngəzur bulaqlarının şırıltısından ahəngdar olan sözləri-söhbətləri uzandıqca şəkərə, bala dönürdü…

Əzab-əziyyətin min bir fırtınasından keçirib, bakir saxladığı qəlbini aşiqinə təslim edən Siranuş xoşbəxt idi. Onun çöhrəsi, qara buludlardan çıxmış günəşi xatırladırdı. O, toyunu, bayramını yalnız indi hiss edirdi.

Şirin dəqiqələr, saatlar ötüb keçdi…

…Siranuş başını Surenin qolunun üstündən götürdü – elə bil, on dörd gecəlik ay üfüqdən baş qaldırdı. Siranuş geyindi – elə bil, evə bir ağ göyərçin qondu. Siranuş ayağa qalxdı – elə bil, nər qoynundan bir maya çıxdı. Siranuş yorğan-döşəkləri yükə yığıb qayıtdı – elə bil, qara damda bir xınalı kəklik səkdi. Siranuş kürsüdə Surenlə yanaşı oturdu – elə bil, yer kürəsinin cazibə qüvvəsi səmanın ən gözəl gəlini olan bədirlənmiş ayı öz yanına çəkdi…

Onlar bir-birinə baxıb, sözsüz gülümsədilər. Bəli, sözsüz! Bir kitablıq söz o baxışlar qədər iki qəlbin məhəbbətini, səadətini ifadə edə bilməzdi!..

Axşamdı. Hayk, Şuşanik, Suren və Siranuş şirin söhbət edirdilər. Surenlə Hayk tez-tez qapıya tərəf baxırdılar. Gözlədikləri adam Vahandı.

Nəhayət, qapı yavaşcadan döyüldü. Siranuşun rəngi qaçdı. O, özünün yox, Surenin ələ keçməsindən qorxdu. Ona elə gəldi ki, atası, qardaşı və toyu yasa dönmüş Karo bu saat qapını sındırıb içəri dolacaqlar, Sureni də, onun özünü də evdəcə güllələyəcəklər.

Hayk tez yerindən qalxıb qapıya sarı gedəndə Siranuş Surenin böyrünə qısıldı.

- Yəqin bizi axtarırlar, - deyə pıçıldadı.

Suren:

- Qorxma, Siranuş! – dedi və tapançasını çıxartmaq üçün əlini cibinə saldı.

Hayk qapıya yanaşıb:

- Kimsən? – deyə soruşdu.

- Aç, mənəm.

Hayk bayırdakı kim olduğunu bilib qapını açdı.

Vahan içəri girib salam verdi, ayaqlarının qarını təmizlədi, başlığını açdı.

- Bayırda həm külək var, həm şaxta. Yollarda da qar dizdəndir.

- Kürsüyə gir, Vahan dayı! – deyə Hayk oturmaqçün ona yer göstərdi.

- Mən burda təzə adam görürəm! – deyə Vahan gülümsündü.

- Hə, Suren qardaşın arvadıdır. Siranuşdur, Haykla Suren qardaş dünən gecə gətiriblər.

- Aha, belə de! Çox mübarəkdir! Çox yaxşı eləyiblər. Xoşbəxt olasınız, qızım! – Vahan Siranuşla əl tutduqdan sonra kürsüyə girdi. – Siranuş, Siranuş! Surenin gəlin gətirdiyi gözəl qız budur! Özüylə danışmasam da, qiyabi tanışam. Demək, toyu mənsiz eləmisiniz? – Nə əcəb Baqrat ağa qızını bizim Surenə, bu kasıb, evsiz-eşiksiz bolşevikə verdi?

Ortalığa deyilən, ancaq əslində Siranuşa verilən bu suala Siranuş cavab vermədi.

Hayk bütün əhvalatı Vahana danışdı və axırda dedi:

- Siranuşun qoçaqlığı ondadır ki, öz eşqini nə Karonun vəzifəsinə qurban verdi, nə atasının var-dövlətinə.

Vahan dedi:

- Bəli, Surenin də qoçaqlığı ondadır ki, sevdiyi bir qızı sınaqlardan keçirtdi, axırda da onu düşmənin əlindən qurtardı. Eşq, məhəbbət özü böyük dövlətdir. Müsəlmanlarda misal var: eşq olmayan yerdə ölüm yeli əsər. Nə isə, indi Siranuş da oldu bu ailənin bir üzvü. Ona görə də sözümüzü, sirrimizi möhkəm saxlamalıdır.

Mətləbi başa düşən Siranuş gülümsündü. Bu gülüş Vahanın sözlərinə bir cavab oldu: «Mən ömrümün sonuna qədər etibarlı olacağam!»

Vahan soruşdu:

- Şuşanik, uşaq gözümə dəymir, yatıb?

- Bəli. Sən gedəndən məni həlak eləyib. Gah «baba, baba» deyib ağlayır, gah da dəsmalı mənə verir ki, dovşan qayırım. Sənə bərk öyrənib, Vahan dayı.

Vahan əlini şalvar cibinə salıb bağlı dəsmal çıxartdı.

- Al, Şuşanik, - dedi, - tut qurusudur. Sabah ver ona. Gürcülüdə evində olduğum adamın anası Badam qarı verib ki, yolda yeyim, mən də uşağa gətirdim.

- İndi, arvad, dur bir çay qaynat. Daha sizdən nə gizlədim, bayaq mənə pıçıldayırdı ki, Vahan dayı soyuqdan gəlib, şirnimiz də yoxdur ki, çay qoyam.

- Çay lazım deyil, tutu mənim dostuma saxla.

- Eybi yoxdur, ona da saxlaram, - deyə Şuşanik qalxdı.

Şuşanik ocağı yandırıb çaydanı üstünə qoydu.

Vahan, Levonla Makiçi müdafiə etdiyi gün Karonun əlinə keçməmək üçün Xınzirəkdən Gürcülüyə getdiyindən danışırdı:

- …Bəli, işimizin pisliyi orasındadır ki, Gürcülüdəki yoldaşlarla hər saat, hər gün görüşə bilmirik, bir-birimizlə əlaqə saxlaya bilmirik. Nə isə. Mənim ora getməyim bir növ yerinə düşdü. Comərd məni iki adamla tanış elədi. Onun biri Bərgüşad çayından gəlmiş Camal idi. – Vahan həbsdən qaçıb, Gürcülüyə gəlmiş Camalın başına gələn əhvalatı, Nəbinin ailəsinin fəlakətini, Növrəstənin Şahmərdanla nə üçün ayrıldığını, Baxış bəyin öldürüldüyünü danışdı. – O biri də Gürcülü partiya özəyinin üzvü Mürsəl Nəbiyev idi. Savadlı adamdır. Bizim müsəlman yoldaşlar onun evində qalırlar. Nəbiyev mənə partiya təşkilatının gördüyü işlərdən danışdı. Orda da kəndlilər bəylərə, mülkədarlara qarşı çıxış edirlər. Yerlərini zorla əkirlər. Kəndlilər vergi yığmağa gələn müsavat nümayəndələrini qovub kənddən çıxardırlar. Bəylərə daha bəhrə vermirlər. Onun dediyindən belə çıxdı ki, camaat müsavat qoşununun Zəngəzura hücum eləməsindən çox narazıdır. Nəbiyev dedi ki: «Məni müsavat ordusuna aparmışdılar, bolşevik olduğumu bilmirdilər. Məndən başqa da bolşevik əsgərlər vardı. Bir-birimizi tanıyırdıq… Müsavat qoşunu Zəngəzura hücum eləyəndə biz güllə atmırdıq. İnandığımız əsgərləri də başa salırdıq ki, onlar da atmasınlar. Qardaş qırğınına başlayanları ifşa eləyirdik». Nəbiyev, daşnaklar tərəfindən öldürülmüş bir müsavat əsgərinin cibindən tapdığı maraqlı bir məktubu mənə oxudu. Mən onun məzmununu yaxşı yadımda saxlamışam. Belə idi:

«Əzizim və mehribanım ata! Evimizdən ayrıldığım dörd aydır. Bu kağızı sənə Keçəldağdan yazıram. Ata, iki gündür ki, ermənilərlə dava gedir. Mən ölümdən qorxmuram, amma davaya gəldiyimə də peşmanam. Özüm-özümə sual verirəm ki, axı biz kəndli balaları davanı kimin xeyrinə eləyirik? Sultan bəylərin, Xosrov bəylərin, dövlətlilərin, ağaların xeyrinə?.. Mən bir güllə də atmamışam. Buna əlim gəlmir, ürəyim yol vermir. Hər erməni adı çəkiləndə mənim yadıma sənin dostun Dığlı Artaşes düşür. Onun bizə gəlməsi, bir yerdə çörək yeməyiniz, şirin-şirin söhbət eləyib gülməyiniz, dərdləşməyiniz gözümün qabağından getmir. İndi mən ona, onun oğluna, qohumuna, kəndlisinə necə güllə ata bilərəm?!»

Şuşanik şiri getmiş köhnə podnosda kəklik otu çayı, tut qurusu gətirdi və Siranuşun yanında oturdu.

- Heyif ki, o cür oğlanı öldürüblər! – deyə Hayk hərənin qarşısına bir stəkan qoydu.

Vahan çayı içə-içə dedi:

- Müsavat qoşununu geri çəkilməyə məcbur edən səbəblərdən biri də elə əsgərlərin təbliğatı və hərəkətləri oldu… Mən orda başqa bir məsələ də öyrəndim:

ermənilər, daşnakların özləri müsəlman kəndlərinə gizli tüfəng-patron aparıb neftə, duza, qoyuna, taxıla və başqa şeylərə dəyişirlər.

Suren gülə-gülə dedi:

- Yaxşı işdir… İngilislərdən, amerikanlardan alıb müsəlmanlara satırlar…

- Bəli, satırlar, alırlar… Silah bizə də lazımdır. Levonla Makiçin silahı olsaydı, Karpovu daşla yox, silahla öldürərdilər. Manuçar Sarumovu da vurub yıxardılar onun üstünə. Yeri gəlmişkən deyim ki, onlar Qundanlıdadırlar. Levonun müsəlman tanışının evindədirlər, Şahmərdanın o kəndə gedib onlarla danışmasını lazım bilmişik. Bəlkə gələcəkdə bizə lazım oldular. Nə isə, biz silah barəsində danışırdıq…

Hayk onun sözünü kəsdi:

- Mən tüfəngin-patronun yerini sizə o vaxt dedim.

- Demisən, bu barədə danışmışıq. İndi gəlin silahı ələ necə keçirmək barədə məsləhətləşək.

Şuşanik ayağa qalxıb evin bir bucağında yer saldı. Cecimin hər ucunu bir dirəyə bənd eləyib, pərdə kimi asdı, Siranuşu yatmağa çağırdı.

Vahan, Suren və Hayk silahlanma haqda düşünməyə, məsləhətləşməyə başladılar.

## On ikinci fəsil

Peçin yanında, xalçanın üstündə oturmuş ananın fəryadı otaqdan kəsilmirdi. Beş gün idi ki, Nvard gecə-gündüz ağlayır, özünü döyür, üz-gözünü cırırdı. Yuxusuzluqdan və ağlamaqdan gözləri qan çanağına dönmüşdü.

- Siranuş, mən səni böyütdüm, əzabını çəkdim, əyninə toy paltarı geydirdim. Bəs sən harda qeyb oldun, bala? Səni kim yoldan çıxartdı, kim apardı? Evimi kim yıxdı? – Nvard iki əlli dizlərinə çırpdı. – Vay, bədbəxt olan canım! Vay, balamın öldü-qaldısından xəbəri olmayan canım! – O, lal-kar oturmuş əri ilə oğluna acıqlı-acıqlı dedi: - İkiniz də biqeyrətsiniz… Başınızdakı papaq deyil. Niyə qızı axtarıb tapmırsınız?..

- Biz nə eləyək, ay ana!..

- Niyə dünyanı bir-birinə vurmursunuz? Niyə bütün mahalın kəndlərini, evlərini alt-üst eləmirsiniz? Nəyi gözləyirsiniz? Heç kəsin başına belə oyun gəlməmişdi, mənimkinə gəldi. Siranuşsuz daha mən niyə yaşayıram. Gəlin balam ey… Siranuş balam ey… - O, yenə əlini üzünə atdı…

- Bəsdir, arvad! Səsin kəndin o başına gedir. Özünü öldürcək qız tapılmayacaq ha…

Nvard ərinin üstünə qışqırdı:

- Kəs səsini! Tapılmayacaq! Tapılmayacaq! Sənin kimi atası olan uşağı oğurlayarlar da, başını da kəsərlər…

- Mən nə eləyim, ay arvad. Dörd gündür ki, beş adam gecə-gündüz axtarırıq. Yaxın kəndlərin hamısına getmişik. Kəndin kahalarına, Bazarçayının qıraqlarına, dağlara, dərələrə, hər yerə baxmışıq, nə rəddi-izi görünür, nə də bir gördüm deyən

var. Daha bu qışın günündə mən hara gedim? Kimin qapısını döyüb deyim ki, mənim qızım burda yoxdur ki? Daha nə eləyim?..

- Heç nə eləmə! Sən elə öz torpağını, dövlətini artır. Qarnını yoğunlat. Məni də qoy balasız, gözü yaşlı…

Baqrat hirsləndi:

- Mən niyə balasız qoyuram, a yanşaq! Mənim ürəyim yanmır?! El içində biabır olan mən deyiləm?..

- Səni Qrikorun gözü yaşlı qalan arvadının qarğışı tutdu. Bir tikə zəhrimar torpağın üstündə kişini dərənin birində öldürdün.

Qrikoru öldürdüyünü indiyə kimi oğlundan da gizli saxlayan Baqrat hirsindən tez ayağa durdu.

- Qancığın qızı, sən ağzını boş qoyub nə çərən-pərən danışırsan!.. – deyə Nvardı təpiyin altına salmaq istəyəndə, Samvel onun qolundan tutub geri çəkdi.

- Ata, hövsələli ol! Anamı niyə döyürsən?! O yazıq yandığından ağzına gələni deyir. Qrikoru öldürdüyünü mən indi eşidirəm.

- Eşit, sən də eşit! Get hökumətə de, məni tutdur. Onsuz da bilirəm, indi Karo bütün acığını mənim üstümə tökəcək…

- Sakit ol, ata! Bu sirr burda qalacaq. Oğlun, atasını tutduran namussuzlardan deyil. Bütün məxfi işlər mənim əlimdədir, arxayın ol.

Samvel atasını stula oturtdu. Nvard ağlaya-ağlaya durub getdi.

- İndi ki, gizlin işlər sənin əlindədir, bacını tap. Mən ananı da qınamıram. O, ürəyi yandığından hər söz danışır. Amma bacını götürüb qaçıblar. Armenakın oğlundan şübhələnirəm. Bilsəydim ki, qız Surenə qoşulub gedib, xəncəri onun qarnına özüm soxardım. Atasını düşmənə satan qız mənə lazım deyil. Odur, Karo da acıq eləyib getdi. Hələ biz cəhənnəm, o yekəlikdə general-nahankapet el içində biabır oldu. İndi bu xəbər bütün kəndlərə çatdı.

- Bu işdə mənim bir adama şübhəm gedir, ata.

- Kimə?

- Arzo kişiyə.

Baqrat təəccüblə çiynini atdı:

- Başa düşmürəm, Siranuşun Arzo ilə nə əlaqəsi ola bilər? Deyirsən, yəni qızı yoldan o çıxartmış ola? Siranuş o qədər axmaq oldu ki, o qocalıqda kişiyə tamah saldı?

- Yox, ata, mən Arzonun özünü nəzərə almıram. Burda başqa kələk var.

- Nə kələk?

- Gəlini kilsədən gətirəndə o, bizim qabağımızı kəsdi. Anlaşılmaz bir-iki söz dedi. Mən fikir verirdim, Siranuş əlini qaldırdı, elə bil Arzonun getməsinə işarə verdi. Düzü, mən o vaxt buna əhəmiyyət vermədim. Yəni, heç ağlıma gəlməzdi ki, başımıza belə iş gələ. Sən otur, mən o qoca kaftarı bura çağırtdırıb danışdırım. Bəlkə bir söz dedi. Heç olmasa, şübhədən çıxaram… Qızı Surenlə qaçırtsa, ancaq Arzo qaçırda bilər. Armenak oğlu ondan başqa heç kəsin evinə gəlməz… Çünki, bu kənddə çox gediş-gəlişi olan, yaxın qonşu onlardı.

Samvel bayıra çıxıb Arseni Arzonu çağırmağa göndərdi. Baqrat ağanı fikir-xəyal götürdü:

«Deyəsən, yavaş-yavaş mənim evimə də rəxnə düşür… Qız belə yoxa çıxdı. Qırx ilin arvadı canının höylündən üzümə qabarır… Siranuşdan sonra Karo məni Milli Şurada saxlayacaqmı? Mənim arxalandığım o idi. Onun səbəbinə bir sözüm iki olmurdu. Məndən üz döndərsə, hər ötən üstümə ayaq alacaq. Yaxşı, deyək ki, Siranuş tapıldı, bu biabırçılıqdan sonra Karo ona yaxın durarmı? Bircə tapılsaydı, Karonun ayaqlarına düşüb yalvarardım. Çoxlu qızıl verərdim. Siranuşu arvadlığa qəbul eləməsini xahiş edərdim. Deyərdim, əl mənim, ətək sənin. Ya əlimi kəs, ya ətəyini!..»

Samvel içəri girdi.

- Arzonu bu saat gətirəcəklər. Ancaq sən anamın üstünə nahaq hirslənirsən. O, özünə bir xata toxuya bilər…

- Anan çox çərənçilik eləyir…

- Yaxşı, ata, bəs sən niyə indiyə kimi Qrikoru öldürdüyünü mənə deməmisən? Oğluna inanmırsan? İndi de görüm onu nə vaxt öldürmüsən? Niyə öldürmüsən?

Baqrat özünü elə bil müstəntiq qarşısında hesab elədi. Susub cavab vermədi. Samvel yenə sualını təkrar elədi.

- Oğul atanın hər işinə qarışmamalıdır.

- Amma ata da gərək oğuldan heç bir şeyi gizlətməsin!..

- Arzo kişi, necəsən? Əhvalın yaxşıdırmı?

- Nə deyim, ay Samvel, əhvaldır də… yavaş-yavaş başımızı girləyirik… Evdə oturmuşdum, Arsen gəldi ki, bəs Baqrat ağa çağırır. Fikirləşdim ki, balam, Baqrat ağa məni neynir? Daha torpağım yoxdur ki, ona satam. Beş-altı gərdilik həyətimdə yer var, onu da satsam acından ölərəm. Hə, uzun müşərrəf olmasın, mənə nə qulluğunuz var?

Samvel dedi:

- Qulluq yox, səndən bir söz soruşacağam.

- Buyur, oğlum, lap ikisini soruş.

- Siranuşu toy günü, onu kilsədən gətirəndə qabağımızı kəsdiyin yadındadırmı?

- Bəli. İyirmi ilin söhbəti deyil ki… Beş gün bundan qabaq olan işdir…

- Orda sən nə dedin?

- Niyə, eşitmədin? Qabaqkəsdi istədim… Necə ki? Nə olub?

- Sən niyə gəlinin qabağını kəsdin?

Arzo güldü:

- Niyə, sən elin adətini bilmirsən? Həmişə gəlin aparanda, gəlinin qabağını kəsərlər. Baqrat ağa, belə deyil? Sən özün az gəlin qabağı kəsmisən?

Baqrat dillənmədi.

- Başqa vaxtda toyuq kimi hinindən bayıra çıxmırsan. Nə oldu ki, qışın soyuğunda gəlin qabağı kəsdin?

Arzo köksünü ötürdü.

- Eh, ay Samvel, üzü qara olmuş kasıblıq adamı qanlı qapısına da göndərər, nəinki gəlin qabağı kəsməyə. Dedim, şadlıq günüdür, toy günüdür, beş-on qəpik verərlər… Sağ olun, elə verdiniz də. O pulu saxlamışam, yazda soğan toxumu alacağam.

- Sən mətləbdən çox uzaqlaşırsan, qoca! – Samvel səsini ucaltdı. – De görüm, Siranuşun itməsindən xəbərin varmı?

Arzo özünü bilməməzliyə vurub təəccüblə soruşdu:

- Siranuş itib? Özü də toy günü? Bu sözü indicə sizdən eşidirəm. Belə də şey olar? Gəlin də itər?

Baqrat dedi:

- İtib, Arzo, itib. Siranuş əlli-ayaqlı yoxa çıxıb. Ancaq sən düzünü danış. Yenə məndən cib xərcliyi alarsan.

- Mən nə düz danışım, Baqrat ağa? Sən niyə elə söz deyirsən? Bu qoca vaxtımda qız, gəlin götürüb qaçıranam… Heç mənə yaraşar? Bir ayağım evdə, bir ayağım gorda, mənə arvad nə lazımdır?

Samvel hirsləndi:

- Özünü bilməməzliyə vurma, qoca. Qız sənin əlinlə yoxa çıxıb. Mənim bacımı başdan eləyən sənsən. İndi necə olub, onu kimlə qaçırtmısan, düzünü de?

- Ərə, Allahın olsun! Mən sizin evə çox gəlib-gedənəm ki, bacını yoldan çıxardam. Elə bu soyuqda-qiyamətdə mən qoca kişini bunun üçün çağırtdırmısan? Baqrat ağa, məni oğlun incidir. Bəs sən niyə qoyursan? A kişi, üstə Allah yoxdur?..

Samvel qışqırdı:

- Allahı-zadı bura yığma! Siranuşu Armenak oğlu Surenlə hara qaçırtdın?

- Ərə, Samvel, sən nə danışırsan? Sureni iki il bundan qabaq şəkililər öldürməyib?

- Özünü tülkülüyə vurma, qoca kaftar! – Samvel əlini mauzerə atdı. – Suren mənim bacımı hara apardı? Düzünü deməsən beynini partladacağam!

Arzo ürəyində fikirləşdi: «Bunu Samvel hardan bilir? Bilsin, ancaq məni güllələsə də, boynuma almayacağam».

- Niyə dillənmirsən, tülkü, kaftar!

- Mənim heç nədən xəbərim yoxdur. Baqrat ağa, niyə oğluna acıqlanmırsan? Adam köməksiz olanda üstünə şər atarlar? Tapança ilə qorxudarlar? Yaxşı, öldür məni, qanımı tök evinə. Bəyəm, bu ölkədə divan-dərə yoxdur?

- Mənəm divan-dərə! O bolşevik Sureni yerin deşiyində də olsa tapacağam. O boş kəllənə də bircə patron çaxacağam. – Samvel onu vurmaq istədi.

- Ağlını başına yığ! – deyə Baqrat Samvelin qolundan tutdu. – Bir xatadan qurtarmamış, bizi ikinci xataya salma! Tapançanı qoy yerinə! Get Arzo, get! Amma qorx o gündən ki, sənin bu işdə əlin olduğunu bilən!..

Arzo getdi.

Ata oğlunun, oğul atanın üzünə bir-iki dəqiqə sualedici nəzərlərlə baxdı: Samvel dilləndi:

- Ata, sən bu kaftarı tanımırsan… Mən eşitmişəm ki, Suren əlaltından bunun evinə gəlib gedir… Nə isə, mən Gorusa, qulluğuma getməliyəm! Ancaq gələn dəfə mənə Qrikoru harda və necə öldürdüyünü deyərsən!

Baqrat onun dalınca baxıb:

- Get, - dedi, - sənin bu qulluğun mənim başımı yeməsə yaxşıdır!..

## On üçüncü fəsil

Kənddə gediş-gəliş çoxdan kəsilmişdi. Heç bir səs eşidilmirdi. Gecə yarısı olduğundan, adamlar evlərində, mal-heyvan tövlələrdə, itlər öz yuvalarında, içi boş qalaqlarda idi. Hərəkətdə olan yalnız təbiət idi. O, öz qüdrəti ilə qarı göydən elə bil xəlbirlə kəndin hər yerinə bir bərabərdə ələyirdi. Kənardan durub baxan olsaydı, alçaq, uca evləri, üstlərinə ağ pərdə çəkilmiş irili-xırdalı təpələrə oxşadardı…

Belə qış gecələri bəzilərinə xoş gəlir, bəzilərinə dərd, qüssə artırırdı. Bucağı dolu, qarnı tox, isti yorğan altında dərin yuxuya getmiş Manuçar Sarumov kimilərinə qış nə edə bilərdi? Amansız təbiət onlarla «dost» idi. Lakin geyməyə paltarı, yeməyə çörəyi, üstünə çəkməyə yorğanı, yandırmağa odunu, kərməsi olmayanlar çoxdu. Levonların, Makiçlərin, Qurgenlərin, Mqoların ailələri – yüzlərlə, minlərlə yoxsullar təbiətdən aman diləyirdilər. Onlar gözləyirdilər ki, bahar gəlsin, günəş canlarını qızdırsın, çöl-bayır yaşıllansın ki, yarpız, gicitkən, quzuqulağı, yonca yığıb ac qarınlarını doydursunlar.

Bəs, bu gecə vaxtı Manuçar Sarumovun zirzəmisinin qabağındakı adamın arzusu nə idi? Silahını çiyninə salıb əllərini ciblərinə qoymuş, soyuqdan kirpi təkin büzüşərək boynunu qısmış əsgər öz ürəyində deyirdi: «İndi hamı şirin yuxudadır. Mən də ağzı qıfıllı anbardakı tüfəngə, patrona keşik çəkirəm… Nədən ötrü? Üç il Nikolaya saldat oldum, əlim nəyə çatdı? Nə cibim doldu, nə əynim təzələndi, nə də balalarımın qarnı doydu. Mən bir bostan qarovulçusu olsaydım belə, əsgərlikdən min kərə yaxşı idi. Heç olmasa, xiyardan, qovun-qarpızdan həm özüm yeyərdim, həm uşaqlarıma aparardım. Eh, əsgərlik it peşəsidir… Evindən-eşiyindən əl çək, soyuq qabırğanı çatdada-çatdada gecə səhərə kimi yatma, tüfəng anbarına gözətçi ol. O gün qarovul naçalniki mənə deyir ki: «Karapet Karapetyan, ayıq ol ha! Anbara tərəf gərək bir quş da uçmasın. Başa düş ki, sən təkcə anbarı gözləmirsən. Erməni torpağını, erməni vətənini düşmənlərdən gözləyirsən». Daha demədim ki, nə vətən? Vətən mənim kimilərə nə verdi? Elə həmin çulu cırıq kəndliyəm. İntəhası, əynimə şinel geydirib əlimə tüfəng veriblər, adımı da qoyublar daşnak əsgəri».

Saatlarla heykəl kimi bir yerdə dayanmış, həyatından, vəzifəsindən şikayətlənən Karapet qıçlarının keyini açmaq və qızışmaq üçün gəzinməyə başladı. Eyvanın altında, anbarın qabağında, əskiyi, iki yüz dəfə o başa getdi, bu başa qayıtdı. Qıçları yorulduğundan, bir küncə qısılıb dayandı. Elə bil ağır bir qüvvə onu çiyinlərindən tutub aşağı basdı. Karapet çöməltmə oturub tüfəngini iki qolunun arasında dik tutdu…

İnsan həyatının dayağı olan yuxu, bəzən amansız bir qüvvəyə çevrilir. Görürsən, yuxu insana öz məqsədinə çatmağa imkan vermir, o, bir ordunu da bəzən bada verir. Görürsən, olmazın əzabına, işgəncəsinə dözən qoçaq bir adam, yuxunun əlində uşaq kimi aciz qalır.

Bax, odur, bayaqdan bəri taleyindən, həyatından şikayətlənən Karapet, sanki qılınc çəkib gözlərinə hücum edən yuxu ilə mübarizə apara bilmədi. Yuxu onu ovsunladı, əsgər mürgüləməyə başladı. Sərxoş adamlar kimi, başını gah sinəsinə

əydi, gah diksinib yuxarı qaldırdı. Gözlərini açdı, amansız yuxunu qovmaq üçün kirpiklərini dönə-dönə bir-birinə çaldı. Lakin «düşmən» ondan əl çəkmədi.

Nəhayət, Karapetin başı tüfəngin soyuq lüləsinə söykəndi, xorultu səsi həyətə yayıldı…

…Manuçar Sarumovun gündüz quş da səkə bilməyən həyətinə bu gecə bir adam girdi. O tərəfə, bu tərəfə boylanıb tez özünü divarın dibinə verdi. Bir qədər orda dayanıb gözlədi. Həyətdə qarovulçunun xorultusundan başqa heç bir səs-səmir eşidilmirdi. O, əlini iki dəfə qaldırıb endirdi… Həyətin aşağısında, darvazanın yanında duran iki adam, süd kimi gecədə yoldaşlarının işarəsini görən kimi cəld addımlarla ona yanaşdılar.

Hayk, Vahanla Surenə pıçıldadı:

- Xorultunu eşidirsinizmi? Keşikçi yatıb, bu çox yaxşı oldu…

Hər üçü divarın dibindən çıxıb anbarın qapısına tərəf getdilər.

Hayk dünyadan bixəbər yatmış əsgərin tüfəngini qucağından çəkəndə, o, hövlnak ayıldı.

- Ərə, kimsən?..

- Dillənmə! – deyə Suren tapançanı onun alnına dayadı.

Keşikçi ayağa durmaq və səs salmaq istədisə də, imkan vermədilər. Suren yekə yun şalla onun başını, üz-gözünü bağladı.

Vahanla Hayk qıfılı sındırıb anbara girdilər. Vahan bir neçə yeşik patron götürdü, şam yandırıb bir yeşiyin üstü qoydu. Sıra ilə düzülmüş təzə beşaçılanlardan hərəsi altısını götürüb çalın-çarpaz, çiyinlərinə saldı. Bir an belə yubanmadan bayıra çıxdılar. Onlar həyətdən xeyli uzaqlaşdıqdan sonra Suren tapançasını cibinə qoyub keşikçidən aralandı.

Karapet daha öz alnında tapança lüləsi olmadığını hiss etdisə də, qorxusundan bir müddət nə səsini çıxartdı, nə əl-qolunu tərpətdi. Lakin ətrafda heç bir hənirti olmadığını yəqin etdikdən sonra başının sarığını açdı. Həyətdə heç kəsi görmədi. Tez anbarın qapısına baxdı. Qıfılı sınmış görəndə canına üşütmə düşdü, alnını soyuq tər aldı. «Vay, evim necə yıxıldı! Astvas haqqı, məni güllələyəcəklər! – deyə fikirləşdi. – O nainsaflar kim idi? Bəlkə müsəlman əsgərləri idi? Onlar burda silah anbarı olduğunu haradan bilərlər? Niyə dayanmışam? Niyə dallarınca getmirəm…»

O, həyətdən keçib küçəyə çıxdı. Ancaq adamların rəddini belə görmədi. Şiddətlə yağan qar Vahanın, Surenin və Haykın izini örtmüşdü…

Karapet bir az o yana, bu yana boylanandan sonra fikirləşdi: indi «nə eləyim? Özüm Gorusa gedimmi? Əhvalatı olduğu kimi naçalnikə açıb deyimmi? Yox, yox! Adam da özünü cəlladın əlinə verərmi! Mənim nəslimi yer üzündən yox elər. Bəs nə eləyim axı? Özümü elə itirdim ki, anbara da baxa bilmədim. Bəlkə heç bir şey aparmayıblar?»

Karapet ambara tərəf addımladı. Qapını açanda içəridən tüstü bulud layları kimi bayıra çıxmağa başladı. Karapet tüstüdən gözlərinin acışmasına baxmayaraq, başını içəri soxdu, alovlanmağa başlayan yeşikləri görəndə tez geri çəkildi. Dəhşət içərisində həyətin ortasına qaçıb dayandı. Yuxarıya qalxmaq, Manuçarı oyatmaq istədi. Lakin pilləkəndə ayaq saxlayıb yenə də fikrə getdi:

«Yox, deməyəcəyəm. Manuçar ağa özü məni ələ verdirər. Düz burdan öz kəndimizə, uşaqlarımın yanına gedəcəyəm. Axtarıb eləsələr özümü verərəm dağlara, meşələrə…».

Karapet küçəyə çıxıb birinci tini burulanda Manuçar Sarumovun evi tərəfdən gələn dəhşətli gurultu səsi gecənin ağır sükutunu pozdu.

Otaqda Karodan başqa kimsə yox idi. O, Aşota tapşırmışdı ki, yanına heç kimi buraxmasın.

Karo stolun arxasında oturub alnını ovuşdura-ovuşdura fikirləşirdi.

«…Görəsən camaat mən general-qubernatorun gəlininin toy gecəsi yoxa çıxmasına necə baxır?! İndi mənim bir qara qəpiklik qiymətim varmı? İndi mən kiməm? Nəçiyəm? Öz nişanlısını qoruyub saxlaya bilməyən general-qubernator ölkəni saxlaya bilərmi?.. Nə ürəyim sakit olur, nə əlim iş tutur… Siranuşu kim qaçırtdı? Hm… hələ soruşuram da!.. Əlbəttə, bolşevik Suren… O, öldürülmüş atasının, bacısının, dəli olmuş anasının, dağılmış evinin qisasını alır. Sinəmə yamanca dağ çəkdi!.. Kaş səni tapaydım, Siranuş!.. Yox, yox, öldürməzdim. Mənim düşmənimə dil verən dilini kəsərdim! Mənim düşmənimə baxan gözlərini çıxardardım! Mənim düşmənimin boynunu qucaqlayan qollarını vurub yerə salardım! Səndən belə intiqam alardım, Siranuş!.. Mən nə böyük səhv etmişəm! Sevməyən bir ürəyi ələ almaq olmazmış… Siranuş bir dəfə də olsa, mənə xoş rəftar göstərmədi, məhəbbət, sevgi sözünü dilinə gətirmədi…»

Karo əlini alnından götürdü, döşünü geri verib kürəyini stulun dayanacağına söykədi. Qarşısındakı sarı məxmərli stol onun nəzərində böyüdü, genişləndi, dünyada ən qüvvətli və amansız bir hökmdarın əmrlər, fərmanlar yazdığı stoluna çevrildi. Balaca bir mahalın hökmranını özünə indi, bu kədərli günlərdə daha çox cəlb edən stol sanki dedi: «Çox cəza-fəza eləmə, həyəcan keçirmə. Nişanlın əlindən çıxıbsa, hakimiyyətin əlindədir. Ölkədə sənin üçün qız çox tapılar. Sən hakimiyyətdən bərk yapış, onu əldən vermə. Hakimin anlağı az, düşüncəsi dar olsa da, dili uzun, sözü ötgün olur. Bəli, hakimiyyət! Sən onun gücünə arxalan. Sən onunla hamının dilini lal, qulaqlarını kar edə bilərsən. Düşdüyün biabırçı vəziyyət haqqında heç kəs danışa bilməyəcək: kimi sənin cəzandan qorxacaq, kimi sənə yaltaqlanacaq. Dünyada mənəm-mənəm deyən çox hökmranlar ağır və biabırçı vəziyyətə düşüblər, lakin heç kəs cürət edib səsini çıxarda bilməyib. Karo Hamparsumyan, onu da unutma ki, səni Zəngəzura sevib-sevilməyə göndərməyiblər. Ölkənin ümumi işini şəxsi arzu və hisslərinə qurban versən, bir gün stoldan, hökmranlıqdan məhrum olacaqsan…».

Karo qeyri-ixtiyari olaraq oturduğu stulun yanlarından iki əlli bərk-bərk yapışdı. Bu zaman onun qulağına başqa səslər gəldi:

- Sənə deyirəm, məni burax!

- Buraxmaram…

- Ona vacib sözüm var…

- Olmaz! Geri qayıt!

Karo ayağa durub qapını açdı.

Manuçar Sarumov onu görən kimi hirsli halda dedi:

- Bu iti bağlamısınız qapıda, hökumət üzvlərini də içəri girməyə qoymur…

- Gəl görək.

Aşot geri çəkildi, Manuçar içəri girdi.

- Nə olub belə hirslənmisən, Manuçar ağa? Otur, otur!

Dünən gecədən hirsi bağırsağını kəsən Manuçar sözünü kar adama söyləyirmiş kimi qışqıra-qışqıra dedi:

- Daha nə olacaq? Bundan artıq nə istəyirsən? Ölkə dağılıb gedir. Dünən gecə mənim zirzəmimdəki silah anbarını yarıblar… Evin…

Karo tapança kimi açıldı:

- Necə? Necə? Kimdir yaran?

- Bilmirəm.

- Tüfəng-patronun hamısını aparıblar.

- Nə bilim, apardıqlarını aparıblar, aparmadıqları da yanıb…

- Yanıb nədir?

- Anbara od vurublar. Tüfəng-patron cəhənnəmə, az qala mənim imarətim yanmışdı. Yanğını min əzab-əziyyətlə səhərə yaxın keçirə bilmişik…

- Bəs anbarın qarovulçusu harada idi?

- Əlli-ayaqlı yoxa çıxıb. Bəlkə bu iş elə onun öz işidir? Bəlkə Makiçin, Levonun, ya məktəbdə səninlə döş-döşə duran bolşevikin işidir? Bəlkə qarovulçu özü də bolşevik imiş?..

- Hərbi hissəyə məlumat vermisənmi?

- Yox.

Samveli çağırmaq üçün Karo Aşotu göndərdi.

Manuçar isə yenə də deyinirdi:

- Belə ölkə dolandırmaq olmaz! Mənim torpağımı zorla əlimdən alırlar, o biri kəndlərdə iğtişaş qaldırırlar, silah anbarını dağıdırlar, sən yekəlikdə adamın nişanlısını götürüb qaçırlar… Belə də iş olar?.. Belə də hökumətlik olar?..

- Yaxşı, yaxşı, bəsdir, Manuçar! – deyə Karo onun sözünü kəsdi. – Deyirsən belə ölkə dolandırmaq olmaz! Bəs nə eləyək, sən de? Sən də hökumətin bir üzvü!..

- Adamları tapıb cəzalandırmaq lazımdır!

- Nə eləyək, ələ keçmirlər. Sənin həyatini etibarlı bilib zirzəmini anbar elədik… Niyə anbara nəzər salmırdın? Onu düşmənlərdən qorumurdun?

- Mən Milli Şura üzvüyəm, sənin üçün anbar qarovulçusu?!

- Manuçar Sarumov, bəsdir daha! – Karo səsini ucaltdı. – İş dara düşəndə hamınız mənim üstümə qaçırsınız!..

Samvel içəri girib Karonun qarşısında rəsmtəzimdə durdu.

Karo ona əyri-əyri baxıb kinayə ilə dedi:

- Ölkənin belə «qoçaq» naçalniki olanda hadisə hadisə dalınca baş verər…

- Nə olub? – deyə Samvel gah Karonun, gah Manuçarın üzünə baxdı.

Karo əhvalatı ona danışdı.

- Bu saat hərbi hissədən də bir adam götürüb Xınzirəyə gedərsən. Hər şeyi orda yoxlarsan. Anbar qarovulçusunu taparsan. Makiçin və Levonun evinə nəzarətçi qoyarsan. Başa düşdün?

- Bəli. Bəlkə, Levonla Makiçin ailəsini həbs edək?

- Əmrimi yerinə yetir. Mənə yol göstərmə!

- Baş üstə.

- Manuçar, sən də onunla get! Özün də burda dediyin sözləri qızışıb heç yerdə demə. İndiki söhbət də burda qalmalıdır. Bizə xəbər gətirməkdənsə, iş gör. Hökumətə kömək elə! Anladınmı, cənab Sarumov!

Samvellə Sarumov otağı tərk etdilər.

Karo son aylar ərzində Zəngəzurda baş vermiş hadisələr barədə geniş məlumat yazdı. Yazdığını bir də nəzərdən keçirib imza atdı, tarix qoydu. Stolun yeşiyindən zərf çıxardıb, beş vərəqdən ibarət olan kağızı onun içinə qoydu və üstünü yazdı: «İravan şəhəri. Parlamentə».

Karo qələmi yerə qoyanda, qapı yavaşca açıldı. Keşiş Mesrop içəri girdi, yaxınlaşıb əlindəki qovluğu stolun üstünə qoydu.

- Cənab general-nahankapet, - dedi, - Milli Şuranın adına gəlmiş ərizələr, şikayətlər, təliqələrdir, bax, sərəncam ver.

- Niyə özün baxıb sərəncam vermirsən, mənim vaxtımı alırsan?

- Məndə o səlahiyyət yoxdur. Elə kağızlar var ki, şəxsən özün oxuyub tanış olmalısan.

Karo, nədənsə bir qədər kədərli görünən keşişə baxıb gülümsündü:

- Yaxşı işləsə idin, səni öz müavinliyimdən çıxardıb katib eləməzdim…

- Sənin mərhəmətin sayəsində Milli Şuranın katibi olmaq da mənim üçün böyük şərəfdir. Allaha şükür, sən özün o qədər bacarıqlı, dərrakəli və hər işin öhdəsindən gələnsən ki, müavin lazım deyil…

Keşişin sözlərindəki incə istehzanı duya bilməyən Karo soruşdu:

- Gözümə qəmli dəyirsən, nə olub? Otur, ayaq üstə durma.

Mesrop Karo ilə qarşı-qarşıya oturdu, köksünü ötürüb dedi:

- Oğul-uşaqdan bircə qızım vardı, ərdəydi, onu da Allah əlimdən aldı. Dünən Brnaqotdan kağız almışam…

- Fikir eləmə, keşiş ağa! Yaranan öləcək. Mənim də nişanlım ölüb…

Mesrop təəccüblə soruşdu:

- Necə? Baqratın qızının ölüsü tapılıb? Yoxsa, özün onu tapıb cəzasını vermisən?

Karo Mesropa əyri-əyri baxdı, lakin cavab vermədi, qovluqdakı kağızlardan birini götürüb oxumağa başladı:

«…Xahiş eləyirəm oğlumu əsgərlikdən buraxdırasan, təkəm, qoca kişiyəm, külfəti dolandıra bilmirəm…».

Karo kağızın gerisini oxumayıb üstünə yazdı:

«Oğlun müqəddəs vətəni müdafiə eləyir. Namusu olan hər erməni bununla fəxr etməlidir».

Karo o biri kağızı oxudu:

«…Biz Zəngəzur mahalının general-nahankapeti cənab Karo Hamparsumyana dərdimizi deyirik. Kəndin vəziyyəti ağırdır. Belə ki, neft yoxdur, özümüz yeməyə, mal-heyvana verməyə duz yoxdur. Bu şeyləri ya hökumət bizə versin, ya da Naxçıvana gedib duz, neft gətirmək üçün kəndlilərə ixtiyar versin…».

- Görürsən, keşiş ağa, Axlatyan kəndliləri nə eşşəkdirlər! Qanmırlar ki, Naxçıvanla əlaqəmiz yoxdur, mən onları müsəlman ölkəsinə buraxa bilmərəm.

- Doğrudan da kəndlilərin vəziyyəti bu cəhətdən çox ağırdır. Bəlkə bir yol tapasan…

- Deməк, sən də onların dediyini deyirsən?

- Nə eləyim, millətdir, ürəyim yanır…

- Qoy millətin qeyrəti olsun, Naxçıvanı özünə tabe etdirsin, onun duzuna da, suyuna da, malına-dövlətinə də sahib olsun. Bizim Antanta dostlarımız, Avropada iclas eləyib qərar çıxartdılar ki, Naxçıvan daşnak hökumətinin ixtiyarına keçsin. Cənab Xatisov şəxsən özü Naxçıvana getdi… Lakin naxçıvanlılar Ermənistana tabe olmaq istəmədilər. Demək, qərar yerinə yetmədi. Nə isə… - Karo əlindəki kağızın üstünə belə bir dərkənar qoydu: «Kəndlilərin yerlərindən tərpənməsinə icazə vermirəm. Xörəyi duzsuz da yemək olar. Neftsiz, qaranlıqda yaşamaq mümkündür».

Karo üçüncü kağızı oxudu:

«…Lordan bir nəfər kəndli gözdən yayınıb Qundanlıya getmişdi. Orda nə satdığını bilmirəm, amma buğda alıb gətirdiyini bilirəm. Onun dediyinə görə, Manuçar Sarumovun torpağını əlindən almaq istəyən Levonu və Makiçi orda görüb…».

Karo birdən hirsləndi:

- Milli Şuraya məlumat yazan bu heyvan niyə öz adını, Qundanlıya gedən kəndlinin adını yazmayıb? Lorda min kəndli var… Axmaq elə bil mənə tapmaca satır… Bu kəndliləri nə qədər başa salırsan, qorxudursan, yenə öz bildiklərini eləyirlər. Müsəlman kəndləri ilə gizli əlaqəni, alış-verişi kəsmirlər. Bizim sərhədçilərin də boyunu yerə soxum ki, onları tuta bilmirlər…

Keşiş ağzını doldurub: «Əlaqə saxlayırlar, çünki dolana bilmirlər, ehtiyaclarını bu yolla bir təhər ödəmək istəyirlər…» demək istədi, lakin Karonun hirsləndiyini görüb susdu.

Karo həmin kağızın üstünə göy karandaşla yazdı:

«Samvel Xaçaturyana! Bu məlumatı yazanı və müsəlman kəndinə gizli gedib gələn kəndlini tapmağı sənə əmr edirəm!»

Karo şəxsən öz adına yazılmış zərfi açıb içindəki məktubu ürəyində oxudu. Sonra acıqlı-acıqlı keşişdən soruşdu:

- Qarakilsəli kimdir?

- Nə qarakilsəli? Başa düşmədim…

- Bu məktubun altında «qarakilsəli» imzası qoyublar.

Keşiş çiyinlərini çəkdi:

- Bilmirəm, tanımıram! Qarakilsədə bir adam yaşamır, on adam yaşamır… Nə yazıblar ki?

- Al oxu, sənə də aiddir. Axı sən də millət dərdi çəkənlərdənsən…

Keşiş kağızı alıb ucadan oxudu:

«…Dəvə başını pambığa soxar, elə bilər ki, heç kəs görmür. Siz cənab daşnaklar da elə zənn edirsiniz ki, törətdiyiniz işlərdən heç kəsin xəbəri yoxdur. Ancaq hamının gözü var, qulağı var. Hamı bilir və eşidir ki, daşnak hökuməti xalqın, millətin qeydinə qalmır… İş başında olanlar öz ciblərini doldurmaqla məşğuldurlar. Zaqafqaziyada, o cümlədən Ermənistanda olan ingilis nümayəndələri bir tərəfdən, erməniləri qızışdırıb Naxçıvan üzərinə qaldırmış,

ikinci tərəfdən, Xosrov bəy kimi müsavatçıları silahlandırıb Zəngəzurun üstünə göndərmişdir. Cənab daşnaklar və cənab müsavatçılar öz xeyirləri üçün Milli ədavəti qızışdırır, ölkəni xaricilərə satırlar…

Cənab Karo Hamparsumyan, camaatın qoşduğu bu sözləri siz də oxuyub xəbərdar olun:

Xatisyan dolaşdı, gəzdi dünyanı,
Axırda da satdı Ermənistanı!»

Mesropun dodağı qaçdı, ancaq dərhal ciddi vəziyyət alıb dedi:

- Fikir vermə. Belə sözləri çox eşitmişik və bundan sonra da eşidəcəyik… Hökumət adamının ürəyi geniş olmalıdır. Məlumdur ki, bu axmaq misraları yazan bolşeviklərdəndir.

- Keşiş, niyə belə axmaq kağızları cırıb atmırsan? Hələ mənə oxumağa da verirsən?

- Şəxsən sənin adına gələn zərfləri açıb oxumağa cəsarət eləmirəm.

- Mən sənə ixtiyar verirəm. Bundan sonra mənə və idarəyə gələn kağızların hamısını oxu. Belələrini cır, yandır. Götür qovluğu apar!

- Baş üstə! – deyə keşiş ayağa durub qovluğu qoltuğuna vurdu.

- Daha başqa buyruğun yoxdur ki?

- Milli Şuranın iclasını çağırmaq lazımdır. Üzvlərin hamısına xəbər ver, kağız göndər gəlsinlər.

- Baş üstə. Ayın neçəsində olacaq, hansı məsələlərə baxılacaq?

- İclas beş gündən sonra olacaq. Məsələləri yazmaq lazım deyil, elə şeyləri qabaqcadan yazmazlar. Bu zərfi də götür göndər İravana.

Keşiş kabinetdən çıxdı. Karo əllərini cibinə qoyub otaqda gəzinə-gəzinə fikirləşdi:

«İşlər getdikcə qarışır. Dilsiz-ağızsız kəndlilər hökumətdən narazı olduqlarını bildirirlər… Parlamentin sədri cənab Xatisova da söz qoşublar… Görəsən, bu sözlər onun qulağına çatıbmı? Bu danışıqların qabağını yenə həbsxana, cəza alacaqdır!..»

…Samvel içəri girib salam verdi. Karo onun salamını ağızucu alıb, oturmasına icazə verdi. Samvel əyləşib dedi:

- Cənab general-nahankapetin nəzərinə çatdırıram ki, anbardan tüfəng-patron aparılması doğrudur. Hərbi hissə nümayəndəsinin dediyinə görə, əlli tüfəngdən on ikisini aparıblar. Qalanları da yanıb tərk olub, ancaq lülələri, çaxmaqları qalıb. Patronlar, nə ki, var hamısı partlayıb. Manuçarın evinin bir tərəfi darmadağın olub. Yenə hərbi hissə nümayəndəsinin dediyinə görə, içəridə iyirmi yeşik patron varmış… Qarovulçunun necə olduğu, hara getdiyi məlum deyil. Güman ki, anbarı yaranlar onu da işin üstü açılmasın deyə, özlərilə götürüb aparıblar. Nəzərinizə çatdırım ki, qarovulçu brnaqotludur. Adı Karapet, familiyası da Karapetyandır…

- Sonra?

- Sonra, cənab general-nahankapetin nəzərinə çatdırıram ki, Levonla Makiç o vaxtdan kəndə gəlmirlər. Kəndxudaya yenə tapşırdım ki, göz-qulaq olsun. Amma

danışırdılar ki, guya Daşkəndin yanında canavar iki adam yeyib. Mən elə güman edirəm ki, Levonla Makiç olar. Bir də güman edirəm ki…

- Bəsdir, kifayətdir! – deyə Karo birdən onun sözünü kəsdi. – «Nəzərinə çatdırıram!..» «Güman edirəm!» Naçalnikin danışığına bax!.. Bu sözləri mənim nənəm də deyər… Levonla Makiçi canavar yeməyib, onlar müsəlman kəndində yaşayırlar…

- Müsəlman kəndində?!

- Bəli, cənab naçalnik! Müsəlman kəndində… Sən yatmısan. Mən çox səhv eləmişəm. Belə bir məsul vəzifə sənin xörəyin deyilmiş…

- Mən bu qulluğa canımı da verməyə hazıram… Mən…

- Kəs səsini! Can vermək yox, can almaq lazımdır. Vəzifəni lazımi qədər sənə başa salmışam… - Karo getdikcə qızışdı. Siranuşun da acığını Samvelin üstünə töküb, onu danlaq altında itirdi.

Samvel əvvəlcə fəxr elədiyi yeznəsindən indi belə rəftar görüncə, bərk qorxuya düşdü. «Siranuşun acığını çıxır, - deyə fikirləşdi. – Onu hardan tapıb bunun ixtiyarına verim ki, hirsi soyusun?! Məni qulluqdan çıxartsa, özümü də dama salsa, nə eləyəcəyəm? Heyif o qədər yaxşılığa ki, biz buna elədik. Köpək oğlu lap çörəyi dizinin üstə adammış…»

- Nə gözünü döyürsən, tapançanı aç qoy yerə! Sən naçalnik kimi, mauzer gəzdirməyə layiq deyilsən!

- Mən sənə nə pislik eləmişəm, cənab general-nahankapet? – deyə Samvel dik ayağa qalxdı. – Niyə bacımın qisasını məndən alırsan? Onu biz qəsdən qaçırmamışıq… Vallah bu iş hamımıza böyük bir dərd olub… Elə bilirsən ki, mən Siranuşu axtarmıram?

- Mən burada səninlə Siranuş sözü danışmıram… Mənə iş lazımdır. Sən hökumət qulluğuna layiq deyilsən. Anladınmı? Tapançanı aç! – Karo yerindən qalxıb otaqda var-gəl eləməyə başladı.

- Məni bədbəxt eləmə. Duz-çörəyi yerə vurma, cənab general-nahankapet!

- Mənə verdiyiniz bir tikə çörəyi başıma qaxırsan, hə? Sarsaq adam!

Karo keçib yerində əyləşdi. Otağı ağır sükut bürüdü. Karo kağız, qələm götürdü. Samvel fikirləşdi: «Mən hökumətə sədaqətli olduğumu buna necə sübut eləyim? Aha, deyəcəyəm. Atamın Qrikoru öldürdüyünü deyəcəyəm. Karo bilsin ki, mən hökumətin yolunda atamı da satıram… Yox, yox, deməyəcəyəm. Bu cür biqeyrətlik olar?! Bəs Karo məni vəzifədən çıxartsa?.. İndi mən nə eləyim? Karo deməzmi ki, xain, bu sirri nə üçün indiyə kimi məndən gizlətmisən…».

- Yaxşı, Samvel Xaçaturyan, - deyə Karo dilləndi, - mən fikrimi dəyişdim. Sənə özünü doğrultmaq üçün vaxt verirəm.

- Çox sağ ol, cənab general-nahankapet.

- O brnaqotlu əsgəri yerin dibində də olsa tapmalısan, bu bir, ikinci: Levonla Makiç haqqında bizə imzasız kağız yazan kəndlini tapmalısan. Üçüncü: bacın haqqında fikirləş!

- Baş üstə.

- Get! Hökumətin etibarını qazan!

Samvel getdi.

Hayk içəri girib dedi:

- Atlar hazırdır.

- Çox yaxşı, gedək! – deyə Vahan yerdən qalxdı.

Vahan, Suren və Hayk tövləyə girib qapını bağladılar. Yerə basdırdıqları tüfəngləri, patronları, yağla yanan çırağın zəif işığında, qazıb çıxartdılar. Bir tüfəng, beş daraq patron ayırıb kənara qoydular. Qalanlarını söküb qundağını lülədən ayırdılar. İki böyük saman kisəsinin içində yerləşdirdilər. Kisələrin ağzını kəndirlə möhkəm tikdilər.

- Kimin ağlına gələr ki, biz dostlara saman içində silah aparırıq! – deyə Suren güldü.

- Bu da səninkidir! – deyə Vahan zağlı beş atılanı Hayka tərəf uzatdı.

Hayk tüfəngi və daraqları təzədən yerə basdırıb üstünü torpaqladı.

Suren dedi:

- Hayk, indi Siranuşu çağır gəlsin!

Hayk getdi. Vahanla Suren isə kisələri həyətə çıxardıb ikisini bir ata yüklədilər.

Çox çəkmədi ki, Hayk, Siranuş və Şuşaniklə birlikdə qayıdıb gəldi. Şuşanikin gözləri dolmuşdu.

- Fələk bizi çox tez ayırdı, Siranuş! – deyə o, Siranuşu qucaqladı. – Mən elə bilirdim ki, həmişə bir yerdə olacayıq… İndi ya qismət, bir də görüşək!..

Hayk dedi:

- Niyə ya qismət, ay Şuşanik? Ölümə-zada getmirlər ki… Vallah, yüz dəfə görüşəcəksiniz… Yaxşı, qızı burax, vaxt keçir.

- Bircə dəqiqə dayan! – deyə Şuşanik başından yun şalını açdı. – Siranuşa soyuq olar. Qışın gecəsi, nazik paltarda necə getsin? – O, şalı Siranuşun kürəyinə saldı, sinəsində çarpazlayaraq, düyün vurdu. – Allah yaxşı yol versin! Fikir eləmə, Siranuş… Neyləyək, bizim də baxtımıza belə «narahat» kişilər düşüb…

Anasından, evlərindən ayrılandan bəri ağlamayan Siranuşun gözlərindən yanağına bir neçə damla yaş sıçradı…

- Evinizdə qalmışam, çörəyinizi yemişəm, halal elə, Şuşanik bacı!

Saman kisələri yüklənmiş ata Vahan mindi. Surensə palanlı atı minib Siranuşu tərkinə aldı. Şuşanik onların dalınca su atıb bir neçə dəfə xaç çəkdi…

Soyuq qış gecəsində o nə köçdü? Onlar hara gedirdilər? Rahat evdən, isti kürsüdən onları ayıran nə idi?

Daşnak Milli Şurasının 1920-ci il fevral ayında çağırılmış iclası qurtaran günün axşamı Arakel Xınzirəyə gəlmişdi. Böyük həyəcanla Vahana, Surenə və Hayka xəbər vermişdi ki, Milli Şura qərar çıxardıb: bolşevikləri tapmaq məqsədi ilə, ilk növbədə Xınzirək kəndində, gecəykən, heç kəsin xəbəri olmadan bərk axtarış olacaq.

Çünki bu kənd, qəzada ən üsyankar, narahat kəndlərdəndir…

Bolşeviklər, artıq həqiqi bir dost kimi, tanıdıqları həkim Arakelin xəbərdarlığından nəticə çıxartmışdılar. Odur ki, onlar «köçü» Gürcülüyə, dost qapısına sürürdülər…

Karo stolun üstündən kağızları yığışdırdı, siyirməyə qoyub bağladı. Kabinetdən çıxmaq istərkən, Samvel içəri girdi. Salam verdikdən sonra fərəhlə dedi:

- Tapşırığını yerinə yetirdim, cənab general-nahankapet! Xaini tutub gətirdim.

Karo özünü çəkib ağır-ağır soruşdu:

- Mən sənə çox tapşırıq vermişəm, hansını yerinə yetirmisən? Hökumətə xəyanət edən, mənə düşmən olan çoxdur… Tutub gətirdiyin kimdir? Bundan sonra, aydın və ətraflı məlumat verməyə adət elə! Kimi gətirmisən?

- Silah anbarının gözətçisini. Brnaqotlu Karapet Karapetyanı. Kənddə danışdırdım. Günahını boynuna alır… Bu da istintaq aktı. – Samvel cibindən çıxartdığı bir vərəq kağızı stolun üstə qoydu.

Karo kağıza fikir vermədən soruşdu:

- Dustaq hardadır?

- Damda. Onu çox böyük ustalıqla tutdum. Dalınca saldığım adam xəbəri elə gətirdi ki, yorğan-döşəyinin içində haxladım. Tülkünün qollarını bağlatdırdım. Başladı yalvarmağa, arvad-uşağı da ağlaşdı, fikir vermədim… Cənab general-nahankapet, bilirsənmi onu tutmaq üçün nə hiylə işlətdim?

- Yaxşı, sonra danışarsan. Bu sənin birinci qələbəndir. Həmişə hiylə işlətmək lazımdır!

- Söz verirəm… yeznə… Oy, çaşdım… Allah Siranuşun üzünü qara eləsin, yeznə yox, mənim ağam, general-nahankapet!

Karo gülümsündü:

- Yaxşı, dilin dolaşmasın! Get de, dustağı gətirsinlər həyətə.

Samvel getdi.

Karo stolun arxasında əyləşib istintaq vərəqəsini oxumağa başladı:

«…Karapet Karapetyan. Brnaqotlu. Qırx səkkiz yaşı var. Kənddə qohumu-əqrəbası yoxdur. Arvadı, bir oğlu, üç qızı var. Daşnak ordusuna 1919-cu ildən alınıbdır. İki öküz, bir at, bir eşşəkdən başqa, malı, heyvanı yoxdur. İndiyə kimi əlindən heç bir xata çıxmayıb. Məhkəməyə düşməyib. Orduya könülsüz gedib. Üç il rus ordusunda xidmət edib. 1917-ci ildə rus qoşunları Qafqaz cəbhəsindən geri qayıdanda, o da kəndə gəlib. Kommunistlərlə və onlara rəğbət bəsləyənlərlə əlaqəsi olduğunu boynuna almır. Silah anbarının yarılmasında özünü təqsirkar bilir. Bu barədə hərbi hissəyə, dövlət orqanlarına xəbər vermədiyini özünün qorxaqlığı ilə izah edir. Onu da qeyd edirəm ki, Karapet Karapetyanı əsgərlərin qabağına salıb qolu bağlı gətirəndə kənd camaatı yolu kəsdi. Bizi əhatə edib Karapeti gətirməyə qoymadı. Mən onları hədə-qorxu ilə dağıtdım. Kəndlilərin bu hərəkəti məndə şübhə yaratdı…».

Samvel içəri girib dustağı gətirdiyini söylədi. Hər ikisi kabinetdən çıxdı.

Karo, sağında, solunda silahlı əsgərlər dayanmış, qolları bağlı Karapetə yanaşdı. Əllərini belinə qoyub, ona başdan ayağa qədər diqqətlə baxdı.

- İgidlik göstərən, vətəni qoruyan erməni əsgəri Karapetyan budurmu? – Karo istehzalı sözlərini istehzalı gülüşlərlə qurtardı. Sonra üzünü əsgərlərə tutub əlavə elədi: - Bu maymaq, şüursuz, xain Karapet Karapetyanı bağçanın lap dibinə aparın!

Əsgərlər Karapeti böyük bağçanın o başına apardılar…

Karo ilə Samvel də dizə qədər çıxan qarı ayaqlaya-ayaqlaya oraya gəldilər. Karapetdən on addım aralıda durdular.

Karo dedi:

- Sən bu saat ölüm ayağındasan. İki sualıma doğru-düzgün cavab versən təqsirindən keçəcəyəm. De görüm, silah anbarını qəsdənmi yandırmısan?

- Xeyr, ağa, başın üçün, məni bədbəxt eləyən, hökumət yanında üzü qara eləyən yuxu oldu.

- Sən bolşeviklərlə harda və nə zaman görüşmüsən?

Karapet heç bir bolşevik görmədiyini, ancaq adını eşitdiyini söylədi.

Karo dərhal özündən çıxdı:

- Demək, sən Karapet Karapetyan, Zəngəzurda kommunistlərin olduğunu bilirsənmiş!.. Yaxşı, çox gözəl!.. Bəs mən kiməm, tanıyırsan? Adımı eşitmisənmi?

- Sən daşnak zabitisən, - deyə Karapet qısa cavab verdi.

Karo ona yaxınlaşdı.

- Görürsünüzmü, eşidirsinizmi, ölkənin general-nahankapetini tanımır… Ha… ha… ha…

- Tanımaq istəmir… - deyə Samvel dilləndi. – Cənab general-nahankapet, sənə dedim ki, tülküdür…

- İndi tanıyar. – Karo mauzerinə əl atanda, Samvel öz mauzerini ondan qabaq çıxardıb dedi:

- Sən zəhmət çəkmə, cənab general-nahankapet. Mən hazıram…

- Sən dayan! Vətən və millət xainini güllələməyə özümün həvəsim var. Karapet Karapetyan, geri çəkil, kürəyini o böyük armud ağacına söykə!.. – Karo mauzeri qaldırdı. – Demək, bolşevik olduğunu boynuna almırsan?!

Karo barmağını tətiyə aparanda Karapet yarpaq kimi titrəyə-titrəyə yerə çökdü. Dizin-dizin sürünüb qarşısındakı cəlladların ən amansızı olan Karonun yanına getdi, başını onun dizinə söykəyib dedi:

- Mən səni indi tanıdım. Balalarıma rəhm elə!

Karo ayağı ilə onu geri itələdi. Karapet arxası qatda qarın içinə yıxıldı. Yer-göy başına fırlandı. O, yerdə çabalaya-çabalaya çığırdı.

- Qurbanınız olum, dörd balama rəhminiz gəlsin! A böyüklər, ay əsgərlər, axı mən də erməniyəm… Yalvarıram. Məni öldürməyin! Məhkəməyə verin! Qazamata salın! Yazığınız gəlsin, uşaqlarımın gözü yoldadır.

- Mənəm məhkəmə! Qazamatsa sənin üçün qəbir olacaqdır! – deyə Karo bağırdı.

Ölümünü daha yəqin edən Karapet yalvarmadı, qışqıra-qışqıra dedi:

- Zalımlar! Qan içənlər! Namussuzlar! Tfu sizin üzünüzə! Tfu sizin hökumətinizə!

Biri qarnından, biri ürəyinin lap başından dəyən iki güllə onu həmişəlik susdurdu…

- Bu itin meyitini qaranlıq düşəndə Gorus çayına atarsınız! – deyə Karo əsgərlərə əmr elədi.

Qapı şiddətlə döyüldü.

Hayk oyanıb başını yastıqdan qaldırdı.

- Kimsən? – deyə soruşdu.

- Aç qapını, qorxma.

Hayk kəndxuda Minasın cır səsini tanıdı.

- Bu saat! Bu saat! – deyə geyinməyə başladı… - Şuşanik, Arakelin dediyi məsələdir. Evi axtarmağa gəliblər. Ancaq qorxma. Özün bilirsən ki, mənim kommunist olduğumu bu kənddə heç kəs bilmir.

Minas yenə qapını döyə-döyə dedi:

- Ərə, soyuq bizi qırdı axı!..

Şuşanik geyinib çırağı yandırdı. Hayk qapını açdı.

Minas, Samvel və iki strajnik içəri girdi.

Hayk:

- Buyurun, buyurun! – dedi, - keçin bəyəndiyiniz yerlərdə oturun. Gecənin bu vaxtında xeyir ola?

Şuşanik evin bir bucağına çəkildi. Samvel yanını kürsünün üstünə qoydu, Haykla kəndxuda bir tərəfdə yanaşı oturdu, strajniklər ayaq üstə dayandılar.

Hayk dedi:

- Bu bizim kəndxuda Minas kişidir, o əli tüfənglilər də, görürəm, strajnikdirlər, bəs, eyib olmasın soruşmaq, bu qardaş kimdir?

Samvel dillənməmiş, Minas cavab verdi:

- Böyük adamdır, naçalnikdir. General-nahankapetin sağ əlidir.

- Ərə, bizim mahalın general-nahankapeti Karo Hamparsumyanın?

- Bəli, bəli, onun.

Hayk süni bir sevinclə dedi:

- Vallah, mənim evimə hələ indiyə bəri belə böyük hökumət adamı gəlməyib. Ay qız, Şuşanik, gör evdə nəyin var, hazırla, çay qoy. Amma araq, çaxır barədə bir az üzüm qaradır. Neyləyim, gecə vaxtı qonaq gəlmisiniz, gündüz gəlsəydiniz hardan olsa tapardım.

- Bizə heç nə lazım deyil. Bura qonaq gəlməmişik. Nə isə, söhbətimizə başlayaq, - deyə Samvel şinelinin cibindən kağız və qələm çıxartdı. – Mənim suallarıma doğru, düzgün cavab verərsən.

- Baş üstə. Suala doğru cavab verməkdən asan nə var… - deyə Hayk güldü.

- Adını, familiyanı de.

- Adım – Haykdı, familiyam da – Aslanyandır. Kəndxudamız Allaha şükür, məni yaxşı tanıyır ki…

- Atanın adı?

- Atamın adı Sərkis idi. On il var ki, ömrünü sənə bağışlayıb. Niyə bir-bir soruşursan, ay naçalnik… elə hamısını özüm birdəfəlik deyim, sən də yaz. Bir arvadım, bir oğlum var, töyləm var, samanlığım var. Bir inəyim var, yanı buzovlu… Sağlığından, yaxşı dolanıram, hökumətimizdən də çox razıyam.

- Dayan, dayan! – deyə Samvel ona tərs-tərs baxdı. – Dil otu ha yeməmisən! Kənddə nə iş görürsən? Torpağın varmı?

- Kəndlinin işi nə olar? Gözləyirəm yaz gəlsin, əkinə-səpinə başlayım… bir parça da torpağım var…

- Sən biləni, sizin kənd necə kənddir? Təzə xəbərdən-zaddan nə eşitmisən?

- Bizim kənd?.. Vallah, deyir, açsam da öz eybimizdir, yumsam da. Kəndimiz pis kənd deyil, amma bəzi dələduzlar olmasa. Düzü, kəndlilərin arasında xətir-hörmət qalmayıb. Hökumətin qorxusu olmasa ha, vallah, bir-birinin ətini yeyər. Manuçar ağa kimi hörmətli bir adamın yerini əlindən almaq istəyirdilər.

- Sən Levonla Makiçin yerini bilmirsən?

Hayk özünü lap avamlığa vurub Samvelə cavab verdi:

- Yaxşı bilmirəm. Ancaq o gün, deyəsən, kənd arasında bəziləri danışırdı ki, hökumət ikisini də tutub salıb qazamata. Bəziləri də deyirdi ki, onları canavar yeyib.

Minas dedi:

- Yalan sözdür, onları nə canavar yeyib, nə də tutublar. Ancaq ikisini də bərk axtarırlar. Üç-dörd gündən sonra ikisinin də arvad-uşağı kənddən sürgün ediləcək.

- Sən nə danışırsan? – deyə Samvel ağzından söz qaçıran kəndxudaya əyri-əyri baxdı. – Bu yalan sözdür. Heç kəsin ixtiyarı yoxdur ki, onların külfətinə toxunsun.

Hayk gülümsəyərək:

- Yox, naçalnik, - dedi, - elə adamların evini-eşiyini dağıtmaq yaxşıdır. Qoy kəndlilərə görk olsun.

- Yaxşı, - deyə Samvel onun sözünü kəsdi. – Hayk Aslanyan, səndən bir söz də soruşacağam…

- Buyur, naçalnik, buyur…

- Sizin kəndə qıraq yerdən qız gətirməyiblər ki?

- Nə qız, naçalnik? Haralıdır? Kimin qızıdır?

- Əngələvidlidir. Götürüb qaçıblar…

- Yox, eşitməmişəm. Əgər elə şey olsa kəndxuda hamıdan qabaq bilər. Mənim bir arvadım var, o da başımın altında. Özümüz də kilsədə bir-birimizə demişik: kores, şiles, qəbules…- Hayk qəhqəhə çəkdi…

Minas dedi:

- Ərə, naçalnikin sözünü başa düş e… Demir ki, sən o qızı özünə arvad gətirmisən. Deyir, birdən işdir eli, bəlkə eşidib biləsən. Oğurlanan qız bu naçalnikin bacısıdır eli…

Hayk təəccüblə soruşdu:

- Ərə, Minas kişi, mən ölüm, düz deyirsən? Ərə, bu necə işdir, hə?.. Belə naçalnik oğlanın da bacısını götürüb qaça bilərlər?! Məzhəb haqqı bu işlərin hamısı elə bizim o dələduz Makiçlə Levonun işidir… Onları tapmaq lazımdır. Sən öl, naçalnik, elə adamların qanı halaldır…

Samvel kağızı, qələmi cibinə qoyub ayağa durdu. Minasla Hayk da yerlərindən qalxdılar.

- Ərə, naçalnik ağa, gedirsiniz?.. Heç yaxşı olmadı axı, bir tikə çörəyimizi yemədiniz…

- Hələ getmirik, evinizi axtaracayıq…

- Mənim evimi? Bu da hökumət işidirsə, axtarın, sözüm yoxdur…

Bir tərəfdə dayanmış Şuşanik irəli gəlib Samvelə dedi:

- Ay qardaş, evimizdə nə var ki, axtarırsınız? Vallah, heç nə yoxdur…

Hayk dedi:

- Kənara çəkil, Şuşanik. Bu hökumət işidir, sən qarışma. Bəlkə belə məsləhətdir.

Samvel özünü çəkib dedi:

- Evinizdən tüfəng, tapança, patron tapsaq, onda canını hara qoyarsan?

- Tapsanız, boynumu vurun…

Samvellə strajniklər əvvəlcə evin bucaqlarına baxmağa başladılar.

Minas Haykın qulağına pıçıldadı:

- Ərə, qorxma, hamının evini axtarırlar. Bolşevikləri gəzirlər.

- Bolşevik nədir, Minas kişi?

- Ərə, onlar da adamdır eli, özləri də daşnakların düşmənidir, kəndiləri hökumətə ağ olmağa çağıran onlardır…

- Sən öl, kəndxuda, bu sözü səndən eşidirəm, hə, demək dünyada bolşovoy da var!..

Samvellə strajniklər yorğan-döşəklərin içinə, yükün dalına baxdılar. Təndirə baxmaq üçün kürsünü götürəndə uşaq ayıldı. Şuşanik onu qucağına götürdü. Yuxudan kal oyanmış uşaq, əli tüfəngli adamları görəndə ağlayıb, özünü anasının sinəsinə sıxdı.

Evdə axtarmadıqları bir yer, eşib tökmədikləri bir şey qalmadı. Samvel bir qədər yorulmuş halda əllərini belinə vurub evin ortasında dayandı. Başını yuxarı qaldırıb ləmpəyə baxdı və dedi:

- Axtarmadığımız yer, bircə pərdilərin arasıdır. Yuxarı necə çıxaq?..

Özünü bayaqdan bəri təmkinli, sərbəst aparan Hayk, Samvelin bu sözündən sonra da narahat olmadı. Çünki pərdilərin arasında saxlanan çağırış vərəqələrini o, qabaqcadan yandırmışdı.

- Pərdilərin arasına baxmaq çətin deyil. İstəyirsiniz, nərdivan gətirim? Nə tapsanız, yarısı sizin, yarısı mənim…

Samvel ona diqqətlə baxıb dedi:

- Yaxşı, lazım deyil. Gedək töyləyə, samanlığa baxaq.

- Gedək, orda da inək, buzov görəcəksiniz, - deyə Hayk qabağa düşdü.

Hamısı evdən çıxdı. Şuşanik xaç çəkə-çəkə yalvarıcı bir səslə dedi:

- Allah, sən özün Haykı bəladan saxla! Tüfəngi, patronu tapsalar, onu əlli-ayaqlı itirəcəklər.

Adam var ki, illər uzunu qapısını tanış, yoldaş, dost, qohum açmaz. Yalquzaq kimi tək yaşayar. Dünyanın işindən, gedişindən xəbəri olmaz. Həyət bir, qapı bir qonşusu naxoşlasa da, ac qalsa da, fəlakətə düşsə də, vecinə almaz. Əzizi, iki gözü ölsə də, dərdi, qüssəni ürəyinə yaxın qoymaz. Balıq kimi soyuq, daş kimi duyğusuz olan bu adamlar dünyanı dörd əlli tuturlar, yalnız özləri üçün yaşamaq, həm də çox yaşamaq arzusunda olurlar.

Adam var ki, bir tikə çörəyi də olsa, onun tanışı, dostu, qonşusu ilə, lap yad bir adamla bölməyi özünə iftixar hesab edər. Belə adamlar mal-dövlət yox, dost qazanmağa çalışırlar. Onların bu gündən sabaha dolanmağa imkanları olmasa da, üzləri gülər, gözləri tox olur.

Mürsəl Nəbiyevi Gürcülü kəndində bu cür adam kimi tanıyırlar. Hətta deyirlər: «Mürsəl Şirin oğlunun dövləti yoxdur, amma kişinin açıq qaşqabağına, gülər üzünə nə söz… Kaş hamı onun kimi mərd, səxavətli olaydı».

Mürsəlin evində bu gün də adam çox idi. Comərd, Vahan, Suren, Rüstəm, Camal, Levon və Makiç burda idi. Şahmərdan yox idi. O, partiya tapşırığı üçün beş gün idi ki, Muskanlıya getmişdi.

Kimi gəbənin, kimi naxışlı qara keçənin üstündə bardaş qurmuş, kimi dizi üstə oturmuş adamlar yeməkdən sonra söhbət edirdilər. Yusif də onlara qulaq asırdı. Daha yekəlib hər şeyi qanan Yusifi nə əmisi, nə dayısı həyat və mübarizə haqda danışılan məclislərdən çəkindirmirdi. Onlar istəyirdilər ki, Yusif kəndlərinin dağılmasının, atasının ölümünün, bacısının dərddən, kədərdən şam kimi yanıb əriməsinin, bütün yoxsul kütlələrin çəkdikləri əzab, fəlakətin səbəblərini bilsin.

Mürsəlin evinə toplanmış adamların bəziləri köhnə dost, köhnə yoldaş idi, bəziləri isə bir-birləri ilə təzə tanış olurdu. Buna baxmayaraq, hamısının arzusu, məqsədi bir idi. Bir-birlərinə ürək qızdırırdılar. «Dostun sirrini dost bilər».

Mürsəlin qoca anası Badam, Siranuş və Növrəstə evin bir tərəfində çörək yeyirdilər. Qonaqpərəstlikdə, səxavətdə oğlundan daha artıq olan Badam qarı, Siranuş onlara gələn gündən ona öz doğma qızı kimi hörmət edirdi. Siranuş bunu yaxşı başa düşür və qiymətləndirirdi. Birinci dəfə müsəlman ailəsinə düşən Siranuş bir gün ərinə demişdi: «Ay Suren, müsəlmanlar nə yaxşı, hörmətcil adamdırlar. Badam xala pərvanə kimi başıma dolanır…».

Badam qarı Surenin Siranuşu necə götürüb qaçdığını biləndən sonra, oğluna demişdi: «Oğul, Suren nişanlısını götürüb qaçırdıb bura, bizə pənah gətirib. Öz yerlərində toy eləyə bilməyib. Gəlsənə, bu iki cavanın toyunu burda biz eləyək. Nə olar erməni olanda – qəribdirlər, qoy könülləri şad olsun».

Mürsəl anasını başa salmışdı ki, bu indi mümkün deyil.

…Vahan sözünə davam elədi.

- Sən düz deyirsən, Comərd, istər müsəlman kəndliləri, istər erməni kəndliləri – hamı bir vəziyyətdədir. Aclığın, fəlakətin əlindən daha təngə gəliblər. Bax, elə götürək bu Levonla Makiçi. Onlar Manuçar Sarumovun yerini zorla əkməkdə yaxşı iş görüblər. Karpovu da öldürməkdə qoçaqlıq göstəriblər. Amma təəssüf ki, torpağa sahib ola bilməyiblər. Ola da bilməzdilər, tək əldən səs çıxmaz… Daşnak hökumətinin qorxusundan qaçıb, müsəlman kəndindəki dostlarına pənah gətirmiş bu kəndlilər evlərindən, ailələrindən ayrılmışlar. Daşnaklar bunları tapa bilmirlər, ancaq eşitmişəm ki, arvad-uşaqlarını kənddən sürgün edəcəklər, özü də ya sabah, ya birigün.

- Elə şey olmaz! – deyə Levon pərt halda dilləndi. – Ailəmizlə nə işləri var?!

- Olar, olar, mən inanıram, - deyə Makiç dilləndi.

- Sən bunu hardan bilirsən?

- Bir adam mənə xəbər verib. Siz arvad-uşağınızın köməyinə getmək istəyirsinizmi? – deyə Vahan soruşdu.

- Ailə adamın namusudur. Biz elə namusumuzun ucundan evimizdən-eşiyimizdən didərgin düşmüşük. Amma köməksiz və silahsız biz nə eləyə bilərik?

Comərd cavab verdi:

- Kömək də verərik, tüfəng də taparıq. Biz sizin ailənizi əsir-yesir olmağa qoymarıq. Amma birdən elə olmasın ki…

- Ərə, Comərd kirvə, pikrini başa düşdüm! – deyə Levon onun sözünü kəsdi. – Siz musurmanlarda məsəl var ki, yaxşı dost yaman gündə məlum olar. Əgər namərdlik eləyib sizi satsaq, onda anamızın südü bizə haram olsun. Makiç də, mən də burda oturanların heç birini tanımırdıq. İndi bildik ki, siz nə əqidənin sahibisiniz. Əvvəldən bilsəydik ki, Vahan kişinin, Surenin, daşnakları, Sarumov kimi adamları görməyə gözləri yoxdur, özləri də bizim kənddə yaşayırlar, çoxdan onlara qoşulardıq.

- Əlbəttə qoşulardıq, bilməmişik, - deyə Makiç onun sözünə qüvvət verdi. – Vahan kişinin bizə necə qəhmər çıxdığını eşitmişik. Çox sağ olsun. Biz də adamıqsa, gərək bu yaxşılığı itirməyək. Hə, onu demək istəyirəm e… Biz dünəndən bəri bu Mürsəl kirsənin evində söhbət eləyirik… Bir-birimizə bələd olduq. Mən başa düşdüm ki, kasıbların da dərdinə qalan, xeyrinə çalışan adamlar var. Vahan kişinin dediyinə inanıram. Daşnaklar bizim ailəmizi də kənddən çıxardarlar, hələ desən evimizi də yandırarlar. Bizə kömək, tüfəng verirsiniz, çox sağ olun. Biz keçmiş Nikolay pristavını daşla öldürdük, daşnak zülmkarlarını tüfənglə öldürərik. Həmişə də sizinlə bir yerdə olarıq.

Söhbət çox çəkdi. Bu axşam bir neçə adamın Xınzirəyə yola düşməsini məsləhət gördülər. Ancaq Levonla Makiçdən başqa oraya daha kimlərin gedəcəyini hələ müəyyən eləməmişdilər.

Şahmərdanla Qiyas gəldi.

Növrəstə durub o biri evə getdi. Onun birdən pərt olub qızarması və dərhal durub getməsi Siranuşa bir təhər gəldi. Bunun səbəbini Badam qarıdan soruşdu. Badam qarı köksünü ötürüb dedi:

- Küsülüdürlər. Növrəstə, əmisi, dayısı, qardaşıyla bizim damda olur, Şahmərdan da Qiyasla başqa bir kəndlinin evində. Növrəstə mənə öz dərdindən çox danışıb. Deyir: «Şahmərdanı görəndə az qalıram ölüb yerə girəm». Mən də, elə oğlum Mürsəl də, nə qədər eləyirik, barışmırlar. Eh, ay qızım, hər kəsin bir dərdi var, heç kəsə deməz, ağlar… Zəmanənin üzü qara olsun… Kəndlərindən didərgin düşməsəydilər, Baxış bəy kimi köpək oğlu da onu bədbəxt eləməzdi. Ta nə deyim, Növrəstə ki, başına gələnləri sənə danışıb…

…Şahmərdan eşitdiyi təzə xəbər haqqında böyük bir sevinclə danışırdı:

- Qızıl Ordu hissələri Şimalı Qafqazı alıb. Denikin qoşunları tar-mar olub, - deyə sözünü bitirdi.

Bu xəbər hamını fərəhləndirdi.

Qızıl Ordunun tezliklə Zaqafqaziyaya gələcəyini gözləyən kommunistlər, Sovet hakimiyyəti uğrunda apardıqları mübarizəni daha qızışdıracaqları barədə xeyli danışdılar.

Axşam oldu. Silahlar paylandı. Levon, Makiç, Suren, Şahmərdan və Qiyas Xınzirəyə yola düşdülər.

Martın axırları idi. Qar bəzi yerlərdə əriməyə başlamışdısa da, havalar hələ soyuq keçirdi. Gün gah çıxır, gah qalın buludların arxasında gizlənirdi. Dağlara, köyşənlərə yaşıllıq, əkin yerlərinə hərarət verəcək xoş bahar günlərinin gəlməsini

çoxları gözləyirdi…Sanki, uzun qış günlərində qəm-kədərdən, aclıqdan fəryad çəkən insanlara bahar bir əlində bənövşə, lalə, bir əlində sarı buğda sünbülləri gətirəcəkdi. Sanki bahar onların yalın ayaqlarına təzə çarıx, çılın-çılpaq bədənlərinə qəşəng paltar geydirəcək idi…

Bəs Gürcülü ilə Xınzirək yolunun kənarında bir qayanın dibində oturmuş silahlı adamlar nə gözləyirdilər? Orda nə üçün oturmuşdular? Onlar Zəngəzurun sərt qışından, qılınc kimi kəsən şaxtasından daha amansız olan zalimlərin əlindən «əsirləri» xilas eləmək istəyirdilər. Onlar çox da olmasa, bir neçə insan ömrünü fəlakətdən qurtarmağa özlərini borclu bilirdilər. Lakin onlar Xınzirək kəndinin ortasındakı böyük izdihamı görmürdülər. Bilmirdilər ki, Karonun göstərişi, Samvelin əmri ilə kəndxuda camaatı meydana toplayıb ki, kənddən sürgün edilənləri hamı görsün. Bu cəzadan hamı ibrət dərsi alsın, daha bundan sonra Manuçar Sarumov kimi Milli Şura üzvünün torpağına əl atmağa heç kim cəsarət eləməsin, hökumətin üzünə ağ olmasın. Silahlı adamlar Levonla Makiçin günahsız arvadlarının, uşaqlarının «bizə rəhm edin!» deyə necə yalvardıqlarını, fəryad etdiklərini eşitmirdilər.

Dəqiqələr, saatlar keçdi. Gah Levon, gah Makiç qayanın dibindən çıxıb Xınzirəyə tərəf baxırdı… Hələ yolda heç kəs görünmürdü. Dağlardan qalxıb göy üzünə uçan, bəzən aşağı enib yolu pərdə kimi tutan ala-tala buludlar da uzaqları görməyə mane olurdu.

Çox keçmədi ki, yolun yuxarı tərəfindən qarışıq səslər eşidildi. Uşağın ürək yandırıcı ağlamaq səsi, at dırnaqlarının səsi, şallaqların səsi getdikcə yaxınlaşırdı.

Suren:

- Deyəsən gəlirlər, - dedi, - hazırlaşın!

Hər kəs öz tüfəngini patronladı. Makiçlə Qiyas qabağa gedib, yolun alt tərəfindəki yarğanda gizləndilər. Şahmərdanla Levon yolun üst tərəfindəki qaratikan kolunun dibində oturdular. Suren əvvəlki yerində qaldı.

Bir azdan sonra «karvan» göründü. Özünü atın üstündə çəkib generala oxşadan Samvel qabaqda, iki strajnik arxada, ortada isə arvadlar, uşaqlar piyada gedirdilər. Onlar döngəni burulub yolun düz yerinə çıxanda, Suren qayanın dibindən çıxıb qışqırdı:

- Dayanın, arvad-uşağı hara aparırsınız, binamuslar?

Samvel çevrilib baxdı, Sureni qayanın yanında görəndə onu qaçaq, quldur hesab eləyərək strajniklərə qışqırdı:

- Tez sürün, aradan çıxaq! – O, atı qamçıladı.

- Tərpənməyin sizə deyirəm! – Suren havaya bir güllə atdı. Uşaqlar çığırışdılar, arvadların qorxudan rəngi ağardı. Surenin siqnal gülləsindən sonra Şahmərdanla Levon kolun dibindən, Qiyasla Makiç yarğandan çıxdılar. Onlar da tüfənglərini şaqqıldada-şaqqıldada strajniklərə və Samvelə tuşladılar. Mühasirədə olduqlarını hiss edən daşnaklar özlərini itirdilər. Bundan istifadə edən arvadlar uşaqlarını yolun bir tərəfinə çəkdilər. İnsan həyatı uğrunda daşnaklarla mübarizəyə çıxmış ilk partizan dəstəsinin adamları bir qədər irəli addımlayıb dayandılar.

Samvel mauzerini çıxarda-çıxarda soruşdu:

- Ərə, siz kimsiniz?

- Mən xınzirəkli Levonam, arvad-uşağımı hara aparırsınız, köpək oğlanları!

Makiç daha qəzəbli dedi:

- Heyvanlar, zalimlər, mən ölməmişəm ki, oğlumu, arvadımı əsir-yesir eləyəsiniz!

Arvadların biri – «Levon!», biri – «Makiç!» deyə qışqırdı. Onlar uşaqlarının əllərindən tutub sevinclə ərlərinə tərəf gedəndə, Samvel:

- Qayıdın geri! – deyə əmr elədi.

- Arvad-uşağı buraxın gəlsin! Yoxsa, biriniz də salamat qalmayacaqsınız, - deyə Suren tüfəngi üzünə götürdü.

- Ərə, vurun bu quldurları, - deyə Samvel strajniklərə əmr elədi. Özü isə Sureni nişan aldı.

Qiyasın gülləsi açıldı. At ürkdü, Samvelin gülləsi hədəfi tutmadı. Strajniklərdən biri tüfəngini Şahmərdana tuşladı. Levon sərrast bir güllə ilə onu vurub atdan aşırdı. O biri strajnikin rəngi saraldı. Dodaqları əsə-əsə: «Vay, vay, Hakopu öldürdülər! Mənə dəyməyin, təslim oluram!» deyə qışqırdı və tüfəngini yerə atdı.

Samvel təslim olmaq istəmədi. Aradan çıxmağı vacib bildi. Atı bərk şallaqlayıb cilovunu buraxdı. Partizanlar onu daldan gülləyə tutdular…

Levonla Makiçin ailəsi, partizanlar bir yerə toplandı. Ər, arvad, ata, oğul, qız dönə-dönə öpüşdülər. Gözlər doldu, hönkürtü səsi ucaldı. Bu göz yaşları fəlakətdən qurtaran adamların sevincindən doğan – təbii bir haldı. Bəli, bahar yağışı torpağa bərəkət verdiyi kimi, onların da fərəhdən axan göz yaşları ürəklərinə sakitlik verirdi.

Levon və Makiç bir tərəfdə öz ailələri ilə söhbət edir, çoxdan görmədikləri uşaqlarını bağırlarına basıb öpür, danışdırırdılar…

Şahmərdan, Suren və Qiyas strajniklərin tüfənglərini almaq üçün onlara sarı addımladılar.

Aşot dərhal ayağa qalxıb, qorxudan əsə-əsə dedi:

- Suren axpercan, sən kilsə, sən Allah, mənə dəymə. Sənə çox pislik eləmişəm, indi başa düşürəm ki, qələt eləmişəm. Gərək əvvəldən səninlə dost olaydım, qardaş olaydım. Sən kişilik elə, mərd ol, Surencan!

- Aşot, səni öldürərdim – gülləmə heyfim gəlir. Ancaq başa düş ki, şeytançılığın, pisliyin axırı yoxdur. Naçalniklərin yanında az quyruq bula, çıx get özünə bir gün ağla!

- Vallah, düz deyirsən. İtin qədri-qiyməti var ki, strajnikin yoxdur…

Suren cibindən karandaş, kağız çıxardıb, nə isə yazdı və Aşota verib dedi:

- Bu kağızı ver Karo Hamparsumyana!

- Baş üstə, göz üstə. Allah səndən çox razı olsun, Suren! –Aşot kağızı cibinə qoydu. – İndi yaralını aparmağa icazə verirsən?

- Apar. Ancaq dediklərim qulağında qalsın…

Aşot yalvarmağa başladı:

- Tüfəngimi qaytar özümə. Sənə qurban olum, Suren, Karo mənim ətimi şişə çəkər…

- Çox donquldanma, patrondaşı da aç! – deyə Qiyas tüfəngini ona tuşladı.

Aşot özünü itirdi:

- Ərə, ay musurman qardaş, heç olmasa sən mənə rəhm elə!

Partizanlar Aşotun tüfəngini verməyib getdilər. Aşot başına-gözünə döyə-döyə qışqırdı:

- Atamın ocağı sönəcək, Allah! Tüfəngimi apardılar… Karo məni güllələyəcək, Allah!..

…- Demək, siz o quldurlara heç bir şey eləyə bilmədiniz, hə? – deyə Karo bərkdən qışqırdı. – Yaxşı naçalniksən, igid naçalniksən!.. Strajnikin birini güdaza verdin, birini də orda qoyub qaçdın… Nə üçün özün salamat qayıtmısan? Hökumətin əmrini beləmi yerinə yetirirsən? Hanı sənin verdiyin söz, içdiyin and? Axı mən səni keçən dəfəki günahının üstündə həbs etmədim, öldürmədim. Dedim, bacarıqlı olduğunu göstərər…

- Mən göstərdim, cənab general-nahankapet. Karapeti…

- Sus, heyvan! «Karapeti, Karapeti». Böyük iş görmüsən…

Samvel daha danışmadı. Karo getdikcə özündən çıxmağa başladı:

- Aciz, qorxaq tülkü! O quldurlar hara getdilər? Cavab ver!..

- Bilmədim.

- Onları tanıdınmı?

- Xeyr.

Karo ona yaxınlaşıb üzünə bir-iki tutarlı sillə çəkdi:

- Həbsxananın yolunu tanıyırsanmı? Sənin yerin oradır! Mauzeri aç qoy stolun üstə! – O, üzünü kənarda sakit durub baxan Mesropa çevirdi: - Naçalnikliyə səni təyin edirəm. İşləri öz əlinə al!

Samvel çalağan qarşısında büzüşmüş cücəyə döndü. Karoya yalvarmağa başladı. Həbsxanaya düşməmək, vəzifəsini əldən verməmək üçün ilan dili çıxartdı. Karonun hörmətini yenidən qazanmaq üçün atasını ələ verməyi qərara aldı. Lakin bu vaxt Mesrop dedi:

- Samveli bu dəfə mənim xatirimə bağışlamağını xahiş edirəm. O, sürgün edilən kəndlilərin əldən çıxmasında o qədər də təqsirkar deyil. Quldurlar qəfildən hücum eləyiblər. Samvel əhvalatı sənə çatdırmaq üçün qaçıb gəlib. O cür ağır vəziyyətdən çıxmağın özü böyük hünərdir. Samveli tutub aparsaydılar, bizim üçün, yəni hökumət üçün pis olardı.

Karo daha bir söz demədən stolunun arxasına keçdi. Başını iki əlli tutub fikrə getdi.

Samvel ürəyində Mesropa təşəkkür edib, Karonun nə deyəcəyini gözlədi.

Aşot içəri girdi. Karo əllərini başından götürüb, müqəvva kimi dayanmış Aşota dedi:

- Hə, «pəhlivan», sən də gəldin! Boyunuzu yerə soxum, sənin də, sənin bax bu naçalnikinin də! İkiniz də başınızı götürüb qaçmısınız, eləmi?

Aşot dedi:

- Mən qaçmamışam, general-nahankapet ağa. Vallah, düşmənlərin qabağında şir kimi dayanmışdım.

- Az özünü təriflə, tülkü! Hanı strajnik Hakop?

- Evlərinə apardım. Yarası ağırdır. Bu günə-sabaha ömrünü sənə bağışlar. Mən onu elə vəziyyətdə qoyub qaçmadım. Ancaq… - Aşot Samvelin necə

qaçdığını söyləmək istədi. Amma ürək eləmədi. – Hə, ancaq qabağımızı kəsənlərin içində musurmanlar da var idi.

- Musurmanlar? – Karo nə qədər qəzəblər bağırdısa, Aşot bir o qədər yavaşdan cavab verdi.

- Bəli, general-nahankapet ağa, musurmanlar. – Aşot kağızı cibindən çıxardıb qorxa-qorxa Karoya verdi.

- Bu nədir? Kim yazıb?

- Kağızdır, Suren verdi. Bunu sənə çatdırmaq üçün məni öldürmədi…

- Suren? – Təəccübdən az qala gözü kəlləsinə çıxan Karo bir də təkrar elədi:
- Suren?! Qabağınızı kəsən o idi?

- Bəli, o və başqaları…

- Bəs sənin tüfəngin, patrondaşın hanı?

- General-nahankapet ağa, daha niyə gizlədim, əlimdən aldılar.

Karo Aşota tərs-tərs baxıb kağızı ucadan oxumağa başladı:

«Cənab Karo Hamparsumyan, bu günahsız camaatı az incit. Əlsiz-ayaqsız arvad-uşağı yurdundan-yuvasından aralı salma. Onu bil ki, siz daşnakların ağalığına, dərəbəyliyinə az qalıb. Qızıl Ordu, sizin dostunuz Denikinin qoşunlarını darmadağın eləmiş, Şimali Qafqazı almış və sürətlə Zaqafqaziyaya doğru irəliləyir. Kəndlilərin sizdən intiqam alacaqları günü gözləyin!

Bundan sonra, bir kəndliyə barmağınızı vursanız, erməni və müsəlman partizanlarının zərbəsini başınızda hiss edəcəksiniz!

Müsəlman kəndlərinə hücuma hazırlaşmağınız bizə məlumdur! İki xalqı bir-birinə düşmən eləməyin! Anlayın ki, bu böyük məsuliyyətin cəzasını çəkə bilməyəcəksiniz. Onu da bilin ki, təzədən Milli qırğın salmağa, hər kəsdən qabaq sizə partizanlar aman verməyəcəkdir.

Cənab Hamparsumyan! Siz hər şeyi əmr ilə, zor ilə əldə etməyə adətkərdə olduğunuz üçün, məhəbbəti də zorla qazanmaq istəyirdiniz! Lakin buna nail ola bilmədiniz. Tale sizin ağalığınıza tabe olub, üzünüzə gülmədi. Namusunu, eşqini dövlətdən, şöhrətdən uca tutan adamın ürəyi heç bir zaman, heç bir qanuna, əmrə, mauzerə satılmaz. Buna özünüz əmin oldunuz. Cənab «hökmdar», yəqin ki, bütün polisi, casusları ayağa qaldırıb «nişanlınızı» axtartdırırsınız. Heç narahat olmayın, Siranuş öz sevgilisinə qismət olmuşdur. Atalar yerində deyib: ürək öz dostunu tapar.

Suren Poqosyan, 3 aprel 1920-ci il».

Yüz qılınc zərbəsindən qüvvətli olan bu bir parça kağız Karonu sarsıtdı, sanki ürəyini yandırıb tüstüsünü təpəsindən çıxartdı. O, bir neçə dəqiqə stolun arxasında ölü kimi qaldı, sonra gözünü, qabağında lal dayanmış adamların üzündə gəzdirdi. Ona elə gəldi ki, qorxudan zağ-zağ əsən bu adamlar da indi ürəklərində deyirlər: «Suren səni diri-diri qəbirə basdırdı, general-nahankapet! Daha sən bu ölkədə necə baş saxlayacaqsan?!.»

Hər sözü bir xəbərdarlıq, bir ittihamnamə kimi səslənən kağız, Mesropu, Samveli və Aşotu mat qoymuşdu. Onlar Karoya təsəlliverici heç bir söz söyləyə bilmədilər.

Karo ayağa qalxıb irəli gəldi. Acığını Aşotun üstünə tökmək və hirsini soyutmaq üçün ona bir neçə sillə vurdu:

- İt küçüyü! Bu kağızı mənə niyə gətirmisən? Niyə yolda cırıb atmamısan?!

Aşot özünü itirdi.

- Mən neynim?.. Mən… mən yazıq…

- Zəhrimar, «mən», «mən»! – Karo ona bir sillə də vurdu. Sonra Samvelin qarşısında dayanıb kağızı dörd parça elədi və qəzəblə onun üzünə çırparaq dedi: - Al, sox gözünə! İndi bildin ki, bacın kimlə gedib?! Sən də get təzə yeznənin yanına! İkiniz də bir yerdə mənə güllə atın… Suren Poqosyanı gördüyünü nə üçün mənə demədin?

- Mən Sureni tanımadım.

- Tanımadım! Tanımadım! Bəlkə mülkədar Baqratın oğlu da bolşevik olub, xəbərimiz yoxdur?

- Mən bolşeviklərin yeridikləri yeri qazmağa hazıram…

- Bəs Suren Poqosyan, onun müsəlman yoldaşları, nə bilim, partizan-martizan yoldaşları kəndlilərin sürgün ediləcəklərini hardan bilirdilər? Onlara kim demişdi? Axı niyə mən o müsəlman kəndlərini xərabəyə çöndərmirəm ki, erməni bolşevikləri oranı özlərinə yuva, sığınacaq eləməsinlər!.. Yox, bu işdə sənin əlin var. Samvel… Naçalnik!..

- Mən səninlə təklikdə danışmaq istəyirəm, - deyə Mesrop Karonun üzünə baxaraq, başının yüngülcə hərəkətilə Samveli və Aşotu bayıra çıxartmasına işarə etdi.

Karo onların hər ikisini bayıra çıxardıb, Mesropa dedi:

- Danış!

- Karocan, əsəbiləşib özünü incitmə! Dəyirman bildiyini elər, çax-çax başını ağrıdar. Bizim milli hökumətimiz o qədər möhkəmdir ki, elə kağızlar bizə heç bir zərbə toxuya bilməz. Sən nahaq yerə Samveli bu qədər danlayırsan. Mən bilirəm ki, onun günahı yoxdur. Onun var-dövləti, şüuru, təbiəti yol verməz ki, bolşevik olsun. Bizə onun kimi adam lazımdır. Qoy o, öz vəzifəsini aparsın. Ondan bacarıqlısı olsa, çıxardarsan. Nə isə, mən Arakel Lalayansdan şübhələnirəm. Çox ola bilsin ki, hökumətin sirlərini bolşeviklərə çatdıran elə odur. Mənə belə sözləri deməyə əsas verən iki şeydir: birincisi, onun Milli Şuranın iclaslarında yersiz və siyasətimizə bəzən uyğun gəlməyən çıxışlarıdır ki, bunu özün də bilirsən. İkincisi, torpağını vaxtı ilə kasıblara paylaması…

- Demək, onu hökumət üzvü eləməkdə mən səhv eləmişəm, hə?

- Vallah, nə ərz eləyim… Bəlkə mən özüm də o kişinin haqqında səhv edirəm. Ancaq orası mənə gün kimi aydındır ki, Arakeldə heç millət duyğusu, millət qanı yoxdur. O, hətta müsəlman kəndlərinin dağıdılmasına da təəssüflənir. Belə adamdan da hər şey gözləmək olar… Bir də, bolşevik olmayan adam öz torpağını kəndlilərə verməz. Özünə yaxşı məlumdur ki, o, Rusiyada oxuyub. Bəlkə elə orda da bolşevik partiyasına daxil olub? Əgər o düz adamdırsa, nə üçün sənin təklifinə razı olub daşnak partiyasına girmədi?.. Məncə, Arakelin bundan sonra da sərbəst yaşaması bizim üçün təhlükəlidir…

Onlar çox danışdılar, götür-qoy elədilər. Hirsi bir qədər soyumuş Karo, Arakeli və Saakı yanına çağırtdırmağı Mesropa tapşırdı.

Növrəstə ilə Siranuş həyətin bir tərəfində, palaz üstündə oturub özlərini günə verə-verə dərdləşir və tez-tez yola baxırdılar. Onlar, silah götürüb mübarizəyə getmiş ərlərinin qayıtmasını gözləyirdilər. Çəkdiyi bütün zillətlərə, məşəqqətlərə baxmayaraq, Növrəstə Şahmərdanın məhəbbətini qəlbinin dərinliyində yaşadırdı. Küsülü olsalar da, istəməzdi ki, ərinin başından bir tük əksik olsun.

Doğma kəndlərindən, obalarından uzaq düşmüş gəlinlər – bir azərbaycanlı, bir erməni öz yerləri haqqında xeyli danışdılar. Sərin ayna bulaqları, coşqun şəlalələri, per-pencərli, baldırğanlı güneyləri, geniş, yaşıl çəmənləri – hər şeyi, hər yeri gözlərinin qabağına gətirdilər.

Yusif gəlib əmisinin adından bacısını çağırdı. Növrəstə onunla bərabər evə getdi.

Tək qalan Siranuş fikrə daldı… Gün günorta yerinə qalxanda Suren darvazadan həyətə girdi.

- Allah, sənə şükür! – deyə Siranuş yerindən qalxıb ərinin qabağına qaçdı.

Suren ona baxaraq, gülə-gülə dedi:

- Siranuş, sən tamam dəyişilib, olmusan bir müsəlman qızı! Başında kələğayı, əynində gen qollu küləcə, uzun tuman… Bu paltar gör nə qəşəng də sənə yaraşır!

- Badam xala gəlininin paltarını verib geymişəm. Mənimkini yuyub. Canın üçün, Suren, belə yaxşı arvad olmaz. Mənə öz qızı kimi hörmət eləyir.

Onlar danışa-danışa gəlib palazın üstündə oturdular. Suren tüfəngi yanına qoydu.

- Həyətdə niyə təkcə oturmuşdun?

- Növrəstə də burda idi, elə indicə getdi. O, Şahmərdanın yolunu gözləyirdi, mən də sənin. Ürəyim necə sakit oldu. Yoldaşların da salamatdırlarmı?

- Hamı salamatdır. Levonla Makiç arvad-uşaqları ilə getdi Qundanlıya.

- Allaha şükür… Növrəstə Şahmərdandan çox nigarandı. Mən də yaman qorxurdum…

- Niyə qorxursan, Siranuş? Sən ki, mənim və yoldaşlarımın nə yol tutduğumuzu bilirsən, mübarizəmiz, davamız hələ qabaqdadır. Bəlkə elə gətirdi ki, sən özün də əlinə tüfəng alıb bizə qoşulmalı oldun…

Siranuş köksünü ötürürmüş kimi dərindən nəfəs alıb dedi:

- Ah, Suren, niyə anam məni oğlan doğmayıb?

Suren Siranuşun əlini əlinə alıb gülümsündü.

- Oğlan olsaydın nə eləyərdin? – deyə Suren arvadının günün isti şüalarından şəvə kimi parıldayan qara gözlərinə baxdı. – Hə, nə eləyərdin?

- Sənə dost olardım, yoldaş olardım. Hara getsəydin səndən ayrılmazdım. Düşmənlə qabaqlaşan zaman güllənin birini sən atanda, birini də mən atardım.

- Sən o işləri indi də görə bilərsən, - deyə Suren tüfəngi yerdən götürüb Siranuşa verdi. – Bax, gör gücün çatarmı?

Siranuş beşatılanı əlində samballadı.

- Bunda nə ağırlıq var ki, gücüm çatmaya? Amma doldurmağı, atmağı bilmirəm…

- Ver, öyrədim! – Suren tüfəngi ondan aldı. Necə patronlamağı, necə nişan almağı və atmağı izah etdi.

Siranuş uşaq kimi sevinirdi:

- Vallah, öyrəndim, vallah, elə ataram ki…

- Quşu gözündən vurarsan, hə? – Suren qəhqəhə çəkdi.

- Gülmə. Tüfəngi ver bəri patronlayım, gör o divarın üstdəki sağsağanı necə vurub aşırıram…

- Sağsağan xeyir xəbər gətirən quşdur, onu vurma! Amma pis adamı öldürməyə ürəyin gələrmi?

- Mən qan tökmək istəmirəm. Ancaq yeri gəlsə, sənin düşmənini öldürərəm.

- Lap atan da, qardaşın da olsa?..

Siranuş bir qədər tutuldu, sonra dedi:

- Mən sizi barışdıracağam. Nə təhər olsa, onlar məni atmazlar…

Suren söhbəti dəyişdi.

- Gedək evə. Yoldaşların gəldiyimdən xəbərləri yoxdur.

Karo rusca yazdığı kağızı qurtarandan sonra oxudu:

«Qubadlı qəza naçalniki cənab Şərif bəy Əlibəyova!

Sizinlə bizim məqsədimiz, milli siyasətimiz başqa-başqa olsa da, aramızda toqquşmalar, müharibələr baş versə də, ümumi düşmənlərə qarşı mübarizəmiz birdir. Mən düşmən deyəndə, nəzərdə bolşevikləri tuturam. Hər yerdə birgə hərəkət edən erməni və müsəlman bolşevikləri Zəngəzurda xüsusən axır vaxtlar aktivlik göstərməyə, şuluqluq salmağa başlamışlar. Yəqin ki, onlar sizin qəzada da camaatı başdan çıxartmaq üçün az iş görmürlər. Axır zamanlarda özlərini partizan adlandıran bolşeviklər əhali arasında şayiə yayırlar: guya Rusiya Qızıl Ordusu Zaqafqaziyaya da gələcəkdir. Cənab naçalnik, əgər ruslar Zaqafqaziyaya gəlsələr, bizim də, sizin də milli istiqlaliyyətimiz təhlükədə olacaqdır. Məhz buna görə, siz orda, biz burda bolşeviklərlə amansız mübarizə aparmalıyıq… Etibarlı mənbələrdən bizə məlumdur ki, həmin partizanlar Zəngəzurda cinayət törətdikdən sonra, qaçıb sizin kəndlərdə gizlənirlər. Güman etmək olar ki, onlar bizim sərhədə yaxın olan Qundanlı, Gürcülü, Eyvazlar və başqa kəndlərdə özlərinə yuva salıblar. Bu həm sizin, həm bizim üçün heç yaxşı deyil, daha doğrusu təhlükəlidir.

Cənab naçalnik, Zəngəzur partizanlarını tutub bizim sərəncamımıza göndərməyinizi xahiş edirəm. Öz tərəfimizdən sizi əmin edirəm ki, əlimizə keçən müsəlman partizanlarını sizə təhvil verəcəyik.

Zərgəzur mahal general-qubernatoru
Karo Hamparsumyan. Gorus şəhəri.

*10 aprel, 1920-ci il».*

Karo kağızı zərfə qoyub, üstünü yazdı. Sonra qarşısında lal-dinməz oturan Saaka müraciət etdi:

- Sən müsəlmanca yaxşı bilirsən, eləmi?

Saak Karonun ağzından söz qurtarmamış, stuldan dik qalxdı.

- Bəli. Elə danışıram ki, musurmanın babası da mənim kimi danışa bilməz.

- Çox gözəl. Elə sir-sifətdən də müsəlmana oxşayırsan. Bu kağızı apararsan Qubatlıya, verərsən naçalnik Şərif bəy Əlibəyova. Ondan başqa heç kəsə verməzsən. O, nə cavab yazıb versə, mənə gətirərsən. Bizim sərhədçilər səni buraxacaqlar. Azərbaycan torpağına keçəndə necə gedəcəyini özün bilərsən. Get, ancaq üç gündən sonra burda ol. Gələndən sonra səni Gorusa, öz yanıma gətirəcəyəm. Get!

Saak getdi.

Mesropla Arakel içəri girdilər.

Karo Arakelə çəpəki baxıb dedi:

- Bizim hökumət üzvü Arakel Lalayans cənabları nə ilə məşğuldur?

General-nahankapetin yalnız sözlərində deyil, baxışlarında da dərin kinayə hiss edən Arakel cavab verdi:

- Xınzirəkdə yaralanan strajnikin müalicəsi ilə məşğulam.

- Tək-tək adamların müalicəsi ilə məşğul olunca, vətənin ürəyinə xəncər saplamaq istəyən adamlarla əlaqəni kəssən yaxşıdır!

- Bu sözü kimə deyirsən, cənab general-nahankapet?

- Sənə deyirəm, cənab Lalayans! Gərək ki, səhv çıxışların, səhv fikirlərin haqqında səninlə danışmışıq! Amma, təəssüf ki, özünü düzəltmək, əvəzinə, əməli surətdə bizə qarşı hücuma keçmisən… Özü də açıq yox, gizli…

- Nə demək istəyirsən? Başa düşmürəm…

- Başa düşmürsən? Yox, cənab Arakel Lalayans, de ki, bu sözlər sənə sərf eləmir. Mən sənə bir erməni ziyalısı kimi etdiyim hörməti doğrudan başa düşmədin. Nə isə, dövlət sirrlərini bolşeviklərə verən kimdir?

- Bunu məndən nə üçün soruşursunuz? Mənim bolşeviklərlə əlaqəm ola bilməz.

Mesrop üzünü Arakelə çevirib:

- Nə üçün tərslik eləyirsən? – dedi. – Allah, günahını boynuna alanların cəzasını yüngülləşdirər… General-nahankapetin hüzurunda düzünü söylə! Onun qəlbi genişdir – söyər, döyər, amma bərk ayaqda müdafiə edər…

- Mənim heç bir müdafiəyə ehtiyacım yoxdur, cənab keşiş. Bolşeviklərin də hərəkətlərinə mən cavabdeh deyiləm.

- Bolşeviklər hardan bilirdilər ki, hökumət Xınzirəkdəki üsyankar kəndlilərin ailələrini sürgün edəcəkdir? Axı bu haqda ancaq Milli Şurada danışılıb?

- Milli Şuranın məndən başqa da üzvləri var…

Mesrop hiyləgərcəsinə gülərək:

- Xeyr, xeyr! – dedi, - şübhə ancaq sənədir. Sənsən «məzlumlar»ın dostu…

- Şübhə əsas deyil.

Karo qışqırdı:

- Əsasdır! De görüm, bizim sirrimizi bolşeviklərə verməyə səni məcbur edən nədir? Cənab doktor Arakel, nə zamandan vətənə, millətə xain çıxmısan? Nə zamandan bolşeviklər səni aldadıb öz tərəflərinə çəkiblər?

- Karo Hamparsumyan öz nüfuzunu itirəndən.

Karo əlini stola döyərək bağırdı:

- Sus, alçaq! Mən nüfuzumu itirməmişəm. Mən bir ölkəni dolandırıram!..

- Mən sussam da, camaatın ağzını bağlaya bilməzsən. Camaat torpaq istəyir, çörək istəyir. Camaat deyir, hökumət bizim şikayətimizə baxsın, dərdimizə qalsın. İndi xalq quru sözə, vədə aldanmaq istəmir…

Karo əsəbi halda otaqda gəzinə-gəzinə dedi:

- Sənin qəddar bolşevik olmağına daha məndə heç bir şübhə qalmadı.

- Mənsə səni çoxdan tanımışam, Karo Hamparsumyan! Millətin əzazil düşməni!

Karo əlini mauzerə atanda, Mesrop tez yerdən qalxıb onun biləyindən tutdu.

- Yox, yox! Mən Arakeli öldürməyə razı olmaram. Biriniz general-nahankapet, biriniz Milli Şuranın üzvü… Bu nədir, eyib deyilmi? Arakel indi nahaq yerə qızışdı, inadkarlıq elədi, amma sonra hər şeyi açıb deyər, sən də onun günahından keçərsən… - Keşiş nə isə Karonun qulağına pıçıldadı.

Karo gəlib yerində oturdu.

- Samvel! – deyə qışqırdı.

Eyvanda durmuş Samvel Karonun səsini eşidən kimi tez içəri girdi.

- Apar bunu həbsxanaya!

Arakel tapança qabağında içəridən çıxandan sonra, Karo ağır bir yük altından xilas olubmuş kimi dərindən nəfəs aldı.

- Gördünmü içimizə soxulan canavarı, keşiş!..

- Allaha şükür ki, mənim şübhələrim doğruldu. İndi bolşeviklərin yerini ondan öyrənmək lazımdır.

- Sonra? Sonra?

Saak sözünə davam elədi:

- Hə, nahankapet ağa, yolda başıma çox işlər gəldi, sözüm onda deyil… Naçalnikin divanxanasını soruşub öyrəndim. Sözün gödəyi, icazə alıb Əlibəyovun yanına girdim. Kağızı verdim. Əvvəlcə elə bildi ki, musurmanam. Kağızı oxuyandan sonra üzümə dik baxdı. Dedi: «Ə, ay erməni, nə cəsarət eləyib musurman torpağına gəlmisən? İndi səni boğazdan asdırsam necə olar?!» Dedim, ağa, ixtiyar sahibisən. Bir erməni ölcək, yer üzündən erməni qurtarmayacaq ki. Amma mən səndən cavab aparmağa gəlmişəm. Nə fikir elədisə, dedi: «Qorxma, öldürmərəm. Ancaq, sözümü elə dilcavabı general-qubernator Hamparsumyana çatdır. De ki, biz özümüz partizanların, bolşeviklərin öhdəsindən gələ bilmirik. Bəylərin, dövlətlilərin evlərini yandırırlar, mülkədarların yerlərini əllərindən alırlar. Kəndliləri öyrədirlər ki, hökumət, divan-dərə saymasınlar. Bir də onu de ki, aldığımız doğru məlumat görə qırmızılar gəlirlər…». Onun sözünü kəsib soruşdum ki, ağa naçalnik, qırmızılar kimdir: Dedi: «General-qubernator özü bilir. Bəlkə bu günə, sabaha Bakını alacaqlar. Biz burda başımıza çarə axtarırıq. Daşnaklar da öz başlarına çarə qılsınlar…».

Karo dedi:

- Bəlkə, heç getməmisən? Bu sözləri özündən uydurursan?

- Ağa, nə danışırsan? Onda gərək məndə heç namus, qeyrət olmaya!.. Başına and olsun, sözümün biri də yalan deyil. Naçalnikin öz dilindən çıxanları sənə dedim… Mən kənd arasında, adamların danışığına da qulaq verdim. Biri partizanların vurub yıxmasından danışırdı, biri kəndlilərlə hansı bəyinsə arasındakı

çəkişmədən deyirdi. Biri bolşevikləri tərifləyirdi. Görünür ki, orda heç hökumət-zad yoxdur ki, elə danışanları tutub dama basmırlar…

- Yaxşı, sən get. Öz işinlə məşğul ol. Bundan sonra bizə çox lazım olacaqsan. Çağırtdıran kimi gələrsən. Vaxtlı-vaxtında məlumat verəcəksənmi?

- Bəli, general-nahankapet ağa!

- Kəndlilərin danışığına fikir ver. Kimin hara gedib, nə iş görməsini, kim ilə görüşməsini izlə. Bolşeviklərə, partizanlara rəğbət göstərən adamları tez bizə bildir.

- Baş üstə, - deyib Saak içəridən çıxdı.

Karo gözünü mürəkkəb qabına zilləyib fikrə getdi. Keşiş Mesrop da dillənmədi. O da nə isə düşünürdü. Bir neçə dəqiqədən sonra Karo dərindən köksünü ötürüb dedi:

- İşlər getdikcə pisləşir, başqa şəkil alır, keşiş. Biz Zəngəzur bolşeviklərinin kökünü kəsmək istəyirik, amma görürsən, nə xəbərlər gəlir… Qırmızılar Zaqafqaziya sərhədinə ayaq basan kimi, kommunistlər bizə göz açmağa aman verməyəcəklər…

Keşiş əlini saqqalına çəkib ağıllı, siyasətdən baş çıxaran, məsləhətgüzar adamlar kimi dedi:

- Görürəm əhvalın bir az xarab oldu. Amma mən qırmızıların Şimali Qafqazı almalarına və bizə tərəf gəlmələrinə heç inana bilmirəm. Məncə bu əsassız bir xəbərdir. Adamın ağlı var, ağ orduları, «könüllü ordunu» onlar necə məğlub edə bilərlər? Bir saatlığa tutaq ki, məğlub ediblər, bundan narahat olmağa dəyməz. Arxamızda Amerika, İngiltərə, Fransa kimi nəhənglər durub. Onlar nə üçün bizə kömək edirlər, silah, paltar verirlər? Onlar istəyirlər ki, biz daşnaklar hər yerdə üsyanı yatırdaq. Fəhlənin, kəndlinin yerini özünə tanıdaq, bolşeviklərin fəaliyyətinə son qoyaq. Allaha şükür, sən də ki, bu barədə dəridən çıxırsan… Qorxma, Allahın izni ilə bizim hökumətin burnu da qanamaz. Bizim böyük dostlarımız qoymazlar ki, qırmızıların ayağı Ermənistana dəysin. Dur gedək evinə, istirahət elə.

- Mən qorxmuram, ancaq başa düşürəm ki, siyasət bir gündə yeddi rəngə girə bilər. İngilis, amerikan, fransız nümayəndələri Zaqafqaziyadan çəkilib getsələr nə eləyəcəyik? Eşitdinmi, Saak nə dedi? Müsəlman kəndliləri bolşeviklərin yolunu gözləyirlər… Müsavat hökumətini daha saymırlar…

- Bizə nə var, ay general-nahankapet… Qoy saymasınlar. Müsəlman hökumətinin nüfuzu düşsün. Bu ki, bizim xeyrimizədir.

Karo güldü:

- Keşiş ağa, bir az dərin düşünmək, uzağı görmək lazımdır… Qırmızılar Azərbaycanı alsalar, sən, mən Zəngəzurda duruş gətirə bilməyəcəyik… Nə isə, vəziyyət getdikcə çox pis dəyişilir. Mən bəzi məsələləri aydınlaşdırmaq üçün İravana getmək istəyirəm. Dur o kağızı bura gətir.

- Hansı kağızı?

- İmzasız kağızı. Cənab Xatisov adına söz qoşulan kağızı.

- Onu neynirsən?

- Parlamentdə göstərəcəyəm, deyəcəyəm ki, kəndlilər görün işi hara çatdırıblar…

- Məsləhət görmürəm. Deyərlər: bəs son orda nəyə oturmusan…

- Gətir sənə deyirəm! Mən o kağızın əsasında icazə alıb bir-iki para kəndin əhalisini sürgün eləmək istəyirəm ki, hamıya görk olsun.

Keşiş ayağa qalxdı. Addımını atıb dayandı. Nə isə demək istədi, ancaq Karonun zəhmli baxışı onu ağzını açmağa qoymadı. Mütərəddid halda içəridən çıxdı. Lakin çox çəkmədi ki, tələsik addımlarla geri qayıtdı.

- Buyur, təcili teleqramdır. Qapıda verdilər.

Karo alıb:

- Nə uzun teleqramdır! – deyə oxudu:

«Zəngəzur mahalı general-qubernatoruna! Təcili. Məxfi. Denikinin qoşunları məğlub edilmişdir. Qırmızı ordu Zaqafqaziyaya hərəkət edir. Bütün qüvvələri səfərbərliyə almaq lazımdır. Daxili iğtişaşa yol verməyin. Bolşeviklərlə çox kəskin mübarizə aparın. Lazım gəlsə, general Dro Qarabağda Qızıl Ordunun qarşısına çıxacaqdır. Siz heç yerə tərpənməyin!..»

Karo teleqramı stolun üstünə atdı:

- Gördün, keşiş ağa! Sən inanmırdın! Mən daha İravana gedə bilmərəm… Demək, qırmızılar gəlirlər… Demək, biz…

- Bəli, sən düz deyirmişsən, general-nahankapet. Teleqramda yaxşı göstəriş veriblər ki, bolşeviklərlə amansız mübarizə eləyin.

- Bolşeviklərin kökünü necə kəsəsən? Heç gözə görünürlər ki… Ancaq qurd kimi bizi içimizdən yeyib çürütmək istəyirlər. Eh! Eh! – Karo əlini stola çırpdı.

Mesrop teleqramı götürüb yavaşca otaqdan çıxdı.

Karo ağır addımlarla açıq pəncərəyə yanaşdı. Sağ dirsəyini çərçivənin kənarına, əlini isə yumruqlayıb gicgahına söykədi. Duruşundan, baxışından elə güman etmək olardı ki, o, qarşıda görünən qəşəng mənzərəni seyr edir, təbiətin gözəlliyindən zövq alır. Lakin Karo nə təzə yarpaqlanmış ağacları, nə budaqdan-budağa qonan, bağçaya səs salan quşları görür, nə də havadan gələn bahar ətrini duyurdu. O, görmürdü ki, alçalar ağ, əriklər isə bənövşəyi çiçək açmışdır. O, ağlına belə gətirmirdi ki, yaz, çiçək, hava insan üçündür. Çünki beynində kələf kimi dolaşmış xudpəsənd, qara fikirlər gözünə pərdə çəkmiş, təbiətin gözəlliyini görmək, yaradıcı qüvvələrini dərk etmək qabiliyyətindən onu məhrum etmişdi.

- Yox, yox! Evlər yandırmasam, qan tökməsəm, bolşeviklərin kökünü kəsə bilməyəcəyəm! – deyə Karo fikirdən ayrılıb tez geri döndü.

## On dördüncü fəsil

Bütün yer üzü başdan-başa ya dağlardan, ya səhralardan, ya meşələrdən, ya dənizlərdən, çaylardan ibarət olsa idi, yaşayış nə qədər yeknəsəq, cansıxıcı və mənasız olardı. Bəlkə də insan üçün həyat, tərəqqi, gözəllik olmazdı.

Təbiətin qüdrəti, faydası, gözəlliyi onun müxtəlif şəklə, müxtəlif iqlimə, müxtəlif sərvətə malik olmasındadır. Təbiət özü üçün deyil, bəşəriyyətin inkişafı və xoş güzəranı üçündür. O, çox səxavətlidir. O, bütün yeraltı, yerüstü sərvətini, havasını, suyunu, hətta ayını, günəşini, saysız ulduzlarını belə insanlara bəxş

etmişdir. O, adamları millətlərə, siniflərə ayırmamışdır. Birinin yoxsul, birinin varlı, birinin zalım, birinin məzlum olmasından onun xəbəri yoxdur. Müxtəlif quşlar, heyvanlar yaradan, fəsillər əmələ gətirən, qoynunda maddi nemətlər yetişdirən təbiət nə qədər qüdrətli, nə qədər zəngindir! Doğrudur, onun yıxıcı selləri, tarmaredici tufanları, zəlzələləri, fırtınaları, şaxtaları var. Lakin günəşi, baharı, gülü-çiçəyi də var. O, özünün bəzəyi olan insanı fəlakətdən, ölümdən xilas etmək üçün ana kimi qoynuna çəkir. Çox vaxt insan, apardığı mübarizədə təbiətin sarsılmaz qüvvələrinə arxalanır. Dağlarda, meşələrdə, kahalarda, dərələrdə özünə sığınacaq tapır.

Bəs canlı bir şəkil kimi nəzəri oxşayan Şirnixu meşəsi kimləri öz bağrına almışdır?

Meşənin qalın bir yerində, otu hələ təzə-təzə göyərməyə başlayan bir talada oturmuş partizanlar şirin söhbət edirdilər.

Comərd deyirdi:

- Nə eləmək olar… Vəziyyətimiz belədir. Bir yerdə məskən salıb otursaq, ələ keçərik. Əgər Mürsəl, pristavın bizi tutmaq qəsdini kəndxudadan öyrənməsəydi, çoxdan qazamatda idik…

- Elədir, Comərd, elədir! – deyə Vahan təsdiq etdi. – Mübarizəmizin xarakteri, taktikası belə tələb edir. Bir yerdə otura bilmərik. Xüsusən indiki şəraitdə. Hələlik bizim yerimiz elə bu meşələr olmalıdır.

Şahmərdan dedi:

- Siz onu deyin: necə eləyək ki, başımıza adam toplayaq? Yoxsa, doqquz nəfərdən nə çıxar?

- Doqquz nəfər niyə oluruq? Mürsəli, Haykı niyə saymırsan?

- Onlar kənddədirlər.

- Kənddə olanda nə olar. Özümüz demişik ki, biri Xınzirəkdə qalsın, biri Gürcülüdə; bir şey olanda xəbər versinlər, bizimlə əlaqə saxlasınlar. Onlarla bir yerdə olur on bir nəfər, elədirmi?

- Orası elədir, ancaq mən burada olanları sayıram.

- Yaxşı, burada yenə var axı, onları niyə hesab eləmirsən? Növrəstə ilə Siranuşu niyə yaddan çıxardırsan?..

Şahmərdan gülə-gülə:

- Ay Vahan, onlar silah tuta bilərlər? Bir balaca dara düşsələr özlərini itirib, gözlərinin yaşını tökəcəklər.

Siranuş gülə-gülə:

- Sən bizi o qədər də aciz bilmə, Şahmərdan qardaş. Mən tüfəngi doldurmağı da bilirəm, atmağı da.

Vahan:

- Şahmərdan, düz danışmadın, - dedi. – Arvad var, arvad var. Eləsi var pişikdən qorxur, eləsi də var ki, yüz kişiyə bərabər! Elə müsəlmanlar deyər ki, aslanın erkəyi, dişisi olmaz. Ərə, elə götür qaçaq Nəbinin Həcərini. Ona söz də qoşublar ki:

Gün çıxıbdır günortanın yerinə.
Həcər xanım qalxdı atın belinə.

Əşrəfi, mirvari düzüb telinə.
Qoy sənə desinlər, ay qaçaq Nəbi!
Həcəri özündən ay qoçaq Nəbi!

Gülüşmə səsi ətrafa yayıldı. Çox zaman kədərli görünən, xüsusən Şahmərdan olan yerdə qaşqabağı açılmayan Növrəstə də gülümsündü.

- Ay sağ ol, Vahan kirvə! – deyə Camal əlini onun çiyninə vurdu. Yaxşı cavab verdin. Siranuşu bilmirəm, amma Növrəstənin qoçaqlığına mən qol çəkmişəm. Onda kişi hünəri var. Düzünə baxsan, mənim sizə qoşulmağıma da səbəb Növrəstə oldu.

Comərd dedi:

- Siranuş da qoçaqdır. Karo kimi canavarın toyunu yasa döndərmək böyük hünərdir. Amma bir partizanı yaddan çıxartmısınız.

Şahmərdan:

- O kimdir? – dedi.

- Yusifdir! – deyə Comərd gülə-gülə cavab verdi.

- Vay səni əzrailin yadından çıxasan, Yusif! – deyə Şahmərdan əlini onun çiyninə vurdu, - onda çoxuq ki…

Comərd dedi:

- Bizim qüvvəmiz getdikcə artacaq. Dama-dama göl olar. Biz ancaq meşədə bir dəstəyik. Bizə səs verən, havadar olan çoxdur. Onlar bir vaxt bizə qoşulacaqlar.

- Comərd qardaş, nə mən, nə Makiç daha sizdən bir addım da uzağa getməyəcəyik, - deyə Levon dilləndi. – Bizim ailəmiz sizin sayənizdə daşnakların sürgünündən qurtardı. Biz bu yaxşılığı yadımızdan çıxarda bilmərik.

- Məzhəb haqqı, bundan sonra gözümə güllə də sıxsalar, geri duran deyiləm. Kaş, bircə o Samvel it oğlu əlimə düşəydi…

Levon Makiçə gözünü ağardıb yavaşca dedi:

- Ə, bacısı burda oturub, söyüş eləmə.

Makiç kefini pozmadan sözünə davam elədi:

- Nə olar oturanda… Mən ona söymürəm ki… Siranuşun indi Samvelə qarışacağı yoxdur… Surenin arvadıdır, mənim də bacım.

Siranuş qızardı. Qardaşından ötrü xəcalət çəkdi, amma heç bir söz demədi.

Levon söhbəti dəyişdirmək üçün aralığa söz atdı:

- Bizim bu varjapet[1] Rüstəm heç danışmır axı! Qardaş, nə pikirləşirsən?

Rüstəm qəzet kağızından papiros eşə-eşə dedi:

- Mən danışanlara həm qulaq asıram, həm də fikirləşirəm. Deyirəm, adam necə dəyişilərmiş!.. Bir zaman elə zənn edirdim ki, dövlətli ilə kasıb arasında olan ziddiyyət, dava, qalmaqal, zalımın məzluma elədiyi zülm ancaq mədəniyyətlə, elmlə aradan götürülə bilər. Həyat mənə səhvlərimi öyrətdi. Adamın başı daşdan-daşa dəyməsə, gözü açılmaz… Mən inqilabın nələr yaradacağını, xalqlara nələr verəcəyini dərk etmirdim. İndi özüm silah götürüb mübarizə meydanına atılmışam. İndi mən anlayıram ki, vətənini, xalqını sevən hər namuslu ziyalının yolu inqilab yoludur. Mən Bakıda olduğum zaman Leninin əsərlərindən oxudum. Başa düşdüm

---

[1] V a r j a p e t - müəllim (ermənicə).

ki, Rusiya proletariatı nə üçün çarı yıxdı, nə üçün Oktyabr inqilabını yaratdı. İndi mən özümü müəllim yox, Lenin ideyasının qələbəsi uğrunda mübarizə edən bir əsgər hesab edirəm. Cibimdə partiya kitabçası olmasa da, ürəyim kommunist ürəyidir.

Rüstəm susub papirosunu tüstülətdi.

Bir zaman «inqilab» sözündən belə qorxan, indi isə Şura hakimiyyəti uğrunda mübarizəyə girişən müəllimin sözləri səmimi bir and kimi səsləndi.

Vahan:

- Ay uşaqlar, acmamısınız? – dedi. – Mən yemək istəyirəm.

- Niyə acmamışıq?.. Amma nə yeyək? Növrəstə, bir şey yoxdur?

- Çörəkdən başqa heç nə yoxdur, əmi. Üç-dörd büküm yuxa var.

- Çörək olsun, eybi yoxdur, gətir bura!

- Yox, Vahan, çörəyi yavan yeməyəcəyik, nə çoxdur meşədə quş, vurub bişirərik. Kim istəyir, mənimlə gedək! – Levon ayağa qalxıb tüfəngini götürdü.

Suren, Qiyas, Camal, Makiç və Yusif durdular, tüfənglərini çiyinlərinə saldılar. Altısı da bir yerdə meşənin içərilərinə doğru addımladılar.

Növrəstə ilə Siranuş su gətirmək üçün bulağa tərəf yollandılar.

Vahan onların dalınca xeyli baxıb gülümsündü, sonra dərindən köksünü ötürdü.

Onun hərəkətlərinə göz qoyan Şahmərdan soruşdu:

- Əşi, niyə əvvəlcə güldün, sonra köksünü ötürdün?

- İnsan həmişə sevinəndə, şad olanda gülər, qəmlənəndə köksünü ötürər, ah da çəkər…

- Sənə nə oldu ki, bir dəqiqənin içində həm sevindin, həm qüssələndin?

- Mən güldüm, sevindim ona görə ki, müsəlman və erməni qızları partizan olub. Bu tarixə yazılmalıdır. Köksümü ötürdüm onun üçün ki, Növrəstə həmişə gözümə bikef dəyir. Mən hiss edirəm ki, o çox sıxılır. Sənin üzünə baxa bilmir… Buna səbəb sənsən, Şahmərdan!

- Vahan dayı…

- Sözümü kəsmə, Şahmərdan! Mən hər şeyi bilirəm. Namus adamda yaxşı şeydir, kişi namuslu olmalıdır. Ancaq bilməlisən ki, onun ismətinə toxunan, sizi bir-birinizə yad eləyən tək Baxış bəy deyil, bu dövran, bu quruluşdur. Biz də bu dövranı kökündən devirmək istəyirik. Bunu özün bilirsən. Qaldı Növrəstə, o öz intiqamını almışdır. Qoçaqlıq göstərmişdir, günahsız olduğunu isbat etmişdir. O, namuslu arvaddır. Sən onunla barışmalısan.

Şahmərdan dillənmədi. O, həm özünün, həm Növrəstənin vəziyyəti üçün mənəvi əzab çəkirdi. O, olub-keçənləri birdəfəlik unutmaq, Növrəstə ilə barışıb könlünü almaq üçün dəfələrlə düşünmüşdü. Ancaq qəlbini arzularına tabe etdirə bilməmişdi. Hər dəfə Növrəstəni görəndə, onun barəsində söhbət gedəndə, gözəl vüsalla qara hicran, ona əvvəli şirin, sonu zəhər olan dəhşətli bir yuxu kimi gəlirdi.

- Niyə dillənmirsən? Mən səninlə yaşca böyük bir kommunist yoldaş kimi danışıram. Mən istəyirəm ki, siz də Surenlə Siranuş kimi can deyib, can eşidəsiniz.

Şahmərdan gözünü zillədiyi bir nöqtədən çəkərək dedi:

- Daha bu barədə danışmayaq.

- Siz nə deyirsiniz? – Vahan bir qədər pərt halda Comərdlə Rüstəmə müraciət elədi.

- O, mənim də sözümü, məsləhətimi eşitmədi, - deyə Rüstəm cavab verdi.

Comərd Şahmərdana baxıb acı-acı gülümsədi:

- Mən bu barədə ona heç nə demirəm. Uşaq deyil ki, ağıl öyrədək. Qoy özü fikirləşsin…

Növrəstə ilə Siranuşun sudan qayıtması bu ağır söhbətə son qoydu.

Meşənin dərinliyindən arabir eşidilən güllə səsləri qayalarda əks-səda verirdi…

…Ova gedənlər qayıtdılar.

- Bu da bizim ovumuz! – deyə Yusif iki qaratoyuğu yerə atdı. – Bunun birini özüm vurmuşam, birini də Suren qağa. – Yusif ömründə birinci dəfə güllə atıb quş vurduğuna çox sevinirdi.

Levon qılçalarından tutub boynunun dalında saxladığı əliyi yerə qoydu. Çuxasının ətəyi ilə alnının tərini silə-silə gülümsündü:

- Bərk yoruldum… Hə, neçə əlik vurmuşam! Canınıza and olsun, üç gün bəsimizdir.

Vahan güldü:

- Yox, balam, qoçaq imişsiniz! Mən elə bildim ki, patronları havayı korlayacaqsınız. İndi hər patron bizdən ötrü bir oğula bərabərdir.

- Hə, indi işə başlayaq! – deyə Levon, tiyəsi poladdan, sapı öküz buynuzundan qayrılmış bıçağını cibindən çıxartdı. – Qızlar quşların tükünü yolsunlar, yusunlar, mən də əliyi soyum…

Levon əliyi Rüstəmin köməkliyi ilə soymağa başladı. Növrəstə, Siranuş isə quşları yolmaq, təmizləməklə məşğul oldular.

Makiçlə Qiyas da odun yığmağa getdi.

Comərd yerindən qalxıb dedi:

- Şahmərdan, dur biz də gedib şiv qıraq, şiş qayıraq.

- Mən niyə bekar qalmışam? – deyə Vahan ayağa qalxdı. – Daş gətirim, ocaq düzəldim…

Yusif tez dilləndi:

- Yox, Vahan dayı. Mən duran yerdə, sən niyə zəhmət çəkirsən… Bu saat özüm hazırlaram.

- Sağ ol, Yusif! – deyə Vahan onu çiynindən qucaqladı. – Mən sənin adını qoyuram «balaca partizan». Görürəm zirəng oğlansan. Birinci güllən boşa getməyib, qaratoyuq vurmusan. Ancaq partizan oldun, gərək möhkəm olasan ha!.. Bəlkə birdən davaya düşdün, qorxmayasan, səni tutub eləsələr, döyüb incitsələr də ağzından bir söz qaçırtmayasan. Başa düşdün?

- Niyə başa düşmürəm. Əmim mənə çox söz deyib… Məndən arxayın ol.

Hərəsi bir iş üçün meşəyə dağılmış adamlar qayıtdılar.

Ət doğrandı, ocaq qalandı. Növrəstə dəsmalı yerə açıb, bir neçə büküm lavaşı onun üstünə qoydu. Hamı süfrənin ətrafında dövrə vurub oturdu. İyi meşəni götürən kabab, mis rəngli köz üstündə bişdikcə yedilər.

Siranuş süfrəni yığışdıranda, Comərd gülə-gülə dedi:

- Hə, indi Yusif bala bir-iki kəlmə desin, biz də qulaq asaq…

Vahan dedi:

- Mən onun adını «balaca partizan» qoymuşam. Oxu, balaca partizan. Mən musurmanın oxumağını çox sevirəm.

- Heç bilmirəm nə oxuyum, - deyə Yusif onun-bunun üzünə baxdı, azacıq qızardı, sonra əlini qulağının ardına verib oxudu:

A bivəfa, a bimürvət, nainsaf,
Keçən günlər heç yadına gəlməzmi?
Unudubsan məni xeyli zamandır,
Aşna aşnasını yada salmazmı?

Ayrılıq bizlərə oldu müqərrəm,
Hicrandan ciyərim bağladı vərəm,
Quldan xata gələr, ağadan kərəm,
Məşuq aşiqinə kərəm qılmazmı?

Adamlardan bəziləri Şahmərdanın, bəziləri Növrəstənin üzünə baxdı. Növrəstə dərhal qızarıb başını aşağı dikdi. Şahmərdan isə gözünü qarşıdakı ağaca zillədi…

Yusif səsini zilə çəkib, axırıncı bəndi daha gözəl oxudu:

Ələsgərəm, düşdüm eldən avara,
Axtardım, dərdimə olmadı çara,
Bir iyidin əli etməsə yara,
Qocalıb, başına küllər olmazmı?

Hərə bir tərəfdən Yusifi təriflədi:

- Əhsən!

- Sağ ol, Yusif!

- Afərin, balaca partizan! Ə, bunun nə qiyamət səsi var imiş. İki gündür ki, bu meşədəyik, niyə bunu oxutmamışıq?..

Yusif həm fərəhləndi, həm də bir az qızardı.

Aralığa sükut çökdü. Comərd pencəyinin qoltuq cibindən ağ kağıza bükülmüş kiçik bir şəkil çıxartdı. Ona hörmət və məhəbbətlə baxmağa başladı. Bu, Leninin şəkli idi. Comərd onu son dəfə Bakıda olduğu zaman əldə etmişdi.

Comərd Leninin şəklinə tez-tez baxmağı çox sevirdi. O, dahi insanın üzü gülər, sadə şəklinə hər dəfə baxanda mübarizə üçün yenidən qüvvətə gəlirdi.

- Lenin! Həm yoldaşımız, həm rəhbərimiz, böyük Lenin! – Comərd yoldaşlarına dəfələrlə göstərdiyi bu şəkli bayraq kimi yuxarı qaldırdı. Hamı gözünü Leninin əl boyda şəklinə dikdi. Comərd şəkil ilə danışırmış kimi, dedi: - Yoldaş Lenin! Dostluq, qardaşlıq, azadlıq fikri sənindir. Böyük kommunist firqəsini, Rusiyada fəhlə-kəndli dövlətini yaradan sənsən! Yoldaş Lenin, biz də sənin yolunla gedirik. Ölkəmizi, xalqımızı xoşbəxtliyə çıxardacaq yol, sənin yolundur.

Şəkil əldən ələ gəzdi. Axırıncı Camal baxdı və Comərdə qaytarıb dedi:

- Ay Comərd qağa, bu Lenin ki, bizim rəhbərimizdir e, görən, bilir ki, ermənili, musurmanlı biz onun dediyi ilə gedirik? Zalım bəylərdən, dövlətlilərdən qisas almaq istəyirik?

- Bəli, Lenin bilir ki, Zaqafqaziyanın fəhlələri, kasıb kəndliləri azadlıq və xoşbəxtlik üçün çalışırlar. O, bilir ki, dağlarda, meşələrdə bizim kimi ömür sürən kommunistlər, partizanlar düşmənlərin qabağından qaçmayacaq. Vaxt olacaq ki, müsavatçılara, daşnaklara qələbə çaldığımızı, fəhlə-kəndli hökuməti yaratdığımızı yoldaş Leninə xəbər verəcəyik…

Camal uşaq kimi sevindi:

- Kaş o gün tez gələydi!

Lenin haqqında söhbət xeyli davam elədi.

Comərd şəkli yenə kağıza büküb cibinə qoyanda, uzaqdan fıştırıq səsi eşidildi.

Hamı quş kimi yerindən qalxdı… Hər kəs əlini öz tüfənginə atarkən Comərd dedi:

- Dayanın, bir fıştırıq da verilsə, narahat olmayın!

İkinci fıştırıq da verildi.

- Bizim adamdır! – deyə Comərd cavab olaraq dalbadal iki dəfə fıştırıq çaldı.

Bir neçə dəqiqədən sonra Hayk ağacların arasından göründü…

O, salam verib, hamı ilə əl tutub oturdu. Hamı təzə bir xəbər eşitmək üçün gözünü ona dikdi.

Hayk dedi:

- Gəldim sizə xəbər verim ki, Arakeli tutublar.

- Necə, Arakeli tutublar? Sənə kim dedi, hardan bildin? – deyə Vahan soruşdu.

- Dünən bizim kəndli İktibarı çox pəjmürdə gördüm. Dedim niyə kefin yoxdur? Dedi ki, atam bərk naxoşdur. Getdim Arakelin dalınca, arvadı dedi ki, tutub salıblar Gorus qazamatına.

- Hm… Arakelin həbs edilməsi bizim üçün yaxşı olmadı, - deyə Vahan köksünü ötürdü. – O, bizə böyük dayaq idi. Bolşeviklərin həqiqi dostu olduğuna sonralar inandım… Yaxşı, nə eləyək. – Vahanın ortalığa verdiyi suala Comərd cavab verdi:

- Onu qazamatdan qurtarmalıyıq. Bu bizim yoldaşlıq, dostluq borcumuzdur.

Yerlərdən səslər ucaldı:

- Comərd düz deyir, Arakeli qazamatda qoymaq olmaz.

Söhbət qızışdı, xeyli çəkdi. Arakeli mütləq həbsdən qurtarmaq, ancaq necə qurtarmaq üçün məsləhətləşdilər, tədbir tökdülər.

- Atları gətirmək lazımdır! – deyə Comərd Yusifə müraciət elədi.

Yusif yerindən dik qalxdı.

- O, dörd atı tək gətirə bilməz, - deyə Camal da ayağa durdu.

İkisi də komadan bir az o tərəfdə otlayan atları gətirdilər. İkisinin belində yəhər, ikisininkində isə palan vardı.

Vahan alnı qaşqa, kəhər atın tapqırını düzəldə-düzəldə dedi:

- Yaxşı atlardır. Köhlən atlardır. Bunların heç biri adamı darda qoymaz. Amma öz aramızdır, Siranuşu bərk soyduq ha… Araqçınının qızıllarını verib bu atları aldıq. Ürəyin sıxılmır ki, Siranuş, qızım.

- Ürəyim niyə sıxılır, Vahan dayı. Mənə siz lazımsınız, qızıl nəyimə gərəkdir.

Vahan:

- Ay sağ ol, ay sağ ol, qızım! – dedi. – Hə, mənim atlarım hazırdır.

- Elə bizimki də hazırdır, - deyə Şahmərdan cilovu boz atın başına saldı.

…Gün batanda meşədən dördü silahlı, biri əli yalın beş atlı Gorusa tərəf yollandı.

Qaranlıq da olsa, gedənlərin arxasınca baxan Siranuşla Növrəstə sanki bir ağızdan dedi: «Allah, sən onları bəlalardan saxla! İşlərini rast gətir!»

Rüstəm hər gün tezdən durmağı sevirdi. O, buna adət eləmişdi. Şəkidə müəllimlik etdiyi zaman da erkən ayılar, həyətə çıxar, təmiz hava alardı.

O, bu gün də tezdən oyandı. Ağaclardan kəsib qayırdıqları komadan çıxıb meşəni seyr eləməyə getdi.

Təbiət vurğunu olan müəllim ucu-bucağı olmayan sərin və nəm meşənin bir çox yerini gəzdi. Bəziləri yarpaqlamış, bəziləri təzə-təzə tumurcuqlanmış ağaclara tamaşa elədi. Böcəklərin səsini, budaqdan-budağa qonan quşların nəğməsini dinlədi. Körpə otların yanaqlarında mirvari dənələri kimi parıldayan göz yaşlarına xeyli baxdı. Boynu əyri bənövşələrdən dərib dəstə bağladı…

Rüstəm yorulduğundan bir dikdə, palıd ağacının altında oturdu. Bənövşə dəstəsini iyləyə-iyləyə uzaqlara tamaşa eləməyə başladı. «Nə qədər böyük, nə qədər zəngin meşədir! – deyə düşündü. – Hayıf ki, kəndlilər, yoxsullar bu meşədən istifadə edə bilmirlər». Xəyal, düşüncə onu min yerə çəkdi… Necə deyərlər, aranı dağa, dağı arana qatdı. Gələcəyin xoş romantikası könlünü qanadlandırdı. O, ağır günlərdən, vuruşlardan, mübarizələrdən sonra yaranacaq azad və xoşbəxt həyatı təsəvvüründə canlandırmağa çalışdı.

Uzaqdan xışıltı eşidildi. Rüstəm tez ətrafına baxdı, heç nə görmədi. Xışıltı getdikcə artdı. Gələnin yırtıcı heyvan ola biləcəyindən ehtiyat edən müəllim ayağa qalxmaq istərkən, Yusif kolların arasından çıxıb ona yaxınlaşdı.

- Dayı, burda niyə təkcə oturmusan? – dedi. – Məni Qiyas qağa sənin dalınca göndərib. Axı səhərdən acsan, biz dünəndən qalan ətdən bişirib yedik, Növrəstə sənin payını saxlayıb.

- Niyə gəlirdin. Mən də indicə qayıdırdım. Tüfəngi niyə götürmüsən?

- Ehtiyat üçün. Dedim, birdən qabağıma ayıdan-zaddan çıxar. Bundan sonra mən tüfəngsiz gəzməyəcəyəm…

- Tüfəng sənə yaraşır. MaşAllah, boyun da uzanıb… Gedənlər qayıtmayıblar ki?

- Yox. Dur gedək!

- Otur yanımda, oğlum, otur, gedərik…

Yusif oturdu.

Rüstəm Yusifi qarşısında bir şagird kimi hesab edərək, soruşdu?

- Bu meşədə hansı ağaclar var?

- Bilmirəm.

- Amma bilmək, tanımaq lazımdır. Bəlkə sən gələcəkdə oxuyub meşəçiliklə məşğul olacaqsan…

Yusif:

- Ay dayı, - dedi, - ta mənim oxumağım getdi. Kəndimiz dağıldı… Atam, anam öldü. İndi də ki, orda, burda başımızı girrəyirik. Bilmirik də ki, axırımız nə olacaq…

- Ümidsiz olma, Yusif. Biz yenə öz kəndimizə qayıdacayıq… Məktəb açılacaq, yenə oxuyacaqsan… Mən o vaxt səndən meşə ağalarını soruşacağam…

Yusif dayısının sözlərinə gülümsündü.

- İndi dur ayağa, komaya gedə-gedə sənə o ağacları bir-bir göstərim, adlarını deyim, sən də yadında saxla. Adam gərək hər yerdə bir şey öyrənsin. Elədir, ya yox?

- Elədir.

Hər ikisi daxmaya getmək üçün yerdən qalxdı.

Rüstəm qabaqlarına çıxan ağacları, kolları, quşları, heyvanları Yusifə göstərib, onların haqqında qısa məlumat verdi…

Hayk yoldaşlarının məsləhəti və göstərişi ilə, işin xeyri üçün, mütləq daşnakların inzibati idarələrinin birində özünə iş tapmalı idi. Necə olursa olsun, həbsxana xidmətçiləri ilə əlaqə saxlayıb, Arakelin vəziyyətini bilməli və onun azad edilməsi üçün əməli iş görməli idi. Qulluğa girmək məqsədilə Hayk bir neçə gün Gorusda o idarəyə, bu idarəyə getdi. Heç kəs onu işə düzəltməyə söz vermədi. O, danışıqlardan başa düşdü ki, inzibati idarələrdə işə girmək üçün hökumət yanında etibarı olan, sözü keçən bir adamın zəmanəti lazımdır. Gorusda isə heç kəs onu tanımırdı. Hayk Xınzirəyə qayıtdı. Milli Şura üzvü Manuçar Sarumovun yanına getdi. Özünü sədaqətli göstərmək üçün bolşeviklərin çağırış vərəqələrindən bir neçəsini ona verib bunları küçədən tapdığını söylədi. Haykın bolşevik olduğunu ağlına belə gətirməyən Manuçar ondan şübhələnmədi. Əksinə, onu təriflədi. Hayk qulluğa girmək fikrini Manuçara söylədi, bu barədə ona kömək eləməsini xahiş elədi. Manuçar əvvəlcə boynundan atdı. Hayk, qulluğa girməklə hökumətə xeyir verəcəyini, daşnakların əleyhinə olanlarla, xüsusən bolşeviklərlə amansız mübarizə aparacağını söylədi. Bolşeviklərin bir tükünü belə qoparacaq adamlara köməyini əsirgəməyən Manuçar bir qədər yumşaldı. Haykın xahişindən, minnətindən sonra Samvelə təqdim etmək üçün ona bir kağız verdi və həmin vərəqələri də naçalnikə göstərməyi tapşırdı.

İlk addımı müvəffəqiyyətli atmış Hayk o gün Gorusa gəldi. Çox çətinliklə Samvelin yanına girə bildi.

Balaca bir otaqda Samvel dinləyir, Hayk isə sözünə davam edirdi:

- Naçalnik, mən o zaman səndən incidim. Ondan ötrü ki, nahaq yerə evimi axtardın. Yəni səndə günah yox idi, Allah şeytana lənət eləsin. Sənə başqa cür qandırmışmışlar. Neynək, keçənə güzəşt deyərlər, canın sağ olsun…

- Yaxşı, de görüm mənim yanıma nəyə gəlmisən?

- Öz hökumətimə sədaqətimi bildirməyə. – Hayk cibindən iki çağırış vərəqəsi çıxardıb Samvelin stolunun üstə qoydu. – Oxu gör nə yazıblar.

Samvel oxuyub qaşqabağını turşudaraq, soruşdu:

- Bunları hardan almısan?

- Darvazamızın ağzından tapmışam. Srağagün səhər tezdən çölə gedirdim. Həyətdən çıxanda gördüm yerdə kağız var. Götürüb oxudum – tüklərim biz-biz oldu. Dedim, əlin qurusun, hökumətin pisliyinə belə şeyləri yazan. Apardım Manuçar ağaya göstərdim. Dedi: «Bu kağızları yazan bolşovoylardır. Torpağımızı əlimizdən almaq, hökumətimizi yıxmaq üçün kəndliləri üstümüzə qaldırmaq istəyirlər. Levon və Makiç də belə kağızların təsiri altına düşmüş, mənim torpağımı zorla əkmək istəyirdilər». Hə, müxtəsər, Manuçar ağa mənə dedi ki, bu kağızları apar ver naçalnik Samvelə.

- Bu kağızların indi heç bir əhəmiyyəti yoxdur… Ancaq mən belə başa düşürəm ki, sən hökumətin xeyrinə işləmək istəyirsən, eləmi?

- Bəli, naçalnik. Yanına gəlməkdə elə ikinci məqsədim də odur. Mən qulluğa girmək istəyirəm.

- Sən nə qulluq istəyirsən?

- Nə bilim, naçalnik, elə yanındaca mənə bir qulluq düzəlt. – Hayk Manuçarın məktubunu ona verdi.

Samvel gözünü onun gözündən çəkmədən soruşdu:

- Bu nədir?

- Oxu, naçalnik, bilərsən…

Samvel oxudu:

«…Xınzirək kənd sakini Hayk Aslanyanı bir qulluğa düzəltməyini xahiş edirəm. O, təmiz və etibarlı adamdır. Özü də çox diribaş oğlandır. Hər nə qulluğa düzəltsən, bacarar. Elə bil ki, bu yaxşılığı mənə eləyirsən…

Milli Şura üzvü: Manuçar Sarumov».

Samvel kağızı ikiqat eləyib stolun üstə atdı və soruşdu:

- Niyə kənddə işləmək istəmirsən?

- Düzü, hökumət qulluğundan xoşum gəlir. Adamı sayırlar, hörmət edirlər. Bir də, kənd işi məni zara gətirib. Xahiş eləyirəm mənə kömək eləyəsən. Yaxşılığını itirmərəm.

- Nə iş bacararsan?

- Elə hər nə iş olsa bacararam, təki sənin kölgən mənim üstümdə olsun. Elə öz yanında olsa, lap yaxşı olar.

- Yaxşı!.. Fikirləşərəm. Get, sabah yanıma gəl.

Hayk razılıq edib çıxdı.

Samvel fikirləşdi: «Aslanyan doğrudan təmiz adamdır. Onun haqqında bizdə pis məlumat yoxdur. Onu hansı işə götürmək olar? Qazamat rəisinin müavini yoxdur. Bilirəm ki, ora adam axtarırlar. Görən bacararmı? Niyə bacarmır. O iş elə böyük savad, dərrakə istəmir ki… Nizam-intizamı yaxşı saxlasın, dustaqların üstündə nəzarəti artırsın, əmrləri öz vaxtında yerinə yetirsin…».

…Samvel o gün lazımi adamlarla danışdı, Haykı Gorus həbsxanasının rəis müavini təyin etdirdi.

Hayk təyinnaməsini aldıqdan sonra, ərzaq və yorğan-döşək gətirmək üçün iki günlüyə evinə getməyə icazə aldı. Lakin o, öz evinə getmədi, intizarını çəkən yoldaşlarının yanına getdi. Qulluğa girdiyini söylədi. Haykın necə hərəkət edəcəyi,

nə iş görəcəyi haqda danışdılar. Meşə Gorusa uzaq olduğu üçün və Haykla əlaqə saxlamaq məqsədi ilə Vahanın, Comərdin, Surenin və Şahmərdanın yenə Haykgilə getməsini qərara aldılar. Onlar Xınzirəyə, Hayksa Gorusa yola düşdü.

...Keçmiş Nikolay zabiti, indi isə Gorus həbsxanasının rəisi olan uca boylu, yekəpər və çallamış Nersesyan öz təzə müavini Haykı işlə tanış elədi. Onu ətraflı təlimatlandırdı, vəzifəsinin çox ciddi və məsuliyyətli olduğunu dönə-dönə söylədi.

Hayk həbsxana məmuru paltarı geydi, tapança bağladı. «Müqəddəs» vəzifəsinə başladı. Birinci gündən özünü həbsxana xidmətçilərinə ciddi, nizam-intizam gözləyən bir adam kimi göstərdi.

Zəngəzurun mərkəzi Gorus şəhəri yüksək dağların arasında, uzunsov bir düzənlikdə salınmışdır. Ona uca yerdən baxanda, bir-birini kəsən dümdüz küçələr kvadrat şəklində görünür. Bir-iki mərtəbəli, üstü taxtapuşlu yaraşıqlı evlər nəzəri cəlb edir. Şəhər başdan-başa meyvə bağlarının içinə quylanmışdır. Dağ sularından əmələ gəlmiş və qıjıltı ilə şəhərin içindən axan dumduru çay onun gözəlliyini daha da artırır.

Gorusa gələnlər və onun keçmişi ilə maraqlananlar qaçaq Nəbini xatırlamaya bilməzlər. Nəbi öz atlıları ilə bərabər günün günorta çağı qazamata hücum edərək, dustaqları azad etmişdir. Nikolay naçalniki, pristavı ondan zağ-zağ əsdiyindən, cəsarət edib qarşısına çıxa bilməmişlər. Nəbi öz hünəri ilə şöhrət qazanmışdır. Müsəlmanlar kimi, ermənilər də bu xalq qəhrəmanını ürəkdən sevmişdir. Adı dillərə düşmüş Nəbiyə el nəğmələr qoşmuşdur.

Nikolay hökuməti tarmar edildikdən sonra, o mənhus bina – Gorus qazamatı dağılmamış, müstəmləkə və zülm dünyasından qara bir abidə kimi qalmışdır.

Şəhərin mərkəzindən bir az aralıda, qərb tərəfdə, təpənin ətəyində görünən birmərtəbəli, möhkəm bina həmin həbsxanadır. Daşnaklar qalanı əllərində möhkəm saxlamış, onlara baş əyməyənləri, hüquq və azadlıq tələb edənləri ora salmışlar.

Havasız, günəşsiz Gorus həbsxanasında saxlanılan adamları əzabdan, işgəncədən xilas etmək üçün Nəbi yoxdur. Lakin həyat başqa Nəbilər, başqa qəhrəmanlar yetişdirmişdir. Onlar vəziyyətin tələb etdiyi kimi hərəkət edirlər.

...Divarları çox qalın, qapısı dəmir kameranın sement döşəməsi üstündə bir dustaq uzanmışdı. O, bəziləri kimi nə inləyib sızıldayır, nə çığır-bağır salır, nə də azad olması üçün bir kimsəyə yalvarırdı. Onu şallaqla döyəndə, qollarını burub sındırmaq dərəcəsinə gətirəndə, dırnaqlarına iynə batıranda səsini çıxartmırdı. «Burda hər əzaba iradə qalib gələcəkdir!» deyə hər cür işgəncəyə dözürdü. O, taleyindən şikayətlənmirdi, daşnakların siyasətilə barışmadığına da peşman deyildi.

Kameranın qapısı açıldı. Həbsxana rəisinin müavini Hayk Aslanyan və nəzarətçi içəri girdi.

Üzünü divara çevirib, gözünü qaranlıqda hara isə zilləmiş dustaq yerindən qımıldanmadı. Bu hərəkət nəzarətçiyə acıq gəldisə də, Haykın yanında bir söz demədi. Dustaq, gələnlərin kim olduğu ilə də maraqlanmadı.

- Ey, dustaq, ayağa qalx!

- ...

- Sənə ayağa qalx demirəm? Karsan, ya lal? Üzünü bəri çevir!

- Mənə əziyyət vermə, get burdan!

- Sən nə axmaq-axmaq danışırsan!..

- Ya axmaq, ya ağıllı… Rədd ol!

- Bu saat qol-qabırğanı əzəndə kimi qovduğunu biləsən…

- Məni yenə də döymək fikriniz varsa, buyurun…

- Bolşeviklərə hər nə cəza versən azdır… Alçaq, xain!

Dustaq bu təhqirli sözlərə davam gətirməyib yerindən tərpəndi. Ayaqlarındakı qandal səsləndi. Ağır-ağır yerdən qalxdı.

- Kimdir alçaq, xain? – deyə çığırdı.

- Qışqırma! De görüm şikayətin nədəndir?

- Ədalətsizlikdən, bu yaş həbsxanadan, bu ağır qandaldan. Sən kimsən? Qaranlıqda gözüm görmür. Şikayətim bizi işığa həsrət qoyanlardandır. Üç gündür mənim dilimə çörək dəyməyib!

- Şikayətin aclıqdandır, başa düşdüm.

- Təkcə aclıqdan yox! – deyə dizləri əsən dustaq bağırdı. – Niyə mənim görüşümə heç kəsi qoymursunuz?

- Sən bolşeviksən. Millət xainisən! Görüşünə gələni da axmaq fikrinlə zəhərlərsən.

- Bu quruluşun havasından zəhərli daha nə var?! – deyə dustaq qəzəbindən titrədi və birdən şappıltı ilə yerə yıxıldı.

Hayk nəzarətçiyə yavaşdan dedi:

- Get su gətir. Dustaq özündən getdi.

Nəzarətçi dərhal kameradan çıxıb qapını örtdü.

İndiyə kimi qəsdən işığı yandırmayan Hayk balaca fonarını yandırdı, işığı dustağın üzünə saldı. Onun qabağında yerə çöküb alçaqdan dedi:

- Arakel dayı! Arakel dayı! A kişi, qalx ayağa!

Arakeldən səs çıxmadı. Hayk onun əlindən tutub yenə çağıra-çağıra tərpətdi.

Arakel başını qaldırdı. Qarşısında Haykı həbsxana məmuru geyimində gördükdə, heyrətdən bir an donub qaldı. Haykın gözlərinin içinə baxıb boğuq bir səslə dedi:

- Ey vah, mən yuxu görürəm, yoxsa həqiqət?! Hayk, sən də cəllad olmusan!..

Hayk əyilib onun qulağına pıçıldadı:

- Özünü itirmə, qorxma, Arakel dayı! Mən daşnakların cəlladıyam. Həbsxana rəisi müavini olduğum ancaq səni burdan xilas etmək üçündür. Bolşevik dostların səni unutmayıblar. Nəzarətçi yanımda olduğu üçün səninlə sərt danışdım. Hələlik belə lazımdır. Sıxılma, burda çox qalmayacaqsan. Mənə bir sözün varsa, tez de! İndi nəzarətçi gələr. Onu qəsdən suya göndərmişəm.

- Vahan, Suren indi hardadır?

- Xınzirəkdə.

- Onlar məni…

- Daha danışma! – deyə Hayk onun sözünü kəsdi. – Yaxından addım səsi gəlir. Nəzarətçidir. Uzan, uzan!

Hayk kənara çəkildi. Arakel əvvəlki vəziyyətdə uzandı.

Nəzarətçi əlində su dolu dəmir parç gəldi.

Hayk Arakeli göstərib dedi:

- Su ver içsin.

Nəzarətçi dustağa yaxınlaşdı.

- Dur su iç! – deyə onu ayağıyla tərpətdi.

Arakel başını qaldırdı. Parçı nəzarətçidən alıb su içdi.

- Mənə çörək verin! Hava verin! – deyə yenə uzandı.

- Yaxşı, bəsdir, çərənləmə! – deyə Hayk bayıra çıxdı.

Nəzarətçi də altı nallı, yekə çəkmələrini tappıldada-tappıldada onun ardınca çıxdı.

Yenə qapıdan qıfıl asıldı. Yenə kameraya bir ölüm sükutu çökdü.

Arakel həqiqətlə şübhəni bir-birindən ayırmaq üçün qaranlıq və yaş zindanda dərin fikrə daldı. Bir az sonra ucadan oxudu:

Azad tanrı o gündən ki, xaç çəkərək, torpaqdan
Yaranmış bu vücuduma qüdrətilə verdi can,
Mən canlandım, lakin hələ dilsiz, zəif uşaqkən,
İki gücsüz qolum ilə azadlığı qucdum mən.
Ey azadlıq, yolunda çox macəra var, tikan var,
Səni sevən insanlara bu dünya da dardır, dar!
Ey azadlıq, üzərimdə min bir tufan əssə də,
Düşmən mənlə dava edib, yollarımı kəssə də,
Dar ağacı altında da, haqsız, nahaq ölümdən
Qorxmayaraq, deyəcəyəm: ey azadlıq, yaşa sən!..

Qızıl Ordunun bu gün-sabah Zaqafqaziyaya daxil olacağı xəbəri getdikcə hər yerə yayılırdı. Bundan ruhlanan bolşeviklər, onların başçılığı ilə düzəlmiş partizan dəstələri geniş fəaliyyətə keçmişdilər. Onlar kəndliləri üsyana çağırır, daşnak nümayəndələrini kəndlərdən qovur, İravanla Gorus arasında rabitə olmamaq üçün teleqraf simlərini kəsirdilər. Bu vəziyyət daşnakları çox təşvişə salmışdı. Ölkə daxilində iğtişaşlara, üsyanlara yol verməmək, camaatın gözünü qorxutmaq üçün Karo inzibati idarələrə, orqanlara göstəriş vermişdi: kənd meydançalarında, küçələrdə, çöldə üç-dörd nəfərdən artıq olan yığıncaqlar dağıdılsın, şübhəli adamlar həbs edilsin, siyasi dustaqlar ya öldürülsün, ya həmişəlik olaraq, uzaq yerlərə sürgün edilsin.

Karo heç olmasa, bir bolşeviki ələ keçirmək, onu məcbur etməklə, qalanlarının da yerini öyrənməyə çalışırdı. Bu isə ona mümkün olmurdu. Karo Arakeli həbs etməsinə baxmayaraq, onun bolşevik olmasına əmin deyildi. Ancaq Arakelin birinci, xüsusən ikinci istintaq zamanı onun üzünə dediyi sözlər bolşeviklərin sözünə oxşayırdı. Hər halda görünür onun bolşeviklərlə əlaqəsi vardı. Ona görə də, Arakelə ağır işgəncələr verməklə, məqsədinə nail olmaq ümidindəydi.

Karo üç gün bundan qabaq Arakeli onun öz yanına danışmağa gətirmək üçün göstəriş vermişdi. Bu danışıq axırıncı olmalı idi. Arakel bolşeviklərlə əlaqə saxladığını boynuna almasaydı, öldürüləcəkdi.

...General-qubernatorun göstərişini yerinə yetirməyi həbsxana rəisi Nersesyan müavininə tapşırıb, bir neçə günlüyə öz kəndinə getdi. Hayk belə fürsəti

çoxdan gözləyirdi. O, bilirdi ki, Arakel aprelin 22-də, axşam saat 10-da general-qubernatorun hüzurunda olmalıdır.

Hayk aprelin 21-də, işlərini qurtarandan sonra axşam Xınzirəyə yollandı… Əhvalatı evdə yoldaşlarına söylədi. Vahan, Comərd, Suren, Şahmərdan və Hayk özü Arakeli qurtarmaq üçün müəyyən qərara gəldilər.

Hayk evdə qalmadı. Elə həmin gecə yola düşüb gün çıxmamış Gorusda oldu. O, həmin gün Arakelin kamerasına gedib əhvalatı ona söylədi…

…Gün batdı. Hava qaraldı. Adamlar küçələrdən, meydandan, dükanlardan çəkildi. Bəzi evlərdə lampa, bəzilərində qara çıraq yandı. Ağaclarda ötən quşların səsi kəsildi. Şəhərin üstünü elə bil zülmət pərdəsi örtdü. Evlər, ağaclar, dağlar, qayalar qaranlıqda görünməz oldu.

Dörd atlı Gorusun yuxarı tərəfindəki körpüyə endi. Onlar patrullara rast gəlməmək üçün mərkəzi küçələrlə deyil, kənar küçələrlə getdilər. Həbsxananın alt tərəfindən keçib uca bir qovaq ağacının altında dayandılar. Atları kola, ağaca bağlayıb, oturdular. Beş-on dəqiqəlik söhbətdən sonra Vahan ətəyinin altında kibrit yandırıb saatına baxdı.

- Haykın dediyi vaxta on dəqiqə qalıb…

- Arakeli bu axşam qurtara bilməsək, daha belə fürsət ələ düşməyəcək.

- Doğrudur, düzdür, - deyə Şahmərdan Comərdin sözünə qüvvət verdi.

- Bəlkə bir bura gəlib çıxana kimi Arakeli aparıblar?

Comərd:

- Elə şey olmaz, - dedi, - biz vaxtında gəlmişik.

Vahan yenə saata baxıb:

- Oho, vaxt çoxdan keçib, - dedi. – Hayk siqnal verməlidir. Bəlkə ondan bir şey anlayıblar, özünü də dama salıblar?!.

Suren dedi:

- Durun birbaş həbsxanaya hücum edək. Daha burda nə üçün oturmuşuq?..

- Hünər yaxşı şeydir, Suren, amma yerində, vaxtında, - deyə Vahan dilləndi.

Bu an astaca fit çalındı, sonra ayaq səsləri eşidildi.

Hayk onlara yanaşıb dedi:

- İş başqa cür olub. Karo Arakeli bir saat qabaq öz yanına tələb edib, hələ də onu həbsxanaya qaytarmayıb.

Şahmərdan dedi:

- Onda gözləməliyik…

- Ola bilər ki, Karo onu heç geri buraxmasın. Elə oradaca güllələsin. Mən öyrənmişəm ki, o cəllad bir neçə dustağı məhkəməsiz, danışıqsız özü güllələyib…

Vahan dedi:

- Sən düz deyirsən, Hayk, ola bilər… Vəziyyət çətinləşdi. Yoldaşlar, sizin fikriniz nədir?

- Mənim fikrim hər necə olursa olsun Arakeli qurtarmaqdır. Karonun idarəsinə elə bu saat hücum eləsək hamısından yaxşı olar…

- Mən bu təklifə razıyam! – deyə Suren Comərdin fikrini təsdiq elədi. – Özü də vaxtı itirmək olmaz…

Beş yoldaş bir qədər götür-qoydan sonra, hücum etmək qərarına gəldilər.

Hər kəs tüfəngini çiyninə salıb atını mindi. Bələdçilik eləyib general-qubernatorun idarəsini göstərmək üçün Hayk piyada qabağa düşdü…

Bir divarın yanına çatanda Hayk dayanıb yavaşdan dedi:

- Çatmışıq. Atdan düşün.

Şahmərdan atları bir tərəfə çəkib saxladı.

Hayk yavaşca dedi:

- Karonun idarəsi, dörd tərəfi divar olan o bağçadadır. Bağçanın bir dərbəçəsi var. Amma gecələr bağlı olur. Yanında keşikçi durmur…

- Onda divardan aşmalıyıq, - deyə Vahan yoldaşlarına müraciət elədi.

Onlar kimin nə eləyəcəyini o saat öz aralarında müəyyənləşdirdilər.

Şahmərdan atların cilovunu Hayka verdi. Özü isə Surenlə gedib dərbəçənin yanında durdu.

Comərdlə Vahan çətinliklə də olsa, divarın üstünə qalxıb bağçaya atıldılar. Yavaş-yavaş addımlayıb hərəsi yekə bir ağacın dalında dayandı. İkisi də gözünü işıq gələn tək pəncərəyə zillədi. Otaqda iki adam aydın görünürdü. Biri oturmuşdu, o biri ayaq üstə qolları bağlı durmuşdu. O, Arakel idi… Stolun arxasında əl-qolunu ölçə-ölçə danışan isə Karo idi.

Comərd Vahana yanaşıb dedi:

- Birbaş içəri girməyəkmi? Daha nəyi gözləyirik?

- Eyvanın sol tərəfindəki əli silahlı adamı görürsənmi? O, Aşotdur. Boyunun balacalığından tanıdım. Əvvəlcə onu susdurmalıyıq ki, hay-küy salmasın. Hə, indi tərpənək…

Onlar ayaqlarının ucunda addımladılar. Eyvana çatmağa az qalmışdı ki, Karonun qəzəbli səsini eşitdilər:

«Xainin, bolşevikin cəzası ancaq ölümdür!»

Arakelin ona cavabı eşidilmədi.

Vahanla Comərd Karonu nişan alanda, birdən otaq qaranlıqlaşdı. Lakin çox keçmədi ki, bir əsgər, onun dalınca Arakel, sonra bir əlində lampa, o biri əlində tüfəng tutmuş ikinci əsgər eyvana çıxdı. Karo axırıncı olaraq, əlində mauzer, eyvana gəlib əsgərlərə əmr etdi:

- Dustağı bir ağacın dibinə çəkin! Mən ona bolşevikliyin nə olduğunu…

Comərdlə Vahanın tüfənglərindən dalbadal uçan güllələr Karonun sözünü ağzında qoydu. O, dərhal sol əli ilə sağ qolunu tutub, «mən yaralandım» deyə içəri qaçdı. Əsgərlər özlərini itirdilər. Arakel eyvanın bir küncünə qısıldı. Sonra atılan güllələr Aşotun və əsgərlərin hay-küyünü batırdı, əlində lampa tutan əsgəri də yerə sərdi. Aşot və birinci əsgər vahimə içində özlərini tez otağa saldılar.

- Yoldaş Arakel, qorxma, bizik! – deyə Vahan qışqırdı.

Arakel:

- Bildim ki, sizsiniz! – deyə tez özü onların yanına getdi.

Comərd bıçaqla Arakelin qollarındakı kəndiri kəsdi. Hər üçü divardan aşıb küçəyə düşdü.

Comərd Surenlə Şahmərdanı çağırdı.

Hamısı atlandı. Comərdlə Arakel tərkləşdi.

Hayk yaşadığı mehmanxanaya getmək üçün onlardan aralandı.

- Mən Şirixuya tərəf gedən yolu tanıyıram, dalımca gəlin! – deyə Suren atını qabağa sürdü…

## On beşinci fəsil

May təzə girmişdi. O, Gürcülü kəndinin dağlarına lalə, çəmənlərinə göy ot, bağ-bağçalarına çiçək gətirmişdi. O, kəndin hər yerində uçuşan quşların ağzına xoş avaz, şirin nəğmə vermişdi.

1920-ci ilin baharı minlərin, milyonların ürəyini sevindirən başqa bir bahar xəbəri də gətirmişdi. Bu xəbər ildırım sürətilə ölkənin hər yerinə yayılmışdı. Onun mənasını, əhəmiyyətini, faydasını bilmək üçün Gürcülü kəndlilərindən heç kəs evdə oturmaq istəmirdi. Böyük, kiçik, qoca, cavan – hamı, hamı kənd meydanına axışıb gedirdi…

Meydan izdihamı tutmurdu. Kimi oturmuş, kimi ayaq üstə dayanmışdı. Hamının gözü, sadəcə qırmızı çitdən qayrılmış və bir tərəfdə yerə sancılmış bayrağa dikilmişdi. Kəndlilərdən heç kəs bu rəngdə bayraq görməmişdi. Mürsəldən başqa bayrağın yanında duran bolşevikləri də ilk dəfə görürdülər.

Mürsəl Comərdə tərəf əyilib dedi:

- Hamı burdadır, başlayaq. Əvvəl sən danış.

Comərd azacıq qabağa çıxıb dedi:

- Yoldaşlar, qardaşlar! Bizim ata-babalarımız, camaatımız, millətimiz illər uzunu əzilib, qul halında yaşayıb. Həmişə fəhlələrimiz bir xoş güzəran, yoxsul kəndlilərimizsə qarın dolusu çörək həsrətində olub. Şəhərlərdə ağalıq eləyən olub fabrik, zavod, mədən sahibləri, milyonçular, kəndlərdə də – bəylər, xanlar, mülkədarlar. Siz özünüz Nikolayın, müsavatın zülmünü, əzabını görmüsünüz. Pristavlar, strajniklər, yüzbaşılar, kəndxudalar camaatın gönünü soyub. Ancaq səbr kasası dolanda adam heç kəsi tanımaz, heç kəsdən qorxmaz. Bizim fəhlələr də qorxmadılar. Dəfələrlə əllərində bax belə qırmızı bayraq tutub neft mədənlərində, küçələrdə, meydanlarda dedilər: «Rədd olsun Nikolay hökuməti! Rədd olsun müsavat hökuməti. Rədd olsun bəy, xan, mülkədar hökuməti!» Kəndlilər də onların səsinə səs verdilər. Bakı fəhlələri, Azərbaycan kəndliləri azadlıq üçün çox çalışdılar. Yoldaşlar, qardaşlar, atalar deyər ki, tək əldən səs çıxmaz. Bakı fəhlələri, Azərbaycan kəndliləri müsavat zülmündən qurtarmaq üçün Rusiya Qızıl Ordusunu köməyə çağırdılar. Bizə Lenin kömək göndərdi. Bütün fəhlələrin, kəndlilərin dostu, rəhbəri olan Lenin bax budur! – Comərd həmişə qoynunda saxladığı şəkli çıxardıb yuxarı qaldırdı… Şəkli görmək üçün bəziləri boynunu uzadıb baxdı, bəziləri bir qədər yaxına gəldi. Lakin hamının yaxşı görməsi üçün Comərd onu bayrağa yapışdırmaq istədi. Əmisinin fikrini dərhal başa düşən Növrəstə yaxasından bir iynə çıxartdı və hər ikisi şəkli bayrağın üstə sancdı.

Comərd sözünə davam elədi:

- Millətlər gərək azad olsun deyən yoldaş Lenin budur! Fabrik-zavod fəhlələrin, torpaq kəndlilərin gərək olsun deyən yoldaş Lenin budur! Dünyada zülm eləyən, zülm olunan gərək olmasın deyən yoldaş Lenin budur!

Yoldaşlar, Azərbaycan fəhlə-kəndliləri rəhbərimiz Leninin göndərdiyi Qızıl Ordu ilə əl-ələ verib müsavat quruluşunu tarmar elədi. Aprelin iyirmi səkkizində, yəni beş gün bundan qabaq, Bakıda Şura hökuməti – fəhlə-kəndli hökuməti yarandı. Bundan sonra bəy, xan, mülkədar, pristav olmayacaq. Bundan sonra biri ağa, biri nökər olmayacaq. Bundan sonra kəndlilər əkib-biçib bəhrəni bəylərə verməyəcəklər. Torpaq, su, meşə, bağ-bağça – hər şey, hər şey sizin öz ixtiyarınızda olacaq.

Yoldaşlar, qardaşlar! Bu gün hamı sevinməlidir, gülməlidir. Bu gün bizim bayram günümüzdür. Elin, obanın azadlığa çıxdığı gündür! Var olsun öz fəhlə-kəndli hökumətimiz. Var olsun yoldaş Lenin!

Üstü yamaqlı, çarığı yırtıq, arıq, ucaboy bir kəndli dərhal ayağa qalxıb ürəkdən gülə-gülə, əl vura-vura dedi:

- Yaşasın fəhlə-kəndli hökuməti!

Hamı çəpik çaldı. İnqilab və azadlıq naminə, Leninin şərəfinə bir neçə dəqiqə arası kəsilməyən sürəkli alqış səsləri meydanı, kəndi götürdü. Baharın xoş nəsimi dalğa-dalğa ucalan bu alqış səslərini dağlara, köyşənlərə yaydı.

Sevincinin həddi-hüdudu olmayan Comərd kənara çəkildi. Vahan üzünü kəndlilərə tutub dedi:

- Müsəlman qardaşlar! Bu gün təkcə müsəlmanların bayramı, şad günü deyil. Ermənilərin, gürcülərin, elə bizim Zaqafqaziyada yaşayan hamı millətlərin bayram günüdür. Biz sevinirik ki, siz uzun zillətdən sonra azadlığa çıxdınız. Lenin deyir ki, gərək hamı millətlər bərabər olsun. Aralıqda düşmənçilik olmasın, qan tökülməsin. Amma Nikolay, ondan sonra da daşnaklar və müsavatçılar millətləri bir-birinin canına salışdırmışdılar. Daha bundan sonra elə şeylər olmayacaq. Bizim qonşu millətlər qardaş kimi yaşayacaq. Çünki onların arasını vuran müsavat hökuməti yıxıldı. Bu gün-sabah da daşnak hökuməti yıxılacaq. Müsəlmanlar demişkən, bundan sonra başına qızıl al, gəz.

Qardaşlar, sizin inqilab bayramınızı burdakı ermənilərin adından təbrik eləyirəm. Yaşasın müsəlman və erməni xalqlarının qardaşlığı, dostluğu!

Alqış səsləri yenə ucaldı.

- Bəlkə sualı-zadı olan var? – deyə Mürsəl camaata müraciət elədi.

Gödək boylu bir kəndli ayağa qalxdı. Yekə saçaqlı papağını gözünün üstündən geri itələyib dedi:

- O musurman oğlan burda yaxşı sözlər dedi. Amma gərək haqq üçün danışsın, o çeşməkli erməni də pis danışmadı. Bəli, sözüm onda deyil, mən bir az türk adamam. Bir məni yaxşı-yaxşı başa salın görüm təzə hökumətin vaxtında biz kəndlilərin çulu-çuxası düzələcək, qarnı heç olmasa yavan çörəklə doyacaq, ya əvvəlki təkin, həmin daş, həmin dibək olacaq?.. Bağışlayın e, avam adamam də, bəlkə köntöy danışıram…

- Bundan sonra hamının güzəranı yaxşılaşacaq, - deyə Comərd cavab verdi.

- Başına dönüm, bir sualım da var, - deyə həmin kəndli yenə dilləndi. – Qənd, çay, çit-mit necə, üzünü görəcəyikmi? Vallah, kəndlilər batıb gedirlər.

- Bəli, bəli, onlar da olacaq.

- Çox sağ ol. Allah atana rəhmət eləsin. Onda varam belə hökumətə!

Başqa bir kəndli ayağa qalxdı:

- Siz dediniz ki, erməni ilə musurman arasında dava-şava olmayacaq. Yaxşı, olmasın, elə kəndlilər də əvvəldən bunu istəyirdilər. Ancaq mənim oğlumu aparmışdılar Gorus davasına. Orda vurulub şikəst olub, indi də yıxılıb evin bucağına. Mən nə eləyim? Qisasımı kimdən alım?

- Oğlunu zorla əsgərliyə aparanlardan, - deyə Şahmərdan cavab verdi.

- Allah Sultan bəyin evini yıxsın. Mənə nə elədi, o elədi, - deyə kəndli oturmaq istədi, ancaq nə fikirləşdisə, yenə dedi: - Qardaş oğlu, deyir ilan vuran ala çatıdan qorxar. Biz bəylərdən, ağalardan o qədər qorxmuşuq, o qədər qamçı yemişik ki, indi də sözümüzü açıq deməyə ehtiyat eləyirik. Amma yenə deyəcəyəm. Mən gedib o Sultan bəyi tapsam, oğlumun qisasını alsam, divan-dərə məni tutmaz ki? Təzə hökumət dalımda durarmı?

- İndi kəndlilər heç kəsdən qorxmamalıdırlar. Şura hökuməti bəylərin, ağaların qənimidir.

Kəndli keçib yerində oturanda, qırmızı yanaq, peysəri yoğun bir adam onun qulağına pıçıldadı:

- Ə, Şirastan, niyə ağzının sözünü bilmirsən? Bəylərlə, ağalarla nə işin var? Adam hər atılan daşın dalınca getməz. Özünü heç kəsin yanında pis eləmə. Nə bilirsən ki, Bakıya təzə gələn Şura hökuməti çox yaşayacaq? Bundan sonra belə-belə sözlər danışma. Sən öl, bəylərin qulağına çatar, dərini soyarlar. Hələ suyun şırıltısına qulaq asaq, görək axırı nə olur…

Şirastan onun üzünə dik baxdı. Ancaq mütərəddid olduğundan, nə cavab verəcəyini bilmədi. Özü də şübhəli halda düşündü: «Bəlkə təzə hökumət doğrudan çox yaşamayacaq…».

Camal danışdı. Ona zülm eləyən bəylərdən və pristav Əli Sadiqidən intiqam alacağını dedi.

Meydanın aşağı başında adamların sıx yerində çöməltmə oturmuş bir adam Camalın sözlərindən sonra çiyinlərini qısıb belini əydi. Nədənsə üzünü göstərməmək üçün qıllı papağını gözünün üstünə çəkdi və tez başını aşağı dikdi.

Beli bükülmüş, qulaqlarını, üz-gözünü ağ tük basmış bir kişi çəliyinə dirənə-dirənə bayrağın yanına gəldi. Əlini, qıyılıb balacalanmış, ətrafı qırış-qırış olmuş gözlərinin üstünə qoyub şəklə baxdı, sonra bərkdən Mürsələ müraciət elədi.

- Qardaş oğlu, a qardaş oğlu, mənim də danışmağa ixtiyarım var, ya çıxım gedim?

- Var, Aydın əmi, var! Nə istəyirsən de!

- Hə, deyim, başına dönüm… Onu deyirəm ki, mənim doxsan yaşım var. Çox divan adamları görmüşəm. Bir zaman eşitdik ki, Nikolay padşahı vurub qıçını boynundan aşırıblar, onun taxtına… - adı nə idi? Kərənskiydi, nəydi – hə, adı cəhənnəm, o çıxıb; o da tez tünbətün oldu. Bir-iki il bundan qabaq da eşitdik ki, bizim padşahımız olacaq osmanlı. Elə o da oldu. Amma nə təhər oldu? Birini dar ağacından asdı, birini dama basdı, birinin malını əlindən aldı, birini qapazladı. Ə, uşaqlar, belədir, ya yox? Hə, o da günün birində yabısını minib, haydı, getdi. Sonra, atam sizə qurban, eşitdik ki, yerinə müsavat gəlib. Müsavatın qulluqçuları bir ilan olub düşdülər camaatın canına. Vergi ver, at ver, taxıl ver, əsgər ver, sonra da erməni-musurman qırğınını saldılar ortalığa. İndi də deyirsiniz ki, müsavat gedib, yerinə fəhlə-kəndli hökuməti gəlib. Neynək gəlsin. Amma bilmirik bu

hökumət bizi ağ günə çıxardacaq, yoxsa beş gündən sonra bu da atını sürüb meydandan çıxacaq. Sözümün canı odur ki, əgər fəhlə-kəndli hökuməti bizə çörək, paltar verəcəksə, gözümüz üstə yeri var, qalsın, verməyəcəksə, elə bu başdan çıxıb getsin…

Comərd qoca kişini ətraflı başa saldı.

Kəndlilərin sorğu-sualı çoxaldı.

Axırıncı sualı orta yaşlı bir kəndli verdi:

- Deyirsiniz ki, pristav, nəçərnik olmayacaq? Bəs kəndli öz dərdini, şikayətini kimə deyəcək? Kənddə böyüyümüz kim olacaq? Axı divan-dərə, böyük-kiçik olmasa, baş saxlamaq olmaz…

Comərd:

- Əlbəttə olmaz, - dedi, - hər işə qəza inqilab komitəsi baxacaq.

Kəndli bir də dilləndi:

- Yəni deyirsən ki, bu gündən sonra biz kəndlilər bu pristava heç nə deməyək, ona tabe olmayaq, hə?

Şahmərdan soruşdu:

- O hansı pristavdır?

- Budur e… - kəndli Əli Sadiqinin qolundan tutub yuxarı dartdı. – Ağa pristav, özünü niyə gizlədirsən? Qalx ayağa, səni görsünlər, tanısınlar.

Əli Sadiqi üz-gözünü turşutdu:

- Ə, adam oğlusan, adımı niyə çəkirsən? Qolumu burax. – Əli Sadiqi yerə oturmaq istədi. Lakin kəndli ondan əl çəkmədi.

- Qorxma, səni yeməyəcəklər ki… Özünü göstər! Sən bizi döyüb, söyüb, incidəndə heç biz özümüzü sənin kimi tülkü ölümünə vurmurduq… - Kəndli iki əli ilə onun peysərindən yapışıb dik yuxarı qaldırdı. – Mən bu pristavı deyirəm! – Kəndli onu itələyə-itələyə meydanın baş tərəfinə apardı.

Camal yaxına gəlib onunla üzbəüz dayandı. Qəhqəhə çəkib dedi:

- Salaməleyküm, ağa pristav! Rəhmdil, insaflı pristav! Məni axtarırdın – yanındayam. Daha heç yana qaçan deyiləm. Buyur, nə qədər döyürsən, döy! Ha… ha… ha… Bəs hanı tapançan, şallağın, paqonun, çeşməyin?! Kəndli paltarı sənə əcəb yaraşır!.. Bura bax, bunun qıllı papağına, çuxasına bax!..

Camalın kinayəli sözləri Əli Sadiqini yandırıb tökdü. O, başını aşağı dikib fikrə getdi…

Əli Sadiqi bolşevikləri tapıb həbs etmək üçün qəza naçalnikinin əmri ilə kəndlərə çıxmışdı. Bu məqsədlə, aldığı xəfiyyə məlumatı əsasında Gürcülüyə gəlmişdi. Lakin bolşeviklər meşədə olduqlarından məqsədinə nail ola bilməmişdi. Onları kənddə gözləməyə məcbur olmuşdu. Bolşeviklər dünən meşədən qayıdandan sonra daha fikrindən əl çəkmişdi, çünki belə fikirdə olmaq artıq gec və mənasızdı. Müsavat hökumətinin süqutundan, Qızıl Ordunun Qarabağa gəlməsindən vahiməyə düşən müsavat məmurları başlarını daldalamağa məcbur olmuşdular. Əli Sadiqi də o cür hərəkət etmişdi. Kəndlilərin bugünkü yığıncağına gəlməkdə isə məqsədi bolşeviklərin onun kimi adamlarla necə rəftar edəcəyini öyrənməkdi.

Əli Sadiqi kəndlilərin onu bu tezlikdə ifşa edəcəklərini ağlına gətirməmişdi. O, elə zənn edirdi ki, inqilabın mənasını, əhəmiyyətini, hökumət dəyişikliyi

dövründə kiminlə necə rəftar ediləcəyini kəndlilər hələ başa düşməzlər. Həyat onun fikirlərinin əksinə oldu.

Comərd ona baxıb gülümsündü və dedi:

- Başını yuxarı qaldır, köhnə «dost». Zahirən nə qədər dəyişilsən də, zamanın hökmündən qurtara bilməyəcəksən…

Əli Sadiqi yerə çöküb titrək əlləri ilə Comərdin ayaqlarını qucaqladı.

- Mənə yazığınız gəlsin. Məni inqilaba bağışlayın!

Comərd onu özündən kənar eləyərək:

- İnqilab çox qurbanlar verib, - dedi. – Ancaq o, zalimləri bağışlamayıb. Ayağa qalx!..

Əli Sadiqi dilənçi kimi əllərini açaraq, illər uzunu mübarizə apardığı bolşeviklərdən aman dilədi.

Comərd üzünü kəndlilərə tutub dedi:

- Pristav «ağa» ilə necə rəftar edək?

Yerlərdən qışqırdılar:

- İlanın başını əzməsən, sonra səni çalar…

- Boğazına kəmsik salıb kəndin arasında sürümək lazımdır!

- Onu atın quyruğuna bağlamaq lazımdır.

- Ölümə ölüm deyiblər! O, çox ocaqlar söndürüb.

- Bolşeviklər, mənə yazığınız gəlsin! – deyə Əli Sadiqi yenə də yalvarmağa başladı.

Comərd dedi:

- Biz camaatın iradəsindən, tələbindən kənara çıxa bilmərik. Özün kəndlilərin səsini eşitdin!..

Əli Sadiqinin ümidi hər yerdən kəsildi.

- Mən sizə nə qədər istəsəniz pul, qızıl verərəm! – deyə əlini qoltuq cibinə saldı və dərhal tapançanı çıxardıb Comərdin alnına tuşladı. Vahan o saat Əli Sadiqinin biləyindən yapışdı və tapançanı qanırıb əlindən aldı.

Adamlar qışqırdılar:

- Xain! Alçaq!

- Onu sağ qoymayın!

Kəndlilərdən bəziləri pristavı yumruqladı.

Comərd gülə-gülə onlara dedi:

- Döyməyin! O, öz fikrində, əqidəsində möhkəm adamdır. Belələrini «hörmətlə» sakit etmək lazımdır.

Qiyas, Camal və Mürsəl Əli Sadiqinin qollarını bağlayıb apardılar.

Comərd:

- Yoldaşlar! – dedi, - müsavat pristavının alçaq hərəkətini gördünüz. Biz onu zalim bir adam olduğu üçün cəzalandırırıq. Kəndlərdə, şəhərlərdə onun kimi inqilab düşmənləri hələ çoxdur. Fəhlə-kəndli hökumətimizi göz bəbəyi kimi qoruyub saxlamaq üçün siz kəndlilər də ayıq olmalısınız! Qəza İnqilab Komitəsinə kömək eləməlisiniz!

Kəndin aşağısındakı uçurumun kənarından gələn tək güllə səsi elə bil ki, Comərdin sözlərinə cavab verdi: «İnqilab düşmənlərinə heç vaxt aman olmayacaq!»

Comərd üzünü çalğıçılara tutub dedi:

- İndi çalın! Azərbaycan torpağının, Azərbaycan xalqının bugünkü böyük azadlıq bayramında hamı gülsün, oynasın, oxusun!

Qara zurnanın, nağaranın səsi ucaldı.

Bir qələbə himnini xatırladan elin coşqun havası, «Koroğlu cəngisi» ürəkləri sevinclə doldurdu. Çöllər, dağlar, dərələr sanki dil açıb dedi:

«Bayramınız mübarək, ay ellər!»

Azərbaycanda Şura hökumətinin qurulması, Qızıl Ordunun qələbələrlə irəliləməsi Zəngəzur kommunistlərinə, partizanlarına yeni qüvvət və mübarizə ruhu verirdi. İndi Zəngəzur bolşevikləri daha da aktiv fəaliyyət göstərməyə başlamışdılar. Qəza firqə təşkilatı bir sıra yeni tədbirlər görmüşdü. Bunun ən mühümü, qəza mərkəzində və bəzi kəndlərdə inqilab komitəsinin təşkili idi.

Qəza İnqilab Komitəsi Gorus, Sisyan, Kafan firqə təşkilatlarına müraciətnamə göndərmişdi. Müraciətnamə, daşnak quruluşunu tarmar etmək üçün xalqı açıq və ciddi silahlı üsyana çağırırdı. Bunun əsasında xalq hərəkatı getdikcə genişlənirdi. Daşnaklar xalq üsyanlarını bəzi yerlərdə yatırmağa müvəffəq olur, bəzi yerlərdə özləri məğlub olurdular. Hər halda, onlar özlərini böyük bir təhlükə qarşısında hiss edirdilər.

…Mesrop stolun arxasında qolu sarıqlı oturmuş Karoya baxıb sözünə davam elədi:

- Allahın bizə rəhmi gəldi. Yoxsa, general-nahankapet, güllə qolundan yox, dilim-ağzım qurusun, ürəyindən dəysə idi, millət başsız qalardı. Mən gecə-gündüz Allaha dua edirdim… Şükür, indi yaxşısan.

Samvel də onun sözünə qüvvət verdi:

- Bəli, bəli, sən düz deyirsən, keşiş ağa. Ölkə sahibsiz qalardı. Allah Zəngəzuru bir gün də general-nahankapetsiz eləməsin.

Karo məğrur-məğrur gülümsəyərək dedi:

- Məni az tərifləyin. Mən hələ elə bir qoçaqlıq göstərməmişəm…

- Yox, yox, elə demə. Düşmənlərin gülləsindən ki, salamat qurtarmısan, əziz canını millət üçün saxlamısan – çox böyük cəsarətdir. Lap tarixə yazılmalı qoçaqlıqdır. Əgər yaralı-yaralı otağa girib, başqa qapıdan çıxmasa idin, səni tuta da bilərdilər. Öldürə də bilərdilər. Ölkə də, millət də kor qalardı.

Karo fikirli-fikirli dedi:

- Bəli, orası doğrudur… Amma təəssüf ki, hələ bir çoxları bilmək istəmir ki, mən ancaq millət, üçün vətən üçün canımdan, başımdan keçirəm.

- Bilən bilir. Bilməyən də heç bilməsin… Keşiş ağa demişkən, onsuz da sənin iyidliyini tarixə yazacaqlar… Keşiş ağa, başın üçün, üzünə demirəm, bizim bu general-nahankapet çox sərrast güllə atandır… Amma əfsus ki, o alçaq düşmənləri, gecə qaranlıq olduğundan görməyib. Yoxsa, astvast haqqı, bir təkini sağ buraxmazdı…

Keşiş dedi:

- Amma Arakeli sağ buraxmağımız pis oldu. Gərək o vicdansız həbs olunan gün güllələnəydi.

- Bəli, buna mən də təəssüflənirəm! Ancaq məni o düşündürür ki, partizanlar Arakelin o axşam mənim yanımda olduğunu hardan biliblər? Mən belə zənn edirəm ki, içimizə düşmən soxulub. Sən kimdən şübhələnirsən, keşiş?

Mesrop saqqalını tumarlaya-tumarlaya bir az fikrə getdi, sonra dedi:

- Hələ heç kəsdən. Yalandan nə deyim. Məncə, Samvel bu işlə ciddi məşğul olmalıdır…

Karo üzünü Samvelə tutub soruşdu:

- Sən o, həbsxana rəisi müavinliyinə düzəltdiyin necə adamdır? Onun kim olduğunu yaxşı öyrənmisənmi?

- Bəli, lap ətraflı öyrənmişəm. Deyirlər, çox təmiz adamdır. Həm də ki, Milli Şuranın üzvü, möhtərəm Manuçar Sarumovun kağızı əsasında işə qəbul olunur. Yoxsa, general-nahankapet ağa, ondan şübhələnirsən? Arxayın ol, Hayk Aslanyandan bizə düşmən çıxmaz.

- Bəs niyə kənddən gəlib şəhərdə qulluğa girib?

- Kənddə dolanmaq onun üçün çətin olub. Bir də hökumət qulluğuna çox həvəsi var.

- Burda kimin evində yaşayır?

- Mehmanxanada.

- Ona gizli nəzarətçi qoy. Başa düşdünmü?

- Baş üstə.

Qapının açılması onların söhbətini yarımçıq qoydu. Aşot içəri girib kiminsə Samveli çağırdığını söylədi. Samvel dərhal yerindən qalxdı, Karodan icazə alıb Aşotla bərabər getdi.

Karo dedi:

- Keşiş Mesrop, görürsən, işlərimiz gündən-günə pisləşir, kəndlərdə qarışıqlıq, iğtişaş artır. Açıq demək lazımdır ki, kommunistlər kəndliləri bərk yoldan çıxardırlar. Hakimiyyət, qoşun, divan-dərə bizim əlimizdə olsa da, onlarla lazımi qədər bacara bilmirik. Elə deyilmi?

- Elədir, onu mən də bilirəm, cənab Karo. Məni hər şeydən çox narahat eləyən işimizin daxildə pis olmasıdır.

- Mən elə bu barədə səninlə məsləhətləşmək istəyirdim. Necə eləyək ki, bizim dövlət idarələrində xidmət edən adamların ürəyini bilək, hərəkətlərini izləyək?

Mesrop gülümsündü.

- Ürəyi bilmək çox çətindir. Ancaq hər kəsin hərəkətini izləyib gördüyü işi bilmək olar. Bunun üçün gərək adamların hamısını eləyəsən xəfiyyə və bir-birinə gizli nəzarətçi qoyasan…

Karo nə isə fikirləşib keşişdən soruşdu:

- Sən Samveldən şübhələnmirsən ki?

- Yox, canım! – deyə keşiş güldü. – Samvel həqiqi daşnakdır, əsl bizim adamdır. Mən özümə o qədər inanmıram ki, Samvelə inanıram.

- Samvelin üstündə göz ol. Bildinmi? İndi oğul ataya, ata oğula inanmayan vaxtlardır.

Keşiş yenə əlini saqqalına çəkərək dedi:

- Samvelin üstündə göz olmağa sözüm yoxdur. Amma hamını şübhə altına almaq da yaxşı deyil. Çünki onda gərək hər işi tək özün görəsən.

Karo çox ciddi dedi:

- Düyünləri açmaq üçün belə lazımdır, keşiş!

Keşiş susdu.

Dövləti idarə etmək işində casusluğu hər şeydən üstün tutan Karo öz ürəyində dedi: «Heç narahat olma, keşiş, bundan sonra sənin də üzərində nəzarətçi özüm olacağam… Mənim imkanım olsa idi hər kəsin ürəyində bir xəfiyyə gizlədərdim…».

Samvel içəri girib dedi:

- Cənab general-nahankapet, «Sağsağan» gəlib.

- «Sağsağan?»

- Bəli, yanına çağırımmı?

- Gəlsin.

Samvel çıxdı. Yenə həmin saat Şadlinski ilə bərabər qayıtdı.

- Salam, möhtərəm ağalar! – deyə Şadlinski əvvəl Karo ilə, sonra Mesropla əl tutdu.

- «Sağsağan» xoş gəlib! – deyə Karo ona yer göstərdi. – Otur. Danış görək bizə nə xəbər gətirmisən?

Şadlinski bir Karoya baxdı, bir Mesropa. Onun baxışlarındakı mənanı başa düşən Karo dedi:

- Danış, ehtiyat eləmə.

- Bu dəfəki xəbərim nə qədər ürək sıxıcı olsa da, deməliyəm. Qorxaq müsavatçılar üsyan edən Bakı fəhlələrinə, Rusiyadan gələn Qızıl Orduya heç bir müqavimət göstərə bilmədilər. Müsavat hökuməti yıxıldı. Yəqin ki, siz bunu eşitmisiniz?

Karo dedi:

- Bu qara xəbəri eşitmişik. Sən bizə Qızıl Ordunun indi hansı tərəfə hərəkət etməsindən və müsəlman camaatının ona qarşı münasibətindən danış.

- Öyrəndiyimi görə, Qızıl Ordu irəliləyir. Yəqin ki, bu gün, sabah Şuşaya çatar. Əhalinin fikri müxtəlifdir. O kəndlərdə ki, mən olmuşam, kasıblar toy-bayram eləyirlər. Çünki kommunistlər vaxtı ilə onların qulaqlarını doldurublar ki, Şura hökuməti sizin hökumətinizdir. Varlılar yas saxlayırlar, qan ağlayırlar. Evlərinin talan edilib dağılmasından, tutulmaqdan, sürgün edilməkdən, öldürülməkdən qorxurlar. Bəylərdən, dövlətlilərdən bəziləri pulunu, qızılını, malını, qoyununu götürüb dağlara çəkilib. Bəziləri dərələrdə, kahalarda, meşələrdə gizlənib. Bəziləri paltarını dəyişdirib, özünü kasıb kəndli şəklinə salıb. Müsavat inzibati idarələrinin qulluqçuları və ordu zabitləri paqonlarını qırıb atıblar. Müxtəsər ki, bu böyük hadisə çoxlarının ürəyinə böyük vahimə salmışdır. Kasıblar indi varlılara, necə deyərlər, dirsək göstərirlər. Deyirlər, indiyə kimi siz bizə ağa idiniz, indi biz sizə ağa olacayıq. İndiyə kimi siz bizi minmişdiniz, indi biz sizi minəcəyik. Ta srağagün eşitmişəm ki, Gürcülü kəndlilərinin tələbi ilə bolşeviklər pristav Əli Sadiqini güllələyiblər. Daha nə deyim, cənablar, vəziyyət belədir. Onu da deyim ki, hər yerdə inqilab komitələri və «şuralar» təşkil edirlər. Onlara kasıbları, lütləri cəlb edirlər.

Karo dərindən köksünü ötürüb dedi:

- Xeyir xəbər gətirməmisən, «Sağsağan»…

- Mən gördüklərimi, eşitdiklərimi dedim! Zəmanənin üzü dönüb. Fələyin çarxı indi tərsinə dövran edir. Kim deyərdi və kim inanardı ki, rusların Qırmızı Ordusu Zaqafqaziyaya girəcək. Kim ağlına gətirərdi ki, Şimalı Qafqazdakı Denikin kimi generallar qırmızıların qabağında duruş gətirə bilməyəcəklər?!

- Bəs sən özün bu hərc-mərclikdə necə baş saxlayacaqsan?

- Deyir, ağac öz səmtinə yıxılar, cənab general-qubernator. Mən çoxdan sizi özümə arxa bilmişəm.

- Bolşeviklərə işləmək istəmirsən?..

- Farslar deyirlər ki:

«Kəbutər ba kəbutər baz ba baz,
Konənd həmcins ba həmcins pərvaz».

Yəni, göyərçin göyərçinlə uçar, qartal qartalla, yəni hər cins öz cinsini tapar. Məni onlarla bir qazanda qaynatsalar da, qarışmaram. Mən sizin ixtiyarınızdayam.

- Yaxşı, sən bizə kömək eləmək üçün Qızıl Orduya nə edə bilərsən?

- Zənn edirəm ki, daşnaklar müsavatçılar kimi biqeyrət çıxmayacaqlar. Onlar Qızıl Ordu ilə döş-döşə gələcəklər. Mən bu mübarizədə öz fəaliyyətimi göstərə bilərəm. Sizə onlardan elə məlumat gətirərəm ki, bir milyon qiyməti, dünyaca əhəmiyyəti olar.

- Yaxşı, sən onların içinə necə girə bilərsən?

Şadlinski güldü:

- Bağışlayın, belə sualı naşı adamlara verərlər. Özünə məlumdur ki, biz peşədə olan adamlar özünə hər yerdə yol tapa bilər. Ancaq xahiş edirəm ki, bu dəfə qiymət məsələsində xəsislik eləməyəsən. Bolşevik qoşununun içinə girmək, məlumat öyrənmək çox məsuliyyətli və təhlükəlidir.

- Yaxşı, onların hamısını nəzərə alarıq. Bu dəfə qiymət üstündə səni incitmərik. Sən bizə bircə məlumat gətirməlisən: Qızıl Ordu Zəngəzura nə zaman və hansı tərəfdən hücum edəcəkdir. Aydındırmı?..

- Bəli, aydındır.

- İlk məlumatını haçan gözləyək?

- İndidən deyə bilmərəm. Şəraitdən asılıdır. Hər halda tez gəlməyə çalışacağam.

Karo dedi:

- Çox yaxşı, danışdıq qurtardıq. Mesrop, cənab Şadlinskini apar bir az istirahət eləsin, sonra yola salarlar gedər.

Mesropla Şadlinski getdi.

Samvel də yerindən qalxdı:

- Mənim üçün qulluğun varmı, general-nahankapet?

Karo soyuq bir ifadə ilə dedi:

- Get, öz işində möhkəm ol!

Samvel otaqdan çıxdı.

Karo pəncərəni açdı. Stulu çəkib onun qabağında oturdu. Bir yaralı qoluna baxdı, bir bağçaya. O, yalnız insanlara deyil, yaşıl, ətirli bağçaya, çiçəkli ağaclara da nifrət elədi, çünki güllələr onların dalından atılıb Karonu yaralamışdı.

Karo çox otura bilmədi. Dərdinin üstünə dərd qoyulmuş adamlar kimi dərindən köksünü ötürüb yerindən qalxdı və stolun arxasına keçib öz-özünə danışmağa başladı:

- Ah, qırmızılar!.. Qırmızılar gəlirlər Zəngəzura! Yox, yox! Erməni torpağı Qızıl Orduya, bolşeviklərə təslim olmayacaq! Zəngəzurun general-qubernatoru Karo Hamparsumyan qırmızılarla axırıncı damla qanına kimi vuruşacaqdır!..

Karo yerində otura bilmədi. Nə üçünsə otaqdan çıxmaq istərkən, Mesrop tələsik içəri girib dedi:

- Xmbapet Njde gəlib.

- Necə? Njde? – Karo cavab gözləmədən, tez otaqdan çıxdı.

Karo Hamparsumyanın əmri ilə gündüz saat on iki radələrində şəhərin meydançasına toplanmış Gorus camaatı Qaregin Njdenin gəlməsini gözləyirdi.

Njdenin gəlişinə rəsmiyyət, böyük məna və təntənəli bir şəkil vermək üçün hərbi hissədən gətirilmiş bir bölük əsgər də meydançanın bir tərəfində nizamla dayanmışdı.

Bir neçə dəqiqədən sonra Njde, Karo, Samvel, Mesrop və onların dalınca Aşot gəldi. Camaat onları çox soyuq qarşıladı. Əl çalan, «yaşasın Njde» deyən, sevinən, gülən olmadı. Ancaq bölük komandirinin əmri ilə əsgərlər bir neçə dəfə «Ura! deyə qışqırdılar.

Karo Hamparsumyan əvvəldən hazırlanmış tribunaya qalxıb dedi:

- Camaat! Möhtərəm xmbapet Njde şəhərimizə təşrif gətirib. Mən onun haqqında bir neçə söz deməyi özüm üçün şərəf bilirəm. Cənab Njde Naxçıvanın Guznut kəndində anadan olmuşdur. Keşiş oğludur. Ömrünü hərbi qulluqda keçirmişdir. Rus ordusunda zabit olduğu zaman böyük iyidliklər göstərmişdir. Bolqarıstanda vuruşmuşdur. Daşnak firqəsinin fəal üzvlərindəndir. Cənab Xatisovun sağ əlidir. Daha nə deyim… İndi özü sizinlə danışacaq. – Karo üzünü Njdeyə tutub dedi: - Cənab xmbapet, buyur!

Hərbi geyimli, orta boylu, bədəncə o qədər də kök olmayan, orta yaşlı Njde tribunaya qalxdı. Karo, Mesrop, Samvel və tribunanın yanındakı bir neçə nəfər əl çaldı.

Əhali tərəfindən belə soyuq qarşılandığına Njde bir qədər pərt oldu. O, əvvəlcə camaata göz gəzdirdi, sonra sağ əlini yuxarı qaldırıb dedi:

- Gorus əhli, erməni qardaşlar! Mən, Qaregin Njdenin adını Ermənistanda eşitməyən bir adam yoxdur. Siz də eşidin və üzümü görün. Bundan sonra mən həmişə sizin içinizdə olacağam. Mən gəlmişəm ki, Zəngəzuru möhkəmlədəm. Ermənistanı sarsılmaz qalaya çevirəm. Mən gəlmişəm ki, Gorus, Sisyan, Kafan kəndlərində və mis mədənlərində yolundan azan kəndlilərin, fəhlələrin cəzasını verəm. Bəli, mən bu gündən Zəngəzurun hakimiyəm. Ölkədə hər şey mənim ixtiyarımda, sərəncamımdadır. Hər kəs mənim əmrimə tabe olmalıdır.

Erməni qardaşlar! Sizi başa salım ki, vəziyyət bir il, ya bir ay bundan qabaqkı təkin deyil, bizim üçün, erməni hökuməti üçün ağırdır. Bir tərəfdən, kommunistlər, partizanlar kəndlərdə iğtişaşlar salır, üsyanlar yaradırlar. Yoxsulları, acları öz erməni hökumətinin üstünə qaldırırlar. İkinci tərəfdən, üstümüzə Qızıl Ordu gəlir. Daxili və xarici düşmənlərimiz bizim milli hökumətimizi yıxmaq istəyirlər. Amma bu onların xam xəyalıdır. Erməni milləti öz hökumətini dişi-dırnağı ilə saxlayacaqdır. Camaat, belədir ya yox?

Mesropla Samvel sanki bir ağızdan: «Elədir!» dedilər. Onlardan başqa heç kəs dillənmədi. Hətta Karo da bir söz demədi. O, Njdenin gəlməsindən razı deyildi, çünki vəzifəsi əldən gedəcəkdi. İndiyə kimi ona tabe olan ölkədə, bundan sonra hökmranlıq eləməyə ixtiyarı olmayacaqdı…

Njde sözünə davam elədi:

- Mən daxili düşmənlərlə – kommunistlər və partizanlarla bacararam. Ancaq hal-hazırda Dağlıq Qarabağda general Dronun qoşunları ilə vuruşan Qızıl Ordunu Zəngəzura buraxmamaq üçün əhali mənə kömək eləməlidir. Eləcəyəksinizmi?

Gorusa oğlunu görməyə gəlmiş Baqrat qabağa yeriyib dedi:

- Bəli, eləyəcəyik. Bizim hökumət nə desə, can-başla yerinə yetirəcəyik. Qoyun, mal, taxıl – nə istəsə rədd eləməyəcəyik… Oğlum da hökumət qulluqçusudur…

Njde üzünü tribunanın yanındakılara tutub soruşdu:

- Bu danışan kimdir?

Samvel tez cavab verdi:

- Əngələvidli Baqrat Xaçaturyandır. Milli Şuranın üzvüdür. Mənim atamdır.

- Əngələvidli Baqratın sözündən xoşum gəldi. Görünür ki, kişidə qanacaq və milli düşüncə var… Sağ ol, Baqrat!..

Qırxıq saqqal, yekə bığ, yekə qarın bir adam düz tribunanın qabağına gəlib dedi:

- Mənim pulum, dükanım cənab Njdeyə lazım olsa, qurbandır…

Njde onun kim olduğunu soruşdu.

- Tacirdir. Milli Şuranın üzvüdür, - deyə Karo cavab verdi.

Njde ona da «sağ ol!» deyib sözünə davam elədi:

- Görürsünüzmü, hökumətini, millətini istəyən adam bunlar kimi olar… Mən arxayınam ki, əhalinin köməyi ilə Zəngəzurda bir düşmənin nəfəs almasına imkan verməyəcəyəm…

Bir qoca kişi adamların arasından çıxdı, tribunaya tərəf gedib dayandı. Əlini gözünün üstünə qoyub Njdeyə diqqətlə baxdı və dedi:

- Əvvəla, salaməleyküm, ikinci, mənim yüz yaşım var, özüm də bostançıyam. Üçüncü, qardaş oğlu… - O, sözünü qurtarmamış yerlərdən gülüş səsləri ucaldı. Kimsə dedi:

- Abel kişi, yaxşı danış, o qardaş oğlu deyil, xmbapetdir.

Abel heç kəsə fikir vermədən sözünə davam elədi:

- Üçüncü, dedin ki, böyüksən. Nə deyirik, ol. Üzümüz çox böyüklər görüb, qoy səni də görsün. Amma, qardaş oğlu, de görək, biz əlsiz-ayaqsızlara nə köməklik eləcəyəcəksən? Axı hökumət gərək öz rəiyyətinin qeydinə qalsın. – Abel çəliyinə dayanaraq, sağ ayağını yuxarı qaldırdı: - Görürsən, barmaqlarımı daş,

tikan qanadıb, yara eləyib. Gön tapa bilmirəm ki, çarıx tikəm… - O, ayağını yerə qoyub boynunu uzadaraq, dedi: - Görürsən, boynum armud saplağı təkin nazilib, ət, yağ tapa bilmirəm ki, dişimin altına qoyam. Amma sağlığına, dişlərim hələ sazdır…

Camaata gülüşmə düşdü…

Abel yenə dedi:

- Hə? Deyirsən gön də verəcəksən, ət də? Nə olar. Sağ ol, qardaş oğlu!..

Njde qışqırdı:

- Bu haranın ayısıdır? Gözümün qabağından rədd eləyin!

Kim isə Abelə yaxınlaşıb, meydandan apara-apara dedi: «Allah sənə lənət eləsin! Gorus camaatını bu təzə böyüyün yanında biabır elədin…».

Bir nəfər ucadan dedi:

- Njde ağa, gərək bağışlayasan. O Abel kişi qoca adamdır. Sözünün dalını-qabağını bilmir. Ancaq onu demək istəyirdi ki, sənin gəlməyinlə camaatın halı-vəziyyəti dəyişiləcəkmi? Əhaliyə bir köməklik olacaqmı?

Njde qəzəblə dedi:

- Camaat, niyə qanmaz-qanmaz danışırsınız? Niyə başa düşmək istəmirsiniz ki, bizim çalışmağımız, özümüzü oda-közə vurmağımız – hamısı millət üçündür?!

Baqrat üzünü Njdeyə çevirdi, əl çala-çala dedi:

- Doğrudur, düzdür. Yaşasın erməni millətinin belə-belə oğulları.

Njde dedi:

- Camaat, mənim sizinlə çox danışmağa vaxtım yoxdur. Ancaq bir sualım var: Qızıl Ordu Zəngəzura hücuma keçsə, siz bizim hökumətə nə kimi kömək eləyəcəksiniz?

- Biz vuruşacayıq! – deyə Samvel cavab verdi.

Adamların içindən bir səs ucaldı:

- Kolçakın, Yudeniçin, Denikinin, Vrangelin qoşununu darmadağın eləyən, müsavat hökumətini yıxan Qızıl Orduya qarşı biz nə eləyə bilərik…

- Bu sözü deyən kimdir, qabağa çıxsın, - deyə Njde bağırdı.

Heç kəs nə dilləndi, nə yerindən tərpəndi.

Milli Şuranın üzvü, qarnı yoğun tacir orta yaşlı bir müəllimi çəkə-çəkə tribunaya yaxınlaşdırıb dedi:

- Xmbapet, danışan bax bu idi!

Njde tribunadan enib müəllimlə üz-üzə durdu:

- O sözləri sən dedinmi?

- Bəli, mən dedim.

- Bunu bölüyün qabağına çəkin! – deyə Njde Samvelə əmr elədi.

Samvel müəllimin qollarını bağlayıb bölüyün qarşısında, hündür bir divara söykədi, özü isə yana çəkildi.

Njde özü bölüyə komanda verdi:

- Vətən xaininə – atəş!

- Ay camaat! Ay ca…

Zalpla açılan güllələr müəllimə kəlməni qurtarmağa imkan vermədi. O, üzü üstə meydanın daş döşəməsinə sərildi.

Meydandakılar qəzəbdən və heyrətdən sarsıldılar.

Njde üzünü camaata tutub dedi:

- Bundan sonra qorxaqlarla, millət xainlərilə belə rəftar olunacaq. Daşnak quruluşu əleyhinə olan bu adamın meyiti üç gün meydandan götürülməməlidir. Qoy hamı baxıb ibrət alsın.

Njde yenidən tribunaya qalxarkən, kənardan bir atlı göründü. Bu, Qarakilsənin kəndxudası idi. Karonun meydanda olduğunu divanxanadan öyrənmiş kəndxuda, atını camaatın yanına sürdü. Karonu soruşdu. Onu göstərdilər…

Kəndxuda atdan düşüb həyəcan içində dedi:

- General-nahankapet ağa, mən sizdən kömək almağa gəlmişəm. Adlarını bolşovoy və partizan qoyanlar bizim kəndi dağıdırlar. Şələk, Bələk, Brnaqotda kəndxudanı basıblar dama. Partizanlar bizim kəndin küçələrində açıqdan-açığa deyirlər: «Məhv olsun daşnak hökuməti!» Məni də tutmaq istəyirdilər, qaçdım. İndi sizə xəbər verirəm…

Kəndxudanı axıra kimi sakit dinləyən Njde birdən barıt kimi partladı:

- Sən özün qorxaq tülküsən! Niyə qaçıb gəlmisən bura! Onların cavabını verə bilmirdin?

Njdeni tanımayan, lakin zahirindən böyük qulluqçuya oxşadan kəndxuda dedi:

- Ağa, qüvvəmiz, silahımız yoxdur!

Njde meydanda olan bölüyün gedib Qarakilsədə və başqa kəndlərdə xalq üsyanını yatırması üçün əmr verdi.

Mayın iyirmi altısı idi. Axşam çoxdan düşmüşdü. Xınzirək kəndinin ətrafındakı gözəl mənzərələri görmək, onlara tamaşa etmək mümkün deyildi. Lakin böyük kəndin başı üstündə çətir kimi açılmış səmanı heç nə gizlədə bilməzdi. Onun mavi qoynunda aramla üzən ay hər yeri süd kimi eləmişdi. Dağlardan sərin meh əsirdi. Adama elə gəlirdi ki, bu sakit axşamda təmiz hava udub, ağ çiçəkləri xatırladan ulduzları seyr etməkdən zövqlü bir şey yoxdur. Adama elə gəlirdi ki, belə cazibədar axşamlarda heç kəsin ürəyində dərd-qüssə ola bilməz…

Sərin eyvanda, bol süfrə başında qabaq-qabağa oturmuş Manuçarla kəndxuda Minas kefi kök söhbət edirdilər.

- Götür stəkanını, kəndxuda Minas, içək başımızın təzə ağası Njdenin sağlığına! Mən sənə deyirəm ki, bizim Njde qırmızıları Zəngəzura qoymayacaq.

- Bəlkə…

- Bəlkəni əkiblər çuğundur bitib… Ha… ha… ha… Ay bizim avam kəndxuda, bilmirsən ki, Njdenin qabağında bolşevik-molşevik duruş gətirə bilməz? Canavarla dovşan meydana girsə nə olar? Ərə, Minas, yoxsa qorxursan? Qorxma. Qırmızılar gəlsələr mənimlə haqq-hesab çəkəcəklər, sən kimsən?!

Hər ikisi içdi.

Manuçar stəkanları yenidən doldurub dedi:

- Mən adamın qoçağını sevirəm. Qorxaq adam gözümün qanlısıdır.

- Elədir, Manuçar ağa, çaxır adamı şirə, pələngə döndərir…

- Ərə, demə ki, Manuçar kef havasına danışır. Allahın altında o, qırmızılarla bir döş-döşə gələm, onda görərsən ki, bu arıqca Manuçarda nə zor var!..

- Yaxşı, Manuçar ağa, götür bu stəkanları da içək sənin sağlığına, sonra mən gedim.

- Hara? Ərə, qırışmal, sən sevinmirsən ki, Milli Şuranın üzvü ilə yeyib-içirsən? Səhərə kimi içəcəyik. Çaxır çoxdur… Hə, içək mənim sağlığıma!

Onlar içəndən sonra kəndxuda yerindən qalxdı. Manuçar onun ətəyindən tutub aşağı çəkdi.

- Otur, otur, biqanacaq! Deyirsən, səni kəndxudalıqdan çıxardım! Ulduzlar sönənə kimi içəcəyik. Otur, vəssalam!

- Manuçar ağa…

- Otur, qırışmal! – Manuçar kəndxudanı çəkib oturtdu. – Hökumət nümayəndəsinin sözünü qaytaranın cəzası əlli stəkan çaxır içməkdir. – O, stəkanları doldurdu. – Bu biri, iç! Özü də tək iç.

- Tək niyə? Götür içək cənab Karonun sağlığına!

- Nə? Karonun? Ha… ha… ha! Ay avam kəndxuda! O da kişidir? Nə vəzifəsini əlində saxlaya bildi, nə də… nişanlısını!

- Manuçar ağa, səni Milli Şuranın üzvü eləyən axı, odur. Karo ilə bərk dost idiniz.

- Xeyr, məni Milli Şuranın üzvü eləyən o deyil; ona yedirtdiyim qoyunlar, mallardır, cibinə basdığım qızıllardır. Bəli, Minas kəndxuda, mənim dostum bundan belə Njdedir… Təzə ay çıxanda köhnə ayı doğrayıb ulduz qayırarlar. Başa düşdün, ay avam?..

Şərab Manuçarın daxili aləmini açıb kəndxudaya göstərdi. Kəndxuda özü yaltaq olsa da, ürəyində dedi: «Ey vəfasız insan, səndə neçə sifət olarmış…».

Manuçar yenə əlini butulkaya atanda bir neçə silahlı adam eyvana çıxdı.

Manuçarla kəndxuda gələnlərin içərisində Levonla Makiçi gördükdə, təəccüblə ayağa qalxdılar və özlərini itirmiş halda geri çəkildilər.

- S-i-z… Siz hardan belə? – deyə Manuçar onun, bunun üzünə heyrətlə baxdı.

- Sizinlə bir yerdə yeyib-içməyə gəlmişik, «hörmətli» Manuçar ağa! – deyə Levon güldü.

Vahan döşünü qabağa verib amiranə tərzdə dedi:

- Qəza İnqilab Komitəsinin tapşırığı ilə hər ikinizi həbs edirəm!

Manuçar özünü sındırmayıb ucadan dedi:

- Mən inqilab komitəsi tanımıram. Heç kəs məni dustaq eləyə bilməz! Mən hökumət üzvüyəm. Sən kimsən? – Manuçar yəqin ki, silah götürmək üçün, otağa tərəf yönəldi, lakin Levon onun yaxasından yapışıb geri çəkdi.

- Heç yerə tərpənməyəcəksən!

Kəndxuda işin ciddi olduğunu görüb eyvanın bir tərəfinə qısıldı.

Vahan yoldaşlarına müraciət etdi:

- Bağlayın bunların qollarını!

Makiç kəndxudanın qollarını bağladı. Levon da Manuçarın qollarını bağlayanda o, dartındı, müqavimət göstərərək dedi:

- İxtiyarınız yoxdur!.. Mən Milli Şuranın üzvüyəm. Mən Sarumovam! Mən…

- Çığır-bağır salma, bizim işimiz elə sənin kimiləriylədir! – deyə Comərd onun qollarını arxada çarpazladı. – Levon, kəndiri bu Milli Şura üzvünün qollarına sal!

- Ərə, sən musurmansan?.. Vay, Allah mənim evimi yıxsın… Ərə, ay ermənilər, ay özümünkülər, qeyrətiniz yoxdur?.. Məni dərənin bir dəli musurmanı dustaq eləyir, siz də buna qoşulursunuz?

- Kəs səsini! – deyə Levon onun qollarını möhkəm bağladı.

- Mən hökumətə deyəcəyəm. Mən Njdeyə şikayət eləyəcəyəm.

Dustaqları eyvandan aşağı düşürdəndə kəndxuda yalvarmağa başladı:

- A başınıza dönüm, elə mənim taqsırım nədir?! Ərə, Levon, Makiç, siz astvas, mənə rəhminiz gəlsin. Ay musurman qardaş, sən olasan sizin həzrət Abbas, məni buraxın evimə!.. Ərə, arvadım evdə yoxdur, heç olmasa, qoyun o evə gəlsin, bilsin ki, məni siz aparırsınız! – deyə Manuçar ayağını yerə dirəyib getmək istəmədi. Qonşuları eşitsin deyə qəsdən çığır-bağır saldı. Lakin peysərinə dəyən dürtmə onu susmağa məcbur etdi.

Hər kəs təbiətin bir mənzərəsini, bir gözəlliyini daha çox sevir. Mən də gün doğmasına vurğunam…

Mən gözümü, dünən axşamdan görmədiyim səma gözəlinin yolundan çəkmirdim. Onun bu gün, məhz bu gün tez gəlməsini səbirsizliklə gözləyirdim.

Üzərində dayandığım yer kürəsi, elə bil birdən hərəkətini öz məhvəri ətrafında artırdı. Sanki o da günəşin dilbər camalını dünyaya tez göstərməyə tələsdi…

Odur, yer ağarmağa başladı. Üfüqün göyümtraq pərdəsi yavaş-yavaş açıq qırmızı rəng aldı. Qəlbim sevinclə döyündü. Bir azdan sonra, intizarında olduğumun gülümsər çöhrəsini görəcəkdim…

Dəqiqələr keçdi… Gözlərimin qabağında şəfəq dolu sanki böyük bir piyalə göründü. O, bir gecənin içində açılmış laləni də xatırladırdı. Elə bil ki, onu mən özüm ana yurdumun bağçasından dərib üfüqün yaxasına sancmışdım…

«Ey mənim may günəşim, bahar günəşim, gecə yatmayıb yolunu gözləmişəm!» deyə ona əl elədim. O gülümsündü, bütün təbiət onun gülüşündən nura boyandı… Mənə elə gəldi ki, may günəşi bu gün yüksəklərə qalxmaq istəmir, düz yanıma enib mənimlə qol-qola verərək, Xınzirəyin küçələrində birgə addımlamaq istəyir. Hər kəndlinin evinə girib uca səslə demək istəyir: «Qalxın yuxudan! Bu gün sizi səadətə qovuşdurmağa gəlmişəm! Durun, ürəklərinizin qapılarını açın, ora azadlıq şəfəqləri dolduracağam!..»

Günəşin xəyalımda yüksələn səsini kəndin küçələri ilə addımlayan inqilabçılar dəstəsinin ağzından eşitdim. Onların şüarları azadlıq göyərçini kimi, hər tərəfə qanad çalırdı: «Yaşasın Şura Rusiyası! Yaşasın Şura Azərbaycanı! Yaşasın tezliklə zülm boyunduruğundan azad olacaq Ermənistan!..»

Çiyinlərində silah, əllərində al bayraq, dəmir addımlarla gedən dəstə məktəbin qabağında dayandı. Vahan əlindəki bayrağı binanın divarına sancdı. Bayraq günəş şüaları altında qırmızı bir alov kimi şölə saçmağa başladı.

Dəstə gur səslə inqilabi mahnı oxumağa başladı. Bunu eşidən kəndlilər məktəbə sarı axışmağa başladılar. Adam getdikcə çoxaldı. Lakin kənddəki bu

şənliyin səbəbini bir çoxu bilmirdi. Bəziləri fikirləşirdi: «Yəqin ki, bu gün kəndə hökumət adamlarından gələcək, ona görə indidən şənlik düzəldiblər…». Amma kəndxuda ilə Manuçarın camaat arasında olmaması onları şübhəyə saldı. Levonu, Makiçi və tanımadıqları başqa adamları görəndə, şübhələri daha da artdı. Şüarları eşidib mənasını qananlara, al bayrağı görənlərə isə hər şey aydın idi.

Vahan böyük izdihama müraciətlə dedi:

- Qardaşlar! Yoldaşlar! Bu may ayında Ermənistanın bir çox şəhər və kəndlərində fəhlələr, kəndlilər silahlı üsyan qaldırıblar. Xalq daha daşnakların zülmü altında yaşamaq istəmir. Bizim Zəngəzur erməniləri deyirlər: «Rədd olsun daşnak hökuməti! Rədd olsun njdelər, drolar, karolar, mauzeristlər!»

Adamlar bir-birinin üzünə baxdı, lakin heç kəs dillənmədi. Vahan sözünə davam elədi:

- Qəza İnqilab Komitəsi adından, Xınzirəkdə Şura hökuməti qurulduğunu elan edirəm. Bundan sonra hamı azad yaşayacaq. Döyən, döyülən olmayacaq. Dövlətlilərin torpağı alınıb kasıblara veriləcək.

Vahan sözünü qurtaranda, Əliqulu kəndinin kommunistlərindən və onlara rəğbət bəsləyənlərdən ibarət bir dəstə adam gəldi.

«Yaşasın Xınzirəkdə qurulan Şura hökuməti!» deyə onlar dostlarını təbrik etdilər. Gələn adamlar burada Şura hökuməti elan olunacağını əvvəlcədən bilirdilər. Onlar da inqilab komitəsinin göstərişi ilə öz kəndlərində üsyan bayrağını sabah qaldıracaqdılar. Buraya isə xınzirəklilərə köməyə gəlmişdilər.

Suren, Levon, Makiç danışdılar. Yoxsul kəndlilərdən də bir neçəsi çıxış edərək, təzə quruluşu alqışladı və onun möhkəmlənməsi üçün mübarizə edəcəklərini söylədilər.

Axırda Comərd danışdı; sözünü belə qurtardı:

- Şura hökumətinin yaranması kəndlilər üçün böyük xoşbəxtlikdir. Bundan sonra ermənilərlə müsəlmanların arasında heç bir ədavət və milli qırğın olmayacaq. Hamı qardaş kimi bir-birinə can deyib can eşidəcək. Çünki Şura hökumətinin məqsədi millətlərin, xalqların hamısını bir-birinə dost, yoldaş, qardaş eləməkdir. Yaşasın bütün millətlərə azadlıq yolunu göstərən yoldaş Lenin!

Alqış səsləri ucaldı.

Təzə quruluşla maraqlanan kəndlilər Vahana çox sual verdilər. Ancaq kəndin varlıları, hampaları ağızlarını açmadılar…

…Xınzirəkdəki hadisəni ikinci gün Njdeyə xəbər verdilər. Njde dərhal ora hərbi qüvvə göndərdi. Kommunistlər, partizanlar, yoxsul kəndlilər hərbi qüvvə ilə döyüşə girişdilər. Hər iki tərəfdən ölən və yaralanan oldu. Makiç öldürüldü. Kommunistlərə başqa kəndlərdən kömək gəlmədiyindən və Njdenin hərbi qüvvəsinin sayca artıq olduğundan, üsyançılar məğlub oldular…

Daşnaklar, kommunistlərin tərəfini saxlayan, Şura hökumətinin qurulmasını alqışlayan kəndlilərə vəhşicəsinə divan tutdular. Bəzilərini döydülər, bəzilərini həbs etdilər, bəzilərini kəndin ortasında, camaatın gözünün qabağında güllələdilər. Sarumovla kəndxuda həbsdən azad edildilər.

Bir tərəfdən Zəngəzurda inqilabi hərəkatın güclənməsi, ikinci tərəfdən Qızıl Ordunun Qarabağdan gözlənilən hücumu Ermənistan hökumətini bərk təşvişə

salmışdı. Zəngəzuru alınmaz bir qalaya çevirmək üçün oraya daha möhkəm, daha bacarıqlı, hərbi işdən baş çıxardan bir adam göndərmək lazım idi. Xatisov Zəngəzura Njdeni göndərdi.

Njde nə Milli Şurada, nə də idarələrdə heç bir dəyişiklik eləməmişdi. Xidmətçilərin hamısı öz yerində qalmışdı. Karonu isə özünə müavin götürmüşdü. Vəzifəsindən bir pillə aşağı düşürülmüş Karo, damaqdan da bir qədər düşmüşdü.

Karo öz yerini Njdeyə verəndə Milli Şura ilə bilavasitə əlaqəsi olan adamları ona xarakterizə etmişdi. Mahalın vəziyyəti ilə tanış edib, kəndlərdə kimlərə arxalanmaq lazım gəldiyini, hansı xəfiyyənin harda yaşadığını söyləmişdi.

İndi Njdenin qarşısında, ayaq üstə dik dayanmış Karo, onun əmrlərini, göstərişlərini gözləyirdi.

Njde oxuduğu kağızdan gözünü çəkib dedi:

- Məlumat verirlər ki, bolşeviklərin qaldırdığı üsyan Brnaqotda da yatırılıbdır.

- Bəli, cənab, sənin gəlişin çox yaxşı oldu, - deyə Karo yaltaqcasına gülümsündü: - Deyir, ilan ulduz görməsə ölməz. Sənin zəhmin ağırdır. Güman edirəm ki, bundan sonra sənə tabe olan Zəngəzur mahalında «inqilab», «üsyan», «Qırmızı Ordu» sözünü ağzına alan olmayacaq. Mən də bacardığımı əsirgəməmişəm… Mən general-nahankapet olduğum zaman nə eləmişəmsə, nə iş görmüşəmsə, yalnız iki şüarımızın xatirinə eləmişəm: «Dənizdən dənizə uzanan Ermənistan dövləti yaratmaq!» və bu yolda qabağa çıxan hər şeyi «Süpürüb atmaq!»

- Amma, təəssüf ki, bu şüarları hələ yerinə yetirə bilməmişik.

Karo öz gördüyü işləri Njdenin gözündə böyütmək üçün təşəxxüslə dedi:

- Bəli, doğru buyurursan. Amma mən əlimdən gələni eləmişəm. Müsavatçıların hücumunun qarşısını almışam. Andronikin bata bilmədiyi Sofulu dərəsində yerləşən bir neçə para müsəlman kəndini elə bu ilin mart ayında yandırmışam. Bolşeviklərə qarşı həmişə amansız olmuşam…

- Kifayətdir, cənab! – deyə Njde onun sözünü kəsdi. – Əsl hünər, cəsarət göstərmək vaxtı hələ qabaqdadır. Onda hamının bacarığına bələd olarıq…

Karo tutuldu. Başını aşağı salıb yavaşdan dedi:

- Cənab xmbapetin əmrini gözləyirəm.

- Haqqında danışdığımız partizanların evlərini külə çevirmək üçün bu gün Xınzirəyə özün gedərsən.

- Baş üstə.

- İndi otur, Qubatlıya bir məktub yaz! – Njde ona bir vərəq ağ kağız verdi.

Karo oturub qələmi götürdü.

- Həmişə bir adama, bir idarəyə kağızı Milli Şuranın katibi keşiş Mesrop yazırdı…

Karonun sözlərində bir növ inciklik hiss edən Njde onun gözlərinin içinə tərs-tərs baxdı.

- Yaz, cənab Hamparsumyan!

«Qubatlı İnqilab Komitəsi sədrinə! Zəngəzurdan qaçıb sizin qəzada özlərinə yuva tapan erməni kommunistlərini və partizanlarını tezliklə mənim sərəncamıma göndərməyi sizə təklif edirəm. Əgər qayıtmasalar, evləri yandırılacaq, ailələri,

uşaqdan qocaya kimi, güllələnəcəkdir. Geri qayıdan ermənilərin sağ qalmasına söz verirəm.

Q.Njde. 10 iyun 1920-ci il».

Njde kağıza qol çəkib dedi:

- Bunu göndərmək üçün etibarlı adamın varmı?

- Bəli, var.

- Yubatma, bu gün göndər.

- Baş üstə, - Karo qalxıb içəridən çıxdı.

Njde Qızıl Orduya qarşı durmaq üçün yenidən əsgər yığmaq, daxili əks-inqilabçı qüvvələri öz ətrafına toplamaq haqda xeyli düşündü. Necə hərəkət edəcəyini xəyalında ölçüb-biçdi. «Stolun siyirməsindən bir kağız götürüb oxumağa başladı…

Həbsxana rəisi Nersesyan orduda xidmətə alındığından, onun yerinə təyin olunmuş Hayk içəri girdi, salam verib qapının ağzında dayandı…

Njde oxuduğu kağızı yarımçıq qoyub soruşdu:

- Hə, gətirdin?

- Bəli. Tələb elədiyin işləri, siyahını gətirmişəm. Budur: - Hayk qoltuğundakı qovluqları stolun üstə qoydu. – Ancaq onu deyim ki, qazamatda daha yer yoxdur. Kəndlərdəki may hadisəsindən sonra dustaqların sayı çox artıb. Misal üçün, beş nəfərlik kameraya on beş adam salmışıq…

Njde siyahıya baxa-baxa dedi:

- Sözün düzdür. Yer azdır, dustaq çox. Sənin tədbirin nədir? – Njde başını qaldırıb ona baxdı. – Hələ bundan sonra da dustaq çoxalacaq. Onda nə eləyəcəyik?

Haykın dodağı qaçdı:

- Nə deyim, vallah!.. Sənin ayağın biləni, mənim başım bilməz. Mən buyuruq quluyam. Onu da deyim ki, üç gün bundan qabaq İravandan göndərilən iki dustağı ölüm-zülüm bir kamerada yerləşdirmişik. İşlərini də verdim sənə…

- Njde əvvəl Musatovun, sonra isə Qurgenin «işi» ilə tanış oldu. Hayk bir saatdan çox ayaq üstə qaldı.

Njde gözünü sonuncu vərəqədən çəkib dedi:

- Həbsxananı bir qədər boşaltmaq lazımdır. Torpağın altında yer çoxdur… Elə deyilmi, rəis Hayk Aslanyan? Onda sənin də işin bir qədər yüngülləşər, hə? – Njdenin üzündə iyrənc bir təbəssüm əmələ gəldi…

Hayk sonsuz nifrətini süni bir gülüşlə gizlətməyə çalışaraq dedi:

- Məsləhət xmbapet ağanındır. Amma sağ ol ki, qazamat qulluqçularının da halına qalırsan. Başına and olsun, ağa, onların ahından, naləsindən, çığır-bağırından qulağımız dəng olub. Vay odur kameranın qapısını açasan, az qalırlar adamı dirigözlü didib parçalasınlar. Dedikləri də budur: «Günahımız yoxdur, bizi buraxın! Acından ölürük, bizə çörək verin! Naxoşluq bizi əldən saldı, həkim göndərin, bizə dava-dərman verin!»

- Sən möhkəm ol. Qazamat qulluqçusunun ürəyi daş kimi bərk olmalıdır… Nalə-fəğan səsini qulaqların eşitməməlidir.

Njde qələmi götürüb Sergey Musatovla Qurgen Xaçaturyanın «işinin» üstünə aydın xətlə yazdı: «Güllələnsin!» Sonra qovluqları Hayka qaytarıb dedi:

- Əmrim bu axşam saat doqquzda yerinə yetirilməlidir!

- Baş üstə! – Hayk getdi.

Njde bayaq yarımçıq qoyduğu kağızı təzədən oxumağa başladı. Bu, may üsyanları zaman həbs edilmiş kəndlinin cibindən tapılan müraciətnamə idi:

«Sisyan təşkilatına!

Yoldaşlar! Xalq üsyanları Zəngəzurda artıq başlanmışdır. Bir çox kəndlərdə Şura hökuməti qurulmuşdur, bir çoxlarında isə daşnaklarla kəndlilərin arasında möhkəm vuruşma gedir. Lakin düşmən qüvvətlidir, özü də yaxşı silahlanmışdır. Amma uzun müddət müharibə etmək üçün bizim əlimizdə kifayət qədər silah yoxdur. Buna baxmayaraq, üsyanı genişləndirməliyik. Sisyanlı yoldaşlar, üsyan bayrağını yüksəklərə qaldırın. Düşmənə qarşı coşqun nifrət hissilə mübarizəyə girişin. Sisyan bu qəti dəqiqələrdə üsyana qalxmalıdır. Xalqın azadlıq uğrundakı hərəkatına qoşulmalıdır.

Yoldaşlar! Vaxt çatıbdır, yubanmaq ölüm deməkdir. Öz planınız və hərəkatınız haqqında dərhal qəza inqilab komitəsinə xəbər verin!..»

Njde kağızın dalını oxumadı. Qəzəb onu iliyinə kimi sarsıtdı.

- «İnqilab! Üsyan! Hərəkat!» - deyə acı-acı güldü. Bu balaca kağızın ona vurduğu mənəvi yara getdikcə qəlbində dərinləşirdi. – Eh, bolşeviklər, bolşeviklər! – deyə qışqırdı. – Niyə hamınızı tutub Gorus həbsxanasında çürüdə bilmirəm? Amma tələsməyin, vaxt gələr, sizinlə haqq-hesab çəkərəm… Sizi ayaqlar altına salaram. Bax, belə! – Njde barmaqları arasında əzilmiş kağızı dörd parça edib yerə atdı, sonra tapdalamağa başladı…

May hadisəsindən sonra bolşeviklərin, partizanların bir çoxu yenə müsəlman kəndlərinə qayıtmışdı. Yalnız inqilab komitəsinin üzvləri: Vahan, Comərd və Suren öz «qərargahlarını» - Haykın evini tərk eləməmişdilər. Onlar yenə əl altınca işləyir, camaatı qəti və son döyüşlərə hazırlayırdılar.

Axşamdı. Şirin söhbət gedirdi. Vahan sözünə davam edərək dedi:

- Bəli, yoldaşlar, silahımız, adamımız az olduğundan və camaatı üsyana yaxşı hazırlamadığımızdan məğlub olduq. Lakin bu məğlubiyyət müvəqqətidir. Ona görə də, ruhdan düşməməliyik, buna haqqımız da yoxdur. Köhnə dünyanı üzü üstə çevirmək asan deyil. İnsanların hamısının beyninə inqilabi şüuru, azadlıq duyğularını birdən yeritmək çətindir. Vətəndaş müharibəsi çox çətin bir məktəbdir. Burda səhv də ola bilər, qurban da verilə bilər. Ancaq bu ilk müvəffəqiyyətsizlik bizə çox şey öyrətdi. İndi biz ikiqat qüvvətlə işə yenidən girişməliyik.

- Doğrudur! – deyə Comərd onun sözünü təsdiq elədi.

Şuşanik çiynində mis səhəng içəri girib həyəcanla dedi:

- Yandırırlar! Allah, sən saxla! Birdən bizim evə də od düşər…

- Nəyi yandırırlar?

- Levonun evini. – Şuşanik səhəngi evin aşağı başında divarın yanına qoydu. – Bulaqdakı arvadlar danışırdılar ki, Levon kişinin evinə od vuran Manuçardır. Qisas alır… Deyirdilər ki, daşnak böyüklərindən Karo da gəlib. Vay, yazıq Levon kişi!..

Vahan, Suren və Comərd həyətə çıxdılar.

…Yanğın kəndin baş tərəfində idi. Bir-birinə qarışmış qırmızı, göy alov sütunları yerdən göyə diklənirdi. Qara damın dirəkləri, pərdiləri çırta-çırtla yanır,

divarları gurultu ilə uçub yerə tökülürdü. Qalın və göz çıxardan acı tüstü hələ od düşməmiş evlərin üstündə qara ilan kimi qıvrılırdı. Zəhmətkeş insanın min əzabla tikdiyi koma külə dönürdü…

Göylərə zəbanə çəkən yanğına həyətlərdən, küçələrdən tamaşa edən, lakin onu söndürməyə cəsarət edə bilməyən kəndlilər kədər və heyrət içində idilər. Onlara elə gəlirdi ki, Levonun evini xarabaya çevirən alov, çox keçməz ki, onların da evini külə döndərər. Bəlkə də ürəklərində deyirdilər: «Adam gücü çatmayan daşdan yapışmaz. Levonun, Makiçin xataları öz başlarında çatladı. Makiçin öldürülməsi, Levonun evinin yandırılması, hər ikisinin ailəsinin çöllərə düşməsi – hamısı Manuçar ağanın torpağına əl atdıqlarındandır. Adam güləş meydanına girəndə, gərək əvvəlcə gücünü sınasın…». Bəlkə də bəziləri deyirdi: «Bolşeviklərin elə bir atımlıq barıtı varmış, hay-küylə meydana girdilər, bayraq götürdülər, camaatı üsyana qaldırdılar, hökumət qurdular, amma dalında dura bilmədilər. Adamlar qırıldı, tutulub qazamata salındı, ailələr başsız, uşaqlar gözü yaşlı qaldı…».

Karo, Manuçar və kəndxuda lap kənarda dayanıb yanğına baxır və ondan nəşə alırdılar.

Manuçar getdikcə coşan alovlara diqqətlə baxıb əlini ürəyinin üstünə qoyaraq dedi:

- Bax, ürəyimdən indi tikan çıxır. Karocan, o dilim-dilim alovlara baxanda, bolşeviklərin əlindən yanan ürəyimə elə bil sərin su çilənir… Bundan sonra kasıblar görərlər… Görərlər ki, Manuçar Sarumov nə gücün sahibidir!.. Bilərlər ki, mənim arxam, köməyim bir adam, iki adam deyil, bütün daşnak qoşunudur…

Bir kəndli onlara yanaşdı. Karonu tanımadığı üçün Sarumova müraciət elədi:

- Manuçar ağa, başına dönüm, de ki, adamlar yanğını söndürsünlər. Alov az qalır ki, mənim evimə də çatsın… Aman günüdür, komam yansa balalarım çöldə qalar.

Manuçar qəhqəhə ilə güldü.

- Sən evinin yanmasından qorxursan, hə? Qorxma, sən gedib o kasıb-kusub tərəfdarları bolşeviklərə deyəydin ki, farağat duraydılar, sənin kimi adamların da evi yanmayaydı.

- Vallah, mən onları tanımıram! Manuçar ağa, sən Allah, sən canın, bu işə sərəncam çək. Ora bax, ora bax! Vay dədəm vay, ev az qalır od ala!..

- Get, özünü tülkülüyə vurma. Yəqin sən də bayraq götürənlərin, «yaşasın, yaşasın» deyənlərin birisən.

Kəndli çox yalvardı. Nəhayət, Manuçar Karonu göstərərək, ağlamaq dərəcəsinə gələn kəndliyə dedi:

- İxtiyar bu xmbapetdədir. Ondan xahiş elə…

Kəndli Karoya yalvardı.

- Baş-beynimi aparma, - deyə Karo əlindəki şallaqla onun peysərinə bir neçə dəfə vurdu. – Siz kasıblar nankorsunuz. Dara düşəndə yalvarıb ilan dili çıxardırsınız, iynənin deşiyindən keçirsiniz, elə ki, bir balaca genişliyə çıxdınız, qudurub cızığınızdan çıxırsınız! Divan-dərə tanımırsınız. Get burdan!

- Xmbapet ağa, mənim evim heç, bütün kənd yanar! Sənin öz evin də od tutar, Manuçar ağa! – deyə kəndli zülmün qara heykəlləri kimi dayanmış adamlara

baxdı. Onların donuq sifətlərində rəhm əlaməti görmədi. Daha söz deməyin, yalvarmağın əhəmiyyətsiz olduğunu yəqin etdi. Kor-peşman geri qayıdanda öz damının üstündə bir adam gördü. Bu, Suren idi. Üzünü camaata tutub ucadan deyirdi:

- Ay yoldaşlar! Ay kəndlilər! Niyə durmusunuz? Niyə gəlib yanğını söndürmürsünüz? Niyə daşnakların zülmünə bu qədər dözürsünüz?! Kəndlilər! Njde bu yanğınla sizin gözünüzü qorxudur ki, bir də Şura hökumətinin adını çəkməyəsiniz. Amma inanın, arxayın olun ki, bütün Zəngəzurda Şura hökuməti qurulacaq! Daşnakların sözlərinə inanmayın! Hədələrindən qorxmayın! Bu gün Levonun evini odlayan, sabah da sizinkini yandıracaq. Durub baxmayın…

Kəndlilər mütərəddid dayanıb Surenin sözlərini dinləyirdilər.

Suren, Vahan və Comərd od işığında onlara tərəf gələn bir adamı gördü. O, bayaq Manuçarla Karoya yalvaran kəndli idi. Üç bolşeviki görən kimi ürəklənib dedi:

- Sağ olun, qardaşlar! Mənə kömək eləməyə, yanğını söndürməyə gəlmisiniz… Ay camaat, bura gəlin! Yanğın baş alıb gedir! Ay qardaşlar, daha bundan betər zülm olmaz! Nəyi gözləyirsiniz? Yanğın keçirilməsə hamının evi, kür-külfəti yanıb tələf olacaq!..

Alov artıq kəndlinin eyvanına keçmişdi. Onun arvadı uşağını bağrına basıb içəridən təlaşla qışqıra-qışqıra bayıra çıxdı.

Kəndli bunu görən kimi, damın üstündən aşağı endi…

Bayaqdan Surenin sözlərini aydın eşidən Karo ilə Manuçar, kəndlinin evinə yanaşdı… Nədənsə, damın üstə çıxmayıb, divarın dibində gizlənərək, güllə atmaq üçün əlverişli vaxt gözlədilər. Lakin tüstü-duman gözlərinin qabağına pərdə çəkərək nişan almalarına imkan vermədi.

Surenin, Xınzirək camaatını intiqama çağıran sözləri hər iki canavarın qulağını deşirdi…

Karo daha davam gətirə bilməyib tapança ilə dalbadal bir neçə güllə atdı… Yanğını söndürmək üçün gələn kəndlilər yerlərində dayandılar. Evi yanan kəndlinin güllə səsindən qorxan uşaqları ağlamağa başladılar. Əri ilə bərabər içəridən ağlaya-ağlaya yorğan-döşək daşıyan arvadın həyəcanlı qışqırığı, söyüşü, qarğışı həyəti götürdü.

Düşmənin hiyləsini başa düşən Suren, Vahan və Comərd tez aşağı endi. Onlar yan tərəfdən burulub gedəndə Karo bağırdı:

- Dayanın! Arvad kimi hara qaçırsınız! – Onun havaya buraxdığı güllələrə Surenlə Comərd atəşlə cavab verdilər…

Zolaq-zolaq alovlar yoxsul kəndlinin evini artıq hər tərəfdən qucaqlayırdı…

Njde qəfəsdəki ayı kimi otaqda gəzinir, dodaq altından nə isə mırtıldanırdı. Qapı açılanda geri çevrildi, qarşısında Karonu gördü. Tez stolun arxasına keçib soruşdu:

- Yandırdınmı?

- Bəli, cənab xmbapet! Hələ bir neçə kasıb evi də Levonun evindən od alıb yandı. Xınzirəklilər üçün hələ bu azdır. Oranı tamam xaraba qoymaq lazımdır. Bizim üçün ən qorxulu kəndlərdən biri o Xınzirəkdir…

Karo bolşeviklərlə atışdığını da söylədi.

- Bolşeviklər yenəmi o kəndi tərk eləməyiblər?! – deyə Njde qışqırdı. – Bu kommunistləri Zəngəzurda yaman qudurtmusan, cənab Hamparsumyan! Həbsxana rəisi adıyla mənə təqdim elədiyin adam, dünən güllələnməyə məhkum elədiyim iki bolşeviklə bərabər qaçıb.

Karo təəccüblə dedi:

- Bu necə işdir?! Hayk Aslanyan da bolşevik imiş?!

- Bəli, bolşevik imiş, cənab Karo… Əgər qurdalasan, sən qulluğa götürdüyün adamların çoxu bolşevik çıxacaq…

- Onun qulluğa götürülməsindən mənim xəbərim olmayıb. Bu Samvel Xaçaturyanın işidir.

- Çünki başın sevgi macərasına qarışıb, dövlət işlərini başlı-başına buraxmısan. Hanı o Samvel?

- Özün tapşırıq verib Kafana göndərmisən… Cənab xmbapet, təəssüf ki, əvvəldən bilməmişəm. Yoxsa Xınzirəkdə ikən Haykın da evini yandırıb, arvad-uşağını dustaq edərdim.

- Onun arvadı sabah mənim yanımda olmalıdır!

- Baş üstə. Cənab xmbapet, mən görməmişəm, amma deyirlər ki, dünya maralıdır. Xi… xi… xi…

Njde onun üzünə ciddi baxdı. Karo eymə ağzı kimi açılmış dodaqlarını yığdı…

- Sən ki, arvad düşkünü imişsən…

- Yox, yox! Elə dedim ki, ürəyin açılsın…

Mesrop içəri girib, Saakın gəldiyini xəbər verdi.

Njde onu yanına çağırtdırdı. Keşiş bayıra çıxdı və tez Saakla qayıtdı.

Njde Saakdan nə cavab gətirdiyini soruşdu.

Saak əlini döşünə qoyub Njdeyə baş əydi, Qubatlıya necə gedib gəldiyini danışdı. Axırda dedi:

- Mənə yazılı cavab vermədilər. Sənin kağızını oxuyan adam əvvəlcə güldü, sonra dedi: «Biz, erməni bolşevikləri və yoxsul kəndliləri ilə birləşib daşnak hökumətini yıxacayıq. Njdeyə də deyərsən çox at oynatmasın…».

- Sonra?

- Dedikləri elə bu oldu.

- Yaxşı, get!

Saak otaqdan çıxdı.

Njde fikrə getdi, sonra gəlib Mesropla üz-üzə dayanaraq dedi:

- Keşiş, bu cavaba sən nə deyirsən! Axı keşişlər ağıllı, tədbirli olarlar. Mənim atam da keşiş idi, kənddə hamı onun yanına məsləhətə gələrdi.

Mesrop ağıllı və tutarlı bir söz demək istəyirmiş kimi, ağır-ağır dilləndi:

- Düşməndən bundan artıq nə cavab gözləmək olar? Onlar sənin gücünə bələd olanda ayrı cür danışacaqlar…

Njde tez yerində oturub əlini stola döyə-döyə dedi:

- Güc, güc, güc! İndiki zamanə ancaq güc zəmanəsidir. Mən nə qədər ki, canımda can var, vuruşacağam. Bütün Ermənistan qırmızılaşsa da, mən

Zəngəzurda dağlar respublikası yaradacağam! Bolşeviklərlə mübarizə üçün Antanta dövlətlərinin pulunu, silahını çəkib Zəngəzura tökəcəyəm…

- Allah, sən bizim bu xmbapetin, bu millət qəhrəmanının qoluna şir qüvvəti ver! Allah, sən onun qılıncını əlindən yerə salma! – Keşiş bir neçə dəfə xaç çəkdi. Njdeni bu saat döyüş meydanına yola salırmış kimi, dedi: - Allah, sən düşmənləri erməni millətinin hamisi olan cənab Njdenin qabağında qarışqaya döndər!..

Mesrop vaxtı ilə Karonu tərifədiyi kimi, indi də bəzəkli sözlərlə Njdeni təriflədi. Adları tarixə düşmüş qəhrəmanlarla onu bir sıraya qoydu. Nəhayət dedi:

- Erməni tarixinə görə bir dəfə Zəngəzurda Syunik adlanan padşahlıq yaranıb, sonra dağılıb… İndi ikinci Syunik padşahlığını sən qurursan, amma sənin hökumətin dağılmayacaq, çünki heç bir qüvvə sənə bata bilməz.

Mesropun dediklərini eşitmirmiş kimi, Njde başını qaldırmadan nə isə yazırdı.

Ona mane olmamaq üçün keşiş yavaşca otaqdan çıxdı.

…O günün səhəri idi. Njde Samveli dinləyirdi. Samvel Kafan fəhlələrinin mayda necə üsyan elədiklərindən və daşnak silahlı qüvvələrinin üsyanı necə yatırdıqlarından danışdı. Axırda öz tədbirlərini söylədi. Njde fəhlələrə daha ağır tənbih etmək üçün Samvelə bir neçə tapşırıq verdi. Söhbət təzəcə qurtarmışdı ki, Karo qapını açıb Şuşaniki içəri saldı.

- Cənab xmbapet, həmin xınzirəkli arvad budur.

Njde yerindən qalxıb Şuşanikə yanaşdı. Əllərini belinə vurub onu təpədən-dırnağa qədər süzdü.

Ömründə divanxana görməyən Şuşanik rəng verib rəng aldı. Njdenin vahiməli baxışlarından qorxub başını aşağı saldı.

- Başını yuxarı qaldır, düz gözümün içinə bax! – Njde onun çənəsindən tutub başını yuxarı qaldırdı. – Adın nədir?

Şuşanik Njdenin əlini çənəsindən kənara itələyib pörtmüş halda cavab verdi:

- Şuşanikdir. Məni niyə çağırmısınız?

- Ərin Hayk Aslanyan hardadır?

Şuşanik cavab vermədi. O, ərinin Musatovla Qurgeni həbsdən azad edib Gürcülüyə qaçdığını bilmirdi.

- Soruşuram ərin hardadır?

- Sizin yanınızda, Gorusda qulluq eləyir.

- O bolşevikdir, eləmi?

- Bilmirəm.

- Niyə bilmirsən? Düzünü de! Erməni qızı erməni hökumətindən heç nə gizlətməz. Ərin harda gizlənib?

Bu sorğu-sualdan bərk təşvişə düşən Şuşanik üzünü Samvelə tutdu:

- Mən bunları tanımıram… Samvel qardaş, sən bizə gəlmisən, Hayka nə olub?..

Samvel üz-gözünü turşutdu:

- Mənimlə danışma! Hamımızın böyüyü budur. – Əhvalatın nə yerdə olduğunu indi bilən Samvel ürəyində dedi: «Mən nə qələt elədim ki, Haykı qulluğa düzəltdim…».

Njde Şuşanikin yoğun hörüyünü əlinə dolayıb başını geri qanırdı, ağ və ətli yanaqlarına bir neçə sillə vurdu.

- Ata! Ata! – Şuşanikin qulaqbatırıcı səsi otaqda cingildədi.

- Atanı çağırma, köpək qızı! Bolşevik ərinin yerini de!

Şuşanik Njdenin daş kimi ağır sillələrinə davam gətirə bilməyib yenə var gücü ilə qışqırdı.

Bayırda, qapının ağzında dayanan Qazar Şuşanikin səsini eşidincə, əli silahlı keşikçinin döşündən geri itələyib içəri girdi. Qarşısında açılan mənzərədən gözləri böyüdü, nitqi tutulu.

Atasını görən Şuşanik həm qəhərləndi, həm ürəklənib dedi:

- Alçaqlar! Məni niyə döyürsünüz?

Njde Şuşanikin hörüyünü buraxıb, Qazardan soruşdu:

- Kişi, bu sənin qızındır?

- Bəli. Başına dönüm, onun günahı nədir? Niyə döyürsünüz? Divana niyə çağırmısınız?

- Sənin bu axmaq qızın demir, sən de: giyəvin Hayk Aslanyan hardadır?

- Mən də bilmirəm, ağa! O sizin…

Njde Qazarı danışmağa qoymadı:

- Hər ikisini birbaş qazamata!.. Orda dedirdərlər.

Samvel mauzerini çıxartdı:

- Düşün qabağıma!

Qazar içəridəkilərin üzünə baxa-baxa dedi:

- Ata-babadan eşitmişdik ki, hökumət adamı gərək insaflı olsun. Günahsız arvadı, mən qoca kişini qazamata salmaq sizə yaraşmaz!

- Kəs səsini! – deyə Njde qışqırdı. – Qazamata girmək istəmirsənsə giyəvinin yerini de. Sən onun yerini yaxşı bilirsən.

Qazar dillənmədi.

Njde Samvelə dedi:

- Apar!

Samvel Şuşaniki qapıya sarı itələdi.

- Dayan, səbr elə! – Qazar Samvelin qabağına keçdi. – Onu hara aparırsan? Evdə körpə uşağı var…

- Cəhənnəmə var! O da yekəlib atası kimi bolşevik olacaq. Elə deyilmi, keçi saqqal?! – Njde Qazarın yun kimi ağarmış saqqalından tutub dartdı. – Yaxşı, səni qazamata salmasam giyəvini tapıb gətirərsənmi?

- Axtararam, taparam. Qızımı da buraxın.

- Qızın bizdə girov qalacaq. Giyəvini tap gətir, qızını apar. Əgər qayıdıb gəlməsən, qızın güllələnəcək, evin yandırılacaq! Bildinmi?! Samvel, arvadı apar!

Dəhşətdən rəngi ağarmış, gözləri halqalanmış Şuşanik atasının boynunu qucaqlayıb uşaq kimi ağladı.

Samvel onun qolundan yapışıb bayıra itələdi.

Ürəyinin başına od düşən Qazar daha özünü saxlaya bilməyib qəzəblə dedi:

- Bu ki, hökumətlik olmadı! Belə insaf, belə mürvət, belə kişilik olar?!

- Çərənləmə, qoca kaftar, - deyə Njde onun üstünə çığırdı. – Get Aslanyanı tap gətir…

Köməksiz, ixtiyarsız qoca ata, gözlərində yaş, ürəyində qəm yükü kəndə yollandı. O, bütün yol uzunu qızının, balaca nəvəsinin taleyini düşündü…

## On altıncı fəsil

Ay yarımdan artıq idi ki, Azərbaycanda Şura hökuməti qurulmuşdu. Zəngəzur kommunistləri və onlarla birgə hərəkət edən partizanlar, bitərəflər Qubatlı qəzasının kəndlərinə daha gizli gedib gəlmirdilər. Onlar daşnaklara qarşı mübarizəni davam etdirmək üçün hər cür yardım alırdılar. Lakin Zəngəzuru azad etmək üçün əsas yardımı Qızıl Ordudan gözləyirdilər.

May üsyanları yatırıldıqdan sonra Qəza İnqilab Komitəsi əhalinin arzusunu, xahişini nəzərə alaraq, Qızıl Ordunu Zəngəzur zəhmətkeşlərinin yardımına çağırmaq üçün öz nümayəndələri Vahanı, müəllim Rüstəmi və Levonu Bakıya göndərmişdi. Bundan əlavə, ayrı-ayrı kəndlərdən Qarabağdakı Qızıl Ordu hissələri komandanlığına məktublar göndərilmişdi.

Nümayəndələr bu gün bir evə toplanmış adamlara Bakıdakı danışıqlar barədə məlumat verirdilər. Vahan son sözündə dedi:

- Biz Hərbi Şuraya getdik. Zəngəzur zəhmətkeşlərinin xahişini Qızıl Ordu komandanlığına yetirdik. Bizi yaxşı-yaxşı dinlədilər. Bu yaxın günlərdə şanlı Qızıl Ordu hissələri Zəngəzura yürüş etməlidir.

Yoldaşlar, hərbi kömək gələnə kimi Zəngəzurdakı partizan dəstələri daşnakları daxildən sarsıtmalıdır. Bakıda yoldaş Kirov və Nərimanovla da görüşdük. Onlar Zəngəzur partizanlarına bir qədər tüfəng-patron və paltar göndəriblər. Özləri də bizə ürək-dirək verib dedilər ki, qorxmayın, mərdanə vuruşun. Daşnak zülmünün sonuna az qalıb. Bakı fəhlələri, Azərbaycan zəhmətkeşləri öz erməni qardaşlarını döyüş meydanında tək qoymayacaqlar.

Qızıl Ordu hissələri daşnak generalı Dronun qoşununa çox ağır zərbə vurmuşdur. İnqilab komitəsinə məlumdur ki, Dro qabaqda duruş gətirə bilmir. Başına yeni əks-inqilabçı dəstələri toplamaq üçün Dərələyizə qaçmaq istəyir. O da məlumdur ki, Zəngəzurda Njde ilə birləşib Qızıl Orduya yenidən müqavimət göstərmək fikrindədir. Dronun yolunu kəsmək, təslim olmağa məcbur etmək üçün Qəza İnqilab Komitəsi bizə göstəriş vermişdir. Biz onu yerinə yetirməliyik.

Sarı rəngli bezdən tikilmiş paltarları elə oradaca adamlara payladılar. Tüfəngi olmayanlara tüfəng verdilər.

Ailəsinin başına gələnlərdən xəbəri olmayan Hayk döyüş qabağı Xınzirəyə gedib arvad-uşağını görməyə imkan tapmadığına təəssüfləndi.

Bir-iki saatdan sonra, əsgər paltarı geymiş, silahlarını çiyinlərindən asmış kommunistlər, partizanlar boy sırasına düzüldülər…

Bu balaca piyada dəstə hərbi işi hamıdan yaxşı bilən Surenin komandası altında hərəkət elədi.

Dronun məğlubiyyətini və Dərələyizə qaçdığını bilən Njde çox pərt olmuşdu. Qızıl Ordunun hər gün, hər saat hücumunu gözlədiyindən axır vaxtlar öz

rahatlığını tamam itirmişdi. O, qoşun hissələrinə hər dəqiqə hazır olmaq əmrini vermişdi. Lakin bolşeviklərin hansı tərəfdən hücum edəcəklərini bilmirdi.

İndi Njde otaqda vargəl edə-edə Dronun qarasınca deyinirdi:

- Ermənistan hökuməti sənə inandı, qırmızıların qarşısını almaq üçün Qarabağa göndərdi… Sən nə qoçaqlıq göstərdin?.. Eh, aciz, qorxaq general! Patronu, mərmini korladın, erməni əsgərlərini qırdıra-qırdıra başını götürüb qaçdın… Mən sənin kimi etməyəcəyəm. Qabaqdan qaçmayacağam…

Njde stolun arxasında oturanda Kro gəldi.

- Cənab xmbapet, icazə ver yanına bir «Sağsağan» gətirim…

Njde altdan yuxarıya Karoya baxıb dedi:

- Nə? Cənab Hamparsumyan, bəlkə qırmızılar gəlməmişdən, özünü itirib dəli olmusan? Sağsağan nədir?

Karo «Sağsağanın» kim olduğunu ona danışdı. Njdenin icazəsi ilə Şadlinskini içəri çağırdı.

Njdenin kim olduğunu Karodan əvvəlcə öyrənmiş Şadlinski əlini döşünə qoyub baş əydi, sonra gülümsəyə-gülümsəyə irəli yeriyib Njdeyə əlini uzatdı. Njde onun əlini sıxıb, oturmaq üçün yer göstərdi.

Şadlinski adını eşidib üzünü görmədiyi Njdenin sərt simasına baxıb oturdu.

- Cənab xmbapet, yəqin ki, mənim kim olduğumu cənab Hamparsumyan sizə deyib?

- Bəli. Nə xəbər gətirmisən, onu danış! Ancaq qısa!

- Bizim peşədən olan adamlar uzun danışmağı sevməzlər. Bəli, nə isə… Cənab Njde, gətirdiyim bəd xəbər üçün gərək məni bağışlayasınız, çünki…

- Qısa, dedim!..

Şadlinski bir qədər özünü yığışdırdı:

- Cənab, qısası budur ki, qırmızılar Qarabağı aldılar…

- Onu bilirəm, təzə nə xəbər var?..

- Onlar Abdallara çatıblar. Zabığ çayının sahilində yerləşiblər. Güman edirəm ki, Zəngəzura hücumu Dığ tərəfdən başlayacaqlar…

- Bax, bu təzə xəbərdir. – Njde bir an fikrə getdi. Sonra ayağa qalxıb Şadlinski ilə üz-üzə dayandı. – Dığ tərəfdən hücum edəcəklərini nədən bilirsən?

- Coğrafiyadan az-çox başım çıxır… Başqa yol yoxdur. Cənab Hamparsumyanla danışmışdıq ki, qırmızılar Şuşaya daxil olanda, mən onların içinə girim və lazımi məlumatlar toplayıb gətirim…

Karo tez onun sözünü kəsdi:

- Ancaq yubanmısan, cənab Şadlinski. Qırmızıların Zabığ çayının sahilində məskən saldıqları haqda bizdə məlumat var. Səni qabaqlayıblar… Niyə yubandın?

- Vəziyyət başqa cür oldu ki, yubandım. Cənab, general Dronun gözlənilmədən, tez məğlub olması mənim planlarımı pozdu…

- Qırmızıların əhali ilə rəftarı haqqında bir şeyə öyrənə bilmirsənmi?

- Bəli, cənab Njde, öyrənmişəm. Tutduqlarını kəsirlər. Eşitmişəm ki, bəylərdən bir neçəsini güllələyiblər… Nə isə, deyir, qurddan qorxan qoyun saxlamaz. Biz öz ideyamızda, məsləkimizdə möhkəmik. Sən özün mənə tapşırıq ver.

Njde ağzını açıb nə isə demək istəyirdi ki, rəngi-ruhu qaçmış Mesrop tələsik içəri girdi:

- Cənab xmbapet, ordu zabitlərindən biri gəlib, səni təcili görmək istəyir.

- De, gözləsin.

Mesrop getdi.

- Cənab Şadlinski, sən də get, öz işində ol. Bundan sonra yaxşı xidmət göstərsən, məndən mükafat alacaqsan. Mənə elə məlumat gətir ki, onun əsasında qırmızılara ölümcül zərbələr vura bilək.

- Baş üstə, - deyə Şadlinski Njdeyə baş əyib Karo ilə bərabər otaqdan çıxdı.

On-on beş dəqiqədən sonra Njde də bayıra çıxdı. Eyvandan keçib gedəndə, qızının balaca oğlunu qucağına alıb bir küncdə dayanmış Qazar onun qabağını kəsdi.

- Ağa, nə qədər elədim, məni yanına buraxmadılar. Mən…

Njde onun üstünə qışqırdı:

- Gödək elə, giyəvini tapıb gətirmisənmi?

- Özünü tapa bilməmişəm. Yanına bu balaca uşağı gətirmişəm, buna rəhmin gəlsin. Anasız dura bilmir. Ağlayır, özünü öldürür… Yəqin ki, qızımın da bağrı indi qazamatda çatlayır…

- Heyif ki, tələsirəm, yoxsa səninlə yaxşı haqq-hesab çəkərdim. Sürük burdan! Hayk Aslanyanı tap gətir, qızını buraxım.

Qazar Njdenin ətəyindən yapışıb yalvarmağa başladı. Njde onu sinəsindən elə itələdi ki, arxası üstə yerə sərildi. Uşaq qışqıra-qışqıra ağladı. Qoca Qazar daşa dəyən ombalarının ağrısını unudaraq:

- Ağlama, bala, ağlama! – deyə cod əli ilə nəvəsinin göz yaşını sildi…

Keşikçi Qazarı eyvandan qovdu.

Njdedən mərhəmət görməyən Qazar kor-peşman kəndə qayıtmağa məcbur oldu…

Qapının ağzında dayanmış cavan bir keşikçi ona tərəf gələn iki adama «Dayanın! Yaxına gəlməyin!» deyə əmr etdi.

Comərdlə Suren yerlərində dayandılar. Özlərini ona müxtəsər nişan verib, polk komandirlərini görəcəklərini söylədilər.

Keşikçi getdi. Bir-iki dəqiqədən sonra qayıtdı, onların içəri keçmələrinə icazə verdi.

Comərdlə Suren daşdan tikilmiş birmərtəbəli yaraşıqlı evin dəhlizinə tərəf addımladılar. Bu ev, Qırmızı Ordunun gəlməsindən qorxub hara isə qaçmış yüzbaşının evi idi. İndi isə atıcı polkunun qərargahı olmuşdu.

Comərd qapını açıb:

- İcazə var? – dedi.

Divara yapışdırılmış xəritəyə baxan hərbi adam tez geri çönüb:

- Buyurun! – dedi və onlara tərəf addımladı.

Uca boylu, uzun bığlı, şleminin qabağına beş guşəli ulduz tikilmiş polk komandirini onlar tanıdılar.

- Oho! Andrey Pavloviç! – deyə Suren ona əlini uzatdı. – Biz yenə də görüşdük…

Hər üçü səmimiyyətlə görüşüb oturdu.

- Bəli, dağ dağa qovuşmaz, adam adama qovuşar. Mənə keşikçi dedi ki, iki partizan içəri gəlməyə icazə istəyir… Deməynən, mənim dostlarım imiş… Bu görüş təsadüfi olsa da, çox gözəl oldu…

- Biz bunu təsadüfi görüş adlandıra bilmərik! – deyə Comərd güldü. – Qızıl Ordunun yolunu səbirsizliklə gözləyirdik.

- Özü də hər gün, hər saat! – deyə Suren Comərdin sözünə qüvvət verdi. – Bütün Zaqafqaziya xalqları gözünü Qızıl Orduya dikmişdi.

- Ordumuz da öz vəzifəsini yerinə yetirir. Azərbaycanda Şura hakimiyyəti qurulmasına yardım edən qoşunlarımız, Gürcüstan və Ermənistan zəhmətkeşlərinə də öz kömək əlini uzadacaqdır. Yeri gəlmişkən onu deyim ki, Bakıdan, Hərbi Şuradan göstəriş alınıb ki, hissələrimiz zəngəzurluların köməyinə getsin.

Suren dedi:

- Biz Zəngəzur zəhmətkeşlərinin xahişi ilə bura gəlmişik. Əhali Qızıl Ordudan kömək gözləyir. General Dronun məğlubiyyəti camaatı sevindirmiş, daşnakların içinə böyük vəlvələ salmışdır…

Gerasimov qəzet kağızı ilə maxorkadan yoğun bir papiros eşib damağına aldı və çəkə-çəkə soruşdu.

- Yerli kommunistlər, partizanlar necə fəaliyyət göstərirlər?

Comərd Zəngəzurda gedən mübarizələrdən, may üsyanlarından, ayrı-ayrı kəndlərdə Şura hakimiyyətinin qurulub, sonra daşnaklar tərəfindən dağıdılmasından ətraflı danışdı.

Suren kommunist dəstəsinin Droya qarşı necə silahlı çıxış etdiyini nağıl elədi. Axırda dedi:

- Daşnak generalına birinci zərbəni Qızıl Ordu, ikinci zərbəni Zəngəzur kommunist dəstələri vurdu. İndi o, aradan çıxarda bildiyi az-çox qoşunu ilə Dərələyizdədir. Güman etmək olar ki, dişlərini təzədən Qızıl Orduya qıcıdacaqdır.

Gerasimov gülə-gülə dedi:

- Qızıl Ordu onun kimi çox generalın dişlərini sındırıb.

Comərd dilləndi:

- Biz bundan sonra necə hərəkət etməliyik? Qızıl Ordu hissələri ilə birlikdə, yoxsa ayrı-ayrı? Bu məsələni həll etməliyik.

- Bu barədə danışarıq, - deyə Gerasimov papirosdan dalbadal iki qullab vurub kötüyünü kənara atdı. Siz hələlik kənddə olun. Bir saatdan sonra gəlin yanıma, mən də o vaxta kimi komandanlıqla danışaram.

Surenlə Comərd gedəndən sonra Gerasimov yenə xəritəyə baxmağa başladı. O, Gorusa hücum eləmək üçün əlverişli yol seçmək istəyirdi…

Keşikçi gəlib Gerasimova bir kəndlinin çox vacib iş üçün onu görmək istədiyini söylədi.

Gerasimov özü bayıra çıxdı.

Kəndli Gerasimovu görən kimi irəli yeridi, əlini sinəsinə qoyub baş əydi, sonra gülə-gülə dedi:

- Salam, yoldaş komandir. Axırda ki, camaat öz arzusuna çatdı. Səbirsizliklə gözlədiyimiz Qızıl Ordu gəlib çatdı…

- Sən kimsən? Mənimlə nə işin var? – deyə Gerasimov kəndliyə diqqətlə baxdı.

- Mən zəngəzurluyam. Sisyan mahalının Uz kəndindənəm. Erməniyəm. Bizim Sisyan kəndliləri çox pis yaşayırlar, yoldaş komandir. Daşnaklar yaman zülm eləyirlər. Kəndlilər məni Zəngəzur İnqilab Komitəsinin üzvü kimi sənin yanına göndəriblər ki, öyrənib onlara xəbər aparım: Zəngəzura nə zaman gələcəksiniz? Hamı sizin yolunuzu gözləyir. Mən Qızıl Orduya bələdçilik eləyib yol göstərə bilərəm. Xaraba qalmış bizim bu yerlər dağlıq, qayalıqdır. Hə, nə isə, mən kəndlilərə nə xəbər aparım? Vallah, siz Zəngəzura qədəm qoyanda kəndlilər ayaqlarınızın altında qurbanlar kəsəcəklər.

Gerasimov soruşdu:

- Sən rus dilini hardan belə gözəl bilirsən?

- Bakıda neft mədənlərində işləyəndə öyrənmişəm. Kəndə gələndən hələ yadırğamışam… Mən Nikolayın əleyhinə fəhlə yığıncaqlarında elə rusca danışardım ki, qulaq asanların ağzı əyilə qalırdı… Hə, yoldaş komandir, istəsəniz sizə mütərcim də ola bilərəm…

- Savadın varmı?

- Yox. Atam kasıb olub, oxuda bilməyib. Günüm fəhləlikdə, kəndçilikdə keçib.

Gerasimov birdən soruşdu:

- Zəngəzur İnqilab Komitəsinin sədri kimdir?

Kəndli özünü eşitməməzliyə vurdu. Gerasimov bunu hiss elədisə də, özünü o yerə qoymayıb kəndlini içəri dəvət elədi. Hər ikisi otağa girdi. Gerasimov soruşdu:

- Yanında bir sənədin varmı?

- Bəli, var. Yoxsa şübhələnirsən? – O, gülüb əlavə elədi: - Mən çox şadam ki, bizim qırmızı komandir belə ayıqdır, - kəndli yenə gülə-gülə cibindən bir kağız çıxarıb Gerasimova uzatdı. – Al, oxu!

Gerasimov oxudu:

«Həmin vəsiqə verilir Vahan Qazaryana ondan ötrü ki, məzkur yoldaş aktiv partizan olmaqla bərabər, eyni zamanda Zəngəzur Qəza İnqilab Komitəsinin üzvüdür…».

- Qol çəkənin kim olduğunu oxuya bilmədim, imza qarışıqdır, - deyə Gerasimov vəsiqəni ona qaytardı.

- Yoldaş komandir, deyəsən axı bir balaca şübhələndin? – deyə kəndli güldü. – Şübhə, əlbəttə, hərdən pis şey deyil. Həqiqəti meydana çıxartmaq üçün sən doğru hərəkət elədin. Biz inqilabçılar sadəlövhlük eləyib, hamının sözünə inana bilmərik. Bu inqilab dövründə özünü min şəklə salan, min dil oxuyan düşmən içimizə asanlıqla soxula bilər…

Gerasimov bir tərəfdən hissinin onu aldatdığına təəssüf etdisə, ikinci tərəfdən kəndlini həbs etmədiyinə sevindi. Ancaq nədənsə ürəyi yenə arxayın olmadı.

- Sizin inqilab komitəsi hansı kənddədir? – deyə soruşdu.

- Demək olar ki, hər kəndin özünün inqilab komitəsi var.

- Mənim sualıma doğru cavab ver. Bu vəsiqəni sənə verən qəza inqilab komitəsi hardadır? Biz onunla əlaqə saxlamalıyıq…

- Əlaqəni nə cür saxlamaq istəyirsiniz? Bəs mən nə üçün gəlmişəm? Bizim söhbətimiz canlı əlaqə deyilmi?

Gerasimov daha sorğu-sualla məşğul olmaq istəmədi. Həqiqəti aydınlaşdırmaq üçün onu həbs etməyi qərara aldı. Kəndli isə düşdüyü tələdən xilas olmaq üçün dedi:

- Mən gedirəm. Qızıl Ordunun tezliklə Zəngəzura daxil olmasını gözləyirik…

- Gedə bilməyəcəksən! Səni həbs edirəm! – deyə Gerasimov tapançanı dərhal ona tuşladı.

Kəndli yenə arxayın-arxayın gülərək dedi:

- İkinci vəsiqə səni hər şübhədən qurtarar, yoldaş qırmızı komandir. – O, əlini qoltuq cibinə salanda Comərdlə Suren içəri girdi… Kəndli onları görcək başını aşağı saldı.

Comərdlə Suren əlində tapança olan Gerasimovu və onun qarşısında başını aşağı salaraq dayanmış qara pencəkli, qara şalvarlı, yekə, boz papaqlı kəndlini görüb təəccübləndilər.

- Bu kəndlini tanıyırsınızmı? – deyə Gerasimov onlara müraciət elədi.

- Bu saat, görək kimdir. – Comərd kəndliyə yaxınlaşdı. – Üzünü niyə gizlədibsən? – Comərd onun başını yuxarı qaldırdı. – Aha, bu ki, cənab Şadlinskidir!

Suren də gülərək dedi:

- Yoldaş Gerasimov, bu bizim köhnədən, Nikolay vaxtından «dostumuzdur». Bu cənab çox «mahir» casusdur…

Comərd Şadlinskinin kim olduğunu Gerasimova danışdı.

Gerasimov tapançanı qoburuna qoyub Şadlinskini axtardı. Cibindən yalançı vəsiqəni və naqanı çıxartdı, tapançanı stolun üstünə qoyub vəsiqəni Comərdə verdi:

- Oxu!

Comərd ucadan oxudu, qəhqəhə ilə gülərək:

- «Əhsən» Şadlinski! – dedi. – İnqilab düşməni, inqilab komitəsinin üzvü imiş… Eybi yoxdur. Su qabı suda sınar. Axır ələ keçdin, cənab Şadlinski. De görək, indi kimə casusluq edirsən? Nikolay da öldü, müsavat da. Səni Qızıl Ordunun içinə kim göndərib?

Şadlinski dillənmədi.

Suren dedi:

- Yəqin ki, indi də daşnakların, ya da Antantanın casusudur.

Tələyə düşmüş siçan kimi qurtuluş üçün imkan axtaran Şadlinskinin gözü o yanı, bu yanı gəzdi. O, bu dəqiqə bir milçək olub havaya uçmaq, bir ilan olub deşiyə girmək, bir qara daş olub lal, kar yerində qalmaq istərdi. Şadlinski susdu, danışmaq istəmədi. Lakin qorxu onun dilini açdı.

- Bolşeviklər, mənim sənətim casusluqdur; siz məni ifşa elədiniz… Mən onsuz da bir gün ələ keçəcəyimi, öləcəyimi bilirdim. Ancaq mən indi heç kimin casusu deyiləm. Antantanı görməyə gözüm yoxdur. Daşnaklara isə etibarım yoxdur. Onlardan hökumət olmaz. Casus isə möhkəm bir dövlətə arxalanmasa işləyə bilməz. Mən aralıqda avara qala bilməzdim. İndi, bu inqilab zamanında olmasa da, sonralar Şura hökuməti məni ifşa edəcəkdi. Ona görə, bura gəlməkdə qəsdim, özümü Qızıl Orduya təslim vermək idi. Bu niyyətimi əvvəldən

deməməyim, açıqdan-açığa özümü bildirməməyim isə aldığım təlim, tərbiyədəndir. İndi mənə nə cəza istəyirsiniz verin. Ancaq bütün Rusiyanı sarsıdan inqilabın xeyrinə işləsəm, özümü xoşbəxt bilərəm. Keçdiyim yollara nifrət elərəm. Güman edirəm ki, siz mənə aman verib öz xeyriniz üçün istifadə edə bilərsiniz…

Şadlinski susdu. Sözlərinin necə təsir etdiyini bilmək üçün gah ona, gah buna nəzər saldı.

Gerasimov soruşdu:

- Yoldaşların kimdir?

- Mən əvvəldən tək olmuşam.

Gerasimov bayırda dayanan qızıl əsgəri içəri çağırıb dedi:

- Dustağı aparın.

Öz hiylələri ilə ölümün ağzından neçə dəfə çıxmış Şadlinski bağırdı:

- Bolşeviklər, amandır, mənə rəhm eləyin! Ruslar rəhmdil olurlar, balalarıma yazığın gəlsin, komandir!..

- Gedək!.. – deyə əsgər onun qolundan tutdu.

Şadlinski dartınıb Comərdin ətəyindən yapışdı:

- Comərd, axı nə qədər pis olsam, yenə sənin öz millətindənəm!.. Məni xilas elə, Comərd! Bu yaxşılığı heç vaxt unutmaram.

Comərd ətəyini onun əlindən çıxardaraq dedi:

- Sən mənim millətimin bayquşusan! Müsavatçı, alçaq!..

Şadlinski özünü güllənin qabağına verməmək üçün son hiyləyə əl atdı:

- Ah, ürəyim ağzımdan gəlir!.. – deyə o dəqiqə tirəmeş yerə uzandı. Bütün bədənini əsdirdi…

Qızıl Ordu hissələri Dığ və İnzerak tərəfdən Zəngəzura hücuma keçmişdi. Zəngəzur partizanları Gerasimovun komandir olduğu polkla birləşmişdilər.

Üç gün idi ki, şiddətli müharibə gedirdi. Bu müddət ərzində bir çox kənd daşnaklardan azad edilmişdi. İstiqamət Gorusa doğru idi. Qızıl əsgərlər durmadan irəliləyirdilər. Lakin buna baxmayaraq, Karonun  komandası altında daşnak qoşun hissəsi inadla vuruşurdu.

…Gecə bir qədər sakitləşmiş döyüş, bu gün erkən yenidən qızışdı. İyul günəşi çeşt yerinə qalxana kimi, Keçəldağ və onun sağ-solundakı kiçik dağlar, təpələr, düzənlər qırmızıların əlinə keçdi. Bu yerlərdən Gorus əl içi kimi görünürdü. Komandanlığın göstərişinə əsasən, şəhər dağılmasın və əhalisi qırılmasın deyə, topçular mərmiləri onun ətrafına yağdırırdılar. Düşmən mərmiləri isə qırmızıların səngərlərinin yan-yörəsində partlayırdı.

Hər iki tərəfdən atılan güllələrin vıyıltısından, pulemyotların şaqqıltısından, topların gurultusundan qulaq tutulurdu.

Qızıl əsgərlər səngərlərdən hücuma qalxıb tutarlı bir zərbə də endirsə idilər, daşnaklar bəlkə də mövqelərini buraxıb qaçmağa məcbur olacaqdılar….

Lakin bir təpənin döşündə səngərə girmiş partizanları mühasirəyə almaq üçün daşnaklar sağ cinahdan hücuma keçdilər.

Əlində tapança olan bir daşnak zabiti nə isə çığıra-çığıra qabağa yüyürəndə Surenin gülləleri onu yerə uzanmağa məcbur etdi. Lakin o, yenə  qalxdı…

Əri ilə bir səngərdə, çiyin-çiyinə vuruşan Siranuş təlaşla dedi:

- Ora bax, yenə düz bizə tərəf gəlirlər, Suren!..

Suren arvadına gözucu baxıb dedi:

- Yoxsa qorxursan, Siranuş?

- Özümdən yox, səndən… Kaş bu davadan sağ-salamat qurtaraydın!..

- Nə mənim fikrimi elə, nə də öz fikrini. At! At!..

Hər ikisi zabiti nişan aldı.

Zabit küləkdən yellənən bir budaq kimi irəli əyilib geri getdi, sonra şalban təkin şappıltı ilə arxası üstə yerə yıxıldı. Onun dalınca ayağa durub hücuma keçmək istəyən daşnaklar tez yerə uzandılar…

- Zabiti sənin güllən öldürdü, Siranuş? – deyə Suren gülümsündü və tez tüfəngini patronlamağa başladı…

- Yox, sənin güllən…

Onlar yerə yatmış daşnak əsgərlərini gözdən buraxmayıb güllələri onlara tərəf yağdırdılar…

Levon sürünə-sürünə gələn iki daşnak əsgərinə qışqırdı:

- Hara gəlirsiniz, ilanlar! – O, birini nişan aldı. Ondan bir az aralıda uzanmış Camal da tüfəngini ikinci daşnaka yönəltdi. Onun nişan aldığı əsgər o dəqiqə yerində balıq kimi partladı… O biri əsgər yerdən qalxıb dalına baxmadan qaçmağa başladı. Bunu görən Yusif onu nişan aldı. Vahan Yusifi ürəkləndirmək üçün:

- At, balaca partizan! – dedi. – At, gözünə dönüm! – Vahan özü də səngərdən çıxıb sağ dizini yerə qoyaraq, qaçan daşnakı gülləyə tutdu…

Hayk, Rüstəm, Qiyas, Sergey, Qurgen əkshücuma keçmək üçün hərəsi bir səngərdən, bir daşın dibindən ayağa qalxdı. Əyilə-əyilə addımladılar. Lakin qarşılarında bir mərmi partladı. Onlar toz-duman içində itdilər…

Bir gözü düşməndə, bir gözü isə aralıda, qayanın dalından daşnaklara güllə yağdıran ərində olan Növrəstə, daşnak əsgərlərinin arxadan oğrun addımlarla Şahmərdana yanaşdığını gördü. Əsgər süngünü onun kürəyinə sancmaq üçün yuxarıya qaldıranda, Növrəstənin gülləsi açıldı. Daşnak səndələdi, tüfəngi əlindən yerə düşdü, özü isə aşıb Şahmərdanın qabağına sərildi. Şahmərdan çevrilib geri baxdı, təkcə Növrəstəni gördü. Növrəstə dillənmədi. Şahmərdan da heç bir söz demədi, lakin həyatını ölümdən qurtaran Növrəstəyə ürəyində təşəkkür etdi…

Növrəstənin də xəyalından bir şey keçdimi? Şahmərdanın heç olmasa bu ölüm-dirim meydanında onunla barışmasını arzuladımı? Kim bilir. Amma o, Şahmərdanı keçmiş əri olduğu üçün yox, azadlıq uğrunda çarpışan bir mübariz, bir kommunist kimi sevirdi…

Ara getdikcə qızışır, döyüş getdikcə şiddətli və dəhşətli bir vəziyyət alırdı. Güllü-çiçəkli dağlara, yamyaşıl yastanlara daha çox qan tökülürdü, səngərlərdən, daşların dibindən, düzənliklərdən inilti, sızıltı səsləri ucalırdı. Adama elə gəlirdi ki, bu qanlı döyüş meydanından bir nəfər də sağ qurtarmayacaq; əlinə silah alıb davaya girmiş insanların həyatı sanki bir tükdən asılı idi…

Elə bil ki, gecə ilə gündüz, fəlakətlə səadət üz-üzə durmuşdu…

Gurultusu dağlara, dərələrə düşən «ura» səsi yüksəldi. Zəncir kimi açılıb, düşmən üstünə yeriyən rus əsgərlərinin qabağında təcrübəli komandir Gerasimov gedirdi.

Daşnaklar, üstlərinə sel təkin axan qızıl əsgərlərin hücumunu dayandırmağa can atdılarsa da, bacarmadılar. Bu hücum onların arasında çaxnaşma saldı. Hər əsgər öz başının hayına qaldı. «Geri çəkilməyin! Qaçanları özüm güllələyəcəyəm!» deyə qışqıran Karonun hədə-qorxusuna qulaq asan olmadı…

Piyada qızıl əsgərlər Gorusun lap yaxınlığındakı təpələri tutdular. Pulemyotçular pulemyotları həmin təpələrin başında qurdular. Topçular öz yerlərini dəyişib yeni mövqe tutdular. Qılıncları günəş altında şimşək kimi parıldayan qızıl süvarilər pərakəndə halda qaçan daşnak əsgərlərini Gorus çayına qədər qovdular…

Gün batdı. Tüfəng qarovuldan düşdü. Hər iki tərəfdə döyüş əməliyyatı dayandırıldı.

…İşıqlaşanda kəşfiyyatçılar komandanlığa xəbər gətirdilər ki, Gorusda heç bir hərbi qüvvə yoxdur. Daşnaklar gecə ikən qaçıblar. Səhərin gözəl çağında, qələbədən ruhlanmış qızıl əsgərlər və partizanlar şəhərə daxil oldular.

Bir müddət küçələrdə, həyətlərdə, meydanda şəhər əhlindən bir nəfər belə görünmədi. Çünki daşnaklar əhali arasında təbliğat aparmışdılar ki, Zəngəzura hücum edən Qızıl Ordu deyil, müsəlmanlar, müsavatçılardır. Əgər onlar şəhərə girsələr, ermənilərdən intiqam alacaqlar. Məmə yeyəndən, pəpə yeyənə kimi hamını qıracaqlar.

Kommunistlər meydana, küçələrə qırmızı bayraqlar vurdular. Şəhərə girən hərbi qüvvənin kimlərdən ibarət olduğunu bilmək üçün tək-tək adamlar evlərdən çıxdılar. Onlar rus əsgərini, onların arasında da silahlı erməniləri və azərbaycanlıları gördülər. Gələnlər heç kimi nə öldürür, nə də evini qarət edirdi…

Kişilər, arvadlar, uşaqlar meydana axışıb gəldilər. Qızıl əsgərlər meydanın bir tərəfində sıra-sıra dayanmışdılar.

Vahan əhaliyə müraciətlə nitq söyləyib axırda dedi:

- Bu gündən sonra bütün qəzada Şura hakimiyyəti elan olunur. Hamı qırmızı inqilab bayrağının altında azad yaşayacaqdır!..

Ura və alqış səsləri meydanı titrətdi.

İnqilab komitəsi və komandanlıq dərhal dustaqların həbsxanadan azad edilməsi, yaralılar üçün ev hazırlanması, şəhərin asayişini gözləmək üçün patrullar təyin edilməsi kimi, bir sıra təcili tədbir gördü…

…Hayk, Qurgen və bir qızıl əsgər Gorus həbsxanasında saxlanan dustaqları azad etməyə getdi.

Açarları tapmadıqları üçün onlar kameraların qapısını sındırmalı oldular.

Bəzi kameralarda öldürülmüş, bəzilərində yaralanmış, bəzilərində bihuş halda döşəmənin üstündə düşüb qalmış adamları gördülər. Elə bil ki, əsl müharibə həbsxanada olmuşdu.

Sağ qalmış dustaqların dediyinə görə, daşnaklar dustaqlara bu cür divanı dünən tutmuşdular. Njdenin əmri ilə siyasi dustaqlar öldürülmüş, qalanlarına isə cəza verilmişdi.

Haykla Qurgen zindandan qurtardıqları adamlara daşnak quruluşunun dağıldığını, Şura hakimiyyətinin qurulduğunu söylədilər.

Qaranlıq zindandan işıqlı dünyaya çıxan adamlar öz xilaskarlarına təşəkkür edib sevinə-sevinə evlərinə, kəndlərinə yollandılar.

Hələ açılmamış iki kamera qalırdı. Hayk onlardan birinə, Qurgenlə qızıl əsgər də o birinə tərəf getdi.

Qurgen və qızıl əsgər kameraya yaxınlaşanda, «bala vay, oğul vay!» deyə ağlayan bir arvadın tükürpədici səsini eşitdilər. Qapını sındırıb içəri girdilər.

Bucağa qısılıb oturmuş arvad qulaq batırıcı bir səslə qışqırdı:

- Siz Allah, daha məni döyməyin! Siz Allah, məni öldürməyin!

Qurgen dedi:

- Biz səni döyməyə yox, qazamatdan buraxmağa gəlmişik. Qorxma! De görək kimsən, haralısan?

Arvad inanmadı, gələnlərin daşnak olduqlarını və onu bu dəfə istintaqa yox, öldürməyə aparacaqlarını zənn edərək, daha bərk büzüşdü, sanki bir qarışqa olub zalimlərin əlindən divarın deşiyinə girmək istədi.

- Məni öldürməyin, evdə körpəm var… yazığınız gəlsin…

Yazıq arvad, yazıq ana! O, yəqin ki, həbsxanaya düşəndən yüz dəfə belə yalvarmış, inləmiş, lakin kimsədə insaf, mürvət görməmişdi…

- Ay bacı, biz daşnak deyilik. Dur get evinə! – deyə Qurgen onun qolundan tutub yuxarı qaldırdı.

Arvad gah Qurgenin, gah qızıl əsgərin üzünə baxıb ağlaya-ağlaya dedi:

- Məndən nə istəyirsiniz?!.. Mən onun yerini bilmirəm. Məni öldürməyin, körpəmi yetim qoymayın…

O biri kameradan dustaqları azad etmiş Hayk gəldi.

Döyülməkdən sifəti göyərmiş, yaralanmış Şuşanik ərini görcək:

- Hayk, sənsən?! – deyə zəif qollarını onun boynuna dolayıb hönkürdü…

- Şuşanik! Yazıq Şuşanik! Sən də burada imişsən? – Hayk arvadını bərk-bərk sinəsinə basdı…

Qurgen və qızıl əsgər heyrətdən donub qaldılar.

Dəqiqələr keçdi. Ərinin qolları arasında bayılmış Şuşanik özünə gəldi. Hayk arvadının qara, uzun kirpiklərindən süzülən göz yaşlarını sildi. Şuşanikin gözləri aydın səmadakı ulduzlar kimi güldü. O, həbsxanaya salındığının səbəbini ərinə və onun yoldaşlarına danışdı.

Qurgen dedi:

- Görürsənmi, Hayk, Şuşanik bacının belə əzab çəkməsinə səbəb Sergeylə mənəm. Bizi qazamatdan qurtardın, amma öz arvadını bəlaya saldın…

Onlar həbsxanadan çıxdılar.

Şuşanik quş kimi qanadlanıb balaca oğlunun və gözü yolda qalan atasının yanına uçmaq istəyirdi…

Səhər saat doqquz olardı. Günəşin isti, oynaq şüaları pəncərədən düşüb Şahmərdan yatan otağı işıqlandırmışdı.

Həkim Arakel Şahmərdanın sol baldırındakı yaranı sarıyandan sonra onun sağ biləyindəki yaranı sarımağa başladı. Şahmərdansa sözünə davam edib dedi:

- …Bəli, Növrəstə məni bir dəfə ölümdən qurtardı…. Sonra ara qızışdı… Gördüm ki, üç daşnak əsgəri üstümə gəlir. Onlar mənə, mən onlara – bərk atışdıq… Birini vurdum. O birilərini də gülləyə tutdum, yaxına gəlməyə qoymadım… Birdən sağ biləyimdən güllə dəydi. Tüfəng əlimdən düşdü… Düşmən əlinə diri-diri keçməmək üçün səngəri tərk eləmək istəyirdim ki, yanımda top gülləsi partladı. Daha sonra başıma nə hadisə gəldiyini bilmədim. Bir də gözümü açıb özümü bir qayanın dibində gördüm. Yanımda da bir qızıl əsgər oturmuşdu. Onda bildim ki, ayağım da yaralanıb.

Arakel Şahmərdanın biləyini də sarıyıb qurtardı, yorğanı onun üstünə çəkə-çəkə dedi:

- Qızıl gül tikansız olmadığı kimi, azadlıq da qurbansız olmur, həm bizim öz yerlilərimiz, həm də Qızıl Ordu Zəngəzurun azadlığı uğrunda öz sıralarından qurbanlar verdi. Onların məzarı döyüşdükləri dağların, təpələrin, yastanların sinəsində qazıldı. Yaralananlar da çox oldu. Sən də onlardan birisən. Narahat olma, tez sağalacaqsan. Xoşbəxtlikdən güllə sümüyə dəyməyib…

- Narahat deyiləm, doktor. Ancaq məni düşmən əlinə keçməyə qoymayan adamı bilsə idim yaxşı olardı.

- Onu da bilərsən, indi yat dincəl. Mən də o biri yaralılara baş çəkim, - deyə Arakel otaqdan çıxdı.

Şahmərdan gözünü pəncərəyə dikdi. Bir qədər yaşıl ağaclara baxdı, budaqdan-budağa uçan sərçələrin civ-civinə qulaq asdı. İndiyə kimi keçdiyi mübarizə yolu uzun bir lent kimi gözünün qabağından gəlib keçdi. O, çəkdiyi əzab-əziyyətə təəssüflənmirdi. Yüz canı da olsaydı, məqsədinin uğrunda qurban verməyə hazır idi. Lakin onu mənəvi cəhətdən sıxan ailə məsələsi idi. Növrəstəni hər dəfə görəndə köhnə yarası qövr eləyirdi. Bütün olanları unudaraq, Növrəstə ilə barışmağa cəsarət etmirdi. Döyüş meydanının od-alovu içində Növrəstə onu ölümdən qurtardığı vaxtda da arvadını danışdırmadı. Heç olmasa, bir quru «sağ ol» da demədi… Namus sanki dilini-ağzını bağladı…

Şahmərdan çox fikirləşdi, nəhayət yorulub yuxuya getdi. Onun qaşları çatılmış, alnı qırışmışdı. Sifəti çox tutqun və qəzəbli görünürdü. Bəlkə o yenə döyüş meydanında düşmənlə vuruşurdu? Bəlkə yaraları onu incidirdi? Bəlkə Növrəstə ilə üz-üzə gəlmişdi?

Bayırda qapının ağzında isə Siranuş rəngi ağarmış Növrəstəyə deyirdi:

- Keç içəri, utanma.

- Ürək eləmirəm…

- Onda niyə gəlirdin?

- Nə bilim… Sən dedin, sözünü yerə salmadım. Elə ürəyim də «get» dedi. İndi utanıram. Yox, yox… O mənə nə deyər?..

- Nə deyəcək, ay qız. Utanma, otağa gir! Kefini soruş.

- O məni danışdırmaz, Siranuş!..

- Neynək, o danışdırmasa, sən danışdır. Onu, Surenlə ölümdən necə qurtardığınızı danış, qoy bilsin…

- Bilir…

- Axırıncı əhvalatı bilmir. De ki, əzizim Şahmərdan, top gülləsi üstünü torpaqla örtmüşdü. Sənin harayına mən gəldim. Torpağın altından çıxartdım.

Mənim də köməyimə Suren gəldi. İkimiz də bir yerdə səni aparıb kənarda, bir qayanın dibində qoyduq…

- Yox, Siranuş, yox… Mən belə sözləri deyə bilmərəm, üzümdən gəlməz…

- Yaxşı, yaxşı, gir içəri!

- Sən gir, Siranuş. Mən geri qayıdıram.

Siranuş onun qolundan yapışıb dedi:

- Ay qız, sən nə təhər adamsan? Elə bil ki, düşmənlərin gözünə ağ salan iyid Növrəstə deyilsən… Şahmərdan qardaşın kefini soruşmaq üçün yoldaşların hamısı gəlir, sən də ol onların biri.

Siranuş qapını yavaşca açıb Növrəstəni ehmalca qabağa itələdi.

- Gir içəri!

Hər ikisi otağa girdi.

Şahmərdan yuxudan oyanmamışdı. Onlar ayaqlarının ucunda yeriyib pəncərənin qabağında durdular. Siranuş Növrəstənin qulağına pıçıldadı:

- Biz əli boş gəlməkdə yaxşı iş görməmişik. Sən burda dur, mən heç olmasa bağçadan bir dəstə gül yığım…

- Mən də gedirəm… Sənsiz burda nə işim var?!

- Yox, sən qal. Mən bu saat gəlirəm. Şahmərdan qardaş oyananda, görsün ki, biz onun yanına gül ilə gəlmişik. Sevinsin, ürəyi açılsın…

Siranuş otaqdan elə tez çıxdı ki, Növrəstə daha bir söz deməyə imkan tapa bilmədi.

Növrəstə əllərini qoynuna qoyaraq, gözünü ona həm yaxın, həm uzaq, həm doğma, həm yad olan adama dikdi.

Birdən-birə Növrəstənin yanaqları qızıl gül kimi niyə qızardı? O, niyə köksünü ötürüb geri çevrildi? Yoxsa bağçada ötən quşların səsi onu cəlb etdi? Yoxsa Şahmərdana baxmaqdan utandı? Yox, birdən ağlına gəldi ki, Siranuş onu aldatdı, qəsdən gülü bəhanə edib getdi…

Növrəstə Şahmərdanın çarpayısına yaxınlaşmaq, onun yaralı əlini götürüb öz ürəyinin üstünə qoymaq istədi. Demək istədi ki: «Məni bu otağa gətirən bax bu dəli-divanə ürəyimdir, Şahmərdan! O, qanlı cəbhədə, düşmənlər qarşısında titrəməyib, amma eşqin gücü… Mən eşq deyəndə, səni düşünürəm… Mən eşq deyəndə, Bakıdan gələcəyini həsrətlə gözlədiyim illər yadıma düşür. Mən eşq deyəndə, kəndimiz Şəkini, per-pencər yığdığımız güneyləri, Şırşırın yanında oturub şirin-şirin söhbət elədiyimiz xoşbəxt çağları xatırlayıram. Mən eşq deyəndə, elə beş gün bundan qabaq çiyin-çiyinə vuruşduğumuz cəbhə gözümün qabağında durur… Mənim dərya eşqim bir ləkəni yuyub apara bilmirmi, Şahmərdan?»

Lakin Növrəstə yerindən tərpənə bilmədi. Dizləri uçundu, otaq başına fırlandı. Əllərilə üzünü tutub hönkürdü…

Şahmərdan yuxudan oyandı.

- Ağlayan kimdir? – deyə saçlarını gözlərindən kənar edəndə, asta-asta qapıya sarı gedən Növrəstəni gördü. Ona elə gəldi ki, bəxtinin dan ulduzu otaqda parlayır, o getsə dünya gözündə zülmətə dönəcək. – Sən niyə ağlayırdın? Geri qayıt, yaxın gəl.

Növrəstə geri çönüb dedi:

- Sənin yaralandığına…

- Yaralarım ağır deyil… Ürəyim od tutub yanır… Burda içməyə su da yoxdur… Növrəstə çarpayının yanındakı kətilin üstündən parçı götürüb getdi.

Şahmərdan onun arxasınca baxdı.

- Eh, niyə insanda iki ürək yoxdur ki, birinə xal düşəndə, o biri onu yaşatsın…

Növrəstə gəldi. Həyətdəki arxdan göz yaşı kimi duru, buz kimi soyuq su doldurduğu parçı ona verdi.

Şahmərdan suyu başına çəkdi… Parçı qaytardı. Növrəstə qabı kətilin üstə qoyub getmək istəyəndə, Şahmərdan onun biləyindən yapışaraq, özünə tərəf çəkdi. Qolunu boynuna salıb dedi:

- Gəl barışaq, Növrəstə! Bizi bir-birimizdən ayıran o amansız quruluş, o qəddar zəmanə getdi. Sən cavan ömründə çox qara günlər gördün. Daha bəsdir… Mən hər səni görəndə ürəyim qana dönür… - Növrəstənin ağlı-qırmızılı yanağından öpəndə, Siranuş içəri girdi. Növrəstə tez geri çəkildi…

- Bax, belə ha! – deyə Siranuş şaqqa çəkib güldü. Əlindəki gül dəstəsini kətilin üstünə qoyub əlavə elədi: - Allah haqqı, Yusifin oxuduğu sözlər yadıma düşdü:

«Güləm, gülü neylərəm,
Gülə xidmət eylərəm,
Öz gülümü versələr,
Özgə gülü neylərəm».

## On yeddinci fəsil

Njde səsini ucaldaraq sözünə davam elədi:

- Siz nə fikir eləyirsiniz? Başınızı aşağı niyə salmısınız? Yoxsa Azərbaycanın Şuralaşması, qırmızıların Gorusu, Sisyanı alması gözünüzü qorxutdu? Qorxmayın. Xəmir hələ çox su aparar. Hələ Gürcüstanda menşevik hökuməti, Ermənistanda daşnak hökuməti möhkəmdir. Hələ Njde ölməyib. Njdenin ordusu tamam darmadağın edilməyib. Mən İravandan qüvvə istəmişəm. Əminəm ki, onu bizə tezliklə göndərəcəklər. Nə isə, siz, Milli Şura üzvlərinin hücum barədə fikrini bilmək istəyirəm.

Mesrop saqqalını tumarlaya-tumarlaya dedi:

- Əlbəttə, Gorusdan çıxarılmağımız heç yaxşı olmadı… Bizim adamların gətirdiyi məlumatlardan aydındır ki, kommunistlər hər yerdə Şura hakimiyyətini möhkəmləndirirlər. Bizi nüfuzdan salmaq üçün əhali arasında təbliğat aparırlar. Belə bir vəziyyətdə hücuma keçməyin bizə faydası ola bilərmi? Məncə…

Njde onun sözünü kəsdi:

- «Məncə-məncə» eləmə… İki başlı danışma. Fikrini qısa de.

Njdenin kobudluğundan pərt olmuş Mesrop dedi:

- Hələlik Kafanda möhkəmlənsək yaxşıdır. Hücumu qış düşənə saxlamaq məsləhətdir. O zaman yollar qarla örtülər. Qızıl Ordu heç yerdən silah, əsləhə və əlavə qüvvə ala bilməz. Bu müddət ərzində körpülər dağıdılar, bolşeviklərin silah anbarları yandırılar. Bundan əlavə, əhalini özümüzə tabe etmək üçün başqa tədbirlər də görə bilərik.

Karo dedi:

- Keşişin bəzi təklifi doğrudur. Lakin hücumun qışa saxlanılmasında səhv edir. Onu bilmir ki, qırmızılar əllərini qoyunlarına qoyub oturmayacaqlar. Onlar nəinki Zəngəzuru, bütün Zaqafqaziyanı bir gündə qırmızı rəngə boyamaq istəyirlər.

Njde Karodan soruşdu:

- Sənin fikrin nədir?

- Mən hücum tərəfdarıyam. Bolşevikləri möhkəmlənməyə, ölkənin hər yerinə kök atmağa qoymaq olmaz.

Njde dedi:

- Karonun təklifi doğrudur. Hücumu nə qədər tez başlasaq, bir o qədər yaxşıdır. Keşiş hərbi adam olmadığı üçün hərbi məsələlərdən də başı çıxmır… Elə deyilmi, keşiş?

- Mənim sözüm yoxdur. Millət üçün hansı yol xeyirlidir, onunla gedək.

Njde sözünə davam elədi:

- Hücumu gecikdirmək olmaz. Onu da nəzərə almaq lazımdır ki, aldığımız məlumata görə, Qızıl Ordunun bəzi hissələri Gorusdan Naxçıvana gedib. Demək, Gorusda bolşeviklərin hərbi qüvvəsi azalıb. Mən yerli kommunistləri, partizanları qüvvə hesab eləmirəm. Onları tarmar eləmək mənim əlimdə bir günlük işdir. Nə isə, mən elə zənn edirəm ki, naxçıvanlılar Qızıl Ordunu sevinclə qəbul etməyəcəklər. Keçmiş Nikolay zabiti, müsavatçı Kalbalıxan Naxçıvanski qırmızıların qabağını kəsəcəkdir. Bizim İravan hökuməti də istər-istəməz ona kömək verəcəkdir. Çünki Naxçıvan Şuralaşsa, Ermənistan hökuməti üçün böyük təhlükə yarana bilər. Aydındırmı?

Karo:

- Bəli, bəli, - dedi.

Keşiş də başını tərpədib yaltaqcasına dedi:

- Cənab Njde doğru buyurur, əlbəttə ki, onun ayağı biləni, bizim başımız bilməz.

Njde sözünə davam etdi:

- Mən yenə hücum məsələsinə qayıdıram. Gorusa hücum iki tərəfdən olmalıdır. Kafandan biz yeriməliyik, Dərələyizdən isə general Dro. Aydındır?

Karo və Mesrop sanki bir ağızdan dedilər:

- Bəli, aydındır.

- Keşiş ağa, qələm, kağız götür yaz.

Keşiş stolun üstündən qələm və kağız götürüb dedi:

- Nə yazım? Kimə yazım?

- Yaz ki: «Cənab general Dro! Qabaqda duruş gətirə bilməyib Dağlıq Qarabağı bolşeviklərə verdin. Bu gözlənilməz hadisə bizim vəziyyətimizi də Zəngəzurda pisləşdirdi. Biz qanlı vuruşlardan sonra Gorusu tərk etməli olduq… Mən öz adamlarımı, qoşunumu Kafana gətirmişəm. Silahlanmış Kafan fəhlələri,

kommunistləri bir neçə dəfə üstümə gəliblər. Lakin onları meşələrə çəkilməyə məcbur eləmişəm. Güman edirəm ki, bolşeviklər nə Kafanı, nə də onun ətraf kəndlərini əllərinə keçirə bilməyəcəklər…» - Njde nəfəsini dərib dedi: - Yaz ki: «Cənab general! Bu saat vətən böyük təhlükə qarşısındadır. Ermənistanı kommunistlər rus ordusuna, qırmızı bolşeviklərə satırlar. Biz onun parçalanmasına və satılmasına razı olmamalıyıq. Erməni millətini və erməni hökumətini bolşevizmdən müdafiə etməliyik. Bunun üçün hər ikimiz birləşməliyik. Daha doğrusu, siz Dərələyizdən, biz Kafandan Zəngəzurun mərkəzi Gorusa hücuma keçməliyik. Gorusun bizim əlimizdə olmasının hərbi və mənəvi əhəmiyyətini özünüz bilirsiniz. Bolşeviklər ordan hər tərəfə qol-qanad aça bilərlər».

- Yazdınmı? – deyə Njde keşişə baxdı.

- Bəli. Hamısını yazdım.

Njde kağızı alıb oxudu və imza edib Karoya dedi:

- Kağızı elə bu saat etibarlı bir adamla göndər.

- Mən onu Samvellə göndərəcəyəm.

- Ona tapşır ki, ehtiyatlı olsun. Yollar qorxuludur.

- Baş üstə! – deyə Karo ayağa qalxıb getdi.

Njde Mesropa dedi:

- İndi millətin dar günüdür. Onu ayaqlar altında tapdalanmağa qoymaq olmaz. Bu Qırmızı Ordunun sıralarında hər millətdən var. Deməli, başqa millətlər yığışıb erməni millətini yer üzündən yox eləmək istəyirlər. Özləri də «bütün millətlər, xalqlar birdir, bərabərdir…» deyə təbliğat aparırlar…

- Yalandır! – deyə Mesrop onun sözünü kəsdi. – Mənim millətim hamı millətlərdən alidir. Heç bir millətin tarixi ermənilərinki kimi qədim deyil. Hər daşı qaldırsan, altından bir erməni tarixi çıxar…

- Bax, elə mən onu deyəcəkdim. İndi camaata erməni millətinin keçmişini və gələcəyini başa salmaq lazımdır. Sən gərək bu işdə böyük fəaliyyət göstərəsən. Əhali arasında bolşeviklərin əleyhinə təbliğat aparasan. Deyəsən ki, qırmızılar dinimizi, dilimizi, torpağımızı əlimizdən alacaqlar. Kəndlərə get, mis mədəninə get, sözünü kəndlilərə, fəhlələrə de. Təkcə top-tüfənglə iş görmək olmaz, təbliğat lazımdır. Başa düşdünmü?

- Bəli, bəli.

- Camaat arasında danışanda deməlisən ki, Qızıl Orduya və Şura hökumətinə qarşı üsyan eləyən, Zəngəzur kəndliləri və Kafan fəhlələri özləridir.

Mesrop nə isə fikirləşib dedi:

- Axı buna inanmazlar. Çünki fəhlələrin və kəndlilərin bizə qarşı üsyan elədiklərini bilirlər.

Njde ona əyri-əyri baxdı.

- Hamı bilmir, keşiş ağa. Sən bilənlərin də ürəyinə girib fikrini dəyişdirməlisən. Əsl hünər odur ki, sözlə, təbliğatla şeytanı peyğəmbər sifətində göstərəsən. Başa düşdünmü? Bu gündən işinə başlarsan.

Njde öz əli ilə yazdığı əmri Karoya verib dedi:

- Al, surətini çıxartdır. Bizim ixtiyarımızda olan kəndlərin kəndxudalarına göndər. Kafanın küçələrinə vurdur. Əmrdə göstərmişəm ki, əsgərlikdən boyun

qaçıranlar güllələnəcək, evi-eşiyi dağıdılacaqdır. Qırılan əsgərlərin yerini doldurmaq lazımdır. Başa düşdünmü?

Njdenin qabağında dik dayanmış Karo soruşdu:

- Çağırış məntəqəsi harda olacaq?

- Kafanda. Kəndxudalar adamları gətirib qərargah rəisi Nersesyana təhvil verməlidirlər. Başa düşdünmü? Sən Nersesyanla əlaqə saxla. O, köhnə zabitdir, hərbi-təşkilat işini yaxşı bilir. Mən əmrdə göstərmişəm ki, qocalıq, təklik, xəstəlik və başqa bəhanələr nəzərə alınmayacaq. Bir evdə ayağı yer tutan beş kişi varsa, beşi də silah altına alınmalıdır. Başa düşdünmü?

- Bəli.

Njde sol əlini qurşağına keçirdib dabanları üstə qalxıb-enərək dedi:

- Əhalidən ərzaq, at və ətlik qoyun, mal yığmaq üçün ikinci əmr hazırlamaq lazımdır. Bunu sənə tapşırıram. Amma bu işləri tez görmək lazımdır, vaxt təngdir.

Karo çəkinə-çəkinə dedi:

- Cənab xmbapet, ərzaq yığmaq bir az çətin olacaq…

Njde bərkdən qışqırdı:

- Necə? Çətin olacaq nədir? Yoxsa sən də yumşalıb muma dönürsən?

- Yox, cənab, mən əvvəlkindən də möhkəməm. Ancaq onu demək istəyirdim ki, camaat nədənsə üzə durub. Bizim əmrimizə, sözümüzə tabe olmaq istəmir. Bu gün bir kəndli şikayətə gəlmişdi. Sənin yanına buraxmadım, özüm danışdırdım. Deyirdi ki, əsgərlər bizdə toyuq-cücə qoymadılar. Malımızı, qoyunumuzu zorla tövlədən çəkib aparırlar. Sizin əsgərlərin qorxusundan arvadlarımız, qızlarımız həyətə də çıxa bilmirlər. Deyirdi ki, kəndlilər məni vəkil seçib göndəriblər ki, bu sözləri Njdeyə çatdırım.

- O kəndli nə oldu?

- Cavabını verib yola saldım.

- Nahaq yerə. O, bolşevik imiş. Güllələmək lazım idi. Bundan sonra, bu barədə şikayətə gələnlər olsa, de ki, Njdenin qoşununa çörək də lazımdır, ət də, arvad da. Başa düşdünmü? Zəiflik bizi fəlakətə salar. Get, dediklərimi yerinə yetir. Kafanlılarla özüm danışacağam.

- Baş üstə. – Karo rəsm-təzim edib getdi.

Njde oturub öz-özünə fikirləşməyə başladı:

«İravandan niyə kömək gəlmədi? Mən İran vasitəsilə Antanta dövlətləri ilə özüm əlaqə saxlamalıyam… İngilislər, amerikanlar Arazdan bizim tərəfə heç olmasa üç-dörd min qoşun keçirsələr, qırmızıların öhdəsindən gəlmək asan olar…

Samvel içəri girdi. Njde başını yuxarı qaldırdı.

- Aha, Samvel, gəldin?

- Bəli, çox əziyyətlə gedib-gəldim. Sənə məktub gətirmişəm, buyur.

- Bu, general Drodandırmı? Özünü görə bildinmi?

- Bəli.

Njde kağızı açıb oxudu:

«Cənab polkovnik Njde! Məktubunuzu aldım. Fikrinizə şərikəm. Erməni millətini müdafiə etməkdən müqəddəs bizim nə vəzifəmiz ola bilər?..

Özümü məğlub hesab etmirəm. Dağlıq Qarabağa yenə dönəcəyimə əminəm. Qırmızıları məğlub eləmək üçün hər ikimiz birləşməliyik… Dərələyizə gələndən

müsəlman kəndlərində əməliyyat aparmağa başlamışam. Hərçənd yerli binamus ermənilər əsgərlərimin qabağını kəsir, müsəlman kəndlərini dağıtmağa qoymurlar, mənə qarşı üsyan edirlər, ancaq yenə də mən öz işimi görürəm.

Mən hücuma bu günlərdə keçəcəyəm. Gorus avqusta kimi mənim əlimdə olmalıdır. Zənn edirəm ki, hər ikimiz birləşsək, bir hərəkət eləsək, qırmızıları Gorusdan, Sisyandan və başqa yerlərdən qova bilərik.

Hücum edəcəyim günü sizə ayrıca bildirəcəyəm.

Hələlik. General Dro. 18/IV-20 il».

- Çox gözəl! – deyə Njde kağızı qatlayıb cibinə qoydu. – Biz onun məlumatını gözləməli olacayıq.

- Mən bir səhv eləmişəm, cənab xmbapet. Gərək Aşotu da özümlə bərabər aparaydım. Qalardı orada. Lazım olanda general Dronun göndərəcəyi xəbəri bizə gətirərdi.

Njde güldü:

- Aşot? Bilmirəm Karo o maymağı hardan tapıb bizə qapıçı götürüb? O ki, ağzının sözünü danışa bilmir. Onu hərbi hissələrdən birinə göndərmək lazımdır, döyüşlərdə ölər baxtına, qalar baxtına. Əgər ermənin hamısı onun kimi olsa idi, kül olardı bizim başımıza.

Aşot içəri girdi.

- Budur, özü də gəldi. Qurd dedik, qulağı çıxdı. Nə var, general Aşot? Cəbhədən baş gətirmisən, hə?

Həmişə gözünə cəllad sifətində görünən Njdenin zarafatına sevinən Aşot yastı-yastı dedi:

- Xmbapet ağa istəsə, məni də böyük elər, hər şey onun əlindədir. Mən də, özünüz görürsünüz də, bacardığım kimi sizə qulluq edirəm.

Njde üz-gözünü turşudub:

- Yaxşı, yaxşı! – dedi. – Ağzını yayma! Nə istəyirsən?

- Keşiş ağa adam göndərib ki, xmbapet ağa buyurub gəlsin.

- Get xəbər gətirənə de, gəlirəm.

Aşot qapıya tərəf gedib birdən geri döndü:

- Bağışla, ağa, yadımdan çıxmışdı… Bayaqdan iki adam qapıda gözləyir. Yanına buraxım, ya yox?

- Hardan gəliblər?

- Deyirlər, Gorusdan gəlmişik.

Njde təəccüblə çiynini atdı.

- Gorusdan? De gəlsinlər…

Aşot getdi. Njde keçib stolun arxasında oturdu.

Qurgenlə Levon içəri girdilər.

Onları görən kimi heyrətdən gözləri böyüyən Samvel özünü saxlaya bilməyib qışqıra-qışqıra dedi:

- Bunlar ki, bolşevikdirlər. O Qurgen mənim əmimdir, atam tutdurmuşdu. İravanda qazamatda yatdı. Gorusa gətirdilər. Gorus qazamatından da Hayk Aslanyan qaçırtdı. O biri Levon…

- Dayan! Sən onların tərcümeyi-halını danışma. – Njde üzünü Levonla Qurgenə tutdu. – Oturun! Niyə gəlmisiniz? Sizi kim göndərib?

Qurgen dedi:

- Biz Qızıl Ordu komandanlığının və qəza inqilab komitəsinin rəsmi nümayəndələri kimi, sizinlə danışmağa gəlmişik.

- Bəs nə yaxşı qorxmamışsınız? – deyə Samvel əlini mauzerinə atdı.

Njde ona gözünü ağardıb:

- Sakit ol! – dedi. – Hər kim olur olsun, rəsmi nümayəndələrə ehtiram lazımdır. Buyurun, sözünüzü deyin, bolşeviklər! Şikayətiniz nədəndir?

Qurgen dedi:

- Şikayətimiz yox, tələbimiz var! Kafan mis mədəninin fəhlələri neçə vaxtdır ki, işləmirlər. Sahibkarlar lağımların ağzına qıfıl vurublar…

Njde söz atdı:

- Çünki fəhlələr dinc oturmurlar. Gündə bir üsyan yaradırlar.

- Daşnaklar onların haqlı tələblərini yerinə yetirmirlər, güllələyir, dama basırlar. Onlar sizdən çörək, iş tələb edirlər. Siz buna üsyan deyirsiniz. Ölkə dağılıb gedir. Camaat acından qırılır. Kəndlilər əkib-biçə bilmirlər. Özlərini orduya aparırsınız, mal-heyvanlarını qoşuna ətlik üçün əllərindən alırsınız.

Njde əsəbiliyini büruzə vermədən dedi:

- Tələbiniz nədir?

- Zəngəzur kəndliləri, Kafan fəhlələri top-tüfəngsiz, davasız yaşamaq istəyir. Onlar istəyirlər ki, erməni oğulları silahı yerə atıb cütün dəstəsindən yapışsınlar. Zəngəzurun şəhərləri, kəndləri əldən-ələ keçib dağılmasın. Kafan və onun kəndləri əsl sahibinə tapşırılsın.

Njde istehza ilə gülərək:

- Çox gözəl! – dedi. – Mətləbinizi başa düşdüm. «Cəsarətli» bolşeviklərin daha nə sözü var?

Qurgen cibindən bağlı bir zərf çıxardıb Njdeyə verdi.

- Oxuyun.

Njde oxudu:

«Cənab polkovnik Njde!

Əhalinin hər yerdə Qızıl Ordunu sevinclə qarşıladığı, kəndlərdə fəhlə-kəndli hakimiyyəti qurulduğu bir zamanda əksinqilabçıları başınıza toplayıb yenidən müharibəyə hazırlaşmağınız faydasızdır. Gələcəkdə qan tökülməsin, camaat əziyyət çəkməsin deyə, Qızıl Ordu komandanlığı və Zəngəzur İnqilab Komitəsi silahı yerə qoyub təslim olmağınızı sizə təklif edir. Təslim olanlar, Şura hakimiyyətini tanıyanlar, imperialistlərlə əlaqəni kəsənlər əfv ediləcəklər.

Komandanlıq bu ultimatumu sizə təqdim edənlərin sağ-salamat buraxılacaqlarına əmindir…».

Njde istehza ilə gülümsəyərək kağızı stolun siyirtməsinə atıb dedi:

- Ultimatum çox yaxşı yazılıb. Buna cavab vermək üçün kafanlılarla məsləhətləşmək lazımdır. Buyurun, cənab bolşeviklər, gedək. Camaat məni gözləyir. Sizə cavabı adamların yanında verəcəyəm.

Dördü də otaqdan çıxdı.

Dağlar, qayalar günün hərarətindən kürə kimi od-alov saçırdı. Dərənin içində yerləşən Kafan alışıb yanırdı. Adamlar günün şaqqamasında, bürküdə şəhər körpüsünün yanındakı balaca meydançada dayanmışdılar. Keşiş Mesrop Njdenin tapşırığı əsasında onlarla milli ruhda söhbət edirdi. Hər sözündə erməni millətini ucaldır, başqalarını alçaldırdı. Njdeləri, droları, karoları tərifləyir, xalq qəhrəmanları kimi böyüdürdü. O, daşnaklarla mübarizə edən erməniləri, öz millətinə satqın çıxmış yaramaz adamlar kimi lənətləndirirdi. Qızıl Ordunu isə bir istilaçı ordu kimi qələmə verirdi…

Njdenin bir neçə adamla birlikdə meydana yaxınlaşdığını görəndə keşiş:

- Cənab Njde gəlir, özünüzü yığışdırın, camaat! – dedi və əl çaldı. Njde meydanın başına çatanda Mesrop ucadan qışqırdı: - Yaşasın bizim cənab Njde! – O, yenə əl çaldı. Tək-tək əl vurdular.

Njde gündən gözü qamaşmasın deyə furajkasının günlüyünü aşağı əydi, əllərini belinə vurub, heykəl kimi dayanaraq dedi:

- Mənim camaatım ağıllı keşişin ağıllı sözlərinə qulaq asır, hə?

Kimsə dillənmədi. Keşiş döşündəki xaçı sığallaya-sığallaya, yüngülcə baş əyib dedi:

- Bura toplanmış ermənilər sən xmbapet ağanın canına dua edirlər ki, düşməni tezliklə erməni torpağından təmizləyəsən. Hər sözünə müti olan bu adamlar səni gözləyirdilər. Buyur xmbapet ağa, bunlara bir söz de, ürəklərini aç.

Njde irəli gəldi. Üzünü camaata tutub dedi:

- Camaat, sizə deyiləsi təzə xəbər var. Onu bizə gətirən iki cənabdır. – O, dönüb Samvelə müraciət elədi. – Onları qabağa çəkin. – Samvel Levonla Qurgeni kobudcasına qabağa itələdi. Njde sözünə davam elədi: - Baxın! Bunlar ermənidirlər, bolşevikdirlər. Bizə ultimatum gətiriblər ki, vuruşmanı kəsək, təslim olaq. Yəni ölkəni sataq Qızıl Orduya. Siz nə deyirsiniz? Biz onlara nə cavab verək?

Camaatın arasında dərin bir sükut əmələ gəldi. Njde bir də acıqlı soruşdu:

- Nə cavab verək?

Keşiş dilləndi:

- Təslim olmağa heç kəs razı deyil.

Adamların içindən kim isə dedi:

- Biz davanın kəsilməsinin tərəfdarıyıq. Dinc yaşamaq istəyirik…

Samvel danışan adamı sonra həbs etmək üçün gözü ilə axtardı.

Njde dedi:

- Kafanlılar! Sözü daha uzatmayaq. Mən bu iki bolşeviki ayaq üstə, günün altında çox saxlayıb incitmək istəmirəm. Sizin gözünüzün qabağında sakitcə cavab verəcəyəm. Birinci cavabım xınzirəkli Manuçarın torpağını zorla əkən bu adamdır. – Njde Levonun qolundan tutub irəli çəkdi. – Bunun boy-buxununa, sir-sifətinə baxın! Görürsünüzmü qulaqları nə yekədir? Bolşeviklərin sözlərini eşitməkdən belə yekəlib. – Njde sol əli ilə Levonun qulağından tutdu.

- Qulağımı burax! – deyə Levon dartındı. – Özünü hakim adlandıran adama belə hərəkət yaraşmaz. Adam kimi bizə cavab ver.

Njde qurşağına sancdığı balaca əyri xəncəri çıxartdı. Bir anda Levonun qulağını dibindən kəsib yerə atdı.

- Bu bir cavab. Qoy bundan sonra sənə desinlər: qulağı kəsik bolşevik!..

Üzündən aşağı qan şırıldayan Levon qışqıra-qışqıra Njdeni söydü. Samvel Levonu kənara çəkdi. Lakin onun səsi kəsilmirdi…

Karo tez mauzeri çıxardıb Levona tərəf gedəndə Njde:

- Öldürmə! – dedi. – Qoy tay qulağını Qızıl Ordu komandanlığına cavab aparsın!

- Siz vəhşi kimi hərəkət edirsiniz! – deyə Qurgen yerindən dilləndi. Sonra üzünü adamlara tutub qışqırdı: - Qardaşlar, niyə bu zülmə dözürsünüz?!

- Dayan, bolşevik! – deyə Njde onun yaxasından yapışdı və qəzəblə silkələyib buraxdı. – Camaat, buna da baxın! Bu tülkü də mənim cəzamdan qorxub həbsxanadan qaçan adamdır. Qardaşı mülkədar Baqratın ziddinə gedən adamdır.

Samvel dedi:

- Cənab xmbapet, icazə ver onu özüm öldürüm. O, bizi biabır edib…

- Dayan! «Yazıq» günün qabağında tərləyib. Onu körpünün altında sərinlətmək lazımdır. Keşiş ağa, həzrət İsanı nə eləmişdilər?

- Çarmıxa çəkmişdilər, cənab xmbapet…

- Aparın, bu bolşeviki də körpünün sütununda çarmıxa çəkin! Camaat, sizə əmr edirəm. Körpünün üstündən gəlib getdikcə, əyilib ona daş atarsınız və üzünə tüpürərsiniz! Bu da ikinci cavab!..

Karo ilə Samvel hərəsi Qurgenin bir qolundan yapışıb körpüyə sarı aparanda Qurgen mərdanə səslə ucadan dedi:

- Məni öldürməyə aparırlar, Levon! Sən tez get! Qoy yoldaşlar gəlib camaatı bu cəlladların əlindən qurtarsınlar!..

İsti yay günü idi. Yamyaşıl ağacların yarpaqları belə tərpənmirdi. Bu qalın bağçanın sükutunu yalnız budaqdan-budağa qonan quşların nəğməsi pozurdu. Bəs bağçanın dərinliyindən gələn o pıçıltı nə idi? O, bir zaman kitab kimi örtülmüş, indi isə yenidən açılmış iki ürəyin səsi idi…

- Bəlkə inciyirsən? – deyə Şahmərdan başını Növrəstənin dizindən götürdü.

- İncimirəm, bibi oğlu. – Növrəstə onun başını təzədən dizinin üstə qoydu. İlik kimi ağ barmaqları ilə Şahmərdanın təzə-təzə dən düşən saçlarını daramağa, sığallamağa başladı.

Hər ikisi susdu. Gördükləri keşməkeşli həyatdan, vəfadan, dönüklükdən daha söz açmadılar. Olub-keçmişlərin hamısını barışdıqları gündən unutmuşdular.

Növrəstə gözünü, kölgəsində oturduqları qara tut ağacının budağında oynaşan sərçələrə dikmişdi. Şahmərdan yarpaqların arasından görünən səmaya baxırdı.

- Bibi oğlu, Şəkiyə nə vaxt qayıdacayıq?

- Çox darıxırsan?

- Kəndimizi görmək üçün ürəyim nanə yarpağı kimi əsir.

- Sən orda evimizin xarabasından başqa nə görəcəksən?..

Növrəstə köksünü ötürdü.

- Elə məni çəkən o xarabalıqdır. Səninlə əl-ələ verib təzədən özümüzə koma düzəldərik. Atamın dağılmış evini də əmimlə Yusif abad eləyər. Nə qədər tez qayıtsaq yaxşıdır. Daha qəribçilik, yad kəndlərdə yaşamaq bizi təngə gətirdi.

- Onu düz deyirsən, Növrəstə. Amma hələ öz kəndimizə dönə bilməyəcəyik. Çünki döyüşümüz, mübarizəmiz qurtarmayıb. Hələ daşnakları Zəngəzurun hər yerindən təmizləyə bilməmişik. Sən daha bir neçə il bundan əvvəlki, gözü bağlı Növrəstə deyilsən, odun-alovun içindən çıxmısan… Bilirsən ki, bir tərəfdən Dro, bir tərəfdən də Njde dişlərini üstümüzə qıcıdıblar. Amma darıxma. Düşmən nə qədər cilov gəmirsə də, axırda təslim olmağa məcbur olacaq. Bizim arxamızda Qızıl Ordu kimi böyük qüvvə var… - Şahmərdan susdu, nə isə fikirləşib soruşdu: - Sən bizim komandanlığın Njdenin yanına iki adam göndərdiyini bilirsənmi?

- Yox, nə üçün göndərib?

- Njdenin təslim olub silahı yerə qoyması üçün. Təslim olmasa, onun üstünə yeriyəcəyik. İlanın başını birdəfəlik əzəcəyik. Bax, onda öz kəndimizə qayıdıb rahat yaşayacayıq. Keçirdiyimiz günləri həm acı, həm də şirin xatirələr kimi yadımıza salacayıq. Qərəz, görək Levonla Qurgen nə xəbərlə gələcəklər…

Sağsağanın pırıltı ilə ağacdan uçmasından nazik budaqlar tərpəndi. Yetişmiş tutlar yerə səpələndi. İri bir tut düz Şahmərdanın alnına düşdü. Şahmərdan başını qaldırdı. Növrəstə yaylığının ucu ilə onun alnındakı dırnaq yekəlikdə ləkəni sildi.

Hər ikisi qalxıb gülə-gülə evə tərəf getdilər.

Onlar otağa girəndə Hayk Comərdlə Vahana nə isə danışırdı. O, arvadını Xınzirəkdə aparıb qoyduqdan sonra, təzəcə qayıtmışdı. Şahmərdanla Növrəstə oturub söhbətə qulaq asdılar.

Hayk deyirdi:

- Xınzirəkdə mənə məlum oldu ki, Njde Kafana qaçandan sonra bir çox kəndə əl altınca kağız göndərib. Kağızında dövlətliləri qorxudub ki, Qızıl Ordu, Şura hökuməti sizin hər şeyinizi əlinizdən alacaq, özünüzü də öldürəcək, qazamata salacaq. Yazıb ki, sizin arxanız, köməyiniz mənəm, bolşeviklərlə mübarizə eləmək üçün mənim başıma toplanın… Manuçar Sarumov da kənddən çıxıb Njdenin yanına gedib…

Qapı açıldı, Levon baş-gözü sarıqlı içəri girdi.

- Bəs Qurgen hanı? – deyə Vahan soruşdu. – Başını, qulağını niyə sarımısan?

Levon bir tərəfdə oturub həyəcan və qəzəblə hər şeyi danışdı. Axırda dedi:

- Getdim saqqal gətirməyə, bığı da qoyub gəldim…

- Hə… - deyə Vahan fikirli-fikirli dilləndi. – Bu heç yaxşı olmadı. Qurgen əlimizdən tez getdi… Sən şikəst oldun…

- Mən öz halıma yanmıram. Ancaq Qurgen yazıq oldu…

- Bəli, o da inqilabın qurbanı oldu, - deyə Şahmərdan köksünü ötürdü.

Aralığa ağır bir sükut çökdü. Adamların gözündə həm kədər, həm də böyük bir qəzəb hiss olunurdu.

Vahan sinəsinə əyilmiş başını yuxarı qaldırıb Levondan soruşdu:

- Qərargaha getmisənmi?

- Yox, elə gəlişim buradır.

- Dur gedək, yaranı Arakel dərmanlayıb bağlasın, sonra qərargaha, Gerasimovun yanına gedək, əhvalatı danış.

Levonla Vahan durub getdilər.

…Dan yeri təzəcə sökülürdü. Xoruzlar bir-biri ilə bəhs edirmiş kimi, arası kəsilmədən banlaşırdı… Ancaq çox çəkmədi ki, harada isə lap yaxında partlayan mərmilərin səsi onları susdurdu…

İyirmi-iyirmi beş gün qulağı top-tüfəng səsi eşitməyən və Şura quruluşuna alışmağa başlayan Gorus əhalisi sərasimə yuxudan oyandı.

Qızıl Ordu hissələri, kommunist dəstələri hücuma keçmiş general Droya cavab vermək üçün mövqelər tutmaqda idilər.

Njde və Dro öz qoşunlarını, toplaya bildikləri yeni qüvvələrinin hesabına, Denikin zabitləri və ağ kazakların hesabına artırmışdılar. Döyüşə rəhbərlik edən həm daşnak, həm Denikin zabitləri idi.

Qızıl Ordu hissələri və Kafan fəhlələri Njdenin qabağını kəsib döyüşə girdikləri üçün o, Dro ilə bərabər Gorusa hücuma keçə bilmədi. Lakin çox ciddi və qanlı döyüşlərdən sonra Dro Gorusu, onun ətrafındakı kəndləri, Sisyan kəndlərini tutmağa müvəffəq oldu.

Bolşeviklər Njdeni əvvəlcə Kafandan çıxartdılar. Lakin o, şəhəri və bir çox kəndləri təzədən alıb öz yerini bərkitdi.

Zəngəzur tamamilə daşnakların əlinə keçdi. Bu dövrdə ən vəhşi terror başlandı. Daşnaklar ələ keçən kommunistlərə, partizanlara və onların ailələrinə ağla gəlməz divan tutdular. Bir çoxunun evini yandırdılar. Mal-qarasını çəkib apardılar. Bir çox kommunistlərin və partizanların intiqamını arvadlarından aldılar, əvvəl ələ salıb, sonra güllələdilər. Belə qurbanlardan biri də Şuşanik və onun balaca oğlu oldu. Njde şəxsən özü ana ilə balanın həyatını bircə güllə ilə söndürdü…

## On səkkizinci fəsil

1921-ci ilin aprel ayı idi.

Otaq adamla dolmuşdu. Daşnak ordusunun bəzi zabitləri, Njdenin ətrafına toplaşan mauzeristlər, əksinqilabçılar burada idilər. Njde onları müşavirəyə çağırtdırmışdı. Müşavirə neçə saat idi ki, davam edirdi.

«Odlu-alovlu» danışmağı sevən və danışdıqca qızışıb özündən çıxan Njde deyirdi:

- Cənablar! Neçə müddətdir ki, Qırmızı Ordunun ayağı Zəngəzurdan çəkilmişdir. Bu, bizim böyük qələbəmizdir. O adamlar ki, bolşeviklərlə bacara biləcəyimizə şübhə edirdilər, indi böyük qüvvə olduğumuza inanmaya bilməzlər. Ancaq bizi narahat edən partizanlardır. Onlar gah gündüz, gah gecə, bəzən açıq, bəzən gizli olaraq qoşun hissələrimizə, kəndlərə hücum edirlər. Cənablar, mən onu demək istəyirəm ki, bolşeviklər hələ gözlərini Zəngəzurdan çəkməyiblər. Bundan əlavə, vəziyyət bu son aylarda dəyişilib, bizim üçün daha ağır olub. Açıq danışacağam. Cidanı çuvalda gizlətmək olmaz. Gürcüstan və Ermənistan hökuməti tamamilə süqut etdi… - Adamlar təəccüblə bir-birlərinin üzünə baxdılar. Kimi

başını kədərlə aşağı saldı, kimi gözünü Njdenin ağzına dikib sonra onun nə deyəcəyini gözlədi, kimi özünü saxlaya bilməyib yerindən qışqırdı:

- Yəni deyirsən, bizim Xatisov hökuməti tamam yıxıldı?..

Njde:

- Bəli, - dedi. – Parlament üzvlərindən bəzilərini bolşeviklər həbs ediblər, bəziləri canlarını təhlükədən qurtarıb Zəngəzura qaçıblar. Cənablar, açıq deyim ki, indi Zəngəzurdan başqa Zaqafqaziyanın hər yerinə qırmızı rəng çəkilmişdir. İndi Zəngəzur hər tərəfdən bolşeviklərlə əhatə olunmuş təkcə bir adaya bənzəyir. Ancaq bu xəbər bizim sıralarımızda, qoşun hissələrimizdə çaxnaşma yaratmamalıdır. Çünki arxamızda Antanta durub. O, bizə hərbi yardım göstərir, mənəvi qüvvət verir. Bolşeviklər bunu bilirlər. Məhz buna görə də, Zəngəzuru tezliklə əlimizdən almağa can atırlar. Qırmızı Ordunun bu gün-sabah yenidən hücuma keçəcəyi də şübhəsizdir. Onda biz nə eləməliyik? Təslim olmalıyıqmı? Yox, cənablar, mən bu fikri beynimə sığışdıra bilmirəm. Mənim vuruşmağa hünərim və hərbi qüvvəm kifayət qədərdir. Mən bu gündən etibarən Zəngəzuru Şura Ermənistanından ayırıram. Zəngəzurda dağlar hökuməti yaratdığımı sizə elan edirəm. Mən ona Syunik[1] hökuməti adı verirəm. Özümü isə, Syunik sparapeti[2] elan edirəm. Cənablar, dostumuz Antantanın köməkliyi ilə bolşevikləri Ermənistandan təmizləyəndən sonra, Zəngəzur yenə onun bir qəzası olacaqdır. İndi parçalanmış Ermənistan torpağının yenə birləşəcəyinə əminəm. Cənablar, hər kəs öz işində möhkəm olmalıdır. Zabitlər əsgərləri döyüşə yaxşı hazırlamalıdırlar. Ordudan fərariliyə yol verilməməlidir. Heç bir əsgər Ermənistan hökumətinin yıxıldığını bilməməlidir. Aydındırmı?

«Bəli», «Aydındır», «Biz öz işimizi bilirik» sözləri eşidildi.

Heç kəsə danışmaq üçün söz verməyən Njde müşavirəni bağladı…

Növrəstə ikimərtəbəli evin aynabəndində oturub şəhərə tamaşa edirdi. Açıq pəncərədən içəri əsən sərin meh onun üzünə vurur, alnına tökülmüş saçını oynadırdı…

Ömründə şəhər görməmiş Növrəstə Şuşanın yaraşıqlı evlərinə, təbii mənzərələrinə heyran olmuşdu. Ancaq bu gözəl şəhər ona zövq verdiyi kimi, qüssə də verirdi. «Qəşəng şəhərdir, yaşamalı yerdir, amma heyif ki, bir tərəfi şikəstdir. Bunun da bir yanını bizim kənd kimi yandırıb xarabalığa çeviriblər. Heyif ki…». Növrəstə ayaq səslərinə geri döndü. Gələn Şahmərdan idi. Növrəstə tez ayağa qalxıb dedi:

- Bibi oğlu, niyə çox yubandın?

- Qərargahda işimiz vardı. Gerasimovun polku axı indi burdadır…

- Səhərdən getmisən, indi günortadır. Yəqin ki, lap acmısan… Elə buradaca otur, çörək gətirim, ye. Kartof bişirmişəm.

- Ac deyiləm. Əsgərlərlə bir yerdə yemişəm. Oturmağa da vaxt yoxdur. Vahan məni gözləyir. Səninlə xudahafizləşməyə gəldim.

---

[1] Qədim Ermənistanda Zəngəzur Syunik padşahlığı adlanırdı.
[2] Sparapet – qədim Ermənistanda bütün silahlı qüvvələrin komandirinin tituludur.

- Hara gedirsiniz, bibi oğlu?

- Təzə bir tapşırığı yerinə yetirməyə.

Növrəstə bir an susdu, daha sorğu-sual eləmək istəmədi. Lakin yenə özünü saxlaya bilməyib soruşdu:

- Nə tapşırıqdır? Məndən gizli deyil ki?

Şahmərdan arvadının narahatlıq ifadə edən gözlərinə baxıb gülə-gülə dedi:

- Daha səndən gizli mənim nə sözüm ola bilər?! Daşnaklar Qızıl Ordu komandanlığının ikinci təklifini də rədd elədilər, təslim olmaq istəmədilər. Görünür ki, qan tökməkdən, adam qırmaqdan doymayıblar… Nə isə, biz düşmənlərin içinə gedirik… Gedirik erməni əsgərlərini başa salaq ki, dava eləməsinlər, tüfənglərini onları qırğına verən Njdeyə və başqa zabitlərə çevirsinlər. – Şahmərdan cibindən bir kağız çıxartdı. – Al bunu, mən gələnə kimi saxla, Növrəstə. Ancaq lap möhkəm saxla! Bu mənim firqə biletimdir. İndi get mənim pencəyimi, şalvarımı gətir. Qızıl əsgər paltarını hələlik soyunub yerə qoymaq lazımdır.

Növrəstə yerindən tərpənmədi. Şahmərdanı birinci dəfə görürmüş kimi, başdan ayağa süzüb soruşdu:

- Bibi oğlu, tək gedirsən, yoldaşın da var?

- Vahanla gedirik. O, polk qərargahında məni gözləyir. Hə, niyə donub qaldın? Rəngin niyə qaçdı?

Növrəstə köksünü ötürdü:

- Vallah, bibioğlu, səni heç gözümdən kənara qoymaq istəmirəm… - O, duruxdu, demək istədi ki: «Niyə başqasını göndərmirlər, Allah eləməmiş birdən…» Lakin demədi, təkcə onu soruşdu ki: - Tez qayıdacaqsınızmı barı?

- Nə deyim, Növrəstə… Çöl işini bilmək olmaz. Bir də, nə üçün narahat olursan? Əmin, dayın, qardaşın yanındadır. Allaha şükür, özün də bərkdən-boşdan çıxmısan!

Növrəstə daha sual vermədi, hər ikisi otağa getdi.

Şahmərdan paltarını dəyişdi. Tapançasını qoltuq cibinə qoydu.

Növrəstə, bişirdiyi kartofdan çörəyin arasına qoyub, balaca bir dəsmala bağladı.

- Al, bibioğlu, - dedi, - evdə yemədin, yolda yeyərsən. Kartof, çörəkdir.

Şahmərdan dəsmalı pencəyinin cibinə basdı. Arvadına əlini uzadıb:

- Di sağ ol, - dedi, - mən gedirəm.

Növrəstə ona əl vermədi, bərk-bərk boynunu qucaqladı. Şahmərdan onu köksünə basdı. Bir neçə dəqiqə bu sayaq dayandılar…

- Gözüm yenə yollarda qalacaq, bibioğlu! – Növrəstə nə qədər çalışdısa, özünü saxlaya bilmədi. Əvvəl alçaqdan, sonra hönkürtü ilə ağladı.

Şahmərdan arvadının qollarını ehmalca boynundan götürüb zarafatla dedi:

- Pəh-pəh!.. Bizim partizanımıza, bolşevikimizə bax!.. Elə bil ki, səngərdə yatan, güllə atan Növrəstə bu deyil!..

- Mən öz ölümümdən qorxmuram, bibioğlu. Məni də apar…

Şahmərdan özünü eşitməməzliyə vurdu.

- Əminlə, dayınla görüşmüşəm. Ancaq Yusiflə görüşə bilmədim. Öz aramızda qalsın, o gedib kəşfiyyata. Sənin partizan qardaşın indi qoçaq bir qızıl

əsgər olub. O gün yoldaş Gerasimov bərk tərifləyirdi. Özünü də polkda komsomola götürüblər… Hə, belə, daha gedim. Yoxsa Vahan dalımca gələr. Daha nə deyim… - Şahmərdan Növrəstənin hər yanağından bir dəfə öpüb qapıya tərəf addımladı. Pilləkənin başında yenə dayandı. Növrəstəyə baxdı… - Fikir eləmə! Qayıdıb gələcəyəm. Özü də bacardıqca tez gələcəyəm. Sən özündən muğayat ol, naxoşlama!

Növrəstə aynabənddə dayanıb ərinin dalınca baxdı… Küçə aşağı gedən Şahmərdan tini burulanda o buna, bu ona əl elədi…

Növrəstə yaylığının ucunu gözlərinin üstünə basdı…

Ayaq tappıltısı eşidildi. Növrəstə sanki yuxudan ayıldı. Geri çevriləndə Siranuşu aynabənddə gördü.

- Xoş gördük, Nösrəstəcan! Evdə təksən?

- Təkəm, Siranuş.

Siranuş ona yaxın gəldi.

- Ay qız, gözümə bikef görünürsən? Deyəsən ağlamısan da, hə?

- Ağlamışam.

- Yenə sənə nə olub? Şahmərdan qardaş hardadır?

- Getdi…

- Hara? Yoxsa yenə aranız dəydi? Vallah, elə iş olsa ha, bir də ona qardaş deməərəm.

Növrəstə Şahmərdanın hara və nə üçün getdiyini söylədi.

Siranuş güldü.

- Elə bundan ötrü ürəyini sıxırsan! Nə olsun ki, işdir, tapşırıblar, yerinə yetirib gələcək də…

- Nə bilim, ay Siranuş, qorxuram, deyirəm, Allah eləməsin, başına bir iş gələr. O qədər həsrətini çəkmişəm…

- Yaxşı, yaxşı, ağızın xeyirliyə aç. Özün də hazırlaş, səni gəzməyə aparmağa gəlmişəm, deyirəm bir «Çanaqqalaya» tərəf gedək. Nə qədər ki, dava-şava yoxdur, Şuşanın hər yerini doyunca gəzək. Qəşəng şəhərdir. Sizin kəndi bilmirəm, Növrəstə, bizimki çox yaxşı yerdir. Qoy bir dünya düzəlsin… Vallah, elə günlər görəcəyik ki, ha… Sən bizə qonaq gələcəksən, mən sizə, eləmi?

- Sağlıq olsun, ay Siranuş…

- Sağlıq da olacaq, Növrəstəcan. Gedək.

Növrəstə bir söz demədi. Hər ikisi həyətə endi.

Vahanla Şahmərdan Yancinin qırağına çatanda, səhərin açılmasına az qalmışdı. Onlar kəndə girməyib, özlərini yaxındakı bağa verdilər. Böyük bir qoz ağacının altında oturub çörək yedilər. Dinclərini almaq üçün göy otun üstündə uzandılar. Yorğun olduqlarından tez yuxuya getdilər.

Gün çeşt yerinə qalxanda oyandılar. Durub kəndə tərəf yollandılar. Kəndin girəcəyində qabaqlarına qoca bir arvad çıxdı. O, ağlaya-ağlaya qarğış eləyirdi…

- Allah evinizi yıxsın! Balamı niyə əlimdən alırsınız?..

Vahan arvadı əyləndirib nə üçün ağladığını və kimə qarğış elədiyini soruşdu.

- Kəndə hökumət adamları gəlib. Divanxanada əsgər yığırlar. Mənim də təkcə oğlumu apardılar. Nə qədər yalvardım, əl çəkmədilər. Ondan başqa övladım yoxdur. Ərim də ölübdür. Mən necə dolanacağam, Allah?! – deyib arvad yoluna davam elədi.

Vahanla Şahmərdan divanxanaya getdilər.

Vahan qapını açıb içəri girmək istəyəndə, ucaboy, enlisifət, çal bığlı zabit ona qışqırdı:

- Qapını ört, bayırda gözlə, özüm çağıracağam.

Vahan geri çəkildi. Şahmərdanla qapının yanında çöməltmə oturdular. Hər ikisi içəridən gələn danışığı dinləməyə başladılar.

- …Hansı cəhənnəmə gedib qardaşın Mixitar? Hara qaçıb?

- Allaha and olsun, a kişilər, qaçmayıb… Daha niyə gizlədim, Mixitar qonşu kənddən nişanlısını gətirməyə gedib.

- Nə? Gəlin gətirməyə? – Nersesyan ucadan güldü, sonra ciddi dedi: - Bizim dərdimizə, odumuza bax, bunların kefinə, damağına bax!

- Bir ildir ki, nişanlıdır. Möhlət verin toyunu eləsin, sonra aparın, əsgərlik qaçmır ki…

- Səsini kəs! – deyə Nersesyan bağırdı. – Hökumət öz işini bilir. Sən də fırıldaqçısan, qardaşın da. Daha sizin kimi tülkü adamların əlindən zinhara gəlmişik. Biri yalvarır ki, oğlumu əsgərliyə aparma, dolana bilmərəm, biri ağlayır ki, ərimə dəymə, uşaqlarım başsız qalar, biri özünü xəstəliyə vurur, biri meşəyə qaçır, biri toy eləyir… Bəs hökumət əsgəri hardan yığmalıdır. Get, kişi, qardaşını tap gətir!

Qoca kişi bir qədər susub sonra dedi:

- Mən sizdən təvəqqə eləyirəm möhlət verəsiniz. Xeyir işə pəl vurmaq heç yaxşı deyil…

- Get, dedim! Qardaşını gətirməsən onun yerinə sənin özünü aparacağam.

- Gərək hamı qırıla ki, mənim kimi əldən, girdən düşmüş qocalar əsgər gedə.

- Biz indi qoca, cavan axtarmırıq. Adam olsun, silah götürüb düşmən qabağına getsin, başa düşdün?

Qoca deyinə-deyinə içəridən çıxıb yola düzəldi.

Nersesyan Vahanla Şahmərdanı çağırıb soruşdu:

- Siz kimsiniz? Kiminlə işiniz var?

- Bizə kəndxuda lazım idi.

- Kəndxuda nəyinizə gərəkdir? Haralısınız?

- Dağlıyıq. Allahdan gizlin deyil, bəndədən nə gizlin, çörək dalınca düşmüşük… İş axtarırıq.

- Kəndxuda sizə nə kömək eləyə bilər?

- Biz sənətkarıq, qardaş, dülgərik. Dedik, bəlkə bu kənddə qapıdan, pəncərədən, vəldən, cütdən qayırtdıran ola. Kəndxudanı görsək o bizə deyər.

- Bu saat mən sizə iş verərəm. – Nersesyan üzünü stol arxasında oturub nə isə yazan hərbi geyimli cavan oğlana tutub dedi:

- Elə əsli bizim adamlarımız bunlardır. Öz ayaqlarıyla gəliblər… Yaz ora…

Cavan oğlan başı ilə onun sözünü təsdiq elədi. Nersesyan Vahandan soruşdu:

- Adın, familiyan nədir?

- Adım Sumbat, familiyam Hayrapetyandır.

Nersesyan üzünü Şahmərdana tutdu.

- Bəs səninki?

- Mənim adım Markar, familiyam Papyandır.

Cavan oğlan yazdı.

- Bizim adımızı niyə yazdınız? Doğrudan iş verəcəksiniz? – deyə Vahan soruşdu.

- İş yox, sizə tüfəng verəcəyik… Başa düşdünüzmü? Sizi əsgər götürürəm…

- A başına dönüm, biz iş üçün gəzirik, əsgərlik nədir? – deyə Vahan gülümsündü. – Biz özümüzü tələyə saldıq ki…

- Sən əsgərliyi tələ hesab eləyirsən? – deyə Nersesyan Vahana diqqətlə baxdı. – Bəlkə əsgərliyin qorxusundan kəndinizdən qaçmısınız?

- Cənab zabit, Allah xatirinə, bizi şərə salma! Adamı zorla əsgər aparırlar? Ə, Markar, yeri gedək!..

Nersesyan onları buraxmayıb dedi:

- Adınız siyahıya düşdü, bu gündən oldunuz əsgər. Sizin kimi bikar adamların yeri əsgərlikdir. Bundan başqa, qeyrəti olan erməni bu saat evdə oturmaz, silah götürər, vətənini düşməndən müdafiə eləyər.

- Kimdir o düşmən?

- O düşmən – qırmızılar!

- Erməni qoşunları qırmızıları elə qovmadı ki, bir də geri qayıdalar.

- Qayıdacaqlar! Bizim əlacımız olsaydı, ağacdan da adam qayırıb əlinə silah verərdik. Amma siz bunu başa düşmürsünüz…

Vahan fikrə getdi, sonra üzünü Şahmərdana tutdu.

- Bir tərəfə baxanda, zabit ağa düz deyir. İndi qeyrət zamanıdır. Mən də razı olmaram ki, erməni torpağı əldən getsin… Ancaq, cənab zabit bizə evə getmək üçün iki-üç günlük icazə versin…

Nersesyan onun sözünü kəsdi:

- Yox! Sizin burdan birbaş hərbi hissəyə göndərəcəyəm…

Erməni əsgərlərinin içinə düşmək üçün yol axtaran Vahanla Şahmərdan daha dillənmədilər, ürəklərində belə təsadüfün üz verməsindən xoşhal oldular.

Günəş Üçtəpəni aşdı. Onun zəif şüaları uca zirvələrdən də çəkildi. Hava qaralmağa başladı. Ətrafa ürəksıxıcı bir axşam qəribliyi çökdü. Çox keçmədi ki, gündüzdən səmada dolaşan qapqara buludlar meşənin üstündə sıxlaşdı. İldırım çaxdı, şimşək bir neçə dəfə əyri qılınc kimi üfüqdə parlayıb söndü, göy guruldadı, şıdırğı yağış yağmağa başladı.

Təlimdən yorğun-arğın və islanmış halda qayıdan əsgərlər çadırlara doldular. Hər kəs tüfəngini öz yanına qoydu, kimin nəyi vardısa, başının altına atıb quru yerdə uzandı.

Vahan, Şahmərdan, onlarla bərabər hərbi hissəyə gətirilmiş Mixitar və üç başqa əsgər bir çadırda idi.

Yorğun adamlar tez yuxuya getdilər. Lakin bir-birilə yanaşı uzanmış Vahanla Şahmərdan yatmadılar, uzun müddət oradan-buradan söhbət elədilər.

Vahanın sağ tərəfində yatan əsgər ufuldayıb yuxudan ayıldı, öz-özünə nə isə mızıldandı.

- Ə, Aruşan, niyə ufuldayırsan? – deyə Vahan onu qəsdən danışdırdı. – Niyə qoymursan yataq?

Aruşan Vahana sarı çevrildi və başını onun başına yaxınlaşdırıb yavaşdan dedi:

- Qıçlarım yaman sızıldayır, Sumbat kişi. Səhərdən axşama kimi çöldə ayaq döymək, gecə də paltarsız-palazsız, nəm torpağın üstündə yatmaq məni əldən salıb. Vallah, bir ay da bu çöl-biyabanda qalsam, ayaqlarım tamam tutulacaq. Yağış olanda atam lap yanır…

- Niyə həkimə göstərmirsən, müalicə elətdirmirsən?

- Eh, ay pir olmuş, sən nə danışırsan… Burda müalicə nə gəzir. Əsgərliyə təzə gəlmisən, bir az qal, dadını görərsən… Hələ yaxşıdır ki, yaydır, payızda, qışda əsgərin günü itin günü olur. – O, yenə ufuldadı. – Sağ qıçım lap betər sızıldayır.

- Ə, niyə xmbapetə demirsən ki, səni evinə buraxsın.

- Gülməli söz danışırsan, ay Sumbat kişi. Ona elə söz demək olar? Çoxdan bəri üzünü görmədiyim uşaqlarımdan ötrü burnumun ucu göynəyir… Amma neynəyim… Əsgərəm. Deyərəm, o saat güllələyərlər.

- Uşaq-uşaq danışma, niyə güllələyərlər?..

- Sparapet Njde çox zabitəli adamdır. Xmbapetlər də ondan zağ-zağ əsirlər. O, əmr verib ki, qoşundan bir əsgərə, bir saatlığa da getməyə icazə verilməsin, lap atası-anası da ölsə, ev idə uçsa… Əmri əsgərlərə oxudular.

- Elə də iş olar?

- Olur də… Deyirlər qırmızılarla dava eləmək lazımdır. Nə ev? Nə arvad-uşaq? Nə azar?

- Qırmızılar kimdir, Aruşan?

Aruşan astadan güldü.

- Əşi, elə bil, sən bu dünyanın adamı deyilsən… Eyib olmasın soruşmaq, haralısan? Savadın-zadın varmı?

- Adımı yaza bilirəm. Necə ki?

- Acığına gəlməsin, avam adama oxşayırsan. İndiyə kimi qırmızı bolşevikləri də tanımırsan?

- Mən qırmızı, ağ, göy tanımıram. Qoca əsgər babayam. Dur deyirlər dururam, otur deyirlər otururam. – Vahan bir an susub sonra soruşdu: - Sənin necə, savadın varmı?

- Mən də az-çox yazıb-oxuyuram… Hə, indi başa düş ki, bizi qırmızılarla dava eləmək üçün hazırlayırlar.

Bayırdan ayaq səsləri gəldi. Aruşan astadan dedi:

- Ayaq səslərini eşidirsənmi? Yəqin ki, növbətçi zabitdir. Çadırları yoxlayır görsün oyaq qalan, danışan kimdir. Biz də söhbətimizi kəsək. – Aruşan susub o biri üzü üstə çöndü. Çox keçmədi ki, xoruldamağa başladı.

Gecə yarı oldu. Vahan Aruşanın yatmış ya oyaq olduğunu bilmək üçün bir-iki dəfə onu yavaşdan səslədi. Ancaq cavab almadı. Vahan Şahmərdana tərəf əyilib pıçıldadı:

- Vaxt deyil?

- Vaxtdır…

Şahmərdan yerindən qalxdı, pəncələri üstə yavaş addımlarla bayıra çıxdı.

Vahan qoynundan bir vərəqə çıxardıb ehmalca Aruşanın pencəyinin cibinə qoydu.

Şahmərdan gəlib öz yerində uzandı, Vahanın qulağına dedi:

- Mən öz işimi gördüm…

- Mən də… İndi yataq…

«Ayağa qalx! Düzlən!» deyə komanda verildi.

Hər gün səhər verilən bu komandaya alışmış əsgərlər yerlərindən dik qalxıb çadırlardan bayıra çıxdılar. Lakin Aruşan yerindən tərpənmədi.

Yarım saat keçməmişdi ki, peysəri qat-qat, qırmızı yanaq bir zabit içəri girdi.

- A heyvan, sən niyə sırada yoxsan, niyə ayağa qalxmırsan? – deyə Aruşanı ayağı ilə tərpətdi.

- Dura bilmirəm, zabit ağa, qıçlarım ağrıyır.

- Özünü tülkülüyə vurma, qalx! – deyə zabit onun qolundan tutub çəkdi…

- A kişi, vallah, ölürəm, inanmırsan? Axşamdan bəri sümüklərim sızıldayır Bərk xəstələnmişəm. Budur e, qıçım şişib, dönüb tuluğa.

Zabit Aruşanın dizdən aşağı şişmiş sağ qıçına baxıb dedi:

- Qurban olasan qıçının şişinə, yoxsa səni bir kökə salardım ki, atanın toyu yadına düşərdi. Bir günlüyə icazə verirəm, yat!

Zabit getdi. Aruşan onun dalınca nifrətlə baxdı, yavaşcadan deyinə-deyinə yenə başını yerə atdı. Ancaq nə qədər çalışdısa, yuxuya gedə bilmədi. Ürəyi papiros istədi. Cibindən tənbəki kisəsini çıxardanda, dörd qat bükülmüş bir kağız yerə düşdü. «Bu nədir?» deyə götürüb oxumağa başladı.

«Erməni əsgərləri!

Njde sizi zorla evinizdən-eşiyinizdən ayırıb silah altına alıbdır. O, sizi təzədən Qızıl Ordu ilə döyüşə hazırlayır. Halbuki, fəhlələr, kəndlilər Qızıl Ordunun köməyi ilə İravanda daşnak hökumətini yıxıblar. İndi Zəngəzurdan başqa Ermənistanın hər yerində Şura hökuməti qurulmuşdur. Amma siz bundan xəbərsizsiniz, çünki həqiqəti sizdən gizlədirlər. Zabitlər deyirlər ki, guya siz vətəni müdafiə edirsiniz. Vətən təkcə Zəngəzurdan ibarət deyil, bütün Ermənistandır. Sizə deyirlər ki, guya erməni kommunistləri Ermənistanı Şura Rusiyasına satıblar. Bu yalana inanmayın. Rusiya fəhlələri, bolşevikləri bütün Ermənistanı daşnak zülmündən qurtarmaqda bizə qardaşlıq köməyi edirlər. Şura Rusiyası Ermənistana taxıl, parça, qənd, kotan göndərir.

Zabitlər sizi aldadırlar ki, azərbaycanlılar ermənilərin düşmənidir. Bu iftiraya inanmayın. Azərbaycan fəhlə-kəndli hökuməti Ermənistan zəhmətkeşlərinə taxıl, neft, benzin və duz verir.

Erməni əsgərləri! Ailənizin yanında, dinc yaşamaq istəyirsinizsə, Njdenin əmrlərinə tabe olmayın. Onu ölkədən qovun! Erməni zəhmətkeşləri ilə birlikdə, Zəngəzuru azad etməyə gələn Qızıl Ordunun hücumuna qarşı durmayın. Öz

qardaşlarınıza güllə atmayın. Tək-tək, dəstə-dəstə qaçın, ya dağlarda, meşələrdə partizanlara qoşulun, ya Qızıl Ordu hücuma keçəndə onun tərəfinə keçin. Zəngəzuru Şura Ermənistanı ilə birləşdirmək üçün əlinizdən gələni eləyin! Njdenin hökmranlığı çox davam etməyəcəkdir!»

Aruşanı fikir apardı: «Deməк, Ermənistan hökuməti dağılıb… Amma əsgərlərin heç nədən xəbərləri yoxdur. Bizi adam yerinə qoyub söz demirlər ki… Yaxşı, bəs bu kağızı mənim cibimə kim qoymuş ola? Mənimlə yanaşı yatan Sumbatmı, Markarmı? Yoxsa bu o cavan oğlan Mixitarın işidir? Mən onlardan açıq soruşummu? Yox, hələ səsə salmaq, heç kəsə bildirmək lazım deyil… - O, vərəqəni cibinə qoydu. – Yazırlar ki, qaçın… Vallah qaçardım, amma qorxuram ki, qıçım məni yarı yolda qoya, tutub güllələyələr…».

Aruşan papiros eşdi, çəkə-çəkə gözünü bir nöqtəyə zillədi.

Mixitar gəldi.

- Sənə yemək gətirmişəm, - deyə əlindəki bir tikə çörəyi və dəmir parç dolu qaynar suyu Aruşanın yanına qoydu.

Aruşan qalxıb oturdu.

- Mixitar, bu gün növbətçisən?

- Bəli, - deyə Mixitar onun yanında oturdu. – Aruşan əmi, qıçın bərk ağrayır?..

- Hərdən sancır, hərdən dayanır. – Aruşan çörəkdən dişləyib sudan içməyə başladı. Mixitarın qəmli sifətinə baxıb soruşdu: - Sənə nə olub, ay Mixitar? Gözümə fikirli dəyirsən.

Mixitar köksünü ötürərək dedi:

- Eh, ay Aruşan əmi, mənim dərdim, fikrim dünyaya sığan deyil…

- Ərə, sənə nə olub ki? Cavan oğlansan. Qoy mən dərd çəkim ki, evdə arvad-uşaq qoyub gəlmişəm. Öldü-qaldılarından da xəbərim yoxdur. Sənin ki, evdən gəldiyin az vaxtdır. Yəqin ki, gözü yolda qalanın da yoxdur.

Mixitar başını bulaya-bulaya:

- Elə dərd burasındadır ki, var… - O, toy günü əsgər gətirildiyini, nişanlısının gözü yaşlı qaldığını danışdı. Sonra dərindən ah çəkib əlavə etdi: - Mənə olan zülm heç kəsə olmayıb. Aruşan əmi, mən nişanlımın da, qohum-qardaşımın da yanında qara pulluq oldum…

- Hə, yaxşı iş olmayıb… - Aruşan parçı yerə qoydu. – Canın sağ olsun, fikir eləmə. Qayıdıb gedərsən, təzədən toy eləyərsən. Amma insafları olsa idi, gərək sənə möhlət verəydilər…

- Möhlət nədir, kişi? Onlar bacarsalar qəbirdəkiləri də dirildib, əlinə tüfəng verib əsgər elərlər. Əslinə baxsan, mən heç yaxa ələ verməzdim, amma qoca qardaşıma yazığım gəldi. Qorxdum ki, tutub incidələr…

Aruşan axırıncı tikəsini udub dedi:

- Mixitar, mən görürəm ki, sən yaxşı oğlansan. Ürəyini mənə açdın, eybi yoxdur, mən ağzı bütün adamam. Amma başqalarının yanında ehtiyatlı ol. Allah şeytana lənət eləsin, sözlərini zabitlərə çatdırarlar, işin şuluq olar.

Hələ həyat təcrübəsi olmayan Mixitar təəccüblə soruşdu:

- Əsgərlərin içində xəbərçi, şeytan da var?

- Niyə yoxdur? Meşə çaqqalsız olmaz… Ancaq sən mənə ürək qızdıra bilərsən…

Mixitar parçı götürdü, bir söz demədən qalxıb içəridən çıxdı.

Aruşan yerə uzandı və öz-özünə pıçıldayırmış kimi dedi:

- Qazamat və ölüm qorxusu olmasa Njdenin qoşununda bir əsgər qalmaz.

- Necə yəni vermirlər? Kimin ixtiyarı var ki, mənim dediyimə əməl eləməsin? – deyə Njde acıqlı-acıqlı Karonun gözünün içinə baxdı.

- Cənab sparapetin dediyi, əlbəttə, qanundur. Ancaq bunu bəziləri anlamırlar. Göndərdiyim adamlar atları, ulaqları, arabaları boş qaytarıblar. Kəndlilər deyiblər ki, köhnə taxılımız qurtarıb, təzə taxılı da hələ döyməmişik.

Njde bağırdı:

- Yalan deyirlər! Taxıl çoxdan biçilib döyülüb. Bunlar hamısı bəhanədir. Bu o deməkdir ki, kəndlilər açıqdan-açığa üzə durublar. – Njde susub bir an fikrə getdi. Sonra dedi: - Bu bizim zəifliyimizin nəticəsidir, partizanların kökünü kəsə bilməməyimizin nəticəsidir. Onlar bizdən qoçaqdırlar. Hər ixtiyarat bizim əlimizdə olduğu halda, kəndlilər sözümüzə baxmırlar… Mən bilmirəm, necə eləyirsən elə – taxıl topla! Qoşuna çörək lazımdır. Onsuz da əsgərlər paylarının azlığından şikayət edirlər. Biz onlara heç olmasa qarın dolusu yavan çörək verməsək, silahlarını yerə ata bilərlər. Başa düşdünmü, xmbapet?

Karo dillənmədi.

Njde ona əyri-əyri baxıb dedi:

- Niyə susursan? Get fikirləş. Taxıl yığmaq üçün tədbirini gəl mənə de.

- Cənab sparapet, mənim nə tədbirim ola bilər? Mən vəziyyəti danışdım. Mən…

- Sus! – deyə Njde onun sözünü kəsdi. – Vəziyyət mənə aydındır. Taxıl lazımdır, taxıl! Adam götür get kəndlilərin xırmanlarına, hazır olan taxılı al gətir, vəssalam! Vermək istəməyənləri isə cəzalandır. Bildinmi? Syunik hökumətini yaşatmaq bizim vəzifəmizdir.

Karo bir söz demədən içəridən çıxdı.

Njde əlini alnına qoyub fikrə getdi: «Kəndlilər yox, elə öz ətrafımdakılar da üzümə durmağa başlayırlar. Keçmiş general-nahankapetin əlimin altında işləməsindən narazı olduğunu duyuram. Nə isə… Məni çox düşündürən ingilislərin hərəkətidir. Onlar nə üçün indiyə kimi İrandan hücuma keçmədilər? Hələ keçən il ingilislərlə danışıb razılığa gəlmişdik ki, Qızıl Ordu Zaqafqaziyaya daxil olan kimi, onlar Kaspi dənizindən Bakıya, Araz boyundan isə Naxçıvana, İravana hücuma başlasınlar. Necə ola bilər ki, onlar Zaqafqaziya kimi bir incidən əl çəksinlər?!»

Qapı cırıldadı. Njde fikirdən ayrıldı, əlini alnından götürüb stulda düz oturdu.

Nersesyan içəri girdi, rəsm-təzim eləyib dedi:

- Cənab sparapeti, narahat elədiyimə görə üzr istəyirəm. Mən gəldim ki…

- Yaxşı eləyib gəlmisən. Səni özüm çağırtdıracaqdım. Otur.

- Xeyr, cənab sparapetin yanında oturmaram.

- Otur, mən icazə verirəm.

Nersesyan oturdu. Njde stolun siyirtməsindən bir kağız çıxardıb dedi:

- Bu sənin xmbapet Karoya verdiyin siyahıdır. Oxuyub tanış oldum. Amma işindən razı qalmadım.

- Nə barədə, cənab sparapet?

- O barədə ki, çox az əsgər yığmısan… - O, siyahını gözdən keçirib əlavə elədi: - Burda elə kəndlər var ki, əsgərliyə bir adam da verməyib. Görünür, işə çox soyuq yanaşmısan…

- Xeyr, cənab sparapet. Axırıncı səfərbərlik çox ciddi gedib. Hətta ayrı-ayrı kəndlərə özüm getmişəm.

- Bəs niyə azdır?

- Olan o qədərdir…

Njde bir qədər səsini ucaltdı:

- Necə yəni o qədərdir? Məyər ölkədə camaat qırılıb, batıb?

- Silah altına alına biləcək adam o qədərdir. Yaşı altmışdan, yetmişdən yuxarı olanları demirəm.

- Mən səninlə razılaşa bilmirəm, cənab Nersesyan. Səfərbərliyi davam etdirmək lazımdır!

- Mənim sözüm yoxdur, ancaq kəndlərdə qocalardan başqa adam qalmayıb. Bir də, cənab sparapetin nəzərinə çatdırıram ki, silah, patron da azlıq eləyir…

- Hə, bu sözün doğrudur: silahımız azlıq eləyir, - deyə Njde əlindəki siyahını siyirtməyə qoydu. – Silahsız əsgər olmaz. Yaxşı, niyə gəlmisən?

Nersesyan cibindən bir kağız çıxardıb Njdeyə verdi.

- Bu nədir?

- Bolşeviklərin bizim əsgərlərə «müraciətnaməsi»dir.

Njde oxudu. Sonra əsəbi halda kağızı ovcunda əzib stolun üstə atdı.

- Bunu hardan almısan?

- Hərbi hissədə tapılmışdır…

- Hansında?

- Tatev meşəsində olan piyada bölüyündə, əsgərlərdən biri bu vərəqəni çadırdan tapıb verib bölük komandirinə, o da çatdırıb polk komandirinə… Müxtəsər, bir az bundan əvvəl bir əsgər gətirib mənə verdi. Düzü, mən oxuyanda yerimdə otura bilmədim.

Njde kinayə ilə dedi:

- Bolşeviklər nahaq yerə qərargah rəisini və bölük komandirini yerlərindən tərpədiblər. Gərək qoyaydılar yataydınız! – O, əsəbi halda stuldan qalxıb otaqda gəzinə-gəzinə sözünə davam elədi: - Hanı sizin ayıqlığınız, malbaşlar! Ordu içində təbliğat bilirsənmi nədir, cənab Nersesyan? Qoşun hissələrində baş verən fərarilik bunun nəticəsidir.

Nersesyan ayağa qalxdı, hərəkətsiz dayanıb yavaşdan dedi:

- Elədir, cənab sparapet.

- Həmin hissənin əsgərlərindən fərarilər yoxdur ki?

- Bölük komandiri o barədə məlumatında heç nə yazmır.

- Fikrin nədir? Nə etmək lazımdır?

- Cənab sparapet ixtiyar versə, hamını axtartdırarıq, şübhəli əsgərləri həbs edərik. Bölüyü ləğv edib əsgərlərini başqa hissələrə qatarıq…

Njde stolun arxasına keçib amiranə tərzdə dedi:

- Dediklərinin heç biri yaramaz. Əsgərlərin arasında çaxnaşma, narazılıq əmələ gələr. Qoşunun içinə soxulmuş bolşevikləri tapmaq lazımdır. Başa düşdünmü?

- Bəli, ancaq necə?

- Bu işin üstünü açmaq üçün sənə adam verəcəyəm. Necə hərəkət etmək lazım gəldiyini ona deyəcəyəm. Onunla bərabər gedərsən hissəyə. Müqəssir tapılmasa, başqa tədbirə əl atmaq lazım gələcək. Başa düşdünmü?

- Bəli. Kaş o alçaqları tapa biləydik… Elə oradaca güllələrdim.

- Güllələnməməlidirlər… Mən özüm gəlib onları danışdırana kimi Tatevdəki dustaqxanamızda saxlanılmalıdırlar. Başa düşdünmü?

- Bəli.

- Get, yarım saatdan sonra gəl yanıma.

- Baş üstə.

Nersesyan getdi.

- Hər gün bir-birindən bəd xəbərlər eşidirəm. – Njde oturdu, başını iki əlli tutub fikrə getdi, sonra əlini stola çırpıb dedi: - Yox, heç bir şey mənim iradəmi sarsıda bilməz!..

Səhər alaqaranlıqdan təlimə gedən əsgərlər günorta çağı qayıtdılar. Yeməkdən sonra bəziləri dincini almaq üçün çadırlara doldu, bəzilərini meşəyə odun qırmağa, bəzilərini də bulağa su gətirməyə göndərdilər.

Mixitar öz yaşadığı çadıra girəndə içəridə heç kəs yox idi. Tüfəngini yerə qoyub bayıra çıxdı. Çadırın böyründə oturdu, yaş çarıxlarını, corablarını çıxardıb günə sərdi. «Bu gün dağlarda, dərələrdə yaman yorulmuşam. Lənət əlinə tüfəng götürüb əsgər olana!» - deyə yoğun bir kötüyə dirsəklənib gözünü meşəli dağlara dikdi. Heç bir an unutmadığı sevgilisi elə bil gəlib gözünün qabağında durdu. Fikir-xəyal Mixitarın qəlbinin tellərini dilə gətirdi – o yavaşdan oxumağa başladı:

Dərd əlindən kabab olub ürəyim,
Necə sənin həsrətini çəkim, yar?
Nə haldadır indi gülüm, çiçəyim?
Xəbər verin mənə ondan, a dağlar!

Uçan quşlar, bir dərdimi dinləyin,
Demirəm ki, mənim kimi inləyin.
Mənim gözəl sevgilimə söyləyin:
Qəm çəkməsin, tezlik ilə yar gələr.

Şahmərdan da yorğun addımlarla çadıra yaxınlaşıb Mixitarın yanında oturdu.

- Yaxşı oxuyursan, Mixitar! Görünür, kefin sazdır…

Mixitar köksünü ötürdü.

- Eh, ay Markar, elə bilirsən, kefimin sazlığından oxuyuram? Dərdim çoxdur, ərə, dərdim…

- Zarafat eləyirəm. Dərdli olduğunu yaxşı bilirəm. Canın üçün, bu gün də Sumbat kişi ilə sənin barəndə danışırdıq. Deyirdik, yazıq Mixitarı toyunu eləməyə də qoymayıblar. Eybi yoxdur, fikir eləmə. Əsgərlik vaxtını qurtarıb gedərsən evinə… Vallah, elə mən də sən gündəyəm, varım-yoxum bir arvadım var, ondan da aralı düşmüşəm.

- Yox, Markar, mənə olan zülm heç kimə olmayıb. Axı de görüm, bu dağlarda, dərələrdə təpik döyməkdən bizə nə çıxacaq? Niyə qoymurlar ki, kənddə qalıb kasıblığımızı eləyək?!

- Əsgərlik hamının borcudur, belə sözləri danışma.

Mixitar əlini havada oynadıb dedi:

- Hay, hay, hələ mən nə danışıram… Əsgərlərin arasında elə danışıqlar gedir ki, ha…

Şahmərdan Mixitara daha yaxın oturub soruşdu:

- Nə danışırlar? Xeyir xəbər var?

- Ərə, Markar, deyərəm, birdən…

- Canın üçün, arxayın ol. Ağzı bütünəm.

- Yəni sən özün heç nə eşitməmisən?

- Yox. Deyərsən – eşidərəm.

- Onda dur gedək içəridə deyim.

İkisi də çadıra girib oturdu.

- Dünən köynəyimi yumaq üçün getmişdim bulağa. Meşənin içi ilə yeriyəndə səs eşitdim. Ayaq saxlayıb o tərəfə, bu tərəfə baxdım. Gördüm ki, iki əsgər ağacın altında oturub. Düzü, onların baş-başa verib danışmaları məni şübhəyə saldı. Yavaşca irəli addımlayıb bir ağacın dalına keçdim, sözlərinə qulaq asdım. Biri deyirdi: «Allah kəssin belə əsgərliyi ki, adamın qarnı doyunca yavan çörək də görmür». O biri deyirdi: «Qardaş, mən lap candan, taqətdən düşmüşəm. Çarəmiz nədir, gərək hər əziyyətə dözək…» Müxtəsər, evlərindən, ailələrindən danışdılar. Axırda biri cibindən bir vərəq kağız çıxartdı, o yana, bu yana baxandan sonra oxudu. O sözləri oxudu ki, onları mən də bilirəm. Əsgərlərin çoxunda o kağızdan var. Hə, Markar, özümü onlara göstərməyib bulağa sarı getdim.

- Ay Mixitar, məni də maraqlandırdın, o nə kağızdır, orda nə yazıblar?

- Çox sözlər, özü də biz erməni əsgərlərinə…

- Ondan səndə var?

- Yox. Bizimlə bir çadırda yatan Aruşan nədir, mənə də o oxuyub başa salıb.

- Yaxşı, o kağızda nə yazıldığını yenə bilmədim axı.

Mixitar müraciətnamənin məzmununu qısa danışdı.

Şahmərdan soruşdu:

- İndi sənin fikrin nədir?

- Qalmışam məəttəl. Bilmirəm, qırmızılar gələnə kimi qaçım ya yox. Sən necə məsləhət görürsən?

- Mən nə deyim, vallah, vuran oğul ataya gənəşməz. Aruşan nə fikirdədir?

- Elə o da deyir ki, kağızda yazılanlar doğrudur. Deyir: «Ermənistanda hökumət bizim kimi kasıbların əlinə keçəndən sonra bizə nə düşüb ki, bu dağlarda özümüzü güllə qabağına verək». İndi, Markar, işdir, Aruşanla mən gecənin birində burdan əkilsək sən də qoşularsanmı?

Şahmərdan onun sualına cavab verməyib özü soruşdu:

- Bu fikirdə olan ikinizsiniz, yoxsa başqaları da var?

- Hamını bilmirəm. Yəqin o meşədə danışan əsgərlər də qaçmaq istəyirlər. Sənə dediyimə baxma, başqası ilə danışmaram. Ancaq o günü Aruşanla söhbət eləyəndə, o dedi ki, əsgərlərin içində narazı olanları çoxdur. Elə qırmızıların gülləsi açılan kimi çoxları onların tərəfinə keçəcək. Hə, indi nə deyirsən, bizə qoşulursan ya yox?

- Fikirləşib deyərəm.

- Yaxşı, fikirləş.

Odun qırmaqdan gələn Vahan, Aruşan və başqa əsgərlər çadıra girdikdə söhbət kəsildi.

Gecə yarıdan keçdi. Çadırda birinin xorultusu, birinin fısıltısı, Aruşanınsa hərdənbir yuxulu-yuxulu ufuldaması eşidilirdi. Gecənin bu vaxtında yerinə sanki qor dolan yalnız Mixitar idi. Qapı ağzında uzanmış bu əsgər güzdükü fikir-xəyalının təsirindən qurtara bilmirdi…

Mixitar başını qaldırıb qapıdan bayıra baxdı. Hər yeri süd kimi eləyən ayın işığı onun üzünə düşdü. Başqa vaxt olsa idi, Mixitar ayın parlaq camalına baxmaqdan doymazdı, lakin indi onun tez batmasını istəyirdi…

Mixitar intizar içində xeyli gözlədi. Nəhayət, ay bir topa qara buludun qoynuna girdi. Mixitar fürsəti fotə vermədi. Tez yerindən qalxdı. Tüfəngini götürüb yavaşca bayıra çıxdı. O tərəfə, bu tərəfə baxdı, gözünə heç kəs görünmədi. Əyilə-əyilə meşəyə doğru addımladı.

…Əsgərlər bir düzənlikdə sıra-sıra dayanmışdılar. Təcili olaraq çadırlardan çıxarılıb sıralara düzüldüklərinin səbəbini heç kəs bilmirdi. Hərə bir şey düşünürdü. Biri fikirləşirdi ki: «Yenə bizi odun qırmağa aparacaqlar, qoymadılar ki, Allahın yuxusunu da yataq». Biri fikirləşirdi ki: «Yəqin əsgərləri bir yolluq evlərinə buraxacaqlar…». Biri fikirləşdi ki: «Olmaya qırmızılar qəfil hücuma keçiblər?..»

Şahmərdan Vahanın qulağına pıçıldadı: «Bəlkə Mixitarı tutublar…».

Qarşı tərəfdən iki adam göründü.

Ucaboy, arıq, qarayanız bölük komandiri «farağat» komandası verdi, sonra gələnlərin qabağına qaçdı. Qərargah rəisinin qarşısında dayanıb rəsm-təzim edərək, bölüyün düzülməsi haqqında raport verdi.

Qərargah rəisi Nersesyan, Saak və bölük komandiri əsgərlərə tərəf yeriməyə başladılar. Onlar heç bir söz demədən yavaş addımlarla sıraların qarşısından keçə-keçə əsgərlərə baxırdılar. Arxadakı sıraya yaxınlaşanda, Vahan Saakı tanıdı. Şahmərdanın qulağına pıçıldadı:

- Saakı görürsənmi? O alçaq hardan bura gəlib çıxdı?

- Görürəm…

Şahmərdanla Vahan, hər bir əsgərin üzünə diqqətlə baxan Saakın nəzərindən yayına bilmədilər.

O, gəlib Vahanla Şahmərdanın qarşısında dayandı. Heç bir söz demədən, gülümsündü. Üzünü Nersesyana və bölük komandirinə tərəf çevirib başıyla Vahanı, Şahmərdanı göstərdi:

- Bunları sıradan çıxardın.

Bölük komandiri Vahanla Şahmərdanı sıradan çıxardıb yavaşdan dedi:

- Bizimlə gedəcəksiniz!

- Hara gedəcəyik? Biz…

- Əsgərin belə sual verməyə ixtiyarı yoxdur! – deyə bölük komandiri Vahanın sözünü kəsdi. – Düşün qabağa. – O, ürəyində əlavə elədi: «Xainlər! Mixitarı da siz qaçırmısınız!»

Bölük komandiri əsgərlərin dağılışması üçün komanda verdi.

Əsgərlər yerlərindən hərəkət eləməyə başlayanda, Vahan bir az kənara çəkilib qışqırdı:

- Əsgərlər, getməyin, məni eşidin! Bu xainlər bizi öldürməyə aparırlar. Bu gündən sizin üçün də var, qardaşlar!

- Səsini kəs, alçaq! – deyə Nersesyan bağırdı.

Vahan susmadı. Yerindən tərpənmədən ona qulaq asan əsgərlərə yenə müraciət elədi:

- Kim ölüm istəmirsə, daşnakların zülmündən qurtarmaq istəyirsə, dağlara, meşələrə qaçsın!..

Bölük komandiri Vahanı vurmaq istədi, lakin Nersesyan qoymadı… Zabit Saakın köməkliyi ilə Vahanın qollarını bağlamağa başladı.

- Qardaşlar, bilin ki, Qızıl Ordu tezliklə gələcək! – deyə Şahmərdan cibindən bir neçə vərəqə çıxardıb havaya tulladı. – Bu kağızları oxuyun, həqiqət burda yazılmışdır…

- Sus, bolşevik! – deyə Nersesyan Şahmərdanı mauzerin dəstəyi ilə döyməyə başladı.

Qolu bağlı Vahana, döyülən Şahmərdana heyrət içində baxan əsgərlərə komandir əsəbi halda yenə «dağılışın» əmrini verdi.

Əsgərlər könülsüz-könülsüz dağılışmağa başladılar.

Çadıra tərəf məyus halda gedən Aruşan ürəyində deyirdi: «Cibimə «müraciətnamə»ni qoyan, demək, bunlar imiş… Heyif ki, yazıqları öldürəcəklər…».

- Bizim Syunik hökumətinin dayağı sizsiniz! – deyə Njde sözünə davam elədi. – Göndərdiyiniz çoxlu taxıla görə də sizə təşəkkür edirəm.

- Cənab sparapetin bir kəlməsi üçün mən başımı verməyə hazıram…

Manuçar dedi:

- Baqrat ağa elə mənim də fikrimi dedi. Təki bolşeviklərdən sən cənab sparapetə və bizə bir xətər gəlməsin, taxıl nə şeydir ki…

- Ağalar, taxıl barədə söhbəti kəsək. Mən sizi başqa məqsəd üçün çağırtdırmışam. Ona baxmayaraq ki, Qırmızı Ordunu vurub geri qaytardıq, Zəngəzur bütünlüklə bizim əlimizdədir, ancaq ölkənin daxilində yenə mübarizə gedir. Kəndlilər hökumətin əmrlərini yerinə yetirmək istəmirlər: əsgərlikdən imtina edirlər, vergidən boyun qaçırırlar. Bunların hamısına səbəb partizanların fəaliyyətidir. Biz onları dağlardan, meşələrdən təmizləyə bilməmişik. Kəndlilər partizanları gizlədirlər, ələ vermək istəmirlər. Vəziyyəti bu cür qoymaq olmaz. Bu işdə sizin köməkliyiniz lazımdır…

Baqrat dilləndi:

- Bizdən nə asılıdır, eləyək.

- Mən belə məsləhət görürəm ki, hər ikiniz, inandığınız adamlardan başınıza dəstə yığasınız. Gərək sən Baqrat ağa Sisyan kəndlərində, bu Manuçar ağa da Gorus kəndlərində partizanlara, bolşeviklərə qarşı mübarizə aparasınız. Mən sizə ixtiyar verirəm: partizanları tutduğunuz yerdə güllələyin, evini qarət eləyin.

Manuçar əlini bığına çəkərək dedi:

- Bəs bizim qoşunumuz nə eləyir? Nə üçün partizanların kökünü kəsmir?

- Qoşun Qızıl Ordunun qabağına çıxmaq üçündür. Mən qoşunu partizanların dalınca meşələrə, dağlara sala bilmərəm.

Baqrat dedi:

- Doğrudur, doğrudur! Mən cənab sparapetin təklifinə tamam şərikəm. Özümüzün və hökumətimizin xeyri üçün bir az əziyyət çəkəndə nə olar!.. Lap bu yolda ölsək də eybi yoxdur.

Dağda-daşda partizan axtarmağa, mübarizə eləməyə həvəsi olmayan Manuçar, Njdenin qəzəbi tutmasın deyə, onunla razı olduğunu bildirdi.

- Ağalar, bir sözüm də var. Şər deməsən, xeyir gəlməz. İşdir, dava başlansa, hər ikiniz öz dəstənizlə dərhal mənim sərəncamıma gəlməlisiniz. Başa düşürsünüzmü?

- Aydındır, cənab sparapet! – deyə Baqrat yerindən qalxmaq istəyəndə, Nersesyanla Saak içəri girdi.

Njde Nersesyanın üzünə dik baxıb soruşdu:

- Hə, necə gəldiniz?

Nersesyan lovğa-lovğa gülərək, cavab verdi:

- Cənab sparapet pis gəlməmişik.

- Oturun, danışın! – deyə Njde Nersesyanla Saaka müraciət elədi.

Hər ikisi oturdu. Nersesyan dilləndi:

- Tapşırığını yerinə yetirdik, cənab sparapet. Ancaq necə yerinə yetirdiyimizi sonra müfəssəl danışaram.

Njde Baqratla Manuçara işarə edərək dedi:

- Bu ağalar Milli Şuranın üzvləridir. Bizim bunlardan gizli sirrimiz yoxdur. Danış.

Nersesyan özünün və Saakın «fəaliyyətindən» ətraflı danışıb axırda dedi:

- Bölüyün içinə soxulmuş bolşeviklər əsgərlərin arasında geniş təbliğat aparırlarmış, sizə məlum olan müraciətnaməni də yayan onlardır. Bunun nəticəsində bir əsgər qaçmışdır… Ancaq adı, familiyası mənə məlumdur. Nə isə, qəribə burasıdır ki, həbs edib Tatev monastırına saldığım o iki bolşevikin biri müsəlmandır. Axtarış zamanı məhbusların cibindən bunlardan başqa heç nə çıxmadı. – Nersesyan tapançanı və bir neçə vərəqəni Njdenin stolunun üstə qoydu. – Cənab sparapet, onu da deyim ki, bolşeviklərin ifşasında bu kişi böyük iş gördü.

Njde Saaka baxıb gülümsündü:

- Afərin, Saak! Mən sənin qoçaqlığına arxayın idim. Bölükdən qaçan əsgəri də tapsan yanımda hörmətin qat-qat artacaqdır…

Njdenin tərifindən ürəklənən Saak dedi:

- Mənim arzum ancaq sparapet ağaya və onun hökumətinə yaxşı qulluq eləməkdir. Bu yolda başımı da verməyə hazıram.

Baqrat dilləndi:

- Cənab sparapet, bizim kəndli bu Saak kişi bir neçə il bundan qabaq bolşeviklərə qoşulmuşdu. Ona görə də bundan zəhləm gedirdi. Amma indi dostam. Ərə, Saak, dərz məsələsini yadından çıxartmamısan ki?

- Xeyr, Baqrat ağa, yadımdadır. Olur də… Allah şeytana lənət eləsin. O vaxt məni yoldan çıxardan Vahan da, onun müsəlman yoldaşı da mənim əlimlə tutulub dama basıldı…

- Ərə, dustaq olunan bizim kənddəki usta Vahandır?

- Bəli, odur.

- Cənab sparapet, o Vahanı bir saat da sağ qoymaq olmaz. Sən tanımırsan, dünyanı bir-birinə vuran köpək oğlunun biridir. İkisinin də ətini tikə-tikə doğramaq lazımdır. Özü də camaatın gözünün qabağında. Qardaşım Qurgeni yoldan çıxardıb mənə düşmən eləyən onlardır. Çox yaxşı oldu ki, Qurgeni çarmıxa çəkdirdin. Kaş Suren də ələ keçəydi, onda ürəyim soyuyardı…

Manuçar dedi:

- Onları mən də yaxşı tanıyıram. Kəndxuda ilə məni dama basan, bayraq qaldırıb Xınzirəkdə Şura hökuməti quran it oğlanlarıdır. Cənab sparapet, o köhnə qurdlar daş divarı deşib qaça bilərlər. Onları tezliklə cəhənnəmə vasil eləmək lazımdır.

Njde məğrur-məğrur güldü:

- Siz heç narahat olmayın, ağalar! Ölü qəbirdən geri qayıtmaz. Nersesyan, nə cür olub ki, bolşeviklər bizim bölüyün içinə soxula biliblər?

Njdenin cəzasından qorxduğu üçün Nersesyan həqiqəti gizlətdi. Vahanla Şahmərdanı özü əsgərliyə götürdüyünü söyləmədi.

- Cənab sparapet, nə qədər sıxışdırdımsa da, bizim hərbi hissəyə necə soxulduqlarını demədilər…

Növrəstə aynabənddə köhnə dəmir çarpayıda yatmışdı. Günorta yerinə qalxmış yay günəşi qızıl tellərini onun üz-gözünə səpələmişdi. Növrəstə daş kimi yatdığından şüaların yandırıcı hərarətini hiss eləmirdi. Bulaq suyu kimi təmiz, şəffaf tər damcılarının, ağ sifətindən, mərmər buxağından sinəsinə yuvarlandığını da hiss eləmirdi. Kənardan baxan olsa idi, onu on dörd gecəlik aya bənzədərdi. Fəlakətlər görmüş, əzab-əziyyət çəkmiş Növrəstə bir az sınıxmış, dəyişilmiş olsa da, yenə öz gözəlliyini saxlamışdı.

O, xeyli yatdı. Birdən hilali qaşları çatıldı, yanaqlarını döyən uzun, qara kirpikləri aralandı, dodaqları titrədi. «Qoymaram! Qoymaram! Deyə hövlnak başını qaldırdı. Əlini şiddətlə döyünən ürəyinin üstünə qoydu.

- Lənət sənə, kor şeytan, bir gör nə yuxu görürəm e… - O, üz-gözünün tərini sildi, günəşə baxdı. – Özüm də nə çox yatmışam!

Növrəstə əl-üzünü yumaq üçün ayağa qalxanda Siranuş aynabəndə girdi.

- Rəngin-rufun niyə qaçıb, ay Növrəstə?

- Çox pis yuxu görmüşəm. Yaxşı ki, oyandım, yoxsa bağrım çatlayacaqdı.

- Nə yuxu görmüsən? Kimi görmüsən? Nağıl elə görək.

- Gördüm öz kəndimizdəyəm. Elə indiki kimi gözəl yay günüdür. Qonşumuz oğluna toy eləyir. Hamı yığılıb gəlib. Ev, həyət-baca adamla dolub. Mən də onların içindəyəm. Kim isə Şahmərdanın qolundan tutub çəkdi meydana. Dedi: «Gəl güləşək». Qurşaqlaşdılar, bibioğlum onu yıxdı. Bu vaxt kənardan üç-dörd atlı çıxdı. Yaxınlaşdılar – gördüm pristavla strajniklərdir. Toyçular daha çalmadılar. Pristav Şahmərdanı göstərib strajniklərə dedi: «Tutun, onu çoxdan axtarırdım». Bibioğlumun qollarını bağlayanda, əldən buraxılıb qaçdı. Pristav onu daldan gülləyə tutdu. Şahmərdan yıxıldı. Ağlaya-ağlaya özümü onun üstünə saldım. Strajnik məni geri itələdi. Şahmərdanın qollarını bağlayıb, qıçından qan sıza-sıza aparanda mən qışqırdım. Elə bu vaxt öz səsimə ayıldım.

Siranuş güldü.

- Şahmərdan qardaşın fikri ilə yatmısan. Onun üçün də yuxuna girib. Yuxuda qan görmək pis deyil, deyərlər ki, qan qovuşuqdur. İnşAllah, o da, Vahan dayı da sağ-salamat qayıdıb gələcəklər.

- Eh, nə deyim, ay Siranuş, Allah ağzından eşitsin. Ancaq elə bilirəm ki, bir də onun üzünü görməyəcəyəm…

- Yaxşı, yaxşı, elə fikirləri beynindən çıxart. Gorus davasında biz də düşmənlə üz-üzə gəldik – ölmədik ki… Suren dünən mənə deyirdi ki, hazır ol, bəlkə bu günlərdə daşnakların üstə getdik. Deyirdi, bu dəfə Njdenin qoşununu darmadağın eləyəcəyik.

- Ay Siranuş, vallah, bilmirəm nə vaxt bu dava-şavadan qurtaracayıq?..

- Nə bilim, ay qız, dur gedək.

- Hara?

- Bizə. Səni aparmağa gəlmişəm. Bu gün günorta çörəyini bizdə yeyəcəyik.

- Gedə bilmərəm. Əmim, dayım gəlib məni evdə görməzlər.

- Onlar da bizdə olacaqlar. Dur gedək.

Növrəstə etiraz eləmədi. Onlar küçəyə çıxanda Camalla qarşılaşdılar.

- Salaməleyküm. Mən sizə gəlirdim, Növrəstə bacı!..

- Nə olar, yaxşı eləyirdin. Siranuş, qayıdaq evə.

Camal dedi:

- Yox, daha evə qayıtmaq lazım deyil. Elə bir vacib işim yoxdur. Səninlə xudahafizləşmək istəyirdim. Dedim, Növrəstə bacını görməmiş gedərəm, inciyər.

- Hara gedirsən?

- Evimizə. Sizdən də eyib olmasın, arvaddan kağız almışam, yazır ki, xəstəyəm, özünü mənə yetir. Mən də yoldaşlara danışdım, getməyimi məsləhət gördülər. Gerasimov da icazə verdi. Əlimə də bir kağız verdi ki, Camal Allahyar oğlu partizan olub, hazırda Qırmızı Orduda əsgərlik eləyir… Özü də tapşırdı ki, bu kağızı möhkəm saxla, bir vaxt sənə lazım olar. Hə, indi mənə sözündən-sovundan?..

- Məndən Tükəzban bacıya salam-dua apar.

- Baş üstə, salam göndərən sağ olsun…

- De ki, vaxt olar, yaxşılığından çıxaram. O, mənə anadan, bacıdan artıq olub.

- Növrəstə bacı. Elə ona sevinirəm ki, səndən nigaran getmirəm. Əmin komissardır, qardaşın əsgər olub, dayın müəllimliyə girib, ərinlə də ki, maşAllah,

can bir qəlbdəsiniz. Gün o gün olsun ki, daşnaklar tarmar olsun, siz də öz kəndinizə qayıdıb rahat yaşayasınız. Hə, daha sizi küçədə çox saxlamaq istəmirəm. İkiniz də salamat qalın!

Növrəstə və Siranuş sanki bir ağızdan:

- Sağ-salamat get, Camal qardaş! – dedilər.

Camal ayrılıb küçə aşağı getdi. Növrəstə və Siranuş da başqa səmtə yönəldilər.

## On doqquzuncu fəsil

Günün saraltısı dağların başından çəkiləndə Tatevə doğru üç atlı gəlirdi…

Tatev kəndi Zəngəzurun ən qədim kəndlərindən biridir. Qədim olduğu qədər də gözəl və mənzərəlidir. Onun şimal tərəfində sıra-sıra çılpaq dağlar görünür. Adama elə gəlir ki, zümrüd səma, sütun kimi qalxmış həmin dağların uca və şiş zirvələri üzərində dayanıb… Kəndi qərb və şərq tərəfdən dərələr, təpələr, qalın meşələr əhatə edir. İki qayanın arasından tökülən güclü şəlalə ətrafa səs salır.

Kəndə bu tərəfdən girən hər kəs əvvəlcə bir monastır görəcəkdir. Qədim əsrlərdən yadigar qalmış bu monastır geniş və çox dərin bir dərənin yamacındakı sıldırım qayanın üstündə tikilmişdir. Deyilənlərə görə, onu qədim Syunik hökuməti, saysız insan əməyi və kəndlilərdən alınan xərac hesabına illər uzunu tikdirmişdir. Ononun tikdirilməsində iki məqsəd varmış: buranı dini ocağa çevirmək, Tatevi və ətraf kəndləri xarici işğalçılardan müdafiə etmək.

Deyirlər ki, həm keşiş, həm də alim olan Qrikor Tatevski burada böyük bir kitabxana təşkil edibmiş, din xadimləri hazırlamaq üçün ruhani məktəb açıbmış.

Monastır öz arxitekturası, daşlara, divarlara həkk olunmuş yazıları, şəkilləri, bəzəkləri cəhətdən böyük bir sənət abidəsi kimi diqqəti cəlb edir. Bütün kənd əhalisini tuta biləcək monastırın yalnız iki qapısı var. Qapıların başının üstdə baca açılmışdır. Deyirlər ki, bu, düşmənin monastıra daxil olacağı zaman, onun başına isti su tökmək, daş salmaq üçünmüş.

Monastırın içində dəyirman, çörək bişirmək üçün kürə və zəərək yağı hasil etmək üçün emalatxana da var.

Monastırın bir qülləsi var ki, dava zamanı keşikçilər buradan ətrafa baxar, düşmənin hansı tərəfdən hücum etdiyini görüb xəbər verərmişlər. Bu zaman böyük zəngi çalıb bir fəlakət üz verdiyini ətraf kəndlərə bildirərmişlər: kəndlilər yığılıb gələr, düşməni qovarmışlar.

Monastırın geniş həyətində, daima öz-özünə yırğalanan bir sütun ucalır. Qədim erməni münəccimləri bu hündür sütunun başından ayı, ulduzları seyr edirmişlər.

Rəvayətə görə, bir dəfə işğalçılar Tatevə hücum etmişlər. İlk növbədə monastırı ələ keçirməyə can atmışlar. Lakin ala bilməyib böyük tələfatla geri qayıtmışlar. İkinci hücum zamanı, bir nəfərin satqınlığı üzündən, düşmən əsgərlərindən bir neçəsi gizli surətdə monastıra soxula bilmişdir. Onlar zəngi açıb yerə salmışlar. Tatevlilər daha zəng səsiylə ətraf kəndlərə xəbər verə bilməmişlər,

demişlər: «Zanq zur», yəni «zəng susdu». Deyilənlərə görə, ölkə bu zamandan Zəngəzur adlanmışdır.

Bəli, Tatevin zəngi çoxdan susmuşdur, lakin daşnakların indi həbsxanaya çevirdikləri monastırın qaranlıq bucaqlarından inilti səsi kəsilməmişdir.

…Atlılar enişli, yoxuşlu dar cığırlarla gəlib meşəyə girdilər.

- Cənab sparapet, atı tez sürüb meşədən çıxmaq lazımdır…

Njde Nersesyanın üzünə tərs-tərs baxdı.

- Sən nə zamandan bəri belə qorxaq olmusan?

- Mən ehtiyat üçün deyirəm. Meşə bu saat qorxuludur…

Atlılar meşədən çıxdılar. Kəndə çatmağa az qalırdı.

- Mən camaata xəbər verim ki, sparapet ağanın qabağına çıxsınlar! – deyə Samvel atını şallaqladı…

Dərin bir dərənin baş tərəfindən keçəndə Njde Nersesyandan soruşdu:

- Bu dərənin adını bilirsənmi?

- Xeyr.

- Buraya «Qız dərəsi» deyərlər. Belə rəvayət var ki, qədim zamanlarda bir dəfə İran şahı Arazı keçib erməni torpağına basqın eləyir. Düşmən qoşunu bir çox kəndi alır. Ermənilərdən bəziləri əsir düşür, bəziləri dağlara, meşələrə qaçır. İranlılara əsir düşmüş gözəl bir erməni qızı özünü öldürmək istəyir, ancaq qoymayırlar. Deyirlər ki, səni şahın hərəmxanasına aparacayıq. Onu İrana aparmaq üçün iki əsgərin qabağına qatırlar. Bu dərənin kənarından keçəndə qız əsgərlərdən birini uçuruma itələyir. Özü isə qaçmağa üz qoyur, lakin ikinci əsgərin oxu onu kürəyindən yaralayır. Qız sürünə-sürünə dərənin kənarına gəlib çıxır, özünü uçuruma tullayır. O vaxtdan dərənin Adı qalır «Qız dərəsi». – Njde geri çevrilib Nersesyandan soruşdu: - Bunu nə üçün danışdığımı başa düşdünmü?

- Bəli, başa düşdüm ki, qədimdən qalma belə bir əfsanə var.

- Yox, rəis. Mən onu demək istəyirdim ki, bizim əsgərlərimiz də gərək o qız kimi qeyrətli olsunlar. Düşmənə diri-diri təslim olmasınlar.

Onlar şəlalənin yanından ötüb keçəndə, Njde atı saxladı. Nersesyan da öz atının başını çəkdi. Hər ikisi bir neçə dəqiqə sakit durduqdan sonra Nersesyan dilləndi:

- Görünür ki, bu yerlər cənab sparapetin çox xoşuna gəlir… Meşə, şəlalə, dağ-daş…

- O monastırı görürsənmi?

- Bəli, görürəm, necə ki?

- Mən ondan başqa heç nəyə baxmaq istəmirəm. O, qədim Syunik hökumətindən mənim indiki Syunik hökumətimə yadigar qalmışdır. Onu tikən ustanın adını bilmirəm. Ancaq mahir usta imiş. Sıldırım qayanın üstündə elə bir əzəmətli monastır tikib. Fikirləşirəm ki, mənim düşmənlərimdən nə qədərini o monastırdan aşağı, dərənin dibinə atdırsam ürəyim soyuyar…

- Keçən payızda Tatev monastırından nə qədər adam atdırdın?

- İravan həbsxanasından gətirilmiş altmışa qədər kommunist…

- Bu axşam da ikisini atdırarsan, ürəyin soyuyar.

- İki kommunist nədir? Məndə ilahi bir qüvvə olsaydı, bütün yer üzündəki kommunistləri birdəfəlik məhv edərdim…

Hər ikisi atını tərpətdi.

Kəndin girəcəyində onları Samvel və kəndxuda qarşıladı.

Kəndxuda salam verib Njdenin qabağında ikiqat oldu.

- Sparapet ağa, bizə gedəcəyik! – deyə Njdenin atının cilovundan tutub çəkməyə başladı.

Bütün kənd camaatının pişvaza çıxmamasından rəncidə olan Njde kəndxudadan soruşdu:

- Kənddə səndən başqa başı papaqlı var? Yoxsa hamısı qırılıb, heç xəbərimiz yoxdur?

Njdenin bu kinayəli sözlərlə nə demək istədiyini dərhal başa düşən kəndxuda dilləndi:

- Adamlar çöldə-bayırda, işdədirlər. Sənin gələcəyindən xəbərləri yoxdur. Səni qarşılamaq üçün hamının əvəzindən özüm gəlmişəm…

Monastırın pəncərəsiz, bacasız və qaranlıq bir məbədi… Hava kəsif, yerdən nəm iyi gəlir. Vaxtı ilə burada mömin bəndələr niyyət edib çoxlu şam yandırmışlar, keşişin qübbələrdə əks-səda verən duasına, mövzəsinə qulaq asmışlar. Həyat mübarizəsindən, dünya zövqündən əl çəkib tərki-dünya olmuş neçə-neçə rahib ömrünü burda ibadətlə başa vermişdir…

Vahanla Şahmərdan məbədin bir bucağında, soyuq sal daşların üstündə uzanmışdılar. Neçə gün idi ki, işıqlı dünya ilə əlaqələri tamam kəsilmişdi. Sağır daş-divarlardan, başları üzərində ucalan tağbənddən başqa heç nə görmürdülər, qollarındakı zəncirlərin səsindən başqa heç bir səs eşitmirdilər.

Düşdüyü təhlükədən xilas olmaq üçün heç bir imkanı olmayan insanın yeganə təsəllisi fikir-xəyaldır… Vahanla Şahmərdan da şirin xəyallar içində idilər. Onlar bir an da olsun ölüm haqqında düşünmür, bu qaranlıq zindandan azad olub yenə də öz əməlləri uğrunda çarpışacaqlarına ümid edirdilər.

Gözünü qaranlıq bir nöqtəyə zilləmiş Şahmərdanın xəyalına mübariz yoldaşları və gündə neçə dəfə xatırladığı arvadı gəldi. Elə bil, Növrəstə ona deyirdi: «…Bibioğlu, dedim axı, ehtiyatlı ol… İndi özünü də bədbəxt elədin, məni də». Şahmərdan köksünü ötürdü və Növrəstə ilə qabaq-qarşı durub danışırmış kimi, ucadan dedi:

- Yox, əzizim, biz bədbəxt olmayacayıq! Səbirli və möhkəm ol!

Vahan da zəncirini səslədə-səslədə durub oturdu.

- Yanlarımı daş əzdi, qollarımı zəncir kəsdi…

- Görəsən bizi burda çox saxlayacaqlar?

- Onu kim bilər…

- Kaş, bizimkilərin xəbəri olaydı, bizi azad eləmək üçün bir tədbir götürəydilər…

- Bizi öldürməsələr, azad olmağımız qaldı Qızıl Ordunun hücumuna. Mən onu arzu edirəm ki, ordumuz tezliklə hücuma keçsin…

- Bu xarabanın bir deşiyi, bacası da yoxdur ki, təzə hava alasan. Nəfəsim təngişir…

- Sənin nəfəsin təngişir, mən də acam. Gözlərim qaralır, başım fırlanır.

Bayırdan tappıltı səsi gəldi. Məbədin ensiz və alçaq qapısı açıldı. Əvvəlcə əlində fonar olan həbsxana rəisi, sonra bir əsgər içəri girdi. Vahan, Şahmərdan yerlərindən tərpənmədilər. Həbsxana rəisi fonarın işığını gah Vahanın, gah Şahmərdanın üzünə salıb dedi:

- Qalxın ayağa!

- Bizi hara aparırsınız? – deyə Vahan soruşdu.

- Hara? İkinizə də toy eləyəcəyik. Qalxın ayağa!

- Toy özünə qalsın. Biz acıq, çörək verin.

- Yaxşı! Çərənləmə! – Həbsxana rəisi Vahana bir təpik ilişdirdi. – Yaxşı iş görmüsünüz, hələ bir sizin qarnınızı da doyuracayıq…

Dustaqları bayıra çıxartdılar…

Əli tapançalı həbsxana rəisi qabaqda, süngüsü az qala dustaqların kürəyinə toxunan əsgər arxada gedirdi.

Şahmərdan yeriyə-yeriyə, gah başının üstündə çətir kimi açılmış mavi səmaya, sayrışan parlaq ulduzlara, gah ay işığında qalın kölgə kimi görünən meşəyə baxdı. O dayandı.

- Nə təmiz, nə sərin havadır! – deyə sinə dolusu nəfəs aldı.

- Dayanma! – deyə əsgər tüfənginin qundağı ilə onu daldan itələdi. – Yeri! Ayağını tez-tez at!

Dustaqları kəndxudanın evinə gətirdilər. İçəri girən kimi onların burnuna şərab və ət iyi gəldi. Görünür, buradakılar təzəcə yeyib-içmişdilər. Vahanla Şahmərdan otaqdakı adamların içində yalnız Samvellə Nersesyanı tanıdılar.

Nersesyan Vahanı göstərib dedi:

- O qoca bolşevik ermənidir, o biri də müsəlman.

Samvel də dilləndi:

- Cənab sparapet, bunları mən yaxşı tanıyıram. Köhnə qurddurlar.

Qalın döşəyin üstündə oturub mütəkkəyə dirsəklənmiş, zər poqonlu, frençinin üstündən enli, qara qurşaq bağlamış Njde dustaqlara mənalı-mənalı baxıb:

- Xoş gördük, «qəhrəmanlar»! – dedi. – Vərəqənizi oxudum. Çox «mahir» təbliğatçısınız. Ancaq məni bir şey maraqlandırır: sizi əsgərliyə alan kimdir?

Vahan dedi:

- Nersesyan.

- Nersesyan? – deyə Njde qışqırdı və sağ tərəfində oturan rəisə qəzəblə baxdı.

Müqəssir olunacağından qorxan və o saat rəngi dəyişilən Nersesyan dilləndi:

- Cənab sparapet, bu bolşevik yalan deyir. Bunların ikisi də bizim əsgərlərin içinə gizli soxulublar… Ölüm ayağında hətərən-pətərən danışır.

- Mən ölümdən qorxmuram. Amma, sən öz ağandan qorxduğun üçün yalan danışırsan.

- Sus! – deyə Nersesyan Vahanın üstünə çığırdı. – Bil ki, cənab sparapet Njdenin qarşısındasınız. O, sizin gözlərinizi çıxardacaqdır. Mən…

Njde Nersesyana sözünün gerisini deməyə imkan verməyib, Vahana müraciət elədi:

- Bizim qoşun hissələrində sizin yoldaşlardan yenə varmı? Düzünü desəniz, bolşevik olmağınıza baxmayaraq, ikinizi də azad edəcəyəm.

- Mən bilmirəm.

Njde Şahmərdana müraciət elədi:

- Sən de: varmı?

- Mən də bilmirəm.

- Erməni əsgərləri içərisində bolşevik vərəqələrini nə zamandan yaymağa başlamısınız?

- Bizim heç bir vərəqədən xəbərimiz yoxdur. Bunu heç bir şeylə sübut eləyə bilməzsiniz.

- Kəs səsini! – deyə Njde ayağa qalxdı. Bir saat əvvəl içdiyi şərabın təsirindən azacıq səndələyə-səndələyə gəlib Vahanın qabağında durdu. – Sübut istəyirsən? Bəs Saak canlı sübut deyilmi?

- O, xaindir.

- Bəs siz kimsiniz? – Njde Vahana bir tərs sillə vurdu. – Özünə bax, yoldaşına bax! – Bir sillə də Şahmərdana vurdu. – Bu müsəlman erməninin düşmənidir, bilirik. Amma sən erməni olub öz millətinə xain çıxdığın üçün ikiqat cəzaya layiqsən!

- Erməni millətinə kim xain olduğunu ac-yalavac kəndlilərdən, zorla silah altına alınmış əsgərlərinizdən soruşun…

Nersesyan ayağa qalxıb Njdeyə yanaşdı:

- Cənab sparapet, bunları aparıb «rahat» eləyəkmi?

Njde acı-acı gülərək dedi:

- Yox! Bu cəsur bolşeviklər bu gecə bizə tamaşa göstərəcəklər. Onların qollarını açın, köynəklərini çıxardın.

Həbsxana rəisi və əsgər dustaqların qollarından zənciri açıb, onları zorla soyundurdular.

Njde geri çəkilərək, Vahanla Şahmərdana dedi:

- İndi boks oyununa başlayın! Kim kimin əngini yerindən çıxartsa, onu azad eləyəcəyəm.

Nə Vahan yerindən tərpəndi, nə Şahmərdan.

- Niyə başlamırsınız? – deyə Njde bağırdı.

- Biz oyunbaz deyilik…

- Aha, belə de!.. – Njde kəndxudanın getməsinə başı ilə işarə verdi. Öz işini əvvəlcədən bilən kəndxuda əsgəri də götürüb otaqdan çıxdı. – Siz də «dostlarımızı» aparın! – deyə Njde həbsxana rəisi ilə Samvelə müraciət elədi. – Qoyun öz yerlərində səhərə kimi «dincəlsinlər».

Dustaqları bayıra çıxartdılar.

…Gecə yarısı idi. Kənd yuxuda idi. Ay batmışdı. Dustaqları fonar işığında, silah qabağında aparırdılar. Onlar bu gecə öldürüləcəklərini yəqin etmişdilər.

Dustaqları monastırın həyətində dayandırdılar. Həbsxana rəisi məbədin qapısını açdı. Samvel Vahanla Şahmərdanı itələyib içəri saldı. Bu zaman kəndxuda ilə əsgər də gəldi. Onların hərəsinin əlində bir samovar vardı.

- Sparapet ağa buyurdu ki, monastırın döşəməsi, divarları nəmdir. Qonaqlara soyuq dəyər. Onları bu samovarlarla qızışdırın… - Kəndxuda üzünü Vahanla

Şahmərdana tutdu: - Hə, bolşeviklər, indi zəhmət çəkin arxanızı bəri çevirin. Qorxmayın, narahat olmayın. Dünyada hər adam gərək öz əməlinin cəzasını çəksin…

Vahan törəboy, kosasaqqal, göygöz kəndxudaya qışqırdı:

- Vəhşilər, cəlladlar, siz nə eləmək istəyirsiniz?!

Kəndxuda soyuqqanlılıqla irişib dedi:

- Biz heç nə… Sparapet ağanın tapşırığı belədir…

Qaynar su ilə dolu samovarları Vahanla Şahmərdanın kürəyinə bağlayıb içəridən çıxanda, Samvel qəhqəhə ilə gülərək dedi:

- Mən sizin bu gününüzü gözləyirdim, bolşeviklər! Gecəniz xeyrə qalsın. Sizin kürəyiniz yandıqca mənim ürəyim soyuyacaq…

Çılpaq kürəkləri yanan Şahmərdanla Vahanın qışqırtısı məbədin qalın divarlarında əks-səda verdi. Onlar ağrının şiddətindən gah oturdular, gah qalxdılar, gah yumaq kimi yığıldılar, gah yay kimi açıldılar. Samovarları divarlara çırpdılar, ancaq od yükü açılıb kürəklərindən düşmədi. Hər ikisi təsəvvürə gəlməz bir əzab içində taqətdən düşüb yerə sərildi…

…Günün nə vaxtı olduğunu bilməyən Vahanla Şahmərdanın həzin-həzin danışığı eşidilirdi:

- Nəfəs aldıqca, elə bil kürəyimin dərisini qopardırlar.

- Mən səndən betərəm, Şahmərdan…

- Səhv etdiyimizi indi başa düşürəm. Gərək vərəqəni yayandan sonra, gecənin birində düşərgədən qaçaydıq.

- Biz, erməni əsgərlərinin içində çox qalmaq, onları öz tərəfimizə çəkmək üçün gəlmişdik. Bizim qoşun hissələrinin hücum etdiyi zamanda, düşməni arxadan sarsıtmalı idik. Ona görə də qaça bilməzdik.

- Görəsən, Vahan dayı, nə əcəb Njde bizi indiyə kimi öldürməyib?

- Kirpi ovunu birdən yemir, əvvəlcə öz tikanlarına çırpır, taqətdən salır, sonra…

Onlar susdular. Dəqiqələr ötüb keçdi. Vahanın inilti səsi məbədin məzar sükutunu yenə pozdu:

- Ürəyim bərk qısılır, Şahmərdan. Boğuluram, mənə hava!

Şahmərdan gözünün qabağında cəhənnəm əzabı çəkən yoldaşının halına qəhərləndi…

Qapı açıldı. Həbsxana rəisi iki əsgərlə içəri girdi. Fonarın işığını onların üzünə salıb dedi:

- Bolşeviklər, hələ dirisiniz?

- Allah sizə lənət eləsin! – deyə Şahmərdan Vahanı göstərdi. – Bu kişi havasızlıqdan boğulur. Bizi bir az bayıra çıxardın, nəfəs alaq.

- Baş üstə. Elə sparapet ağa da buyurdu ki, bolşeviklər orda darıxırlar, onları havaya çıxardın. Biz də onun üçün gəlmişik.

Vahan zəif səslə dedi:

- Samovarları kürəyimizdən, zəncirləri qollarımızdan açın!

- Heç narahat olmayın! Samovarları açacayıq, onlar sizdən qiymətlidir. Zəncirlər isə sizə peşkəşdir. Özünüzlə o dünyaya aparazsınız.

- Yoxsa, bizi öldürməyə aparırsınız? – deyə Şahmərdan qəzəbli bir səslə soruşdu.

Həbsxana rəisi ona mənalı-mənalı baxıb dedi:

- Axmaq sual verirsən. Siz tutulub bu monastıra salınan gündən ölübsünüz. Qalxın ayağa, çıxın bayıra!..

Dustaqları monastırın yaxınlığındakı balaca bir təpənin üstünə gətirdilər. Burdan kəndin cənub tərəfindəki yamyaşıl meşə, onun üzərindən süzən tala-tala ağ buludlar görünür, qıjıltı ilə axıb dərəyə tökülən şəlalənin səsi eşidilirdi.

Bir neçə dəqiqədən sonra Njde, Samvel, Nersesyan və kəndxuda gəldi.

Njde adəti üzrə əllərini belinə vurub, dustaqları başdan ayağa süzdü və istehzayla gülümsədi. Bir-iki addım qabağa gəlib əsgərlərə dedi:

- Cənab bolşeviklərin yükünü açın! Bu dünyada beş dəqiqəlik qonaqdırlar, daha əziyyət vermək olmaz.

Əsgərlər samovarları açdılar.

Düşmənini öldürməmişdən qabaq ona olmazın işgəncə verməkdən həzz alan əzazil Njde və onun zalım əlaltıları Vahanla Şahmərdanın pörtələnib qabar atmış kürəklərinə baxıb qəhqəhə ilə güldülər.

Njde dedi:

- Birinci tamaşa qurtardı. İkinci tamaşa daha maraqlı olacaq… Onları uçurumun kənarına çəkin!

Njdenin ağzından söz qurtaran kimi əsgərlər dustaqlara yanaşdılar. Biri Şahmərdanın, o biri Vahanın kürəyindən qundaqla vurub uçuruma tərəf itələyəndə, Vahan qəzəblə qışqırdı:

- Dayanın! Mənim Njdeyə bir neçə sözüm var.

- Yoxsa bolşevikliyinizdən, ideyanızdan əl çəkirsiniz? – deyə Njde məğrurانə güldü.

Vahan onun sualına əhəmiyyət verməyib dedi:

- Siz bizi uçurumdan atmaq istəyirsiniz və bunu maraqlı bir tamaşa adlandırırsınız, eləmi? Ancaq biz, kənd camaatının da burda olmasını, bu «tamaşaya» baxmasını tələb edirik. Biz…

- Kəs səsini, camaatdan heç kəs sizi bağışlamaq, rəhm etmək üçün mənə ağız açmaz.

- Biz canavardan, quldurdan rəhm gözləmirik. Biz istəyirik ki, hamı sizin cəllad simanızı bir daha görsün. Biz istəyirik ki, hamı bu qanlı divanın şahidi olsun…

İçəridən alışıb yanan Njde əsgərlərə əmr etdi:

- Çəkin onları uçurumun kənarına, sayıqladıqları bəsdir…

Vahanla Şahmərdan özləri irəli addımladılar. Uçurumun lap qırağında dayanıb doğma çöllərə, meşələrə, dağın zirvəsindən aşmaqda olan axşam günəşinə, qıpqırmızı üfüqə son dəfə baxdılar. Döş-döşə verib öpüşdülər. Zəncirli qollarını ölüm anlarında da əyilməyə başlarından yuxarı qaldırdılar. Sürdükləri həyat, keçirdikləri mübarizə yolları bir an parlayıb sönən şimşək kimi, gözlərinin önündən keçdi. Hər ikisi bir ağızdan:

- Yaşasın inqilab! – deyə ayaqlarını yerdən üzdülər.

Njde Karonun verdiyi kəşfiyyat məlumatını oxuyurdu.

«...Üç-dörd gündür ki, Qızıl Ordu hissələri, əsasən piyadalar, topçular Zabığ çayının sahilinə toplanmaqdadır. Qırmızıların göstərilən yerə təcili qoşun toplamaları, şübhəsiz ki, hücum əməliyyatının tezliklə başlanğıcını göstərir».

- Bəli, yenə bolşeviklərlə döş-döşə duracayıq... - deyə Njde kağızı Karoya qaytardı. – Mən onların hücumunu çoxdan gözləyirəm.

- Cənab sparapet, bu son məlumatı alan kimi sizi Tatevdən geri çağırtdırmağa məcbur oldum, çünki təcili tədbir lazımdır.

- Tədbir döyüşə hazır olmaqdan ibarətdir! – deyə Njde qarşısında düz dayanmış Karoya baxdı. – Elə deyilmi, xmbapet?

- Elədir, cənab sparapet. Bizim qüvvələrimiz döyüşə hazırdır. Güman edirəm ki, qırmızıların ikinci hücumu da boşa çıxacaqdır.

- Onu qabaqcadan demək olmaz.

- Mən cənab sparapetin hərbi istedadına inanıram.

- Yaxşı, yaxşı, get işində ol! – deyə Njde onun sözünü kəsdi. – Ancaq tələb elə ki, Qızıl Ordunun hərəkəti barədə bizə hər gün müfəssəl məlumat çatdırsınlar.

- Baş üstə! – deyə Karo cavab verdi.

- Məni hər şeydən çox narahat edən daxili vəziyyətdir. Partizanların kökünü kəsə bilmirik. Fərariliyin qarşısını ala bilmirik. Qoşun hissələrimizə soxulmuş bolşeviklər əsgərlərin beynini zəhərləyiblər.

Qapı yavaş-yavaş açıldı, Saak içəri girdi.

- Nə xəbər gətirmisən? – deyə Njde ona müraciət etdi.

- Bu dəfəki işimdən bir şey çıxmadı, sparapet ağa...

- Niyə?

- Əsgərlikdən qaçan o donuz oğlu Mixitar evlərinə gəlməyib. Hardasa gizlənib...

- Bəlkə gəlib, yaxşı öyrənə bilməmisən? – deyə Njde qaşqabağını tökdü.

- Xeyr, sparapet ağa, sənin canına and içirəm, öz canım üçün, hərtərəfli öyrənmişəm. İki gün evlərində qonaq qalmışam. Gəlinini görmüşəm. Qardaşı gileylənirdi ki, Nersesyan qoymadı Mixitar heç olmasa bircə gecə gəlinin yanında qalsın. Allah onun balasını versin. Sonra hökumətin, sən sparapet ağanın qarasına da çox söz danışdı. Özümü tanıtmamaq üçün mən də qəsdən onun sözünə qüvvət verdim. Amma dişim bağırsağımı kəsirdi. Hə, indi sparapet ağa necə buyursa, elə də elərəm.

- Bu dəfə yaxşı fəaliyyət göstərə bilməmisən, Saak. – Njde üzünü Karoya tutub amiranə tərzdə əlavə elədi: - Mixitarın qardaşı sabah burda olmalıdır. Mən onu qardaşını tapmağa məcbur edərəm. Başa düşdünmü, sabah!

- Baş üstə.

- Mixitarın qardaşından başqa, gəlinini də gətirsəniz yaxşı olar. – Saak gah Njdenin, gah Karonun üzünə baxıb əlavə elədi: - Gəlin, nə gəlin! Astvas haqqı, sizin kimi böyük adamlara qismət olmalı candır. Zalımın qızının yanaqları çıraq kimi yanır...

Sparapet və onun müavini Saakın dəyyusluq ifadə edən gözlərinə baxıb güldülər. Onların gülüşündən xoşhal olan Saak dedi:

- Atalar misalıdır: gözələ baxmaq savabdır. Mixitarın qisasını nişanlısından… - O, sözünün gerisini deməyib hırıldadı.

- Sən bizim kimi vəzifə başında duran adamları şorgöz hesab eləyirsən? – deyə Njde gülümsündü.

- Kişi nə qədər böyük qulluqda olsa da, kişidir. Neçə ki, əlinizdə ixtiyar var, özünüzə heç nədən korluq çəkdirməyin. Dünyanın malı dünyada qalacaq…

Njde nə isə demək istədiyi zaman keşiş Mesrop içəri girdi. Onun üzündəki həyəcanı duyan Njde soruşdu:

- Keşiş ağa, yenə nə var belə həyəcanlısan?

- İşimiz yaxşı deyil, cənab sparapet. Elə indicə Qarakilsədən təcili teleqram gəlib. – Mesrop əlindəki kağızı ona verdi.

Njde teleqramı ucadan oxudu:

«Gorus. Təcili. Sparapet Njdeyə. Qızıl Ordu hissələri Naxçıvan tərəfdən hücuma keçmişdir. Biçənək dərəsindəki qoşunumuz geri çəkilmişdir…».

- Necə? – deyə Njde təəccüblə çiyinlərini çəkdi. – Biçənək dərəsi bizim ən möhkəm bazamız idi… - O, oxumağa davam elədi. – «Qırmızılar çox sürətli hücum nəticəsində Məzrə, Əngələvid, Şələk, Bələk, Şəki və başqa kəndləri almışlar. Erməni əsgərləri pərakəndə halda qabaqdan qaçırlar…». Ax, yaramazlar! – deyə Njde qışqırdı, sonra yenə oxudu: - «Əgər təcili yardım gəlməsə, Qarakilsə, Brnaqot, Uz və başqa kəndlər elə bu gün qırmızıların əlinə keçəcəkdir…» - Njde teleqramı qəzəbindən cırıb yerə atdı. – Niyə erməni əsgərləri, qazaklar, Baqratın dəstəsi onlara müqavimət göstərmirlər?! – deyə çığırdı və Karonun üzünə baxdı. – Buna nə deyirsən, xmbapet?

Karo dedi:

- Cənab sparapet, ya Gorusdakı, ya Kafandakı əsgərlərdən Qarakilsəyə göndərmək lazımdır.

Njde Kafanda olan polkun bu gün Qarakilsəyə yola düşməsi üçün onun adından teleqram vurmağı Mesropa əmr elədi. Mesrop otaqdan çıxdı. Aralığı sükut bürüdü… Lakin çox keçmədi ki, keşiş əlində kağız, yenə qayıtdı. O, bu dəfə ildırım vurmuş adamlar kimi qapqara qaralmışdı.

- Yenə nə var, keşiş?

- Cənab sparapet, Kafandan da teleqram gəlib, buyurun…

Njde teleqramı Mesropdan aldı.

- Yoxsa, qırmızılar o tərəfdən də hücuma keçiblər? – deyə oxumağa başladı: - «…Qırmızılar bu gün alaqaranlıqdan hücuma keçdilər. Dava getdikcə qızışır. Biz müqavimət göstəririk. Ancaq…» - Aydındır! – deyə Njde kağızı əsəbiliklə ovcunun içində əzib yerə tulladı. – Demək, bolşeviklər iki tərəfdən hücuma keçiblər. Keçsinlər, lap on yerdən keçsinlər… Xmbapet Karo Hamparsumyan!

- Bəli, cənab sparapet!

- Taleyimizin həll olunacağı günlər başlandı. Bu dəqiqə Qarakilsəyə yollan. Ümum komandanlığı öz əlinə al. Mən özüm də Kafana yola düşəcəyəm. Başa düşdünmü?

- Aydındır, cənab sparapet.

Karo getmək üçün qapını açanda Manuçar Sarumov özünü tələsik içəri saldı. Karo dayandı. Dili-dodağı qurumuş Manuçar dedi:

- Sparapet ağa, gəlirlər! Sparapet ağa, evimiz yıxıldı…

Njde onun üstünə qışqırdı:

- Kim gəlir? Özünü niyə itirmisən?!

- Qırmızılar gəlirlər. Xınzirəyi, Daşkəndi aldılar. Mal-dövlətimi, qurulu evimi, arvadımı qoyub, özüm birtəhər aralıqdan çıxdım. Dağ-daşla sizə xəbər verməyə gəldim. Yarım saata, bəlkə on dəqiqəyə Gorusa çatarlar. Mən sizin yanınızdan heç yerə getməyəcəyəm. Ümidimiz sənədir, sparapet ağa!.. Vay, evimiz yıxıldı…

- Deməк, qırmızılar üç yandan hücuma keçiblər. Cənab sparapet, mən Qarakilsəyə gedimmi?

- Ta hara gedirsən? Görmürsən vəziyyət başqa cür oldu?.. Hamımız Gorusu müdafiə eləməliyik. Bu saat qərargaha getməliyik…

Əvvəlcə Njde, onun dalınca da içəridəki başqa adamlar otağı tərk elədilər. Onlar bayıra çıxanda uzaqdan gələn top səslərini eşitdilər. Njde ilə Karo tələsik addımlarla həyətdən çıxdılar.

Mesrop:

- Allah, sən bizi bolşeviklərdən xilas elə! – deyib xaç çəkə-çəkə öz otağına girdi.

Rəngi saralmış Manuçarla Saak bir yerdə dayanıb mərmi səslərinə qulaq asmağa başladılar…

Qızıl Ordunun İravan-Naxçıvan qruppası bir tərəfdən, Qarabağ-Zəngəzur qruppası ikinci tərəfdən hücumu davam etdirirdi. Sisyan kəndlərinin bir çoxu daşnaklardan azad edilmişdi. Partizanlar yoxsul kəndliləri başlarına toplayıb Qızıl Orduya kömək edirdilər. Daşnak əsgərlərindən bir çoxu zabitlərin hədə-qorxularına tabe olmayaraq, Qızıl Ordunun tərəfinə keçmişdi. Bəzi hissələr isə pərakəndə halda dağlara çəkilməyə məcbur olmuşdu. Njdenin onlarla əlaqəsi kəsilmişdi…

Nahaq yerə qan tökməkdən əl çəkib təslim olmaq haqqında Qızıl Ordu komandanlığının ona göndərdiyi ultimatumu qəbul etməyən Njde, iki günlük şiddətli vuruşdan sonra Gorusu tərk etmiş, əsgərlərini Tatevə tərəf çəkmişdi. Ən möhkəm bir qala sandığı monastırı özünə iqamətgah etmişdi.

Qızıl Ordu hissələri ilə daşnak qoşun hissələri arasında döyüş indi «Qız dərəsi» ətrafındakı meşələrdə gedirdi.

Njde monastırın, «nəzarət məntəqəsi» adlandırdığı qülləsində dayanıb durbinlə uzaqlara, döyüş meydanına baxırdı. Mesropla Manuçar da onun yanında idilər.

Topların nəriltisi, pulemyotların, tüfənglərin şaqqıltısı «nəzarət məntəqəsində» duranların ürəyinə lərzə salırdı.

Atışma getdikcə yaxınlaşırdı…

- Vuruşma, görünür, çox şiddətli gedir, - deyə Njde durbini gözündən götürdü.

- Qırmızılar bu dəfə çox bərk hücuma keçiblər. Allah özü bizə kömək olsun! – deyə keşiş xaç çəkdi. – Cənab sparapet, enək aşağı, bir qədər dincəl, səhərdən ayaq üstəsən…

- Vətənin taleyi həll olunan saatlarda sən istirahətdənmi danışırsan, keşiş?!.

- Bura döyüş meydanından bir qədər uzaq olsa da, hər halda ehtiyat lazımdır. Birdən düşmən topun ağzını monastıra çevirər, Allah eləməmiş… - Keşiş sözünü qurtarmamış Manuçar qışqırdı:

- Ora baxın, ora! Kəndə sarı çapan atlını görürsünüzmü?.. – Njde və Mesrop çevrilib baxdılar. Atlı dərədən keçib kəndin altındakı düzənliyə çıxanda onu tanıdılar.

- Samvel gəldi, gedək görək nə xəbər gətirib, - deyə Njde daş pillələrlə aşağı enməyə başladı…

Monastırın həyətində atı yedəyində tutmuş Samvel, əsəbilikdənmi, qorxudanmı, sinəsi atlana-atlana dedi:

- Dava Kafanın lap yaxınlığında gedir. Bizimkilər qırmızıları şəhərə buraxmamaq üçün bərk dayanıblar. Ancaq qırmızılar heç nəyə baxmırlar. Elə hey irəli soxulmağa can atırlar. Mən…

Mesrop Samvelin sözünü kəsib soruşdu:

- Bizimkilər qırmızıları geri qaytara biləcəklərmi?

- Bilmirəm. Ancaq polk komandiri mənə dedi ki, bolşeviklərin gülləsinin səsini eşidən kimi fəhlələrdən bir çoxu gecə ilə şəhərdən çıxıb onlara tərəf qaçıblar…

Njde qışqıra-qışqıra dedi:

- Ağacı öz içindən qurd yeyər. Günah məndədir ki, Kafan fəhlələrinin hamısını, Şaxnazaryanı mis mədəninin şaxtalarında boğdurduğum kimi boğdurmadım. – O, bir an susub, sonra acıqlı-acıqlı Samveldən soruşdu: - Daha nə sözün var?

- Vəziyyət ağırdır, sparapet ağa! Düzü, ölən, yaralanan çoxdur. Camaat dönük çıxıb, bizimkilərə kömək eləmir. Polk komandiri dedi ki, cənab sparapet bizə əlavə qüvvə və patron göndərsin.

- Qüvvəni, patronu sparapet hardan alsın? – deyə keşiş dilləndi. – Qırmızılar bizi elə karıxdırdılar ki, Gorusdan tüfəng, patron, taxıl da çıxarda bilmədik…

- Heyif mənim dolu qalan taxıl anbarlarıma! – deyə Manuçar köksünü ötürdü.

Qızıl Ordunun qabağında çox dayana bilməyəcəyini yəqin edən Njde dedi:

- Keşiş ağa, sən bu saat Tehrana yola düşməlisən.

- Tehrana? – deyə keşiş təəccüblə Njdeyə baxdı.

- Bəli, keşiş ağa. Səni özümə sədaqətli bir adam bilib Tehrandakı ingilis konsulunun yanına göndərirəm. Syunik hökumətimin və erməni millətinin bir nümayəndəsi kimi onunla görüşüb danış. Vəziyyətimizi nağıl elə. De ki, Njde sizdən təcili kömək gözləyir. De ki, Syunik hökuməti Zəngəzurun meşələrini, mis mədənlərini və başqa yeraltı sərvətlərini onlara verməyi vəd edir. Xüsusi qeyd et ki, Njde sizə arxalandığı üçün qırmızılara təslim olmur. Bəs ingilis qoşunu niyə hərəkətə gəlmir? Niyə bizi döyüş meydanında tək qoyur?! Britaniya hökuməti Zaqafqaziya kimi bir incinin bolşeviklərin əlində qalmasına niyə razı olur? Sonra cənab konsulun vasitəsilə İran hökumət başçıları ilə də görüş. Onlara de ki, bolşeviklər yerlərini Zaqafqaziyada bərkitsələr, İran həmişə təhlükə altında olacaqdır. Qoy İran hökuməti bacardığı qədər bizə kömək eləsin. Heç olmasa,

Azərbaycandan qaçmış müsavatçıları toplayıb ingilis qoşununa qatsın, bizə köməyə göndərsin… Başa düşdünmü, keşiş ağa?..

- Bəli. Ancaq, cənab sparapet, ingilis konsulu mənim sözlərimə inanarmı?

- Sənə öz hökumətim adından vəkalətnamə verəcəyəm.

- Bəs İrana hardan, nə ilə getməliyəm?

- Burdan Meğriyə kimi atla get. Orda Setrak adlı bir adam var. Soruşsan, hamı onun evini sənə göstərər. O, mənim dostum və köhnə kontrabatçıdır. Onun adına kağız verəcəyəm. O səni Arazın o tayına keçirər.

…Njde vəkalətnamə və Setraka kağız yazdı, imza atıb möhür basaraq Mesropa verdi.

Keşiş, Samvelin, necə deyərlər, yerlə-göylə əlləşən boz atını mindi.

Njde dedi:

- Keşiş ağa, tez get, heç yerdə yubanma. Özünü ələ vermə. Bəlkə iş elə gətirdi ki, sən qayıdıb gələnə kimi mən Tatevdən çıxmalı oldum. Hər halda məni ya Qatar, ya da Xüstub dağlarında taparsan. Bir tək özüm qalana kimi qırmızılarla vuruşacağam. Yaxşı yol!

- Xudahafiz! – deyə Mesrop atı tərpətdi…

Njde, Samvel, Manuçar və Saak qülləyə çıxmaq istəyəndə, Aşot qaça-qaça gəlib Njdenin qabağında dayandı. Əlini gicgahına aparıb töyşüyə-töyşüyə dedi:

- Sparapet ağa! Sparapet ağa!

- Zəhrimar sparapet ağa! Sözünü de!

- Sparapet ağa, bağışla, təngnəfəs gəlmişəm, danışanda ürəyim acıyır… Hə, xmbapet Karo dedi, get sparapet ağaya de ki, iş şuluqdur. Bolşovoylar irəliləyirlər… Sparapet ağa, doğrudan da iş şuluqdur. Bizim əsgərləri qarışqa kimi qırırlar… Xmbapet dedi ki, mənə sparapet ağadan tez xəbər gətir: qoşunu geri çəkim, ya nə eləyim?

Njde fikirləşdi: «Tatevdəki polku Karonun köməyinə göndərimmi? Yox, ehtiyat lap dar gün üçündür. İndidən bütün hissələri döyüşə buraxsam, sonra adamsız qalaram…».

- Get de ki, əsgəri geri çəkməsin, bir adam qalana kimi vuruşsun.

- Baş üstə! – deyə Aşot silahını çiyninə saldı. Getmək istəyəndə Njde onu saxladı.

- Dayan! – sonra Saakla Manuçara müraciət elədi: - Siz də Aşotla gedin, vuruşun. Özü də qırmızılarla möhkəm vuruşun.

Özünü güllənin qabağına vermək istəməyən Saak tez dilləndi:

- Mən burda sənə lazım olaram, sparapet ağa!

Bərk ayaqda Saakdan da ağ ürək olan Manuçar dedi:

- Sparapet ağa, mən səni tək qoya bilmərəm.

Hər ikisinin ürəyini gözlərindən oxuyan Njde cavab verdi.

- Heç biriniz burda mənə lazım deyilsiniz. Samvel yanımdadır. Gedin qırmızıların qabağına. Bildinizmi? İndi bizə vuruşan adamlar lazımdır. Dayanmayın, gedin!

Njdenin sözünü çevirməyə cəsarət eləməyən Saak və Manuçar Aşotla bərabər getdilər.

Njde ilə Samvel qülləyə çıxdılar.

Gün əyilirdi. Hava getdikcə soyuyurdu. Tatevin şimalındakı dağların başından qalxan lay-lay duman yavaş-yavaş aşağılara doğru enirdi. Çox keçmədi ki, kənd, ətrafdakı təpələr, meşələr, monastırın altındakı dərin və geniş dərə görünməz oldu. Lakin susmaq bilməyən topların, tüfənglərin səsi lap yaxından gəlirdi.

Njdeni fikir-xəyal götürdü. Qızıl Ordunun hücumunu necə dəf edəcəyi barədə xeyli düşündü… Nəhayət, döyüş meydanına getməyi, əsgərlərə özü komanda verməyi qərara aldı.

- Gəl gedək, Samvel!

- Hara?

- Qabağa, döyüş yerinə. Daha burada durmağın adı yoxdur.

- Niyə narahat olursan? Yəqin indi bir şad xəbər gətirərlər…

Njde bir söz demədən aşağı endi.

Onlar monastırın həyətində saxlanılan atları minəndə top gülləiəri kəndin qırağında açıldı. Samvel partlayış səsindən diksinərək dedi:

- Pah atanan! Qırmızılar indi də Tatevi topa tutmağa başladılar. Yəqin ki, irəliləyirlər. Cənab sparapet, bəlkə biz heç kənddən çıxmayaq?..

Njde ona tərs-tərs baxdı.

- Ağ ürək olma! Dalımca gəl! – deyə atını məhmizlədi.

Onlar kəndin altındakı meşəylə «Qız dərəsinə» doğru gedirdilər. Çox da hündür olmayan təpənin gədəyini aşanda, seyrəlməkdə olan dumanda bir neçə adam gördülər. Onlar daşnak əsgərləri idi, ağacların, kolların arası ilə əyilə-əyilə Tatevə sarı qaçırdılar.

- O qorxaqları səslə, dayansınlar! – deyə Njde atının başını saxladı.

Samvel ağzını gah o əsgərə, gah bu əsgərə çevirib qışqırdı:

- Ərə, dayanın, bura gəlin!

Əsgərlər dayanmayıb tez ağacların dalında gözdən itdilər.

- Görürsənmi, cənab sparapet. Biqeyrətlər döyüşdən qaçırlar.

Hirsindən dişi bağırsağını kəsən Njde cavab vermədi. Atını tərpətdi.

Onlar bir qədər də getdilər. Tini burulanda, yolun içində üzüqoylu uzanmış, tüfəngi yanına düşmüş bir əsgər gördülər. O, bərk inildəyirdi.

Samvel atdan düşüb ona yaxınlaşdı, arxası üstə çevirdi.

- Saak, sənsən? Ərə, yaralanmısan? – deyə qışqırdı.

İki əli ilə qarnını tutmuş Saak zəif səslə dedi:

- Güllə belimdən dəyib qarnımdan çıxıb, Samvel ağa! Bağırsaqlarım doğranır. Sürünə-sürünə gəlib bura çıxmışam. Daha gedə bilmirəm. Mənə su verin.

Njde dedi:

- Çox tez yaralanmısan, biqeyrət, barı dediklərimi Karoya çatdırdınmı?

- Çatdırdım. Elə məni sənin yanına göndərirdi ki, yolda evim yıxıldı… Başınıza dönüm, məni burda qoyub getməyin, ölürəm…

- Çox böyük hünər göstərmisən, axmaq! – deyə Njde nifrətlə üzünü Samvelə tərəf çevirdi: - Onu yoldan kənara çək!

Samvel Saakın tüfəngini götürdü, patrondaşını belindən açdı, özünü isə çiyinlərindən yapışıb sürüyə-sürüyə yolun kənarındakı həməsur kolunun dibinə çəkdi. Saak bərkdən ufuldayıb ilan kimi qıvrıldı… Onu aparmaları üçün yenə yalvardı…

Njdeylə Samvel ona fikir vermədilər, meşədən çıxanda ətraflarına güllə yağmağa başladı.

- Cənab sparapet, düşmənlər bizi gördülər, - daha qabağa gedə bilmərik. Burdan tez… - Samvel sözünü qurtarmamış, mindiyi at şappıltı ilə yerə sərildi. Güllə alnından dəyən ürkənin canı o saat çıxdı.

- Samvel, özün yaralanmamısan ki?

Samvel sol qıçını zorla atın altından çıxardıb dedi:

- Yox, yaralanmamışam, amma ayağım bərk ağrıyır. Zalım uşağı məni piyada qoydular. Cənab sparapet, indi fikrin nədir? Düzü, mən səndən qorxuram. İraq canından, güllə-zad dəyər.

Qabağa getməyin daha təhlükəli olduğunu yəqin edən Njde, atının başını çevirib dedi:

- Geri qayıdaq!

…Axşam çağı idi. Duman hər yerdən çəkilmişdi. Günəşi sinəsinə çəkmiş üfüq və ona yaxın olan yığın-yığın buludlar al qırmızı rəngə boyanmışdı. Tatevə, onu əhatə edən dağlara, meşələrə qürub xüsusi bir gözəllik verirdi.

Yenə monastırın qülləsinə çıxmış Njde, onun yavəri Samvel bu gözəlliyi görmək istəmirdi. Qızıl Ordunun irəliləməsindən qanları qaralmış bu millət «qəhrəmanları» öz talelərini düşünürdülər.

- Ora bax, cənab sparapet! – deyə Samvel əlini irəliyə uzatdı. – Aşağı tərəfdən kəndə dəstə-dəstə adam girir.

Njde durbini gözünə tutub baxdı və qəzəblə bağırdı:

- Mənim əsgərlərimdir. Mənim qoşunum sınıq düşüb geri qayıdır?! Görəsən, xmbapet Karo necə oldu? Bəs Denikin zabitləri, Quban qazakları niyə geri çəkilirlər?

Çox keçmədi ki, daşnak əsgərlərini izləyən qızıl süvarilər yalların, təpələrin başında, meşənin kənarında göründülər…

Hirsindən dodaqlarını gəmirən Njde qüllədən aşağı enərək, Samveli cəbhədən qaçan əsgərləri dağlara, meşələrə çəkilməyə qoymamağa, yeni mövqelər tutub döyüşü davam etdirməyə göndərdi, özü isə monastırın həyətindəki topçulara, pulemyotçulara əmr verdi ki, qızıl süvariləri atəşə tutsunlar.

Hər iki tərəfdən yenidən atışma başlandı… Lakin çox çəkmədi ki, hava qaranlıqlaşdığından atəş kəsildi.

…Şahmərdanla Vahanın dustaqlıq zamanı saxlandıqları məbədin taxçasında yanan şam zəif şölələnir, bir bucaqda oturub başını əllərinin içinə almış Njde isə fikirləşirdi: «Mən niyə bu vəziyyətə düşdüm? Heç kimin qarşısında əymədiyim başımı indi monastırda gizlətmişəm…».

Karo ilə Samvel içəri girəndə Njde əllərini gicgahlarından götürüb, Karoya əyri-əyri baxaraq dedi:

- Afərin, xmbapet Hamparsumyan! Çox böyük hünər, qəhrəmanlıq göstərdin. Allaha şükür ki, qiymətli başın salamat qalıb… - Njde kinayədən

təərrüzə keçərək səsini ucaltdı: - Qırmızıların qabağından qaçdın! Deyirdin: məni orduya göndər – göndərdim, bir polkun taleyini sənə tapşırdım. Ancaq hərbi istedadını yanıma qaçıb gəlməklə göstərdin. İndi burdan hara qaçacaqsan?! Qırmızılar bəlkə elə bu dəqiqə kəndə dolurlar…

- Cənab sparapet özü döyüş meydanında olsa idi, əsgərlərimizin qəhrəman kimi vuruşduqlarını görərdi. Mən…

- Sus! – deyə Njde Karonun sözünü kəsdi. – Sənin əsgərlərinin qəhrəmanlığını bu gün gördüm… Gördüm tülkü kimi necə qaçırdılar. Yaxşı komandirin əsgəri, onu dava meydanında tək qoyub qaçmaz.

- Qüvvətlinin qarşısında zəif nə edə bilər? Onlar çoxdular, biz azıq. Mənim burada taqsırım nədir?

Njde hirsləndisə də, atı Karoyla daşlığa sürmədi. Ürəyində dedi ki, bolşeviklər məğlub olarsa, Karo kimilərinin cəzasını sonra vermək olar. Hələlik onu əldə saxlamaq lazımdır. Odur ki, mülayim səslə dedi:

- Sən inciyirsən, amma az qalır mənim ürəyim partlasın. Hakimiyyətimiz əldən gedir, başa düşürsənmi?

- Bəs mənim ürəyim partlamırmı? Bolşeviklərin əlinə keçsək, birinci məni boğazlayacaqlar. Amma açıq demək lazımdır ki, güc düşmənin tərəfindədir. Sel kimi axıb gəlir…

- Keşişi İrana, ingilislərdən kömək almağa göndərmişəm. İngilis qoşunu gəlincə özümüzü müdafiə etməliyik.

- Mən daha o cənablara da inanmıram. Bolşeviklər bizi qovub dağların kəlləsinə çıxardandan sonra gəlsələr də, xeyri yoxdur.

- Bəs sən deyirsən necə olsun? Yoxsa fikrin bolşeviklərə təslim olmaqdır? Yox, elə şey olmayacaq. Bundan sonra, döyüşə bilavasitə özüm rəhbərlik edəcəyəm. Əsgərlərin hardadır?

- Burda, kəndin içində.

- Nə qədər salamat əsgər qalıb?

- Saymamışam.

- Sayıb mənə məlumat vermək lazımdır. – Njde ani fikirdən sonra əlavə elədi: - Gedək! Mən özüm əsgərlərlə danışmaq istəyirəm.

Üçü də bayıra çıxdı.

…Kəşfiyyatçılar daşnak əsgərlərinin Tatevi gecə ikən tərk etdikləri xəbərini Qızıl Ordu komandanlığına çatdırdılar.

Səhərin gözü təzəcə açılanda, Gerasimovun komandir olduğu zərbə polku Tatevə daxil oldu.

Gorusla Tatev arasındakı altmış-yetmiş verstlik məsafəni dağ-dərələrlə, meşələrlə ağır döyüş şəraitində gəlmiş qızıl əsgərlərə dincəlmək üçün vaxt verildi.

Kəndlə monastırın arasındakı açıqlıqda mitinq düzəldi. Qızıl Ordunun gəldiyini hələ səhər tezdən bilən kəndlilər mitinqə toplandılar. Suren, Comərd və Gerasimov danışdı. Tatevdə Şura hökuməti yarandığını elan etdilər. Qızıl Ordunun döyüş, mübarizə məqsədini əhaliyə başa saldılar. Yeni sözlər eşidən, mehriban simalı yeni əsgərlər görən camaatın arasından bir kəndli söz aldı və bir az qabağa gələrək dedi:

- Bizim kəndlilər Njdenin qoşunu ilə bu tavarişlərin arasında gedən davanı bilirdilər. Amma davanın axırı necə olacağını bilmirdilər. Daşnaklar həmişə özlərini tərifləyib deyirdilər ki, qırmızılar bizə bata bilməzlər. Ancaq özləri qabaqda duruş gətirə bilmədilər. Hə, sözüm ondadır ki, onlar deyirdilər, bolşovoylar getdikləri hər kənddə adamları öldürürlər, dama basırlar, camaatın var-dövlətini əlindən alırlar. Amma özləri camaata yamanca divan tuturdular. Bax, o monastırın yanındakı uçurumdan dərənin dibinə çoxlu adam atıblar. Daşnaklar…

- O adamlar kim idi? – deyə Suren onun sözünü kəsdi.

- Kim olacaq, bolşovoylardı… Bir neçə gün bundan qabaq kəndə xəbər yayıldı ki, Njde həmin uçurumdan yenə iki adam atdırıb: biri erməni, biri müsəlman.

Suren soruşdu:

- Bəs onlar kim imişlər?

- Nə bilim vallah, - deyə kəndli üzünü kəndxudaya tutdu. – Bax bu kəndxuda yaxşı bilər, çünki Njde kəndə gələndə bunun evində qonaq qalırdı. Qoy özü desin. Mən sözümü qurtarıb deyirəm: yaşasın kəndimizdə qurulan Şura hökuməti! – O, əl çalıb öz yerinə çəkildi.

Suren kəndxudaya müraciət elədi:

- Danış!

Gödək boylu, qarnı iri qarpız kimi qabağa çıxmış, dombagöz kəndxuda dedi:

- Mən yalan danışmayacağam. Kəndxuda olmuşam. Njde mənim evimdə qalıb. Onun göstərişini yerinə yetirmişəm. Yetirməsəydim, məni öldürərdi. Bizim kəndli Aram düz deyir: Njde adamları uçurumdan atdırırdı. Ancaq mənim bu işdə əlim yoxdur. O adamların kim olduğunu da bilmirəm.

Aram yerindən qışqırdı:

- Yalan deyir, bilir. Ərə, tavarişlərin qabağında niyə düz danışmırsan? Sənin ətini kəsməyəcəklər ki. O adamların kim olduğunu de, bilsinlər.

Kəndxuda Arama gözünü ağardaraq dedi:

- Balam, niyə yaxamdan əl çəkmirsən? Sənə nə yamanlıq eləmişəm?

Yerlərdən kəndlilərin səsləri ucaldı:

- Bizə pisliyin çox keçib.

- Njdenin sağ əli idin.

- Bolşovoyların dalınca çox bəd sözlər danışmısan. Özün də şeytan, xatakün adamsan…

«Evin yıxılsın, Njde, hardasan? Elə bu saat böyürdən çıx, bu kəndlilərin dilləri girsin qarınlarına…» deyə kəndxuda fikirləşdi. Adamların arasından əkilmək istəyəndə duyuq düşdülər.

- Hara gedirsən? – deyə Suren ona qışqırdı.

Aram tez kəndxudanın qolundan tutub saxladı.

- Tülkü kimi ortalıqdan çıxıb əkilmək istəyirsən…

Surenin təkidinə baxmayaraq, kəndxuda daha bir kəlmə də danışmadı. Öz ürəyində dedi: «Sparapet Qızıl Orduya üstün gələcək, yenə böyük və ixtiyar sahibi olacaq… İndi onun cinayətlərini açıb söyləsəm, sonra qulağına çatar, dərimi soydurar…».

Kəndxudanı həbs etdilər. İki əsgər onu qabağına salıb apardı.

Gerasimov kəndliləri ayıq-sayıq olmağa, Qızıl Orduya hər cür kömək etməyə çağıran sözlərini qurtaran zaman bir dəstə silahlı adam izdihama yanaşdı. Heç kəsin tanımadığı bu adamların içindən Mixitar ayrılıb irəli gəldi və soruşdu:

- Burda komandir kimdir?

Suren Gerasimovu göstərdi. Mixitar onun yanına gedib əl verdi. Özlərinin neçə nəfər olduqlarını və daşnak ordusundan nə səbəbə qaçdıqlarını danışıb axırda dedi:

- Daşnaklar mənim ürəyim dağ çəkiblər. Onlardan qisas almaq üçün bu adamları başıma topladım. Elə onlar da Njdenin, Karonun zülmündən zara gəlmiş adamlardır. Nə yaxşı oldu ki, siz gəldiniz. Mən öz dəstəmlə sizə qoşulmaq istəyirəm. Daşnaklar tarmar ediləndən sonra kəndimizə qayıdıb, təzədən toy eləyəcəyəm.

- Biz sənin dəstəni ordumuza qəbul eləyirik! – deyə Gerasimov əlini onun çiyninə vurdu. – Əksinqilabçılara qarşı vuruşan qoçaq oğlanlara sıralarımızda həmişə yer var.

Mitinq qurtardı. Camaat dağılıb gedəndə Aram Surenə yanaşıb dedi:

- Aman günüdür, geri çəkilib getməyin ha! Yoxsa, astvas haqqı, daşnaklar bolşovoy adı çəkənin dilini boynunun ardından çıxardarlar. Mənim dayım da bolşovoydu, gecənin birində ilim-ilim itirdilər. Odur ki, daşnakları görən gözüm yoxdur.

Levon komandanlığın əmri ilə qayda-qanun saxlamaq üçün bir neçə adamla kənddə qaldı.

Gün günorta yerinə gələndə qoşun yürüşə başladı.

Njde öz əsgərlərini gecə ilə Tatevdən Xüstub dağına çəkmişdi. Lazımi yerlərdə səngərlər qazdırmış, topları, pulemyotları qurdurmuşdu. Zabitlərə hər dəqiqə ayıq və döyüşə hazır olmağı tapşırmışdı. O indi böyük bir qayanın dibində oturub fikirləşirdi: «Görəsən, keşiş Mesrop Arazı o taya addaya bildimi? Bəlkə ələ keçdi? İngilislərdən kömək gəlməsə, vəziyyətim necə olacaq? Mən bolşeviklərin ultimatumunu niyə qəbul eləmədim? Axı onlar məni özlərinə zorla təslim etdirə bilərlər… Yox, yox! Bunu bacarmayacaqlar. Bu otsuz, ağacsız boz dağlarda təkcə özüm qalsam da, qırmızılara təslim olmayacağam… Ancaq mənə adam lazımdır, kömək lazımdır. Bu saat kafanlılardan başqa ölkədə daha heç kimə ümidim yoxdur. Bu ağır vəziyyətimdə yenə onlara müraciət etməliyəm».

Njde yan çantasından kağız, qələm çıxardıb yazdı:

«Kafan ağsaqqallarına!

Erməni millətinin düşməni olan Qızıl Ordu təzədən hücuma keçib. Sayca çox olduğundan bizim qoşunumuzu dağlara sıxışdırıb. Yəqin ki, bolşeviklər orda sizə olmazın əzab-əziyyətini verirlər. Onlar mənim başıma üç milyon verirlər. Siz ya camaatı bolşeviklərin əleyhinə qaldırın, ya gəlib mənim başımı kəsib aparın onlara verin, üç milyon alın, bu az pul deyil. Gəlin gözümü çıxardın ki, sizə olan zülmü görməyim…

Kafanlılar! Mən Xüstub dağının başında durmuşam. Məndən yuxarıda Allahdır. Mən onun ətəyindən tutmuşam. Siz də mənim ətəyimdən tutsanız, bolşeviklər bizə heç nə eləyə bilməzlər.

Kafanlılar! Millətimiz üçün ağır olan bu gündə mən sizdən kömək gözləyirəm!

Sparapet: Q.Njde. 6 iyul, 1921-ci il».

Njde aralıda dayanmış Aşotu yanına çağırdı. Məktubu ona verib təcili Kafana çatdırmasını tapşırdı.

Aşot getdi.

Njde yenidən fikrə-xəyala qərq oldu. Lakin çox keçmədi ki, at ayaqlarının tappıltısını eşidib başını qaldırdı. Baqrat çaparaq ona yaxınlaşdı.

- Salaməleyküm, sparapet ağa!

- Baqrat!.. – deyə Njde yerindən qalxdı. – Hardan belə?.. Mən səni ölmüş bilirdim.

- Ölməmişəm. Ancaq ölümlərdən qurtarmışam. – Baqrat qan-tərə batmış atı qolbənd edib buraxdı. Tüfəngini çıxardıb daşa söykədi.

Hər ikisi qayanın dibində oturdu.

- Mən sənin və oğlumun fikrini çəkirdim. Şükür salamatsan. Samvel də sağdırmı?

- Sağdır, hissəyə göndərmişəm, bir azdan gələr. Bəs bizim yerimizi hardan bildin?

- Dağlarla-daşlarla gəlib Tatev köyşəninə çıxdım. Mal otaran bir kəndlidən səni soruşdum. Dedi: «İki gündür ki, qırmızı bolşovoylar bizim kəndə giriblər. Njde qoşununu götürüb Xüstub dağına qaçıb. Dünən qırmızılar Arşak adlı bir ermənini güllələdilər. Mənim əmimi də dama saldılar». Soruşdum əmin kimdir? Dedi: «Tatevin kəndxudası…» Hə, belə, sparapet… - Baqrat dərindən köksünü ötürdü. – Mal-dövlət, torpaq əldən çıxdı. Hökumətimiz dağıldı, evimiz yıxıldı. Axırımız nə olacaq – Allah bilir…

Onlar xeyli danışdılar, dərdləşdilər…

Samvel gəldi.

- Ata, nə yaxşı sağ-salamat gəlib bizi tapa bilmisən, - deyə Baqratın yanında oturdu. – Sənin fikrini çəkirdim. Anam necə oldu?

- Kənddə qaldı. Mən başıma yığdığım adamlarla bərabər düşmənlərlə vuruşurdum. Ancaq iş bərkə düşəndə köpək oğlanları namərdlik elədilər: bəziləri qaçdı, təzikdi, bəziləri bolşovoylara təslim oldu. Kəndimizi qırmızılar aldılar, daha ananın yanına gedə bilmədim. Səninlə düşdük çöllərə…

Njde bayaqdan bəri şikayətlənən Baqrata dedi:

- Nə çox gileylənirsən, Baqrat? Hələ ki, tüfəngimiz, patronumuz var…

Gurultulu bir səs onun sözünü kəsdi.

- Təyyarə!.. İngilis təyyarəsi!.. – Njde sevinclə yerindən qalxıb gözü ilə təyyarəni havada axtardı. Getdikcə artan və qüvvətlənən səs yaxından gəlməyə başladı. Çox keçmədi ki, qoşa uçan iki təyyarə göründü. Təyyarələrin qanadlarında qırmızı ulduz nişanı görən Njde pərt halda o saat geri çəkildi. Hər üçü dərhal

qayanın dibinə sıxıldı. Onlara elə gəldi ki, bolşevik təyyarələri bombaları düz başlarına salacaq.

Kəşfiyyat təyyarələri bir qədər aşağı endi, Njdegilin gözünün qabağında dövrə vurmağa başladı. Qayanın altında oturanlar yerlərini bildirməmək üçün güllə atmadılar.

Təyyarələr ağır-ağır uçub getdi.

- Qırmızılar mənim üstümə təyyarə də göndəriblər!.. – deyə Njde yurdu-yuvası dağılmış adamlar kimi, kədərlə köksünü ötürdü.

Aşot dincini almaq üçün yumru, yosunlu bir daşın üstündə oturdu. Papağını çıxardıb onunla alnının tərini sildi. Dərindən nəfəs alıb ətrafa nəzər saldı. İki cığır gördü. O, bu cığırlardan birinin Kafana, digərinin isə Tatevə getdiyini bilirdi…

Bütün yol boyu fikirləşən, mütərəddid hallar keçirən Aşot burda son qərara gəldi: «Kafana getməyəcəyəm! Məni öldürsələr də, Tatevə, qırmızıların içinə gedəcəyəm. Daşnaklardan heç bir xeyir görmədim. Onlar məni nə böyüdüb xmbapet elədilər, nə ağzımı çörəyə çatdırdılar. Həmişə üzüm danlaqlı oldu, kürəyim şallaqlı… İndi özləri də qaçıb dağ-daşa pənah gətiriblər. Həmişə öz gücünü tərifləyən sparapet bolşovoyların qabağında duruş gətirə bilmir. Belə adama əsgər olmaqdan nə çıxar? Köpək oğlu əsgərləri qırdırmaqdan əl çəkmir. Guya o, Nikolaydan güclüdür ki, vurub qıçını başından aşırdırlar. Allah ağlımı onda aldı ki, vaxtında qaçıb bolşovoylara qoşulmadım. Eh, elə əvvəldən mənim baxtım gətirmədi, oxum daşa dəydi. Siranuşun eşqini saldım ürəyimə, hər töhmətə, pisliyə dözdüm – o da qismətim olmadı. Görəsən o indi hardadır, barı sağ-salamatdırmı? Kaş onu görüb yaşayışını öyrənəydim. Can alan gözlərinə bir də baxaydım… Deyəydim: Siranuş, həsrətin yenə ürəyimdədir…».

Aşot yerindən qalxdı, fikir-xəyal içində yoluna davam elədi.

…Keşikçi qızıl əsgər tüfəngini hissəyə yaxınlaşmaqda olan Aşota tərəf tuşlayıb:

- Dayan! – dedi.

Aşot rusca bilmədiyindən kağızı cibindən çıxardıb ona göstərdi və ermənicə dedi:

- Mən bolşovoy…

Qızıl əsgər kağızı alıb baxdı. Ermənicə yazıldığı üçün oxuya bilmədi. Aşotu qabağına salıb Gerasimovun yanına, çadıra gətirdi…

Gerasimov bir Aşota baxdı, bir oxuya bilmədiyi kağıza.

- Sən kimsən? Hardan gəlmisən?

Aşot əlini döşünə vura-vura dedi:

- Mən… Bolşovoy… Njde… Kağızı…

Gerasimov gülümsündü, elə zənn etdi ki, Njde özünün təslim olması barədə kağız yazıb. Əsgəri göndərdi ki, rota komandirinin müavini Sureni çağırsın.

Suren içəri girib Aşotu gördü. Hər ikisi bir-birinə təəccüblə baxdı. Lakin heç biri dillənmədi. Gerasimov oxumaq üçün kağızı Surenə verdi.

Aşot başını aşağı salıb fikrə getdi: «Görəsən, məni dustaq eləməyəcəklər? Öldürməyəcəklər? Bəlkə Suren aramızda olub-keçmişlərin qisasını məndən indi alacaq?..»

Suren kağızı oxuyub tərcümə elədi.

Gerasimov dedi:

- Njde tələyə düşmüş siçan kimi özünü ora-bura vurur. Soruş görək bu adam kağızı nə üçün bizə gətirib? Olmaya yol azıb?..

Suren Aşotu sorğu-suala tutdu.

Aşot qırmızıların yanına gəldiyinin səbəbini söyləyib axırda da dedi:

- Daşnak ordusunda çox incidim, başım daşdan-daşa dəydi. Xmbapetlərin iç üzünə bələd oldum. Hə, Suren, mən sənə çox pislik eləmişəm. Gərək bağışlayasan. Qanacaqsız hərəkət eləmişəm, düşüncəsiz olmuşam. Cavanlıq məni yoldan, başdan çıxartmışdı. İndi ixtiyar sizindir, ya məni öldürün, ya öz yanınızda saxlayın. Qırmızı Orduya can-başla qulluq eləməyə hazıram. Dava qurtarandan sonra, sağ qalsam, kəndimizə qayıdıb rəncbərliyimi eləyəcəyəm. Onun, bunun qapısında durmaqdan, quşunu götürməkdən canım boğazıma yığılıb, özümdən zəhləm gedib…

Suren Aşotun gözlərinə diqqətlə baxıb gülümsündü:

- Deməк ağıllanmısan, hə? Yaxşı… Daşnaklardan nə bilirsən? Danış görək.

- Bir gün xmbapet Karo əsgərlərin içinə gəlib çox danışdı. Axırda dedi ki, ayıq olun, aranıza düşmən soxulmasın. Dedi ki, sparapet Njde, əsgərlərin içinə girmiş iki bolşovoyu Tatevdə qayadan atdırıb: biri erməni Vahan, o biri musurman Şahmərdan…

Suren Aşotun gətirdiyi qara xəbərdən sanki iki yara aldı. Yerləri və taleləri indiyə qədər məlum olmayan yoldaşlarının ölümünü Gerasimova da söylədi. Bir neçə lal saniyə keçdi. Gerasimovla Surenin baxışları sanki deyirdi: «Əziz və igid yoldaşlarımız, sizin intiqamınızı düşməndən yüz qat alacayıq….»

Bir neçə gün gedən şiddətli və qanlı vuruşmadan sonra Xüstub dağı bolşeviklərin əlinə keçdi. Njde geri çəkə bildiyi əsgərlərini başqa bir dağın zirvəsində, sinəsində yerləşdirdi. Bura daşnakların son dayaq məntəqəsi idi…

Gün təzə çıxmağa başlayanda döyüş təzədən qızışdı. Qızıl topçular daşnakları atəşə tutdular. Düşmənlər, üzərlərinə uçan mərmilərə atəşlə cavab verdilər. Yarım saat davam edən top atışması kəsildi.

- Hücum! İrəli!

Gerasimovun komandasını eşidən əsgərlər səngərlərdən qalxdılar, güllə ata-ata irəliləməyə başladılar. Daşnaklar aşağıdan, düzənlikdən hərəkət edən qızıl əsgərləri şiddətli atəşə tutdular. Ölümü yada salmayıb, yalnız qələbə üçün nər kimi vuruşan qızıl əsgərlər hey irəli soxulurdular. Onlar dağın dibinə kimi gəldilər. Ancaq əvvəlcə bilmədikləri uca və sıldırım bir qaya qabaqlarını kəsdi. İrəli getmək, yuxarı top, pulemyot çıxartmaq mümkün olmadı.

Vəziyyətdən çıxmaq üçün Gerasimovla Comərd tədbir düşündülər. Əsgərləri iki hissəyə böldülər. Bir hissəsini dağın dibi ilə sağ tərəfə, o biri hissəsini sol tərəfə göndərdilər.

Əsgərlər güllə atmadan, özlərini bildirmədən dağı burulub düşməni mühasirəyə almalı idilər.

Gerasimov başqa bir hərbi hiylə də işlətdi. O, bir neçə əsgərə əmr etdi ki, qayıdıb düzənliklə geriyə qaçsınlar…

Əyilə-əyilə, yatıb dura-dura qaçan əsgərləri görən daşnaklar, bolşeviklərin təbii maneəni keçə bilməyib geri çəkildiklərini zənn etdilər. Ona görə də güllələri «qorxudan qaçan» əsgərlərə tərəf yağdırmağa başladılar…

Bir neçə saatdan sonra, sol tərəfdən gedən qızıl əsgərlər dağın qurtaracağından buruldular. Özlərinə yeni mövqe tutdular və atəş açmağa başladılar. Qızıl əsgərlərin gözlənilməz yerdən gəlmələri düşmənləri təşvişə saldı.

…Qayanın dibini özünə komanda məntəqəsi eləmiş Karo başını yuxarı qaldırıb qışqırdı:

- Qalxın! İrəli hücum!

- Erməni əsgərləri səngərlərdən hücuma qalxanda, qızıl döyüşçülərin tüfəng və pulemyot atəşi onları yenidən yerə yatmağa məcbur elədi.

Samvel şücaət göstərmək və başqalarını da ruhlandırmaq üçün ayaq üstə qalxıb:

- Dalımca gəlin! – deyə səngərdən çıxdı. Lakin iki addım atmamış arxası üstə yerə gəldi.

Baqrat oğlunun yanına qaçdı.

- Oğul, yaralandın? – deyə qolunu Samvelin boynunun altından salıb başını yuxarı qaldırdı.

Samveldən cavab gəlmədi.

- Oğul! Oğul! Məni tək qoyub hara gedirsən? Samvel!

Baqrat başını oğlunun güllə deşmiş ürəyinin üstə əyib hönkürdü…

Qızıl əsgərlər irəliləyirdilər. Düşmən səngərlərinə çatmalarına az qalmışdı ki, əl bombalarını tulladılar. Toz qalxdı, ara qarışdı, çığırtı-bağırtı səsi ucaldı.

Toz-duman seyrələndə Karo Qiyasın, Sergeyin və Haykın süngüsünü sinəsinə tuşlanmış gördü. O, müqavimət göstərmədi. Tapançanı yerə atıb əllərini yavaş-yavaş yuxarı qaldırdı.

Bir qədər aralıda isə iki qızıl əsgər Baqratı tərksilah edib qabağına qatmışdı.

…Qızıl əsgərlər daşnakların pənah gətirdikləri dağın zirvəsini ələ keçirmək üçün irəli axışırdılar.

Həmin zirvədə, dərin bir səngərdə oturub döyüşə nəzər salan Njde, məğlubiyyəti görüb, son ehtiyat qüvvəsini qabağa verməyi qət etdi. O, yerindən qalxıb mauzerini çıxartdı. Özü qabağa düşərək əsgərlərinə qışqırdı:

- Qırmızılara atəş! Qorxmayın, igid oğlanlarım! Syunik höku…

Ulduz nişan təyyarələrdən tökülən bombalar «Syunik sparapeti»nin sözünü ağzında qoydu. Toz-torpaq bir neçə yerdə sütun kimi göyə ucaldı. Njde görünməz oldu…

- Qardaşlar! Biz Njdedən ötrü niyə özümüzü ölümə veririk! Silahları yerə atın, qırmızıların tərəfinə keçək! – deyə çoxdan təslim olmağa fürsət axtaran Aruşan əsgərlərə müraciət elədi. – Dalımca gəlin, qardaşlar! Bizə dava lazım deyil! – Aruşan tüfəngini yerə tulladı. Onun yanındakı əsgərlər də tüfənglərini atdılar.

Onlar əllərini yuxarı qaldırıb qızıl əsgərlərə tərəf qaçmağa üz qoydular. Daşnak zabitləri qaçanları gülləyə tutdular.

Əsgərlərin qaçıb bolşeviklərə təslim olmalarından az qala bağrı çatlayan Nersesyan birdən arxadan «Ura! Yaşasın azad Zəngəzur!» sözlərini eşitdi. Bu, dağı sağ tərəfdən burulub gələn ikinci dəstə qızıl əsgərlərin səsi idi.

Qarşıdan və arxadan hücum edən qızıl əsgərlər daşnakları mühasirəyə aldılar. Mühasirə dairəsi getdikcə daralırdı. Qızıl əsgərlər süngü döyüşünə keçəndə, bir çox daşnak əsgəri silahlarını yerə atıb vahimə içində çığırdı: «Təslim oluruq! Bizi qırmayın!»

Mühasirədən heç yolla çıxa bilməyəcəyini yəqin edən və öz əsgərlərinin dönüklüyünü görən Nersesyan bir neçə saniyə mütərəddid qaldı, nə edəcəyini bilmədi. Birdən dəli kimi qışqırdı:

- Mən bolşeviklərə diri-diri təslim olmayacağam! – Onun tapançanı gicgahına dayaması ilə tir kimi yerə yıxılması bir oldu.

Süngüləri, qılıncları günəşdə almas kimi parıldayan qızıl əsgərlər dağın zirvəsinə doğru axışdılar…

Tibb məntəqəsi döyüş meydanından aralıda, dərənin içində, böyük bir qayanın dibində yerləşmişdi. Sanitarlar yaralıları bura gətirirdilər. Arakel və başqa həkimlər onlara baxır, şəfqət bacıları isə əsgərlərin yarasını sarıyırdılar. Ayağı yer tutanlar, yüngül yaralılar özləri arxaya çəkilir, ağır yaralıları isə sanitarlar aparırdılar.

Növrəstə ilə Siranuş bu son döyüşdə silah götürüb dava eləmirdilər. Onlar sanitar idilər.

Rəfiqələr ağır yaralanmış Sergey Musatovu tibb məntəqəsinə gətirib, yenə döyüş gedən yerlərdən yaralı daşımağa qayıtdılar. Onlar dərədən çıxıb gədiyi o yana aşanda, qabaqda bir kolun yanında dayanmış beş adam gördülər. Bir qədər irəlilədikdə onları tanıdılar, addımlarını yeyinlədərək gəlib çatdılar…

Qolları bağlı Karo ilə Baqrat böyük qaratikan kolunun yanında durmuşdu. Onlardan on-on iki addım aralıqda isə Qiyas, Hayk və Suren dayanmışdı.

Baqrat qızını görən kimi bərkdən qışqırdı:

- Siranuş! Mənim itkin qızım, atanı güllələyirlər, bala!

Siranuşun rəngi ağardı, alt dodağı xəfif titrədi. Suren qəsdən arvadının gözlərinə baxdı. Siranuş bu baxışların mənasını başa düşdü.

- Mən inqilaba, sənə xain çıxa bilmərəm, Suren, - dedi.

Baqrat yalvarmağa başladı, Karo ona hirsləndi:

- Arvad kimi yalvarma, Baqrat. Bunlar bizim düşmənlərimizdir. Harda əlimizə keçsəydilər, oradaca öldürəcəydik. – O, bir an susduqdan sonra üzünü Surenə tutdu: - Amma iş elə gətirdi ki, biz sizin əlinizə keçdik… İndi öldürün bizi, qoçaqlar! Tez öldürün ki, gözüm sizi görməsin.

Suren irəli addımladı.

Baqratın ürəyini dəhşət aldı. O, dili-dodağı qurumuş halda nə isə anlaşılmaz sözlər dedi.

Karo isə qışqırdı:

- Suren Poqosyan! Bil: sizin ürəyinizə dağ çəkmişik. Vahanı, Şahmərdanı biz öldürmüşük.

İndiyədək ərinin öldü-qaldısından xəbəri olmayan, lakin onu görmək ümidilə yaşayan Növrəstə sarsıldı… Onun qulaqbatırıcı çığırtısı qayalarda əks-səda verdi:

- Şahmərdan! Bibioğlu!

Siranuş onu qucaqladı, yıxılmasın deyə yerə oturtdu.

Dalbadal bir neçə güllə açıldı.

Siranuş başını qaldıranda, Baqratla Karonu qaratikan kolunun dibində yan-yana yerə sərilmiş gördü…

Səhərin gözü təzə açılırdı. Hələ əməlli işıqlaşmamışdı. Hündür dağların, qayaların dibi, dərələr, qobular alaqaranlıqdı. Qıjıltılı Arazdan qalxan sərin meh Meqri kəndinə yayılırdı. Sahildə adam boyda qalxmış yamyaşıl qamışlar, cilotları yavaş-yavaş dalğalanırdı…

Çox keçmədi ki, çayın kənarına iki atlı, bir piyada gəldi. Onlar hündür bir qayanın yanında dayandılar.

- Siz o taya burdan keçməlisiniz! – deyə qoca bələdçi Njde ilə Manuçara müraciət elədi, sonra keçidi göstərərək əlavə etdi: - Arazın dayaz yeri, qorxusuz yeri buradır.

Njdenin gözü və fikri başqa yerdə olduğundan dillənmədi.

Manuçar köhnə kontrabatçı Setrakın sözünə inanmadı. Arazın hər yeri ona keçilməz dərya kimi görünürdü. O, bələdçidən soruşdu:

- Bəlkə burdan da dayaz yer var?

- Xeyr, xeyr. Mən özüm bax elə bu yerdən azı min dəfə keçib İrana getmişəm. Sizin keşiş Mesropu da elə bu yerdən sağ-salamat keçirmişəm. Sözümün düzlüyünə şübhə ola bilməz. Mən sparapet ağanın İrana başı salamat gedib çıxmasını istəyirəm. Gələcəyi bilmək olmaz, bəlkə iş elə gətirdi ki, o yenə, Allah qoysa, qayıdıb gəldi. Deyir, ilan hara əyri getsə, öz yuvasına düz gedər. Ona axıra kimi sədaqətli olmaq mənim borcumdur. Qərəz, yubanmayın, atı suya vurun.

Manuçar dedi:

- Cənab Njde, tərpənməyəkmi? Qırmızılar indi kəndə dolarlar, bizi elə buradaca yaxalarlar. Allah məni də, səni də öz möcüzəsi ilə onların topundan, gülləsindən qurtarıb…

Njde köksünü ötürdü, gözünü bayaqdan bəri baxdığı yerlərdən çəkmədən dedi:

- Ey bivəfa dağlar, dərələr, yal-yamaclar! Axırda mənim düşmənlərimə qismət oldunuz. İndi mən bu yurda, bu torpağa nifrət edirəm! Nifrət edirəm, çünki tökdüyüm qanlar, verdiyim qurbanlar hədər getdi.

Setrak dedi:

- Fikir eləmə, Njde ağa! Deyərlər ki, bir arxa su gəldi, güman var ki, bir də gəlsin. Başına İranda adam toplayarsan, yenə öz millətinin harayına gələrsən. Yəqin ki, keşiş Mesrop Tehranda ingilislərlə danışıb.

- Mən indi öz millətimə də, ingilislərə də nifrət edirəm. Heç biri mənim qolumdan tutmadı. Hamısı biqeyrət çıxdı. Millət də…

- Evin yıxılmasın, ora bax, gəlirlər! – deyə Manuçar dağların, təpələrin sinəsi ilə üzü aşağı, kəndə sarı gələn piyadaları, süvariləri göstərdi. Qızıl əsgərlər müqavimət görmədiklərindən atəş açmadan gəlirdilər. – Bəs niyə tərpənmirsən? Axı kəndi götürdülər…

- Daha mən burda dura bilmərəm! – deyə Setrak onlardan ayrılıb getdi.

- Mən Ermənistan torpağında olduğum bu son dəqiqələrdə də qırmızılardan intiqam alacağam! – deyə Njde tüfəngi çiynindən aşırdı. – Birini də, ikisini də öldürsəm qənimətdir.

Manuçar tez dilləndi:

- Ay canım, gəl bəri gedək! Aşığı uduzub çuruna güvənmə. Biz deyən olmadı. Güllə atma, yerimizi bildirmə. Qoy heç olmasa başımızı o taya salamat aparıb çıxardaq. Atını sür!..

Njde kəndin aşağısına doğru gələn süvarilərə bir neçə güllə atıb, atını çaya vurdu. Manuçar atını onun dalınca sürdü.

Heç birinə güllə dəyməyən süvarilər onları Arazın içində gördülər. Atlarını sahilə doğru çapa-çapa Njde ilə Manuçarı şiddətli gülləyə tutdular. Manuçar atdan aşdı. Arazın boy verməz dalğalarında görünməz oldu.

Njde o tay sahilə çıxıb, dalına baxmadan atını mahmızladı…

Qızıl süvarilər atəşi kəsdilər.

## Epiloq

Uzun və coşqun fırtınadan sonra dəniz sakitləşdiyi kimi, illərlə sürən qanlı, qurbanlı mübarizələrdən, müharibələrdən sonra Zəngəzur dinc həyata qədəm qoydu.

İnqilab günəşinin bu mahalı da sönməz nura qərq etdiyini hər yerdə bildilər. Vaxtı ilə qaçqın düşüb ora, bura dağılmış müsəlmanlar hədsiz sevinclə öz doğma kəndlərinə qayıtmağa başladılar. Hacı Atakişi, Fərman və Əhməd də qayıtdı.

Yeni, qardaşlıq, birlik dünyası milli ədavətə əbədilik son qoydu.

Qiyas kimi, Levon kimi torpaq həsrətində olan minlərlə kəndli torpağa sahib oldu.

Oxucum, «inqilab yolunda çarpışan, vuruşan qəhrəmanların indi hardadır?» - deyə soruşa bilərsən. Mən sənə hansının yerini deyim. Axı onlar çoxdur, kütlələr, xalqlardır. Lakin adlarını tez-tez eşitdiyin, mübarizə meydanında tez-tez gördüyün qəhrəmanların haqqında deyə bilərəm. Sergey Musatov sağalıb Bakıya, arvadının yanına getdi. Yusif, Hayk və Arakel Qızıl Ordunun sıralarında qaldı. Qiyas, Növrəstə, Rüstəm Şəkiyə döndü. Comərd qəza partiya komitəsində, Suren qəza icraiyyə komitəsində işə girdi. Levon öz kəndinə qayıtdı. Keçmişin min boranlı qışını görmüş bu insanlar indi əmək cəbhəsində, daha xoşbəxt və zəngin həyat uğrunda mübarizə aparırlar. Mən isə onları heç bir zaman unutmayacağam…

***1956-1957.***